Ağarəhim

# Əsərlər

## Romanlar

## VIII

Bakı - 2014

**Redaktorlar:**

**Əlizadə Əsgərli**
**Təyyar Salamoğlu (Cavadov)**

**Ağarəhim.** Əsərlər. 20 cilddə. VIII cild (romanlar). Bakı, BQU nəşriyyatı, 2014, 535 səh.

Yazıçı Ağarəhimin bu cildinə "Cinayət və etiraf" və "Təxribat" romanları daxil edilmişdir. Sözü gedən janrın gözəl nümunələri olan hər iki əsərdə cəmiyyətin mənəvi dünyasında gedən deqredasiya və insanın psixoloji sarsıntılarla dolu iztirablı yaşantıları süjetin əsas hərəkətverici qüvvəsidir. İnsanı cinayətə sürükləyən sosial səbəbləri cəmiyyətin həyatında gedən ziddiyyətli, bir çox hallarda isə qeyri-insani səbəblərdə görən nasir hadisələrin epik inkişafı boyunca bir çox mətləbləri mətnaltı yazıçı manerası ilə diqqətə yönəltmişdir. Yazıçının əsas qayəsi oxucuların, xüsusən də böyüməkdə olan yeni nəslin cəmiyyətdə gedən mürəkkəb prosesləri düzgün qavrayıb dəyərləndirməsi olmuşdur.

***Bakı 2013***



# Cinayət və etiraf

Yanvar ayının əvvəlləri. Qışın oğlan çağı. Şiddətlə əsən şimal küləyi. Bir həftə ərzində qılıncını qından çıxaran, quşbaşı yağan qarı yerindəcə donduran şaxta. Buz bağlamış küçələr. Saat 10. Soyuqdan çölə çıxmaq, həyət-bacada sürüşkənlikdən ayaq yerə qoymaq olmurdu. Belə bir məqamda bir qrup məhbusa sənədlərini verib azadlığa buraxırdılar. Həbsxana qapısının qənşərində toplaşan ailə üzvləri, qohumları, tanış-bilişləri azadlığa çıxan məhkumları qarşılayır, üz-gözlərindən öpür, sevincdən gözləri yaşara-yaşara onları maşınlara mindirib aparırdılar. Narkotik maddə alveri üstündə şərlənib nə az, nə çox, düz səkkiz il azadlıqdan məhrum ediləndən, məhbus həyatını başa vuraraq otuz beş yaşına yenicə çatandan sonra qarşılayacaq adamı olmadığından o, ağır-ağır, böyük tərəddüd keçirə-keçirə türmə qapısından çıxıb adamların arasına düşdü. Kimsə ona diqqət yetirmirdi. Sanki bu adam türmədə olmamış, o ağır, məşəqqətli, məhrumiyyətlərlə dolu olan həyatı yaşamamışdı. O, dünyanın hər üzünü görmüşdü. İnsanların üzgörənliyinə, riyakarlığına bələd idi. Umu-küsü eləməyə də yeri yoxuydu. Təsadüfən ona tərəf baxan olanda da halına heç bir təfavüt eləmirdi. Bilirdi ki, uzaqbaşı ona da türmədən çıxan "qatı cinayətkar" kimi baxırlar. Onu indiki halda başqalarından fərqləndirən cəhət qarşılamağa gələn adamlarının olmamasıydı. Bütün fikri, zikri özündə olan bu adama çox güman ki, qarşılanmasını, onu da maşına oturdub türmə qapısından, adamların gözlərindən uzaqlaşdırılmasını istərdi. Bir anlığa onu ağır kədər bürüdü. Kimsəsizliyini

düşünüb qəhərləndi. Öz-özünə — “Kimsəsizlik, tənhalıq nə pis şeymiş”, — dedi. Qəribəydi, o, kimsədən heç bir yaxşılıq, qayğı görəcəyini ağlına da gətirmirdi. Bir də ki, axı nə görəcəydi? Gəlməyə, onu qarşılamağa elə bir adamı da yoxıydı. İnsafən, onu da istəmirdi ki, kimsə ona yaxınlaşsın, — Sənin adamların gecikib? — deyə soruşsun. Əslində, əvvəl-əvvəl onunla maraqlanan da olmadı.

O, ucaboy, enlikürək bir adam idi. İri qara gözləri, uzun kiprikləri, qalın qaşları, şiş burnu, cazibədar səsi vardı. Sərt sifətinin sümükləri çıxmışdı. Başı təmiz qırxıldığından alnı geniş, qulaqları da bir qədər uzun görünürdü. Köhnə şapkasının arxasını çirk basmış, pencəyinin boynu, yaxalığı qırışmışdı. Qara yağ ləkələri düşmüş, cızıq-cızıq, cındır şalvarına vurduğu kəmərlə belini bərk sıxdığından qarnı da hiss olunmurdu. Ayağındakı qara çəkməsinin üstü cadar-cadar olmuşdu. Uzun qolları vardı; soyuqdan, şaxtadan cadarlanan əllərinin üstü, ağır zəhmətdən qabar bağlamış əllərinin içi, uzun, şiş, dəmir kimi möhkəm barmaqları adamı heyrətləndirirdi... Fiziki görkəmi onun möhkəm güc sahibi olduğuna açıq-açığına dəlalət eləsə də üzündə küskünlük duyulmaqdaydı. Türmə həyatı onu nə qədər sıxsa da artıq bu mühitə alışmışdı: onun sərt qanunlarına, qadağalarına uyğunlaşmışdı; acıqlı və gərgin vəziyyətini adamlardan gizlətməyi bacarırdı; qorxu-hürkü bilmirdi; ağzından bir kəlmə də artıq söz çıxarmırdı; özünü dolaşıq, müəmmalı hadisələrdən kənarda saxlamağı bacarırdı; yalandan, hiylədən, məkrdən uzaq idi; ona toxunmayana dəymirdi; elə vəziyyət almışdı ki, o, ölümüylə yaşamı arasında ciddi fərq görmürdü... Bu adamın insanlara inamı nə qədər zəifləsə də, daim şübhələr içərisində yaşasa da, o, insani hisslərdən də xali deyildi: xəstə, imkansız adamlara yazığı gəlirdi; gözəlliyi qiymətləndirirdi; əməyi, zəhməti sevirdi; düz söz, düz ilqar, dostluq, nəfsi bütövlük həyat amalıydı; məddahlığı sevmirdi; adamlara güzəştə getməyi bacarırdı; şərə, böhtana, iftiraya nifrət eləyirdi...





Altı yaşından ataya həsrət qalan bu adamın türmədə olduğu müddətdə xəstə anası Zümrüd dərd-sərə tab gətirməyib dünyasını dəyişmişdi. Bacısı Gilanın yazdığı məktubdan aydın olurdu ki, ikicanlı arvadı Aytac anasıgilə köçmüş, oğlu olandan sonra da başqa ərə getmişdi. Bacısı Gilan da rəfiqələrinin evində yaşamalı olmuşdu...

Səkkiz illik türmə həyatı ona çox şey öyrətmişdi. Özü tətbiq eləməsə də bicliyin, hiyləgərliyin, saxtakarlığın... sirlərinə mükəmməl bələd olduğundan, aldığı məktublara da o qədər inanmırdı. Hər şeyi sonalayır, “nə üçün”, “niyə”, “nədən ötrü”, “hansı səbəbdən” suallarına məntiqlə cavablar axtarırdı, insafən, əksər hallarda tapırdı da. Azadlıqdan türməyə bəzən qarmaqarışıq, ürəkbulandıran söz-söhbətlər də gəlib çatırdı. Bunları eşitdikcə o, gah təəssüflənir, gah əsəbiləşir, gah da insanlara dərin nifrət hissi yaranırdı. Cavanlıqdan — hələ ağlının kifayət qədər formalaşmadığı vaxtdan türməyə düşsə də, ətrafındakılarla ünsiyyətə girmə, əlaqələr yaratma bacarığı, hər sözə həssas münasibəti, böyük-kiçik yolu saxlama mədəniyyəti, hər şeydən əvvəl düzlüyü, qırdı-qaçdı olmaması ona hörmət qazandırmışdı. Ən çətin şey türmədə inam qazanmaq və onu axıradək qoruyub saxlamaqdı. Əlləm-qəlləm, fırıldaqçı adam olmadığına görə səkkiz illik türmədə kimsə ona: — “Ayağını geri çək”, — deməmişdi. Bütün bunlar ona: — “Türmə həyatını pis keçirməmişəm, həyatım üçün elə bir təhlükə hiss eləməmişəm”, — deməyə tam əsas verirdi. Son zamanlar İqrar bir məsələni tez-tez xatırlayırdı. Bığ yeri yenicə tərləyən Qəşəm adlı oğlan türməyə düşmüşdü. Gələndən də ağlayıb-sıtqayır, qaçıb evə necə gedəbiləcəyi barədə hey düşünürdü. Çətinliklərə dözmürdü. Hətta, bəzi hallarda intihar vəziyyəti də alırdı. İqrar xeyli müddət onu nəzarətində saxlamışdı. Adi gecələrin birində İqrar yuxudan ayılıb görür ki, Qəşəm çarpayısında yoxdu... O, tələm-tələsik

paltarlarını geyinib həyətə çıxır. Bir də görür ki, Qəşəm barakın qarşısındakı şaxələnmiş tut ağacının budağından özünü asır... İqrar qaçıb oğlanı tutur, onu intihardan xilas eləyir... Sonralar o, Qəşəmi uzun müddətdə gözündən uzağa qoymur, onu türmə həyatına alışanadək nəzarətində saxlayırdı.

Əlbəttə, türmə həyatında gözlənilməz, ağlagəlməz, müəmmalı hadisələr çox olur. Bəzən adamları türmədə sifarişlə öldürtdürürlər... Hamam günüydü. Məhbusları dəstə-dəstə hamama gətirirdilər. İqrar da baş-gözünü sabunlayıb duşun altına girdi. Sabunu yuyub gözlərini açmışdı ki, ağ duman kimi buxarın içərisində güclə seziləcək şəkildə gördü ki, Qafar yerdən qırmızı kərpic parçasını götürdü (Doğrusu, İqrar kərpic parçasının hamama kim tərəfindən, hardan gətirildiyini indi də xatırlaya bilmirdi) və arxadan Səmidə yaxınlaşdı, qəflətən kərpic parçasını var gücüylə onun gicgahına vurdu. Səmid səndələyirdi ki, o, ikinci zərbəni də endirdi. Bunu görənlər heç nəyin fərqinə varmadan hadisədən xəbərsiz kimi hamamın bir tərəfindən o biri tərəfinə axışdılar. Ölən də hamıya məlumuydu, öldürən də. Maraqlıydı ki, hamamdan çıxanda hamı eyni fikir söylədi: "Səmidin ayağı sürüşüb yıxıldı. Başı beton dirəyə dəydi..." İqrar yaxşı bilirdi ki, türmə həyatının bundan da qəliz, qərəzli müəmmaları var və o müəmmalardan kimsə sığortalana bilməz. Bütün bunlara rəğmən bəzən İqrar içinə qapanaraq düşünürdü: "Neçə milyon illərdir insanlar mütləq ədalət, həqiqət axtarışındadırlar. Onu tapmağa cəhd göstərirlər. Hələ ki, kimsə onu tapammayıb. Hamı da axtara-axtara əliboş gedib bu fani dünyadan. Mən də bu az yaşımda o "azad" adlandırılan həyatda haqq-ədalət sözlərini çox eşitsəm də görmədim. Bütün ailəm dağılıb. Yəqin ki, indi o atamdan qalma koma da uçulub tökülüb. Orda onsuz da gözləyənim yoxdu. Kimsə məni qarşılamayacaq. Öz yanından mənə iş təklif eləyən də olmaycaq. Bəlkə də heç adicə: — "Xoş gəlmisən", — deyən də tapılmayacaq. Ümid yerim, gözü yolda qalanım əmimin yeganə qızı Mirvari, bir də oğlum Əfsundu. Zərnigar xaladan da xəbərsizəm. Balaca Əfsunum görəm, məni nə vaxtsa başa düşərmi? Bilmirəm. Türmə həyatı ilə xudahafizləşmişəm, evə gedirəm. Ordakı vəziyyətim necə olacaq, deyəmmərəm. Gəncəyə salamat gedib çıxsam, qarşımda iki yol açılacaq: ya azadlıq, ya da yenə türmə. Yolumu özüm seçməliyəm. Azadlıq yolu aydındı. Taybatay qapılar açılır üzümə, iş tapıram, başımı aşağı salıb işləyirəm, kimsəylə işim olmur. Öl desələr, ölməliyəm, qal desələr, qalmalıyam. Vəziyyətlə barışmalıyam. Beləcə oluram sərbəst. Bəs türmə? İşdir, ikinci dəfə bura qayıtmalı olsam?.. Bu dəfə özüm bilərəkdən cinayət törədirəm, düşmənlərimdən qisasımı alıram, başqa sözlə, onlara yerlərini göstərirəm, cinayətkar titulunu öz istəyimlə üzərimə götürürəm. Aha... İkincinin həyəcanı, qorxusu, təlaşı, vahiməsi... Adam öldürmək, insan qətlə yetirmək... Bəs, insanları fəlakətlərə düçar eləyən Müzəffər necə olsun? Evlər yıxan, günahsız insanları qətlə yetirən Müzəffəri öldürmək cinayətdimi? Allah verən canı bir göz qırpımındaca almaq?! Nə böyük dəhşət! Nə böyük fəlakət! Bu, insanlara nifrətdən doğmurmu?! Allahın bəşər övladına bəxş elədiyi şirin həyata tüpürmək deyilmi?! İlahi, yaratdığın bəşər övladı günahsız adamların qətlinə yol verirsə, ona insan demək olarmı? Onun yaşamağa haqqı varmı?! Kim nə deyir, desin, kim nə düşünür, düşünsün... İkinci yolda Allah yoxdur, şeytan var. Onun fitvasına gedənlər var. Orda bərqərar şeytanın hökmüdü. Şərləyib özümü, ailəmi bədbəxtliyə düçar eləməsəydilər, cinayət törətmək, adam öldürmək mənim işim deyildi. Həyatı müşahidələrim məndə belə təəssürat yaratdı: "Azadlıqdan məhbəs yaxşıdı..." İndi isə anlayıram ki, içimdə ciddi təbəddülat, böyük ziddiyyət var. Biri deyir, nə olub, olub. Baş verənlərlə barışmalı, oğlunla əl-ələ verib sakit həyatını yaşamalı, düşmənləri unutmalı, qisas, intiqam hissini birdəfəlik içindəcə məhv etməlisən. İkincisi isə hökm eləyir: azadlığa çıxıb səni

narkotik maddələr satmaqda şərləyən, ailəni dağıdan, bir-birinin ardınca ailənizdə faciələr törədən qatillərdən qisasını almalı, sonra da bura — "mənzilinə" qayıdıb rahatlanmalısan! Belə olarsa, cinayətkarlardan həm intiqamımı almış olarsan, həm də onların gələcəkdə törədəcəkləri cinayətlərin qarşısını alarsan. Oturub düşünürəm ki, bu ziddiyyətli ideya mənim başıma hardan köçdü? Burda İlahinin hikməti yoxdu ki? Bəlkə, o nadanların, alçaqların, qatı cinayətkarların aradan götürülməsi missiyasını Tanrım özü mənim üzərimə qoyub? Mən can-başla, öz arzumla bu addımı ataram...

Bəli! Otuz dörd yaşı yenicə tamam olan məhkum ikinciyə üstünlük verməklə nadan, azğın düşmənlərinin cinayət qapılarını bağlamaq yolunu seçdi. Bəli, intiqam, qisas isbata ehtiyacı olmayan cinayətdi. Bu, aksiomadı. Cinayət törədənlərin qapılarını bağlayıb özündə qanun keşikçilərinin əlinə keçməkdən xilas etmək bacarığı hələ ki ehtimaldı. İqrar gələcəkdə intiqamını almaq naminə türmədə hazırlanan uzun tiyəli, düyməylə açılıb bağlanan bir bıçaq da götürmüşdü...

O, yolun kənarında dayanan avtobusa tərəf bir neçə addım atmışdı ki, iki nəfərin ona tərəf baxıb pıçıltıyla danışdıqlarını sezdi. İqrar özünü görməməzliyə vurub ani olaraq ayaq saxladı. Əyilib çəkməsinin ipini bərkidirmiş kimi açdı və yenidən bağlaya-bağlaya o adamları diqqətində saxladı. Sonra yoluna davam elədi. Elə bu an ucaboy, qarayanız, lopabığ cavan oğlan ona yaxınlaşdı:

— Bağışlayın, siz gəncəli İqrar deyilsiz?

— Tutaq ki, elədi.

Elə bu dəm gödək, qırmızısifət, dazbaş kişi də özünü yetirdi. O, əlavə elədi:

— Biz qohumumuzu qarşılamağa gəlmişdik. Soruşduq, dedilər, o, ləngiyir.

— Qohumunuz kimdi?





Bu adamlar bir-birilərinin üzünə baxdılar. Sonra ucaboy oğlan dedi:

— Nicat Kərimov.

— Burda elə adam yoxdu.

— Ola bilməz.

— Ünvanı səhv salmısız.

— Bu necə ola bilər?

— Elə adam tanımıram.

— Biz də Gəncəyə gedirik. Gəlin, sizi də aparaq. Nə verərsiz, verərsiz, biz insaflı adamlarıq, onsuz da bu yolu qayıdıb gedirik...

İqrar oğlanları diqqətlə başdan ayağa süzdü. Sonra sərt halda bildirdi:

— Özüm də gedə bilərəm. Sizə yaxşı yol.

Qırmızısifət adam:

— Biz hörmət eləmək istədik.

— Qurtardıq.

İqrar bu sözü demişdi ki, arxadan kimsə ehmalca onun çiyninə vurub qoluna girdi və gülümsünərək dedi:

— Getmə, qardaşım, qayıt, arxamca maşın gəlib, sən də bizimlə gedərsən.

İqrar geri dönəndə arxasındakının Nahid olduğunu gördü. O da İqrar kimi şərlənib həbs olunmuşdu. Əsəbləri gərilən İqrar özünü gülümsəməyə məcbur elədi:

— Gedin, Nahid, adam çoxdu, mən avtobusla gələrəm.

Nahid onu çəkə-çəkə maşına tərəf apardı. Dərhal da iyirmi yaşı olar-olmaz kiçik qardaşına dedi:

— Qeysər, sən düş, avtobusla gəl.

İqrar sürücünün yanında, Nahidlə arvadı arxa oturacaqda əyləşdilər. Onlar deyib-gülür, sevinclərini bölüşür, böyük Yaradana şükürlər diləyirdilər. Allaha yalvarırdılar ki, bundan sonra böhtanı, şəri, iftiranı onlardan uzaq eləsin. İqrar deyilənləri eşi-

dirdi, hamısını da başıyla təsdiqləyirdi. Ancaq hərdən bu zavallının içində nəhayətsiz bir dərya peyda olurdu. O, gah sakitləşir, gah da təlatümə gəlirdi. Qəribəydi, sakitləşəndə hər şey öz rəngində görünür, təlatümə gələndə hər şey itir, baş-ayaq olur, çalarlarını tez-tez dəyişirdi. Bəzən İqrar öz halına özü də məəttəl qalırdı. O, bir anlığa canı qədər sevdiyi Gəncəni xatırladı. Əvvəl-əvvəl canında yüngüllük duydu. Dərhal da gözləri önünə gətirdi ki, orda — o əziz şəhərdə qalmağa nə yeri var, nə də onu qarşılayacaq kimsəsi. Beləcə, canındakı ötərgi yüngüllüyün yerini ağır, sarsıntılı, niskilli hisslər tutdu. Düşündü: — "Belə dayaqsız, yuvasız, imkansız vəziyyətdə məni nələr gözləyir?". Maşın yolun damarını qırdıqca müəmmalı fikirlər, acı, zəhlətökən xatirələr onu çəkib lap uzaqlara aparırdı...

Maşın doqquzmərtəbəli binanın qarşısında dayananda Nahid dərhal dedi:

— Çatdıq. Düş, İqrar. Bir-iki gün burda qal, dincəl, sonra səni Gəncəyə yola salaram, gedərsən.

Dərindən köksünü ötürən İqrar zəhərdən də acı bir təəssüratla, yalan deməli oldu:

— Yox, qalammaram, Nahid. Məni də evdə gözləyirlər.

Nahidin xanımı Əsmər dərhal bildirdi:

— Xahiş eləyirik, küçələr buzdu, uzaq yoldu, maşınlar yaxşı işləmir, bir az siz də dincəlin.

İqrar Əsmərin sözünü çevirmədi. Onlar binanın üçüncü mərtəbəsində yerləşən üçotaqlı mənzilə qalxdılar. Onları Nahidin anası, iki qızı, əmisi, xalası uşaqları qarşıladı. Sevincdən ağlayanlar da oldu. Səliqə-səhmanlı otaqda əyləşdilər. Nahidin azadlığa çıxmasını eşidib-bilən qohumlar, qonşular görüşə gəldikcə İqrar Gəncədəki vəziyyətini düşünərək sıxılır, özlüyündə Nahidə yaxşı mənada qibtə eləyirdi.

Günorta naharına əyləşdilər. Səkkiz ildə az-az belə tamlı yemək dadan azadlığa buraxılanlar iştəha ilə yeyib içirdilər. İlk





sağlığı onların şərəfinə Nahidin qonşusu Ətraf qaldırdı:

— Əziz dostlar, bu gün əziz günümüzdü. Azadlığa buraxılan iki azərbaycanlı qardaşımız yanımızdadı. Balalarının, ailələrinin yanına gəliblər. Xanımların, uşaqların göz yaşlarına, intizarlarına son qoyuldu. Uşaqlar bu gündən atasızlıq hiss etməyəcəklər. Bugünkü sevinci öncə ailələriniz biləcək, sonra qohum- əqrəbalarınız, dostlarınız dadacaqlar. Mən təklif eləyirəm, badələri qaldıraq Nahidlə İqrar qardaşımızın şərəfinə. Arzu eləyirəm ki, onların dostluğu daimi olsun. Dost dar gündə tanınar...

Növbəti sağlığı Mahmud dedi:

— Türmə insanlar üçündü. Ora düşmək heç də cəmiyyətdən birdəfəlik kənarlaşdırılmaq kimi başa düşülməməlidi. Türmə olmasa, cəmiyyət sökülüb dağılar. Adamlar bir-birilərini yeyərlər. Ora cəza düşərgəsidi. Tanış-bilişdən, dostlardan, ailədən-uşaqdan uzaq qalmaqdı. İnsan doğmalarından uzaqda qalanda kimsəsizləşir, tənhalaşır. Oturub tutduğu əməl barəsində düşünməli, nəticə çıxarmalı olur. Dostunu, düşmənini tanıyır. Necə deyərlər, başı daşdan daşa dəyir. Nahid də, İqrar da ağıllı adamlardı. Arzu eləyək, Allah onlara bir də belə günü göstərməsin. Arzum odur ki, Allah onları daim ev-eşiklərində eləsin. Üzləri gülsün, qəlbləri sevinsin. Sizin şərəfinizə.

Qədəhlər yenidən vuruldu. Beləliklə, məclis axşama qədər davam elədi. Qaş qaralanda İqrar yenidən Gəncəyə getmək istədiyini bildirdi. Əsmər ərini qabaqladı:

— Mane olma, Nahid. Onun da doğmalarının gözləri yoldadı, darıxıblar. Qoy, getsin, əzizim. Yəqin ki, türmə həyatını bir də unutmayacaq.

Nahid dərhal:

— Həm də məhbus dostlarını.

İqrar qonaqpərvərliyə görə təşəkkürünü bildirdi. Əsmər qardaşına pul verib Gəncə qatarına bilet aldırdı. Həmin axşam Nahid və ailəsi İqrarı Gəncəyə yola saldı...

* *
*

Ağır psixoloji vəziyyətə düşən İqrar Nahiddən, onun ailə üzvlərindən ayrılıb qatara mindi. Kupedə yerini rahatlayıb dərindən nəfəs aldı. Ümidsiz, inamsız halda: — Hara, kimlərin yanına gedirəm, — deyə düşündü. Suala cavab tapmadığından gözlərini yumub başını arxaya söykədi. Heç vaxt üzünü görmədiyi, səsini eşitmədiyi, nəfəsini duymadığı oğlunu xatırladı. Pencəyinin cibindən bir zaman Gilandan məktubla aldığı balaca oğlunun şəklini çıxartdı. Həsrətlə uşağın üz-gözünə baxdı. Ürəyi sanki mum kimi əridi. Öz-özünə dedi: — "Yeddi yaşı tamam olub. Ucaboy, gülərüz oğlumun üz-gözündə mənim də cizgilərim var. Görən, Atan mənəm, — desəm, o, nə edəcək? Üstümə qaçacaqmı?! Məni qucaqlayıb öpəcəkmi?! Ata! Ata! — deyib sevinəcəkmi? Yoxsa, üzünü çevirib gedəcək. Bəlkə, anasına oxşayıb. Anası pis qadın deyildi. Hər yadıma düşəndə qarasına deyinirəm... Yox... O, məni gözləməliydi... Nə isə... Oğlum: — Sən yalan danışırsan, atam olsaydın, yanımda olardın, — desə, onda necə? Aman Allah, mən oğlumla görüşə hazırammı? Aytacın hərəkətləri — gözləməyib başqasıyla ailə qurması məni əsəbiləşdirməyəcəkmi? Onunla qarşılaşsam, özümü ələ ala biləcəyəmmi? Bacım Gilan necə? Of!.. Barəsində o qədər eşitmişəm ki bacım, olmasına o ki, var təəssüflənmişəm. Müzəffər, mənə çalın-çarpaz dağlar çəkmisən. Məni için-için yandırmısan, zülmə, məşəqqətlərə salmısan. Neyləmişdik sənə, ay alçaq, ay namərd?! Səndən qisasımı almasam, insan kimi ölməyə də haqqım yoxdu. Sən adam deyilsən. Səndə insani duyğular yoxdu. Allahsızsan! Sənin qanını içəcəm. Ölümünü boynuma qoya bilsələr, qətlində izim tapılsa, onda girərəm türməyə. Düşünərəm ki, anam məni də bura üçün doğubmuş... Allah məni də türmə üçün yaradıbmış... Hərənin öz qisməti var. Mənim də taleyim belə





yazılıbmış... Doğru deyirlər ki, yazılana pozu yoxdu..."

İqrar düşüncələr burulğanında boğulurdu ki, iki nəfər boylu-buxunlu, cantaraq oğlan kupeyə daxil oldu. Çox içdiklərindən spirtin üfunətli qoxusu kupeni bürüdü. İqrar istədi qalxıb kupeni tərk eləsin. Bu anda ağsaçlı, ucaboy, yaşlı kişi də kupeyə girdi. Salam verib əyləşdi. Oğlanlar kupedə ağızlarına gələni danışır, ədəb-ərkana uyuşmayan sözlər işlədirdilər. Səsləri qonşu kupelərdə də eşidilirdi. Vaqon nəzarətçisi, orta yaşlı qadın da onlara iradlarını bildirmişdi. Ancaq nə fayda?.. Yaşlı kişi üzünü İqrara tutub astadan dedi:

— İlişmişik... Gərək, çalışaq dözək.

Oğlanlardan biri gözlənilmədən dedi:

— Mənim adım Elşad, dostumun adı isə Gülşaddı.

O, sonra da qayıdıb yanındakı oğlana göz vurdu. Bu onu göstərirdi ki, oğlanlar ağsaqqalı ələ salmaq istəyirlər. Onların adları Elşad, Gülşad da deyil. Kişi heç bir şey başa düşməmiş kimi astadan bildirdi:

— Oğlum, mənim də adım Mətindi. Oğlanlar gülüşdülər. Bu dəfə Gülşad dilləndi:

— Mətin... Ha... Ha... Ha... Ada bax ey. Əşi, Mətin olub neyləmisən ki? Olmayıb neyləyəssən?

Elşad üzünü İqrara tutaraq:

— Əmioğlu, dağ dağa rast gəlmir, insan insanla qarşılaşır. Bəs sənin adın nədi?

— Anket doldurursan?

Gülşad cavab verdi:

— Xətrinə dəydi?

İqrar əsəbiləşdi:

— Lələ, mən bu gün türmədən çıxmışam. Nə az, nə çox, düz səkkiz il yatmışam.

Elşad:

— Bizə nə?

İqrar:

— Mən evimə getmək istəyirəm, bir də türməyə yox. Ağzınızı açsanız, sizi qəbrə yola salacam, özüm də türməyə gedəcəm.

Elşadla Gülşad bir-birilərinin üzlərinə baxdılar. Mətin kişi əlini İqrarın dizinin üstə qoydu:

— Səbr elə, oğlum. Hər nadana cavab verməli olsaq, gərək yaşamayaq.

— Mətin dayı, mən sözümü dedim. Hünərləri var, kiçicik hərəkət etsinlər.

Bu sözdən sonra oğlanlar dinib-danışmadan qalxıb kupeni tərk elədilər... İqrarla Mətin yataqlarını açıb uzandılar. Neçə ildə tak-tuka alışmayan İqrar mənzil başına qədər yata bilmədi.

* *
*

Uzun illər doğma şəhərinin həsrətini, intizarını çəkən İqrara dəmir yolu vağzalı, küçələr, evlər, ictimai binalar yad bir məkanı xatırladırdı. O, əvvəl-əvvəl heç nə anlamadı. Oğlunu görməyə tələsirdi. Əvvəlcə heç bir şeyin fərqinə varmadan qayınanasıgilə gəldi. Onu elə qayınanası Nurlan qarşıladı. Qadının yaşı altmışı keçmişdi. Saçları vaxtından əvvəl ağarmışdı. Arıq, çəlimsiz bu qadının üzündə çəkdiyi əzab-əziyyətin cizgiləri aydın görünürdü. Köhnə, rəngi solmuş xalat geymişdi. Qabaqdan üç dişi düşmüşdü. Danışanda hərdənbir ağzından tüpürcək sıçrayırdı. İqrar onu görən kimi tanıdı və daxilən əsəbiləşsə də üzündə məcburiyyətdən doğan təbəssüm yaratmağa çalışdı. Arvad İqrarı görcək əvvəl qorxdu. İstədi onu otağa buraxmasın. Ancaq üzündəki təbəssümü görüb bir qədər cəsarətləndi. Bunu duyan İqrar hər şeydən xəbərsiz kimi soruşdu:

— Məni tanımadın, Nurlan xala, İqraram da.





— Tanıdım, niyə tanımıram?

— Olarmı, içəri keçim?

Nurlan çaşdı, nə “hə”, nə də, “yox” deyə bildi. Bundan istifadə edən İqrar içəri keçib soruşdu:

— Evdə təksən? Bəs qalanlar hardadı?

— İşdədilər oğlum, sən keç, otur, mən mətbəxdə çay dəmləyim.

İqrar Nurlan deyən otağa keçdi. Elə bu vaxt bir oğlan da otağa gəldi. Oğlanın yaşına nəzərən hündür boyu vardı. Saçları qısa vurulmuşdu. Ağ girdə sifətinə balaca burnu, ağzı mütənasib idi. Qara gözləri vardı. Oğlanın gözlərinə baxan kimi İqrarın bütün bədəni titrədi. Çaşdı. Nə deyəcəyini bilmədi. O, handan-hana özünə gəlib oğlandan soruşdu:

— Adın nədi?

— Əfsun.

— Kimin oğlusan?

— Anamın.

— Neçə yaşın var?

— Yeddi.

— Oxuyursan?

— Hə... İkinci sinifdə.

— Necə oxuyursan?

— Əlaçıyam.

İqrar içində hiss etdirmədən bir qürur duydu. Sonra yenə soruşdu:

— Atan hardadı?

— Türmədə.

— Kim deyir?

— Nənəm. Qonşular.

— Bəlkə düz demirlər?

— Məni aldadırlar ki?

— Anan hardadı?

— Evlərində.
— Sən onunla yaşamırsan?
— Yox! O, təzə əriylə yaşayır. Məni nənəmə verib.
— Atan türmədən gəlsə, onunla yaşayarsan?
— Axı, o, narkomandı.
— Bunu kim deyir?
— Qonşu uşaqlar. Mən gəlib uşaqların sözünü anama dedim, anam da ağladı, sonra da gedib onların ata-analarıyla dava elədi.

İqrarı dəhşət bürüdü. Ev-eşik bir anlığa sanki başına dolandı. Tez də özünə toxtaqlıq verdi. İstədi desin:

— Oğlum, yalan deyirlər, sənin atan mənəm.

Bu dəm Nurlan bir stəkan çayla içəri girdi. Əfsunun dediklərini eşidən nənəni qorxu hissi bürüdü. İçində — O Aytacı məndən soruşsa, necə cavab verim — deyə düşündü. Çətinliklə özünə gəlib dərhal da uşağa təpindi.

— Keç o biri otağa, dərslərini oxu.

İqrar əsəbi halda etiraz elədi:

— Uşaqla söhbətə imkan ver.

Nurlan keçmiş kürəkəninin əsəbiliyini hiss elədi. Ancaq özünü o yerə qoymadı. Əfsun ayaqlarını sürüyə-sürüyə yan otağa keçdi.

İqrar soruşdu:

— Aytac hardadı?

— Nə bilim, a bala. O, da gedib. Sizin evi Allah dağıtdı. Bəndənin bu işdə günahı yoxdu. Hamının başı çörüldü, yəqin belə qismətmiş... O vaxt kitab da açdırdım. Dedi: — “Əlləşib-vuruşmağın xeyri yoxdu. Ayrılacaqlar”.

— Aytac özü getdi?

Arvadı həyəcan bürüdü. Qeyri-iradi halda cavab verdi:

— Özü razı olmasaydı, onu kim ərə verə bilərdi ki? Hansı zamanda yaşayırıq? Allaha şükür, gəlmisən. Ağlını başına yığ, sən də birini al, ev-eşik sahibi ol, vaxt keçir.





— De görüm, bu uşaq kimindi?
— Sənin.
— Mən getdim.

Ruhuna çökən əzablardan, iztirablardan İqrar az qala bomba kimi partlayacaqdı. O, evdən necə çıxdığını bilmədi.

* *
*

Qarşılaşdığı hadisələrdən az qala özünü itirən, bütün vücudu sarsılan İqrar evinin uçulub-söküldüyünü, bağ-bağçanın viranəyə döndüyünü görəndə nəfəsi təngişdi. — Bura əsl xarabalıqdı, — deyə düşündü. Kimə ağız açıb deyəsən ki, bu xaraba mənim evimdi, kömək əlinizi uzadın, onu qaydaya salım. İqrar, insafən, o sözü də özünə təhqir sandığı üçün heç kimə deyəmməzdi. İmkansızlıq adamı mütiləşdirir, acizləşdirir, əskilməyə, alçalmağa məcbur eləyir. Bu deyilənlər isə İqrardan çox-çox uzaq idi. O, maddi cəhətdən kasıb olsa da, mənən zəngin idi. Qürurluydu, vüqarlıydı, əzəmətliydi... Ata-baba yurdunun bu hala düşməsi İqrarın içindən sanki qara bir daş kimi asıldı. O, ağlamağı qəbahət sansa da qəhərləndi...

İqrarı görən qonşular həyətə axışmağa başladılar. Görüşdülər, hal-əhval tutdular, gözaydınlığı verdilər, Allaha şükürlər oxudular. İnsafən, hamı İqrarı evinə dəvət elədi... Qapıbir qonşusu Tuğay kişi ağlamsınaraq dedi:

— Oğlum, rəhmətlik atanla yaxınıydıq. Anan Zümrüd bacı dünyasını dəyişəndən bu həyətə ayaq basmamışam. Sinəmə elə bil dağ çəkilmişdi. Şükür Allaha, gəlib çıxmısan. Evinə, həyətinə sahib çıx, oğlum. Çox şeyə fikir vermə. Cavan oğlansan, nə yaşın var? İşlə, ev-eşik qur, sən də hamı kimi yaşa. Düşünən baş, işləyən əl, tər tökən bədən sahibi naümid qalmaz. Allah deyir: — “Səndən hərəkət, məndən bərəkət”. Dünyanın vallah işi

möcüzədi. Keçən axşam mərhum atanı, ananı yuxuda görmüşdüm. Anlayammadım niyə? Üzləri gülürdü. Çox işıqlıydılar. Mənə nəsə demək istədilər. Ancaq deyəmmədilər. Tez ayıldım. Görünür, buymuş. Gəlişinlə ruhlarını sevindirmisən, oğlum. Övlad belədi, hara getsə, nəylə məşğul olsa, valideyn narahatdı. Allah onlara qəni-qəni rəhmət eləsin. Kasıbıydılar, çox şeyə imkanları çatmırdı, ancaq mehribanıydılar, səmimiydilər. Can deyib, can eşidirdilər. Neçə illər qonşu olduq. Bircə dəfə sözümüz çəp gəlmədi, umu-küsümüz olmadı... Nəysə... Yadıma düşəndə yanıb-yaxılıram, oğlum. İndi burda durmayaq. Gedək bizə. Səni görmək istəyənlər də buyurub gələrlər bizə. Təsəvvür elə, ora da sənin evindi.

— Axı...

— Nə axı, a bala? Atanın, ananın ruhu qarşısında bizi xəcalətli qoyma.

Tuğay kişi İqrarı evinə apardı. Onu balası kimi qarşılayan Tuğayın arvadı Gülər qarı süfrə açdı, yeyib-içdilər. Səkkiz ildə olub keçənlərdən danışdılar. Təsadüfdənmi, zərurətdənmi axırda söhbət İqrarın həbsi üzərinə gəldi. Tüğay kişi dedi:

— Olmayaydı, oldu... Olana keçmiş deyərlər. Gərək bundan sonra özünü qoruyasan, oğlum. Hər sözə aldanmayasan. O qədər mərdimazar, anasının əmcəyini kəsən ziyanxorlar var ki... İki gündən bir İlqar da evə əsəbi gəlir. Filankəs elə elədi, filankəs belə elədi... Neyləyəsən?

Tuğay kişi əlini dümağ saçlarına çəkdi. Sonra gülümsünüb sözünə davam elədi:

— Xiyar əyri bitəndə həmişə belə olur. Heç kim heç kimi tanımır. Hamı fikirləşib özünü haqlı çıxarmağa çalışır. Dərdini deməyə də adam tapammırsan. Tapdığın da ikiüzlü çıxır. Sənin yanında səni, onun yanında onu haqlı çıxarır... Elə bilirsən, inanılası, etibar olunası yer qalıb?

— Tuğay dayı, səkkiz il yatıb gəlmişəm... Nə az, nə çox...





Həyatım zəhərlənib. Oxuduqlarım da hədər getdi.

— Yox, mən elə deməzdim... Düzdü, səkkiz il əziyyət çəkmisən. Evdən, ailədən əlin qırıldı. Eləmək istədiklərini eləyəmmədin. Azadlıqda olsaydın, ailənin başına o işlər gəlməzdi. Bu sözlərinə şərikəm. Qaldı oxumağına. İndi hərənin cibində bir neçə diplom var. Odu ha... Bizim qonşu professor Nəqdəli. Universitetdə işləyirdi. Atıblar qırağa. İndi işləmir. Hər səhər özünü günə verir. Yaxud, tikintidə işləyən fəhlələri götürək. Hamısı diplomludu. Biri daş, o biri taxta yonur, bir başqası suvaq çəkir... Hansını deyəsən?.. Bir sözlə, oxumaq adamın özünə lazımdı. Adam özü inkişaf eləyir. Diplom indiki zəmanədə adamın özünə təskinlik gətirən şeydi. Ondan xeyir görən...

— Mənim həyatımı Müzəffər zəhərlədi.

— Necə yəni, Müzəffər?..

— Bilirsən ki, o zamanlar anam mağazada satıcı işləyirdi. Universiteti qurtarıb gəlmişdim. İşə girmək ərəfəsindəydim. İşsiz-gücsüz olduğumdan evdə darıxırdım. Anama köməyə getdim. Anam məni görcək sevindi və dedi: — “Oğlum, yaxşı oldu gəldin, mən sahə həkiminə dəyib, gəlirəm. Ona kimi məni əvəz elə. Bir neçə dəfə anamı beləcə əvəz eləmişdim. O, getdi. Az keçmiş Müzəffər gəldi. Məndən bir neçə yaş böyük olsa da söhbətimiz tuturdu. Onun əlində kiçik qara meşin zənbil vardı. Ağzı da bağlıydı. Bir az söhbət elədik. Harasa tələsirdi. Zənbili mənə verib bildirdi: “Burda qalsın, qonşuluqdakı dərzi dükanına dəyib gəlirəm”. Mən zənbili alıb piştaxtanın altına qoydum. Beş-altı dəqiqə keçmişdi ki, polislər mağazaya doluşdular. Əllərini atıb zənbili götürdülər və onu açdılar. Onda anladım ki, zənbilin içindəki narkotik maddəymiş. Elə ordaca rəsmiləşdirib məni polis idarəsinə apardılar. Müzəffər müstəntiqin yanında da, məhkəmədə də üzümə durdu ki, guya mən narkotik maddələr satmaqla məşğulam. Həbs olundum. Lap sonralar öyrəndim ki, bu əclaf mənim azyaşlı bacım Gilanı da zorlayıbmış. Aldadıb bir

müddət də ondan istifadə eləyib. Ailəmi dağıdıb. Dərdimizə tab gətirəmməyən anam dünyasını dəyişib. Oğlum da Nurlanın yanında qalıb.

Tuğay kişi dərindən nəfəs alıb astadan dedi:

— Bunların hamısını qoyaq bir yana. Sənə bir məsləhətim var. Nə olub, olub, bundan sonra arxaya qanrılıb baxma. Baxsan, əsəbiləşəcəksən, içinə nifrət toxumu səpiləcək, bitəcək, böyüyəcək. Sonra da intiqam, qisas hissinə çevriləcək. Bu çox qudurğan, çılğın hissdi. Onda da intiqam uğrunda mübarizəyə qalxacaqsan. Oğlum, bunun da sonu yenə türmədi, fəlakətdi. Çalış, həyatını yaşa...

— Mən Müzəffərə neyləmişdim? O, mənə, ailəmə xəyanət elədi. Mənə dost-dost deyərək, namusuma sataşdı. Ağlı yetkinləşməmiş qız uşağını aldatmağa, yoldan çıxarmağa nə var ki? Müzəffər quduğan ehtirasını söndürmək üçün Gilanı ömürlük şikəst elədi. Zavallı qız həyatın dibinə atıldı. Hardasa açılan gülllədən bacım ölsəydi, mənə bu qədər təsir eləməzdi. Belə başa düşürəm ki, Tuğay dayı, Gilanın namusuna toxunduğuna görə Müzəffər məni şərlədi. Türməyə göndərdi ki, təhlükədən xilas olsun. Sonra da az yaşlı qızı əlində istədiyi kimi fırlatsın. O, istədiyinə nail oldu. Mən heç nədən həbs edildim, həyatın girdablarıyla qarşılaşdım. Cinayətkar Şər Müzəffər isə cəzasız qaldı. Hələ də istədiyini eləyir. Bunu Allah götürərmi?!

— Cavansan. Belə şeyləri görməmisən... Ona görə də sənə çox təsir eləyir. Gərək, götürümlü olasan. Olmasan, vallah, özünü məhv eləyərsən. Həyatda bundan da böyük, bundan da çarəsiz dərdlər olur. Gərək, ipin bir ucunu boş buraxasan ki, səni gücə salmasın. Hər iki ucu bərk tutulub tarıma çəkilən ip qırılacaq, oğlum.

— Səni başa düşürəm. Mənə — oğlum — deyirsən. Mən də sənə ata deyirəm. Sözlərini də ağılla qəbul eləyirəm. Təskinliyin üçün də minnətdaram. Hərdən fikirləşəndə özüm də görürəm ki, başım xarab olur. Bir ailəni "uf" demədən beləmi bədfanəyə verərlər? İnsafı, mürvəti yoxmuş bu Müzəffərin?.. Biz bu bəlaya düşdük. Mən qorxuram, başqaları üçün də belə torlar hörə, torbalar tikə...

— Belə bir misal var. Eşitmiş olarsan... "Başqalarına quyu qazan, gec-tez özü düşər". Sən onu Allaha tapşır. O, özü bəlasını verəcək...

Tuğay kişi gözlənilmədən söhbətin səmtini dəyişdi:

— Gəl, belə danışaq. Mənim kiçik oğlum İlqarı ki, tanıyırsan. Uşaqlıqda bir yerdə oynardız. Lap hərdən bir-birinizin vurub ağzınızın, burnunuzun qanını da qatardız. Bir saatdan sonra isə barışardız. Onun da adını sənin rəhmətlik atan qoyub. Atanın yaxşı ad qoyması vardı.

Gülər dərhal dedi:

— Uşağı utandırma. O balaca vaxtları olub. İndi şükür Allaha, böyük kişidilər, qanırlar.

Tuğay kişi başını yelləyərək cavab verdi:

— Mən nə deyirəm, ay arvad? Qəribə adamsan, yadlarına salıram ki, bir-birilərini qırıb-çatsınlar, dava salsınlar? Lap mən dedim, bu boyda kişilərin ağlı çatmır ki, nə iş tutduqlarını bilməsinlər?..

Tuğay kişi üzünü İqrara tutaraq sözünə davam elədi:

— Arvad imkan vermir ki, sözümü axıra çatdırım... İlqar tikinti idarəsinin böyüyüdü. Ona deyək, tezliklə sənə bir iş tapsın. O, sənə, sən də ona həyan olarsız. Müzəffər kimi it-qurddan özünüzü qoruyun. Özün də başını sal aşağı, get, həm çörək qazan, həm də vaxtın keçsin. Bekar qalsan, çox şey fikirləşəcəksən. Hərədən bir söz eşidib dözməyəcəksən. Kimin nəyi itsə, səndən görəcək. Başlayacaqsan ölüb-öldürməyə. Polis də gəlib səndən yapışacaq. Açığını deyim, oğlum, incimə, türmədən çıxan adamın əskisi tüstülü olur. Qaldı ailənə, şəhərdə o qədər arvad boşayan kişi var ki. Fikirləş ki, sən də onların birisən. Hamı

bilir ki, sən türmədə olanda o, çıxıb gedib anasıgilə. Sənin bu işdə günahın yoxdu. Səndən heç kəs də onu soruşan deyil. Qismət beləymiş. Ananın ölümü Allahın işidi. Adamın əcəli harda çatır, orda da gedir. Kim ölənini saxlaya bilib, onda ki olasan sən? Bacının məsələsini də bilmək olmaz. Atalar deyib: “Qılıncı qında görməsən, inanma”. Mənim məsləhətimə qulaq as...

İqrar fikrə getdi. Səhvə yol verdiyini, boş yerə qızışıb danışdığını hiss elədi. Bayaq dediklərini yavaş-yavaş pərdələmək yolunu tutdu:

— Tuğay dayı, türməyə düşmənim də düşməsin. Əzab-əziyyətləri, işgəncələri görən, bir də ora düşməyi özünə rəva bilməz. Mən bundan sonra Müzəffərə neyləyəcəm ki? Heç nə. Nə qədər desən, elə o adamdı. Əli də yuxarıların ətəyində. İstəsə, evimdəcə götürər məni. Heç soruşan da olmaz ki, hara apardın türemşik İqrarı? Lap belə ən yüngülü üstümə bir də şər atıb tutdurar, məni gəldiyim xarabada çürütdürər. Dünyanın əzəldən işi belədi. Güclü gücsüzü yeyir, parçalayır, udur... Allahı bilsin, bir də özü. Uzaqbaşı salam vermərəm Müzəffərə!...

İqrar beləcə qızışıb danışdıqca riyakarlığına, ikiüzlülüyünə görə özü də nifrət elədi. Tuğay kişiyə xəyanətini də anladı.

Tuğay kişi dedi:

— Çox sağ ol, oğlum. Hələlik qalarsan bizdə, Gülər də sənin anan. Bizim də bir ayağımız burda, o birisi gordadı. Bir sözlə, gethagetdəyik. Uşaqlara da deyəcəm, qumdan, daşdan, ağacdan, taxtadan, nə lazımsa, sənə kömək eləsinlər. Evin uçulubdağılan yerlərini düzəldərsən, işığını yandırarsan. İmkan eləyək, tezliklə ata-ananın da ruhu o evə gələ bilsin. Sən yaxşı olsan, rəhmətliklərin də ruhları rahatlanar.

— Tuğay dayı, vallah, məni utandırırsız. Gücüm var. Türmədə ondan da ağır vəziyyətlərə düşmüşəm. İnanın, məni çətinlik, ağırlıq qorxutmur. Sağlamam. Yavaş-yavaş hamısının öhdəsindən özüm gələcəm. Türmədə bir çox işləri bizə də öyrədiblər.





— İşi bacarmaq hər şey deyil, oğlum. Gərək tikinti materialı da olsun. Taxta-şalbanın o biri ucundan tutan da tapılsın. Sənə hamı kömək eləməlidi. Kim nə bilir, kimin axırı necə olacaq? Narahat olma. Heç kim də sənə minnət qoyan deyil. İstəyirəm ki, İlqarla yaxın olasız. Atalar deyib: “Yaxın qonşu uzaq qohumdan irəlidi.” Gərək yaşamağı bacarasan... Bacarammayan batdı. Adamları ki, belə üzüdönük görürəm, bir azdan lap çətin olacaq.

Bayaqdan söhbətə qulaq kəsilən Gülər qarı boğazını arıtlaya-arıtlaya söhbətə qoşuldu:

— Tuğay düz deyir, bala. Ata-babalarımıza min rəhmət. Onlar hər şeyi görüblər. Sonra da deyiblər: “ Ölənlə ölmək olmaz”, “Qana qan eləyəni Allah da bağışlamaz”, “Balığı at dəryaya, balıq da bilməsə, xaliq bilər”... Bilirik, türmədən gəlmisən. Əlin boşdu. Sənə kömək lazımdı... Kişi də, uşaqlar da eləyəcəklər. Əl tutmaq Əlidən qalıb. Allahın mərhəməti böyükdü. Kim neyləsə, özünə eləyir. İstər pis olsun, istərsə də yaxşı, əvəzini Allah verir. Sənin tayların hələ evlənməyib. Aytac səni atıb gedibsə, sən də onun dərdini çəkmə. İnanmıram, o da... Adamın birinci bəxti... Gündə bir ər dəyişməklə xoşbəxt olmaq mümkün deyil. Neyləyəsən? Görünür, zatında qırıqlıq varmış. Xoşbəxtlik ər dəyişməkdə olsaydı, qonşumuz Gülnaz hələ biz biləni altıyeddisini dəyişib. İndi də gəlib oturub xarabasında. Qocalan çağında ona nə oğul baxır, nə də qız. Nurlanın qızı da elə. “Ot kökü üstə bitər”. İnanmıram çıxmasın qabağına. Atalar havayı yerə söz deməyiblər. Görüblər, şahidi olublar, sonra fikir söyləyiblər: “Nə tökərsən aşına, o da çıxar qaşığına”. Utanmazlıq eləyirəm, oğlum, bağışla məni, gəlib deyəcəm. Kişi də hirslənəcək. Gərək hirslənməsin. Hər yerindən qalxan, əyninə doqquz taxtalıq tuman geyən arvadam deyir. A bala, bəyəm, Nurlandan arvad çıxar? Nurlandan tərbiyə alan qız elə olacaq da. Yadımdadı. İkinci Dünya Müharibəsində nə qədər cavan gəlin,

iki-üç uşaqlı qadın başsız qaldı. Onlar ərə getmədi. Oturub indiyəcən ərlərinin yolunu gözləyir. Çoxunun ərindən də qara kağız gəldi. Uşaqlarını böyüdüb, qızlarını ərə verdilər, oğlanlarına gəlin gətirdilər. Nurlanın qızına nə oldu? Bilə-bilə ki, əri salamatdı, filan vaxtı qurtarıb gələcək, özünü saxlayammadı, getdi. Eşitməmisən, oğlum: "Anasına bax, qızını al". "Ana çıxan ağacı, balası budaq-budaq gəzər". Nə qədər deyirsən, misal çəkə bilərəm. Gərək, atalar deyənə də baxasan, oğul. Atalar ağıllı adamlar olublar.

Səssiz-səmirsiz arvadını dinləyən Tuğay kişi axır ki gülümsünərək dilləndi:

— Ay arvad, neçə ildi səninlə yaşayıram, doqquz taxta tuman məsələsini eşitməmişəm. O, nəmənə şeydi?

— Danışdırma məni, korlayaram işləri. Eşidib bilənə də gəl cavab ver görüm, necə verirsən.

Bayaqdan bəri özünü gülməkdən güc-bəlayla saxlayan İqrar dilləndi:

— Yəqin keçmişdə xanımlar enli paltar geyərmişlər. Gülər xala da doqquz taxtalıq tuman deyəndə, ona işarə vurur. Səhv eləmirəm ki, Gülər xala?

— Düzdü, oğlum, səhv eləmirsən. Yoxsa, indikilər kimi, dar şalvarı çəkiblər əyinlərinə, hər nələri var qalıb çöldə.

— Allah sənə də, Tuğay dayıya da, balalarınıza da sağlam ömür versin. Ürəyimi dağa döndərdiz. Doğrusu, türmədən çıxanda hara gedəcəyimi bilmirdim.

Gülər qarı:

— Ölmüşük bəyəm? Qonşu qonşunun hansı gününə gərəkdi? Allah var, rəhmi də var. Yaratdığı bəndəni nagüman qoymaz. Həmişə belədi. Ağlagəlməz yerdən elə qapı açır ki, özün də məəttəl qalırsan.

Tuğay kişi əlini cibinə salaraq bir dəstə pul çıxarıb stolun üstünə qoydu:





— Al bunları, lazım olar.

— Nə, danışırsız, Tuğay dayı, məni utandırmayın.

— Dedim, qurtardı, sözü çevirməzlər. Qazananda verərsən.

Gülər qarı dərhal bildirdi:

— Götür, kişinin sözünü yerə salma.

O, elə hökmlə dedi ki, İqrar pulları götürməyə məcbur oldu. Utana-utana, çəkinə-çəkinə pulları götürüb cibinə qoydu. Sonra da öz-özünə düşündü: imkansızlıq nə əclaf şeymiş? İnsanı içindən qırır. Dilin yox deyir, ürəyin al. Bu, ikiüzlülükdü, riyakarlıqdı, insanın özünün öz mənəviyyatına xəyanətidi, özü özünü alçatmasıdı. Kimdənsə xəcalətli qalmasıdı...

Tuğay kişi dedi:

— Çoxdandı şəhəri görməmisən. Çıx dükan-bazara, özünə bir-iki geyim al. Amma, evə tez qayıt. Səninlə görüşə gəlmək istəyən olar. Özüm də gözləyəcəm, geciksən, arxanca çıxacam.

— Baş üstə, gecikmərəm.

Gülər qarı:

— Soyuq olar, İlqarın gödəkçəsi evdədi. Verim, onu geyin.

— Yox.

Tuğay:

— Yox nədi?

Gülər yan otaqdan gödəkçəni gətirib İqrara verdi. O, geyindi. Gülər sevincək halda bildirdi:

— Elə bil, ay İqrar, üstünə biçilib. Onsuz da İlqar onu geymir.

* *
*

Tuğayla Gülərin sözlərindən xeyli təskinlik tapan İqrar gəzə-gəzə şəhərin mərkəzinə gəlib çıxdı. Səhər vağzalda gördüklərini burda da eynən müşahidə elədi. Bu izdihamlı şəhərin ne-

çə il əvvəlki görkəmindən əsər-əlamət, demək olar ki, qalmamışdı. Baxımsızlıqdan küçələr zir-zibillə doluydu. Asfalt örtüklər uçulub dağılırdı. Yağış, qar yaşayış və ictimai binaların rənglərini yuyub aparmışdı. Dükan və mağazaların hamısında demək olar ki, eyni şeylər satılırdı. Onların da keyfiyyətsizliyi dərhal sezilirdi. Hər tərəfdən gələn meyvə çürüntülərinin, atılmış ət, içalat və sümüklərin üfunəti az qala adamın başını çatladırdı. Küçənin kənarında qoyulan yeşiklərin üstünə papiros, kibrit qutuları, yabanı çiçək dəstələri, uşaq paltarları düzüb xırda alverlə məşğul idilər. Üz-gözlərindən sezilirdi ki, bu adamların hər biri yalnız gündəlik xərcliklərini ödəmək üçün yeşiklərin yanında dayanıblar. Onların da soyuqdan sir-sifətləri bozarmışdı. Əsəbilik, küskünlük gözlərindən duyulurdu. Heç kim heç kimi dindirib-danışdırmaq istəmirdi. Bir anlığa ona elə gəldi ki, bu şəhər ömrü boyu güvəndiyi, adı, gözəlliyi, qaynarlığı, ənənələriylə öyündüyü qədim Gəncə deyil. O da sir-sifətini bozartmış, xarakterini dəyişmişdi. Elə bil gülümsəməyi də, canfəşanlıq göstərməyi də yadırğamışdı. İnsanlar kimi bu ikiüzlü, riyakar həyatdan o da bezmişdi. Ömrünün ən gözəl, ən gənc çağlarını dustaqxanada keçirən İqrar ağılsız, sadəlövh adam deyildi. O, dərhal düşündü ki, bəlkə də Gəncə elə əvvəlki mən gördüyüm şəhərdi. O vaxtlar çox gənc idim. Həyata tamam başqa gözlə baxırdım. Hər şeydə əlvanlıq axtarırdım. Həzin nəğməli arzularla, möcüzələr vəd eləyən xəyallarla yaşayırdım. Yəqin buna görə də o zamanlar bu şəhər mənə elə gözəl, əsrarəngiz görünürdü. Əvvəlki arzularının, xəyallarının, xülyalarının üstündən qara bir xətt çəkən, nəyi olubsa, hamısını itirən adamın sınan qəlbi, itən inamı, sönən ümidləri müqabilində düşüncələri necədisə, yəqin ki, gözləri də hər şeyi beləcə görməliydi. Məncə, bu, təbiidi. İnsan hissiyyatıdı, insan ruhudu. İnanıram ki, Allahın yaratdığı ən böyük möcüzədi. Bundan böyük möcüzə tanımıram. Ola bilsin ki, buna görə mənimlə mübahisəyə də girişərlər. Ancaq əqi-





dəmdən dönən deyiləm. Yaxşı yadımdadı, bir zaman universitetdə oxuyanda müəllimimiz demişdi ki, gərək insan anadan xoşbəxt doğulsun. Xoşbəxt doğulmayanı el də yığılsa, xoşbəxt eləyə bilməz. Müəllimimizə etiraz eləməsəm də, doğrusu, o zamanlar onunla daxilən razılaşmadım. İndi düşünürəm ki, nə qədər həqiqət varmış əziz müəllimimizin sözlərində.

İqrar həyatının cəngəlliklər içərisindən keçdiyinə həmişə təəssüflənirdi. İndi, doğulub boya-başa çatdığı şəhərin küçələrində gəzdikcə ruhi xəstə adamlar kimi öz-özüylə danışır, vurur, qırır, gah özünü, gah ona xəyanət eləyən doğmalarını, gah da həyatına qara daş atan Müzəffəri məzəmmətləyirdi. Tuğay kişiyə, Gülər qarıya söz versə də Müzəffəri heç cür unuda bilmirdi. Düşüncələr seli onu ağzına alıb apardıqca özünü, harda olduğunu tamam unudurdu. O, bəzən sahillərini, dərinliyini təsəvvür eləmədiyi nəhayətsiz dəryanın şahə qalxan, qudurğan dalğaları ilə çarpışmada özünü hiss eləyir, bəzən də tamam sakitləşir, kimsəsizliyi, lazımsızlığı barədə düşünürdü. Yaxşı dərk eləyirdi ki, hər iki ziddiyyətli hal onun üçün arzuolunmazdı, qorxuludu. İkisi də onun taleyilə oynayırdı. O, “Gəncə” mehmanxanasının tinindən Mərkəzi Bazara tərəf yan aldı. Bir zamanlar anasının işlədiyi, özünün də ona kömək elədiyi, narkotik maddələr üstə həbs olunduğu qarışıq mallar mağazasının qarşısında gəlib dayandı. Bütün bədəni titrədi. Qıçları az qala bədənini saxlamayacaqdı. Düşüncələri dondu. Nə eləyəcəyini bilmədi. İstədi üzünü çevirib iti addımlarla ordan uzaqlaşsın. Hansı qüvvənin təsiri altındasa fikrindən vaz keçdi. Əsəbdən vücudu doğrandı, bir an içində üzərinə çökən, həddi-hüdudu bilinməyən ağırlığı özündən kənarlaşdırmaq istədi. O: — İnsanın mənəvi gücü hər şeyə qadirdi, — deyə mağazaya girdi. Orada iki satıcı, xeyli alıcı vardı. Satıcıların başını alıcılar qatmışdılar. Ona elə gəldi ki, piştaxta, şkaflar eynilə anasından qalmadı. Mağazada heç nə dəyişməmişdi. Hər şey öz yerindəydi. Təkcə dəyişən satıcılarıydı. Vax-

tilə anası tək işləyirdi, indi onu iki gözəl-göyçək qız əvəzləmişdi. Mallara baxdı. Qiymətlərinə diqqət yetirdi. Özü üçün iki köynək, iki dəst corab, alt paltarı götürdü. Satıcı qızı çağırdı:

— Bacım, borcum nə qədərdi?

— İyirmi iki min.

İqrar cibindən çıxardığı puldan piştaxtanın üstünə əlli minlik atdı. Qız pulun qalığını qaytarırdı ki, İqrarın gözləri mağazanın arxa qapısına dikildi. Qapı azca aralıydı. Ordan kiminsə baxdığını hiss elədi. Ancaq özünü o yerə qoymadı. Əksinə, üzünü asılqandakı başqa geyim şeylərinə tərəf çevirdi, onların o tərəf — bu tərəfinə baxdı. Qəflətən qapıya tərəf çevrildi. Müzəffər çaşdı. Nə eləyəcəyini bilməyib İqrarı tanımırmış kimi qapını bağladı. İqrar köynəkləri götürüb mağazadan çıxdı. O, özündə deyildi. Necə hərəkət eləyəcəyini bilmədi. Qəribəydi. Hər kiçik şeyə diqqət yetirən, həddən çox istiqanlı olan, çılğınlıq eləyən bu adam bəzən dözülməz, təəccüb doğuran hadisələrə elə soyuqqanlı yanaşırdı ki, hamı məəttəl qalırdı. Bəli, indi də elə oldu. Səkkiz ildə qəzəb, qisas, nifrət hissiylə alışıb-yanan İqrarın halına bu görüntü heç bir təfavüt eləmədi. Bu hərəkəti İqrarın da özünə möcüzə kimi göründü.

İqrar düşündü: mənə ən çox təsir eləyən bacım Gilanın zorlanmasıdı. Bir də Aytacın məni gözləməyib getməsidi, etibarsızlığı, vəfasızlığıdı. Mənim yeganə balama narkoman kimi təqdim edilməyimdi. Müzəffər əlimdədi. O, heç hara gedə bilməz. Doğrudu, mən Tuğay dayıya, Gülər xalaya söz vermişəm ki, heç bir cinayət törətməyəcəm. Güman eləyirəm ki, onlar da nə vaxtsa, bağışlayarlar məni. İntiqamımı almasam, atamın da, anamın da ruhu məndən incik qalar. Onlar da bağışlamazlar məni...

Nəhayət, üzünü görmədiyim oğlumla görüşdüm. Ancaq kimliyimi ona demədim. Yəqin ki, Nurlan qarı da adımı deməz. Ondan arzularını da soruşmadım. Əyilib üzündən də öpmədim. Şübhə eləmirəm ki, bunun üçün Allah da keçər günahımdan.





Kim necə düşünür düşünsün. Axı nə deyəydim? Necə ona deyəydim ki, atan mənəm? Qonşu yalan danışıb, oğlum. Əslində bu vəfasız anan da alışıb-yanan ehtiraslarını söndürmək üçün səni atıb. Sənə də vəfasızlıq eləyib anan, mənim balam! Yanıram ona ki, sənin də taleyin mənimkinə bənzəyir. İstəməzdim bunu, oğlum. Tanrı özü möcüzə yaratsın. Sən günahsızsan. Bəzən haqq itir. Biz haqqı itənlərdənik! Daha öz haqq payımı istəmirəm. Sənin tale payın böyük Yaradanın əlindədi. Bunu Tanrıdan istəməyə haqqın var. Ola bilsin ki, bir daha görüşməyəcəyik. Sənin xatirinə anandan qisas almayacam. Bax, buna söz verirəm. Sevməyəni sevə, istəməyəni istəyə bilmərəm. Adımı nə qoyurlar, qoysunlar...

Bacım aldanıb özünün şərəfini, ləyaqətini tapdaladı. Anamın, atamın ruhunu ayaqladı. Mənim namusuma, qeyrətimə tüpürdü. Doğma bacım beləysə, Aytaca nə deyim? O, deməz ki, get, bacının dərdini çək.

Bacım barədə Tuğay kişidən, Gülər qarıdan, qonşulardan bircə kəlmə də soruşmadım. Axı nə soruşaydım? Evimizin qapılarını bağlayan, hər gecə namərdlərin, dəyyusların ağuşuna atılan Gilan indi mənim qədrimi bilərmi? Mənimlə kəlmə kəsməyi, üz-üzə oturmağı bacararmı? Axı o, düşmənlərimin qolları arasında necə nəfəs alıb?! Niyə ürəyi çatlamayıb? Nə əcəb damarlarında qanı donmayıb, beyninə qan sızmayıb?! Aman Allah, səbrin, götürümün nə qədər böyükdü?! Buna yaratdığın insan dözərmi?

Hava qaralanda İqrar Tuğay kişinin həyət qapısını döydü.

* *
*

İlqar evə gələndə axşamdan xeyli keçmişdi. O, İqrarı görcək əvvəl gözlərinə inanmadı, sonra — İqrar, qardaşım, — deyə

onu qucaqlayıb üz-gözündən öpdü. Tuğay da, Gülər də sevindi. Yeyib-içdilər. İqrar soruşdu:

— İlqar, hələ evlənməmisən?

Ata-anasının yanında bir söz deyə bilməyən İlqarın əvəzinə Tuğay kişi dilləndi:

— Yaxşı vaxt gəlmisən, oğlum. İlqarın toyu "vot-votdadı".

İqrar:

— Allah xeyirlisindən eləsin. Xoşbəxt olsunlar.

Gülər:

— Gəlin də öz uşağımızdı, qohumdu.

— Düz eləmisiz. Qohum yaxşıdı, xala.

— Deyirlər, qan qohumu ilə evlənmək yaxşı nəticə vermir.

Tuğay:

— Arvad, onu deyənlər böyük səhv eləyir. Eləydisə, onda Məhəmməd əleyhissəlam qızı Fatiməni əmisi oğlu Əliyə niyə verirdi? Yəni bu adamlar peyğəmbərdən çox bilir? Narahat olma, oğlum. Evə gələn gəlinin əsli-nəcabəti gərək olsun. Əsilsiz-nəsilsiz iti də qapıda saxlamaq düz deyil. Arvad, özünü yığışdır. Bir də səndən belə söz eşitsəm, incimə məndən.

— Əşi, vallah sözgəlişi dedim. Bircə dəfə sən deyən sözün əksinə getmişəmmi?

Kişi gülə-gülə:

— Yəni onu da fikirləşirsən?

— A tövbə. Heç vaxt.

İlqarla İqrar ürəkdən güldülər. İlqar dedi:

— Ay, İqrar, uşaqlığımız birlikdə keçib. Sən həbs olunası adam deyildin. Qəzyədi, qardaş, iş adam başına gəlir. Kim özünü ordan suğortalaya bilər? Heç kim! O gün televizorda deyirdilər ki, guya orda "lüks" kameralar da var.

İqrar ani fikrə getdi. Sonra astadan dedi:

— Qardaş, cəmiyyətdə elə fikir formalaşdırıblar ki, guya türmə də dəlixana kimi bir yerdi. Ordakılar da tərbiyəsizlərdi.





Mən sizi inandırım ki, qətiyyən belə deyil. Doğrudu, türmədə oğru da, quldur da, cani də, binamus da var. Ancaq sizə onu da deyim ki, orda namuslu, vicdanlı, şərəfini, ləyaqətini qoruyan adamlar da çoxdu. Hamısını bir selbəyə vurmaq, ağını qarasından ayırmadan hamısı əxlaqsızlardı demək, haqsızlıq olardı. Orda şərə, böhtana düşmüş dustaqlar, heç nədən ilişən namus, qeyrət sahibləri də yatır. Xalqını, millətini, vətənini sevən adamlar saxlanılır. Qaldı türmədə yaradılan şəraitə, qardaşım, indi azadlıqda olanlar elə gündə yaşayırlar ki, türmə ondan yaxşıdı.

— Azadlıqdakı qanunlar bəzən oğrulara, dələduzlara xidmət eləyir, xalqa yox! Qanundan istifadə eləyənlər xalqı çapıb talayanlardı. Türmənin qanunları isə çox sərtdi. Orda yalançılıqdan, məddahlıqdan söhbət gedə bilməz, fırıldaq keçməz. Ləyaqətsizliyə, şərəfsizliyə, vicdansızlığa güzəşt yoxdu. Türmədə haqq batil olmur, ədalətsiz qərar çıxarılmır. Qanun hamı üçün qanundu. Gərək addımını düz atasan. Çöllə içərinin bir başlıca fərqi var: çöldə istədiyin yerə, istədiyin səmtə gedə bilirsən, içəridə yox. İstənilən yerə getmək imkanın məhduddu. Pul elə bir şeytandı ki, türmədə də, azadlıqda da eyni cür rəqs eləyir. Ona məhəbbət hər tərəfdə dərindi. "Lüks" kameralara gəlincə... Onları istədikləri dustaqlara türmə rəhbərliyi, məmurlar satırlar. Pulu olanlara — Gülər xala bağışlasın, — azadlıqdakı ən gözəl bakirə qızları da hədiyyə eləyirlər. Elə dustaqlar var ki, onlar ömürlərini türmədə keçirmək istəyir. Azadlıqdakılara nifrət eləyirlər. Onlar üçün çöllə içərinin heç bir fərqi yoxdu. Məhbuslardan elələri var ki, azadlıqda olduğu kimi türmədə də vəzifələri, hədsiz səlahiyyətləri var. Qanunları qanun keşikçilərindən, siyasəti dünya siyasətçilərindən heç də az bilmirlər. Ölkənin siyasi durumu, veriləcək qərarlar barədə məlumatlar ilk dəfə orda səslənir, perspektivlər açıqlanır. Bəzən bir-iki aydan sonra televizorda həmin məsələlər xalqa çatdırılır. Qardaşım, təkrar eləyirəm, türmədə ayıq adamlar çoxdu. Təmiz, əxlaqlı, mənəviyyatlı

şəxslərə orda rəğbət böyükdü. Ağsaqqal sözü, müdrik adamların məsləhəti daim eşidilir, dəyərləndirilir.

— Müdrik?

— Bəli! Müdriklər təkcə azadlıqda olmurlar. Onlar da insandı. Onları da paxıllıqdan, xudbinlikdən içəri atırlar. Təəccüblənmə, müdriklik insana məxsusdu. Onu hər kəs özü qazanır. O damğa deyil ki, hər yoldan ötənə vuralar?

Tuğay kişi ağıllı adamdı. İqrar danışdıqca səssiz-səmirsiz dinləyirdi. Gözlənilmədən dedi:

— İqrar, sən danışdıqca mən dəhşətə gəlirəm, oğlum. Elə bil universitetin birini də orda bitirmisən. Müəllimlərin də azadlıqdakı bəzi boşboğazlar yox, həqiqətən müdriklər olub. Oğlum, elə danışırsan, az qalıram cinayət törədib mən də özümü pərçimləyəm ora. Qurbanın olum, qurtar türməylə. O barədə daha fikirləşmə. Ev-eşiyini düzəltməyə İlqar da kömək eləyəcək, mən də. İlqarın toyundan sonra bir-iki aya Gülər xalan soraqlaşar, bir halal südəmmiş tapar, özün də baxarsan, könlünə yatsa, gətirərik evinə. Ailə-uşaq sahibi olarsan...

Kişi dərhal üzünü oğluna tutaraq:

— İqrarın başını qatmaq lazımdı, işləməsə darıxacaq. Günü sabahdan evin üstünə düşmək lazımdı. Usta tap, material al, pulunu mən verəcəm.

— Baş üstə, ata.

Gülər:

— Boyuna qurban, oğlum, uzatma.

İlqar:

— Hər şey aydındı ata. Mən bir şey öyrənim. Gəlişindən Gilanın xəbəri varmı, İqrar?

— Yox, İlqar. Ev-eşikdən də görünür ki, bacım çoxdandı burda yaşamır. Onu da başa düşürəm. Kimsəsiz, yetişmiş, işsiz-gücsüz qız, özü də bir az ağıldan dürək. O, Tuğay dayıya, Gülər xalaya sığınsaydı... Düşdü əclafların, harınların əlinə. Hamı bilən işi gizlətmək nəyə lazım? Gizlətsən də, üzünə bir söz deməsələr də, arxanca gülürlər. Ürəklərində — İkiüzlüdü, riyakardı, biqeyrətdi — deyirlər... Gedib kimə nə deyəsən? Arvadım elə, bacım belə. Mənim — Kişiyəm — deməyə haqqım yoxdu. Kişiliyimi bacımla arvadım mən türmədəykən dəfn eləyiblər, İlqar.





İçin-için yanan İqrar danışdıqca kövrəldi, gözləri yaşardı.

Tuğay:

— Kişi ağlamaz, oğlum.

İqrar astadan:

— Kişi ağlamaz, düz deyirsən. Ancaq baxır nəyə? Çörək, pul, vəzifə üçün, bəli, kişi ağlamaz. Bu, namusdu, qeyrətdi, kişilikdi. Məncə ağlamaq yox, ölmək gərəkdi. Axı dərdim böyükdü, mən heç nə eləyə bilmirəm. Ağlamağı da bacarmıram. Mənə çox daşlar atılıb bacımın maymağlığı ucbatından. Tutaq ki, sabahdan gedim, onu axtarım, tapım, evimizə gətirim. Abır-həyasını itirmiş, əxlaqı korlanmış bir qadını evdə saxlaya biləcəmmi? O, evimdə min bir macəra törətməyəcək ki? Buna kim zəmanət verə bilər? Məncə, heç kim! O, öyrəncəlidi...

Gülər:

— Mən başına ağıl qoyaram.

İlqar susdu. Tuğay arvadına gözlərini ağartdı. Bu, İqrarın gözlərindən yayınmadı. O, sakit tərzdə dedi:

— Yox, Gülər xala. Mənim bacım vardı, ancaq indi ölüb, yoxdu.

Tuğay əsəbi halda:

— Yatmağın vaxtıdı. Gecə gecədən keçir.

Gülər:

— Yataq hazırdı. İqrarla İlqar yan otaqda yatacaqlar.

Tuğay:

— Biz də öz otağımıza, arvad.

*　　*
*

Səkkiz il ərzində ilk dəfə yumşaq, təmiz yorğan-döşəkdə yatan İqrar səhərin ala-toranında yuxudan oyandı. Əvvəl ona elə gəldi ki, barakdadı, indi növbətçi içəri keçib işıqları yandıracaq, — Qalxın — hökmünü verəcək. O, yatağında çevrildi. Bir an içərisində özünə gəldi. Tez də azadlıqda olduğunu, Tuğay kişinin evində, Gülər xalanın əlləriylə açılmış çarpayıda yatdığını anladı. Anasını, gəncliyini, Aytacla tanışlığını, sevgi macəralarını, altı aydan artıq birlikdə yaşadıqları günləri, səkkiz illik məhbus həyatını, türmədə başına gələnləri, nəhayət, dünən oğluyla, Müzəffərlə görüşünü yaddaşında çözələdi. Acılı-şirinli xatirələri gözləri önündə canlandı və belə qənaətə gəldi ki, indiyəqədərki əzabla yoğrulub yapılan ömründə fərəh doğuracaq elə bir an da yoxdu. Ömür salnaməsi yalnız çızmaqaralardan ibarətdi. Düşündü, axı, mən niyə belə olmalıydım? Mən də başqaları kimi başımı aşağı salıb adi ömrümü yaşaya bilməzdimmi? Günahım nəydi? Sağlamam, gücüm var, əziyyətə, zəhmətə öyrəncəliyəm. Hər cür çətinliklərə qatlaşmağa hazıram. Heç nədən qorxmuram. Nə qədər ağır, işgəncəli, əzabverici olsa da, türmənin qayda-qanunlarına, cansıxıcı mühitinə alışmışam. Bir sözlə, ölümdən də qorxmuram. Bir gün doğulan bir gün də ölməlidi. Təbiətin bu qərəzsiz qanunu hamıya ölüm təcrübəsini daddıracaq: şaha da, nökərə də, prezidentə də, rəiyyətə də. Bunun üçün dərd çəkməyə, qorxub-hürkməyə ehtiyac da yoxdu. Qorxulusu Aytacın hərəkətləriydi. O, bütün sədləri aşdı. Geri qayıdacaq bütün körpüləri yandırıb... Nə eləyibsə, öz istəyilə olub. Özü bilər, heyf Əfsunumdan. O yaşda uşaq ana nəfəsinə, ata nəvazişinə möhtacdı. Anasının ağılsızlığı ucbatından o hisslərdən məhrum oldu. Neyləmək olar? Bu da oğlumun taleyidi. İki hiss məni çulğalayır. Biri, Tuğay kişinin dediyi kimi, ev-eşiyi düzəldib ailə qurmaq, oğlumu nənəsinin himayəsindən alıb yanıma gətirmək, öz əllərimlə balama qulluq eləmək, onu böyüdüb ərsəyə çatdırmaq. İkincisi, məni intiqama səsləyir, qan tökməyə sürükləyir. Namərd Müzəffər, sənin bu torpaq üstündə gəzməyə haqqın yoxdu... Bəlkə də həyatıma zəhər qatmağına baxmayaraq, oğlumun xatirinə hardasa, sənə güzəştə gedərdim. Ancaq bacımın həyatını korladığına görə səni bağışlaya bilmərəm. Günahımız olmadığı halda, mənə, ailəmə təcavüz etmisən. Dünən hiyləgər tülkü kimi, səksəkə içində yaşayan dovşan kimi qapının arasından baxırdın. Ürəyimdən keçənləri nə tez anladın, alçaq! Hissiyatın nə yaman itidi, əclaf! Bilirəm, dinc durmayacaqsan. Mənfur əməllərinə yenidən əl atacaqsan. Kiminsə əliylə məni ilişdirməyə yenidən cəhd göstərəcəksən. Yəqin bu neçə ildə xeyli pul da yığmısan. Özün kimi əclaflardan birinə verib məni atdıra bilərsən. Tuğay dayı, Gülər xala məni çirkin yola əl atmamağa, cinayət törətməməyə çağırır. Bu, yalnız məndən asılıdırmı? Yox, Tuğay dayı, Gülər xala! Taleyimi yazan yazıb. Necə yazıb, elə də olacaq. Mən demirəm, mütləq cinayət törədəcəm! Söz də vermirəm törətməyəcəm! O baxır Müzəffərin qismətinə. Mənim əlimlə, ya özgənin. Əvvəlcədən heç kim heç nə deyəmməz... O, taleyin hökmündədi. O hökmü heç kəs poza bilməz, Tuğay kişi, Gülər xala. Sağ olun ki, evinizdə mənə yer verdiz, qabağımda süfrə açdız. Təmənnasız verdiyiniz duz-çörəyinizi kəsdim. Halal eləyin. Mən qədirbilməz adam deyiləm. Haqqı-sayınızı unutmaram...

İqrar öz-özüylə həsbi-haldaydı ki, İlqar gərnəşib yuxudan oyandı, ayağa qalxıb geyinməyə başladı və səsləndi:

— İqrar.

— Eşidirəm.

— Elə bildim ki, hələ yatırsan.

— Mən bayaqdan oyanmışam.

— Qalx, bu gün birlikdə gedəcəyik.

İqrarla İlqar geyinib otaqdan çıxanda Gülər qarı dərhal: — A bala, yuyunun, gəlin, süfrə hazırdı, — dedi. İlqarla İqrar yeyib-içib ayağa qalxırdılar ki, Gülər qarı dilləndi:

— Bu gün nə iş görəcəksiz?

İlqar ani fikrə getdi. Sonra bildirdi:

— İndi İqrarın evinə baxaq, görək, içəridə vəziyyət necədi? Hansı işlər görülməlidi, onlara da uyğun material alaq. Usta, fəhlə göndərək.

— Dediklərinizi tez eləyin. Tuğay işsiz-gücsüz adamdı. Özü ustalara, fəhlələrə nəzarət eləyər.

— Deməli, atam da özünə iş tapdı... Qaldın sən, ana.

— Mənim vəzifəm aydındı.

— Bilmək olarmı nədi?

— Nə olacaq? İqrara bir halal süd əmmiş tapmaq.

İlqarla İqrar gülüşdü. Sonra İqrargilin həyətinə keçdilər. Zir-zibil həyəti basmışdı. Son zamanlar qonşulardan kimlərsə zibillərini də gətirib bu həyətə atdıqlarından içəri keçmək olmurdu. Pilləkən uçulub tökülmüşdü. İlqar qapını açıb evə keçdi. Yağış, qar suları otaqların tavanını, döşəmələrini çürütmüşdü. Tavan düz ortadan çökmüşdü. Evin divarları tamam yararsız hala düşmüşdü. Bir sözlə, ev əsaslı təmir olunmalıydı. İlqar təmirə lazım olacaq materialları müəyyənləşdirdi. Sonra da maşına əyləşib tikinti obyektinə getdilər. İlqar maşına xeyli sement, daş, qum, taxta, şifer, mıx, rəng yığdırdı, iki usta və dörd fəhlə ilə İqrarı evə göndərdi. Fəhlələr həyət-bacanı təmizləyib evin təmirinə başladılar. Tuğay kişi özü fəhlələrin, ustaların işinə nəzarət eləyir, onları öz evinə nahara aparırdı. Bunların heç biri İqrarın gözlərindən yayınmırdı. Bir ay müddətində evin təmiri qurtardı. Tuğay kişi arvadına dedi:

— Bir dəst yorğan-döşək, qab-qaşıq hazırla. Mən də İqrarla mebel mağazasına gedirəm. Bir-iki taxta-tuxta alıb gətirək.

Arvad dərhal bildirdi:





— Bəlkə, evdəkilərdən verəsən. Onsuz da istifadə eləmirik. Kişi çəpəki arvadına baxdı. Dediklərinin ərinin xoşuna gəlmədiyini anlayan Gülər dərhal sözünə düzəliş verdi:

— Hə... Sən düz fikirləşirsən, kişi. Ev boş qalmaqdansa, yenə şey-şüylə dolu olsa yaxşıdı.

Kişi arvadın sözünü dəyişdiyini görcək bığaltı gülümsündü və soruşdu:

— Şey-şüy nədi, ay arvad? Elə danış ki, biz də bir şey başa düşək.

— Əşi, qocalmışam. Hay-hayım gedib, vay-vayım qalıb. Bu yaşda mənim danışığımdan nə olacaq ki?

— Arvad, elə danışma. Bilirəm, göz qaytarırsan... Sənin necəliyini mən bilirəm.

— Əşi, özünü az tərif elə. Əlindən bir iş gəlsə, danışmazsan.

Tuğay ilə Gülərin zarafatını səssiz-səmirsiz dinləyən İqrar özünü saxlaya bilməyib qəflətən uğundu. Ona baxıb ər-arvad da güldülər. Handan-hana İqrar dedi:

— Allah sizi həmişə sağlam, mehriban eləsin. Sizin sözlərinizi eşidəndə vallah, Tuğay dayı, yaşamaq istəyirəm.

Gülər:

— Buyy... Sənin nə yaşındı, oğlum. Elə danışma... İnciyərəm, vallah.

Tuğay:

— Gülər xalan düz deyir, nikbin olmaq lazımdı. Özünü nikbin tonda saxlaya bilsən, əsəblərin də sakit olar. Xəstələnməzsən...

Tuğay İqrarla yaxınlıqdakı mağazaya getdilər. Çarpayı, şkaf, stol, stul, bir ədəd də qaz pilətəsi alıb evə gətirdilər. Bunu görən qonşu Cəmil müəllim İqrara köməyə gəldi. Onlar alınan şeyləri Gülərin göstərişiylə yerbəyer elədilər. Cəmil üzünü İqrara tutaraq dedi:

— Tuğay kişi hamımızın atasıdı, İqrar. O, hamıya belə olub.

Bəziləri — Allahı sevirəm — deyir. Tuğay kişi tək-tək adamlardandı ki, Allah özü onu sevir. Allahını sevənlərlə Allahın sevdiyi adamlar arasında yerlə-göy qədər fərq var, gərək biz də Allahımıza xəyanət eləməyək. Daha bizə də uşaq demək olmaz...

Həmin gecə Gülər qarı qonşuları toplayıb İqrargilin evində işıq yandırdı, qazan asdı, süfrə açdı. Niskilli, tutqun qəlbi açılmasa da, doğmalarını birdəfəlik itirsə də, İqrar danışır, gülürdü. Söhbət gecəyarıyadək uzandı. Axırda Tuğay üzünü qonşulara tutub dedi:

— Gecdi, gedəyin, imkan verəyin, bu gecə İqrar da öz evində yatsın. İnanıram ki, mərhum anasının, atasının ruhları da gəlib evin həndəvərində gəzişirlər...

Qonşular: — Gecən xeyirə qalsın, İqrar — deyib getdilər. Evdə tək qalan İqrarın düşünməyə, başına gətirilənləri soyuq başla götür-qoy eləməyə kifayət qədər vaxtı vardı.

Gülər qarı həyətdə ərinə pıçıldadı:

— Bəlkə, İqrar evdə tək qalmağa qorxur?

— Yekə kişidi, necə fikirləşirsən, deyirsən İqrarla qalım?

— Yox! Sən niyə, İlqar ki, qala bilər. Orda yatmasın, burda yatsın.

— Tək qalanda nə olar?

— Neçə il idi ki burda adam yaşamırdı. Xarabalıq idi. Deyirəm, üşənər, əşi, uşağı qara basar. Sonra da gəl peşmançılıqdan qurtar, görüm, necə qurtarırsan?

Arvadının sözü Tuğayı silkələdi. O, İlqarı çağırıb başqaları eşitməsinlər deyə, astadan dedi:

— Oğlum, anan məsləhət bilir ki, bir neçə vaxt sən İqrarla qalasan. O, təkliyə öyrəşməyib. Tək qalsa, başına gələnləri fikirləşəcək, əsəbiləşəcək, ağıla gəlməyən işlər ola bilər.

Heç vaxt atasının sözünü çevirməyən İlqar dərhal bildirdi.

— Baş üstə.

Guya öz fikridi, deyə İqrarı səsləyib əlavə elədi:





— İşığı söndürmə, atamgili yola salıb qayıdıram.

İlqar evə gedib ağ mələfənin arasına yorğan, döşək, balınc qoydu və qucağına alıb İqrargilə gətirdi.

— İqrar, toya qədər səninlə qalacam. Xahiş eləyirəm ki, ona kimi sən də fikirləş. Bizim tək yaşayan vaxtımız deyil.

İqrar gülümsündü:

— Baxarıq... Qismət...

*   *
*

Neçə gün idi ki, İlqarla İqrar bir evdə qalır, səhər-axşam yeməyini birlikdə yeyirdilər. Tikinti obyektində də bir işləyirdilər. Günorta naharını İqrar iş yerində fəhlələrlə, İlqar isə harda fürsət düşdü, orda eləyirdi. İlqar İqrara maaş alıncayadək avans da vermişdi. İqrarın maddi imkanı demək olar ki, qaydaya düşmüşdü. Kimsəyə ağız açmağa ehtiyacı yox idi. İqrar ona Mürsəl adlı görüb-götürmüş bənnanın yanında işləməyi tapşırdı. O, vaxtında işə gəlir, sementi quma qatır, palçıq hazırlayır, bənnanın istədiyi anda palçıq vedrələrini, daşları qaldırıb ona verirdi. Əvvəllər təcrübəsi çatmasa, bənnanı o qədər razı salmasa da, son vaxtlar işin yöndəmini tapmışdı. Ustaya da əziyyət vermirdi, özünə də. Yorulmaq bilmirdi. Usta da ona elə öyrəşmişdi ki, başqasıyla işləmək istəmirdi. İnsafən, İqrar da işindən narazı deyildi. Vaxtıyla ali təhsil alsa da, İqrar bilirdi ki, əvvəla o, ixtisası üzrə iş tapammaz, tapsa da, ondan elə rüşvət istəyəcəklər ki, verə bilməyəcək. Üçüncüsü də, ixtisası üzrə fəaliyyət göstərəmməyəcək. Səkkiz il ərzində az qala elmi də, təcrübəsi də unudulmuşdu. Özünü pis vəziyyətə sala bilərdi. Ona görə də belə bir arzuya düşmək səfehlikdən başqa bir şey deyildi...

Bəxtindən Mürsəl də işgüzar adamıydı. Elə hey — İqrar palçıq, İqrar daş — deyirdi. Başqa işlə məşğul olan fəhlələr zara-

fatla deyərdilər — “Qa” deyəndə “ət”, “qu” deyəndə “su”. Həmkarlarının zarafatla dediyi bu sözlər bənnanın da, elə İqrarın da xoşuna gəlirdi. İqrarın bəxti onda gətirmişdi ki, bənna çox siqaret çəkən idi. O, hər saatdan bir əlini saxlayır, hördüyü divarın üstündəcə oturur, papiros yandırıb dodaqları arasına qoyurdu. Çəkib qurtarıncayadək “palçıq ver, daş ver” demir, nə də “hə, gözünə dönüm, palçığı yaxşı qarışdır” tələbini eləyirdi. Beləcə iş gününü başa vururdular. İqrarın aləmində bənna pis adama oxşamırdı. Artıq-əskik söz danışmır, yersiz suallar vermir, şəxsi məsələlərə toxunmurdu. Ona görə də bu kişi ilə birgə işləməyi İqrara İlqar təklif eləmişdi.

Hər axşam divara hördüyü daşları sayır, gün ərzində neçə kvadrat metr iş gördüyünü müəyyənləşdirir, onu da üç minə vurur, gündəlik gəlirlərini üzə çıxarırdı. Sonra da deyirdi:

— Allah bərəkət versin, İqrar. Bu gün filan qədər qazanmışıq. Arvad-uşaq bizdən narazı qalmamalıdı. Qalarlar, özləri bilərlər. Heyf ki, daş qaldırmırlar, qaldırsalar, bilərlər nələr çəkdiyimizi.

Mürsəl danışdıqca İqrar da özünü o yerə qoymurdu:

— Əşi, kimdi bizdən soruşan ki, gün ərzində neçə daş, neçə vedrə palçıq qaldırdın? Lap soruşsunlar, bəyəm, onlara hesabat verməliyik?

— Sən cavansan, arvaddan qorxmursan. Ona görə də belə odlu-odlu danışırsan. İndi gedəcəm evə, arvad deyəcək: kişi, qızın ayaqqabısı ayağından çıxır; oğlanın şalvarını, ya köynəyini futbol oynayanda dartışıblar cırılıb; çantam köhnəlib, utandığımdan şəhərə çıxammıram; bacım qızının bu günlərdə nişanıdı, ona hədiyyə almaq lazımdı; müəllim uşaqdan kitab, yaxud təmir pulu istəyir; böyük qızı da həkimə aparacam; ət, yağ, çörək, kartof, soğan da lazımdı, özün də bilirsən, bazar alışıb yanır da. Hansını deyim, İqrar. Sadalayanmadığım o qədər şeylər qaldı ki... Belə olanda başlayırsan gözünü döyməyə. Matın-mutun quruyur. Gəl arvada cavab ver görüm, necə verirsən?





— Görünür, usta, özün öyrətmisən. Vaxtında tökmüsən başından... Həddi gözləməmisən... Elə güman eləyib ki, ömrü boyu belə olmalıdı. O da varı-yoxu sonalamır, elə “ver” deyir. Özü yıxılan ağlamaz...

— Hə, İqrar, onu düz deyirsən. Əvvəl, gərək öz işini görəsən. İpini boş buraxdın, koman yıxıldı. Gündə bir az-bir az özünə yer eləyir. Axırda qalxıb durur ulduzda. Gəl düşürt ordan görüm, necə düşürdürsən. Neçə uşağın var, İqrar?

İqrar əvvəl çaşdı, özünü eşitməzliyə vurdu. Usta yenidən soruşdu:

— Deyirəm, neçə uşağın var?

O, cavab verməyə məcbur oldu. İstədi desin, bir oğlum var. Sonra düşündü ki, usta növbəti suallarını verəcək, məcburiyyət qarşısında qalıb yalan danışmalı olacam. Yaxşısı budur, elə ilk addımdan yalan danışım. Belə olsa, bir çox söz-söhbətdən, sual-cavabdan özümü kənarda saxlaram. Ona görə də dedi:

— Ailəli deyiləm.

— Nə? Əşi, belə de. Mən də bayaqdan fikirləşirəm ki, bu nə möhkəm adamdı. Arvad indiyədək əridə, yumşalda bilməyibsə, deməli, daşdı, dəmirdi. Sən demə, arvadlar dünyasından xəbərin yoxmuş. Allah qoysa, bu yaxında evlənərsən, halına-xislətinə bələd olarsan. Sənə işi düşəndə, ya möhübünü düzdürmək istəyəndə dönür pişiyə. Yox, səndən asılı işi yoxdusa, dönür əzrailə. Ağlına da gətirmir ki, balam, bu kişi sabah da mənə lazım olacaq, möhübümü düzəcək. Xı... Xı... Xı...

Usta danışdıqca İqrar haldan-hala düşürdü. “Böyük bir oğlum var”, “Arvadım etibarsızlıq eləyib, mən türmədə olanda başqasına ərə gedib” deməyə dili gəlmirdi onun. Xəcalətindən səsini də çıxarmırdı. “Arvadlar aləmindən mən də xəbərdaram” deməyə mənəvi gücü, qüdrəti çatmırdı.

Bayaqdan bəri palçıq yaya-yaya, daş hörə-hörə arvadından

şikayətlənən usta əvvəl dediklərinin tam əksinə olaraq dedi:

— Zarafat eləyirəm. Ailəsiz — arvad-uşaqsız kişi heç nəyə dəyməz. Arvad olan yerdə bin-bərəkət olar. Bütün günü kəl kimi güc vururam, işləyirəm, zəhmət çəkirəm, yoruluram. Qazancımı evə aparanda, arvadın, uşaqların üzü güləndə, onların sevincini görəndə, İqrar, nəyə inanırsan and içim, elə bilirəm ki, anadan indicə doğuluram. Düşünürəm ki, ölməyəcəm. Arvadım mənim namusumdu. Onu yaşatmaq, qorumaq mənim borcumdu. Arvad da elə. Arvad əri üçün, övladları üçün yaşamalıdı. Başqa cür ola bilməz. Papağı başa gərək tac kimi qoyasan. O tacın da şərəfini, ləyaqətini qoruyasan. Xoşbəxtəm ona görə ki, məni duyan, dərk eləyən təmiz ailəm var.

— Çox yaxşı deyirsən, usta, bəyəm bütün ailələr elə olur?

— Mən hamısını demədim, İqrar. Biqeyrət kişi də var, əxlaqsız qadın da. Azğın kişini ağıllı arvad yığa bilər. Əxlaqsız qadının öhdəsindən kişi gələmməz. Onu yola gətirməyə təşəbbüs göstərməyə də dəyməz. Eləsi şeytandı, iblisdi. Kişini hər cür fəlakətlərə sürükləyə bilər. Bizim qonşuluqda Məhbubə adlı birisi vardı. Əri Elçin boylu-buxunlu, ədəb-ərkanlı oğlanıydı. Qazanırdı, gətirirdi. Arvadını yağ içində böyrək kimi saxlayırdı. Elə geyindirib-keçindirirdi ki, qonşu arvadlar ona həsəd aparırdılar. Söz-söhbət gəzirdi ki, Məhbubə ərinə xəyanət eləyir. Əvvəl-əvvəl biz də inanmadıq. Bir gün oynaşıyla sözləşib kişini zəhərlədilər. Kişi öldü. Kimsə bu siqnalı hüquq-mühafizə orqanlarına çatdırdı. İkisini də həbs elədilər. Uşaqları başsız qaldı. Hökumət də azyaşlı uşaqları uşaq evinə verdi. Ləyaqətsizdən vaxtında uzaqlaşmaq yaxşıdı. Ailəni qoruyub saxlamaq çətindi, özü də indiki zəmanədə...

İqrar düşünürdü ki, içi bir şey deyir, dili tamam başqa şey. Üzü gülür, içi inildəyirdi.

Azadlığa çıxmasından xeyli vaxt keçirdi. Tuğay kişinin ailəsindən və bənna Mürsəldən savayı heç kəslə yaxından əlaqə





saxlamayan İqrar ömrünü zahirən sakit yaşayırdı. Kimsəylə gediş-gəlişi, oturuş-duruşu yox idi.

İstirahət günüydü. Gün günortadan əyilmişdi. İqrar şəhərə çıxmaq üçün hazırlaşırdı ki, qapı döyüldü. Gedib qapını açdı. Qapının qarşısında yetmiş yaşlarında bir qadın dayanmışdı. O, başına qara çarşab örtmüşdü. Əyninə geydiyi boz, nimdaş paltonun ətəkləri dizlərinə çatırdı. Onun da altından geydiyi donun ətəkləri cadarlanmış ayaqqabılarının üstünü örtmək üzrəydi. Qolundakı kiçik çantanın üzü bir neçə yerdən qopmuşdu. Qadının kiçik qonur gözləri, şiş, uzun burnu, geniş alnı, böyük ağzı, çırma qalın dodaqları vardı. Çarşabın altından çıxan ağarmış saçları qırışmış üzünün nuraniliyini bir qədər də artırırdı. O, İqrarın gözlərinin içinə diqqətlə baxdı. Sonra ağlamsınaraq boynunu qucaqlayıb onu öpdü. İqrar çaşdı. Qadın dərhal dedi:

— Məni tanımadın, oğlum Zərnigar  xalanam da.

Qadın İqrarın anasının bibisi qızı idi. İqrar anası ilə hərdənbir onlara qonaq gedərdi. Oğlu Cəmşidlə, qızı Fidanla “atdı-tutdu” oynayardılar.

— Hə... Tanıdım, Zərnigar xala. Qapı ağzında dayanma, keç içəri.

Zərnigarla İqrar otağa keçdilər. Qadın otaqlara baxdı. Evdəki səliqə-sahmanı görcək üzündə xoş təbəssüm yarandı və dərhal zarafatla soruşdu:

— Tək qalırsan, oğlum?

— Kimlə qalmalıydım, xala?

— Neçə vaxtdı yatırdım, təzəcə yataqdan qalxmışam. Axşam eşitdim ki, o xaraba qalmış türmədən qayıdıb gəlmisən. Sevincdən az qala ürəyim çatlayacaqdı.

— Əyləş, ayaq üstə durma, xala.

Zərnigarla İqrar üzbəüz əyləşdilər.

— Allah anana rəhmət eləsin. Tez dəyişdi dünyasını. Bu gününü görsəydi, hələ çox yaşayacaqdı... Görünür, qismətimiz be-

ləymiş. Yaxşı, çoxdan gəlmisən?

— Bir aydan artıqdı.

— Xalan ölsün, a bala, hələ indi xəbər tuturam. Qabaqlar hərdən bir Gilan da bizə gələrdi. Qayıdıbmı evə?

Gilanın adını eşitcək İqrarın içi göynədi. Sanki qaysaqlanmış yaralarının üstü qopdu, yerinə duz səpdilər. O, keçirdiyi halı büruzə verməmək üçün gülümsünərək soruşdu:

— Qayıtsa, bilərsən ki...

— Xeyli var, görmürəm. Deyirlər alver eləyir. Maşallah, əli-uzun qızdı. Lap oğlan uşağı kimidi. Kimsəyə yük deyil, özü öz başını dolandırır. Oğlum, pis zəmanədi. Böyründə yıxılıb ölənə baxan yoxdu. Dünya dəyişib bilmirəm, yoxsa, adamlar.

— Dünya həmən dünyadı, dəyişən insanlardı. Ata oğula, qardaş qardaşa etibarsızlıq eləyir.

— Eh... Ondan danışma. Elə zəmanədi, ana balanı eşitmir. Biz belə şey görməmişdik. Yatanda yuxumuza da girməzdi, bala... Adamlar pozulub... İndi işə düzəlmisənmi?

— Tikintidə işləyirəm. Tuğay dayı, ailəsi mənə kömək eləyirlər. Bu evi də onların sayəsində təmir elədik. Mənim pulum hardaydı?

— Gilan qayıtsaydı, yemək-içməyinə baxardı.

— Hələ ki, özüm eləyirəm. Əl-ayağım yerində, canım sağ.

— Evdə qadın hənirtisi olsa, yaxşıdı.

— O, indinin işi deyil, xala, baxarıq.

— Ədə, bəlkə, Gilanın da xəbəri yoxdu, sənin gəlişindən?

İqrar çiyinlərini çəkməyə məcbur oldu:

— Bilmirəm, bəlkə də.

— Oğlum, bacın cavan cuvənəzəndi, şərait yarat, o da ailə qursun.

— Mən necə şərait yarada bilərəm ki?

— İstəyən olsa, ver getsin. Özün də ailə qur. Aytac namərdlik elədi. Gedəni saxlamaq olmaz. Səndə heç kəs günah görmür,





görməz də. Elə arvadlar var, ərinin evindəcə...

— Gilan harda ola bilər?

— Nə bilim, oğlum. Hə... Bir dəfə gəlinlərə deyib ki, Əliməmməd adlı birisi, guya onu istəyir... Sonra bir xəbər çıxmadı.

— Əliməmməd kim idi?

— Deyəsən, vağzal uşaqlarından olub. Yəqin o da alverçidi. Kim olur, olsun... Evli-eşikli olsun. Xoşbəxtliyin əldə eləsin... Oğlum, gəldim, həm səni görüm, hal-əhval tutum, həm də evimizə dəvət eləyim. Həyatın işini bilmək olmaz, budu ha, bir də gördün Əzrayil kəsdirdi başımın üstün, aman vermədi, sizlərlə də görüşüm.

— Nə danışırsan, Zərnigar xala? Sən ki qorxaq adam deyildin?

— Qorxmuram, oğlum, nə qismətdi, onu da görəcəm. İstəyərdim ki, ölümümdən qabaq bütün qohum-əqrəbamla görüşüm, dərd-sərlərini öyrənim. Gedəndə də, nigaran getməyim. Allaha yalvarırdım ki, tez qurtarıb gələsən, səninlə kəlmə kəsəm, halallığını alam.

İqrar təəccüblə Zərnigarın üzünə baxdı. Sonra dedi:

— Sən nə danışarsan, xala. Bizim hamımızın sənə borcumuz var. Hər dəfə sizə gedəndə süfrə açmısan, çörək vermisən, ac qarnımızı doyuzdurmusan. Anamın imkanı olmayanda əl tutmusan. İnanıram ki, Gilana da nə vaxtsa, evində yer eləmisən, yedirib-içirmisən, məsləhətlərini vermisən. Səndən inciyib-küsməyə haqqımız yoxdu. Sən məni bağışla ki, bir aydan artıqdı gəlmişəm, səni gəlib yoluxmamışam, hal-əhvalını öyrənməmişəm. Səhvimi indi dərk eləyirəm. Bu, mənim üçün böyük qəbahətdi, etibarsızlıq, dəyanətsizlikdi.

— Yox, oğlum. Səndən xahiş edirəm, Gilanı tap, onu evinə gətir. O, səndən çox uşaqdı. Onu aldada bilərlər. Kimsəsiz, arxasız gözəl-göyçək qıza söz deyən çox olar. İndi gəlmisən, heç olmasa, ona sahib dur, qanadlarının altına al. Elə adamlar

tanıyıram, tanımadıqları şəxslərə dayaq dururlar, himayələrinə götürürlər. Gilansa sənin bacındı. Qanı qanındandı, canı-canından. Sən onu atsan, özünü daha pis vəziyyətə salarsan. Bayaqdan yox idin, səndə günah görmürdülər. Şükür Allaha, gəlmisən, onun pis işini görüb, deyəcəklər İqrarın bacısıdı. Bunu istəyirsən, oğlum? Yox, bu, kişilikdən deyil. Ailənizi istəyən adamlar onu sənə rəva bilməzlər. Allah da səndən incik qalar. Düşmənin də ondan istifadə eləyər... Səni sındırar. Mənim təcrübəm çoxdu. Az-çox insanları da tanıyıram. Xatirinə dəyməsin, İqrar, atalar deyib: "Yetimə gəl-gəl deyən çox olar, çörək verən az". Sən Gilanı qanadların altına çəksən, atanın, ananın da ruhu şadlanar. Heç olmasa, onların xatirinə mən deyəni elə... Qaldı uşağının məsələsi... Onu gedib görmüsənmi?

— Gələn günü.

— Bəs sonra?

— Yox.

— Uşağın günahı nədi? Oğlum, mən ömrümü yaşamışam, heç nədə gözüm yoxdu. Təcrübəm mənə imkan verir deyim ki, arvadın səni gözləmədi, getdi, öz işidi. Yəqin o kişidən də doğacaq. Sənin oğlun niyə qapılarda qalmalıdı? Mən məsləhət bilirəm, gecikdirmə, oğlunu götür, gəl evinə. Gözünün qabağında olsun. Özün tərbiyə elə. Nə taparsan, qoy ondan yesin. Bilsin ki, atası kimdi. Kimin çörəyini yeyir? Sən sağ ola-ola, o, başqasına atamı deməlidi? Bir nəslin, bir kökün övladlarıyıq. Nəsli-zatı bilinməyənin aqibəti də yaxşı olmaz. Ürəyimə gəlib deyəcəm, saxlamayacam. Nəslin davamçısı oğuldu. Onu da kiməsə ümid olmaq olmaz. Demirəm ki, Nurlan ona baxmayacaq, onu ac saxlayacaq. Yox. O da bacardığını, gücü çatanı eləyəcək. Nəvəsidi. Özün düşün...

İqrar dərin fikrə daldı. Handan-hana özünə gəlib Zərnigara təşəkkürünü bildirdi:

— Düşünürəm, Zərnigar xala.





— Bilirəm, İqrar, Aytaca acıqlısan, ola bilsin ki, ona nifrət də eləyirsən. Bəlkə lap qanını içməyə hazırsan. Onların faydası olacaqmı? Qətiyyən yox! Nə olsun ki, səkkiz il türmədə yatmısan. Türmə də insanlar üçündü. O xarabaya kişi də düşür, qadın da. Onlara heç kəs yararsız adam deməz. Hamının özünə görə hissi, duyğusu, istəyi var. Heç kəs anasının qarnından cinayətkar kimi düşməyib. Sənintək şərə, böhtana düşənlər də çoxdu... Təkrar eləyirəm ki, uşağı heç kimə satmaq olmaz. Aytac evdən çıxanda mən uşağı istədim: — Ver, mən saxlayım, — dedim. Mənimlə razılaşmadı... O vaxtdan içimdə elə bil od qalandı. Alışıb-yandım. Nə fayda, hökumət uşağı doğma anasından alıb mənə verməyəcəkdi ki? Versəydi də, onu Allah götürməzdi... Qandınmı, İqrar, mən sənin balan üçün cəhd göstərmişəm. Alınmadı... İndi qorxuram ki, küçə uşağı Nurlanın əlindən ala. Oğurluq, narkotika nədi, o zəhrimara qurşana. Onda sakit dura biləcəksən?! Rahat yatmağı bacaracaqsan?!

Vaxtdı, İqrar, mən həm də bu sözləri sənə deməyə gəlmişdim. Dedim də. Bundan sonrakı məsuliyyət sənin boynundadı.

Danışdıqca əsəbiləşirəm. Yenə deyirəm, baş verənlərdə sənin günahın yoxdu. Onun üçün də səni məzəmmətləmirəm. Bundan sonrakı işlər üçün isə cavabdehsən. Mən indi durub gedirəm. Sabah axşam səni evdə gözləyəcəm.

— Sabah yox, Zərnigar xala. Vaxt tapıb gələrəm. Hər gün işləyirəm. Vəziyyətimi də bilirsən. Dəqiq vaxt demirəm, ancaq gələrəm.

Zərnigar ayağa qalxıb getməyə hazırlaşırdı ki, İqrar bir də Gilanı soruşdu:

— Gilan hardadı dediz?

— Mən nə bilim, ay saqqalı ağarmış, məndən söz alırsan? Mən yaşda arvada yalan danışmaq olar? Allah onu bu yaşda mənə bağışlar?..

Zərnigardan üzr istəməkdən savayı İqrarın çarəsi qalmadı.

İqrar xalasını avtobus dayanacağına qədər ötürdü.

* *
*

Xəyanətlər nəticəsində daim fiziki və mənəvi əzablara düçar olan İqrarın insanlara inamında dərin çatlar yaranmışdı. O, kimliyindən asılı olmayaraq, bütün adamlara ehtiyat və şübhəylə yanaşırdı. Ünsiyyətdə olduğu adamların dediklərini dinləməyə çalışır, özü isə ağzından bir kəlmə də olsun "quş" buraxmamaq üçün çox zaman susurdu. Son zaman Tuğay kişi də, Gülər qarı da təkid edirdilər ki, Gilanla barışsın, oğlunu Nurlanın yanında qoymasın, öz evinə gətirsin. O, özü də bu barədə çox fikirləşmişdi, çox götür-qoy eləmişdi. Bütün mənəviyyatı zəhərlənən, əxlaqsızlıq yolunun yolçusuna çevrilən Gilanla daxilən heç cür barışa bilmirdi. Hərdən anasını xatırlayanda, bacısıyla keçirdiyi xoş uşaqlıq çağlarını, onun qəh-qəhələrini, bacısı üstündə həyət uşaqlarıyla ağızlaşmalarını, onu qorumasını yadına salanda daşlaşmış qəlbi yumşalır, ruhi aləmində adi vaxtlarda olduğundan daha kəskin, daha artıq təbəddülatlar baş verirdi. Belə anlarda o, öz danışığına, hərəkətlərinə göz qoyur, insanlara özgə münasibət bəsləyirdi, axı, biz insanıq deyə düşünürdü. Biz dünyaya gəlməmişik ki, vuraq, dağıdaq, günahsız adamları şərləyək, onlara böhtan ataq, kiminsə min bir əzab-əziyyətlə qazandığını əlindən alaq; hər hansı haram tikə üçün canımızı odlara yaxaq; xeyirxah işlərə arxa çevirək; haqqı nahaqqa boğduraq; həqiqətin üstünə yalan pərdəsi çəkək; insanları aldadaq; özümüzdən güclülərin qarşısında tir-tir əsərək, mədhiyyələr oxuyaq. Bu qeyri-insani hərəkətləri Allah götürərmi? Günahım olmaya-olmaya məni qaranlıq zindanlara atdılar. Günahsız olduğumu bilə-bilə rüşvət almaq məqsədilə müstəntiqlərin məni cəhənnəm oduna atmalarına nə ad vermək olar? Ailəmin dağılması, bacımın əxlaqsızlar yuvasına sürüklənməsi, hazırda oğlumun qapılarda boynubükük, gözləri yaşlı qalmasının intiqamını mən kimlərdən almalıyam? Bəli! Bu gün hamı mənə ağıl dərsi verir. Ağıllılar da, ağılsızlar da. Hamı mənə sakit olmağı məsləhət bilir. Mənə barışmağı təklif eləyir. Sağ olsunlar. Tuğay kişinin, Gülər, Zərnigar xalanın xoş niyyətlərini anlayıram, dəyərləndirirəm. Görən, səkkiz illik türmə divarları arasında mənim çəkdiyim əzab-əziyyətlərin, mənəvi işgəncələrin həddi-hüdudunu bu yaxşı adamlar təsəvvür eləyirlərmi? Hələ düz-əməlli özünü tanımayan, yetkinlik çağına yenicə qədəm qoyan, doğmaca bacımın həyatını məhv eləyən zəhərin təsir dərəcəsindən bu adamlar xəbərdardılarmı? Bu əzab məngənəsində çırpınan, can verən adama rahat məkanda çay içə-içə təsəlli vermək humanizm hesab oluna bilərmi? Bu əxlaqsız cəmiyyətdə isməti hərraca qoyulan tək mənim bacım deyil! Zindana atılan kişinin nigahlı qadınına sahib olmaq namusdandımı?! Bir yetimi, imkansızı cəzalandırıb min dəfə nəzir-niyaz verməklə günahı yumaq mümkündürmü və bunu haqqı nazil eləyən Allah götürərmi? Mənim məsləhətçilərim niyə başa düşmək istəmirlər ki, əqlin, məntiqin dərk elədiyi həqiqəti nəhayətsiz dəryaları andıran insan ruhu, insan mənəviyyatı özünə yaxın buraxa bilməz. Bəli, Tuğay dayı, Gülər xala, Zərnigar xala bu gün siz deyənlərə etinasız deyiləm, hamısını içimdə götür-qoy eləyirəm. Etiraf eləyim ki, odla su arasında çarpışmadayam. Bir tərəfdə canım qədər istədiyim doğma bacımın ləkələnmiş şərəfi, ayaqlar altına atılmış ləyaqəti, murdarlanmış isməti, çirkaba bulaşmış ar-namusu, hələ dünyadan xəbərsiz oğlumun acı göz yaşlarıyla yoğrulmuş taleyi, o biri tərəfdə zülm və zindanlar ağuşunda keçən həyatımın dözülməz səkkiz illik dövrü. Bu dövrdə nə qazandım, nə itirdim?! Bunları bircə dəfə mizan-tərəziyə qoymusuzmu? Hansının artıq, hansının əskik olduğundan halısızmı? Yox! Məndən inciməyin, əzizlərim, bütün ağrı-acıları, əzabları mən çəkirəm, siz yox! Siz

göstəriş, məsləhət verə bilərsiz... Buna haqqınız da var. Bəs mənim haqqım?! Bəs bacımın haqqı?! Oğlumun haqqı?! İcazə verin, bu azadlıq dediyiniz aləmdə özüm düşünüm. Heç olmasa, ağlımla öz həyatım üçün qərarı bircə dəfə özüm verim. Əzizlərim, heç birinizin təcrübənizə şübhə eləmirəm. Səmimi deyirəm: idrakımla qəlbim arasında dəhşətli vuruş gedir. İdrakım deyir: əl saxla! Qəlbim hökm eləyir: nə durmusan: vur, intiqamını al! Məni qınamayın, ağılsız, düşüncəsiz də sanmayın. Ağlımın hisslərimi qul eləməsinə də inanmayın. Əcaib duyğularımın, çılğın hisslərimin ağlımı cilovlamasını da təsəvvürünüzə gətirməyin. Hazırda burda, çarpayımda uzanmışam. Başımdakılarla qəlbimdəkilər, əqlimlə ruhum arasında dərin bir uçurum var, desəm, inanın. Hərdən çaşqınlıq məni dəli olmaq dərəcəsinə gətirir. Özüm də düşünürəm ki, belə yaşamaq olmaz. Nə vaxtsa, ya ağlımın, ya da hisslərimin hökmünə tabe olmalıyam. Hələ ki heç biri mənimçün məqbul deyil! Uzanmışam. Yerimdə özümçün dayaq nöqtəsi axtarıram. Tapacammı, tapammayacammı, bilmirəm. Necə olur ki, oturduğum yerdəcə Müzəffər məni oda salıb kənara çəkilir. Ailəmi şikəst eləyir, məni ölmüş vücuda çevirir, ona cavab verməyə qeyrətim çatmır. Müzəffər mağazamızı özəlləşdirib, onun mənəvi və maddi təsir qüvvəsindən anamın ürəyi çatlayıb, dünyasını dəyişib. Əvəzində mən ittiham olunub qazamata düşürəm. Niyə? Ona görə ki, oğurladığı pullardan rüşvət verib mənim ağzımı yummağı bacarıb? Ağzım yumulu olsa da bu gün əllərim açıqdı, Müzəffər! Heç özüm də bilmədən qurbanlıq olmuşam. Bilirəm, elə bir zəmanəyə yetişmişik ki, zəiflərə, imkansızlara, kasıblara görə güclülər, imkanlılar, varlılar ittiham olunmurlar. Bu günkü qərarım qətidi, Müzəffər, sən ölməlisən. Bu qərarıma görə qınansam da, qınanmasam da, sənin axırına çıxacam. Tərəddüd eləmədən qanından bir stəkan da içəcəm! Oğula qeyrətsiz ata gərək deyil. Deyirəm, mən sənə əl uzadanda səsini də çıxara bilməyəcəksən. İstər bu əməlim





mənəviyyata sığsın, istər sığmasın. Daha mənimçün heç bir əhəmiyyəti yoxdu. Müzəffər, insan var bir toyuq başı kəsməyi bacarmır, ürəyi sıxılır. İnsan da var, bir göz qırpımında günahsız başları üzməyə hazırdı. Əmin ola bilərsən, mən onların heç birindən deyiləm. Sən məni tanımırsan. İçimdə fırtınalar, tufanlar qopur. İntiqamımı, qisasımı almalıyam. Haqqımı yerdə qoymayacam. Bəli, rəhmətlik anam məni bundan ötrü dünyaya gətiribmiş. Mən o qədər də müti deyiləm. Mən yalnız böyük Yaradan qarşısında mütiyəm. Zərnigar xala necə dedi: "Oğul nəslin davamçısıdı". Deməli, oğul nəslin daşıyıcısıdı. Mənim oğlum da, harda olur-olsun, nəslin daşıyıcısıdı. Məni tanısa da, tanımasa da, oğlum var, missiyamı o, genlərinin təsiri altında yerinə yetirməlidi. Əks halda, o, qeyrətsiz olacaq. Onda kişilikdən söhbət gedə bilməz. Mən Müzəffəri qətlə yetirməklə doğma oğlumun, bacımın, anamın, özümün intiqamımı almış oluram. Əslində, bu dediklərim nə qisas, nə də intiqamdı. Ailəmin və özümün təəssübümdü. Mənə elə gəlir ki, Allah qarşısında da günah işlətmirəm. Deyə bilərlər ki, bir çibinə həyat verəmmədiyin halda, bir insan ömrünə nöqtə qoyursan, özünü də Allah qarşısında günahsız hesab eləyirsən. Bu, nə ədalət, bu, nə haqdı? Onda belələrinə deyərəm ki, zəhmət çəkib ədaləti başıma gələnlərdə axtaraydınız!..

*   *
*

Həyatının ən çaşqın anlarını yaşayan, bütün günü soyuqlu-sazaqlı, şaxtalı havada boş-boşuna şəhərdə ayaq döyən İqrar hava qaralanda səkkiz ildən artıq müddətdə üzünü bircə dəfə görmədiyi, mərhum əmisi Vəkilin yeganə qızı, bacısından heç də az istəmədiyi Mirvarigilə getdi. Ucaboylu, gülərüz, qarabuğdayı Mirvarinin otuzdan artıq yaşı vardı. O, ixtisasca tibb bacısı olsa

da ailə, uşaq qayğısı onu işdən ayırmışdı. Sağlam əxlaqı, güclü qabiliyyəti olan bu qadın fikirləşmədən, yüz ölçüb bir biçmədən iş görməzdi. Qohumcanlıydı. Qapı açılanda Mirvari əvvəl-əvvəl İqrarı tanımadı. İqrar gülümsünüb ona sarı yeriyəndə Mirvari həyəcandan qışqırıb əmioğlusunun üstünə atıldı. O, İqrardan cəmi-cümlətanı üç ay balacaydı. Ortaboylu, dolubədənli bu qadın olduqca istiqanlıydı. Hiylədən, məkrdən, ikisifətlilikdən zəhləsi gedirdi. Ürəyindəkiləri üzündən oxumaq olurdu. Badamı gözləri, uzun kiprikləri, çatma qaşları, yastı burnu sarıbəniz sifətinə cazibədarlıq gətirirdi.

Mirvari hədsiz sevinclə dedi:

— Boyuna qurban olum, gün hardan doğdu, xoş gəlmisən, qardaş, neçə vaxtdı həsrətini çəkirdim. Gözlərimiz aydın. Vallah, bu gün üçün bizə nəzir-nisaf düşür. Nə vaxt gəlmisən?

İqrar gülümsündü, sonra bir qədər utancaqlıqla dedi:

— Xeyli var.

— Ay pir olmuş, nə vaxtdı burdasan, indi gəlirsən?

— Evin təmirinə başım qarışmışdı.

— Səndə pul hardandı?

— Qonşumuz Tuğay dayıgil sağ olsunlar, mənə kömək eləyirlər.

— Nə qədər lazımsa mənə de, imkanımız pis deyil.

— Allah həmişə var eləsin. Eşitmişdim ki, Səid Moskvada işləyir. Yenə ordadı?

— Hə... Biz də yayda ordaydıq. Bir az yaşadıq, uşaqların məktəbinə görə biz gəldik, o, qaldı. Burda iş müşküldü, cavanların çoxu orda alverlə məşğuldu.

— Bəs uşaqlar hardadılar?

— Yan otaqda dərslərinə hazırlaşırlar... Ağzım qızışıb söhbətə, çay-çörək hazırlamaq tamam yadımdan çıxıb.

— Tələsmə, hələ nəfsim çəkmir. Uşaqları görüm, sonra.

İqrarla Mirvari yan otağa keçdilər. Uşaqlar tanımadıqları kişinin anası ilə gəldiyini görcək ayağa qalxdılar. İqrar əyilib Əfsanəylə Telmanın saçlarından öpdü və üzünü Mirvariyə tutaraq dedi:





— Böyük uşaqdılar. Mən gedəndə Əfsanə balacaydı. Telman...

— Hə... Əfsanənin doqquz, Telmanın altı yaşı olacaq. Telman Əfsunla yaşıddı.

Əfsun adını eşitcək, İqrarın sanki içi titrədi. Ancaq çalışdı ki, halındakı dəyişməni büruzə verməsin. Onun daxili hissiyyatı Mirvaridən də yan keçmədi. O da hələlik "palan içi sökmək" istəmədi. İqrar gülümsündü:

— Xoşbəxt olsunlar. Gələcək nəslimizin parlaq nümayəndələri...

Mirvari üzünü uşaqlarına tutaraq:

— Yadınızdadı?.. Mən həmişə sizə İqrar əmidən danışardım. Baxın, İqrar əminiz budu, öz ayağı ilə gəlib. Ona nə demək lazımdı?

Uşaqlar bir səslə:

— Xoş gəlmisiz, İqrar əmi.

İqrar bir anda uşaqlara isinişdi. Hardansa ağlına belə bir sual gəldi:

— Dünyanın ən gözəl, ən ağıllı, ən hazırlıqlı balaları kimlərindi?

Uşaqlar sevinc hissiylə bildirdilər:

— Ata-anamızın.

— Doğrudu, bəs ən yaxşı ata-ana kimlərindi?

— Bizim!

— Valideynin arzusu nədi?

Uşaqlar bir anlığa fikrə getdilər, sonra Əfsanə ehtiyatla dilləndi:

— Balalarını xoşbəxt görmək!

Telman:

— Mən də deyim?

— Hə.

— Həm də ağıllı görmək.

Balalarının ağıllı cavablarını eşidən Mirvarinin qəlbi fərəh hissiylə dolurdu.

İqrar:

— Onun üçün neyləmək lazımdı?

Uşaqların hər ikisi eyni vaxtda:

— Yaxşı oxumaq, yazmaq, böyüklərin, müəllimin sözlərinə baxmaq, dalaşmamaq, heç kəsi incitməmək...

İqrar bir anlığa öz arvadını, oğlunu, bacısını düşündü, ağır dərd, qəm, kədər yükü altında olduğunu anladı, belə getsə, oğlu ilə görüşə bilməyəcəyini başa düşdü. Özünün və oğlunun gələcək taleyini gözləri önünə gətirdi. Mənən göz yaşları içərisində inlədiyini, çabaladığını anlayaraq qəhərləndi və əlavə elədi:

— Oğurluqdan, cinayətdən, yalandan, var-dövlətə hərislikdən... uzaq olmaq. Onda adamın başı salamat olar.

Telman:

— Elə işləri axmaqlar eləyər. Babam bilirsən, onda bizə nə deyirdi?

— Yox!

— Pis şeylər barədə fikirləşməyin. Onda adam özü də pis iş görür.

Əfsanə:

— Babam düz deyirdi.

İqrarla Mirvari bir-birilərinə baxıb güldülər. Telman dərhal sual verdi:

— İqrar əmi, anam deyir sənin oğlun var. Adı da Əfsun. O, da yaxşı oxuyur?

— Hə, oğlum... Yaxşı, ananızla mən gedim, o biri otağa. Siz dərslərinizə hazırlaşın.

Əfsanə:





— Bizdən Əfsuna da salam apar.

İqrar kövrəldi:

— Yaxşı, hələlik, mənim balalarım.

Əmioğluyla əmiqızı otaqdan çıxdılar. Danışıb gülsə də, uşaqlarla ürəkaçan söhbətlər eləsə də, beynini qurd kimi gəmirən fikirlərdən qurtarammayan İqrar gedib yumşaq divanda əyləşdi. Əli ilə alnını ovuşdurdu. Boynunun arxa hissəsində küt ağrı duydu. Qan təzyiqindən heç vaxt şikayət eləməsə də, indi düşündü ki, təzyiqi qalxıb. O, astadan Mirvariyə dedi:

— Əmiqızı, zəhmət olmasa, mənə bir balınc ver, başımın altına qoyum. Deyəsən, qan təzyiqim qalxdı. Bircə bu çatmırdı.

Mirvari tibbi cihazı gətirib İqrarın təzyiqini, nəbzini yoxladı. Təziq 140-190, nəbz isə 86 idi. Mirvari qorxu, təlaş içərisində ayağa qalxdı. Əmisi oğluna yardım göstərdi. İstədi, təcili yardım çağırıb, İqrarı xəstəxanaya köçürtdürsün. İqrar qəti etiraz elədi:

— Yox, yəqin, indi ötər.

— Sən bərk əsəbiləşmisən, İqrar. Əmioğlu, olanı geri qaytarmaq olmaz. Sənin də gözəl-göyçək oğlun var. Onun barəsində düşün. Sənə bu həyatda o qalacaq.

— Xəstələnən, ay Mirvari, bəyəm tək mənəm? Görürsən, xəstəxanalarda nə qədər xəstə var. Hələ evdə müalicə olunanları demirəm.

— Əcəb danışırsan, infarkt ola bilərsən.

— Qorxma, ürəyim möhkəmdi. Yaşamağa qadir olmayan ürək tez sussa yaxşıdı.

— Zarafat eləmə təzyiqlə.

— Gilandan xəbərin varmı?

— Bir ildən artıqdı bizə gəlmir. Rəfiqəsigildə yaşayırdı. Mən biləni ordan da çıxıb.

— Bacımın başı xarab olub. Hərə barəsində bir söz deyir. Dəqiq yerini-yurdunu bilən yoxdu. Neçə vaxtdı fikirləşirəm ki, o, necə yaşayır?

— Necə yaşayacaq? Zidgirliklə. Evinə qorxusundan gələmmir. İşi yox, qeyrətli qohumu yox çəkə qanadının altına. Deyə, otur burda, nə yeyirəm, ondan ye. İqrar, əmioğlu, qeyrət qanda olar. Qeyrət dərman deyil ki, damara yeridəsən. O özü qanda olmalıdı. Qeyrət gendən gəlir. Hərdən fikirləşirəm ki, mən də o zavallının biri. Ağzıma daşlar, sabah ərimin başına bir iş gəlsə, üz tutacağım yer yoxdu... O da helə... Onu qoruyan, himayə eləyən lazım idi. O da nəsildə qəhətə çıxdı...

— Deməli, başqa məlumatın yoxdu.

— Yalan nə deyim, axı?

— Qadınlar bir-birilərini yaxşı başa düşərlər. O, sənə vəziyyətini danışar. Bəlkə biz də axtarış aparaq.

— Aparaq... Rəfiqəsini tanıyıram. Mən də onunla görüşərəm, hal-əhval tutaram, tapaq, evə gətirək. Hadisələr onun beyninin qan vaxtına düşdü... Evi dağılsın Müzəffərin. Qızın əxlaqıyla oynadı, onu şikəst elədi. Sən narahat olma. Şükür Allaha, gəlmisən. Darıxma, hər şey qaydasına düşəcək, qardaş. Xəstələnmisən, dərman içmisən, əsəb doğuran söz-söhbətdən uzaq olmaq lazımdır. Danışma, bir az dincəl, görək ötüşürmü?

Bu sözü deyən Mirvari qalxıb mətbəxə getdi. İqrar üçün yüngül yemək hazırlığı gördü. Bir də axşam özünə gələn İqrar Mirvari ilə xudahafizləşib evinə getdi.

* *
*

İqrar gedəndən sonra Mirvarini narahat hisslər bürüdü. O, öz-özünə düşündü ki, ay dadi-bidad, mən lap uşaq düşüncəsiylə hərəkət eləyirəm. Axı özüm də bilmədən Müzəffərlə Gilan arasındakı münasibətlərdən söhbət açdım. İqrar da o qədər dərinə getmədi. Niyə? O, mən deyənləri içinəmi yığırdı? Nə bilmək olar, İqrar içinə yığırdısa, deməli, o nəsə bir şey eləməlidi. Fərqi yoxdu, istər Müzəffərə olsun, istərsə də Gilana. Yaxuddakı, lap hər ikisinə. Eləyəcəksə, zavallı yenidən həbs olunacaq. Mən qəti düz eləmədim. Qal yatırmaqdansa, özüm də bilmədən növbəti faciələrin törənməsinə fitva vermiş oldum. Bu, zavallı İqrara lazımdımı? Yazıq qardaşım, nə az, nə çox, səkkiz il yatıb gəlib. Bir də o zülmə, o məşəqqətlərə onu düçar eləmək insafdandımı? Allah Müzəffərin evini yıxsın. Onu doğan ananın qarnına şiş bataydı. O, ana bətnindəcə öləydi. Adamların da canı vaxtında qurtaraydı ondan. Kimisini şərləyib tutdurur, kimisini öldürtdürür, kimisini də hansı tərəfə yola saldığından bir kimsənin xəbəri olmur. Görən, bu boyda şəhərin sahibləri hara baxırlar?.. Yazıq qardaş, sən dözən dərdə dağ da dözməz, səkkiz il az vaxt deyil. Yatıb gəlib görür ki, lələ köçüb, yurdu qalıb. Heç elə bil onun belə bir evi, ailəsi olmayıb. Dərdi tüğyan eləyir, ürəyini açmağa bircə adamı, ümidgahı yoxdu. Dörd divar arasında özü deyir, özü eşidir. Adam dəli olar, vallah. Zavallının halını fikirləşəndə dəhşətə gəlirəm. Gilan, indi o, sənin barəndə düşünsün, yoxsa, arvadının vurduğu zərbələrə tab gətirsin? Əfsun barədə neyləsin bəs? Ananız canını götürüb getdi. O, sənin hərəkətlərinə dözmədi. İndi də yazıq qardaşın çərləyəcək. Sənin əxlaqsız hərəkətlərin yerə-göyə sığan deyil. İndi İqrar neyləsin? Bir anlığa səninlə razılaşaq, Gilan. Bir zamanlar başsız idin. İt-qurd sənə təsir göstərdiyi üçün qorxub evdən çıxdın, baş götürüb qaçdın. Canını qurtarmağa çalışdın. İndi ki, qardaşın gəlib, qayıt evinə də... Gəlib qardaşınla niyə görüşmürsən? Bəyəm, analarımız bizə beləmi tərbiyə vermişdilər? Yox, bacı, mən sənə haqq qazandırammıram!.. Şəhərin altından girib üstündən çıxırsan. Üzün üzlər görüb. Əxlaqsızlığını heç cürə inkar eləyə bilməzsən. Səndən indi nə tələb olunur? Gəl, qardaşını gör, bildiklərini necə var, elə də danış. Qardaşın eşitsin, dostunu, düşmənini tanısın. Bəlkə, onun sənə rəhmi gələcək? Bəlkə, sənə deyəcək ki, nə olub-olub, bacı, çəkil bu yoldan, getmə o əxlaqsızlıq yuvası-

na, rədd elə o dəyyusları... Sən də yığışıb oturarsan yerində, Allah da görər ki, qayıtdın yoluna, sənə də bir qapı açar. Gedərsən ərə, ev-eşiyin, sahibin olar. Uşaq doğarsan, elədiklərin unudular, adamlar arasına çıxarsan, sayıb-sayılarsan. Hara qaçacaqsan belə, a bədbəxt, İqrar kişi xeylağıdı, onu başa düşürəm, çox şeyi deyəmmir, çox şeyi soruşammır. Bu, o demək deyil ki, İqrar avamdı, heç nə başa düşmür, ya qorxur Müzəffərdən. Bax, mən buna inanmıram. Yüz Müzəffər ola ha, İqrar ona can verməz, onun qənşərindən qaçmaz, dediyi sözü götürməz. Sən qardaşını yaxşı tanımamısan, Gilan. Bircə səni görsəydim, dilim dilinə çatsaydı, başa salardım səni. Sən elə bil bu şəhərdə yaşamırsan. Gündüzlər yatıb, gecələr gəzirsən. O maşın sənin, bu maşın mənim eləyirsən. Deyilənə görə, tanımadığın kababxana, restoran yoxdu. Siqaret də çəkirsən, şərab da içirsən. Özün ağılda bir neçə qadınla ad çıxarmısan. Axı sənin atan, anan abırlı-ismətli adamlarıydı. Onların ruhunu niyə belə incidirsən? İqrar bu şəhərdə necə yaşasın, necə işləsin, başına papağı necə qoysun?! Bayaq o, mənim uşaqlarımla danışırdı, gülürdü. Üz-gözünə baxdım. Ciyərim parçalandı, ürəyimin yağı əridi. Bilirsən niyə? O, danışırdı, üzü gülürdü, içərisi yanırdı, doğranırdı. Yazıq qardaşım, qəm, qüssə, kədər dənizində boğulurdu. Hər üzündə gülüş olanın içində sevinc, fərəh olmaz. İqrar göz yaşları içindəydi. Gərək onu anlayan, başa düşən ola. İqrarla uşaqlıqdan bir yerdə olmuşuq, bir yerdə böyümüşük. Yaxşı yadımdadı, anam bizə bir boşqabda yemək verərdi. Növbəylə ikimizi də bir qaşıqla yedizdirərdi. Qəribəydi, sonralar da İqrarın düşüncələrindən xəbərdar olardım. O, heç vaxt pis düşünməzdi. Mərdimazarlıq əlindən gəlməzdi. Zəhmətkeş idi, mənim İqrar qardaşım. Bəzən oturub öz-özümə düşünürəm ki, bu təbiətdə, bu xilqətdə adam niyə vəhşilər əlinə düşməliydi?! Allah-Təala rüzgarı ona görə yaratmışdı ki, onu yaxşılara nəsib eləsin?! Allah dərdi də, bəlanı da çox vaxt onu sevənlərə verir. Varlığıyla ona bağlananlara bəxş





eləyir. Axı niyə? Doğrusu, bu suala heç cürə cavab tapammıram. Bəyəm, hər kəs öz düşüncəsinin, əməlinin nəticəsini görsə, ədalət mizan-tərəzisi pozular? Hər kəs öz qaynatdığı qazanın xörəyindən dadsa, qiyamət qopar? Deyirlər, Allahın səbri geniş, hikməti hünər, qüdrəti böyükdür. Biz ən çətin anlarda ona sığınırıq. Ümidimizi o gözəgörünməzə bağlayırıq. Başqa yolumuz da yoxdu. Əxlaqsızlıq şərəfsizlikdi, bacı, insani hissləri öz xoşunla itirməkdi. Əxlaqsız yola düşdüyün üçün sən özünə bəraət qazandırmağa da çalışa bilərsən. Bir sözlə, özünə hər cür don biçməyə cəhd göstərərsən. Unutma ki, burda sənin də canında işvəkarlıq olub. Qudurğan ehtiraslarının təsiri altında soyunub sənə yanaşanların qolları arasına can-başla tullandığını da boynuna al, etiraf elə. Ehtirasın ötərgi xoşhallığının sonu qadın üçün əvvəl, axır peşmançılıqdır, ən ağır faciədir, ləyaqətsizlik, şərəfsizlikdir. İmansızlıqdır, əxlaqsızlıqdır. Canını od-alov nə qədər yandırsa da, qadın olan kəs çılğın ehtiraslardan, qudurğan işvəkarlıqdan qaçmağa borcludur. Axmaq bacım! Unutma ki, mən də qadınam. Mənim də qadınlıq hisslərim, duyğularım var. Açıq danışaq, mənim də nəfsim var. İkimiz də qadın olduğumuz üçün sənə deyirəm: bəyəm bizi insanilikdən uzaqlaşdıran, mənliyimizi, şəxsiyyətimizi ayaqlar altına atmağa vadar eləyən murdar, əcaib hisslərimizi, cilovlaya bilmərikmi? Bizi özümüzdən savayı buna vadar eləyən varmı? Qardaşımızı miskin vəziyyətə salmağa haqqın varmı? Onun günahı nəydi?! İtin birisinin ona "oğraş", "binamus" deməsinə kim əsas verdi?! Allah bilir indi hardasan? Kəpəzin qoynundamı? Hacıkənd istirahət mərkəzinin ağuşundamı? Qoşqarın ətəyindəmi? Kimlə? Alçaq Müzəffərlə? Namərd müstəntiqlə? Dava-dalaş saldığın Ağasəflə? Gündə birini qəbul elədiyin naməlum şəxslərlə? Nə üçün? Pula görə? Gödənini doldurmaqdan ötrü? Dalını-qabağını bəzəmək üçün?! Sarsaq, bacı! Mənim də başım xarab olub, düz-əməlli işləmir. İşləsəydi, İqrara allı-güllü yalanlar deməzdim. Hərəkətlərini

pərdələməzdim... Neyləyim ki, qardaşımıza yazığım gəlir. Bununla belə, istəyirəm ki, sənə kömək eləyim. Hərçənd, sən buna layiq deyilsən, Gilan!

* *
*

İqrar dərin hissiyyatlı adam idi. Başına nə gələcəyini əvvəlcədən bilməsə də, ürəyinə dammışdı ki, nəsə xoşagəlməz bir şey onu gözləyir. Həmin gün o, hər şeydən özünü qorumağa çalışırdı. Gün axşama yetəndə sevinirdi ki, gözlənilən təhlükə aradan qalxdı. Narahatlığı ötüşdü. O, işdən qayıdanda yolunu bazardan saldı. Kolbasa, kabablıq ət, toyuq, pomidor, xiyar, alma, armud, bir şüşə də rus arağı aldı. Fikirləşdi ki, İlqarın toyu yaxınlaşır. Bu axşam İlqarla oturub onun sağlığına yüz-yüz vurarlar. Bu, İlqarın da ürəyincə olar. O, evə gəlib düşündüklərini İlqara bildirənlə insafən, o da sevindi. Onlar əti, toyuğu doğrayıb duzladılar. Şişlərə keçirib, həyətdə manqal qaladılar. Çarta-çartla yanan kömürlərin gözü mis rəngə çalırdı. İqrar şişləri gətirib manqala qoydu. Ən yaxşı tikəli şişləri Tuğay kişiylə Gülər qarı üçün nəzərdə tutmuşdu. Onlar bişən kimi İqrar tikələri böyük bir boşqaba çəkdi. Pomidor, xiyar, armud və almaları da bir başqa boşqaba qoydu. Sonra İlqara dedi:

— Qardaş, sən şişlərə bax. Mən də bunları Gülər xalaya verib gəlirəm.

Kababın qoxusu ətrafı bürümüşdü. İlqar özünü saxlaya bilməyib bişən tikələrdən dişinə çəkdi. Ac olduğundanmı, çoxdandı manqalda özü kabab bişirmədiyindənmi, ya nədən idisə tikələr ona çox ləzzət verirdi. İqrar qabı Gülər xalaya verdi. Arvad gülümsünüb dedi:

— Ədə, sizdən kabab bişirən olmaz, əl-ayağınızı yandırarsız. Ürəyiniz kabab istəyirdisə, kişiyə deyəmmirdiz? İşsiz-gücsüz adamdı, bayaqdan oturub evdə, təsbeh çevirir.





— Əl-ayağımızı pişik yeyib? Biz dura-dura kişiyə zəhmət verəcəyik?

— Yox, onun üçün demirəm. Tuğay bişirən kababın iyi adamı doydurur.

— Narahat olma, Gülər xala, bizimki də elədi. İyi qonşuları ayağa qaldırıb.

— Qonşular dedin, yadıma düşdü. Qonşu Gülbutanın südəmər uşağı var... Umsunar, oğlum. Ona da bir şiş düzəldə bilərsiz?.. Şişər... Yoxsa, bu, Tuğayla mənə çoxdu.

— Baş üstə, Gülər xala. Ət çoxdu. Bişirib verərik.

— Hə, başına dönüm, ləngitmə. Gətir, mən verim, sizdən götürməz, baxma, zənən xeylağıdı.

İqrar geri qayıdıb hazır toyuq, ət kabablarından, meyvədən bir boşqaba qoyub yenidən Gülər qarıya çatdırdı. Sonra evdə süfrə açıb yemək-içməyə oturdular. Axşamdan xeyli keçmişdi. Yeyib-içməyin şirin yerində işıqlar söndü. İqrarın qanı qaraldı. İşığa baxanların qarasına deyinə-deyinə qalxıb evdəki yeganə şamı yandırdı, gətirib şamdana qoydu. Özü də keçib əvvəlki yerində əyləşdi. Araqdan süzüb qədəhi əlinə götürmüşdü ki, həyətdə tappıltı eşidildi. Hiss etdilər ki, kimsə həyətə tullandı. İlqar: — Həyətə kimsə atıldı, — dedi. Bunu demişdi ki, güllə səsi eşidildi. Pəncərənin şüşələri çiliklənib töküldü. İqrar dərhal: — Yat aşağı, — deyə pıçıldadı. İlqar özündə ağrı-acı hiss eləmədi əvvəl. Çox keçmədi ki çiynində ağrı duydu. Pıçıltıyla: — Deyəsən, bədənimə qan axır, — dedi. İqrar çətinliklə şamı şamdandan saldı, üfürüb söndürdü. Otaq zil qaranlıq oldu. Göz-gözü görmürdü. O, İlqarı qucaqlayıb pəncərənin qarşısından aralamaq istədi.

İlqar ufultu ilə:

— Yavaş, çiynim öldürür məni, — dedi.

Bu dar macalda İqrar nə eləyəcəyini bilmədi, əlacsız qalıb

həyətə çıxmaq istədi. İlqar qoymadı:

— Tələsmə, imkan ver, aradan çıxsın.

— Axı, bu alçaq kimdi?

— Onu sonra öyrənərik.

— İndi qapını açıb çölə çıxmaq təhlükəlidi, səni də vura bilər.

İqrarın narahatlığı getdikcə artırdı. O, türmədən gətirib çarpayının altında gizlətdiyi  bıçağı götürdü. Divarın arxasına sığınıb qapını açdı. Elə bu vaxt həyətdə Tuğay kişinin səsi eşidildi:

— İqrar, İlqar, tüfəng burdamı atıldı?

İqrar dərhal cavab verdi:

— Hə... Tuğay dayı.

— Sizəmi atdılar?

— Hə...

— Bir şey olmadı ki?

İqrar bir söz deməyib tutuldu. Kişi dərhal özünü evə saldı.

— Axı nə olub, niyə səsiniz çıxmır?

İlqar atasını sakitləşdirmək üçün astadan dedi:

— Qorxulu bir şey yoxdu, ata, narahat olma. Güllə çiynimi dəlib keçib.

Elə bu vaxt Gülər qarı da özünü yetirdi. Şamı yandırdı. Qarının səsi aləmi başına götürdü. Üz-gözünü cırdı, saçlarını yoldu. "Mənim balama tüfəng atan namərd", "Balamın günahı nəydi?", "Biz kimə neyləmişik?", "Sözün var, gəl kişi kimi üzbəüz danış", "Haqqını tələb elə", "Mən gəlin gətirməyə hazırlaşırdım, sən neylədin, ay əclaf" — deyə qışqırırdı. İlqar: — Məndə qorxulu bir şey yoxdu, təcili həkimə çatdırmaq lazımdır, — dedi. İqrarla Tuğay kişi şam işığında İlqarın pencəyini çıxartdılar. Onun ağ köynəyi al qana boyanmışdı. Bunu görən Gülər qarının ürəyi sıxıldı. Divarın dibindəcə dizləri üstə çökdü. Tuğay kişi əsəbi halda dilləndi:

— Kömək eləmək əvəzinə gör nə oyun çıxarır?





İqrar — Gülər xala, — deyə arvadı bir neçə dəfə yüngülcə silkələdi, üz-gözünə su səpdi. Arvad yavaş-yavaş özünə gəldi. Səs-küyə qonşular da tökülüşüb gəldi. Qonşu Yetər süfrəni yığışdırdı. İlqarı qonşunun "Jiquli"si ilə xəstəxanya çatdırdılar.

Həkimlər bədənindəki gülləni çıxartdılar. Çox çəkmədi ki, orqan işçiləri də hadisə yerinə gəldilər.

Müstəntiq Pərvin Namazov ilk sualını verdi:

— İçmişdiz?

İlqar:

— Təqribən yüz-yüz əlli qram.

İqrar:

— Bəli, elə olardı.

Müstəntiq:

— Aranızda narazılığınız olmayıb ki?

İlqar:

— Yox.

İqrar:

— Demək istəyirsən, mən atmışam?

— Ola bilər də.

Tuğay kişi:

— Allahu-Əkbər! İşə düşmədik. Bircə bu işimiz qalmışdı.

Müstəntiq:

— Eybi yoxdu, yerində baxarıq.

Tuğay kişi:

— Gecikdirməyin.

Müstəntiq:

— Bizə göstəriş vermə, kişi.

Müstəntiqlə polislər söhbəti uzatmadan palatadan çıxdılar. Onlar hadisə yerinə gələndə artıq işıqlar da yanırdı. İlqar hadisənin kim tərəfindən təşkil edildiyini güman eləsə də bu barədə heç kəsə bircə kəlmə də söz demədi. Gecə lampa işığında polislər həyətə gələnin bir nəfər olduğunu, onun da divardan aşdığı-

nı, atəşin lap yaxından açıldığını müəyyənləşdirib getdilər. Polislər İlqarı nə qədər çək-çevirə salsalar da ondan bir söz qopara bilmədilər. İlqar polisin suallarına “bilmirəm”, “heç kimdən şübhələnmirəm”, “düşmənimi tanımıram”, “kimsəyə pislik eləməmişəm” — deyə cavablar verirdi.

İqrarın düşüncələri, ehtimalları düz idi. O, özünün gələcək fəaliyyət proqramını hazırlamışdı. Sadəcə olaraq İlqarın toyunu gözləyirdi. Onun toyunda iştirak eləmək, Tuğay kişinin ailə üzvlərinə gözaydınlığı vermək, sevincinə şərik olmaq istəyirdi. İqrar düşünürdü ki, onun hər hansı ehtiyatsız hərəkəti qanıqaralıq yarada bilər.

Səhəri gün müstəntiq yenidən İqrarın həyətinə gəldi. Onun türmədən yenicə çıxdığını öyrənəndə İqrar barədə şübhələri bir qədər də artdı. Buna dözməyən Tuğay kişi müstəntiqə əsəbiləşdi:

— Necə fikirləşirsən? Doğurdan da ağlına gəlir ki, özümüz özümüzü qırırıq. Ya başqa dərdin var, müstəntiq? Varsa, açıq de, çəkinmə.

— Kişi, mənim istədiyim sualı vermək səlahiyyətim var.

— Səlahiyyəti verməyiblər axı, adamları dolaşdırasan.

— Səkkiz il yatıb, hər şey ola bilər. Tem boli, narkotik alveri üstə.

— Onu da sizin kimi müstəntiqlər pərçimləyib boynuna. Vicdanınız olsun. Zərərçəkən ki, salamatdı. Gedin, bir də ondan soruşun.

— Kişi, imkan ver bizə, işimizi görək.

— Deyəsən, cinayətkarı, dələduzu aramızda axtarırsan? Cavan oğlansan, sənə dərsi belə öyrədiblər? Ə, a bala, bunu korafəhm yolla, diplom almadan da aparmaq olardı. Heyf, sən alan diplomdan.

— Tuğay kişi, çox danışsan, xiyar əyri bitəcək.

— Bizim torpaq əyri xiyar bitirməz. Bitsə də, bizim yerlərdə





o, inkişaf eləməz. Tərbiyə verəninə bərəkallah. Sən çıx qapıdan, işi başqa müstəntiq aparar. Çatmamış niyyətin bəyan oldu.

Müstəntiq ilişdiyini hiss elədiyindən Tuğayı kənara çəkib söhbət eləməyə məcbur oldu. Sonra da heç bir söz demədən axşam apardığı ölçü-biçini səhər yenidən təkrarladı. Elə həmin qənaətlə də kifayətləndi.

Adamlar həyətdən çəkilib gedəndən sonra Tuğay kişi İqrarı evinə dəvət elədi. Üzünü Gülər qarıya çevirib dedi:

— Qorxma, yüngüldü, Allahın bizə yazığı gəlib. Dur, bir stəkan çay hazırla. Özün də qapını ört. Mənim İqrarla söhbətim var. Qarı getdi. Tuğay dərindən köksünü ötürüb ağır-ağır söhbətə başladı:

— Oğlum, bilirsən ki, səni uşaqlarım qədər istəyirəm. Bu, nə olan şeydi? Sən dünən gəlmisən. İlqar da kı, burda gözün açıb. Düzünü de, burda kiminsə namusuna toxunmaq işi yoxdu ki?

— Tuğay dayı, mən nə demək istədiyinizi bilirəm. Burda namusdan söhbət gedə bilməz. İnanın mənə. Bu işdə İlqarın günahı yoxdu. Mənimlə köhnə haqq-hesabı olanlar görünür təşvişə düşüblər. Düşünürlər ki, qisasımı ala bilərəm. Ona görə də məni qabaqlamaq, başımı əkmək istəyiblər. Gələn adam ya naşı olub, qorxub, əlləri əsib, ya da İlqarı mənimlə dəyişik salıb. Burdan belə çıxır ki, hər iki halda cinayətkar “nayomnikdi”, pulla ələ alınıb. Məncə, o, gəncəli deyil, hardansa gətirilib, niyyətinə nail ola bilmədiyinə görə o da pis vəziyyətə düşüb. Onu da öldürə bilərlər. Bir iş var ki, düşmən hələ bir müddət məndən uzaq dayanacaq. Mənim fəaliyyətimi izləyəcək. Onda belə bir fikir formalaşa bilər ki, mən qorxdum, çəkindim.

— A bala, müstəntiq sənsən, o gedə yox. Fikirləş, gör səni “puşqaya” kim götürə bilər?

— Fikirləşirəm. Kimsə, hər halda çox səfeh adamdı. Bir də ki, Tuğay dayı, bəzən adamı cinayətə məcbur eləyirlər. Görür-

sənmi, azadlığa çıxandan ev-eşiyimdəyəm. Kimsəylə dalaşmamışam, kimsəyə güldən ağır söz deməmişəm. Qeybət qırmıram. Çörəyimlə, gündəlik güzaranımla məşğulam. Qanla oynayırlar. Sən də, Gülər xala, elə Zərnigar xala da həmişə mənə öyüd-nəsihət verirsiz. İndi mənim günahım nədi ki, evimdəcə, halal süfrəmin qırağında mənə güllə atırlar, məni qətlə yetirmək istəyirlər.

— Allah mərdimazarın evin dağıtsın, oğlum. Yenə səbr elə. İndi Gülər xalan xəstəxanaya getmək üçün tədarük görür. Bir stəkan çay versin, içək, sonra onu apar... Özünü də yolda maşından-zaddan gözlə, sənə xətər yetirə bilərlər.

— Narahat olmayın, hələ bir müddət mənimlə işləri olmayacaq. Təki İlqar tez sağalıb qalxsın, toyunu eləyək...

— O da olacaq. İlqar xeyli qan itirib. Qonşunun maşını olmasaydı...

— Tuğay dayı, yaxşı oldu tüfəng səsinə siz tez gəldiz. Sizin gəlişiniz məni ölümdən, İlqarı da çox qan itirməkdən xilas elədi.

— Allahın böyüklüyünə şükür. Adamı dar ayaqda qoymur.

Elə bu vaxt Gülər qarı qapını açıb əlindəki iki stəkan çayı gətirib stolun üstünə qoydu. Tuğay dərhal:

— Hazırlaş, İqrar səni aparsın xəstəxanaya. Özünüz də taksiylə gedin-gəlin.

İqrar tələm-tələsik çayını içib ayağa qalxdı. Zənbili götürüb Gülər qarıyla evdən çıxdı. Tuğay kişi divanda oturdu. Təsbehini götürüb istixarə eləməyə başladı.

* *
*

Neçə gün idi ki, İqrar İlqarın yanında qalır, onun yemək-içməyini verir, danışdırır, başını qatır, darıxmağa qoymurdu. Gündəlik müalicə də öz işini görürdü. Qan köçürmələri xəstənin vəziyyətini xeyli yüngülləşdirmişdi. Üzü işıqlanmışdı. Qolunu çətinlik çəkmədən hərəkətə gətirə bilirdi. İlqarı, Tuğayı, onun ailəsini tanıyanlar gəlir, hadisəylə maraqlanırdılar. Hər dəfə də İlqar maqnitofon lenti kimi başına gələnləri onlara danışırdı. Son vaxtlar İlqar eyni şeyləri deməkdən lap bezmişdi. Elə adamlar da olurdu ki, eşitdiklərindən, ağıllarına gələndən, heç bir məqsədə dəxli olmayan məsələlərdən danışırdılar. Cəfəng söhbətlər İlqarı yorurdu. Həkim tibb bacısına tapşırmışdı ki, ailəsindən savayı, İlqarla görüşə gələnləri onun yanına buraxmasın. Bayaqdan bəri İlqarın keşiyini çəkən İqrar ayağa qalxıb əlini xəstənin alnına qoydu. Temperatur demək olar ki, yox idi. Alnında əl gəzdiyini duyan İlqar yavaşca gözlərini açdı. İqrar ona baxcaq, sevincdən gülümsündü və tez də dözməyib gözlərini yana çevirdi. İlqar onu başa düşürdü. O, çarpayıda çevrilib nəsə demək istəyirdi ki, İqrar onu qabaqladı:

— Yaxşı qurtardın, İlqar. Mənim oduma sən yanacaqdın. Utandığımdan Tuğay dayının, Gülər xalanın üzünə baxa bilmirəm...

— Yox, İqrar. Düz demirsən. Hərənin öz qisməti var. Görünür, əclaf məni nişan alanda hardasa, Əzrailin başı qarışıbmış.

— Ola bilər.

— İqrar, bu faciəni törətmək istəyənlər mənim özümlə də haqq-hesab çəkmək istəyirlər. Hər şeyi öz üstünə çəkmə. Mənim də çox adamla düşmənçiliyim olub. Çoxları ev üstündə məndən narazı qalıblar. Məni gözü götürməyənlər də çoxdu... Soyuq başla fikirləşmək lazımdı, yoxsa aldana bilərik. Güllə ikinci dəfə ürəkdən yan keçməyəcək.

— Ancaq hissiyyatım heç vaxt məni aldatmır. Ürəyimə damanlar, başıma gəlir.

Elə bu vaxt ucaboy, gülərüz, dolubədənli həkim palataya gəldi. Üzünü İlqara tutaraq soruşdu:

— İlqar, hər gün yanında qalan bu oğlan qardaşındı?

— Yox, həkim, qonşuyuq, həm də uşaqlıqdan dostuq.

— “Yaxşı dost yaman gündə tanınar” — deyib atalar. Neçə vaxtdı görürəm ki, sən ağrıdıqca, narahat olduqca bu qonşun deyim, dostun deyim, Allah uzaq eləsin, sanki ölüb dirilirdi. Mən də həkim kimi ona təşəkkür eləyirəm. Dövran dəyişib, hər kəs özünü düşünür. Yanında ölənin qolundan tutan, ya ona bir stəkan su verən tapılmır.

— Gec-tez düzələr hamısı, həkim.

— Təki sən deyən olsun. Cəmiyyətin əxlaqı pozulub, qardaş. Əxlaq, mənəviyyat anlamları öz kəsərini itirib. Onların prinsipləri əvvəllər çox zaman üst-üstə düşərdi, indi baxıram ki, heç uyğunlaşmır da. Bizə bir qocaman filosof mühazirə oxuyardı. Zəngin təcrübəsi vardı. Həmişə mütaliə eləyərdi. Çalışardı, bizə yeni şeylər desin. Bundan özü də ləzzət alardı. Allah ona qəni-qəni rəhmət eləsin. O, deyərdi ki, əxlaq ictimai, mənəviyyat isə insani mənşəlidi... Əxlaq real həyatın prinsiplərindən irəli gələn ideyaları özündə ehtiva eləyən məntiqi düşüncədir. Mənəviyyat isə insan qəlbinin əzəli tələblərinin təzahürü kimi özünü büruzə verən məntiqi duyğulardır. Mənəviyyatın təməli fədakarlıq, mənbəyi xalqın ruhudu. “Fədakarlıq” ötəri təzahürlərdən... özünəməftunluqdan uzaqdır. O, insanlığın bir zərrəsidir. “Mən”, “mən” deyə bağırmaq insanlıqdan uzaq anlamdır, yanlışlıqdır. Əxlaq və mənəviyyat fəlsəfi, tərbiyə isə pedaqoji anlamdı. Əxlaqın qidası həyat, bilikdi. Bunlar vəhdətdə çıxış eləməyəndə tərbiyədən söhbət gedə bilməz.

Yəni, “Nə əkərsən, onu da biçərsən”, yaxud “Nə tökərsən aşına, o da çıxar qaşığına”. Mənəviyyatınkı isə gendi. “Ot kökü üstə bitər”. Bu, qandan gələn məsələdi. Bunların prinsipləri üst-üstə düşəndə insanilik yaranır. Sənin başına gələn hadisə əxlaq və mənəviyyatın, həyat normalarının pozulmasından, prinsiplərin uyğunsuzluğundan, ziddiyyətindən doğur. Sizi yormuram ki?





İlqar dərhal bildirdi:

— Nə danışırsız, həkim, elə bil ürəyimdən xəbər verirsiz.

İqrar:

— Danışın, həkim.

— Biz bu gün ağızdolusu sivil cəmiyyətdən danışırıq. Hanı o sivil cəmiyyət? Qardaş qardaşa atır, oğul, qız ataya, anaya qayğı göstərmək əvəzinə qocalar evinə göndərir, qocalar evində öləndə də meyidinə yaxın durmur, yüngül yol tapıb qocalar evinin müdiriylə danışırlar ki, atamızın, anamızın meyidini özünüz birtəhər eləyin, basdırın getsin, bizim imkanımız yoxdu. Qardaş, elə bil atası, anası ölməyib. Cavan qadınlar neyləyirlər? Gedib əxlaqsızlıqla məşğul olurlar. Kəbinsiz uşaq doğurlar, sonra da aparıb tullayırlar uşağı körpələr evinə. Bunlara nə ad verəsən? Ömrü boyu qayğı göstərdiyin, həyat verdiyin adam sənə düşmən olur. Gözün qorxur, kimsəyə yaxşılıq eləyəmmirsən. Yaxud əlin yanıb ağzına təpəndə, sənə bircə qaşıq su verən olmur. Hara gedirik belədi, vallah! İnsanları sevməsən, Allahını da sevə bilməzsən. Allahı sevəndə yeri də, göyü də, insanı da, bir sözlə, bütün mövcudatı sevirsən. Belə olsa heç kəs heç kəsə güllə atmaz, ziyanxorluq eləməz, şər, böhtan, iftira yaxmaz. Fərqinə varmadan işi tuturuq, kimlərisə fiziki cəzaya, mənəvi iztirablara düçar eləyirik, sonra da öz fəaliyyətimizə diqqət yetirmirik, qüsurlarımıza görə xəcalət çəkmirik, özümüzü məzəmmətləmirik, ağıllı nəticə çıxarmırıq. Cəmiyyət, insanlıq qarşısındakı borcumuzu, məsuliyyətimizi dərk eləmirik. Qəbahətinə görə özünüittiham, özünücəzalandırma insanlığın başlıca məziyyətidi. Cəzalandırsın deyəndə, heç də o fikirdə deyiləm ki, getsin, özünü yandırsın, suda boğsun, ağacdan assın, maşının altına atsın. Qətiyyən. Heç olmasa, alçaqlığını, yaramazlığını anlayıb yanında günahkar olduğu adamlardan gedib üzr istəsin. Belə olanda adam özü də mənən yüngülləşir, zərər verdiyi, ağır dərdlərə, əzablara düçar elədiyi adamlara bir təsəlli verir. Belə olmadıq-

da, ədalətin mizanı pozulur, insanda insana olan sevgi, məhəbbət azalır, bəlkə də, heçə enir. Sevginin, məhəbbətin yerini nifrət tutur. İnsanların insanlara inamı ölür. Belələri daim əsəb, qəzəb, nifrət içərisində yaşayırlar. Fürsət düşən kimi də bir-birilərini ilan kimi çalmağa çalışırlar. Adamlar bir-birinin evində süfrə başında otururlar, duz-çörək kəsirlər, sağlıqlarına badə qaldırırlar, sonra da mənasız bir şeydən ötrü öz aralarında dava-dalaş salırlar, söyüş söyürlər, bir-birilərinə əl qaldırırlar. Məhkəməyə qədər gedib çıxırlar, sonra da arsız-arsız gülüb-danışırlar, təzədən süfrə ətrafında əyləşirlər. Hərdən götür-qoy eləyirəm. Bu da insanlıqdımı? Yox! Belə olacaqdısa, görən, bəs insanı heyvandan fərqləndirən nədi? Hər ikisi yeyir, içir, gəzir, yatır, oynayır... Fərqləri ondadı ki, eynicinsli heyvanlar, quşlar, cücülər özləri-özlərini öldürmürlər. Ancaq insanlar özləri-özlərini didirlər, parçalayırlar, lap yeyirlər də. Bəli, yeyirlər! Azmı eşitmişik, min hiylə işlədərək insan əti yeyənlər haqqında. Deyəsən, çox sərt danışıram. İnsafsızcasına fikir yürüdürəm. Neyləyim? Mən də eşitdiklərimi, oxuduqlarımı, şahidi olduqlarımı danışıram. Şər, böhtan, iftira uydurmuram. Mənə inana da bilərsiz, inanmaya da. Deyəsən, çox çənəyə verdim, niyyətdən uzaqlaşdım. Biz beləyik də, ağzımız qızışır, bəsdi deyən olmasa, üyüdüb tökürük, çox şeyi qarışdırırıq. Bir budaqda oturub min birini sirkələyirik. Nə var, nə var mənasız yerə nüfuz qaldırırıq, pul sahibi oluruq. Bəs harda qaldı bizim insanlığımız, bəşər övladı olmağımız? Axı heç bir dini kitabda belə yazılmayıb. Qəribədi, Allaha tərəf üz tutmaq əvəzinə şeytanın ardınca gedirik. Baxın, iki cavan şəxs öz evində süfrə açır, Allah verənindən yeyir-içir, bir qudurmuş həyət divarından atılır, günahsız adamlara atəş açır, qan tökür. Özü-özünə demir ki, a biqeyrət, günahları varsa, get üzbəüz otur, danış, şərtini kəs, bir ailəni, nəsli bədfaniyə sürükləmə... Qardaşlar, mən, deyəsən, çox çənəyə verdim, məni bağışlayın. Bəlkə də danışdıqlarım artıqdı, onlara ehtiyac yoxdu,





başınızı ağrıdıram.

İqrarla İlqar dərhal həkimin sözlərinə reaksiya verdilər. İqrar:

— Nə danışırsız, həkim. Çoxdandı belə qiymətli kəlamlar eşitməmişdim.

İlqar:

— Vallah, dediKləriniz mənim də ürəyimcədi. Danışın.

Həkim:

— Ürəyim doludu, neçə gündü məni başa düşən, duyan adam axtarırdım. Danışdım, içim boşaldı, yüngülləşdim. Hə... Bir də yadıma düşdü. Bizdə bir qadın həkim işləyir. Vicdanlı qadındı. Ləyaqətini, şərəfini hər şeydən üstün tutandı. Anası təzə rəhmətə gedib. Tək yaşayır. Bir həftənin söhbətidi, kimsə doğub, gətirib bələkdə körpəni qoyub onun qapısının ağzına, özü də çıxıb gedib. Avtomat telefondan həkimə zəng çalıb deyib ki, həkim, sizin qapınızın ağzında on günlük uşaq qoyulub, onu götürün, saxlayın. Siz gözəl insansız, vicdanlı adamsız, mən fikirləşdim ki, o körpəyə siz yaxşı baxarsız. Ona görə də uşağı sizin qapınızın qarşısına qoydum...

İqrar özünü saxlaya bilməyib dilləndi:

— Bu ki, vicdansızlıqdı, mürüvvətsizlikdi.

Söhbəti böyük həyəcanla dinləyən İlqar əsəbiləşdi:

— Fırıldaqçıdı, belələrinin qanı içilməlidi. Uşağı atan həkimi yaxşı tanıyandı, bəlkə də, qonşuluqda yaşayanlardandı?

Həkim:

— Qadın uşağı götürüb həmin axşam polisə zəng çalıb, vəziyyəti danışıb. Onlar da gəlib aktlaşdırıb gediblər. Qadının da gözünə dönüm. O da deyib ki, elə mən də gedib körpələr evindən uşaq götürəcəkdim. Bu, mənim qismətimdi, özü ayağıma gəlib... Baxın oyuna... Buna nə ad verək? İngilis, fransız, alman, ispan... nə bilim kimlər, kimlər gəlib körpələr evindən övladlıq adıyla uşaq alıb aparırlar... Sonrakı talelərindən də xəbərimiz

olmur. Bizimkilər keçi kimi balalayırlar, sonra da heç bir şey olmamış kimi atıb gedirlər. Qardaş, dovşan, pişik, meymun belə olmur axı. Mənə elə gəlir ki, əxlaqla, mənəviyyatla bağlı sərt, güzəştsiz qərarlar, qanunlar qəbul olunmalıdı. Cəmiyyətin, dövlətin dayaqlarını sarsıdan əxlaqsızlar, mənəviyyatsızlar cəzalandırılmalıdırlar. Cəzasızlıq fəlakət gətirir, cinayətlərə yol açır... Əks halda, dalana gedirik... Özümüzü məhvə aparırıq. Qardaşlar, mən millətimi, xalqımı, vətənimi, torpağımı sevirəm. Ona canımı da qurban eləyərəm. Ancaq mən onu belə görmək istəməzdim. Həkiməm, vicdanımın səsi mənim üçün hər şeydən ucadı. İnsan vicdanıyla üz-üzə dayananda riyakarlıqdan uzaq olur. Hərə bir cürə dolanır. Mənim əllərim rüşvət görməyib, haram tikə yeməmişəm. Ancaq elə vəziyyətə özümüzü salmışıq ki, rüşvət almıram deməyə xəcalət çəkirəm. O günü Pənah adlı prokuror gəlmişdi yanıma. Mənə nə desə yaxşıdı? Dedi ki, alıram da, verirəm də. Nə qədər ölüm işini ört-basdır eləmişəm. Matım-qutum qurudu. Başqa bir bəhanəylə iş telefonunu götürdüm. Otağımdan çıxan kimi onun kabinetinə zəng çaldım. Katibəsi götürdü. Cavab verdi ki, prokuror hələ gəlib çıxmayıb, gələndə kim zəng çalmışdı deyim? Daha söhbəti uzatmadım. Xudahafizləşib dəstəyi yerinə qoydum. Nə deyəsən, belə prokurora? Qanun keşiyində duran belə eləyirsə, o birisinə nə deyəsən? Heç nə. Partla, öl!!! Bu gün iyirmi altı-iyirmi yeddi yaşı ancaq olar-olmaz, boylu-buxunlu, gözəgəlimli bir qadın kabinetimə gələrək yalvarıb iş istəyir. Deyirəm: “Təhsilin nədi? Nə işləyə bilərsən?” Cavab verir: “Orta təhsilliyəm, nə olsa, işləyərəm. Rayondan gəlmişəm, ərimdən ayrılmışam, iki uşağım var, evim yoxdu, mənə kömək eləyin, o uşaqları saxlaya bilim. Belə getsə, özümü öldürəcəm”. Məni dəhşət bürüyür. Rayonda iş tapammayan, övladını, özünü dolandırmaq üçün imkanını itirən bu adam başını soxmaq üçün kirayə ev tapmalıdı. O elə işdə işləməlidi ki, ev kirayəsini verə bilsin, gəlib-getmək xərcini ödəsin, özünün,





uşağının ayaqqabısı, ya paltarı cırılanda onu yamatmağa maddi gücü çatsın, ən başlıcası uşaqlarının qarnını doydursun... Üç saatdan artıq onunla danışıram, onu başa salıram, dediklərimi anlamır. Əlacım kəsilib deyirəm: “Bacı, yalvarıram sənə, qayıt yerinə-yurduna, şəhər sənin üçün deyil. Bu şəhər əvvəlki şəhər də deyil. Bu, əjdaha kimi ağzını açıb, girəvəsinə keçən zəif, imkansız adamları udur. Bu, bir qrup fırıldaqçını, piylənmişi, vicdanını itirmişi himayə eləyən, üzü zər libasa bürünən, içi iyrənc bir meydandı. O, səni də, balalarını da birdən-birə udacaq. İnsani nəyin varsa, əlindən alacaq. Balaların küçələrdə qalacaq, narkoman, oğru olacaq. Ya onları öldürəcəklər, ya da onlar kimisə məhv eləyəcək... Nəticədə özün də əxlaqsız, rəzil bir insana çevriləcəksən. Yalvarıram sənə, qayıt geriyə — köhnə daxmana, “su olmasa, qışda əridib qarı içərsən”. Kimə deyirsən? Zavallı qadın başa düşmür, hey yalvarıb iş istəyir. Mənim işim var?! Eh, dərdimiz böyükdü.

Danışdıqca əsəbiləşən həkim dərin fikrə getdi. Handan-hana özünə gəlib gülümsündü:

— Az qala gəlişimin səbəbini də unudacaqdım. İlqar, bu gün səni evə buraxacam. Hazırlaş... Maşallah, yaxşısan. Gəlib evdə yaranı açacam, dərman sürtəcəm. Get, ancaq özünü gözlə. Namərddən, nakəsdən uzaq ol. Çalış, xəstəxanaya bir də düşmə. Toylarda, ziyafətlərdə görüşək.

İlqarın sənədlərini həkim İqrara verdi. Onlarla görüşüb otaqdan çıxdı.

* *
*

Bir-birinin ardınca qarşılaşdığı hadisələr İqrarın əsəblərini gərginləşdirirdi. Oturub-durub gah insanları, gah da özünün qaragünlü taleyini məzəmmətləyirdi. Son günlər müstəntiqin onu

tez-tez yanına çağırması, sahə müvəkkilinin müntəzəm get-gəlləri onu cana doydurmuşdu. O, az qalırdı ki, bu daxmasını da satıb ya şəhərdən birdəfəlik getsin, ya da nə isə cinayət törədərək yenidən öz ayağı ilə gedib türməyə girsin. O: — Həyat mənim kimilər üçün nə qədər amansızdı, — deyə düşünürdü. — Eh, ana, məni niyə doğdun?! Bu qədər dərdi-sərə salmaq üçünmü?! Mən ağlamağı sevmirəm. Ağlayanlara da heç vaxt yaxşı baxmamışam. Sən demə, insan elə-belə ağlamırmış. Onu canından bezikdirib ağladan namərd dünyanın hoqqabazlıqlarıymış. O gün həkimin danışıqları məni dəhşətə gətirdi. İnsanlar niyə belə olurlar? Düz yolu qoyub, niyə əyri yolları seçirlər? Əyri yolun iyrəncliyini, doğurdanmı, görmürlər, təsəvvür eləmirlər? Bu, təsəvvür məhdudluğu deyil, bu, daxili korluqdur. Elə mənim bacım Gilan kimi, arvadım Aytac təkin. Doğrudur, onların yolları tamam başqa-başqadı. Görünür, Aytac ərə getməsəydi, o da bacımın iyrənc yolunu seçəcəkdi. Eh, bacı, bacı! Anam ikimizi də qaragünlü doğubmuş... Oğlum barədə düşünəndə aləm başıma dolanır. Sənin dərdini fikirləşəndə başıma gələnləri unuduram. Səninlə keçən günlərimiz, dalaşmalarımız, barışmalarımız, səni məktəbə aparmağım, dərsdən sonra qarşılayıb evimizə gətirməyim, sənə söz atan, ardınca düşən oğlanlarla çarpışmalarım... Mən Aytacla ailə quranda sənin sevincin — toyumuzda qol açıb oynamağın, heç kimə macal verməməyin... Necə də gözəl, necə də əlçatmaz, ünyetməz idi o günlərimiz. Bacı, səni çox istəyirdim, lap özüm qədər. Bilirəm, sən də məni sevirdin. Həyatın qədər mənə bağlıydın. Biz bir-birimizlə nəfəs alırdıq. Hanı qalsız-qadasız o təmiz, saf uşaqlıq illəri?! Arzularla, xəyallarla yaşadığımız o anlar?! Onları pərəm-pərəm salan o rüzgar nəydi, bacı? Taleyimizə əsən o qara yellər hardan idi? Bunun səbəbkarı bizmi olduq? Ya başqası... Doğrudur, biz lap uşaq olanda əfsuslar olsun ki, atamız dünyasını dəyişdi. Bizim bu başıbəlalı talelərimizdən xəbərsiz-ətərsiz getdi. İnanıram ki, bu rüzgarımıza onun





da ürəyi tab gətirməyəcəkdi. Lap uşaqkən anlayırdım ki, atam da, anam da səni məndən çox istəyirlər. Bu, bəlkə də, mənim uşaq sadəlövhlüyüm, uşaq qənaətim idi? İndi fikirləşirəm ki, oğul, ya qız, nə fərqi var valideyn üçün. Barmağın hansını kəssən, ürək ağrıyar, bədən dəhşətli iztirablar keçirər. Mən də, elə sən də atamızın, anamızın bir parçasıyıq. Onlar yoxdular, olmayacaqlar. Ancaq biz varıq. Biz yaşayırıq, ömür sürürük. Nə vaxtdı gəlmişəm. Azadlıq demək olarsa, azadlıqdayam. Ürəyim səndən ötrü atılır. Səni görmək istəyirəm. Bəzən türmədə yuxularımda da görürdüm səni. Elə indi də yuxularıma gəlirsən. Onda da nisgilli, küskün, məyus idin, indi də. O gün Zərnigar xala gəlmişdi. Deyəsən, əvvəl sənin barəndə danışmaq istəmədi. Yazıq arvad yalanla həqiqətin arasında çabaladı. Üzünə baxdım, qızardı. Gözləri bulanlıq idi. Onu başa düşdüm. Üzünə vurmadım. Çəh-çöhrə salıb utandırmaq istəmədim. Özünə də sənin barəndə dəqiq söz demədim... Sonra o, fikirlərini dəqiqləşdirməyə başladı. Anladım ki, bizi barışdırmaq istəyir Zərnigar xala... Onun bizim boynumuzda haqqı-sayı çoxdu, bacı. Elə anamızın da. Nə olsun ki, anamız o dünyadadı. O, xeyirxah idi, mərhəmətliydi. Gərək o hissləri qiymətləndirəsən, keçmişi unutmayasan. Bu yaşımda insanlardan o qədər pislik görmüşəm ki! İçimdəki mərhəmət, ədalət hissləri də əriyib yox olur. Həqiqət ölür. Onu da anlayıram ki, inam, mərhəmət, məhəbbət yoxa çıxan yerdən nifrət başlanır. Cinayətlər törətməklə üz-üzə dayanırsan. Allaha sarı açılan qapılar bağlanır, şeytan yönümlü qapılar taybatay açılır. Bir göz qırpımındaca cinayətkara, qatilə, caniyə çevrilirsən. Heç kimə bir söz deməsəm də, bacı, mən o ərəfədəyəm. İçimdə dərin çevriliş gedir. Tam anlayıram ki, bu cəmiyyətdə mənim yerim yoxdu. İtirmişəm qərar tutduğum, doğulub boya-başa çatdığım məskənimi. Zaman öz amansız əliylə bəxtimizi doğrayır, taleyimizə yenidən zəhər qatır. Düşünürsənmi nələrlə qarşılaşacağımızı, nələrlə toqquşacağımızı, sonumuzun

nəylə nəticələnəcəyini? Biz bir şəhərdə yaşayırıq. Canımız bir olsa da, damarlarımızda eyni qanlar axsa da, yollarımız başqa, arzularımız özgə, istəyimiz fərqlidi. İstəməzdim belə olsun, bacı. Həyat necə də amansızmış! Necə də rəzilmiş! Necə də rəzalətliymiş! Çox təəssüf ki, dediklərimin hamısı həqiqətdi. Həqiqətin hüdudları məhduddu, təsəvvürlərimizin çərçivəsi isə sonsuzdur. Bilirəm ki, həqiqət mütləqdi, möhtəşəmdi, onun dili kəsilməzdir. O, kimsənin qarşısında əyilməzdir. Onun qüdrəti cəmiyyəti qarşısında diz çökdürməyə belə qabildir. Bəşər övladı həqiqəti qəbul eləməyə məhkumdur. Bütün yanlışlıqlar yalnız həqiqətlə durulmalıdır. Əks halda, cəmiyyət öz mehvərindən qoparaq böhranlı vəziyyətə düşəcəkdir. İndi mən həqiqətlə təsəvvür arasında çarpışmadayam. İnsan həyatında məncə bundan çətin şey yoxdu. Mən sənin gül bənizini görmək istəyirəm. Gözlərinə baxmaq arzusundayam. Düşündüklərini duymaq istəyirəm. Yalnız onda hüdudsuz təsəvvürlərim hüdudlu həqiqətə çevrilə bilər. Mən dəryada azan gəmini onda idarə etmək iqtidarına qadir olaram. Mənim bacım, səninlə barışmaq, lap uşaqlıq çağlarımızdakı pak və ülvi hisslərin qanadında uçmaq istəyirəm. Ancaq neyləyim ki, düşüncələrində sərsəmlik, hərəkətlərində maymaqlıq, canında azğın, qudurğan, alışıb-yanan ehtiraslar qoxusu gəzir. Qulaqlarımda əməli-salehliyini itirməyinin söz-söhbətləri guyuldayır... Deyə bilərsən, hamısı yalandı, şaiyədi, böhtandı, iftiradı. Necə ki, məni narkotik alış-verişində şərlədikləri kimi... Bacı, neyləyim ki, ağlım Gilanla "barış", onu "çirkin yoldan çəkindir" deyir, mənliyim, kişilik qürurum onun əksinə, "nə durmusan, öldür!" hökmünü verir... Qalmışam, odla su arasında... Əziz bacım, həyatımın çox keşməkeşli, sarsıntılı anlarını yaşayıram. Taleyimin sonunun nəylə, necə qurtaracağını bilmirəm. İlqara güllə atdılar. Ola bilməz ki, ondan məlumatlı olmayasan. O güllə mənimçün atılmışdı, İlqara dəydi. Hələlik atəşkəs anlarını yaşayırıq. Heç kim deyə bilməz ki, sabah yenidən atəşə məruz qalmayacam. Heç kim zəmanət verə bilməz ki, o güllə yenə məndən yan keçəcək, məni tutmayacaq. Tam əmin ola bilərsən, bacı, mən ondan qorxmuram. Mənim qorxduğum odu ki, intiqamım yerdə qala. Bax, bu, fəlakətdi. Hərdən Tuğay kişi də, Gülər qarı da, elə İlqar da mənə "olub keçənləri unut" deyirlər. Bacı, bəyəm bunlar unudulasıdı ki? Bəs, atamın, anamın ruhu?! Bəs, sənin günahsız ömrünə vurulan zərbələr?! Bəs, sənin əxlaqının korlanmasının qisasını kim almalıdı? Ailəmin dağılması, oğlumun qapılarda qalması sitəmlərinə mən canımla, qanımla cavab verməyəcəyəmsə, niyə  yaşamalıyam?! Di başa sal məni. Bu gün işdə Şər Müzəffərin "Super Market"indən söz düşmüşdü. Soruşdum ki, Şər niyə? İzah elədilər ki, adamları şərlədiyinə, polisə satdığına, günahsız evlər yıxdığına görə adına ləqəb qoşublar — Şər Müzəffər. Ləqəbi necə də dəqiqdi, ölçülü-biçilidi! Bu ləqəbi qoyan ağıllı adamdı. Söz sərrafıdı. Görünür, Şər Müzəffərin toruna  çox adam düşüb. Özü də qazdan ayıq, tülküdən bicdi... Mənə elə  gəlir ki, uzağa gedə bilməyəcək. Evlərinin yerini öyrənmişəm. Şəhərin mərkəzində qalır. Üç uşaqlı arvadını boşayıb təzə, cavan, gözəl Mənzər adlı bir qadınla yaşayır. Pulu çoxdu, kefi də kökdü... Bunlar mənimlə qəbrə gedəcək. Ancaq səndən narahatam... Oğlumdan nigaranam... Yalvarıram sənə, bir az da məni gözlə, görək fələk nə düşünür...

Bütün düşüncələri bulanan İqrar ümidsiz halda qalxıb evdən çıxdı.

*   *
*

Rəfiqələrindən Gilana ismarıc-ismarıc dalınca göndərən Mirvari axır ki, onu evinə gətizdirə bildi. Gilan tamam dəyişmişi. O, Mirvarinin təqribən bir il əvvəl gördüyü Gilan deyildi.

Uzun, nərmə-nazik Gilan açıq-saçıq bədəninə tökülən saçlarını kəsdirərək əvəzində başına parik qoymuşdu, üz-gözünə bolluca rəng yaxmışdı. Əyninə pərçimlənən dar şalvarının ətəyi dizindən yuxarıydı. Ayağındakı uzundaban ayaqqabıyla gəzə bilmədiyindən az qala yıxılacaqdı. Badamı gözləri oynaşırdı. Səsi kobudlaşmışdı, kişi səsini andırırdı. Hərdənbir nəfəsindən papiros iyi də hiss olunurdu. Bir sözlə, kişiləri özünə cəlb eləmək imkanı verən bütün vasitələri işə salmışdı. Mirvari Gilanı bu görkəmdə görcək az qaldı ki, onu qapısından qovsun və "bura bir də gəlmə, elə düşünərlər ki, mən də sən əxlaqda bir adamam" — desin. Ancaq İqrarın "onu tap, danış" sözləri Mirvarini fikrindən vaz keçməyə məcbur elədi. Yüngül hal-əhvaldan sonra Mirvari söhbəti İqrarın üstə gətirdi. Qardaşının gəlişini, evi təmir eləməsini açıqladı. Mirvari bildirdi:

— İqrara yazığım gəlir. Türmədən çıxan adam necə olar ki? Nə düz əməlli yeməyi var, nə də içməyi. Adicə rahatlığı yoxdu. O gün çox narahat, yorğun, halsız gəlmişdi bizə. Bir az uşaqlarla söhbət elədi, təzyiqi, ürək döyüntüsü qalxdı. Divanda uzandı.

Gilan təəccüblə bildirdi:

— Cavan adamdı, türmədən çıxanda nə olar?! Hər şeylə təzyiq qalxar, ürəyin döyüntüsü artar?! Görünür soyuqlayıb.

— Qəribə adamsan, bəyəm xəstəlik qocaya, cavana baxır, ya mən yalan danışıram?

— Əşi, ötəri şeydi, yəqin soyuq olub.

Gilanda doğmaca qardaşına qarşı etinasızlığı görən Mirvari daxilən əsəbiləşsə də, özünü o yerə qoymadı. İqrarın hələ ki niyyətini tam başa düşməyən, bunun üçün də bərk həyəcan keçirən Mirvari ayıq-sayıq qadındı. Gilanın danışığı, hərəkətləri bu darmacalda ona çox şey diktə eləyirdi: nə bilirsənsə, nədən şübhələnirsənsə, hamısını aç de Gilana, onu baş verə biləcək təhlükədən hali elə.

Bu bir həftə ərzində fikirləşdikcə, Gilanın rəfiqələrindən





əcaib məlumatlara yiyələndikcə, qardaşla bacı arasında olan barışmaz ziddiyyətlərin getdikcə dərinləşəcəyini düşündükcə, Mirvarinin də hissləri korşalır, az qala sinirləri gərilirdi. Zavallı qardaşına və bu yaramaza yazığı gəldiyindən içərisindəkilərin hamısını Gilana danışmaq qərarına gəldi:

— Gilan, əziz bacım, mən səni çox istəyirəm. Allah bilir ki, özümü sənə fəda verməyə də hazıram. Sən də mənə əmiqızı yox, doğma bacıdan artıq olmusan. Gileylənməyə haqqım yoxdu. Yadımdadı, neçə dəfələrlə xəstələnib yatanda mənə qulluq eləmisən. Onda mənə hamıdan, lap anamdan da çox dayaq duran sən oldun. Oğlumu, qızımı böyüdüb ərsəyə çatdırmaqda da qolumdan tutdun. Həmişə başımın üstündə dayandın. Heç kəsə deyə bilmədiyim sirləri sənə açdım.

— Qiymətləndirdiyin üçün çox sağ ol. Unutma ki, mən də borcumu ödəmişəm. Başqa cür ola bilməzdi.

— Mən açıq danışmaq istəyirəm. İstəyirəm, hər şeyi necə var biləsən. Gərək, özünü göydə uçan quşlardan da qoruyasan. Açıq-saçıq geyinməyəsən. Kiminlə gəldi ağız-ağıza verməyəsən. Ərsiz qadın ləkə götürən olar. Demirəm, pissən. Qətiyyən elə düşünmürəm... Onu da deyim ki, qardaşın səndən şübhələnir. Bir bacısız, bir qardaş. O, gecə-gündüz əzab çəkir. Deməsə də, başa düşürəm. Çalış, bacım, qardaşının şübhələrini dağıt. Pis fikir pis niyyət doğurur, adamı addım-addım fəlakətə sürükləyir. Anbaan içini yeyən qardaşın infarkt ola bilər. Məqsədim səni qorxutmaq deyil, ayıq-sayıq salmaqdı. Sənə xətər yetirə bilər. Axı qardaşının xasiyyətinin tündlüyünü məndən əzəl sən bilirsən. Ehtiyatlı ol. Oturub-duruşunu gözlə. Atalar deyib: "Açıq qaba it dəyər".

— Nə demək istədiyini başa düşürəm. Mən bədbəxt qadınam, təkəm... Bu yaşda uşağım yoxdu. Düz-əməlli bir iş tapammıram, dolandırammıram özümü. Mən də geyinib-kecinmək istəyirəm. İstəyirəm ki, mənim də evim olsun. Yaşıdlarımın ya-

nında utanmayım, xəcalət çəkməyim... Onun üçün çalışıram, vuruşuram. Sən də deyirsən ki, qardaşın səndən şübhələnir. Mən neyləyim?

— Dediklərindən heç nə başa düşmədim. — Ərin yoxdu, — deyə kefin istəyən kimi hərəkət eləməlisən? —Evim yoxdu, uşağım yoxdu, imkansızam — deməyin mənası yoxdu. Bu barədə əvvəlcədən fikirləşməliydin. Deyirəm, özünü də, qardaşını da bədbəxt eləmə. Qardaşın qeyrətsiz deyil. Sən də oturub söz güləşdirirsən. Ehtirasların səni dəli eləyir. Görünür, qardaşın barəndə düz fikirləşir.

— Mən hələ heç bir pozğunluq eləməmişəm, ayağımı kənara atmamışam. Mən təəssüf eləyirəm ki, qardaşım məni fahişə sanır.

— Gilan, bacım, mən də qadınam. Dinmirəm, danışmıram, elə bilirsən qanmıram, ya koram. Ağlını başına cəm elə.

— Danışığından belə çıxır ki, həqiqətən mən nəsə eləmişəm?

— Xeyr, mən elə demirəm. Belə getsə, bir azdan məni böhtançı, iftiraçı adlandıracaqsan. İndi səndən soruşuram, müstəntiqi unutmusan? Şər Müzəffəri tanımırsan? Ağasəfi necə? Əlməmməd kimdi? Qonşular səni onun maşınında bir neçə dəfə şəhərdən çıxan görüblər. Eşitsə, yalan olduğuna qardaşını inandıra biləcəksən? Sən İqrarı yaxşı tanımırsan, Gilan. And içib özünü yerə sürtsən də, o, sənə inanmayacaq. Əgər belə şeylər varsa, gec-tez bilinəcək. Sirr batan deyil... Ağıllan, otur evində, bəlkə, sənin də bəxtin açılacaq, ailə quracaqsan?

Mirvarinin öyüd-nəsihətindən nəticə çıxarmayan, əmiqızına “qabaqdan gəlmişlik” eləməklə hədə-qorxuya əl atan Gilan səsini qaldırıb dizlərinə, sinəsinə döyməyə, özünü məzəmmət eləməyə başladı. Qızışıb danışdıqca sir-sifəti ağarır, gözləri hədəqəsindən çıxırdı:

— Allah mən qaragünlünün başına daş salaydı. Mənə ucuz





ölüm verəydi. Qardaşım, doğmaca əmiqızım məni fahişə kimi tanıyırlarsa, kimə söz deyə bilərəm? Əlməmməd bizim küçəlidi. Çox yaxşı adamdı. Mənə ağıllı məsləhətlər verir. Onunla kəlmə kəsmək olmaz?

— Küçəli sənə məhrəmdi? Məsləhət almağa doğmaların batıb, qırılıb? Onunla nə hoqqa çıxarmısan, a yaramaz? Deməli, qonşular da düz şübhələniblər... Sənin başında bir çanaq qan var. Sənin bu ağılsız hərəkətlərin çoxlarını güdaza verəcək. Yazıq deyil qardaşın?

— Qurtardıq. Qardaşım elə şeyləri qanan deyil. Onu da sən başdan çıxarırsan. Məni evdən qovmaq istəyirsə, özümə açıq desin. Eybi yoxdu, özüm çıxıb gedərəm. Qardaşım da gərək başına papaq qoymaya, allı-güllü yaylıq bağlaya.

— Biz danışammadıq, Gilan. Get, nə bilirsən elə! Mən sözümü dedim, nəticə çıxarmaq sənin işindi.

Əsəbi halda ayağa qalxan Gilan heç bir söz demədən qapıdan çıxdı. Əmisi qızının sözlərindən təşvişə düşən Mirvari düşündü:

— Gilan, səni belə bilməzdim. Necə olub ki, indiyədək mən səni tanıya bilməmişəm. Qardaşın səni evindən niyə çıxarmalıdı ki? Bəyəm, onu Allah götürərmi? Yox, Gilan, səhv eləyirsən. İqrarın tərbiyəsi ona imkan verməz. Mən indi sakitəm... Allah bilir ki, səninlə danışmağım gələcək təhlükənin aradan qaldırılması üçün idi. Anlamadın. Bilərəkdən, ya bilməyərəkdən... Heyf ki, bir az ərköyünsən, təkəbbürlüsən... Zaman gələr, səhvlərini başa düşərsən, dediklərimi anlar, qardaşını dəyərləndirərsən. Əlməmməd kimdi? Axı, onun arvadı var. O nadanın yanında ömürlük rahatlığını tapa bilərsənmi?! Çatışmazlıqlarını aradan qaldıra bilərmi? Lap güman eləyək ki, qaldırdı, namusunun əvəzindəmi?! Eh... Səfeh qadın! Bu həyatda sənin kimilər çoxdu. Heyf İqrardan ki, sənin tək bacısı var. Söhbəti yarıda kəsib getdin. Məni axıradək eşitmək istəmədin. Get. İnanıram ki, peş-

man olub qayıdacaqsan!.. Onda gec olacaq. Sən İqrarı yaxşı tanımalıydın. O, həddən ziyadə qısqancdı. Yadındamı, a namərd, sən altıncı sinifdə oxuyanda yaşıdın Nizamın sənə qəlb açmasını eşidəndə aylarla İqrarın özündə-sözündə olmamasını? Uzun tiyəli çörək bıçağıyla yazıq oğlanın ardınca düşməsini?.. Bir ana söyüşünə görə Əhmədağanın qanını tökməsini?.. Hələ qız ikən Aytacla ailə qurmaq istəyən Mübariz adlı oğlanla vuruşunu?.. Bilirəm ki, namus pozğunluğuna görə qardaşın sənə güzəştə getməyəcək. Səninlə əlaqəsi olanlarla da haqq-hesab çəkəcək. İqrar danışdıqca gözlərinin içinə baxırdım. İçindəkiləri nə qədər gizlətməyə çalışsa da, gözlərinin dərinliyindəkilər mənə çox şey deyirdi. Qisas, intiqam layları mürgüləyir onun içində. Azacıq ləyaqətin varsa, gərək rəva bilməyəsən doğma qardaşının əlləri sənin qanına bulaşsın. Birsifətli İqrar zahirən az danışsa da dünyanın dərdi-sərini içində daşıyır... Belə adamlar daha qorxulu, daha anlaşılmaz, daha sərt olurlar. Bildiklərini eləyirlər. Sən qardaşını başa düşməyə bilərsən. Ancaq mənim İqrar barədə qənaətlərim belədi, Gilan!

* *
*

Çox çəkmədi ki, əsəbiləşib həyətdən çıxan Gilanın beynini Mirvarinin dedikləri deşməyə başladı. O da az-çox İqrarın xasiyyətinə bələd idi. Bilirdi ki, qardaşı onun Əlməmmədin maşınında şəhərdən çıxdığını eşitsə, nə qədər and-misaf eləsə də, faydası olmayacaq. İqrar bir yol tapıb cəzasını verəcək. O, düşündü ki, əgər qonşular Əlməmmədin maşınına oturduğumu Mirvariyə deyiblərsə, bu xəbəri gec-tez İqrara da çatdıracaqlar. Bəlkə, Müzəffərlə görüşlərimi də qardaşıma bildiriblər? Mirvaridə qəbahət doğuracaq özgə iş görməmişəm. İnsafən, Mirvari yaxşı insandı. Aravuran, mərdimazarlıq eləyən deyil. Məndən ona heç





vaxt narazılıq bildirməz. Doğrudur, söhbət zamanı mən ona qarşı kobudluq elədim. Sözünü ağzında qoydum. Günahkar ola-ola özümü təmizləməyə, yuyub yarpız üstə qoymağa çalışdım... Axı, hansı əxlaqsız, yolunu azmış dəlilsiz-sübutsuz pozğunluğunu boynuna alar? Etiraf bağışlanması mümkün olan qəbahətlər, səhvlər, söz səviyyəsində olan anlaşılmazlıqlar üçündür. Fahişəliklə etiraf bir araya sığmaz. Kim — “Mən fahişəlik eləmişəm, bundan sonra eləmərəm”, — deyər? Desə də, inanarlarmı? Lap tutaq ki, dedi, etirafla belə ləkəni yumaq mümkündürmü? İqrar Əlməmmədlə aramızdakıları bilsə, daha məndən heç nə soruşmayacaq. Hər şeyi öz bildiyi kimi eləyəcək. Gecənin birində ağla gəlməyən vaxtda, hardasa, məni də qətlə yetirəcək, dərənin birinə atacaq... Əlməmmədi də elə. Ondan da kəlmə soruşmayacaq. Əslində soruşulası da deyil. İqrar əlverişli məqam axtarır... İndi mən neyləyim? Oturub gözləyim ki, qonşular İqrara nə vaxt məlumat verəcəklər? Yaxud qardaşım gəlib məni nə vaxt qətlə yetirəcək?.. Sağ ol Mirvari! Məni yaxşı duyuq saldın! Bu barədə Əlməmmədlə danışım, məsələni qurtaraq...

Özlüyündə götür-qoylardan təngə gələn Gilan çıxış yolunu Əlməmmədlə görüşüb söhbətdə, birgə qərar qəbul eləməkdə gördü və bu məqsədlə də oğlana telefon açdı:

— Alo, salam, Əlməmməd, mənəm.

— Eşidirəm, nə yaxşı ki, zəng çalmısan, ürəyim səni istəyir.

— Elə mənim də. Qurban olum, biz bu gün mütləq görüşməliyik.

— Nə baş verib?

— Heç nə olmayıb. Ancaq vacib bir məsələ barədə səninlə məsləhətləşməliyəm. Nə vaxt görüşək?

— Sabah olarmı?

— Yox, nə danışırsan? Görüşümüz taleyimizlə bağlıdır.

— Yaxşı, nə vaxt?

— Elə indi. Səni parkın arxasında gözləyirəm. Otur maşına,

gəl.

“Taleyimizlə bağlıdır” sözləri kölgəsindən qorxan Əlməmmədin içinə, deyəsən, təlaş toxumu səpdi. O, görüş yerinə gələndə günortaya az qalırdı. Göyün üzündəki ala-tala boz buludlar zəif küləyin təsirilə Şərqdən Qərbə doğru uçuşurdu. Bulud laylarının arasından süzülən günəşin şüaları nə qədər parlaq olsa da adamı isindirmirdi. Əlməmməd parkın tininə çatanda Gilanın böyük şah budaqlı qoşa çinar ağacının altında dayanıb onu gözlədiyini gördü. Ağ “Jiquli” markalı maşınını Gilanın qarşısında saxlayaraq arxaya çevrildi və qapının düyməsini qaldırdı. Qadın o tərəf-bu tərəfə baxıb yaxınlıqda tanış adam olmadığını yoxladı və göz qırpımındaca maşına oturdu. Dərhal: — Sür, saxlama, görən olar, — dedi. Maşın sürət götürdü. Əlməmməd güzgüdən arxa oturacaqda əyləşən, sir-sifəti bozaran, həyəcandan özünü itirən Gilana diqqətlə baxdı.

— Nə baş verib? Yenə soyuqdan-şaxtadan canına lərzə düşən sərçələr kimi titrəyirsən? Bu saat çıxaq kənara, səni əməllibaşlı qızdırıb rahatlayacam.

— Yox. Uzağa getməyək. Təhlükəsiz bir yerə çəkilək, sənə deyiləsi sözüm var.

— Nə sözdü, o? Ucundan-qulağından de, mən də bilim.

— Biləcəksən.

Əlməmməd maşını Daşkəsənə tərəf sürdü. Xeyli gedib asfaltdan torpaq yola düşdü. İrəlidə yamyaşıl böyürtkən kolları, yulğun topaları görünürdü. Gilan narazı halda dilləndi:

— Hara gedirik? Maşın ilişər sınar, qalarıq burda.

— Qorxma.

— Yox, saxla. Səninlə ancaq danışmaq istəyirəm.

— Nə qədər deyirsən, danışaq da.

— Yox, geri qayıdaq, sonra.

Gilanın sözündəki qətiliyi duyan Əlməmməd maşını yolun kənarında saxladı.





— Hə... Eşidirəm. Özün də yamanca bozarmısan.

— Maşında şəhərdən çıxdığımızı görüblər.

— Nə bildin?

— Mirvari dedi.

— O, kimdi?

— Əmim qızı.

— Nə?

— İqrar bilsə, vəziyyət yaxşı olmayacaq. Sən bilirsən ki, qardaşımdan savayı mənim kimsəm yoxdu. O, məni öldürəcək.

— Əşi, yaxşı görək. İqrarda o kişilik hardadı?

— Əlməmməd, yaxşı fikirləş, o, sənin üçün də fəlakət törədər.

— Qələt eləyər. Düş, böyürtkən varsa...

— Mən bura böyürtkən yeməyə gəlməmişəm. Bəs deyirdin səninlə ailə quracam. Bağ belə, bostan belə...

— İşi düzüb-qoşa bilmirəm. Səninlə ilk görüşlərimizdə arvaddan ayrılmaq istəyirdim. Ancaq indi...

— Deməli, məni aldatmısan?

— Yox, düz demirsən...

— Baxarsan işinə...

— Gilan, arvadımla məhkəməyə getmişdik, boşanmır. Bir yolumuz var — Bakıya köçmək. Səni də özümlə aparacam. Orda həm işlərik, həm də ev alıb yaşayarıq.

— Mən İqrara necə başa salım ki...

— Onlara heç bir söz demə. Sən get Bakıya. Mənim tanışlarım var. Orda işə düzəl. Kim nə biləcək hardasan? Mən də burdakı işlərimi qaydaya salıb, gələcəm yanına.

— Əlməmməd, mən çox qorxuram. Mənə yazığın gəlsin.

— Qorxma, özün deməsən, İqrar mənimlə oturub-durduğunu sənin boynuna necə qoya bilər?

— İqrar müstəntiq deyil məndən söz soruşa, həqiqəti üzə çıxara. Onun baş kəsən, qarın yortan bıçağı var, adam asmağa

kəndiri var. Bir də boğmağa dəmir kimi barmaqları.

— Az təriflə. Elə kişinin bacısı kolluqda mənimlə nə gəzir ki?

— Sən çox sakitsən, Əlməmməd, həm də özünə arxeyinsən.

— Kişi belə olar da... Qorxma. Evə qayıdan kimi sənədlərini, paltarlarını yır-yığış elə, pullarını götür. Mən də sənə qatara bilet alacam. Danışdığımız kimi, gedirsən Bakıya. Ordakılarla da özüm telefonla danışacam. Sənə şərait yaradarlar. Belə olsa, bəlkə, İqrar səni heç axtarmayacaq... Bir müddət mən də burda vəziyyəti izləyib İqrarın sənin barəndəki fikirlərini öyrənərəm.

— Birdən getdim, Bakıda iş alınmadı, orda yaşamağım üçün şərait yaranmadı?

— Mən telefon açıb razılaşacam, sonra səni yola salacam.

— İndi düş, görək böyürtkən varmı?

— Dəlisən? Qışda nə böyürtkən?

— Əşi, baxarıq, olsa, böyürtkən də yeyərik.

Gilanla Əlməmməd maşından düşüb böyürtkən kolları arasında görünməz oldular...

* *
*

Gilan sanki dağlar ağırlığı yükün altına düşmüşdü. O, hara gedirdisə, kimlərlə görüşürdüsə, başının üstünü alan qara buludlardan qaça bilmirdi, üstünə tökülən çirkabdan canını qurtara bilmir və ondan xilas ola biləcəyinə də ümid bəsləmirdi. O, indi anlayırdı ki, çətini bircə dəfə əxlaqsızlıq yoluna düşməkdi. Nə qədər cəzbedici olsa da onun çirkabı heç nəylə yuyulan deyil. Bircə yolun olur. Hər şeyə tüpürüb özünü öldürmək.. Qəribədi, özünü öldürürsən, dünyadan köçürsən, yenə adın əxlaqsız olaraq qalır. Səni tanıyanların qəlbində həmişəlik olaraq bişərəf, simasız, vicdansız kimi yaşayacaqsan. Mənəviyyat, əxlaq elədir





ki, ləkələndisə, özünü dağa-daşa salmaq da, lap məhv eləmək də boş şeydi. Nəsil-kökünün, əsil-nəcabətinin vücudunda qara yaranın izləri tək görünəcəksən. Mənsə, məhdud ağlımla bu çirkaba, lənətə gəlmiş şeytanlar yuvasına neçə dəfələrlə baş vurmuşam. Hər dəfə deyirəm ki, daha bu çirkin əməllərdən qurtardım, bir də o tərəfə üz tutmayacam... Nə fayda? Deyirəm, özümə yüz dəfələrlə söz verirəm. Çox yox, üç-beş gün keçir, beynimin qurdu dəbərir, içim hərəkətə gəlir, özüm öz istəyimlə, öz arzumla o xarabaya gedir, azğın ehtiraslarımın qulu oluram. Tanımadığım, ilk dəfə gördüyüm kişilərin, hətta, əmilərin, dayıların ağuşuna atılıram. Tələblərim ödənir, yenidən "ağıllanıram". İnsanı dəhşət və vəhşət burulğanında boğan ehtiraslar! İnsanı alçaldan, əcaibləşdirən, miskin vəziyyətdə ömür sürməyə təhrik eləyən ehtiraslar!.. Sən nə qədər əzazilsənmiş, nə qədər riyakarsanmış?! Adamda neçə sifət formalaşdıransanmış?! Doğrudur, sənsiz yaşam yoxdu. Səndə həyat eşqi var, güc var, qüvvət var, gələcək var!.. Mən səndən bu keyfiyyətləri istərdim. Təəssüf! Çox təəssüf, mənə azğın ehtiraslar nəsib oldu. Abrımı, həyamı, ismətimi çirkin ayaqlar altına atmağa məni məcbur elədi. İstəməzdim ki, sənin həndəvərindən belə keçib gedim... Gücün, qüvvən, qüdrətin hədsizdi. Sən qalxanda ağlım enir, heç olmaq dərəcəsinə gəlir. Sən mürgü döyəndə idrakım tüğyan eləyir... Mən idrakımın tərəfində durmaq istəyirəm, ancaq nə fayda... Sənin azğınlığın ucbatından insanlığımı itirirəm. Hamı mənə aciz, iradəsiz, yüngül, vəfasız, etibarsız, sədaqətsiz, heyvani hisslərlə yaşayan vücud kimi baxır. İş o yerə çatıb ki, kim olduğumu mən də bilmirəm. Qəribədi. Başımı itirib qalmışam. Nə iş görəcəyimi bilmirəm. Əcaib bir qərar vermək niyyətində bulunuram. Doğmaca qardaşımla, doğmaca əmim qızıyla, doğmaca qardaşım balasıyla xudahafizləşmədən baş götürüb getməyi qərarlaşdırmışam. Bu işdə kimdi günahkar? İqrar? Mirvari? Mən? Zaman? Məkan? O? Yoxsa, yaşadığım cəmiyyət? Hələ qız ikən

ərə gedəcəyim barədə düşünəndə elə bilirdim dünyanın ən xoşbəxt adamı mənəm, səadət qapıları nə vaxtsa taybatay üzümə açılacaq. Sən demə, o əlahiddə qapılar öz-özündən açılmır. Onu özüm açmalıyammış. Mən neylədim? Şorgöz kişilərlə olub, səadət qapılarımın bağlanma hökmünü özüm verdim. Bədbəxtlik, əxlaqsızlıq, mənəviyyatsızlıq yolunu seçməyə hökm verib ehtiraslarımın qara pərdəsilə ağlımın işığını söndürdüm. Hər tərəf qaranlıq zülmətlərə döndü. Zülmətlər qoynunda kimsəyə məsləhət eləmək barədə düşünmədim. Yazıq anamla, zavallı Aytacla, lap elə məni doğma bacıdan da artıq istəyən Mirvariylə kəlmə kəsmədim. Axı niyə? Ona görə ki, bu, mənim qismətimmiş. Bəlkə, Allahın mənim taleyimə elədiyi müdaxiləymiş... Yox, mən buna inanmıram... Bu, şeytanın, iblisin, qulyabanının müdaxiləsidi, onların fitvasıdı. Allah olan qəlbdə şeytan ola bilməz. Şeytan qərar tutan məskənə Allah qanrılıb baxmaz. Mənim başıma gələnlər özümlə şeytan arasındakı işbirliyinin törəməsidi. Sən demə, xoşbəxtlik kiməsə sevgidəymiş, sevdiyin üçün darıxmaq, onu duymaqmış. Sevincinə sevinmək, kədərinə kədərlənməkmiş... Bax, Mürvətlə Məhsəti kimi, Səmayəylə Gündüz tək... Necə də gözəl, mehriban, şən ailələri, övladları var. Can deyib, can eşidirlər... Mən niyə elə olmadım? Alışıb yanan ehtiraslarım məni çalxaladı, fırtınalar qoynuna atdı. Qarmaqarışıq hisslər, dolaşıq, pırtlaşıq düşüncələr taleyimi dəliqanlı sellərə tapşırdı. Nələr baş verdiyini heç özüm də bilmədim. İndi həyatımın elə bir anında qərar tutmuşam ki, qanrılıb keçdiyim yollara baxanda çala-çökürləri görürəm. İnsanları tanımamağım, sadəlövhcəsinə onlara inanmağım mənə əxlaqsız damğası yaxdı. Həyat bumu?! İnsanlıq beləmi olur? Yananı yandırarlarmı? Çatlayanı çatladarlarmı? Öləni öldürərlərmi? Kimsəsizlərə, acizlərə quyu qazan, onları ayaqlayan şorgözlərə min nifrət! Bir saatlıq kef xatirinə ar-namusunu yellərə verən mənim kimi alçaqlara min lənət! Qudurğan ehtiras sahibləri! Azğın adamlar!





Ağılsız baş gəzdirənlər! Belələri necə də fəlakətli olurmuşlar, ya Rəbbim?! Mirvari mənə öz sözünü dedi. Dəqiq məlumatı olmasaydı, o, mənə elə sözlər deməzdi. Bəlkə də İqrarla açıq söhbətləri olub? Nə bilmək olar? Bəlkə, həqiqətən də, qardaşım mənim barəmdə elə kəskin fikirdədi?! Qərarı sərtdi?! Müstəntiqlə, Müzəffərlə, Əlməmmədlə... aramızda baş verənlərdən xəbər tutsa necə?! Böyürtkən kollarının dibində çıxartdığımız oyunları bilsə, nə cavab verəcəm?! Öz əllərimlə öz başıma oyunlar açıram. Bu işdə heç kəs günahkar deyil. İş görürəm, sonra da arsız-arsız oturub fikirləşirəm ki, bu, niyə belə oldu? Başqa necə olmalıydı ki? Hansı kitabdasa oxumuşam ki, "Xarakter əkərsən, vərdiş biçərsən"... Dünyanın ağıllı adamları olub. İndi də var. Onlar dünyanı idarə elədikləri halda, mən özüm-özümü idarə eləyəmmirəm. Əlməmmədin sözü ilə kimsəylə məsləhətləşmədən baş götürüb birdəfəlik gedirəm. Sonrakı taleyim necə olacaq?! Tanımadığım izdihamlı şəhərdə özümə şərait yarada, gün qazana bilməsəm, onda nə etməliyəm?! Əlməmməd həqiqətən arxamca gələcəkmi?! Onun Bakıdakı dostları kimlərdi? Onlar həqiqətən mənə can yandıracaqlarmı? Bilmirəm... İqrara gedib nə deyim? Necə deyim ki, sənin papağını bir dəfə deyil, yüz dəfələrlə yerə soxmuşam, əclafların, nadanların, ləyaqətsizlərin, şərəfsizlərin altına yıxılmışam. Səni diri-diri torpağa basdırmışam! Sənə qəsd eləmişəm! Sənin ən qəddar, əzazil qatilin olmuşam! Onda o, mənə nə deyəcək?!

Elədiklərimi boynuma alımmı? Deyimmi ki, mən fahişəyəm?! Əcəb eləyib neçəsinin ağuşuna atılmışam! Eh dünya, dünya. Ağılsızlar üçün səndə yaşamaq nə qədər çətinmiş?! Atamanam dursaydılar, mənim alçaqlığımdan xəbər tutsaydılar, görən neyləyərdilər?! Ölümümə fərman verərdilərmi?! Bütün günahlar özümdədi. Törətdiyim hadisələrin tufanı mənə nələr bəxş eləyəcək.? Mən dəryada bir damlayam. Gedişim də, yaşamım da qardaşımdan savayı kimsəni maraqlandırmayacaq. Bir müddət

keçəcək, tanıyanların da yaddaşından silinəcəm. İqrarın xatirində bişərəf, binamus, arsız-qırsız bacı kimi qalacam. Bu həyat mənə lazımıydımı? Geriyə açılan qapılarımı əllərimlə bağlamışam. İqrara söz deməyə dilim yoxdu. Gözlərinə baxammaram. Elə bilərəm ki, xəyanətimi gözlərimdən oxuyacaq, içimi görəcək. Nə əclaf şeymiş xəyanət. İkiüzlülük, riyakarlıq, simasızlıq xəyanətdən doğur. Aman Allah, xəyanət nə yaman lənətə gəlmiş şeymiş?.. Xəyanətkarlığın özü abırsızlıqdı, ləyaqətsizlikdi, az-çox olan insani hissləri itirməkdi... İqrara uşaqlıqdan bələdəm. Ar-namusumu itirdiyimi bilsə, o, mənə güzəştə getməyəcək, məni bir göz qırpımındaca məhv eləyəcək. Mirvari, bəlkə də, məni başa düşmür. Başa düşsə... Mən ölmək istəmirəm. Qardaşım məni öldürsə, o, yenidən qaranlıq zindanlara atılacaq. O, türmə divarları arasında çürüyəcək. Bəyəm, o, buna layiqdimi?! Yox, qardaşım, yox! Mən səni sevirəm, səni dərdi-bəlaya salmaq istəmirəm... Özüm də fərqinə varmadan, nadanlığım ucbatından başqalarının çirkin ayaqları altına atdığım ləyaqətinə qurban olum...

Gilan keçdiyi yollara nəzər salaraq elədiyi qəbahətlərini çin-çin yığır, özü-özünü qınayır, lənətləyirdi.

*   *
*

Yaşamaq dilemması qarşısında qalan, dərdi-sər əlindən yata bilməyib səhərəcən çarpayısında eşələnən İqrar yuxudan bir qədər gec oyandı, yatağında eşələndi. Sonra bir qədər halsız yerindən qalxıb geyindi. Özü üçün səhər yeməyi hazırladı, sonra da üst-başında səliqə-sahman yaratdı. Günortaya yaxın şəhər gəzintisinə çıxdı. Ürəyində sıxıntı hiss edirdi. Təmiz hava, sərin meh çox çəkmədi ki, bu sıxıntını da götürdü. Halı getdikcə yaxşılaşmağa başladı. O, yerişini bir qədər də yeyinlətdi. Gəzə-gəzə gəlib mərkəzi parka çıxdı. Güllərin, çiçəklərin, şah budaqlı çinarların yaratdığı ecazkar mənzərələri sanki görmür, duymur, onlardan ləzzət almırdı. Fikirlərindəki tutqunluq, fərəhsizlik onu bəzən miskin vəziyyətə salırdı. Nəinki adamlardan, hətta, günəşin göz qamaşdırıcı işığından qaçaraq bir guşəyə çəkilmək, dərin düşüncələrə dalmaq istəyirdi. O, romantikdən daha çox realist idi. Bu hərəkətlərinin də özünə bir fayda verə biləcəyini gözləmirdi. Nə qədər qəribə də olsa, hər halda dolan ürəyini boşaltmaq, rahatlanmaq arzusundaydı. Onun sevinci, fərəhi sonu görünməyən ümidsizlik içərisində əriyib yox olurdu.





O, öyrəşmişdi içində qurub-sökməyə, söküb-qurmağa. Hara gedirdisə, nə iş görürdüsə, nə barədə danışırdısa, fərq eləmirdi, uzaqlı-yaxınlı keçmişinin acılı-şirinli xatirələri gəlib dururdu gözləri önündə. Bu xatirələr nə qədər pak və ülvi duyğular oyatsa da, gözləri qarşısında gah sevincli, gah da qəmli, qüssəli, kədərli bir mənzərə yaradırdı. Qəlbində baş qaldıran qarışıq, ziddiyyətli, pırtlaşıq, anlaşılmaz duyğuların çarpışması fonunda içində nəhayətsiz bir uçurum hiss eləyirdi. Mənən yorulub əldən düşən, sarsılan bu adam acı təəssüf hissiylə parkda nəhəng çinarların altıyla var-gəl eləyirdi.

İqrara elə gəlirdi ki, nəhayətsiz bir dəryadadır. O, fikirləşdikcə daha da əsəbiləşirdi. Hərdənbir baldır əzələlərini didişdirirdi. Bu gün həmişəkindən daha tutqun, daha qəmli görünürdü. Daxilində baş qaldıran fəryad, bütün vücudunu lərzəyə gətirən əsəb, beynini dolduran təlatüm, dəhşətli sarsıntı onu az qala intihar həddinə gətirirdi. Bu çəkdiyi əzablar, işgəncələr İqrarı getdikcə daha müəmmalı, daha qorxunc eləyirdi. İndi onun gözləri ayaqlarının altını görmürdü. — Niyə mən belə oldum? — deyə düşündü. Keçib yaxınlıqdakı skamyada oturdu. Bir müddət başını söykənəcəyə dirədi və gözlərini yumdu. Fikir onu çəkib uzaqlara apardı. Arvadını anası evindən öz evinə köçürdüyü günlər, onun hamilə çağları, türmədən adına yazdığı məktublar,

orada qeyd olunan şirin vədlər, istəklər, arzular hamısı, hamısı gəlib durdu xəyalı önündə. "Nə olaydı, Xudaya, bircə dəfə qarşılaşaydım Aytacla. Biləydim keçirdiyi hissləri... O arzular, istəklər, görən, yadındadımı?!" Handan-hana yaxınlıqda addım səsləri, pıçıltı eşitdi. Başını qaldırıb özünü düzəltdi. Elə bu vaxt yaxınlığındakı oğlan uşağı anasını dümsüklədi:

— Ana, ana, o gün bizə gələn bu əmiydi.

Aytac əvvəl oğlunun nə dediyini anlamadı. Sakitcə soruşdu:

— Nə dedin, oğlum?

— Nurlan nənəylə sənə dedik ha... Bizə gələn əmi buydu.

Aytac diqqətlə İqrara tərəf baxdı. Onu dərhal tanıdı, gözlərinə inanmadı, sanki oturduğu yerdə iflic oldu.

Aytacı tanıyan İqrar bir anlığa özünü itirdi. Gözləri böyüdü, varlığı sarsıldı. Aytacın da rəngi qaraldı, nəfəsi tutuldu, sanki boğuldu. Yaranmış vəziyyətdən İqrar daha tez çıxdı — Bu, möcüzədi, Allah, sənə inanmayan kafirdi — deyə düşündü. O, Aytaca baxıb acı-acı gülümsündü. Yaxınlaşıb oğlanın üzündən, saçlarından öpdü. Sonra sezilə biləcək kədər hissilə dilləndi:

— Aytac, heç vaxt səni belə asanlıqla görəcəyimə ümid eləmirdim.

Aytacın yanaqları qıpqırmızı qızarmışdı. Alnında, gözlərinin altında xırda tər dənəcikləri görünürdü. Özünü hələ də ələ ala bilməyən Aytac qorxa-qorxa, çəkinə-çəkinə, ətrafına göz gəzdirə-gəzdirə pıçıltılı səslə:

— Mən də güman eləmirdim, İqrar — deyə dilləndi.

— Elə bildin azadlığa çıxmayacam, qayıtmayacam?

— Yox, gələcəyini bilirdim.

— Onda nə oldu, dözmədin?

Aytacın gözləri doldu, kiprikləri islandı. Gözlərindən leysan kimi axan yaş yanaqlarına süzüldü. Çöhrəsi titrədi. O, gücünü toplayıb dodaqları əsə-əsə:

— Elə deyil, İqrar. Güman eləmə ki, mən səni ehtirasların əsiri olub atmışam. Əsla yox, — dedi.





Aytacın əsdiyini görən İqrar: — Vaxtın varsa, əyləş, olub-keçənləri səndən eşitmək istəyirəm — deyə bildirdi.

Aytac İqrarla yanaşı oturdu. Oğluna astadan dedi:

— Əfsun, al pulu, sən get, karuseldə bir az oyna, bir azdan gedərik.

Əfsun anası deyən kimi elədi.

İqrar astadan:

— Aytac, yəqin ki, aramızda nələr olub, heç birini unutmamısan? Bəs, məni atmağına səbəb nəydi?

— Sən həbs olundun. Ailəmizə ağır bir dərd çökdü. Anan bütün günü ağlayıb-sıtqamaqla keçirirdi. Gilan da, mən də göz yaşı axıdırdıq. Sarsılmışdıq. Bizi tez-tez müstəntiq çağırır, yağlı vədlər verirdi.

— Yəni necə?

— Mənə də, Gilana da intim əlaqəyə girmək təklif elədi. Deyirdi ki, İqrarın azadlığı sizdən asılıdı. "Hə" desəniz, izahatı dəyişə bilərəm... O, biləndə ki, altı aylıq hamiləyəm, bətnimdə uşaq var, məndən əl çəkdi, ancaq Gilana göz verib, işıq vermədi. Bir də öyrəndim ki, sənin azadlığa çıxmağın xatirinə yazıq qız müstəntiqin tələbinə razı olub. Lap sonralar bildim ki, Gilanın bakirəliyini Şər Müzəffər alıb. Bizi müstəntiqə isnad verən də Müzəffər olub. Bunu eşidən anan həmin gecə infakt keçirtdi. Cəmi-cümlətanı ikicə gün yaşadı. O əclaf Gilandan əl çəkmədi. Tez-tez evdən apartdırırdı. Bir dəfə mənə də dedi ki, sonralar sən də bizə lazım olacaqsan... Zavallı Gilan vərdişkara çevrildi... Hər gecə yatdığım otağın pəncərəsi döyülürdü. Kimlər olduğunu bilmirdim: "Aç qapını, gəlim" — deyirdilər. Gilanla mən səhərə qədər qorxumuzdan yata bilmirdik. Belə davam eləyə bilməzdi, İqrar. Baş verənləri bir gün anama açıb danışdım. O da vəziyyəti atama açıqladı. Belə qərara gəldik ki, bir müddət dinc yaşamaq üçün mən anamgilə, Gilan da rəfiqəsi Nazlıgilə

getsin. Belə də elədik. Mən bir balaca rahatlansam da, Gilan müstəntiqin əlindən qurtara bilmədi. Nazlının ata-anası müstəntiq məsələsini biləndə onu evdən qovdu. İşsiz-gücsüz, arxasız olan bu zavallı küçələrə atıldı. Xəcalətindən Zərnigar xalagilə getmədi. Dedi ki, gec-tez ordan da küçəyə atılacam. Yazıq qızın həyatı beləcə pozuldu. Arada eşitdim ki, alver eləyir. Mənə də pul verdi. Sonralar qardaşım evləndi. Anamgildə qalmaq müşkül işə çevrildi. Anamla, atamla razılaşandan sonra evimizdə kirayənişin yaşayan Pedaqoji İnstitutun axırıncı kurs tələbəsi Elxana ərə getdim.

— Mənim kəbinim üstündən kəbin kəsdirdin?

— Yox, məhkəməyə ərizə yazdım, vəziyyəti danışdım. Məhkəmə də nigahımızı ləğv elədi. Əfsunu ögey atanın ixtiyarına verməmək üçün anama tapşırdım. İqrar, Əfsun sənin oğlundu, nə vaxt istəsən, götürüb saxlaya bilərsən. Sənin barəndə ona bir kəlmə də başqa söz deməmişəm. Çağırıb soruşa bilərsən. Ancaq indi eşitmişəm ki, qonşu uşaqlar ona deyiblər: "Sənin atan narkomandı". Bunun üçün qonşularla ağır-yüngül də olmuşam. Əfsunu inandırmışam ki, onu bizi istəməyən adamlar deyiblər. Daha oğlun heç vaxt o sözü dilinə gətirməz. Elə başa düşmə ki, səndən sonra ikinci ərə gedib xoşbəxt olmuşam. Mənim növbəti qara günlərim başlanıb. İndi sənə layiq deyiləm, İqrar. Çağırsan da, geri qayıtmaram... Sən təmizsən, sən mənim gözümdə ləyaqət rəmzisən. Kişi deyəndə, gözlərimin önündə sən canlanırsan... Bu sözləri deməklə, hazırkı ərimi alçaltmaq, sənə xoş görünmək fikrində deyiləm. Mənim xoş sözlərimə sənin ehtiyacın yoxdu. Yaş keçir, sən də ailə qur, rahatlığın olsun. Əgər gələcək xanımın oğlunu qəbul eləyə bilsə, gəl, Əfsunu da apar. Yeməyindən, geyimindən, rahatlığından nigaran qalma, İqrar. Məni nankor da, əclaf da, xain də hesab eləmə. Mən səni sevmişdim, sevərək ailə qurmuşdum. Mən oğlunun anasıyam. Başımıza gələnlərə görə cavabdehəm... Düzdür, ərə getmişəm,





ancaq alışıb yanan ehtiraslarımı söndürmək üçün sənin evindən çıxmamışam. İstəsən, məni öldürə də bilərsən...

— Aytac, mən həqiqətən inana bilərəmmi müstəntiq Gilanla intim əlaqədə olub?

— Hə...

— Sağ ol. Xahiş eləyirəm, Əfsuna mənim oğlum olduğunu deməyəsən hələ.

Aytac oğlunu yanına çağırıb gözləriylə işarə elədi: — Görüş, sonra gedək.

Ata-oğul görüşüb ayrıldılar. Əfsun getdi, sanki İqrarın ürəyini özüylə apardı.

İqrarın: — "Əfsuna mənim oğlum olduğunu demə hələ" — xahişi Aytaca çox şeydən xəbər verirdi.

*   *
*

İşə həmişəkindən erkən gələn, kabinetində oturub keçən ayda tikintiyə sərf olunan materialların hesabını aparan İlqar kağız-kuğuzunu yığışdırıb portfelinə qoydu. Əlini enli alnına dirəyib fikirli-fikirli durmuşdu ki, qapı döyüldü. Başını qaldırmadan ucadan dilləndi:

— Gəl!

Sifəti bozarmış, halı gündəkindən xeyli pərişan İqrar içəri girdi. İlqar gülümsündü, zarafatla:

— Xeyir ola, yenə sımsırığın düşüb, yoxsa, xatirinə dəyən var?

— Yox, İlqar, özümü birtəhər hiss eləyirəm.

— Niyə?

— Ayə, ay pir olmuş, Allah-Təala xasiyyətdi verib də. Onu cannan çıxarmaq olmur ki... Dünyanın bütün qalmaqalı mənim başımdadı. O, niyə elə elədi? Bu, niyə belə oldu? Filankəsin başı

xarabdı. Filankəs xəyanətkardı, əclafdı. Nə bilim, nədi. Mənə deyən lazımdı, a bala, bəs sən kimsən? Nə karəsən ki, camaata göz qoyasan, qiymət verəsən. Vallah, İlqar belə getsə, deyəsən, tezliklə dəli olacam.

— Az fikirləş. Atalar deyib: "Yüz fikir bir borcu ödəməz".

— Bəyəm, məndən asılıdır. Görürəm, eşidirəm, fikirləşirəm, sonra da əsəbiləşirəm. Əsəblərim soyuduqca götür-qoylar, özümüməzəmmətlər başlanır: "Ayə, bəyəm bu sənə lazım idi? Qaxılıb otura bilmirdin yerində?"

— Fikirdən, əsəbdən qaç. Onlardan qorxulu şey yoxdu. Bir çox xəstəliklərin törədicisi əsəbdi. Adamı həm də hörmətdən salan şeydi.

— Day demə. Özüm də utanıram.

— Nədən?

— Yanına gələn kimi başlayıram palan içi tökməyə.

— Eyb etməz, dərdli deyingən olar — deyiblər. Eşitmisən də, çeynənən saqqız çürüyər. Sözü nə qədər çözsən, o qədər uzanar. Ümid şamını çalış söndürmə.

— Qaradan tünd rəng?

— Boş-boş danışma. Göz görə-görə adamı elə günə qoyarlar, salarlar ki, canınçün ağa da qara deyər.

— Bu axmaq zəmanədən nə desən çıxar.

— Ayə, zəmanənin nə günahı? Pis özümüzük. Qarışdırırıq aləmi, hoqqalardan çıxırıq. Nə utanırıq, nə də qızarırıq. Adamlar arasında ədalətdən danışırıq, arxada çirkin əməllərlə məşğuluq, ya nəfsimizin ucbatından, ya da paxıllıqdan yaramaz işlər törədirik. İmkansızların, əlsiz-ayaqsızların çörəklərini əllərindən alırıq, balalarının göz yaşlarını tökürük. A kişi, bunu Allah götürərmi?

— Yaradanın səbri böyükdü. Örkənimizi o qədər uzadır, gəl görəsən. Balam olmaz ki, qəbahət eləyən alçağın, namərdin elə o andaca cəzasını verə, başqalarına da görk ola?





İlqar gülümsündü:

— Allahın işinə qarışma, ay İqrar.

— Qardaş, adamları şərə salırlar, qan tökürlər, evimizin içindəcə oturduğumuz yerdə gülləbaran eləyirlər. Biz də oturub baxırıq. Ya da bu qeyrətsizlərin üzlərinə hırıldayırıq.

— Korafəhm iş görməzlər. Atalar deyib: "Oğruluqla fahişəliyin ömrü qırx gündür".

— Necə-necə, onu da atalar deyib?

— Hamısı yox.

— Onda kişilərin adını biabır eləmə.

Telefon zəng çaldı. İlqar düyməni basdı, yad və kobud kişi səsi gəldi. İlqar dilləndi:

— Eşidirəm.

— Salam!

— Əleykümsəlam.

— Mənə İlqar lazımdı.

— Mənəm. Buyurun!

— Sən məni tanımırsan. Mənsə, səni iki dəfə görmüşəm.

— Ola bilər.

— Ola bilər yox, bu, belədi. Mənim İqrara atdığım güllə sənə dəydi. Ölmədin. Sonra mən öyrəndim ki, sən yaxşı adamsan. Sən demə, İqrar da pis adam deyilmiş. Onun özünü, ailəsini bədbəxt eləyiblər. Düşmənləri indi də onun ardınca düşüblər. Nə vaxtsa... Onu öldürə bilmədiyim üçün qaçmışam. Onlar məni aradan götürməklə sirri qapamaq istəyirlər. Zəng çaldım, həm sənə məlumat verim, həm də üzr istəyim. Mən beş manat pul üçün fitvaya getmişəm. Böyük günah işlətmişəm. Allah günahlarımı bağışlasın.

— Sənin adın nədi?

— Onu soruşmazlar. Lazım olanı dedim.

— Ancaq sifarişçinin kim olduğunu demədin.

— Söz ver ki, ağzından çıxmayacaq.

— Söz verirəm.

— Kişi kimi.

— Hə...

— Şər Müzəffər.

Telefondan səs kəsildi. Qırıq-qırıq zəng gəldi. Araya dərin bir sükut çökdü. Bir müddət nə İqrar, nə də İlqar danışa bildi. Hər ikisinin sözləri elə bil qurtarmışdı. Handan-hana İlqar gülümsünərək sükutu pozdu:

— Bə deyirdin, Allah görk eləmir?

İqrar elə bil bayaqkı adam deyildi. Bütün vücudu əsirdi. Telefonda verilən məlumatlar onun içində dəhşətli fırtına yaratdı. Əvvəl kimsəsizləşdi, tənhalaşdı, əriyib yumağa döndü, titrədi. Onun bu vəziyyəti tez də çəkildi. O, özünə gəldi. Düşmənini açıq-aydın tanıdığından və gecə-gündüz onu necə aradan götürmək barədə düşündüyündən, əlverişli məqam axtardığından istəmirdi ki, Şər Müzəffərlə olan köhnə münasibətdən, haqq-hesabdan İlqar da xəbər tutsun. Odur ki, heç nə olmamış kimi mızıltılı səslə:

— Bekara şeydi, İlqar. Əvvəl nədən danışırdıq? — deyə soruşdu.

— Nə bekara şeydi, ə? Oğraşın gülləsiylə ölə bilərdim.

— Bəs neyləyək? Gedək, biz də nayomnik tutaq? O da oyun oynayacaq, Şər Müzəffəri qorxudub, ya yaralayıb bizə "summa" oxuyacaq.

— Ayə, İqrar, vallah, belə birtəhər adamsan e. O boyda tufan qoparıblar, deyirsən... Zəncirin qırılsın, dünya. Buna nə boyda səbr vermisən. Ə, belə də soyuqqanlılıq olar?

— Nə deyirsən, biz də gedək öldürək, türməyə girək? — Yox, İlqar, ordan güc-bəlayla çıxmışam. Burda öləcəm, ora getməyəcəm.

— Mənim sənə sözüm yoxdu.

— İlqar məni həyat sındırıb. Qəm, qüssə, kədər, nisgil içimi





göynədir. Hər axşam için-için ağlayıram. Sevinc, fərəh, şadlıq, firavanlıq hisslərini uşaqlıqda keçirmişəm. Başa düşürəm ki, oturduğu yerdə insanı didirlər, parçalayırlar, ömrünü girdablara sürükləyirlər. İstəyəndə lap polad kimi əridirlər, qranit daşları tək quma döndərirlər.

— Belə çıxır ki, biz də əlimizi sinəmizə, ya qulağımızın dibinə qoyub oturaq, gözləyək ki, Şər Müzəffər bu dəfə barəmizdə hansı tədbiri görəcək?

— İlqar, bizi keçən dəfə də Allah qorudu. Qorxmaq, təlaş keçirmək lazım deyil. Xatircəm ola bilərsən, kim olur-olsun, bu dünyaya gələn getməlidi. Özü də hərəsi bir yolla. Nə yığırsan-yığ, nə toplayırsan-topla, mənası yoxdu. Axır ki, son mənzilə getməlisən. Bunun üçün qorxmağa, həyəcanlanmağa dəyməz.

— Əcəb adamsan, İqrar. Ayə, az qala mən batırıram özümü.

— Dəli olma, mənim bu dünyada nəyim qalacaq? Ailəm yox, var-dövlətim yox. Hər gün qəlbimdə kədər, ürəyimdə qəm, içimdə vərəm yükü çəkirəm. Yaşamaq işgəncə, yaşamaq qəhər, yaşamaq zimistan, qardaş. Bu qədər dərdi-sər, möhnət altında yaşamaqdansa, ucuz ölüm yaxşıdı mənə, İlqar!

— Ayə, camaat səndən qorxur. Mən də fikirləşirəm ki, səndən yaxşı cangüdən çıxar.

— Ona görə...

— Ayə, zarafat eləyirəm, mənim nəyim var?

— İlqar, narahat olma. Tuğay dayı demişkən, sən Allahınla olsan, Allah da səninlə olacaq.

— Tuğay dayın bunu nəzərdə tutmayıb, a kişi. Sən öl, bizim başımıza gələn kimin başına gəlsəydi, aləmi qarışdırardı. Oturub arvadın yanında, əlindən iş gəlmir, güc verib çənəyə. Arvad da inanır ona. Seyid cəddinə inanan kimi. Yanında oturmağa məəttəlsən, bir söz desən, o saat fikirləşmədən deyər: "Kişi belə gəldi, kişi elə getdi". Deyəmmirəm: "Ay ana, sənin kişinin zəmanəsi deyil. İndi dünya dəyişib. Hərənin ağzından bir avaz

gəlir. Hərə bir tor toxuyur, gözləyir, görsün, o tora kim düşəcək". Ayə, bu, nə zəng idi. Olub keçənləri unudub oturmuşduq yerimizdə. Yaxşı oldu, sən də eşitdin. Mən kimi inandıra bilərdim.

— Eşitdiklərin ağzından çıxmasın, İlqar. Oğraşı öldürərlər, canın üçün yapışarlar bizdən. Elə adamın düşməni çox olar.

— Onun bir çarəsi var, İqrar. Gözləyib maşınla vurmaq. Sonra da barışıq eləyib, müstəntiqə pul basmaq, onun da ağzını qapamaq!

— Qurtar, İlqar. Adam öldürmək bizim işimiz deyil. Gecitezi var, kimsə onun ağzına daş basacaq. Dur çıxaq, bir az təmiz hava alaq, başımız açılsın.

* *
*

İqrar ikinci dəfə Mirvarigilə gəldi. Üz-gözündən yorğunluq, pərişanlıq yağırdı. Mirvari onu heç vaxt belə görməmişdi. O, İqrardan soruşdu.

— Nəsə olub?

— Əmim qızı olsan da, mən həmişə sənə bacı demişəm. Sirlərimi bəzən doğma anama, bacıma yox, sənə açmışam.

— Bilirəm, qardaş.

— Mənim başıma gələn hadisələrlə, bəlkə də heç kim qarşılaşmayıb. Oturub-durub yanıram, cızdağım çıxır. Gilanın hansı əxlaqsızlığa düçar olduğunu hələ demirəm. Neçə vaxtdı gəlmişəm, bu adam bircə dəfə niyə düşünmür ki, gedib qardaşımla görüşüm. Tutaq ki, elədiyi pozğunluğa görə məndən qorxur. Barəmdə səndən məlumat ala bilməzdimi? Öldüyümlə, qaldığımla maraqlansaydı, dünya qopardı? Bəlkə, mən türmədən şikəst qayıtmış olaydım. O qədər türmədə qolu-qıçı kəsilənlər var ki.





Neçəsinin gözlərini vurub çıxarırlar. Onda da o mənimlə görüşə gəlməyəcəkmiş? Şükürlər olsun ki, indi sağ-salamatam. Elə namərdlərə ehtiyacım yoxdu. Axı insanıq... Ən başlıcası, bacı-qardaşıq. Sabah hamı məni qınıyacaq. Deyəcəklər ki, İqrar oğraşdı. Bir bacının öhdəsindən gələ bilməyən kişinin danışmağa haqqı yoxdu. Ağızlarını Allah yoluna qoyanların barəmdə sözləri onsuz da çoxdu: biri arvadım barədə; o birisi mənim əclaflığım haqda; yeganə oğlumun qapılarda qalmasıyla bağlı... Nə bilim, nələr, nələr. Mirvari, bu dərdi-səri çiyinlərinə götürmək üçün gərək nəhəng dağ olasan. Heç kimə dərdimi açıb danışammıram. Axı kimə kimnən deyim?

Bayaqdan bəri İqrarın dediklərinə dinməz-söyləməz qulaq asan Mirvari astadan dedi:

— Qardaş, haqlısan. Deməyə sözüm yoxdu. O günü Gilanı tapıb danışdım. Ona çox söz dedim, İqrar. Sözümdən necə nəticə çıxardığını bilmədim. Açığını deyim ki, onu mənəvi cəhətdən şikəst eləyiblər. Ona görə də o, səndən çox qorxur. Məncə, buna görə o, sənə yanaşmağa cəsarət eləmir.

İqrar əsəbi halda:

— Axı niyə qorxur?

— Şübhələnib ki, onu öldürə bilərsən. O, sənə yaxınlaşmağa can atmalıdı, yoxsa qaçıb canını qurtarmalıdı? Heç kim ölümdən qorxduğunu boynuna almaq istəmir. Üzdə hamı deyir ki, mən ölümdən qorxmuram. Yalandı!.. Qələtdi!.. Həyat o qədər şirindi ki, insan bu dünyada bir anlıq əzab-əziyyətlərini, məşəqqətlərini cənnət vəd eləyəcək o dünyanın min ilinə dəyişmək istəmir. Əgər belədirsə, biz Gilanı niyə qınamalıyıq? Onu hansı üzlə məzəmmətləməliyik, qardaş? Türməyə nə var ki? Doğrudur, deyə bilərsən ki, bacı, sən hardan bilirsən türmədə nələr baş verdiyini? Mən təsəvvür eləyirəm. Çox adamdan da türmə barədə eşitmişəm... Qardaş, biz insanlar öyrəncəliyik özümüzü haqlı çıxarmağa. Elə şeylər var ki, biz bilirik, qarşımızda daya-

nanlar bilmir. Onlar bildiklərini də biz ağlımıza gətirəmmirik. Məncə, Gilan da elə.

— Danışdıqlarından heç nə başa düşmürəm, Mirvari. Yalvarıram, açıq danış. Mən onun düşməni deyiləm. Onu tapammıramsa, nə etməliyəm?!

— İlk növbədə, qəlbindəki mərhəmət hissini gücləndirməlisən. Xeyirxah olmalısan, səbr və təmkinini artırmalısan.

— Bəyəm, dediklərin məndə yoxdu?

— Duymaq azdı. Onları sübut eləməlisən. Məni bağışla, gəlib, deyəcəm. Gilanın əxlaq, mənəviyyat pozğunu olduğunu sən də bilirsən, mən də. Biz buna güzəştə getməyi bacarmalıyıq, ya yox?!

— Sən nə danışırsan, mən şərait yaradım ki, o gəlib mənim evimdə...

— Yox, sən məni düz başa düşmədin, qardaş. Mən demək istəyirəm ki, indiyədək nə olub-olub, ondan keç... Gilana bundan belə nəzarəti artır. Daha elə qələtlər eləməsin. Bu olar qardaşın bacı üzərində nəzarəti. Öz aramızda danışırıq, bir nəsil göstər ki, onun əyri-üyrüsü, şikəsti olmasın. Yadda saxla, Gilanın yaşaması ilə ölümü eynidi. Onu nə vaxtsa qətlə yetirməyin tamam başqa nəticə verə bilər: yenidən həbs oluna bilərsən; oğlunun tərbiyəsindən, böyüməsindən xəbərsiz qalarsan; ev-eşiyin xarabalığa çevrilər; camaat arasında biabır olarsan; səni tanımayanlar da barəndə çox şey eşidər, allı-güllü şaiyələr yayarlar... Şəxsən bu, mənim üçün də, nəslimiz üçün də ölümə bərabər bir faciə olardı, qardaş.

Mirvari özünü saxlaya bilməyib ağladı. İqrarın da gözləri doldu. O da başını aşağı saldı. Dərin fikrə getdi. Handan-hana özünə gəlib bildirdi:

— Yaxşı, bacı, özünə gəl. Gözlərinin yaşını sil. Unutma ki, Gilan təkcə ləyaqətini, şərəfini satmayıb...

— Yox, düz demirsən. O, heç nəyi satmayıb. Ondan hər şeyi





zorla alıblar, şərəfi də, ləyaqəti də, namusu da, vicdanı da... Biz isə əlindən alınmışların hamısını ondan tələb eləyirik. Yoxdusa, onun heç bir şeyə gümanı qalmayıbsa, bizə nə verməlidi, qardaş?!

— Özü itirməyibsə, satmayıbsa, onu kim, kim ala bilərdi, Mirvari?!

— İnsan cəmiyyətdə yaşayır, heç vaxt ondan təcrid olunmuş şəkildə ömür sürə bilməz. Vadar olunmayan insan özünü satmaz. İnsani keyfiyyətlər elədi ki, onu adamdan istəsə də, istəməsə də zornan qoparırlar. Şəxsən sən türməyə öz xoşunamı getdin? Öz arzunla, öz istəyinləmi getdin? Yoxsa, səni şərləyib zindan küncünə atdılar. Məncə, özünə qalsaydı, getməzdin. Səni elə qırdılar. Mənliyini o şəkildə zorladılar, qardaş. Gilanın də əxlaqını, mənəviyyatını belə pozdular. İndi səndən soruşuram, günahkar kimdi? Sən? Yox! Gilan? Xeyr! Bəs kim? Yaşadığımız cəmiyyət... Ədalətsizlik, qanunsuzluq hökm sürən cəmiyyətdən bundan artıq nə gözləmək olar?! Gilan da bu cəmiyyətin bir üzvüdür. Elə sən də, mən də. Cəmiyyət düzəlməsə, qanunlar hökm eləməsə, ədalət zəfər çalmasa, hər şey alınıb satılacaq. Nəyimiz varsa, hamısını qurban verməli olacağıq. Aç qulaqlarını yaxşı-yaxşı eşit. Bir, üç, beş nəfəri həbs etməklə, öldürməklə iş bitməz. Kimlərisə qırmaqla, yer üzündən silməklə hər şey düzələcək ümidilə yaşamaq səfehlikdi, dünyanı anlamazlıqdı. Qanunsuz-qadağasız, ədalətdən uzaq cəmiyyətdə zinadan övlad törər. Bəlkə yalan deyirəm, qardaş? Aç gözünü, həyata yaxşı-yaxşı bax!

İqrar özündə deyildi, duyuğa getmişdi. O, qəflətən ayağa qalxıb: — Mən gedirəm, ancaq gələcəm, — dedi. Mirvari: — Gözləyəcəm, — deyə cavab verdi.

Ürəyi dolan Mirvari xeyli müddət oturduğu yerdə qaldı, fikrə getdi. Sonra öz-özünə dedi:

— Namus, qeyrət nə yaman şeymiş? Etiraf eləyim ki, o, biz

qadınlara bir, kişilərə isə yüz dəfə artıq təsir eləyirmiş. Qeyrətinə, namusuna qurban olum, qardaş! Bilirəm, ürəyindəkilərin hamısını açıb mənə danışmırsan. Hər şeyə çıxış yolu qoyursan... Düz eləyirsən, haqlısan. Gilanın hərəkətlərinə sənin münasibətin şübhələrdən doğmur. Eşitdiklərini, çıxartdığın qənaətlərdi. Şübhələr insanı için-için yeyən, didən əcaib hisslərin doğmasıdı, qısqanclığın anasıdı. Səbri tükəndirən, təmkini əridən, ömrə balta çalan şübhələr! Qısqanclıq nə vaxtsa, arzuolunmaz, ağır faciə törədəcək. Əslində, İqrarı haldan-hala salan, girdabda boğan şübhələr yox, zəhərdən acı həqiqətdi. Həqiqət elə bir dağdı ki, dünya tökülə gələ, onu mehvərindən qopara bilməz. Bir anlığa təsəvvür eləyək, qoparılsa da, yanlış səmtə yönəldilməsi, hardasa, nə vaxtsa yalana çevrilməsi səmərəsiz cəhdlərdən özgə bir şey deyil. Həqiqətin gücü həqiqətliyindədi, inkarolunmazlığındadı. İqrarın kiçik cəhdləri Gilanın bütün pozğun, nalayiq əməllərini çılpaqlığıyla üzə çıxaracaq. Onda da İqrar Gilanın kürəyinə ağır, amansız zərbələrini endirəcək. Bu zavallı qız ona tab gətirə biləcəkmi? Bu dar düşüncəli qızın bircə yolu qalır — baş götürüb şəhərdən birdəfəlik getmək. Bu, onun ağlına gəlirmi? Gəlmirsə, bəlkə bir yolla mən ona çatdırım. Görəsən, oynaşları ona şəhərdən çıxmağa imkan verərlərmi? Yoxsa, istifadə eləmək üçün onun başının altına yastıqmı qoyacaqlar? Aldadıb əllərində saxlayacaqlar? Bu zavallı kimdən nə eşidirsə, hamısına inanır. Əclaf, şorgöz kişilərin şirin dillərinə, yağlı vədlərinə sıyılır, ürəyi axır, nəticədə də əldən-ələ düşür. Neçə dəfələrlə onu məzəmmətlədim, nalayiq əməllərindən çəkindirməyə çalışdım. Ancaq nə fayda? Özüm dedim, özüm eşitdim. Qanmadı, nəticə çıxarmadı. Düzələn deyil. O günkü hərəkətləri də göstərdi kimliyini. Atalar deyib: "Öyrənmişə nə tövbə".

* *
*





Axşam yuxusunu qarışdıran Mirvari səhər yataqdan əznik qalxdı. O, uşaqlarını yedirib-içirib məktəbə yola salandan sonra şkafdan "Əzabların sonu varmış" kitabını götürüb oxumağa başladı. O, hardasa Gülbənizin, Zərrinin taleyi ilə Gilanın həyat yolları arasında bir uyarlıq görürdü. Gülbənizin acı həyatının sonu qismən nikbinliklə nəticələnsə də, Zərrinin ağılsızlığı ucbatından yarımçıq qalan ömrü onu təəssüfləndirdi. Gilana yazığı gəldi. Öz-özünə dedi: — Tezliklə yanacaqsan. Özünlə qardaşını da aparacaqsan. Mən İqrar üçün təəssüflənirəm. Ona çox sitəmlər olundu. Özgələrini başa düşmək olar, Gilan, bəs sənə nə oldu? Niyə qardaşın barədə düşünmədin? Sən necə də namərdsən, necə də nadansan... Atalar düz deyir: "Keçmə namərd körpüsündən, qoy aparsın sel səni". Heyf atanın, ananın elədiklərinin sənə. Sən o dünyada da od tutub yanacaqsan...

Mirvarinin gözləri kitabın sətirləri üzərində gəzsə də fikri-düşüncəsi Gilanın yanındaydı. Onun gələcək həyatı barədə narahatlığı artırdı. Düşüncələr seli gəlini çəkib lap uzaqlara aparırdı. Elə bu vaxt telefon zəng çaldı. Dəstəyi götürdü. Danışan Gilan idi. Salamlaşdılar. Gilan əsəbi, bir az da təntiyə-təntiyə dedi:

— Mirvari, əziz bacım, o günkü söhbətimiz düşündüyümdən olduqca kəskin və ciddi oldu. Sənin dediklərin hamısı düzdü. Nə qədər acı olsa da, mən həqiqəti qəbul etməliyəm. Etiraf edim ki, əvvəllər məni əxlaqsızlığa məcbur eləsələr də, sonralar bu işə öz arzumla, istəyimlə, böyük aludəliklə can atmışam. İndi də bəzən başıma gələnləri düşünəndə dəhşətə gəlirəm. Ehtiraslarımın quluyam. Mənim kimi bacı İqrara lazımdımı? Əlbəttə ki, yox! Sənin dediklərini, özümün vəziyyətimi çox götür-qoy elədim və belə qərara gəldim ki, heç kəsi qınamaq lazım deyil. İqrarın xasiyyəti tünddü. O, qısqancdı. Bəlkə də bu siqlətə qardaşım türmədə sahib olub. Deyirlər, türmədəkilər mühafizəkar olurlar.

— Mühafizəkarlıq nəyə deyirsən? Ar-namusu satmaq bəyəm müasirlikdi?

— Yalvarıram, bacı, sözümü kəsmə. İmkan ver, düşündüklərimi axıracan deyim.

Mirvari əsəbi halda:

— Buyur.

— Türmədəkilərin çoxu azadlığa çıxanda doğmalarını kimlərəsə qısqanmağa başlayırlar. Məncə, buna ehtiyac yoxdu. Ayağısürüşkən qadınlar heç vaxt doğmalarından məsləhət alıb əxlaqsızlıq, mənəviyyatsızlıq yolunu seçmirlər. Qardaşım üçün ən düzgün seçim budu ki, üzünü çevirib getsin. Nə özünü salsın bəlaya, nə də məni. Uzaqbaşı, elə bilsin ki, bacısı olmayıb. Əminəm, Mirvari, sən mənə gülməyəcəksən, əksinə o ki, lazımdı halıma ağlayacaqsan. Əmin qızı olduğum üçün bərk əsəbiləşəcəksən... Lazım deyil, biz başqa-başqa adamlarıq. O günkü söhbətimizdən anladım ki, heç nədən qardaşımın əlindən xata çıxa bilər. Özünü, yeganə oğlunu faciəyə salar... Qorxma, mən elə şərait yaratmaram ki, qardaşım mənim ucbatımdan cinayət törədib özünü ikinci dəfə ağır cəzaya məhkum eləsin... Mənimlə intim əlaqədə olan müstəntiq qardaşıma verilən ağır cəza ilə əlaqədar deyirdi: “Cinayət işi elə formalaşdırılıb ki, lap cəzaçəkmə müəssisəsindən çıxandan sonra da İqrar yuxarı dairələrə şikayət eləsə, bəraət qazana bilməz”. Səndən xahişim budur ki, müstəntiqin sözlərini qardaşıma çatdırasan... Bacım, mən qara taleliyəm. Anadan belə doğulmuşam. Güman eləyirəm ki, nə demək istədiyimi başa düşürsən. Başqa cür ola bilməzdi... Gərək insan anadan xoşbəxt doğulsun. İndi inanmağa başlayıram ki, bədbəxt insanı el yığılsa belə, xoşbəxt eləyə bilməz. Məndən nigaran qalmayın.

— Səhv eləyirsən, insanlar ağılsızlıqları ucbatından özləri özlərin bədbəxt eləyirlər. Sonra da faciələrinin səbəblərini kimlərdəsə axtarırlar. Sən pozulmusan... Bədbəxtsən. Çirkaba batan





qadını ölüm də təmizə çıxara bilməz...

Mirvari dəstəyi telefon aparatının üstünə çırpdı. Gilanın nə məqsədlə telefon açdığını düz-əməlli anlamadı. Öz-özünə düşündü: — Əgər bəraətlə bağlı müstəntiqin sözünü İqrara çatdırmaq lazım idisə, qalan söz-söhbətə nə ehtiyac vardı? Vallah, bu qızın ağlı üstündə deyil.

Mirvari istədi İqrara zəng çalsın, hər şeyi danışsın. Sonra düşündü ki, İqrar onun dediklərini bilsə, Gilanı yerin altında da, üstündə də olsa tapacaq, onu elə-belə buraxmayacaq, ağıldankənar bir şey törədəcək. Bəlkə də doğrayacaq. Keçmiş fikri Mirvarinin yadına düşdü. Bəlkə, bu şəhərdən baş götürüb gedir. Getsə yaxşıdı, ya qalsa? Tərəddüdlər içərisində Mirvari nə elədiyini bilmədi. Ayaqqabılarını geyib küçəyə çıxdı. Qarşıdan gələn taksiyə oturub birbaşa avtobus vağzalına gəldi. Bakıya, rayonlara gedəcək sərnişin avtobuslarını yoxladı. Gilanı tapa bilmədiyindən dərin nigarançılıq içərisində geri qayıtdı. Əlacı kəsildiyindən bütün bədəni əsə-əsə, qorxu, həyəcan, təlaş keçirə-keçirə İqrara zəng çaldı, evə gəlməsini xahiş elədi. Nə baş verdiyindən xəbərsiz olan İqrar işdən icazə alıb Mirvarigilə gəldi. Mirvari Gilanın dediklərindən bəzi seçmələri İqrara çatdırmaq istəyirdi ki, əmisioğlu onun sözünü kəsdi:

— Gizlətmə, aranızdakı söhbəti olduğu kimi danış.

Mirvari əvvəl tutuldu. Sözünə nədən başlayacağını bir an unutdu. Qırıq-qırıq, Gilanla olan söhbətini əvvəldən sonadək İqrara danışdı.

Sonra İqrar:

— Mən uşaq deyiləm, Mirvari. Daha kimsəyə aldanmağa haqqım yoxdu. Dediklərin düzdüsə, ara qatmırsansa...

Sonuncu cümlə Mirvarini tutdu. Mirvarinin gözləri yaşla doldu.

İqrar başını qolları arasına alıb bərk-bərk sıxdı. Sifəti bozardı. Damarlarında sanki qanı dondu. Onu fikir götürdü, Gilan bu-

nunla nə demək istəyir? Bəlkə, doğrudan da şəhərdən çıxıb. Ona bu yolu kim göstərib? O günkü söhbətində Mirvari onu müdafiə eləyirdi. Hamı mənə "onunla barış" deyir. Söhbətindən belə çıxır ki, o, şəhərin yarısıyla əlaqədə olub. Belə adamın yaşamasına ehtiyac varmı? Axı şəhərdən çıxması barədə də bir kəlmə söz demir. Ancaq dediklərində sözaltı mənalar var. Belə çıxır ki, Gilan şəhərdən gedibsə, səbəbkarı bizik — mən və Mirvari, bir də dolayısı ilə oğlumun taleyi. Xeyr, bunlar səbəb ola bilməz. Bunlar olsa-olsa bir bəhanədi. Günahkar olmadığını sübut etmək üçün sadəlövhcəsinə edilmiş cəhdlərdi. Məni çaşdırır, dilimi qısaldır... Yox, danışığında özünün etirafları da var. Etiraflar düşündüklərimi darmadağın eləyir, suallarımı heçə endirir...

Az vaxt ərzində İqrar elə vəziyyətə düşmüşdü ki, Mirvari az qalırdı ki, evdən çıxıb qaçsın. Oğlanın gözləri hədəqədən çıxmışdı. Mirvariyə elə gəldi ki, İqrarın ürəyi çatlayacaq. O, özünü də, ətrafda kim varsa, hamısını da məhv eləyə bilər. Lap indi içərisində oturduğum evi də yerlə-yeksan eləmək iqtidarındadı. Qadın içindəcə əriyirdi. Qorxudanmı, təlaşdanmı, ya nədənsə, ağzını açıb danışmağa da cəsarət eləmirdi. Handan-hana Mirvari qadın hikkəsinə, şeytan hiyləgərliyinə əl atdı: "— Mənim də başım xarab olub. Bəlkə, danışan başqası olub? Nə çoxdu əclaf adam. Gəl tələsik qərar çıxarmayaq. İmkan ver, fikirləşək. Atalar deyib: "Hirsli başda ağıl olmaz" —". İqrar gözlərini qıyıb əmisi qızının üzünə baxdı. Gözləri içindəki fırtınanı olduğu kimi büruzə verirdi. İqrar qəflətən əlini stola vurub ayağa qalxdı:

— Mənim də başım xarab olub.

— Qurban olum İqrar, sənə əmimin, atamın ruhuna and verirəm, özünü bu qədər üzmə.

— Axı niyə belə olmalıydı? Mən onu həmişə namusum, qeyrətim, ləyaqətim sanmışam.

Əvvəl duruxdu, sonra düşündü. Bəlkə, bunların hamısı qura-





madı. Bəlkə, mənə qarşı növbəti "tor" hazırlanır, xəbərsizəm?!

Mirvarinin dodaqları səyridi. Gözlərində alacalanan yaş muncuq kimi yanaqlarından çənəsinə doğru dığırlandı. İqrarın içində ötəri yumşalma getsə də, üzündəki sərtliyə heç bir təfavüt eləmədi. Mirvari bu işin nə vaxtsa xətasız ötüşməyəcəyini düşündü. O, beləcə çınqırığını çıxarmadan oturub İqrarın nə deyəcəyini gözlədi. İqrar əllərini yumruqlayıb bir neçə dəfə başına vurdu, sonra da dedi:

— Bu barədə heç kəsə bir kəlmə də. Əmiqızı, hətta, ərinə də...

— İqrar, bu toyuq deyil ki, tutub kəsəm, soruşana da deyim ki, kəsmişəm. Əşya deyil ki, əmioğlu, gizlədəm. Yəqin ki, dostları onun harda olduğunu bilirlər. Bir az da keçsə, onu polis axtaracaq...

İqrar Mirvarinin üzünə baxdı, sonra da — "Gələcəm, söhbət elərik" — deyib, həyətdən çıxdı.

* *
*

Sabahüzü başlayan şiddətli külək hardansa özüylə lay-lay, topa-topa buludlar gətirir, sanki hər tərəfi boz duman bürüyür, açıq səmaya qara bir örtük çəkirdi. Günortaya yaxın şıdırğı leysan yağmağa başladı. Adamlar islanmamaq üçün qaçıb yaxınlıqdakı mağazalara, binaların girəcəklərinə, maşınlara doluşdular. Ara vermədən yağan leysan getdikcə gurlaşır, nəhəng çinarları, dümdüz qalxan iynəyarpaqlı şam, küknar ağaclarını, yamyaşıl bəzək kollarını çimizdirirdi. Çoxdan bəri yağmadığından şəhərə ecazkar gözəllik verən bitkilərin toz-torpağı, binaların, asfalt yolların çirki-pası yuyulurdu. Bu mənzərəni tikilməkdə olan binanın alt mərtəbəsindən müşahidə eləyən İqrar dayanıb yağışın kəsməsini gözləyirdi. Elə bu vaxt qoca gözətçi Mahal kişi dar-

vazadan içəri keçdi. İqrar dərhal: — Buranı yağış tutmur, gəl bəri, — deyə onu səslədi. Qoca bərk təntimişdi. Köhnə şlyapasını uzun eyvandan şırhaşır axan su hərdənbir kişinin üz-gözünü isladırdı. Geniş və hündür alnından, soyuqdan bozarmış yanaqlarından çənəsinə doğru süzülən damcılar boyun-boğazına axıb getməsin deyə, Mahal kişi onları əliylə sıyırıb yerə tökürdü. Hər tərəf sel-suya dönmüşdü. Asfalt küçədən şütüyüb keçən maşınların silgəcləri çatdırmırdı. Çox çəkmədi ki, gölməçələrdə birləşən sular küçələrdən üzüaşağı axmağa başladı. Adama elə gəlirdi ki, hansısa çayın qabağını kəsib suyun səmtini şəhərə çevirmişdilər. Mahal kişi başını yelləyib siqaret qutusunu çıxartdı, birini götürüb dodaqları arasına qoydu, sonra da qutunu İqrara tərəf uzadaraq: — Buyur, — dedi. İqrar: — Çəkən deyiləm, sağ olun — dedi. Mahal kişi siqaretini yandırmışdı ki, yaxınlıqdakı birmərtəbəli evlərdən haray-qışqırıq qopdu: "Evi su basdı". "Ay camaat, evimiz uçulacaq". "Belə getsə, evimiz yıxılacaq"... Divarın o biri tərəfindən yaşlı qadının səsi eşidildi: "A bala, uşaqlardan muğayat olun, sel onları aparar, evimiz yıxılar..." Mahal başını azacıq yelləyərək bildirdi:

— Bu yaşa gəlmişəm, mən hələ belə yağmur görməmişəm. Qorxulu bu deyil. Dağların suyunun üzü bəri yol almasıdı. Allah eləməsin, faciə onda qopar.

İqrar təəccüblə soruşdu:

— Yəni elə şey olar?

— Niyə olmur, oğlum. O qədər pis hadisələr görmüşük, Allahımızı unudub şeytanın fitfasıyla oynamışıq ki... O Gözəgörünməz də bezardı bizdən.

— Əşi, bu fikir ağlına hardan gəldi?

— Deyirsən, olmaz? Allah eləsin, olmasın. Şəhəri gərək hər şeyə hazırlasınlar. Bu boyda şəhərə baxan yoxdu. Bunun kanalizasiya sistemi işləsəydi, şəhərdə bu qədər su qalardı? Yox! Zibillər vaxtında yığışdırılsaydı, yağış suyu bu qədər zir-zibili küçələrlə axıdardı? Biz burda yağışa tamaşa eləyirik, divarın o üzündəki evlərə çirkab dolur, kasıbların uçuq-sökük evləri uçulacaq, bir çoxu da yararsız hala düşəcək. Şəhərin bu işə məsul şəxsləri kababxanadadılar, araq vururlar. Yağış kəsəndən sonra Mənzil İstismar İdarələrinin rəislərinə deyəcəklər: "Zərərçəkənlərin siyahısını, ünvanını verin, onlara yardım eləyək..." Ad olacaq sənin, mənim. Bizim kimilərin də yardımını alıb ötürəcəklər içəri. Eh, bu barədə danışmasaq yaxşıdı. Fəhlələr çoxdan gedib?





— Hə, Mahal dayı. Ləngidim ki, sən gəlib çıxasan, mən gedəm. Fikirləşdim ki, birdən yanğın-zad olar, ya götürüb bir şey apararlar, üzüqaralıq olar.

— De ki, səni işdən ayırmışam daa...

— Yox, tez gedib neyləyəcəkdim ki?

— Evin uzaqdı?

— O qədər yox. İstəyirdim ki, qohum var, onlara gedim. Çoxdandı onlara yolum düşmür.

— Nə olar? Yağış kəssin, get, gör onlara da ziyan dəyməyib ki? Yəqin ki, çətinlikləri olar.

— Nədən belə deyirsən, Mahal dayı?

— Ayə, sənin qohumun kasıb olar da, dövlətli olmaycaq ki?

İqrar ürəkdən güldü. Bu da Mahal kişinin xoşuna gəldi, o da güldü.

— Mahal dayı, deyirlər, sən də bir az oturmusan, hə?

— Kim deyir?

— Adın deyəcəm, sonra da şahid-sübut istəyəcəksən.

— Oturmuşam, özü də nə az, nə çox.

— Mən də oturub gəlmişəm. Orda bütövsözlü, düzilqarlı, namuslu kişilər çoxdu. Ora burdan yaşamalıdı.

— Nə üstə oturmusan, oğlum?

— Şərləmişdilər. Guya narkotik maddə alveri eləmişəm.

— Yəqin ki Şər Müzəffərin işi olar.

— Hə...

— İt oğlu çoxlarına atıb. Gözlə, yenə girişə bilər. Onun xasiyyətidi. Polislə əlaqədədi.

— Deyəmmərəm...

— Hamı gözləyir.

— Nəyi?

— Fürsət düşməsini. Çox ayıqdı, hiyləgərdi. Gecələr tək gəzmə. Qulbeçələri çoxdu.

Elə bu vaxt darvazanın qənşərində maşın dayandı. İlqar içəri keçib salam verdi və üzünü İqrara tutub dedi:

— Ayə, burda neyləyirsən? Evdə narahatdılar. Gəl otur maşına, gedək. Mahal kişi həmişə ayıq-sayıqdı, öz yerindədi.

Mahal kişi dərhal cavab verdi:

— Elədi, rəis!

Onun xüsusi tonla "rəis" deməsi İqrara da xoş gəldi. İqrar Mahalla xudahafizləşib maşına oturdu. İlqar maşını yerindən tərpədirdi ki, İqrar dedi:

— Zərnigar xalagilə getmək istəyirdim. O, bir az xəstəhaldı.

— Ünvanı necədi?

— Nizami küçəsində. Bazarın yaxınlığında olurlar. Çoxdan ketmədiyimdən evin nömrəsini unutmuşam.

— Eybi yoxdu, istiqaməti kifayət elər.

Çox çəkmədi ki, "Cip" markalı maşın böyük bir darvazanın qarşısında dayandı:

— Aparmağa nə vaxt gəlim?

— Özüm gələrəm.

— Xeyr. Nə vaxt gəlim?

— Nədi, fikirləşirsən ki, Şər Müzəffər...

— Qələt eləyir, onun qəbrini bu əllərimlə özüm qazacam. Saat neçədə?

İqrar iti nəzərlərlə İlqarın gözlərinin içinə baxdı və dedi: — Məni bağışla, deyəsən, ağlın çaşıb. Saat doqquz tamamda.





— Qalanını sonra danışarıq.

İqrar maşından düşüb darvazaya tərəf getdi. Qapıdan girincəyə qədər İlqar arxasınca baxdı. Sonra maşını hərəkətə gətirdi. Onu həyətdə xalasının böyük oğlu, qırx yaşlı Cəmşid qarşıladı. Qucaqlaşıb öpüşdülər. Yaxşı diqqət edəndə, bu adamda ziddiyyətlər özünü ilk baxışdan aydın göstərirdi. Belə ki, yenicə təraş olunmuş üzü, az qala çənəsinə çatacaq bakenbardı, alt çənəsində dərin açılmış şırım, üst dodaqlarını örtmüş uzun, qara bığları, tüklü, pızaqlanmış başı, yekə burnu ona qəribə bir görkəm verirdi. Qıyıq, bəsirətli gözləri, səmimi baxışları, mehribanlığı adamı özünə cəlb eləyirdi. Çöhrəsindən ismətli, namuslu adam olduğu aydın sezilirdi. Cəmşid utandığından qızarıb pörtmüşdü. O, İqrara:

— Xalaoğlu, mən Moskvadan axşam gəlmişəm, — dedi. Üç ildi ki, orda yaşayıram. Sənin gəlişini axşam anam mənə dedi. Çox sevindim. Dedilər ki, işləyirsən. Axşam səninlə görüşə gələcəkdim. İndi keçək evə. Anam da, bacım da, xanımım da evdədilər, səni görüb sevinəcəklər.

Cümşüd İqrarın qoluna girib onu evə apardı. Xanımlar İqrarı görcək əl-ayağa düşdülər. Zərnigar İqrarın üzündən öpdü. Arvad kövrəlmişdi. Qızı Fidan və gəlini Sənanə ona əl verdilər. Fidan hərəyə bir stəkan çay gətirdi. Sonra da gəlinlə yemək hazırlamaq üçün mətbəxə keçdi. İqrarla Zərnigar bir-birilərindən hal-əhval tutdular, ordan-burdan xeyli danışdılar. Cəmşid dedi:

— Xalaoğlu, şükür ki, gəlmisən, anam mənə deyib, ev-eşiyi də qaydaya salmısan. Əyər-əskiyin varsa, mən də kömək eləyə bilərəm, imkanım var.

— Çox sağ ol, Cəmşid. Ehtiyac olsa, deyərəm. Hələ ki...

İqrar başını yellədi, Cəmşid sözünə davam elədi:

— Uzatma, evlən. Havaxta kimi paltarlarını özün yuyub , yemək bişirəcəksən?

İqrar gülərək:

— Arvad onunçundumu, xalaoğlu?

— Yox, bə nə deyim, qalanı ki, sənə aydındı.

Zərnigar oğlunun sözünü kəsdi:

— Dayan görüm. O barədə xala-bala danışmışıq. Oğlum, sizdən qayıdandan xeyli sonra Gilan gəlmişdi. Sənin gəlməyin, ev-eşiyi sahmanlamağını ona dedim. Bu yaşımda, o gün də dedim sənə, yalan danışammaram, imanıma, dinimə qarşı çıxammaram. Gilan gəlişini eşitcək sevincdən hönkür-hönkür ağladı. Elə bil sinəmə çalın-çarpaz dağ çəkdi. Ürəyim az qala çatlayacaqdı. Dedim: "Gedək qardaşınla səni görüşdürüm". O, nədənsə, qorxdu, çəkindi, oğlum. Demirəm ki, səhvləri olmayıb, olub. Onu yuyub yarpız üstə qoymaq fikrində də deyiləm. Atalar deyib: "Açıq qaba it baş salar". Görünür, onu qorxudan da, utandıran da buydu. Lap tutaq ki, Gilan dəlidi. Onun sahibi olmalıdı, yox?!

— Axı mənim nəyimdən qorxur? Neçə vaxtdı gəlmişəm. Şəhərdə, küçələrdə, parklarda gözlərim onu axtarır. Tapammıram. Harda, kimlə qaldığını bilirsizmi?

— Bizə demədi, bala.

— Onda mən neyləyim, Zərnigar xala? Tuğay dayıgilin telefon nömrəsini sizə verim, o gələndə mənə xəbər edin, gəlim. Heç olmasa, söhbət eləyim, dərd-sərindən hali olum. Axı belə olmaz. O, atlı olub, mən piyada, Zərnigar xala. Səni də başa düşürəm. Ürəyin yanmasa, mənə niyə deyirsən onun barəsində?

— Sən mənə söz ver ki, ona toxunmayacaqsan.

Cəmşid dərhal dilləndi:

— Hə... Anam düz deyir, söz ver, xalaoğlu.

— Sözlə iş düzəlirsə, verirəm. Siz nədən qorxursuz?

Zərnigar xeyli fikirləşib, sonra astadan dedi:

— Sən türmədə oturmusan, hamı elə bilir ki...

— Xala, sənə qurban olum. Türmədəkilər elə ordaca doğulmayıblar. Hamısı azadlıq dediyimiz bu məkandan ora düşüblər.





Düzdü, hamısını demirəm, onların da vicdanı var. Onların da qəlbində xeyirxahlıq, mərhəmət hissləri yatır. Onlar da ağı qaradan ayıra bilirlər. Dost-düşmənlərini seçməyi bacarırlar.

Söhbətə yan otaqdan qulaq verən Fidan içəri keçərək dedi:

— Xalaoğlu, məndən incimə. Türmədən çıxan adam görəndə mən birtəhər oluram. Nə olsun qardaşısan? Gilan da mənim kimi...

— Eh... Namərd hər yerdə namərddi. İstər türmədə, istərsə də azadlıqda. Mən türmədən çıxmamışam ki, bir də ora qayıdıb girəm... Mən də bilirəm ki, türmə cəhənnəmdi. Orda insanla heyvana fərq qoymurlar. Heç nədən ölənlərin qanı batır. Şikayət də eləyə bilmirsən. Bir söz deyən kimi, adını satqın qoyub gecəykən məsələni həll eləyirlər. İndi sizdən soruşuram: Məgər mən dəliyəm? Həqiqətən dəliyəmsə, məndən hər şeyi gözləyin. Mən anamın, atamın ruhlarını çox sevirəm. Bacıma ürəkdən bağlıyam... Daha başqa söz deməyə ehtiyac yoxdu.

— İqrar, uşaq qapılardadı. Onun dərdi, nisgili məni sarsıdır.

— O da düzələcək. De görüm, özün necəsən, xala?

— Sənin işlərin qaydasına düşəndə xalan ikinci ömrünü yaşamağa başlayacaq. Xalanın da vəziyyəti, güzəranı səndən asılıdı.

— Oldu.

Elə bu vaxt Fidan dedi:

— Söhbəti saxlayın, xörək hazırdı.

Gəlinlə baldız süfrə açdılar. Hamı süfrə başına yığıldı. İqrarın gözləri divardan asılmış saata sataşdı. Doqquza az qalırdı. İqrar dedi:

— Xala, məni İlqar gözləyir, getməliyəm.

— İlqara da de gəlsin.

— Yox, gəlməz. Onu çox gözlətməyim. Telefon nömrəsini sizə verim. Gilan gələn kimi, özü bilməsə, yaxşıdı, zəng çalın, mən gəlim.

İqrar Tuğay kişinin nömrəsini kağıza yazıb Zərnigara verdi, özü də xudahafizləşdi. Həyət qapısından çıxan kimi İlqarın maşınının dayandığını gördü. O, maşına əyləşib dedi:

— Nə əziyyət çəkmisən, özüm gələcəkdim də.

İlqar heç bir söz demədən maşını hərəkətə gətirdi. O, özündə-sözündə deyildi. Maşını necə idarə elədiyini də bilmirdi. İqrar onun bu hərəkətləri ilə heç cür razılaşmırdı. İstəmirdi ki, İlqar bir göz qırpımında cinayətkara çevrilsin. Müstəntiq, prokuror, məhkəmə qarşısında cavab verməli olsun, məhbus həyatı keçirsin. Maşın bir qədər getmişdi ki, İqrar:

— İlqar, maşını ver yolun qırağına saxla, — dedi.

İlqar da:

— Xeyir ola, — deyə soruşdu.

— Səninlə söhbət eləmək istəyirəm.

İlqar maşını böyük bir çinar ağacının altında saxladı. Tək-tək maşınlar nəzərə alınmazsa, küçədən gediş-gəliş kəsilmişdi. O, maşının işıqlarını söndürdü. Ağır-ağır, təmkinlə dedi:

— Qardaş, görürəm, özünü darıxdırırsan. Düşmənlə necə gəldi vuruşmazlar. İstiqanlılar, çılğınlar, hövsələsizlər həmişə uduzurlar, tədbirlilər, soyuqqanlılar, təmkinlilər müdam qalib olurlar. Sən tələsirən. Mənə də düşünməyə imkan vermirsən. Şər Müzəffər mənim düşmənimdi. Ola bilməz, bu işdə o tək olsun. Gəl ətrafımızı yaxşı öyrənək, ağılla götür-qoy eləyək, hissə qapılmayaq. Dəqiq düşünülməmiş hərəkətlər bizi daha böyük faciələrlə qarşılaşdırar.

— Mən ondan qanımı almayınca rahatlana bilməyəcəm.

İqrar güldü. Sonra etinasız halda dedi:

— Nə qədər qan itirmiş olarsan. Təqribən bir litr, eləmi?

— Səkkiz ildə mən o qanı itirmiş olarammı? Unutma ki, bir litr qanı bir dəfəyə içmək də olar. Ancaq səkkizillik...

— Bağışla, İqrar. Mən tək öz qanımı nəzərdə tutmurdum. Sən bir dəfə türməyə düşüb çıxmısan. Səni törədəcəyim cinayətə qatmamaq üçün elə danışdım, öz qanımı önə çəkdim. Sənin əlin o itin qanına batsa, cəzan ağır olacaq. Mən razı ola bilmərəm ki, sən bu işə girişəsən. Bu neçə gündə mən onun barəsində xeyli məlumat toplamışam. O, evini dəyişib, təzə mənzilə köçüb. Üç uşaqlı arvadını boşayıb. Təzə mənzildə Mənzər adlı bir cavan qadınla yaşayır. Şəhərdəki mağazalarından, taxta sexlərindən, dəyirmanından əlavə şəhər kənarında bir kababxanası, Hacıkənddə isə restoranı var. Hər gün səhər o, həmin restorana baş çəkir, sonra şəhərdəki obyektlərində olur...





— Məlumatları hardan almısan, onları sənə kim verib?

İlqar tutuldu, istədi məlumatın mənbəyini deməsin. Düşündü ki, buna görə İqrar inciyə bilər. Əlacı kəsildiyindən dedi:

— Mənim tanışım var. Xeyli müddətdi ki, onunla duz-çörək kəsirik. Bir zaman Şər Müzəffər onu da polisə satıb, onu xərcə salıb çoxlu. Bu dəfə yeyib-içəndə o, keflənmişdi. Özü də bilmədən dərdini açıb mənə danışdı. O adamı mən tanıyırammı? Yox!.. Tanımasan yaxşıdı.

— Sən zəmanət verə bilərsənmi ki, bu adam kiminləsə içib səninlə olan söhbətini danışmayacaq? Sayıqlamayacaq? Görürsən, İlqar, ilk addımların uğursuzdu. Bu elə belə iş deyil, qandı, ölümdü! Burda insan taleyindən söhbət gedir. Belə sirlər heç hara sızmamalıdı...

— O məni satsa...

— Onu da öldürəcəksən? Onda bu boyda şəhərdə adam qalmaz ki?

İlqar tutuldu, deyəsən, danışmağa söz tapmadı:

— Nə olur-olsun. Atam demiş, qismət nədi, onu da görəcəm.

— Bu, ağılsızlıqdı, İlqar. Bir ay deyil ki, evinə gəlin gətirmisən. Onu xoşbəxt eləməlisən. Bu fikir ki, səndə vardı, niyə ailə qururdun? Mətanət xanımın günahı nədi ki, onu gözləri yaşlı qoyasan. Bu haqqı sənə kim verir? Bəs gözləri işıqdan, dizləri ta-

qətdən düşən valideynlərin necə olsun? Bilirəm, deyə bilərsən ki, məndən başqa da övladları var. Qeyrətləri varsa, onlar çəkərlər. Mən sənnən razı. Bu yaşda adamların çəkdikləri mənəvi iztirablar necə olsun? O iztirabların haqqı-sayını kim verəcək, İlqar?! Səhv yoldasan. Başından çıxart o müəmmalı fikirləri. Şeytan girib qəlbinə, indi də çalxalayır səni... Şeytanla oturub-durmaq bizə yaraşmaz. Unutma ki, Şər Müzəffər mənim düşmənimdi.

— Xeyr! Həm də mənim!

— Olsun, inanıram, Allah onun cəzasını verəcək. İndi sür gedək.

İlqar dinməz-söyləməz maşını yerindən tərpətdi... İqrardan necə ayrıldığını, evə nə təhər gəldiyini bilmədi. İlqar özündə deyildi. Nifrət hissiylə yaşadığını anlayırdı. Nə qədər özünə təskinlik versə də alınmırdı. Özünü bir qədər şən, yüksək əhvalda göstərməyə çalışırdı, ancaq alınmırdı. Riyakarlığa, ikiüzlülüyə adət eləməyən, ona ömrü boyu nifrəti olan bu adam roldan rola girməyi bacarmırdı. Hər dəfə atası da, anası da “İlqar, sənə nə olub, belə qəmlisən, elə bil dəryada gəmin batıb” deyəndə onu sanki tutub silkələyirdilər, “yatmısan ayıl” deyirdilər...

İlqar bu axşam evə əsəbi gəlmişdi. Halı özündə deyildi. Mətanət ərinin gözlərinin içinə baxdı. Əsəbdən, qəzəbdən savayı heç nə görmədi. Bir ay bir yastığa baş qoysalar da, o, heç cürə ərinin xasiyyətini başa düşmürdü. Çox vaxt da özünü bilməzliyə vururdu. — Nə vaxtsa, özü açılar — deyə düşünürdü. İlqarsa, Şər Müzəffərin ölüm sehrinə elə düşmüşdü ki, hətta, təzə gələn qadınını da görmürdü... İlqar evə girən kimi:

— Bərk halsızam, yatağı aç — dedi.

— Çay, yemək hazırdı.

— İstəmirəm, həvəsim yoxdu.

Mətanət əri deyən kimi elədi, yatağı açdı. İlqar soyunub yerinə girdi. Mətanət gözaltı onu süzdü. Ancaq heç bir söz demədi.





Səssiz-səmirsiz soyunub ərinin yanına girdi. Xeyli vaxt ərinin narahatlığını, yata bilmədiyini sezdi. Dözəmməyib:

— Axı nədən narahatsan, əzizim, niyə yatmırsan, deyə — ərindən soruşdu.

— Heç, ömrüm-günüm, yat.

“Ömrüm-günüm” xitabı arvadını bərk tutdu. Əvvəlki nigarançılığının üstünə elə bil sərin su səpdilər. Mətanət qalxıb ərinin üzündən öpdü, sonra da əlləriylə saçlarını qarışdırdı. İlqar yorğanın altındaca qolunu uzadıb arvadının boynunu qucaqladı:

— Mənə baxma, sən yat.

— Yox, de, mən də bilim, İlqar, belə olmaz. Məndən gizlin nəyin var axı?

Arvadının son cümləsi İlqara çox şeydən xəbər verirdi. O qorxdu ki, arvadı onun barəsində başqa şey fikirləşər. Ürəyinə nəsə salar, nədənsə şübhələnər. Bununla da qaş qayırdığı yerdə göz çıxarar. İlqar yalan danışmalı oldu:

— Nigarançılığım işdəndi, qadası. Tələsdirirlər, binanı bir aya təhvil verməliyəm, o da mümkün deyil.

— Ondan ötrü özünü bu qədər üzməyə dəyərmi?

— Təkcə ona görə yox, həm də bir az soyuqlamışam. Sən yat, mən də tezdən getməliyəm.

Mətanət daha bir söz demədi. İlqar çox çəkmədi ki, onun mışıl-mışıl yatdığını duydu. Yatağında o tərəf — bu tərəfə çevrildi. Özlüyündə nələrisə xeyli götür-qoy elədi. Səhər ara verəndə sakitcə yataqdan qalxıb maşına oturdu, Hacıkəndə tərəf sürdü. Meşəyə çatıb maşını yoldan kənara çıxartdı. Kolların, sarmaşıq dolanmış ağacların arxasında saxladı. Şər Müzəffərin maşının gəlişini gözlədi... Xeyli keçmiş sarı rəngli bir “Jiquli” gəlib keçdi. Onu dəhşət bürüdü. Bu dəfə Şər Müzəffər şəxsi xarici markalı maşınının yox, tamam bir başqa maşının sükanı arxasında əyləşmişdi. İlqar maşını onun arxasınca sürdü. Hacıkəndə gedən yolun kənarındakı təpəciyin üstündə saxladı. Ordan iki

kilometrlik yol aydın görünürdü. İlqar fikirləşdi ki, iki kilometrik məsafədən sarı rəngli "Jiqulini" görmək mümkündür. Bu yolla şəhərə qayıdarkən maşını onunkuyla toqquşdura bilər. Bu yol hadisəsindən də Şər Müzəffər heç vaxt canını qurtara bilməz. İlqar bu fikirlə gözlədi. Saat ona qalırdı. Bir də hiss elədi ki, "Jiquli" ona xeyli yaxınlaşıb. İlqar tələm-tələsik maşını işə salıb yola düzəldi. Otuz metr qalar-qalmaz "Cip" markalı maşın yolundan çıxıb "Jiquli"nin yoluna keçdi. Qəfil yaxalanan Şər Müzəffər çıxış yolu tapa bilməyib maşını yolun kənarına çəkdi. Maşın sürətlə gəldiyi üçün yoldan çıxıb bir neçə dəfə aşdı. İlqar maşının sürətini azaltmadan güzgüdən arxaya baxdı. Maşından kimsənin çıxmadığını görüb öz-özünə dedi: heyf yanındakılardan!.. İlqar şəhərə günortadan sonra qayıtdı. O, yol kənarında qəzaya uğratdığı maşını görməyib düşündü: "İtin meyidini aparıblar".

İş yerinə baş çəkdi. Hamı iş-gücündəydi. Təkcə İqrar narahatıydı. İlqarın gəldiyini görcək ona yanaşıb pıçıltılı səslə:

— Lələ, vaxtında işə gəl, ürəyimizi qoparma, — dedi.

— İşdəyəm də. Nə olub ki?

— Heç. Ürəyimi səksəkəyə salmısan.

İlqar gülümsündü, ancaq bir söz deməyib kabinetinə getdi. İşin sonuna yaxın obyektə gələn idarənin mühəndisi Məmmədşah belə bir xəbər verdi:

— Bu gün, saat on-on bir radələrində Hacıkənddən şəhərə gələrkən Şər Müzəffərin idarə elədiyi "Jiquli" maşını yoldan çıxaraq aşıb. Arxada və yanında əyləşən şərikləri Təhməzlə Murtuz yerindəcə dünyalarını dəyişib. Şər Müzəffər isə yüngülcə xəsarət alıb... Hazırda xəstəxanadadı. Həkimlər sabaha buraxacaqlar..." Məlumatı alan İqrar İlqarın günortaya qədər işdə olmadığından şübhələndi. Öz-özünə: "Sağ ol səni İlqar, dedi. — Ancaq hardasa, səhvə yol vermisən yenə". O, eşitdiklərindən artıq İlqardan heç nə soruşmadı.





* *
*

İşdən qayıdanda Gülər qarıdan Zərnigarın ismarıcını eşidən İqrar yorğun-arğın taksiyə oturub özünü xalasıgilə çatdırdı. Yol boyu əsəbiləşməməyi, bacısını axıra qədər dinləməyi, axırda da insaflı hərəkət eləyəcəyini qərara aldı. Onu da düşünürdü ki, bacısına olan xoş münasibəti ata-anasının ruhuna hörmət, nəslinə-kökünə rəğbətdi. O, həyətə girəndə ürəyi atlandı. Bir anlığa ona elə gəldi ki, evə girən kimi bacısı sarılacaq boynuna, üz-gözündən öpəcək, sevincdən, göz yaşları axıdacaq. Fələk deyir "Sən saydığını say, gör mən nə sayıram". O, həyəcan və intizar içərisində otağa girdi. Onu ilk qarşılayan Fidan oldu. Görüşəndən sonra çay gətirmək istədi, İlqar qoymadı:

— İçmirəm, bəs xalam hanı?

— Gəlir, qonşudadı, əyləş, zəng vurum gəlsin. Bayaqdan səni gözləyir.

Fidan dəstəyi götürüb nömrələri yığdı, sonra da kimdənsə xahiş elədi:

— Evə qonaq gəlib, anam tez gəlsin.

Heç beş dəqiqə çəkməmiş Zərnigar gəlib çıxdı. Qadının kefi yox idi. İqrar güman elədi ki, məsələ heç də onun düşündüyü kimi deyil. Nəsə xalasının başqa fikri var. Zərnigar gəlib görüşdü, sonra da stul çəkib oturdu. Fidan həyətə düşdüyündən evdə İqrarla Zərnigar qaldılar. Qadın ah çəkib dərin fikrə getdi. Handan-hana dilləndi:

— Oğlum, yəqin işdən gəlmisən, yorğunsan. Düşünürsən ki, xalam məni niyə çağırıb? Cəmşid arvadıyla kəndə gedib. Nə danışacağımızdan da Fidanın xəbəri yoxdu. Düşündüm ki, bilməsə yaxşıdı. Dünən axşam Gilandan məktub almışam. Oxudum, dəhşətə gəldim. Sonra da fikirləşdim ki, məktubu sənə çatdırım. Al oxu, tələsmə.

Məktubda yazılmışdı:

"Salam Zərnigar xala! Bağışla ki, sənə üzbəüz söylənəcək fikrimi məktubla bildirirəm. Mənə elə gəlir ki, sənə deyiləsi çox şey var. Onların hamısını təklikdə deməyə gücüm çatmazdı. Səni əsəbiləşdirə bilərdim. Fikirlərimi olduğu kimi çatdırammazdım. Məni necə var qəbul eləyəmməzdin. Odur ki, məktub yazmaq qərarına gəldim...

"Əziz xala! Qardaşımın azadlığa çıxması, evimizi təmir etdirməsi məni sevindirdi. İqrara varlığımla bağlıyam, uğrunda ölməyə də hazıram. Vicdanı safdı, təmizdi, ləyaqəti, şərəfi özündədi. Ailəcanlıdı. Mənə olan istəyini, sevgisini lap uşaqlıqdan duyur, hiss eləyirdim. Bir dəfə də olsun mənə qüsur tutmayıb. Kaş məni döyəydi, incidəydi... Təəssüflənirəm ki, bunların heç biri olmayıb. Onun üzərimdə haqqı-sayı çoxdu. O, məndən böyük olub, həmişə özünü yanımda kiçik kimi aparıb. İndi onun barəsində düşünəndə dəhşətə gəlirəm. O, həmişə bir qədər zəhmli, qaraqabaq görünərdi. İti gözlərində özümə qarşı zərif bir qayğı sezərdim. Bəzən fikrə gedərdi. Belə hallarda alnında qırışlar yaranardı. Hərdən bu qırışlar da sıxılar, qoşalanardı. Onda lap qəribə görünərdi. Özünə bir söz deməsəm də, kənara çəkilib üzünə doyunca baxar, gülər, sevinərdim.

Çox danışmağı sevməzdi. Danışanda da ünsiyyətdə olduğu adamın üz-gözündəki dəyişmələri, gərilmələri diqqətində saxlayardı. Hər eşitdiyinə məhəl qoymazdı. Sözündən, inadından dönməzdi. Lovğalardan məddahlardan zəhləsi gedərdi. Lap elələrini didməyə, parçalamağa, dağıtmağa hazır olardı. Qəlbi təmiz, ürəyi kövrək, səxavətli, istiqanlı, təəssübkeş, namuslu, sədaqətli adamıydı mənim qardaşım. Onunla fəxr edərdim, Zərnigar xala. Məni bağışla. O günü dedin ki, gəl səni qardaşınla görüşdürüm. Səni bağışlayar. Qayıt evinizə. Həyatınızı təzədən başlayın. İtirilmiş adamlara çevrilməyin. Həyat davam eləyir... Bunun üçün sizə minnətdaram. Sən həmişə böyüklüyünü eləmisən. İndi də insaniyyətini davam elətdirirsən. Xala, sən Allahın əziz bəndəsisən. Sənin yerin mələklərin yanındadı. Mən səninlə fəxr eləyirəm. İnan mənə! Səninlə söhbətdən sonra çox fikirləşdim, çox götür-qoy elədim. Belə nəticəyə gəldim ki, mən qardaşıma layiq bacı deyiləm. Əxlaqım korlanıb, mənəviyyatım zəhərlənib. Ürəyim istəyənləri dilim demir. Həyatımın elə bir anı yoxdu ki, maska taxmayım. Belə olduğu halda mən qardaşıma yalnız utanc, xəcalət gətirə bilərəm, xala! Valideynlərimin ruhuna da, qardaşımın təmiz, saf vicdanına da, şəxsiyyətinə də az ləkələr vurmamışam. Günahlarım çoxdu. Qara ləkələri bundan sonra yuya biləcəyimə də əmin deyiləm. Mənə ucuz ölüm lazımdı. Təəssüf eləyirəm ki, ölə bilmirəm. Çalışacam ki, ömrüm boyu İqrarla qarşılaşmayım, gözlərinə baxmayım... Qorxuram ki, onun barəsindəki bütün təəssüratlarıma xələl gələ, xoş düşüncələrimə qara gölgə düşə. Bu mənim üçün ən ağır zərbə olardı, xala!

Yalvarıram sənə, dediklərini yerinə yetirməyə qüvvəm çatmadığı üçün məni bağışla. Heç vaxt səninlə də görüşə bilməyəcəm. Çox istərdim son anda da olsa, səsini eşidəm, gül ətirli nəfəsini duyam, aydın gözlərindən öpəm. Səni qucaqlayam, bağrıma basam. Tale bunu da mənə çox gördü...

Kəm taleli insanlar bədbəxtdi. Mən də o zavallılardanam. Bizim kimi insanlar nə qədər qəribə də olsa, tez-tez məhvərindən çıxır, ağla gəlməyən, təsəvvür olunmayan bir məcraya atılırlar, acı rüzgarla qovuşurlar. Açığını deyim ki, nədəndi bilmirəm, son vaxtlar içimdə aramsız, mütəmadi peşmançılıq və təəssüf hissləri baş qaldırır. Hərdən məni sadə, mövhumi duyğular, fikirlər çulğalayır. Səbəbini anlamasam da, mənə güclü yaşamaq eşqi, böyük arzular, istəklər vəd eləyir. Onların təsiri altında ətrafdakılara sadəlövhcəsinə inamım tez-tez aldanışlarıma gətirib çıxarır. Deyirlər, insan inamsız yaşaya bilməz. Hamıya inanımmı?! Yox! O, ağzıboşların quru təbliğatından başqa bir

şey deyilmiş. Şübhələr inamdan daha vacibmiş... Bu ideyanı mənə acı, zəhlətökən həyatımın zəhərli nəticələri verdi...

Özümü qardaşımla bir şəhərdə yaşamağa layiq hesab etmirəm. Ona görə yox ki, məni cəzalandıra bilər. Mən onun əlində ölsəydim, özümü xoşbəxt sanardım. Elə vəziyyətdəyəm ki, ağla qaranın fərqi yoxdu mənimçün. Atamın, anamın əziz yadigarını başıaşağı eləməmək üçün bu şəhərdən gedirəm. Əziz xala, yeganə adamsız ki, qardaşımla sənin qarşında diz çökürəm. Öpürəm əllərinizdən.

Siz məktubumu oxuyanda mən bu şəhərdə olmayacam.

Əlvida, qardaşım İqrar!

Əlvida, xalam Zərnigar!

*Sizi canı qədər sevən Gilan".*

İqrar məktubu axıra qədər oxudu. Gözlərini yumdu. O, özündə deyildi. Varlığı — hissi, duyğusu, düşüncəsi sarsılmışdı. Handan-hana gözlərini açıb Zərnigara baxdı. Qadının gözlərindən axan yaş yanaqlarını, çənəsini islatmışdı. O, dinmədən, danışmadan əllərinin içiylə gözlərinin yaşını sildi. Dodaqları səyriyirdi. Özü də hiss eləmədən İqrarın boynu əyilib çiyinlərinə düşdü. Zavallı bir görkəm aldı. Deməyə söz tapammadı. Dərin iztirab keçirən İqrar xalasının razılığı ilə məktubu dörd qatlayıb cibinə qoydu, sonra da xudahafizləşmədən beli sınmış kimi sürünə-sürünə evdən çıxdı.

* *
*

Hadisədən bir neçə gün keçmişdi. İlqar otağında əyləşib işgücüylə məşğul idi. Günortaya yaxın müstəntiq Pərvin Namazov obyektə gəldi. Onu görcək İlqarın sanki ürəyi qırılıb içinə düşdü. Nə eləyəcəyini bilmədi. Qan başına vurdu. Gözləri ayağının altını görmədi...





Müstəntiq İlqarın otağına girəndə katibə qız otaqdan çıxırdı. İlqar qıza:

— Xanım, qonağımıza da bir stəkan çay gətirin, — dedi.

Müstəntiqin əhvalı yaxşıydı. Üzündə gülüş, gözlərində parıltı duyulurdu. O, İlqarın katibəyə dediklərini eşitcək:

— İçmirəm, xanım. Otaqdan çıx, içəri də başqa adam buraxma — deyə bildirdi.

Bu söz sövq-təbii İlqarı tutdu. Müstəntiqin gözlərinin içinə diqqətlə baxdı, dedi:

— Hə, necədi, cənab müstəntiq, evimin içində mənə güllə atan cinayətkarı tapdınmı?!

— Yox, axtarış gedir.

— Hələ çox gedəcək?

— Çalışırıq yekunlaşdıraq.

— Elə isə bura nə yaxşı gəlmisən?

— İki gün bundan əvvəl sən harda olmusan?

Artıq hər şey aydın idi. İlqar halını dəyişmədən cavab verdi.

— Azərbaycanda...

— Məni dolamısan?

— Sən dolanmağa layiqsən?

— Nə danışdığından xəbərin varmı?

— Sən necə? Xəbərdarsan?

— Sən cinayət törətmisən, İlqar. İki nəfər dünyasını dəyişib. Üçüncüsü də xəsarət alıb.

— Xəsarət alanın ölməməsinə təəssüflənirəm.

— Bəlkə polisdə danışaq? Görürəm, burda söhbətimiz tutmayacaq.

— Olar.

Müstəntiq İlqarın çəkindiyini güman eləyib gülümsündü. İlqar iti nəzərlərlə onun gözlərinin içinə baxdı. Müstəntiq çaşdı. İlqar soruşdu:

— Silahın üstündədimi?
— Cinayətkarın üstünə silahsız getməzlər.
— Çox əcəb.
İlqar ayağa qalxıb seyfi açdı. "Makarov" tipli tapançanı, bir də üç paçka ABŞ dollarını gətirib stolun üstünə qoydu və amiranə səslə, ancaq astadan dedi:
— Hansını istəyirsən seç. Vaxtın azlığını da nəzərə al.
Müstəntiq Pərvin Namazovun gözləri böyüdü. Qorxu, təşviş, həyəcan onu bürüdü. Hanan-hana özünə gəlib əllərini əskinaz parçalarının üstünə qoydu. Sifətindəki vahiməli hisslər məcburiyyətdən doğan təbəssümlə əvəz olundu. İlqar dərhal:
— Götür, get, işçilər başqa şey düşünə bilərlər.
Müstəntiq:
— Soruşana deyərəm, dost kimi gəlib, dost kimi gedirəm.
— Sənə yaxşı yol.
Müstəntiq getdi. İlqar qəzaya düşən günahsız adamların ölümünə təəssüfləndi, düşündü: axı, niyə ölməyəydilər? Bir halda ki, Şər Müzəffərin şərikidilər, deməli, onlar da Şər Müzəffər siqlətindədilər. Heyfsilənmək lazım deyil. Deməli, Şər Müzəfləri şər qüvvələr mühafizə eləyir. Görünür, bu dəfə taktika dəyişməlidi...
Tapançanı götürüb arxadan şalvarın toqqası altına keçirtdi, pencəyi üstdən çəkib otaqdan çıxdı.
Müstəntiqin gəlişini İlqar İqrara söylədi. Gülümsünərək dodaqaltı:
— Düşmənlərimizin kimlər olduğunu soruşurdu.
— Hələ onu axtarırlar?
— Tapıblar. Gözləyirlər ki, cəzasını biz verək. Biz də deyəsən, qeyri-dəqiqliyə yol veririk. Seçimi düz eləmirik. Biz günahsız idik. Onlarınsa günahları böyükdü. Biz güllə yarasına tab gətirdik. Onlar maşın qəzasından çıxammadılar. Haqq-hesab hələ qabaqdadı, lələ.





— Biz hələ ki, bir-birimizi başa düşəmmirik.
— Axı mənim işimi sən niyə görməlisən?
— Neçə dəfədi deyirəm ki, tələsmə.
— Deyirsən, gözləyək, gəlib iş yerində, yolda canımızı alsınlar?!
İqrar böyük yanğı və ehtirasla bildirdi:
— Çaqqalın ömrünü uzatdın! Hər dəqiqənin öz hökmü var!
Nə fikirləşdisə İlqar daha bir söz demədi.

*　　　*
*

Bir az qorxaq və məhdud düşüncəli, tez-tez fikrini dəyişən, qeyrət-namusun nə olduğunu anlamayan, el arasında "Maymaq" ləqəbi qazanan Əlməmməd neçə vaxtdı tin-bucaqda kef çəkdiyi Gilanın İqrar barədə dediklərini xatırladı. İndiyəcən olub-keçənləri, bundan sonra nələr baş verə biləcəyini götür-qoy elədikcə Əlməmməd daha dərinlərə gedib çıxacağını düşündü. O, oturduğu yerdəcə rəngləri tündləşdirir, ən kiçik gedişlərə, sadə görüntülərə əlvanlıq gətirir, bəzən də onların üstünə zil qara örtük çəkmək istəyirdi. Belə olanda, İqrarın qorxusunu, vahiməsini canında daha artıq hiss eləyirdi. Zəhlətökən hisslər onun başını daha da dumanlandırır, aydın düşüncələrini bulaşdırır, onu sərxoş adam vəziyyətinə salırdı. Bir an içində İqrarla bir məktəbdə oxuduğu çağlar yadına düşdü: nadinc, dəliqanlı, dediyindən dönməyən, gözlərindən heç nə yayınmayan, yetənə yetib yetməyənə bir daş atan, heç kəsə, heç nədə güzəştə getməyən, olduqca sərt, davakar... İqrarın xarakterindəki bu cizgilərdən xəbərdar olmasaydı, hələ vaxtilə Şər Müzəffər onu narkotik maddə üstündə şərləyib tutdurmazdı. Əlməmməd onu da anlamağa başlamışdı ki, o, bacısı ilə münasibətlərimdən hali olsa, əməllicə-başlı qarşılaşacaqlar. Bacardıqca gizlin, alınmasa, aşkar da

olsa, məni aradan götürməyə çalışacaq. Ailəyə — anama, bacıma, qardaşıma da xətər yetirəcək. O it oğlunda qəzəb, nifrət güclüdü. Qoluzorludu. Tutduğunu ölsə də, buraxan deyil. Yamanca əzazildi. Qan içənliyi də var. Temboli türməyə düşüb. Oranın qanunlarını bilir. Deyirlər, namus üstə adam öldürənə türmədə kişi qiyməti verirlər. O, bıçağı Gilanın boğazına dirəsə, bacısı hər şeyi açıb deyəcək. O da həyasız, insafsız adamdı, bir həngamə düzəldəcək, gəl görəsən... Yüz dəfə desəm də ki, məqsədim təmiz olub, inanmayacaq. Axı o bilir ki, mən ailəliyəm. Bilməsə də, maraqlanacaq, eşidəcək. Ona qəsdən deyənlər tapılacaq. Bu it qızı Gilana hardan rast gəldim? Onunla niyə qarşılaşdım? Oğraş Şər Müzəffər bunu hardan mənə caladı? Evi yıxılsın Müzəffərin. Namərddən yaxşı iş çıxması mümkün deyil. Binamus elə bil, doğurdan da, qələt işlər üçün doğulub. Əlindən hər nə desən gəlir oğraşın. Bircə yolum var. Bir bəhanəylə arvadımı boşayım. O da gedib məhkəməyə çıxacaq... İşə baxılana kimi də bu Allahsız eşidib axırıma çıxacaq... Zavallı Gilanı da öldürəcək... Gərək Qunduzla danışıb Gilanı günü sabahdan Bakıya yola salam. Özüm də arvadla xüdahafizləşib onun ardınca gedəm.

Dolaşıq fikirlər, müəmmalı suallar içində ilişib qalan, çabalayan Əlməmməd çərşənbə axşamı qatara bir bilet götürdü. Gilana zəng çalıb yola nə vaxt çıxacağını çatdırdı.

Nəzərdə tutulan vaxtda qatara tələsən Gilan həmişəki görüş yerində Əlməmmədin maşınına oturdu. Maşın vağzal binasının tininə çatanda Gilan dedi:

— Maşını qaranlıqda saxla, işığını da söndür. Bizi tanıyan olar.

Bu sözlər Əlməmmədin ağlına batsa da, özünü toxtaq göstərmək istədi:

— Bu qədər həyəcan olar? Nə qismətdi, onu da görəcəyik, qadası.





— Birdən Bakıda iş olmaz ha. Bura qayıdıb gələmmərəm. Çöllərdə qalaram.

— Qalmazsan.

Əlməmməd cibindən dörd qatlanmış vərəqi çıxarıb səssizcə oxudu və Gilana uzadaraq dedi:

— Al bu ünvanı... Şəhərin mərkəzidi. Gedərsən bu ünvana. Qunduz xanımla görüşərsən. Onun da əsli Gəncədəndi. Danışmışam, o, sənə qayğı göstərəcək. İşə düzələrsən, bir müddət onlarda qalarsan. Hər şey qaydasında olacaq...

Gilan ünvanı alıb oxudu. Onu qara, meşin çantasında gizlətdi. Elə bu vaxt qatara minik başlandığı elan olundu. Gilanın yükünü yerbəyer eləyib qayıdan Əlməmməd vaqonun girəcəyində küçəlisi Sədrəddinlə qarşılaşdı. Salamlaşdılar. Əlməmməd çaşdı. Nə eləyəcəyini bilmədi. Sədrəddin dərhal soruşdu:

— Sən də Bakıya?

— Yox! Hə!..

— O nə danışıqdı? Burda iki fikir ola bilməz. Əzizim, dolaşdırma özünü “hə”, “yox” sözlərindən birini de. Onsuz da qatarda hər şey bilinəcək.

— Qatara tamaşa eləyirdim.

— Deməli adamın var. Qadındı, kişidi?

— Tanışdı.

— Tanış olmasa, burda nə qələt eləyirdin. Düz danışmağı öyrənmək lazımdı. Nə vaxta qədər sənə ədəb dərsi keçməliyəm.

— Qəribə adamsan, hər şeyi sənə deməliyəm?

— Yox. Bacarırsan demə.

— Bu nətər adamdı, ə.

— Ə, dava-dava eləmə.

— Kim? Mən, yoxsa, sən?

— Əcəb işə düşdük. Əlməmməd, sevin ki, mən sənin kimi əxlaqsıza salam verirəm.

— Axşam-axşam işə düşmədik? Qan qaraltmağa öyrəncəlidi, bu nadan.

— Nadan özünsən. Elə bildim, sən də Bakıya gedirsən. Dedim söhbət eləyərik, vaxtımız maraqlı keçər.

— Səndən xeyir görən, Sədrəddin, Allahdan bəla görər.

Əlməmmədlə Sədrəddinin dava-dalaş salacağını görən sərnişinlər yaxınlaşıb onları araladılar. Əlməmməd əsəbi halda Sədrəddindən ayrıldı. Kənara çəkilib qatarın yola düşməsini gözlədi. Çox çəkmədi ki, qatar qara div kimi yükünü ağır-ağır çəkərək vağzaldan uzaqlaşdı.

Sədrəddinlə qarşılaşması, onunla artıq-əskik söhbəti Əlməmmədin içinə yeni ağrı-acılar tökdü. O, düşündü ki, Sədrəddin qatarda Gilanı görəcək, ona girişəcək... Bir şey alınmasa, qənşərinə çıxana deyəcək ki, onunla çox olmuşam. Gilanı Bakıya mən aparmışam. Deyən olmayacaq ki, Sədrəddin, yalançının atasına lənət, anası itlə yatsın... Gilan axtarılsa, dediklərini boynundan atacaq. Qızı yola saldığımı İqrara məlumat verəcək. Eybi yoxdu, qoy versin. Mən də onda İqrara çatdıraram ki, onu Bakıya Sədrəddin apardı. Bacararsa, qatilin zərbəsi altından özü çıxar... Öz-özünə danışdıqca, canında qorxu, vahimə hiss elədi. Gilanla tanışlığına nə qədər peşmançılıq keçirsə də, hardasa o zavallıya rəhmi də gəldi.

*     *
*

Gilanı Bakıya yola salan Əlməmmədin içində sanki dərin bir uçurum yaranmışdı. O, ən qiymətli adamını itirdiyini güman eləyirdi. Gilandan Bakıya getmək razılığını alanda nə qədər sevinmişdisə, indi onsuz qaldığına bir o qədər kədərlənirdi. O, özünü bu boyda şəhərdə kimsəsiz, dayaqsız hiss etdi. Əlməmməd dərindən ah çəkdi: — Sənə yamanca öyrəşmişəm, Gilan,





— deyə düşündü... Gəlib tələkə maşınına oturdu. Bu maşın ona mərhum atasından qalmışdı. O da hərdən bir bu maşından taksi kimi istifadə eləyirdi. Zavallı Əlməmmədə indi İqrar da bir dərd olmuşdu. Keçən axşam nə az - nə çox üç dəfə onu yuxuda görüb ayılmışdı. Yuxu yozmaq qabiliyyəti olmadığından gördüklərini də bir tərəfə çıxara bilməmişdi. Əlməmməd İqrarın çətin adam olması barədə çox düşünmüşdü. Nə qədər çalışmışdı ki, o barədə fikirləşməsin, ancaq mümkün olmamışdı. İqrarın vahiməsi az qalırdı ki, Əlməmmədin ürəyini çatlatsın. Səhər evdən çıxanda Əbdüləzəmin qızı — yəni arvadı Xatirə qanını bərk qaraltmışdı. Şikayət-filan eləməsəydi, Əlməmməd onu döyərdi. Ərinin əlqolunu bağlayan Xatirənin şikayətbazlığıydı. Cana doyduğundan Əlməmməd evə getmək istəmirdi. Gülməsəydilər, elə vağzalda, parkda, ya da elə maşındaca yatıb qalardı. O, maşına əyləşib evinə getdi. Qapını açıb içəri girmişdi ki, Xatirə Ərəbzəngi kimi qənşərində dayandı. “Hardaydın?!, “Niyə gec gəldin?”, “Kimlə idin — yenə o fahişələrlə?” — kimi sualları Əlməmmədin üstünə yağdırdı. Bir loxma çörək yemək əvəzinə, arvadına iki şapalaq vurdu. Aləm qarışdı. Əlməmməd bir söyüş söyəndə Xatirə ikisini, üçünü söydü. Özü də neçəmərtəbəlisindən. Qohum-qonşular tökülüşüb gəldilər. Başladılar onlara ağıl verməyə: “Yekə kişisən, özün evə gəlmirsən, üstəlik bu nə səs-küydü salırsan”; “Ağlınız olsun, dalaşmayın, biz gedəndən sonra birbirinizə lazım olacaqsız”, “Sözünə qiymət ver, arvadın hüququn tapdalamazlar”, “Ayıq ol, bəlkə aranıza girən var”, “Niyə arvadla dil tapanmırsan, gündə-gündə dalaşmaq olar?”, “Dolanmırsan, ərizə ver məhkəməyə, ayrıl”... Bunları eşitcək Əliməmməd gözlərini döyməyə başladı. Ərinin sakitləşdiyini görən Xatirə lap dərinə getdi. Olmayanları da deməyə başladı: “Atamın, anamın nə günahı var, onları söyüb abırdan salırsan”, “Məni döydü”, “Üstümə bıçaq çəkdi”... Əliməmməd bu sözləri eşidib bir qədər yazıqlaşdı. O, yaxşı bilirdi ki, arvadının dediklərinin

arxası gedib polisdə qurtaracaq. Bəlkə də, on beş gün orda yatıb "ağıllanmalı" olacaq. Əlməmməd düz adam olmadığını özü də bilirdi. Xəyanətini boynuna almasa da, anlayırdı. Şər Müzəffərin məsləhət bildiyi qadınlarla oturub-durduğunu, bərkə dursalar, fəxrlə deyərdi. İstədi, işə bir aydınlıq gətirmək üçün kiçik bir açıqlama versin: "Ay dadi-bidad, nəyə deyirsiz and içim. Məni Xatirə özü evdən qaçaq salıb. Bilmədiklərimi, ağlıma gəlməyənləri o, özü öyrədib mənə. Əvvəllər evə, ailəyə bağlı adamıydım". O, elə hey dedi: "Əlməmməd özünü yığışdır, kənarda arvad saxlama. Qazancını evə gətir. Yad arvad görəndə ərimə. Gözlərin pişik gözləri tək parıldamasın. Buna niyə elə baxdın?.. Arvadlara dişini ağartma... O qədər yaramaz sözlər eşitmişəm, hamısını desəm, qulaqlarınızı tutarsız. Nə qədər özümü, atamı, anamı söyməliydim ki, Xatirə inansın?.. İnanmadı, əlacsız qaldım..."

"Üç nöqtəni" hiss eləyən Xatirə atıldı:

— Nə? Qansız oğlu, qansız! Sənin atan da yazıq arvadı...

— Tələsmə Xatirə, lap az qalıb! Əzrayil gözaltı eləyib, ölüm özü üstümə gələcək. Mən öləndən sonra qədrimi bilərsən.

— Qoy gəlsin. Mən də onu istəyirəm. Axşamdan səni gözləyirəm. Harda itib-batdığından da xəbərim yoxdu. Sancıdan doğranıram. Bəlkə, sənə bir dərman aldıracaqdım?

— Heç haran ağrımır. Görürəm, sənin məqsədin məni bu evdən qovmaqdı. Elə işin varsa, açıq de, mən də rədd olum, gedim. Sənin də canın dincəlsin, mənim də.

Elə bu anda Xatirənin gözləri Əlməmmədin əynindəki dümağ köynəyin boğazına bulaşmış qırmızı pamadaya sataşdı. Qadını sanki ilan vurdu.

— Bu nədi, ay alçaq? Sənə deyəndə ki dəyyussan, boynuna almırsan. Bu rəngi sənə kim yaxıb?

Əlməmməd anladı ki, ehtiyatsızlıq ucbatından maşından düşərkən Gilanın dodaqları köynəyinin boynuna toxunmuşdur. Qaranlıqda onu nə Gilan görmüş, nə də özü hiss eləmişdi. Əlacsız qalan Əlməmməd ciddi-cəhdlə qadınla yaxınlığını boynundan atmağa çalışdı:

— Nə rəng? Nə  pamada? Nə qadın? Sənin başın yenə xarab olub?

Xatirə Əlməmmədin yaxasından tutub dartışdırmağa başladı. Köynəyin boğazı Xatirənin əlində getdi. Pamada qızartısını görən arvadlar Əlməmmədi altdan-altdan süzdülər. Sənubər qarı özünü saxlaya bilməyib dilləndi:

— Bu nədi, ə, qırışmal? Hər gün mən də özümü cırıb-dağıdıram ki, Əlməmmədin əlindən elə iş gəlməz.

Otuz yaşı olar-olmaz Mələknisə astadan dedi:

— A, elə danışırsan, Sənubər xala, lap bişmiş toyuğun gülməyi gəlir. Deyirsən, Əlməmməd kişi döör? Əgər kişiliyi yoxsa, bu boyda arvadı dəli olub? Niyə — Başqa arvadlarla gəzirsən — deyə çığırıb-bağırır? Sənubər cavab vermək istəyirdi ki, nəvəsi Sima dərhal onun sözünü kəsdi:

— Deyirsiz qoluboy olar? Neujenni?..

Qızcığazdan "qoluboy" sözünü eşidən Əlməmmədin hirsi başına vurdu:

— Ağzınıza gələni danışmayın, kişiliyimə də şübhə eləməyin. Rəng köynəyə evdə bulaşıb. Səhər geyəndə də görməmişəm. Baxın Xatirənin də dodağındakı pamadaya, köynəyə bulaşan rəngə də. Onda bilərsiz kimindi? Mən hamınıza deyirəm, inanmasanız sübut da eləyərəm. Nəyə desəniz, ona da and içərəm. Kişiliyimə söz olammaz. Qaldı qoluboyluğa. Mənim nəslimdə-kökümdə elə axmaq şey görünməyib. Yalan deyirəmsə, Xatirə özü desin.

— Nə deyəcəm, a biqeyrət. Əlinə ağ yaylıq alıb düşmüsən çöllərə, aləmlə bir eləmisən ki, arvadı boşayıram. Nə var, nə var, arvad uşaq doğmur. Əyə, ay yazıq, niyə başa düşmürsən ki, arvadı kişi doğuzdurar... Hansını deyim. Öz gününə ağlayam-

mırsan. — Arvaddan boşanıram, — deyə məni ellə bır eləmisən. Bərkə duran kimi məni şahid çağırırsan? Ölsən də sənə əl uzatmaram. Atalar deyib: "Elin sözü əvvəl axır düz olar". Biz atalardan çox bilmərik, Əlməmməd.

— Xatirə, bəsdi, məni rüsvay elədin.

— Əlməmməd, ağzımı açdırma, açaram sandığı, tökərəm pambığı. Şəhərdə başını qaldırammazsan, hamı səni barmaqla göstərər.

Sima özünü saxlaya bilmədi:

— Əşi, orda nə qəbahət var ki? Avropanın çoxu elədi də, Xatirə xanım, qomoseksualistlər haqqında eşitməmisən?

Sənubər nəvəsinin sözündən əsəbiləşdi:

— O nəmənə şeydi, az, sən də başlamısan?

— Kişilər kişilərlə... Xatirə mən deyəni başa düşdü.

— Sən kəs səsini. Qız uşağı, sən hardan bilirsən onları? Allah səni biabır eləsin.

— Niyə nənə? Bəyəm biz bu cəmiyyətdə yaşamırıq?! Gündə televizorda göstərmirlər. Onlar şəhəri götürüb ağzına, ay nənə!.. Soruşan varmı ki, a bala, bu nədi? Əlməmməd də elə.

Sənubər:

— Allah! Allah! Daş yağdır, Allah! Biz cavan olanda belə şey yox idi. Bu hardan çıxdı, az? Əlməmməd, mən görürəm, iş yaxşı tərəfə getmir. Belə getsə, özünü öldürməkdən savayı özgə çarən qalmayacaq. Yığış otur evində. Arvadın nə deyir, ona bax. Arvad yıxan evi fələk də yıxammaz.

Matı-qutu quruyan Əlməmmədin səssiz-səmirsiz dayanıb gözlərini danışanların ağzına dikməkdən başqa yolu qalmadı. Gecəyarıyadək çəkən söz-söhbət Xatirənin qələbəsiylə qurtardı. Arvadının törətdiyi biabırçılıqdan sonra sabah küçəyə necə çıxacağı barədə düşündüyündən həmin gecə nə Gilan, nə də canına vahimə salan İqrar yadına düşdü. Təkcə bir fikir ağlına gəldi ki, vallah, belə yaşamaqdan ölmək yaxşıdı.





* *
*

Ağır əzabdan, dərin sarsıntıdan halını, xislətini bilmədiyi məchul bir məkana baş götürüb gedən Gilan sanki qatarın taktukunu da, vaqondakı adamların səs-küyünü də eşitmirdi, yanında oturanları da görmürdü. O, öz aləminə qapılmışdı. Nəinki gələcəyini, heç indisini də görmürdü. Özünü tanıdığı çağlardan həyatın qaranlıq girdablarına atılması, namərdlərin, nakəslərin, şorgözlərin təhrik və təzyiqi ilə əxlaqsızlıq və mənəviyyatsızlıq yuvalarında məxsusi qazandığı mükəmməl təcrübə onu haldanhala salırdı. İçinə dünyanın tab gətirə bilmədiyi ağrı-acıları çəkirdi. Qardaşının zəhmi, çıxara biləcəyi sərt qərarlar, tay-tuşlarının həqarətli baxışları və atmacaları onu doğulub boya-başa çatdığı dünyadan qoparırdı. Çox şey indi ona təsir eləyirdi. Bir söz kifayət idi ki, ürəyini boşaltmaq üçün hönkür-hönkür ağlayıb gözünün yaşını axıtsın. Böyür-başında oturan sərnişinlərdən sifətini gizlətmək üçün yönünü pəncərəyə çevirmişdi. O, içindəkiləri nə qədər boğmağa, gizlətməyə çalışsa da üzündə müəyyən cizgilər əks olunurdu. Nəhayətsiz okeanların nəhəng dalğaları gəmiləri ağuşunda yırğaladığı kimi içində qalxan qasırğalar, təlatümə gələn tufanlar da Gilanı eləcə çalxalayırdı. Xeyli yol qət elədikdən sonra onunla üzbəüz əyləşən, yaşı altmışı ötmüş, saçları ağarmış qonur gözlü qadın: — Qızım, — deyə yekə, qara çantasından çörək, pomidor, yumurta, kotlet, göy-göyərti çıxarıb stolun üstünə qoydu və gülümsünüb astadan Gilandan soruşdu:

— Bayaqdan yol gəlirik, üzünü pəncərədən çölə tutmusan, özün də bikefsən. Yoxsa, bizimlə danışmaq istəmirsən?

Gilan bütün mənəvi gücünü toplayıb eyni ahənglə cavab verdi:

— Nə danışırsız, xanım, Sizi ki ilk dəfə görürəm. Özünüz də yaxşı adama oxşayırsız.

— Onda çörək kəsin, adama bir loxma yeyək. Yoxsa, səhərə qədər...

— Çox sağ olun, xanım.

— Qızım, sən cavansan, biz istəsək də, istəməsək də yol yoldaşıyıq. Yemirəm deməyə ixtiyarınız yoxdu. Yeməsən, bizə də nuş olmaz. Bissimillah elə.

Qadın kupedəki ər-arvada da eyni qaydada müraciət elədi. Kişi pəhrizdə olduğunu bildirdi. Arvadı dərhal dedi:

— Narahat olmayın, xanım, biz yeyib-içib evdən çıxmışıq. Bir halda ki, təklif eləyirsən, pendirlə bir loxma kəsərəm. Özün də ürəyi açıq adama oxşayırsan.

Qadın cavab verdi:

— Ola bilər.

— Adın nədi?

— Tumruz.

— Çox yaxşı, mənim də adım Humaydı.

Tumruz üzünü Gilana tutaraq soruşdu:

— Bəs sənin adın?

— Gilan.

— Xoşbəxt olasız.

Humay bildirdi:

— İmanın kamil olsun.

Gilan:

— Amin.

Hər üç qadın süfrəyə əl uzatdı. Birlikdə çörək kəsdilər. Axırda Tumruz çəkinə-çəkinə dedi:

— Kişi xəstədi, şəkəri də var. Ona yuxusuzluq olmaz. Mən də yaşlıyam, icazənizlə yatağı açmaq istəyirəm.

Gilan:

— Mən açaram, xala.

Gilan kişi ilə Tumruzun yataqlarını açıb Humayın üzünə baxdı. Humay gülümsündü və bildirdi: — Mən yol gedəndə yatammıram. Səhərə qədər beləcə oturacam. Baxarsan işinə, yatammasan söhbətə hazıram.





Gilanın sifətində məcburiyyətdən doğan gülüş sezildi. Humay dedi:

— Bakıda olursuz?

— Yox, Bakıda tanışlarımız var. İş tapsam, işləyəcəm.

— Ərin, uşaqların?

Gilan şorgöz kişilərin suallarına verdiyi yalan cavablardan birini də Humaya verməli oldu.

— Ərim maşın qəzasına düşüb. Uşağım olmur.

— Bəs indi nə fikirləşirsən?

— O, məndən asılı deyil ki? Allahın qismətidi. Olar lap yaxşı, olmaz sağ canım, əllərim, ayaqlarım.

— İş tapacağına ümidlisən?

— Görək də.

— Mən şəhərdə xəstəxanada həkim işləyirəm. Sənə ünvan verim, lazım olsa, zəng çalarsan. Tanışlarımdan xahiş eləyərəm, sənə yardım göstərərlər. Qaldı özünün müalicənə, onu mütləq elətdir. Özün də çalış ailə qur. Ailəsiz qadın... Çöldə qanqal görmüsən...

— Hə...

— Qanqal kimidi... Qocadı, cavandı, sonalama.

Hər ikisi güldü.

Gilan:

— Təki ailəcanlı olsun. Evə bağlı adam olsun. Bu barədə rəhmətliyə çatan olmazdı. İnanmıram eləsi mənim qarşıma çıxa, Humay xanım.

Gilan elə yerli-yataqlı danışırdı ki, ona inanmamaq, halına acımamaq mümkün deyildi. Hərəkətləri də danışığı kimi çox nizamlıydı. O, Humaydan soruşdu:

— Gəncəyə nə əcəb getmişdiz?

— Allah mərdiməzarın evin dağıtsın. Anam, orda bir Şər

Müzəffər var. Sataşmadığı adam yoxdu. Bizim qohum var, onu da şərləyib atdırıb içəri. Bir vaxtlar prokurorun arvadının həkimi olmuşam. Getdim ki, onu tapşıram.

— Tapşırdız?

— Eh nə tapşırıq... Kişilərə pul lazım imiş... Aldım qohum-əqrəbasından, verdim kişinin arvadına. Arvadın da gözünə dönüm. Təpiyini yerə necə döydüsə, getdim evə, gördüm uşaq evdədi. Kişiyə ləqəb də qoyublar ey, Şər Müzəffər. Görən, arvad-uşağı, qohum-əqrabası xəcalət çəkirlərmi?

— Nə deyim, vallah.

— Onun barəsində şəhərdə nələr eşitmədim. Deyirlər, hərəmxanası var. Qızları, cavan qadınları ələ keçirib kimə gəldi satır. Pul qazanır. Az, bu nə addı götürüb üstünə?.. Bəyəm, xəcalət çəkmir, yerə girmir? Arvad-uşağı camaat arasında gəzmirlər? Deyilənləri eşitmirlər? Özü də deyirlər ki, bazburutlu adamdı.

— Bəyəm, Bakıda elələri yoxdu?

— Bayaqdan çənəyə vermişəm. Birdən atan, qardaşın, ya qohumun olar ha. İnciyərsən... Eh... Lap incisən də, ay Gilan, bildiklərimi demişəm, deyəcəm də. Arvad, kişi, nə fərqi var, adamın gərək ləyaqəti olsun... Onda yoxdu.

On dəfələrlə Şər Müzəffərin qolları arasında mürgü döyən Gilan növbəti yalanı uydurdu:

— Mən də barəsində eşitmişəm, ancaq tanımıram. Bizim qonşuda bir qadın vardı, eşitmişdim onun Şər Müzəffərlə dostluğunu. Eşitdiyimə görə, alıb ona bir maşın da hədiyyə verib.

— Ay onun maşını başına dəysin. Dedilər, bu yaxında onu qəsdən maşın qəzasına salıblar, ölməyib. İt çətin ölər. Elənçiyi torpaq da qəbul eləməz. Allah eləsin, o, mənim xəstəm olsun. Allahın lənətinə gəlim, əgər onu həmin gecə iynə vurub öldürməsəm...

— Hamı sizin kimi deyir, ancaq gücləri çatmır. Tələsmə, bir





atasının oğlu çıxacaq qabağına, yedizdirəcək elədiklərini Şər Müzəffərə.

— Hanı? Neçə illərdi bildiyini eləyir. Evi-eşiyi, hər cür şəraiti. Nə qədər deyirsən pulu. Hamı da ona yaltaqlanır. Qadınlara da eləsi lazımdı.

— Qadınlara yox, Gilan, fahişələrə.

— Eh... O tərəfini sonalıyan var ki?

— Hamı elə ola bilməz. Ləyaqətli qadınlarımız çoxdu.

— Şəhərin bütün vəzifəliləriylə dostdu.

— Bir kişi ki, adam sata, qadın alveri eləyə... Ona nə deyəsən? Yəqin elələrinin anaları, bacıları, qızları da olmaz. Olsa, əməlini başa düşər. Nə deyəsən, elələrinə. Pula görə... Deyirlər, Əlməmməd adında bir kişi saxlayır yanında. Mehtər kimi işlədir. Əldən düşənlərdən, vec verməyənlərdən ona da hərdənbir ötürür. Gör, bu insan nə qədər iyrəncdi?!

Gilana elə gəldi ki, Humay onu da tanıyır. Bəlkə də, qatara minəndə Əlməmmədi onun yanında görüb, qəsdən sözü fırlayır. Gilan özünü bir qədər narahat hiss elədi. İstədi desin ki, mən də yatmaq istəyirəm. Humay dilləndi:

— Təhsilin nədi?

— Orta məktəb qurtarmışam.

— Görürəm ki, sakit qızsan. Bakı mühiti çətindi. Adam çox olduğuna görə Bakıda anasının əmcəyini kəsənlər, dələduzlar, quldurlar da çoxdu. Gərək özünü idarə eləyə biləsən. O da baxacaq sənin ağlına. Ağlı olan yaşayır, olmayanı məhv eləyirlər. Qohumların səni dəvət eləyiblərsə, qorumağı da bacaracaqlar. Sən mənə baxma. Mən öz evimə gedəcəm. Günortaya qədər də yatıb yuxumu alacam. Sən qalx, yatağını aç, bir az gözünün acısını al. Qadın xeylağısan, çatan kimi yatmayacaqsan ki?

Söz Gilanın ürəyindən oldu. Yatağını açıb başını balınca atdı. Onu dərin bir yuxu apardı.

*  *
*

Bütün gecəni qatarla yol gələn və səhər açılanda qatardan düşən Gilan tamam başqa bir mənzərəylə qarşılaşdı. İzdihamlı şəhər. Quşbaşı qar. Şiddətli külək. Dondurucu şaxta. Buzlu küçələr. Bir-birinin ardınca ehtiyatla şütüyən maşınlar. Hansı səmtə, nəylə gedəcəyini bilməyən, başı dumanlı, cavan bir qadın.

O, kimsəsizliyini, tənhalığını, özünü hansı burulğana atdığını sanki indi hiss elədi. Bir anlığa ona elə gəldi ki, dəryanın ortasındadı, şahə qalxan dalğalar onu ağuşuna alıb belədən-belə çırparaq nəfəsini kəsməkdə, bir azdan da nəhəng balıqlara yem eləməkdədi. Çaşqın halda vağzala daxil olub eskalatorla birinci mərtəbəyə endi. Ağır-ağır addımlayaraq küçəyə çıxdı. Xeyli getdi. Ömrüboyu həsrətində olduğu, adı ilə fəxr elədiyi, tez-tez televizorda gördüyü, barəsində qəzetlərdə oxuduğu, radioda eşitdiyi bu şəhər ona sönük, yad, cansız görünürdü. Axı niyə? Heç özü də bilmirdi. Şəhərdə işin başlanması vaxtına xeyli vardı. O, şəhərlə tanış olmaq qərarına gəldi. Gəzə-gəzə gəlib Sahil metrosuna çıxdı. Hansı səmtə gedəcəyini bilmədiyindən əvvəl istədi taksiya oturub maşını Əlməmmədin verdiyi ünvana sürdürsün. Taksiyə tərəf bir-iki addım atıb dayandı. Bir anlığa beynindən belə bir fikir keçdi: "Nə pulum var ki, onun da müəyyən hissəsini taksiyə verim... Bəs sonrası necə olsun". O, metroya düşdü. Çantasındakı kağızı açıb yenidən Əlməmmədin çəkdiyi sxemə baxdı: Deməli, "Bakı soveti" metrosundan çıxmalı və sola dönüb İstiqlal küçəsiylə "Hüsü Hacıyev"ə getməli..."

O, belə də elədi. Hüsü Hacıyev küçəsinə çatanda dayandı, Əlməmmədin isnad verdiyi istiqaməti itirdi. Çantasından dörd yerə qatlanmış kağızı çıxarıb bir də baxdı. Sonra Hüsü Hacıyev küçəsilə üzü yuxarı addımlamağa başladı. Kənardan baxan hər kəs bu qadının nabələdliyini dərhal anlayardı. Narahatlığını,





əsəbiliyini, ümidsizliyini çox asan, tərəddüdsüz-filansız sezə bilərdi. O, gəlib məşhur "Beş mərtəbə" adlanan yerə çıxdı. Dayandı. Qarşıda geniş meydan açılırdı. Sol tərəfdə üzərində Azərbaycan Dövlət Milli Dram Teatrı yazılmış dördmərtəbəli, sağda altı mağazalı ikimərtəbəli, qarşıda və arxada beşmərtəbəli binalar yerləşirdi. O öz-özünə düşündü:

— Hə... Buradı, düz gəlmişəm. Allah işə düzəldənlərə insaf, mürüvvət versin. Mənə kömək eləsələr, iş düzəltsələr yaxşı olardı. Əsas iş yerinin olmasıdı. Yer olsa, onlara nə fərqi var, mən oldum, ya başqası... Heç olmasa, pullu iş olaydı, özümü də dolandıraydım, yaman gün üçün azdan-çoxdan arxaya da ataydım...

Eh, çatmamış, gör nələr fikirləşirəm. Bu izdihamlı şəhərdə o qədər anasının əmcəyini kəsənlər var ki... Kaş onlarla qarşılaşmayaydım, onların nadanlıqlarıyla üzləşməyəydim. Allaha yalvarıram ki, məni onlardan uzaq eləsin... Əlməmməd məni əclaf adamlarla calaşdırmaz ki? Elə namərdliyə qol qoyarmı? İnanmıram...

O, ikimərtəbəli qədim binanın birinci mərtəbəsindəki şüşəli qapıya yaxınlaşıb dayandı. Azacıq nəfəsini dərib qapını astadan döydü. Handan-hana qarabuğdayı, bəstəboy, dolubədənli, bir qadın qapını açdı. Onun pətənə burnu, qalın dodaqları, iti, badamı gözləri vardı. Saçlarına sarı boya çəkmişdi. Üzünə çəkdiyi pudranın izləri aralıdan duyulurdu. Ətli döşləri sinəsini qabartmışdı. Geydiyi qara şalvar, qırmızı kofta əyninə pərçimlənmişdi. Gilan qadını görcək gülümsündü.

— Mənə Qunduz xanım lazımdı.

— Eşidirəm. Qunduz mənəm.

— Lap yaxşı. Mən Gəncədən gəlmişəm.

— Çox əcəb.

— Adım da Gilandı

— Sözünüzü deyin.

— Məni Əlməmməd göndərib. Dediyinə görə, sizə işçi lazımdı.

— Hə... Mənə zəng çalmışdı. Az qala unudacaqdım. Zəhrimara qalmış iş o qədərdi ki... Başım qatışır, deyilənləri də yadımda saxlaya bilmirəm.

Əlməmməddən razı qalan Gilan öz-özünə dedi:

— Əlməmməd mənə yalan deməz. Nahaq yerə ona şübhəylə yanaşırammış.

Qunduz qabaqda Gilan da onun ardınca kabinetə keçdilər. Kabinet dar olsa da işıqlıydı. Divarlara çəkilən təzə ağ kağızlar otağı səliqə-sahmanlı göstərirdi. Otaqda iki masa, bir neçə stul qoyulmuşdu. Qunduz gülümsünərək Gilana dedi:

— Əyləşin, Gilan xanım. Mən də əslən gəncəliyəm. Vağzal uşağıyıq. Hardasa, Əlməmmədlə qohumluğumuz da var.

"Qohumluq" sözünü eşidən Gilanın üzü bir balaca işıqlandı, qəlbində doğan ümid qığılcımları bir qədər də parlaqlaşdı. Gilan dərhal:

— Belə de...

— Əlməmmədlə mənim qohumluğum ürəyinə başqa şey gətirməsin, Kür... körpü məsələsi deyil ha...

— Nə danışırsız, xanım?

— Lap yaxın qohumuq. Mənim dayımın qızı Şahnaz onun xalası nəvəsi Mətində ərdədi. İki uşaqları da var. Keçən ay Şahnaz gəlmişdi. Bir az bizdə qaldı, sağlığına, təşkil elədik, getdi xaricə. Dünən axşam mənə telefon açmışdı. Nə görübsə gəlmək istəmir ki... Baxma, həm öz gəncəlimdi, həm də can-ciyərimdi. Dünya beş gündü. Gedib həm pul qazanır, həm də kefini çəkir. Gəncədə ayağını bir balaca çəp qoyan kimi hərə bir şəbədə qoşacaqdı. Dalına bir vedrə bağlayacaqdılar, gəl-görəsən. Canı indi rahat olub yazığın. Düz demirəm, anaş?

— Düzdü.

Elə Qunduza da bu həmrəylik lazım idi. Üzə vurmasa da





dərhal anladı, ancaq özünü o yerə qoymadı.

— İki ildi bu təşkilatda çalışıram. Dolanışıqlı yerdi. Başını aşağı salıb işləyənə, deyilənlərə əməl eləyənlərə şərait yaratmışıq. Bizə işləyən, can yandıran adamlar lazımdı. Biz deyən olmadı, xoş getdin...

— İşləyən gərək can yandıra.

— Biz o qədər adama əl tutmuşuq, xeyir vermişik, gəl görəsən. Şəhərdə nə qədər villa tiktirən, "Cip" markalı maşın alanlarımız var. Halal xoşları olsun.

Gilan Qunduzu dinlədikcə sevinir, hərdən bir eşitdiklərindən ürəyi vəcdə gəlirdi:

— Qunduz xanım, sizə qurban olum, mənə də bir iş düzəldin. Sən də mənim bacım. İş nə qədər ağır olsa da narahat olmayın, etimadınızı doğruldacam. Nəyə gücüm çatır eləyəcəm, siz tələbinizi eləyin. Sağlam adamam.

— Səninlə danışdıqca işin barədə fikirləşirəm, Gilan. Bir də ki, Əlməmməd kim, mən kim. Onun xahişini yerinə yetirməyəndə... Çalışacam səni qabağa salım ki, bikar qalmayasan.

— Çox sağ olun, ömrüm boyu...

— Lazım deyil, xanım. O gün biri gəlmişdi. Elə uzun-uzadı namusdan, qeyrətdən danışırdı. Dedim ki, bilirsən nə var, xanım. Namusunu, qeyrətini ərinə, qardaşına, atana saxla. Bizə sənin namusun yox, işin lazımdı.

— O niyə elə danışırdı ki?

— Əşi, mən nə bilim? Başı xarabdı da. Əşi babalarımız da qəribə adam olublar. Özlərindən "namus, qeyrət" sözləri düzəldiblər. Nə var, nə var, arvadlarını əllərində bərk saxlasınlar. Bəzi fanatik arvadlar da uyublar onların təbliğatına. Başlayıblar namus belə, qeyrət elə, düzdü, xanım?

— İşdə nə namus, nə qeyrət söhbəti? Nə deyillər, onu elə də... O qədər qudurğan adamlar var ki... Şəxsən mən... Özünüz də görəcəksiz. Xoşunuza gəlmərəmsə, atarsız qırağa. Sizə kim

nə deyəcək?

— Əlməmməd can-ciyərimizdi. İstəsə, ona canımı da verərəm. Bakıya gələndə həmişə bizdə qalır. Dediyinə görə, qalmağa da yeri var. Heç hara getmir ki... Gəlir yanıma, dincəlir, öz işlərini görüb qayıdır Gəncəyə. Aramızda etibar, sədaqət var. İş elədi ki, gərək işçiyə inamın ola, etibarın ola. Adamı peşman eləməyəsən.

— Əlbəttə, Qunduz xanım... Əlməmməd bilir, mən də etibarsız adam deyiləm. Yenə deyirəm, çalışacam iş-gücüm sizin ürəyinizcə olsun, etimadınızı doğruldum. Əlməmmədin də üzünü ağ eləyim.

— Hə, xanım, görürəm, əlləm-qəlləm adama oxşamırsan. Əlməmmədin canını Allah sağ eləsin. Halını bilmədiyi, xasiyyətinə bələd olmadığı adamı bizim yanımıza göndərməz... Tanışlıq olmasa, iş getməz. Getsə də, ondan bir şey çıxmaz. Atalar yaxşı deyib: "Halına, xislətinə bələd olmadığın atın dalına keçmə". Sən də elə. Əlməmməd zəng çalmasaydı, çətin ki, bir-birimizi başa düşəydik. Müdir iş dalınca gedib, hardasa, indilərdə hərlənib gələr.

— Müdiriniz kimdi?

— Eldar müəllim. Xaricilərlə əlaqələri çox genişdir. Dediyi sözün dalı-qabağı yoxdu. Cavan adam olasan, özü də bu qədər prinsipial. Əlli yaşı ancaq olar. "Salidni" kişidi. Öz aramızdı, kişiyə nə yaş?! Canı suludursa, həmişə qəbul olunandı. Düzdü, anaş?

— Düzdü. Qanan adamın, bacarıqlı adamın əlinin altında işləmək böyük xoşbəxtlikdi. Gərək qədrin bilək.

— Çox yaxşı.

— İnanıram ki, müdirimiz, sənin də xoşuna gələcək.

Gilan ani olaraq fikrə getdi. Sifətində anlaşılmaz cizgilər duyuldu və tez də ötüb keçdi. Bu hal Qunduzun da diqqətindən yayınmadı. O, heç bir şey olmamış kimi sözünü pərdələməyə





başladı:

— Müdir çərənçi, idbar, nəfskar olanda hər şeydən bir iş çıxarır. — İt elə gəldi, qurd belə getdi, — deyir. İşə vaxtında gəl, gecikmə. Hardaydın? Nə qədər qazanmısan? Gətir, yarısını mənə ver... Bilirsən, xanım, gəl, açıq danışaq. Müdirlə işçi əlbir olmasa, tulla getsin. O idarədə bir gün də işləmək ağla batan deyil. Bircə çarəsi var, işləmə, özünə başqa yerdə iş axtar. İndi də iş çıxıb dağ başına. Hər kəs özünə faydalısını çağırır yanına. Öz aramızdı, elə deyilsə, Gəncədən bura niyə basa-basa gəlirdin? Oturub orda işləyərdin də. Yəqin bundan əvvəl də hardasa işləmisən. Az-çox müdirlə əlaqələrin də olub.

— Mənim, yox.

— Sənin olmasa da, əlaqələri olanları görmüsən.

— Xalça sexində işləyirdim. O sahədə xeyli təcrübəm var. Ancaq müdir məni tanımırdı. Cavan qızlar vardı. Onlardan bəziləri deyirdilər ki, mən müdirlə yaxınam. Müdir belə gəldi, elə getdi... Doğrusu, mən də inanmırdım, fikirləşirdim beləlləri özlərinə böhtan deyirlər... Sexi özəlləşdirdilər, işçilərin yarısını da ixtisara saldılar. Müdir öz adamlarını gətirdi... Belə oldu, mən də çıxdım. Hazırda işsizəm.

— Harda olsa, işləyərsənmi?

— Niyə işləmirəm, Qunduz xanım. İş olsa, lap Artyom adasına da gedərəm. Təki...

— Lap yaxşı, maşallah, tu... tu... Özün də cavansan, gücün də var. Göz dəyməsin, özün də gözəgəlimlisən...

— Eh... Məndə nə qalıb... Bilirsən necəydim?

— Təsəvvür eləyirəm. Tezliklə şərait yaradarıq, əlin gətirər, özünə baxarsan, əvvəlki görkəmin bərpa olunar... Düzələrsən.

Hiyləgərliklə bu sözləri deyən Qunduz Gilana göz də vurdu. Gilan qımışdı. Qunduz qonağının hal əhli olduğunu anladı və dərhal ayağa qalxıb təzə dəmlədiyi çaydan iki stəkan süzdü. Birini özünə götürdü, ikincisini də Gilana verdi və dedi:

— Uzaq yol gəlmisən, aclığın olar.

— Yox! Çox sağ olun.

— Əşi qorxma, Əlməmməd gələndə heyfini ondan çıxacam.

Gilan gülümsündü. Qunduz danışdıqca hiss eləyirdi ki, qonağı ona isnişir. Bir az da belə getsə, otuz ilin tanışı, rəfiqəsi kimi Gilan həyatında olub-keçənləri də açıb ona bircə-bircə danışa bilər. Hərifi duyuq salmamaq üçün o, qəsdən dərinə getmədi. Araya sakitlik çökdü. Gilan dərindən ah çəkdi. Qunduz dərhal dedi:

— Ahın dağlara-daşlara. Görürəm, işinin düzələcəyinə nagümansan. Eldar müəllimin xoşuna gəlsən, götürəcək. Mən sənə indidən iş tapşıra bilərəm. Bilirəm, çəh-çöhr də eləməz, Allah var adamın başının üstə. Ancaq məsləhətli don — atalar deyib — gen olar. Qorxma, canım. Elə eləyəcəm, hər şey ürəyincə olacaq.

— Qoy gəlsin müdir. Qəlblər örtülüdü... Sizdən də inciyər, Qunduz xanım.

— Məncə, Əlməmməd göndərən adama o da yox deməz. Sənədlərin üstündədimi?

— Bəli!

— Xarici pasportun da varmı?

— Xaricdə də...

— Pul ordadı da, xanım, burda nə var ki? Hamı ordan ötrü...

Gilan dərhal fikirləşdi ki, xaricə işləməyə gedərsə, bir müddət qardaşının diqqətindən yayınar, ikinci tərəfdən də az-çox pul qazanar, qayıdan da da həmin pula Bakıda ev alar. Bunları düşünən Gilan Qunduza növbəti sualını verdi.

— Hansı ölkələrlə işləyirsiz?

— Pakistan, Türkiyə, Dubay... Lap istəsən Avropa, Qərb ölkələriylə də. Təki Eldar müəllim razılıq versin, qalanları asandı.

— Verməyə bilər?

— Dedim, narahat olma, bəs mən burda niyə oturmuşam?





Əlməmmədin adamını müdafiə eləyə bilməyəcəyəmsə... Ay qız, bu kişiləri bilmirsən, bir balaca o üz-bu üzünə keç, üzünə hırılda, qaş-göz oynat, hər şeyə razı olurlar...

Gilan gülümsədi. Qunduz dərhal:

— Arada Əlməmməd var.

Əslində bu işdə Əlməmməd bir bəhanəydi. Qunduzun tez-tez "Əlməmməd" deməsi, Gilanı özünə cani-dillə bağlamağa xidmət eləyirdi. Qunduzun hiyləsini anlamayan zavallı göstərilən münasibətdən məmnunluq duyurdu. O, utana-utana, minnətdarlıq hissiylə dedi:

— Sizin yaxşılığınızı unutmaram, Qunduz xanım.

— Hələlik burda təcrübə keçərsən, Eldar müəllimin xoşuna gəlsən, onu razı salsan, özü sənə yol açacaq.

— Axı mən xaricdə olmamışam.

Qunduz gülümsünərək bildirdi:

— Bəyəm, biz xaricdə doğulmuşuq? Biz də əvvəl-əvvəl naşı olmuşuq. Sonralar hər şeyi öyrəndik. Oy... indi də xaric üçün burnumun ucu göynəyir. Bilirsən, orda nə qədər dostlarım vardı. Bahalı, yumşaq mehmanxanalar... Restoranlar... Kef məclisləri. Adam onları görməyincə yaşamaq nə olduğunu bilmir, ölüb orda qalmaq istəyir. Pul da ki, başından tökülür. Əlacım yoxdu. Eldar müəllimin xatirinə qayıtmışam bura. Yoxsa, nə işim vardı. Hə... Necədi, Gilan xanım səninçün.

Qunduz elə həvəslə danışırdı ki, Gilan deməyə söz tapa bilmirdi. Dediklərinə sadəcə olaraq çiyinlərini çəkməklə münasibət bildirən Gilanın söhbətə marağını görcək Qunduzda belə bir inam yarandı ki, müsahibinin xəyal dünyasında ciddi dəyişmə, çevriliş aparmaq mümkündür. Onun pula, geyinib-keçinməyə, kefə, səyahətlərə olan həvəsinin artırılması üzərində hələ bir qədər də işlənilməlidi. Şübhəsiz ki, bu da Gilanın üzündəki az-çox həya, ismət pərdəsinin darmadağın edilməsiylə mümkündür. Başqa sözlə, Gilanın üstündə xeyli əmək, enerji sərf eləmək

lazımdır. Ancaq Qunduz Gilanın saysız-hesabsız təcrübələr keçdiyindən xəbərsiz olduğundan necə gəldi danışırdı. Müsahibinin nəzərdə tutduğu işlər üzrə vərdişlərə mükəmməl yiyələndiyini ağlına da gətirmirdi. Gilanın harda qalmasını düşünən Qunduz dedi:

— Gilan, şəhərdə qalmağa yerin varmı?

— Uzaq qohumumuz var, işə düzəlincə onlarda qala bilərəm. Ancaq onlara da getmək istəmirəm.

— Eybi yoxdu. Əlməmmədin xatirinə bizdə də qala bilərsən.

— Sizə əziyyət olar...

— Nə əziyyət? Bir oğlum var, onu da anam saxlayır.

— Bəs əriniz?

— Eh... Boşla o yana. Müasir qadına üç şey lazımdı: iş, ev, uşaq. Ər olmaya da bilər.

Söhbətin bu yerində qapı açıldı. Eldar müəllim salam verib otağa keçdi. Qunduzla Gilan ayağa qalxdılar. O, xanımlarla qarşı qarşıya, rahat kresloda oturdu. Gödək qol və qıçları, enli beli, sallaq qarnı vardı. Yekə, yumru burnunun altındakı çallanmış topa bığları, şəlpə qulaqları, uzun, tüklü qaşları, qalın çırma dodaqları, yastı çənəsi sifətinə qorxunc görkəm verirdi. Kişini görən Gilan bərk qorxdu. İstədi durub otaqdan çıxsın. Sonra düşündü ki, əşi, bunun mənə nə dəxli var. İşimi versin, sonra da onunki onda, mənimki məndə.

Qunduz bayaq dəmlədiyi çaydan bir stəkan süzüb müdirin qarşısına qoydu. Sonra bildirdi:

— Eldar müəllim, Gilan xanım bizimlə işləmək arzusundadı. Çox yaxşı xanımdı. Əsl biz deyənlərdəndi.

— Zəmanət verirsən?

— Bəli! Gəncədəndi, tanışımdı... Həm də Əlməmməd göndərib.

— Vəzifəsini başa salmısan?





— Öyrənəcək. Görüb-götürmüşdü.

— Hə... Qalmağa yeri var?

— Hələlik bizdə qalar, sonrasına baxarıq.

Qunduzu dərhal anlayan Eldar yalandan hay-küy eləməli oldu.

— Onda pasportunu al, müqavilə bağla. Pakistana gedəcək qrup hazırdı. Orda bir yer olmalıdı. Bu xanımı da ayın axırında yola salaq, onlarla getsin.

— Bəlkə, bir az gözləyək. Bunu Dubaya yola salarıq.

— Özün bil, mən etiraz eləmirəm, xanım.

Sonra Eldar üzünü Gilana tutaraq soruşdu:

— Həvəsin haradı, xanım?

Gilan çiyinlərini çəkdi və astadan, guya utana-utana dedi:

— Məsləhət sizindi.

Qunduz dərhal dilləndi:

— Bu, elələrindən deyil, başıaşağı, sakit qızdı.

Eldar məmnunluq hissilə:

— Çox yaxşı. Sənədləşdir. Kabinet çox soyuqdu. Yer də buzdu. Gedin evə, dincəlin. Qunduz xanım, belə havada düşbərənin özgə ləzzəti var. Gilan xanımı da Bakı düşbərəsinə qonaq eləyək.

— Oldu, müdir.

Qunduz yır-yığış eləyib Gilanla otaqdan çıxdılar.

Gilanı müxtəlif pozalardan müşahidə eləyən Eldarın bütün bədəni cuşə gəldi. O, əlini-əlinə sürtdü, sonra da pıçıltıyla dedi:

— Təmiz şeydi! Əla!

* *
*

Axşamın düşhadüşüydü. Qış vaxtı olduğundan hava tez qaralmışdı. Şəhərin sayrışan ulduzları adama sirli-sehirli göy qüb-

bəsini xatırladırdı. Nisgilli, qəmli, kədərli adamları belə öz aləmindən qoparıb yeni bir dünya ilə qovuşdurmağa sövq eləyirdi. Adilikdən çox-çox uzaq belə bir məqamda yaşadığı binanın ikinci mərtəbəsindəki mənzilin həyətə açılan pəncərəsinin ağ tül pərdəsini kənara sıyıran Qunduz Gilanı yanına çağıraraq, doğma şəhərin axşam mənzərəsini seyrinə dalmağa dəvət elədi. Pəncərəyə yaxınlaşan Gilan həqiqətən də əlahiddə bir mənzərəylə qarşılaşdı: binaların pəncərələrindən, küçələrdə asılmış elektrik lampalarından süzülən işıqların bir-birinə qarışaraq yan-yörəni ağ qumaşa bürüməsi; bir qədər aralıda binaların başında vurulan reklamların yanıb-sönən al-əlvan parıltıları; küçələrdə qatarlaşıb şütüyən maşınların işıqları... Son vaxtlar narahat, sıxıntılı ömür yaşayan, Bakı axşamlarıyla belə yaxından təmasda olmayan Gilan indi qarşısında açılan bu füsunkar mənzərəni seyr elədikcə ikili dünya yaşayırdı. Bu dünya gah onu sehrli nağılların ruhundan süzülüb gələn şirin, əlçatmaz, ünyetməz bir aləmlə qovuşdurur, gah da özünün sabahı görünməyən, naümid, dolaşıq, arzuolunmaz bir həyatıyla çulğalaşdırırdı. Eyni mənzərəni Qunduzla müşahidə eləsə də, bu zavallı ağlına da gətirə bilmirdi ki, vicdan, namus, şərəf, ləyaqət dəllalı bu gecə onu ətrafına sürüklədiyi quyunun dibinə "uf" demədən atacaq və bunun üçün də böyük fərəh, iftixar hissi keçirəcəkdir. Bəli, rişələri əxlaqsızlıqdan və nadanlıqdan qidalanan Müzəffərdən, kişilik heysiyyətini itirən simasız Əlməmməddən ruhlanan bu dar, məhdud düşüncəli, zavallı qadın bundan sonra nəfsini yığanmadığından ümidini ağlagəlməz adamların yaşamına, iyrənc həyatına bağlamalı olacaqdı. Maddi və mənəvi ehtiyacının ödənməsi üçün ağınabozuna baxmadan hərəmxanalara atılacaq, gözlərini yumub hərəmxana müştərilərinin möhüblərini düzəcəkdi... Buna nə arzu, nə istək, nə də tale demək olardı. Bu, alın yazısı da deyildi. Gilanın bundan sonrakı acılı-şirinli taleyini Qunduz yazırdı. Hamısına da özüylə birlikdə Qunduz məsuliyyət daşıyırdı...





Danışa-danışa mətbəxə keçən Qunduz biş-düşünü yoxladı. — Hər şey qaydasındadı, bircə Eldar gəlib çıxsaydı, — deyə düşündü. Koftasının ətəyini geydiyi dar şalvarının üstündən aşağı çəkə-çəkə Gilanın yanına qayıtmaq istəyirdi ki, telefon səsi otağı bürüdü. Qunduz qaçıb dəstəyi götürdü.

— Alo... Eşidirəm.

— Eldardı.

— Bilirəm.

Eldar ikimənalı soruşdu:

— İstilik necədi?

Onu başa düşən Qunduz dərhal eyni əda və hissiyyatla cavab verdi:

— Əla!

— İçməyə nə lazımdı?

— Keçən dəfəkilər qalıb. Özün bax.

— İki nəfərik. Həmzə də yanımdadı.

— O da əla! Qanan kişisən.

— Hələlik.

Qunduz dəstəyi yerinə qoyub sevincək halda dilləndi:

— Eldar müəllimdi. Səni soruşurdu... Kişi nigarandı. Dedim ki, əlasan! Çox diqqətli, ürəyiyumşaq kişidi. Düzdü, ilk baxışda kor-kobud görünür. Ancaq yaxından ona bələd olanda inanmırsan bu adam Eldar müəllimdir... Mən onu çox istəyirəm. İnsanlığına görə ha... Bacımsan, ürəyinə başqa şey gəlməsin.

— Yox, nə danışırsız? Ürəyimə nə gəlməlidi ki?

— Hər kişi elə olmur. Hər başıpapaqlıdan kişi çıxmaz. Ona qurban olaram... Bir də ki kişi kor-kobud olsa yaxşıdı. Həmzəylə gələcəklər.

— Həmzə kimdi?

— İdarənin hesabdarı. Nə gizlədim, həm də hələ ki mənim sahibim.

— Nə?!

— Hə... O da lazımdı. Yoxsa, dözmürəm.

— Başa düşürəm...

Söhbətin bu yerində qapının zəngi çalındı. — Qunduz: — Gəldilər, — deyə gedib qapını açdı. Eldarla Həmzə əllərində iki kağız torba otağa daxil oldular. Torbaları stolun üstə qoyan kimi Eldar Həmzəyə dedi:

— Sənə barəsində danışdığım təzə işçimiz Gilan xanım budur. Tanış olun.

Həmzəylə Gilan əl verdilər. Eldar əlavə elədi:

— Atalar necə deyib?

Həmzə:

— Nəyi?

— Bir ət girdi qazana, oldu yeməli. İşçimizdi, deməli, o da bizim birimizdi. Aramızda fərq olmamalıdı. Temboli zəmanətini Qunduz xanım verib.

Qunduz dərhal:

— Həm də Əlməmməd göndərib.

Həmzə gülümsünərək:

— Əşi, belə deyin də. Mən də bayaqdan məəttəl qalmışam. Gilan xanım bura nə tez yol tapıb. Şəhərdə o qədər minnətçi düşən var ki... Bir halda ki, Gilanı bizim Qunduz himayə eləyir, onun özünə də qurban olum, tanışına da. Hələ üstəlik zəmanətinə də.

Otağı gülüş səsləri bürüdü. Eldarla Həmzənin gəlişlərindən məmnun olan Qunduz dedi:

— Kişilər əyləşsinlər. Onları işə qatammarıq, ayıbdı. Gilan, anaş, zəhmət olmasa, mənə kömək elə, süfrə açaq. Bunların xasiyyətlərinə bələdəm, bizdən razı qalmasalar... Yoxsa, hər gün üzümüzə vuracaqlar: qonaq qəbul eləyə bilmirsiz; süfrə açmağı bacarmırsız; evdarlığınız yoxdu; sizdən arvad olmaz... Eh... Allah bilir, sabah nələr deyəcəklər...

Eldar:





— İllahdakı Həmzə. Həmzə qardaşımızın bircə keçəlliyi yoxdu.

Qunduz:

— Keçəl də olsa, mənim qəbulumdu. Onun özünə də, keçəl başına da qurban olaram.

Həmzə:

— Eşitdin, müdir, indi sözün nədir?

Eldar:

— Nə olacaq? Balam kişinin qızı sevir də. Sevən ürəklərə eşq olsun!

Qunduz yaxınlaşıb Həmzənin çallanmış saçlarından öpdü.

Gilan gülümsündü:

— A, sən neyləyirsən?

Gilanın ağlına da gəlməzdi ki, şit söhbətlərdə, yüngül hərəkətlərdə başlıca məqsəd Gilanı bu axşamkı kef anlarına psixoloji cəhətdən hazırlamaq, onu adamdan çox meymuna, ayıya oxşayan Eldarla bir yatağa salmaq, özlərinin əsirinə çevirməkdən ibarətdir...

Qunduzla Gilan torbaları götürüb mətbəxə apardılar. Onlardakı şokolad qutularını, meyvələri, araqları yerbəyer elədilər. Sonra süfrəyə yemək-içmək gətirdilər. Eldarla Gilan divanda, Qunduzla Həmzə isə stulda onlarla üzbəüz əyləşdilər. Bir-iki loxma kəsmişdilər ki, Eldar qədəhlərə araq süzdü, üzünü Qunduza tutaraq dedi:

— Əzizimiz, Qunduz xanım, başlaya bilərikmi?

Qunduz özündən razı halda:

— Əlbəttə, Eldar müəllim. Sizin sözünüz bizim üçün qanundu.

— Mən elə düşünmürəm. Mən dostluğu hər şeydən üstün tuturam. “Qanun” sözünün məzmununda məcburiyyət var, zor var, tabeçilik var. Ən başlıcası, rəsmiyyət var. O, işdə lazımdı... “Dost” sözü isə onlardan xalidi. Dostluğun mahiyyətini etibar,

sədaqət, vəfa... kimi insani keyfiyyətlər təşkil eləyir. Mən istərdim, idarəmizin hər bir üzvü qanuni aktlarla yox, bir-biriylə dostluq baxımından münasibət saxlasınlar.

Qunduz dərhal etiraz elədi:

— Müdir, vallah səni başa düşürük: nə üçün qanunu yox, dostluğu qəbul eləyirsən. Qanun əl-qolumuzu bağlayır. Bizə azad fəaliyyət imkanı vermir. Yüz cür maxinasiyaya gedən, cinayətlər törədən adamlar üçün nə qanun? Ancaq bizim bütün fəaliyyətimiz qanunlar çərçivəsindədi. Mən düşünürəm ki, dost olaq, qanunlara riayət eləyək, işimizi səmimiyyətlə quraq. Mehribanlıq, səmimiyyət olmayan yerdə heç nə yoxdu. Qanun və dostlar qarşısında cavabdehlik. Başqa sözlə, işə məsuliyyət, əməkdaşların qədrini bilmək. Mən istərdim ki, buna həmişə əməl eləyək. Bu iki şeyi sırğa eləyib qulaqlarımızdan asaq...

Qunduzun hiyləgər, olduqca məkrli xarakterli çıxışını bəyənən və ona haqq qazandıran Həmzə əyilib onun qulağının dibindən öpdü:

— Sağ ol səni, Qunduz. Bu ağıl ki, səndə var, gərək növbəti seçkidə sənin bələdiyyə üzvlüyünə namizədliyini nəzərdə tutaq. Kişinin qızı vallah qanunla doğulduğundan özü də şıdırğı qanun doğur. Buna kim nə deyə bilər? Bizə belə adamlar lazımdı. Düz demirəm, Gilan xanım?

Həmzənin bu müraciətindən çaş-baş qalan Gilan gülümsünüb çiyinlərini çəkdi. Sonra da astadan, utana-utana dedi:

— Mən hələ təzəyəm, nə deyə bilərəm?!

Eldar:

— Qunduz hazırlıqlı xanımdı. Bələdiyyəyə üzv olmağı özü istəmir. İstəsəydi, çoxdan olmuşdu.

Qunduz:

— Orda mənim kimilər çoxdu, əzizlərim, mənə ehtiyac yoxdu.

Eldar:





— Yaxşı, uzatmayaq. Bu gün ən xoş anlarımızı yaşayırıq. Hörmətli Gilan xanım bizimlə əməkdaşlıq eləmək istəyir. Daha doğrusu, artıq bizim əməkdaşımızdı. Burda "qanun" sözünü işlətməyə ehtiyac yoxdu. Onunla dost oluruq. Mən təklif eləyirəm ki, qədəhləri qaldıraq gözəl-göyçək, hörmətli, təzə işçimiz Gilan xanımın şərəfinə. Qunduzun rəfiqəsi bizim dostumuzdu. Mən bayaq onu demək istəyirdim ki, biz qanunla yanaşı, həm də bir-birimizə dost kimi münasibət bəsləyək. Səhvi etiraf eləməyi, onu aradan qaldırmağı bacarmalıyıq. Güzəştsiz heç bir şey mümkün deyil. Atalarımızın əlində tüfəng açılıb başqasını öldürüb. Əsl, kişilər onu da bağışlamağı bacarıblar. Qan bağlayıblar. Sülh, dostluq yaradıblar. Mən bunu deyirəm. Dostlarımızdan xətir, hörmət, səmimiyyət, mehribanlıq gözləyirəm. Sözlərimizin bir-birimizin boğazından keçməsini istəyirəm. Gəlin, bu badələri qaldıraq bugünkü tanışlığın şərəfinə, Gilan xanımın sağlığına.

Qədəhlər vuruldu, indiyə qədər yüzlərlə araq şüşəsi boşaldan Gilan özünü naza çəkərək və bir qədər də yerini şirin salmaq üçün içmək istəmədi:

— Mən heç vaxt araq içməmişəm.

Qunduz dərhal dilləndi:

— Nə içirsən?

— Şampan.

— Anaş, onun nə gücü var? Soyuqdu, içini buza döndərəcək. Evdə tutdan çəkilmə təmiz araq var. Gətirim, ondan iç. Sabah baş ağrısı da verməz.

— Yox, lazım deyil.

Həmzə sözə qarışaraq:

— Xanım, bizim işimiz elədi ki, bütün növ içkilərin tamından xəbərdar olmalısan. Tutaq ki, səni sabah xaricə göndərdik. Hörmətli adamlarla bir məclisdə əyləşəcəksən. Orda hamı necə, sən də elə. Deyə bilməyəcəksən ki, mən bundan yox, ondan içi-

rəm. Açığını deyim ki, içməyə də bilməyəcəksən. Əks halda, gərək xaricə getməyəsən. Mən təklif eləyirəm, elə indidən başlayasan ki, öyrənəsən...

Gilan:

— Onda baxarıq.

Otağı gülüş səsləri bürüdü. Eldar sakitcə təklifini verdi:

— İçin, qorxmayın, xanım, evdəsiz. Bundan sonra hara gedəcəksiz ki?

Gilanın tərəddüdünü görən Qunduz qədəhi götürüb ona verdi:

— İç qadası, peşman olmazsan.

Yeni tanışlıq ziyafətində gələcək həmkarlarını narazı salmamağa çalışan Gilan ehtiyatla qədəhini götürüb qədəhlərə vurdu. Yavaş-yavaş içməyə başladı. Qədəhi qaytarıb stolun üstə qoyanda Həmzə özünü saxlaya bilməyib sevincək halda dilləndi:

— Əla! Əla! Turşudan götür.

Gilan sir-sifətini büzüşdürə-büzüşdürə xiyar turşusundan bir qırıq götürüb ağzına qoydu.

Eldar:

— Hə, necədi, Gilan xanım?

— Zəhər kimidi.

— Bunun ləzzəti də elə ondadı... Təsir elədikcə yaddan çıxacaq.

Eldar ikinci dəfə qədəhləri doldurdu və Qunduzun üzünə baxdı. Sevincdən gözləri alışıb-yanan qadının üzündə zərif bir təbəssüm yarandı.

Eldar:

— Bu qədəhləri də qaldıraq dostumuz, əzizimiz Qunduz xanımın sağlığına. Onun mədəniyyəti, cəsarəti, sədaqəti, sözübütövlüyü qarşısında baş əyirəm. Mən fəxr eləyirəm ki, belə sağlam düşüncəli azərbaycanlı qadını var. Sən zahirən qadın olsan da, batilən kişi kimi şeysən.





Qunduz dərhal:

— Qurban olum, şey yox. Vapşe "şey" sözündən zəhləm gedir.

Həmzə:

— Düz deyir, müdir, o sözdən mənim də xoşum gəlmir.

Eldar:

— Yaxşı, sözümü kəsməyin, imkan verin qurtarım. Hələmhələm kişilər sənin kimi ola bilməzlər. Bizim eləyə bilmədiklərimizi, Qunduz xanım, sən asanlıqla eləyirsən. Sən olmasaydın, vallah, biz batmışdıq. Elə götürək bu məclisi... Biz restoranda da otura bilərdik. Mən əminəm ki, bu ləzzəti, sərbəstliyi, xudmaniliyi verməzdi. Sağ ol səni, Qunduz xanım. Allah bizi sənsiz eləməsin. Düz demirəm, Gilan xanım?

Gilan Qunduzun üzünə baxıb gülümsündü, astadan dedi:

— Düzdü...

Həmzə:

— Mən Eldar müəllimin sözü ilə tamamilə razıyam. Qunduz ən çətin işləri yoluna qoymağı bacaran, adamlarla asanlıqa dil tapandı. Ürəyi açıq, səxavətlidi. Elə olmasaydı, indi biz burda nə gəzirdik? Hərəmiz bir tərəfdəydik. Allah bilir, bəlkə də başımızı atıb yatmışdıq. Qorxulu yuxular görürdük. Mən səninlə fəxr eləyirəm, Qunduz. İnanıram ki, bizim Gilan da, sənin kimi olacaq. İncimə məndən, Gilan xanım, sən Qunduzdan çox şey öyrənməlisən. Allah bizi sizsiz eləməsin...

Qədəhləri vurub içdilər. Beyinlər getdikcə qızışırdı. Eldar yavaşca əlini Gilanın dizləri üstə qoydu. Xanım qəsdən sifətini bozartdı, bədəni guya cimildəşdi. Ancaq heç bir şey olmamış kimi, Qunduzla Həmzə başa düşməsinlər deyə, söz demədən dizini yana çəkdi. Eldar da bir şey olmamış kimi divana söykəndi. Əslində, xəlvəti baş verənlər fahişəliyin bütün sirlərinə mükəmməl yiyələnən Qunduzla Həmzənin də gözlərindən yayınmadı... Elə bu vaxt qapının zəngi çalındı. Qunduz təəccübləndi. Eldar

dərhal Həmzənin üzünə baxdı və dedi:

— Özün qalx, kababçı olacaq.

Həmzə ayağa qalxdı.

— Bu saat.

Otaqdan çıxdı. Qunduz Eldardan soruşdu:

— Nə kababçı?

— Gələndə sifariş vermişdik, bizim üçün kabab təşkil eləsin.

— A... bu nə əziyyətdi, çəkmisiz? Özüm hər şeyi təşkil eləmişəm.

— Əziyyət niyə, qadası, həmişə oturmuruq ki... Olmaz ki, bir dəfə də biz sizə, yarımçıq da olsa, xidmət göstərək?

Qunduz ikibaşlı:

— Göstərəcəksiz də. Bə niyə gəlmisiz?

O sözü deyib gülümsündü, sonra da Gilana göz vurdu. Sözün nəyə işarə olunduğunu dəqiq anlayan Gilan da gülümsədi. Bu gediş tülküdən ayıq Eldarı da bir balaca? Elə bu vaxt Həmzə əlində torba geri qayıtdı. Qunduz ayağa qalxıb torbadan qazançanı çıxartdı. Qapağını açan kimi kababın ətri otağı bürüdü. O, Gilana:

— Anaş, qaç adama bir boşqab, iki dənə də bulud gətir.

Gilan Qunduzun istəyini yerinə yetirdi. Bir söz deməsələr də, ağızlar sulanmışdı. Hər kəs özlüyündə udqunurdu. Eldar əvvəl istədi tikələrdən birini götürüb dişinə çəksin, sonra düşündü ki, Gilanı hələ yaxşı tanımır, bu xanım ilk gündən onu "gödənbıl" sana bilər. Bu əcaib ehtimal onu kabab götürmək həvəsindən çəkindirdi. Gilan hərənin qənşərinə bir boşqab qoydu və özü də keçib əvvəlki yerində əyləşdi. Qunduz balıq tikələrini bir buluda, quzu qabırğalarını ikinci buluda yığdı. Sonra qazanı aparıb mətbəxə qoydu və tez də geri qayıtdı. Kabab dostların iştahalarını bir qədər də qaldırdı. Əvvəl quzu tikələrinə girişən Eldar qədəhləri araqla doldurub Həmzənin üzünə baxdı. Kişinin gözləri sanki Həmzəyə: — Nə durmusan, qırışmal, söz səníndi,





məni təriflə, — deyirdi. Əzəldən ayıq adam olduğundan və müdirin xasiyyətinə yaxşı bələdliyindən kişinin niyyətini dərhal anladı. Qədəhi götürüb gözlərini süfrənin üstündəki qab-qaşığın, yeməklərin üzərində gəzdirdi, sonra da Eldar müəllimin sifətinə dikdi, asta-asta və təmkinlə sözə başladı:

— Əzizimiz Eldar müəllim! Sizin barədə söz demək mənim üçün şərəfdi. Neçə illərdi birlikdə işləyirik. Halına, xasiyyətinə bələdik. Nələrin xoşuna gəlib-gəlmədiyini bilirik...

Sözünə ara verdi, sonra üzünü Gilanla Qunduza tutaraq davam elədi: — Eldar müəllim çox dəqiq, məsuliyyətli adamdı, diqqətlidi, həssasdı... Onu dərhal duymaq, başa düşmək çox çətindi. Gilan xanım, sən təzəsən. Bir işləyin, Eldar müəllimlə yaxından təmasda olun, onda görəcəksiz ki, bu kişi nə qədər böyük adamdı. Bir-iki dəfə görüşməklə onu dərk eləmək olmaz...

Üzünü Eldara tutaraq başını azacıq qaldırdı və şəstlə dedi:

— Eldar müəllim, sizin adınızın qabağına bir ifadə əlavə eləyirəm: Böyük İnsan! Eldar müəllim, bu badələri şəxsən sizin şərəfinizə qaldırırıq. Arzumuz sizi sağlam, xoşbəxt görməkdi. Atalar yaxşı deyib: "Allahsız yerdə otur, böyüksüz yerdə oturma". Siz bizim böyüyümüzsüz. Təkrar eləyirəm: sizin şərəfinizə!!!

Həmzə danışdıqca Eldar sinəsini qabardır, sifətini ciddiləşdirir, özünü daha "ağırtaxta" göstərməyə çalışırdı. Öskürdü, boğazını arıtladı. Həmzənin tərifindən cuşa gələn Qunduz dedi:

— Sağ ol, Eldar, Gilan burda olmasaydı, qısqanmasaydı, vallah, durub öpərdim səni.

İçib başı dumanlansa da, "qısqanmasaydı" sözünü eşitcək, Gilan bir qədər narazı halda cavab verdi:

— Mən kiməm ki, qısqanam? İstədiyini eləyə bilərsən.

Həmzə:

— Eldar müəllim, vallah-billah kefdəsən.

Eldar:

— Əşi, hamısı sözdü. Ortada bir şey yoxdu.

Qunduz:

— Niyə yoxdu? Ümidsiz olma. Hər şey qaydasındadı. İş plan üzrə gedir. Düz demirəm, Gilan.

Ağzından söz tökülə-tökülə Gilan cavab verdi:

— Mən heç zad bilmirəm. Başım hərlənir, yuxusuzam, yorğunam. Yatmaq istəyirəm.

Qunduz:

— Tələsmə, anaş, arağın təsiridi, indi ötər.

Həmzə:

— Müdirin sağlığına için, mənim sağlığıma içməsəniz də olar.

Qunduz dərhal:

— Hə... Mən getdim.

Qunduzla Həmzə içməyə başladılar. Eldar onları axıradək izləyib qədəhini Gilana tərəf uzatdı:

— Götür, xanım, biz də saxlamayaq, vuraq.

— İçə bilmirəm.

Qunduz Gilana göz-qaş ilə: — Saxlama, iç, — işarəsini verdi. Əlacsız qalan Gilan qədəhi götürüb başına çəkdi... Gecədən xeyli keçmişdi. Həmzə qolundakı saatına baxdı. Bunu görən Qunduz dərhal:

— Hə, nədi? Olmaya arvadın yadına düşdü? Eləydisə, bura niyə gəlirdin? Nəyə inanırsan and içim ki, bu gecə sənin canını özüm alacam.

Eldar:

— Bəs mən binəva neyləyəcəm?

— Müdir, hər cür şəraitimiz var. Sən də qal. Gecənin bu çağında — soyuqda, şaxtada hara gedəcəksən?

— Onsuz da arvad-uşaq bir həftədi rayondadı, ev də buz kimi.

— Burdan isti, rahat yer? Yumşaq yorğan-döşək, qu tükün-





dən balınc.

— Tək yatammıram.

— Tək niyə olursan? Sənin bəxtin həmişə ayaq üstədi. Axırı pis olmaz. Bir də ki, müdir, sən belə tələsən deyildin axı.

— Bayaqdan bəri ürəyim az qala çatlayır.

— Əşi, vallah, hazırdı.

Həmzə:

— Eh... Bu ki, özündə deyil.

Gilanın özündə olmadığını görən Qunduz: — Siz işinizdə olun, mən bu qızı o biri otaqda rahatlayıb gəlirəm.

Qunduz tez yan otağa keçib yatağı açdı. Sonra qayıdıb Gilanı qucaqlayıb divandan qaldırdı. Çətinliklə də olsa yataq otağına salıb lüt-üryan soyundurdu. Özündən xəbərsiz çarpayıya düşən tək onu yuxu apardı. Qunduz geri qayıdıb sevincək bildirdi:

— Hər şey hazırdı, yollar açıqdı, Eldar müəllim.

Halı özündə olmayan Gilan bir də səhər açılanda yanında yorulub yatan Eldarın xorultusuna oyandı. Özünü çılpaq görəndə dəhşətə gəldi. Gecə nələr baş verdiyini, tora düşdüyünü yavaş-yavaş anlamağa başladı. Artıq hər şey gec idi. İstədi stolun üstündəki su qrafinini götürüb Eldarın başına vursun. Elə bu vaxt Qunduz qapını döydü:

— Qalxın, vaxtdı, işə gecikirik.

* *
*

Atəşə məruz qaldıqdan sonra böyük bir çətinliklə "Makarov" tipli tapança əldə eləyən İlqar nəinki Şər Müzəffəri öldürmək, hətta o silahla atəş açmağı da bacarmırdı. Çox fikirləşdi və belə qərara gəldi ki, silahla davranmaq və ondan atəş açmağın sirlərini İqrardan öyrənsin. Bu məqsədlə də İlqar darvazanın qənşərində dayanıb İqrarı səslədi. İqrar:

— Ayə, orda niyə dayanırsan? Gəlsənə...

— Yox, bir bura zəhmət çək.

İqrar darvazaya yaxınlaşıb İlqara əl verdi. İlqarın üzündə xəfif bir təbəssüm göründü. Sonra astadan soruşdu:

— Nə işin var?

— Heç. Bekarçılıqdı. Bazar günləri olmasını heç istəmirəm.

— Niyə?

— Darıxıram. Həyət-bacada elə bir məşğuliyyət də yoxdu.

— Mən sənə iş taparam. Səninçün də maraqlı olar, mənimçün də.

— Xeyir ola? Gün hardan doğub?

— Xeyirdi. Gedək Kəpəzə tərəf.

— Lələ, Kəpəz hara, biz hara?

— Niyə elə fikirləşirsən ki, biz ora layiq deyilik, ya gedəmmərik?

İqrar güldü.

— Yaxşı, söz güləşdirməyək. Naharı Kəpəzin qoynunda, yoxsa burda?

— Məsləhət sənindi, lələ.

— Onda tez elə, geyin gəl, gözləyirəm.

İqrar tələm-tələsik evə qayıtdı. Paltarlarını dəyişib həyətdən çıxırdı ki, "Cip" markalı maşın darvazanın qarşısında dayandı. O, maşına əyləşən kimi İlqar maşını yüksək sürətlə yerindən tərpətdi. Çox çəkmədi ki, onlar şəhərdən çıxıb Kəpəzə doğru istiqamət götürdülər. Qarşıda sıralanan böyüklü-kiçikli təpələr, yolun kənarında şaxələnən ağaclar, bir neçə evcikdən ibarət kiçik kənd, arabir üstündən ötüb keçdikləri çaylar, donuz hızzasan girməyən kolluqlar, qarağat, yemişan ağacları və bunların hamısının yaratdığı ecazkar mənzərələr, hissləri ehtizaza gətirən görüntülər adamı heyran eləyirdi. Kəpəzə çatar-çatmaz İlqar maşını saxladı. Yol kənarındakı yeməkxanada bir-iki loxma kəsdilər. Yenidən Kəpəzə doğru yollandılar. İlqar maşını dağın yamacında, hər tərəfi ağaclarla əhatə olunmuş kiçik bir talada saxladı və sükan arxasından yerə atıldı. Keçib bağacdan uzunluğu bir metr olar-olmaz iki taxta, bir ədəd də altmış santimetrlik taxta parçası götürdü. Taxtaların uclarını bir-birinə, kartonu da onun ucuna mıxladı və aparıb on metr aralıda torpağa taxdı. Bayaqdan bəri İlqarın hərəkətlərini müşahidə eləyən İqrar oturduğu yerdən:





— Nə oyun düzəldirsən, lələ — deyə dilləndi.

— İndi görərsən. Özün də gəl, mənə kömək elə.

İqrar maşından yerə atılaraq, bir neçə dəfə oturub qalxdı.

— Əla havadı, İlqar.

— Qardaş, mənim səndən gizli sözüm yoxdu. Tək gəlmək istəmədim. Səni də gətirdim ki, mənə həyan olasan. İstəyirəm ki, tapançadan atəş açmağı öyrənəm.

O, danışa-danışa arxasından — pencəyinin altından tapançanı çıxartdı, darağı doldurdu. On metrlik məsafədən yamaca taxdığı taxtaya bir neçə atəş açdı. Güllələrin heç biri nişangaha dəymədi. Əsəbiləşdi. Tapançanın darağını yenidən doldurdu. Bunu görən İqrar dedi:

— Lələ, əsəbiləşsən, işləri korlayacaqsan. Əlini aşağı sal, qəflətən qaldır, lülənin ucundakı atəşgah nişana tuşlanan kimi çaxmağı bas. Onda nişanı vurarsan. Əks halda, əlin əsəcək, istəyinə nail ola bilməyəcəksən...

İlqar tapançanın darağını bir də boşaltdı. Atdığı güllələrin boşa çıxdığını görüb gülümsündü, üzünü İqrara tutdu:

— Sən necə, atmağı bacarırsanmı?

İqrar cavab verdi:

— Mən heç vaxt əlimə tapança almamışam. Yəqin, mənim də atəşlərim alınmayacaq.

— Naümid olma. Patronumuz çoxdu. Bura öyrənməyə gəlmişik, məyus-məyus geri qayıtmağa yox. Bir də ki atanlar anasının qarnında öyrənməyib ki.

— Hə... Düz deyirsən. Ancaq səndən bir söz soruşmaq istəyirəm.

— Buyur...

— Tapançanı kimisə öldürməyə almısan, ya qorxutmağa?

— Şər Müzəffəri aradan götürməyə.

— Niyyətindən əl çəkmirsən. Burda — Kəpəzin yamacında əllərin əsir. Adam öldürəndə həyəcandan bütün bədənin əsəcək. Belə çıxır ki, özün öz ayağınla Şər Müzəffərin yanına gedib deyirsən: "Gəlmişəm, öldür məni". O, elə bir alçaqdı ki, sənə aman verməyəcək. Eşitdiyimə görə, Müzəffərin gözləri çox itidi, atəşi də sərrastdı.

— Mən tapançanın lüləsini qəflətən Müzəffərin kəlləsinə diriyəcəm.

— Əvvəla, elə olacaqsa, bura niyə gəlirdik? İkincisi, Müzəffər sən düşünən kimi asan ov olsaydı, onu çoxdan aradan götürmüşdülər.

İlqar diqqətlə İqrarın gözlərinə baxdı. İçindəki təlatümlərdən xəbərsiz olduğunu güman edib narazı halda bildirdi:

— Deyəsən, qorxursan?

— Onu zaman göstərər. İndi isə ver mən özümü sınayım. İqrar əlini aşağı salıb qəflətən qaldırdı və o anda da atəş açdı. Güllələrdən dördü nişangahı deşib keçdi. İqrar narazı halda mızıldandı:

— Bu da atmaq deyil. Səy göstərsəm, bəlkə də alınar.

İlqar məşq elədi. Xeyli sınaqdan sonra bir neçə atəşin alındığını görüb sevindi.

İqrar dostunun bu hərəkətindən narahatlıq hissi keçirərək bildirdi:

— İlqar, yığışdır onu. Get, işlərinlə məşğul ol. Qardaş, sən orda çox gərəkli işlə məşğulsan.

— Maşında bir tapança da var. İstəyirsən, onu da sənə verim.





— Əvvəla, mənə tapança lazım deyil. Sonra da öyrənmək istəyirəm, qoşa silah hara, sən hara? İlqar, məni bağışla, yeri gəlib deyəcəm, sən səhv yoldasan, ağsaqqal atan, ağbirçək anan, təzə qurduğun ailən barədə düşünmürsən... Belə olmaz.

— Qardaş, təhlükəsizliyim üçün tapançadan istifadə eləməyi bacarmaq mənə su, hava kimi gərəkdi. Sənə bir hadisəni danışım.

İki il bundan əvvəlin söhbətidi. "Qaz-31" markalı maşınımla obyektdən qayıdırdım. Yayın qızmarıydı. Dördyol ayrıcına çatanda svetofor yolu bağladı. Maşını saxladım. Pəncərələr açıq idi. Elə bu anda bir "Jiquli" gəlib maşınımın bərabərində dayandı. Diqqətim svetofordaydı. Yanımda dayanan maşından bir polis, bir nəfər də mülki paltarda şəxs düşdülər. Saymazyana maşına yaxınlaşdılar. Polis qəflətən əl ataraq maşınımın qabaq qapısını açıb əyləşdi və əlini arxa qapının düyməsinə atdı. Mülki paltarda olan şəxs də arxa oturacaqda əyləşdi. Maşından düşməyi tələb eləyəndə arxadakı şəxs polisə: — Tapançanı çıxart — dedi. O: — Tələsmə, — deyə bildirdi. Polis üzümə baxaraq: — Sür, — deyə təkid elədi. Mən təhlükə ilə qarşılaşdığımı hiss elədim. Qəflətən açarı çıxarıb maşından atıldım. Onlar əl çəkmək istəmədilər. Xeyli süpürüşdük. Yolda gediş-gəliş kəsildi. Handan-hana arxadakı maşınların birindən düşən ucaboy, enlikürək, qırx yaşı olar-olmaz bir kişi bizə yaxınlaşdı. Vəsiqəsini göstərdi. Məlum oldu ki, polkovnikdi, polis rəisidi.

Bizi idarəyə apardılar. Axtarış əməliyyatı başlandı. Mənə hücum eləyən şəxslər niyyətlərini açdılar: — "Maşın xoşumuza gəldi. Fikirləşdik ki, tikintidə işləyir, pullu adamdır, ondan pul ala bilərik". İndi özün fikirləş. Mən silah gəzdirə bilərəmmi?

İqrar fikrə getdi. Bir söz demədən gedib qaya parçasının üstündə oturdu. İlqar bir də darağı doldurdu. Atdı... Sonra gəlib İqrarın yanında əyləşdi. Gün günortadan əyilirdi. İqrar başını qaldırıb ətrafı nəzərdən keçirdi. Dərindən nəfəs alıb astadan bil-

dirdi:

— Həyatda əclafların sayı o qədər artıb ki, yaxşını pisdən ayırmaq olmur. Gözlər baxır, sifətlər gülür, dillər danışır... Hardan biləsən ki, hansı göz kor olmağa, hansı sifət yanmağa, hansı dil lal olmağa layiqdi. Qəribədi, səni insan olmağa qoymurlar. Səni addımbaşı cinayətə təhrik eləyirlər. Belə olanda matın-qutun quruyur. Heç kimə inanmırsan, heç kəsə arxa çevirə bilmirsən. Səni qınamıram, İlqar. Atalar deyib: "Başına gələn başmaqçı olar", "İlan vuran ala çatıdan qorxar"... Sən də elə.

— Bu tapançaları yaralanandan sonra almışam. Birini sənə, birini də özümə.

— Yox, İlqar, mən məsləhət bilmirəm, ikisini də qaytar aldığın adama. Ya da şəhərə qayıdanda ataq çaya, getsin.

— Yox, mən özümünkünü atmayacam. Tez-tez də gəlib məşq eləyəcəm.

— İlqar, sən yaxşı oğlansan. Uşaqlıq dostumsan. Sənə istəyim hədsizdi. Tapança gəzdirmək yaxşı iş deyil. Bir şey eləməmiş səs-küyü aləmi götürür, "Qarğa məndə qoz var" — deyir. Ancaq mənim silahımın səsi heç vaxt çıxmır. Səninkindən çox etibarlıdı.

İqrarın üzünə baxdı İlqar. Hiss elədi ki, dostu ona inanmadı. O, qıçına bağlanmış meşin qabdan bıçağı çıxarıb ayağa qalxdı. Sonra İlqara dedi:

— Zəhmət olmasa, nişangahında yumurta şəkli çək.

İlqar maşından qələmi götürdü, taxtanın üzərində yumurtaya oxşar şəkil çəkdi. İqrar dedi:

— Geri çəkil. Məndən nişangaha olan məsafə nə qədər olar?

— On metr.

— Açdığın atəşlərdən neçəsi uğurlu alındı?

— Çox az, o da günün axırında.

— İndi fikir ver.

İqrar əlindəki bıçağı qəflətən nişangaha atdı. Bıçaq yumurtanın düz ortasından keçdi.





İlqarı heyrət bürüdü:

— Sənə qurban olum, qardaş, bir də.

İqrar bu dəfə arxasını nişangaha çevirdi. Qəflətən qayıdıb bıçağı atdı. Bıçaq yenə də əvvəlki yerinə sancıldı. Bıçağın sürəti İlqara göydə çaxan ildırımı xatırlatdı. O, danışmağa söz tapmadı. İqrar bu dəfə aşağı əyilib ayaqqabısının ipini sol əliylə aça-aça bıçağı bir də atdı. Bıçaq yumurtanın ortasından keçdi. İqrar dedi:

— Məncə, bəsdi, İlqar. Həyatda Müzəffər kimilər çoxdu. Deyirsən ki, onların hamısını öldürsək hər şey qaydasına düşəcək? Əsla yox!

— İqrar, mən sənin səbrinə məəttəl qalmışam. Düşmənə bu qədər imkan vermək olarmı?

— İmkan verməmişik, İlqar, onu Allaha tapşırmışıq. Doğrudu, o, mənə öldürücü zərbə vurub. Mən türməni görmüşəm... Yenə deyirəm, dözmək gərəkdi. Qalx, axşam düşür, gedək. İmkan olsa, yenə gələrik.

İlqarla İqrar maşına əyləşib şəhərə üz tutdular. Maşın çaya çatanda İqrar: — Saxla, — dedi. Dostu maşını əylədi. İqrar:

— Mənim tapançamı, at çaya.

— Özün at.

İqrar tapançanı alıb maşından düşdü, gücü çatdıqca çayın ortasına atdı. Tapança dağ çayına düşüb görünməz oldu. İlqar fikrə getdi. Nə düşündüsə, öz silahını da İqrara verdi. İqrar onu da qolu gəldikcə uzağa atdı.

* *
*

Qurd kimi beynini deşən düşüncələri İqrarı yorub əldən salırdı. O, Şər Müzəffərimi, Əlməmmədimi, yoxsa, Bakıya yüksək vəzifəyə çəkilmiş müstəntiq Bilal Xətazadənimi birinci ara-

dan götürmək barədə düşünürdü. Şər Müzəffərlə Əlməmmədi nəzarətə götürmüşdü. Hər gün onların girib-çıxdıqları yerləri bələdləyir, kimlərlə əlaqədə olduqlarını, bir sözlə, bütün cinayət şəbəkələrini izləyirdi. Hər ikisinin evinin yerini, nə vaxt gəlib getmələrini öyrəndi. Anlayırdı ki, obyektlərin heç birində onlara yaxınlaşmaq, onlarla haqq-hesab çəkmək olmaz, hər iki halda özünü hüquq-mühafizə orqanlarına təhvil verməli olardı. İqrar əməliyyatı cinayətkarların evlərinə köçürmək qərarına gəldi. Onu da fikirləşdi ki, kiçik fiqurlardan başlamaq daha səmərəlidi. Belə olarsa, kiçik fiqur həm cəmiyyətdə, həm də hüquq-mühafizə orqanlarında o qədər də həyəcan doğurmaz. Cəmiyyət ona adi ölüm halı kimi baxacaq. Qətlə yetirilənin arxası zəif, yaxud köməksiz olduğundan, müstəntiq də ona faydasız iş kimi baxacaq, dərin təhqiqatlara, bəlkə də, girişməyəcək... Bu kiçik fiqur hələ ki Əlməmməddi. Onun qətlində bıçağımı işə salmalı? Yox, yollar axtaraq. Türmə həyatını xatırladı. Ağır cinayətlər törədən məhkumların tətbiq elədikləri priyomları götür-qoy elədi. Ən səmərəlilərini özüyçün müəyyənləşdirdi. Deyəsən, dəyərlisini tapdı. Yaranmış şərait çox şeyi həll eləyəcək. Bu işdə soyuqqanlılıq başlıca cəhətdi. Tələsmək, qızışmaq səhv addım olar.

Bir aydan artıq əlverişli məqam axtaran İqrar eşidəndə ki, küçəlisi Əlməmməd arvadı Xatirəylə dalaşıb, arvadı da acıq eləyib atası evinə gedib, bu İqrarı sevindirdi. Öz-özünə əməliyyatı reallaşdırmaq olar, deyə düşündü. Vaxt itirmədən gecə vaxtı Əlməmmədin həyətinə girmək və yol tapıb otağa soxulmağı planlaşdırdı.

Gur yağış yağırdı. Sel-su aləmi bürümüşdü. Adamlar küçəbacadan qaçıb evlərinə dolmuşdular. İqrar yaraqlanıb əlcəklərini, bıçağını götürüb Əlməmmədin həyətyanı divarına yaxınlaşdı. Kimsə gözə dəymirdi. Bədbəxtlikdənmi, xoşbəxtlikdənmi şəhərin bir hissəsinin işıqları söndü. Bundan istifadə eləyən





İqrar Əlməmmədgilin həyətinə atıldı. Tez də binaya yaxınlaşdı. Evdə işıq yanmadığından içəridə adam olub-olmadığını müəyyənləşdirəmmədi. Nə vaxtsa, həyətə tökülmüş çınqıl daşlarından birini götürüb eyvanın döşəməsinə bir neçə dəfə ara verəverə vurdu. Səs-səmir çıxmadığından düşündü ki, evdə kimsə yoxdu. Olsaydı, hiss olunardı. Yaxşısı budur pilləkənin altında gizlənib gözləyim, — deyə düşündü. Belə də elədi. Xeyli keçdi. Saat on ikiyə qalırdı. Maşın həyət darvazasının qarşısında dayandı. Darvaza açıldı. Əlməmməd maşını həyətə salanda fanarı həyət-bacanı, eyvanın altını işıqlandırdı. Maşın dönəndə işıq az qala İqrarın da üstünə düşəcəkdi. O, bir anda pilləkənin yan tərəfinə çəkilib özünü qaranlığa sala bildi. Əlməmməd maşını söndürüb eyvana qalxı. İqrar da sakitcə arxasınca getdi. Göz-gözü görmürdü. Əlməmməd cibindəki açarla qapını çətinliklə açıb içəri keçirdi ki, arxasında kiminsə olduğunu hiss elədi. O, qışqırmaq istədi. İqrar onu itələyib içəri saldı. Uzun saçlarından tutub bıçağı boğazına dirədi:

— Səsin çıxsa, boğazını üzəcəm. Yalan danışmasan, səni öldürməyəcəm.

Əli, ümidi hər şeydən üzülən Əlməmməd sakitcə dayandı. İqrar:

— Evdə şam varmı? — soruşdu.

— Hə...

— Tap, yandır.

Əlməmməd cibindən kibrit qutusunu çıxarıb kibrit çəkdi. Otaq ala-toran işıqlandı. Əlməmməd mətbəxdəki şkafın üstündəki şamdanı götürdü, yandırıb stolun üstünə qoydu. Ala-toranda İqrarın üzü, gözləri tam aydınlığı ilə görünmürdü, İqrar dedi:

— Əlməmməd, məni tanıyırsan?

— Hə...

— Mən niyə gəlmişəm?

— Gilana görə.

— O, hardadı?
— Bakıda.
— Bakıya yola sən salmısan?
— Hə...
— Kimin yanındadı?
— Qunduzun.
— O kimdi?
— Adamları işə düzəldir.
— Həm də satır.
Əlməmməd susdu.
— Hə, yoxsa, yox, tez elə.
— Yəqin.
— Ünvanını de.
Əlməmməd ünvanı dedi.
— Sən bacımı aldadanda mənimlə qarşılaşacağını düşünmürdün?
Əlməmməd cavab vermədi. İqrar növbəti sualı verdi:
— Paltar asılan ip hardadı?
Əlməmməd udqundu. Fikirləşdi ki, İqrar ip axtarmaqda ya onu boğub öldürəcək, ya da əl-ayağını bağlayıb harasa aparacaq, qətlə yetirəcək. Əlməmməd yalvarmaq istəyirdi ki, İqrar səsinin tonunu sərtləşdirdi. — Hardadı deyirəm?
Əliməmməd dedi:
— Mətbəxdə.
— Gedək, göstər.
İqrar bir əli Əlməmmədin saçında, o biri əli ilə bıçağı onun böyrünə dirəyib mətbəxə keçirdi. Əlməmməd nazik kəndiri şkafın aşağı gözündən götürdü. İqrar:
— Sabun hardadı? — soruşdu.
— O da burdadı.
— Götür.
Əlməmməd sabunu götürdü. Təzədən otağa qayıtdılar. İqrar:





— İpi sabunla.
— İqrar, yazığam.
— Onu alçaqlıq eləyəndə bilməliydin.
— Qələt...
— Arvadın hardadı?
— Atasıgildə.
— Niyə gedib?
— Dalaşmışıq.
— Kağız-qələm götür.
Əlməmməd cibindən qələm və iki qatlanmış şagird dəftəri çıxardı. İqrar dedi:
— Yaz. Mən Əlməmməd İsa oğlu Bəylərovu arvadım Xatirə təhqir eləyib. Belə ki, atamı, anamı söyüb, üzümə tüpürüb. Mənə oğraş, namussuz deyib. Bu təhqirlərə dözmədiyim üçün intihar eləyirəm.
Əlməmməd:
— İqrar!
— Yaz! Mənim intiharımda heç kəs günahkar deyil. Altından qol çək, bu günkü tarixi qoy, imza at.
İqrarın diktəsini Əlməmməd icra elədi.
İqrar:
— Lüstürün dəmiri səni saxlayarmı? — hirslə soruşdu.
— İqrar mənə yazığın gəlsin.
— Arvadını saxlayammayan alçaq, başqalarına girişirsən? Şər Müzəffərlə oturub-durmaqda məqsədin nədi?
— Qorxuram, onu eşitməsəm, öldürər məni. Allah kəssin kasıblığı, bir loxma çörək üçün.
— İndi sənə köməyi çatacaq?
Əlməmməd yazıq-yazıq başını aşağı salıdı.
İqrar:
— İpi ilgəy elə — sakitcə dedi.
Əlməmməd:

— Yalvarıram...
— Lüstürü aç yerə qoy.
Əlməmməd açdı.
— İpi qıraya keçirt.
Əlməmməd keçirtdi.
İqrar:
— Çıx stolun üstünə.
Əlməmməd çıxdı.
İqrar:
— İlgəyi boğazına keçirt.
Əlməmməd tərəddüd elədi.
İqrar:
— Sənə deyirəm ki, ilgəyi keçirt.
Əlməmməd əli titrəyə-titrəyə ilgəyi boğazına apardı.

İqrar Əlməmmədin ayaqları altındakı stulu itələdi. Əlməmmədin bədəni havada yelləndi. Səsi xırıldadı. "Görək Şər Müzəffərlə haqq-hesabı necə çürüdürük?.." — deyə İqrar necə gəlmişdi, elə də çıxıb getdi.

* *
*

Dava-dalaş edərək acıq eləyib anası evinə gedən Xatirə paltarlarını, qızıl-zinət şeylərini götürmək üçün anası Bəyazla evinə qayıtdı. Onlar həyət darvazasını, evin qapısını açıq görüb istədilər geri qayıtsınlar, Əlməmməd evdən çıxandan sonra gəlib rahatca işlərini görsünlər — deyə düşündülər. Günortaya az qalırdı. Axşamdan yağan yağışdan da əsər-əlamət yox idi. Xatirəyə elə gəldi ki, acıq eləyib getdiyi bir neçə gün ərzində həyətbacadakı ağaclar da, əlləri ilə həyətdə əkdiyi gül-çiçəklər də kimsəsizləmişlər. Onlar ev yiyəsinin etibarsızlığına görə başlarını aşağı salıb umu-küsülü adamlar kimi susurdular. Həyət bacanı





beləcə görən Xatirənin ürəyi muma döndü. Bir anlığa gəlişinin məqsədini unudub kövrəldi. Gözləri doldu. Bu neçə ildə qurduğu evi əlləri ilə dağıtdığına görə indi ciddi peşmançılıq hissi keçirirdi. İstədi anasına desin:

— Mən ayrılmaq istəmirəm. Qayıt, get evinə. Əlməmməd hara gedir, getsin, kimlə oturub-durur, dursun. Evim əlimdə, ağlım başımda. Kül o adamın başına ki, iki əliylə bir başını saxlaya bilməyə.

Anasının acığı soyumadığını, hikkəsinin yenmədiyini düşündü, bir neçə gün əvvəlki qarmaqarışıq düşüncələrinin axarına qarşı çıxmaq istəmədi. Onu da bilirdi ki, bu dar macalda peşmançılığını anasına bildirsə, o, Xatirəni ağ yuyub qara sərəcək və deyəcəkdi:

— İt qızı, belə işin vardı, bu tezliyə peşman olacaqdın, niyə acıq eləyib evindən çıxırdın? Niyə ərinə deyirdin səndən boşanıram? Səndən mənə ər olmaz?..

Anasının qınaqlarına söz tapa bilməyəcəyini düşünən Xatirə tələsməmək qərarına gəldi. Bəyaz çox odlu-alovlu olduğundan hər şeyi vurub-dağıtmağa, hətta polisə, məhkəməyə düşmək işi olmasaydı, evi də yandırmağa hazırıydı. Gözlənilmədən Bəyazın ağlına bir fikir gəldi və o, bir anda qərarını qətiləşdirdi! "Əlməmməd evdədisə, onu yaxşıca əzişdirmək. Gözlərinin altını qaraltmaq. İmkan olsa, ağız-burnunun qanını tökmək. Al-qana boyayıb qapıdan çıxarmaq. Ölmək ölməkdi, xırıldamaq nə deməkdi. Getmək istəməsə, Şər Müzəffərlə törətdiyi cinayətlərdən bir neçəsini ona xatırlatmaq. Çox güman ki, onda dilini soxacaq dinməz yerinə. Səsi çıxmayacaq. Qula dönəcək. İşdi-şayətdi, şikayətə getmək istəsə, özü-özünü o günə saldığını demək... Onda it oğlu, hücumdan özünü müdafiəyə keçməli olacaq... Uzaqbaşı məhkəmə barışıq təklif eləyəcək. Bu həngamədən sonra Əlməmmədin əli hər tərəfdən üzüləcək, suyu süzülə-süzülə öz yerində oturacaq. Lazım gəlsə, Xatirənin də, lap elə

mənim də ayaqlarımı yumağa razılaşacaq. Nə qədər yeri göstərilməyib, Əlməmməd elə belə də olacaq. Atalar deyib: “İlan ulduz görməsə, ölməz”. Gərək, kimliyimi Əliməmmədə göstərəm...” Bu düşüncəylə Bəyaz Xatirənin ardınca evə keçdi. Dəhliz Xatirəyə qəbir kimi soyuq, cansıxıcı gəldi. Birinci mətbəxə keçdilər. Hər şey öz yerindəydi. Qoyduğu şeylərə əl dəyməmişdi. Xatirə paltar asmaq üçün təzəcə aldığı ipin, bir də çoxdan alınıb qoyulmuş iki paltar sabunundan birinin götürüldüyünün fərqinə varmadı. Qayıdıb istirahət otağına keçdilər. Xatirə ayağını içəri qoymuşdu ki, birdən ərinin çilçıraq yerindən sallandığını, bərəlmiş gözlərinin ona dikildiyini, dilinin çıxdığını gördü. Qorxudan, vahimədən çınqırını çıxara bilməyən gəlin dalındalın geri çəkilmək istəyirdi ki, Bəyaz başını qapıdan içəri saldı. Bayaqdan bəri vurmaqdan, dağıtmaqdan, qan tökməkdən dəm vuran qadın özünü itirdi. Nə eləyəcəyini bilməyib həyətə qaçdı. Üz-gözünü cırmağa, qışqırıb adamları köməyə çağırmağa başladı. İçəridəki faciə, anasının çöldəki çığır-bağırı Xatirəni dəli olmaq dərəcəsinə gətirdi. Qonşular tökülüşüb gələndə Bəyaz özündə deyildi. Xatirə başına, dizlərinə döyürdü. Qonşu Sənubər qarı tələm-tələsik otağa girdi. O da Əlməmmədin vəziyyətini görcək nəvəsi Simaya dedi:

— Telefonu götür, polisə zəng çal. De ki, fəlakət baş verib. Kişini asıblar.

Sənubər heç kəsi içəri buraxmadı. Gələnlər Əlməmmədin cəsədini təkcə pəncərədən müşahidə eləyib qorxu, həyəcan içərisində geri çəkilirdilər. Polislər, həkimlər həyətə toplaşan, hay-haray, qışqırıq salan adamların arasından keçib evə girdilər. Müstəntiq stolun üstündəki kağızı götürüb orda yazılanları oxudu. Mərhumun bədənində, ipdə, çilçıraqda və digər yerlərdə əl izlərinin olub olmadığını yoxladı. Heç bir dəlil tapmadı. Axırda cəsədi, hadisənin baş verdiyi yerləri videolentə aldılar. Meyidi həkimlərin ixtiyarına verdilər.





Müstəntiq əvvəl Xatirəylə Bəyazı otağa çağırıb danışdırdı. Sonra Əlməmədin məktubunu Xatirəyə oxutdu. Xatirəni dəhşət bürüdü. Bəyaz qapıya çıxanda müstəntiqə dedi:

— İnanmırsan, qonşulardan soruş. Heç vaxt Xatirə Əlməmmədi təhqir eləməyib, ona güldən ağır söz deməyib, burda nəsə var.

Bəyazın sözlərini eşidən Sənubər dilləndi:

— Bəsdi. Sənə Bəyaz, Bəyaz deyiblər, adın qulağında çox uzun səslənir. Bir azdan da deyəcəksən ki, Əlməmmədi qonşular yığışıb öldürüblər. Xatirə həmişə rəhmətliyi təhqir eləyib... Söyüb...

Qadın üzünü nəvəsi Simaya tutaraq dedi:

— A bala, sənin yadında yaxşı qalar, bizdən cavansan, Xatirə Əlməmmədə necə dedi?

— Əşi, məni bu işə qatma. Heç nə, dedi ki, kişi deyilsən, kişi olsaydın... Qoluboysan... Məni məcbur eləmə açım sandığı, töküm pambığı, sən də xəcalətindən ölkədən çıxıb qaçasan. Nə bilim ey...

Qonşular Əlməmmədin ölümünü unudub öz aralarında pıçapıç saldılar. Sima deyənləri bir neçə qonşu arvad da təsdiqlədi...

Qonşu Bədriyyə irəli çıxdı.

— Qardaş, mən də eşitdim. Hələ Sima yarısın dedi. Yazıq qız utanır.

Qonşu Miriş təəccübləndi:

— Deməli, belə çıxır ki, Şər Müzəffər Əlməmmədi onun üçün yanında saxlayırmış?

Şükür kişi deyilənlərə dözməyib bildirdi:

— Ayə, yer bərk olanda öküz öküzdən görər. Kişi təhqirlərə dözməyib, özünü asıb öldürdü. Əl çəkin də ondan. Ölüsünü heç olmasa, murdarlamayın. Ruhunu incitməyin. Hələ qapıdan çıxmayıb, qara yaxırsız...

Şükürün sözlərini eşidən Sima dilləndi:

— Şükür əmi, Əlməmmədi yamanca müdafiə eləyirsən, xeyir ola? Bəlkə, sən də ondansan?

— Nədən, a bala?

— Əlməmmməddən.

— Səni başa düşənin atasına lənət.

— Onda özünü niyə cırıb dağıdırsan?

Vəziyyətin kəskinləşəcəyini görən müstəntiq sorğu-sualı polis şöbəsində aparmaq qərarına gəldi. Gağız-kuğuzunu yığışdırırdı ki, Bəyaz onun qarşısını kəsdi:

— Burdakı söz-söhbətə yekun vur, sonra. Budu ha deyirəm, Əlməmməd kimdi, kim deyil, öz işidi. Onu ata-anası bilər. Mən ona at kimi bir qız vermişdim, qədrini bilmədi. Doğuzduranmadı, öz işidi. Öldü, getdi. Belə məsləhətmiş... İndi mən qızımı götürüb gedirəm. Sözünün Mustafasını burda de. Sabah qonşuların ağzında artıq söz olmasın. Qonşular öyrəniblər sözü saqqız kimi çeynəyib çürütməyə...

Sənubər dərhal Bəyazın sözünə reaksiya verdi:

— Qonşuları biabır eləmə. Gül kimi kişiyə qızın utanmadı rəng yaxdı. İndi də dilin var danışmağa?

Xatirə:

— Nə rəng yaxmışam? Başın götürdü getdi. Məni də saldı oda. Qurtarın da söz-söhbəti.

Bəhriyyə:

— Bacı, kişin özünü öldürdü. Etiraf elə ki, ona göz verdin, işıq vermədin. Gah dedin kişiliyi yoxdu, gah da dedin başqa qadınlarla oturub durur. Qonşular hansı sözünə inanaydılar? Bəyəm, qonşular eksperiment aparmalıydılar?

Getdikcə söhbət qızışırdı ki, Əlməmmədin cəsədini təcili yardım maşınında həyətdən çıxardılar. Müstəntiq Pərvin Namazov qaçıb maşına atıldı:

— Hamınızı bircə-bircə polis şöbəsinə gətirdəcəm. Orda danışarıq.





Səhəri gün bütün qəzetlərdə məlumat getdi: “Arvadının təhqirlərinə dözməyən Əlməmməd intihar elədi”. “Arvadının əlindən bezən Əlməmməd özünə qəsd elədi”. “Əlməmməd özünü öldürdü”. Deyən yox idi ki, balam bu Əlməmməd kimdir? Əlməmmədin intiharını eşidən Mirvari əvvəl çaş-baş qaldı. Qorxdu ki, hərləyib-fırlayıb yenə İqrarı şərləyələr, onu çək-çevirə salalar. Zavallını dolaşdırıb yenidən həbs eləyələr. Qəzetlərdən oxuyanda ki, Əlməmmədin ölümünün səbəbkarı arvadıdı, onun tez-tez ərini təhqir eləməsidi, bir qədər sakitləşdi. Ürəyində Allaha yalvardı. Fikirləşdi ki, zavallı əmioğlusunu yanına çağırıb bərk-bərk tapşırsın. Axşam onlara gələn İqrara dedi:

— İqrar, qurbanın olum, hüzür yerinə hərlənmə. Sənin əskin tüstülüdü. Çatmamış, çoxlarının gözlərini çıxarır, nəfəslərini təngişdirir. Budu gördün, ikisi-üçü yığışdı bir yerə, düzüb-qoşdular, axırda da səni Əlməmmədin ölümüylə əlaqələndirdilər. Bu gorbagor, əmioğlu, bizdən o ki lazımdı istifadə eləyib. Barəsində söz-söhbət eşitdikcə cızdağımız çıxıb, yanıb-yaxılmışıq. Mən istəmərəm, itin qanı üstümüzə sıçrasın.

— Əşi, özün asıb, cəhənnəmə ki. Mənim orda nə ölümüm var? Özü əliylə də yazıb-qoyub ki arvadımın təhqirlərinə dözməyib, özümü qətlə yetirirəm. Bu işdə günahkar axtarmayın. Bəyəm, bu, az şeydi? Müstəntiq çörəyi qulağına yemir ki.

— Vallah, o hadisəni eşidib, bu gecə yatmamışam. Qurban olum, qardaş, elə otur, elə dur ki, artıq söz-söhbət eşitməyək. O, Bəyaz arvad var ey, yaxşı tanıyıram onu. Ağzından çıxan sözü iki dəqiqə sonra boynuna qoyammazsan. Hərləyib-fırlayıb atar üstünə. Gördüyü işi elə yeridir boynuna, matın-qutun quruyur. Heç bir söz deyəmmirsən. Deməyindən də deməmək yaxşıdı. Bilirsən, niyə? Fikirləşib elə qurama düzəldir ki, əvvəlki sözü muştuluq olur.

— Elə ananın belə qızı olar. O da ərini intihar elətdirər. Atalar necə deyib: “Anası çıxan ağacı, qızı budaq-budaq gəzər”.

Görünür, anası tökəni qızı yığışdırıb.

— Hə... Necə deyirsən, elədi.

İqrar Mirvarini sakitləşdirmək üçün özündən qurama düzəltdi:

— Bilirsən, bacı. Mənim Əlməmmədlə heç bir işim yox idi. Düşünürəm ki, belə işdə kişilər günahsız olurlar. Bacım "hə" deməsəydi, Əlməmməd ona yaxın gəlməzdi. Eşidirəm ki, Gilanın çoxlarıyla münasibəti olub. Bu qədər adama mən neyləyə bilərəm? Heç nə. İkinci dəfə özüm-özümü ataram türməyə. Oranın nə olduğunu görmüşəm. Türməyə düşənin ağlı varsa, bir də elə iş tutmaz ki, yolu oralara düşsün. İndi kim deyə bilər ki, Gilan hardadı, kimlə, nə işlə məşğuldu. Ataların bir sözü var: "İnək göz etməsə, buğa sıçramaz".

— Düzdü, qardaş, Allah onun üzünü qara eləsin. Bizi qaragünlü elədi.

— Əşi, narahat olma.

— Qardaş, yaxşı yadıma düşdü. Nə vaxta qədər arvad-uşaqsız qalacaqsan? Paltarını nə vaxtacan özün yuyub, özün təmizləyəcəksən? Yeməyini-içməyini özün hazırlayacaqsan? Qurtar boş-boş gəzməyi. Bax, gör neyləyirsən. Kimi deyirsən, mənə, ya Zərnigar xalaya işarə elə. O, ağıllı qadındı. Hər şeyin yerini biləndi. Onu tanıyanların arasında xətir-hörməti var. Gedək elçiliyinə, danışaq, axşamların birində gətirək evinə. Əfsunu da gətir yanına. Sən də insan kimi beş gün ömür sür. Uşaq da ata nəfəsi duysun.

— Bəyəm, indi ömür sürmürəm?

— Yox, İqrar. Səninki, əmioğlu, yaşamaq deyil, sürünməkdi. Qurtar, o mənasız həyatdan. Hə... Gilan bəraət barədə yazmışdı. Sən neylədin? Ərizə verdin?

— Yox. Axı nəyimə lazımdı?

— Oğluna lazımdı, İqrar. Kim nə bilir, sabah onu nələr gözləyir? Bəlkə, sənin bəraət almamağın oğluna mane olacaq? Əfsunun nə günahı var? Səndən fayda görmədi, heç olmasa, zərər çəkməsin.





Bu fikir İqrarın, deyəsən, başına batdı.

— Bu gün maraqlanaram.

— Özün bilməzsən. Şəhərdə nə çox vəkil. Birini tap, beş-üç manat xərcini çək, qoy bir ərizə yazsın. Özün də arxasınca düş. Düşməsən, xeyiri yoxdu, alıb oxuyub atacaqlar. Sən də gözləyə-gözləyə qalacaqsan. Bu çox vacib məsələdi, İqrar. Buna biganə qalmaq olmaz.

— Oldu.

— Dünən Zərnigar xala zəng eləmişdi. Səni soruşurdu. Vəziyyətini öyrənmək istəyirdi. Bir get ona da dəy. Qoca arvaddı, qohumcanlıdı... O da səndən nigarandı.

— Nə sarıdan nigarandı?

— Onu deməzlər, İqrar. Hərdən lap uşaq kimi suallar verirsən.

— Yaxşı, mən gedim. Mənə başqa sözün yoxdu ki?

— Yox, get. Allahın nəzərləri üstündə olsun, əmioğlu.

* *
*

Axşama az qalırdı. Günəş yavaş-yavaş qüruba çəkilirdi. Zəif şüaların ağacların başındakı, binaların üstündəki ilıq nəfəsi çəkilməkdəydi. Bir şey vəd eləməyən gecənin sərilməkdə olan örpəyinin sədəmələri duyulurdu. İqrar həyətə girəndə atdı-tutdu oynayan məhəllə uşaqlarının səs-küyündən sanki qulaq gurulda-yırdı. Sakitliyə alışmış İqrar ani olaraq ayaq saxladı. Kənara dığırlanmış topu gətirən altı-yeddi yaşlı oğlan ona bir anda Əfsunu xatırlatdı. İqrarın ürəyi sızladı. Bu anda onu danışdıran olsaydı, kövrələr, qəhərlənərdi, bəlkə də gözlərindən gilə-gilə yaşlar axardı. O, top gətirən oğlana bir də baxdı. Oğlan İqrarın baxış-

larını görcək gülümsündü. Daha heç bir söz demədən Zərnigargilin qapısını döydü. Qapını açan Fidan sevincək dilləndi:

— Gəlin, gəlin, İqrar. Neçə vaxtı xalan səni istəyir.

— Xalam necədi?

— İçəri otaqdadı. Bayaq bir balaca özünü pis hiss eləyirdi. İndi yaxşıdı. Keçin, oyaqdı.

İqrar Zərnigar yatan otağa keçdi. Qarı yatdığı çarpayıdan qalxmaq istəyirdi ki, İqrar onu qucaqlayıb üz-gözündən, əlindən öpdü. Qadın kövrəldi.

— Saqqalın ağarsın, birdəfəlik gedirsən. Elə bil Zərnigar...

— Hə... Nə oldu. Mən çatmamış, sən kövrəlirsən.

— Qocalığın üzü qara olsun. Danışmaqdan savayı, əlimdən iş gəlmir. Danışıq da nə danışıq? Əvvəlin başlayanda sonu yaddan çıxır. Bəzən ortaya çatanda nə danışdığını unudursan. Dinləyənlər də səndən bir təməsik anlamırlar.

— Yox, ay xala, vallah yaxşısan.

Fidan əlində kiçik podnos içəri keçib stolun üstünə iki stəkan çay qoydu və mətbəxə qayıtdı. Zərnigar gülümsünüb dedi:

— Ay İqrar, uşaqlar bayaq xəbər gətirdilər ki, Əlməmməd özünü asıb. Əvvəl inanmadım. Sonralar dedilər ki, xəbər dəqiqdi.

— Hə, mən də elə eşitmişəm. Qəzetlər də yazıb. Guya arvadının əlindən özünə qəsd eləyib.

— Gülməlidi. Adə, arvad pisdi, boşa qurtarsın da. Özünü niyə asırsan, aciz oğlu, aciz. Yaşımın elə vaxtıdı ki, gərək mən günah eləməyəm, ancaq elədim.

— Nə günahdı ki, o?

— Ölümə sevinməzlər. Allaha acıq getməsin, bu gün Əlməmmədin ölümünə sevindim. Bilirsən niyə? O, öz əcəliylə ölməyəcəkdi. Onu nə vaxtsa, gəbərdəcəkdilər. Həmişə qorxurdum ki, onun ölümü səninlə bağlana. Murdarın suyu sənin üstünə sıçraya. Səndən uzaqdı, gərək nəzir-misaf paylayaq. Qazandığımızdan birini yeyək, birini də kasıba-kusuba verək. Tapdığımızı haqq olan Allah müstəcəb eləsin.





— Deyirsən, canım qurtardı da?

— Hə... Görəsən, onun arvadın tutarlar?

— Məncə, yox! Gəl öz dərdimizi danışaq. Qələt eləmişdi, Allah da cəzasını verdi.

— Oğlum, bəsdi bikar gəzdiyin.

— İşləyirəm, xala.

— Bikar ona görə demirəm. O günü Mirvariyə də demişəm ki, sənə desin. Bax, gör kimi... Bizə də de. Xeyli yaşın var, fikirləşmə ki, sən kimisə sevəcəksən, ya səni sevəcəklər. Ola bilər, sən də sevəsən, səni də sevələr. Unutma ki, bu yaşda ağılla evlənməlisən, gözünü tutanla yox. Oğlun qapılardadı. Biz də gedib görəmmirik, dərdindən halı olanmırıq. Sabahkı günü o da sənə deyə bilər ki, əvvəllər türmədəydin, yanıma gəlmək imkanın yox idi, səni qınamırdım. Neçə vaxtdı, gəlmisən. Ata olub haləhvalımı xəbər almısanmı? Aclığımdan, toxluğumdan məlumat bilmisənmi? Bircə dəfə gəlib başımı sığallamısanmı? Yanına salıb şəhərə aparmısanmı? O qədər sual verər sənə, söz tapammazsan danışmağa. Üzün olmaz uşağın üzünə baxmağa! Nə fikirləşirsən, oğlum? Türmədə olmağınla şəhərdə olmağının Əfsun üçün fərqi varmı? Saxta vicdanla yaşayıb xoşbəxt olmaq olmaz. Vicdanı saf, təmiz saxlamağı bacarmaq lazımdı, İqrar!

— Düz deyirsən, xala! Mənə bir az möhlət verin. Düşünüm, baxım. Kimlə gəldi ailə qurmazlar axı.

— Sənə baxma deyən var? Özün seç, özün öyrən...

— Lap az qalıb, tələsmə.

— Qorxuram öləm, o günü görməyəm. Mən rəhmətlik atana, anana xəbər aparmalıyam.

Hər ikisi ucadan güldü. İqrar:

— Gilanı soruşsalar nə deyəcəksən?

— Deyəcəm ki, burda yox idi, bilmirəm.

— İnanacaqlarmı?

— Özləri bilər.

Zərnigar söhbəti yenidən Əlməmmədin üstünə çəkib gətirdi:

— Allahın qüdrətinə iananmayan kafırdı. Allah ağlını aldı, özü-özünü öldürdü. Bax, belə bir gün Şər Müzəffər üçün də var. İnanıram ki, onun cəzası daha ağır olacaq.

— Nə bildin?

— O, lap çox şey eləyib. Deyirlər ki, dağların başında evciklər tikib, oyunlardan çıxır. Elə şeyi Allah götürməz.

— Hələ ki, götürür.

— Əstəfürullah... Şəkk eləmə, oğlum. Gördün Əlməmmədi?

— Gördüm, xala... Canı qurtardı arvadının əlindən. Görək, indən belə arvadı neyləyəcək? Atalar deyib:"Döymə kimsənin qapısını, döyərlər qapını".

— Xala gəldim, səninlə görüşüm. Uzan, rahatlan. Tez-tez gələcəm yanına. Özünü soyuqdan qoru, yemək-içməyinə fikir ver. Məndən də nigaran olma. Cavan oğlanam.

— Yaxşı yol!

*   *
*

Əlməmmədin ölümü onu tanıyanlar arasında üç hiss doğururdu: kədər, sevinc, gülüş. Kədərlənənlər qohum-əqrəbasıydı. Təəssüflənib deyirdilər: cavan getdi, it əlinə düşdü; qədri bilinmədi; əzabla öldü. Sevinənlər ondan zərərçəkənlər idi: əcəb oldu; bir arvadının öhdəsindən gələnməyən kişi ölsə yaxşıdı; Şər Müzəffərin fitfasıyla oynayanın aqibəti gec-tez belə qurtarmalıydı; kişiliyi olmayanın yaşamasından nə çıxar; biqeyrət adam it kimi ölər; oğurluqdan, satqınlıqdan başqa əlindən iş gəlməzdi; arvadını da gərək yanında diri-diri basdıraydılar... Gülüşənlər





qonşularıydılar; ondan imiş; bir arvadın gözünü yığammadı; kişiliyi yoxuymuş...

Xatirə getdikcə səhvlərini başa düşür, özünü məzəmmətləyir, bir də Əlməmmədlə qarşılaşmayacağını, oturub-durmayacağını, dalaşıb-barışmayacağını, istəyəndə zarafatlaşıb gülməyəcəyini, hətta, saymayacağını təsəvvüründə canlandırdıqca ürəyi sıxılırdı. Sağlığında Əlməmmədə olan etinasızlığı ucbatından için-için ağlayırdı.

Neçə gündə özünə gələmməyən Xatirə istədi Əlməmmədin evdəki yeganə şəklinə baxsın. Yan otağa keçərək şəkli götürüb üzünün tozunu silirdi ki, telefon zəng çaldı. Ağır kədər, niskil içində dəstəyi götürdü:

— Alo, kimdi danışan?

— Salam, xanım, müstəntiqdi.

— Eşidirəm, cənab müstəntiq.

— Saat üçdə şöbədə sizi gözləyirəm.

— Tək gəlim, yoxsa...

Müstəntiq ayıq adam idi. Nəsə düşünüb:

— İzahat verəndə tək olacaqsan — dedi.

— Yaxşı, gələrəm.

Xatirə axşamdan yan otaqda yatan anasını oyatdı. Müstəntiqin dediklərini ona çatdırdı. Anası da çağırışı qohum-əqrəbasına çatdırdı. Saat üçdə qadınlı-kişili bir yığın adam müstəntiqin qapısı ağzına yığışdı. O, başını qapıdan çıxarıb Xatirəni çağırmaq istəyirdi ki, gözlərinə inanmadı. Dərhal soruşdu:

— Sizə kim lazımdı?

Bəyaz cavab verdi:

— Müstəntiq.

— Mənəm. Eşidirəm.

Cavan bir gəlin gülümsünərək:

— Xatirə izahat verəcək. Onun üçün gəlmişik.

Müstəntiq:

— Tək gələmməzdi?

Orta yaşlı qadın:

— Gələrdi, qorxduq...

Müstəntiq:

— Burda Xatirəni...

Yaşlı bir kişi:

— İstəyirik ki, qorxmasın.

Başqa yaşlı qadın:

— Gəldik ürək-dirək verməyə.

— Əcəb eləmisiz, çıxın həyətdə gözləyin. Xatirə, sən orda dayanma, gəl.

Xatirə içəri keçdi. Ciddi görkəm alan müstəntiq bir vərəq kağız, bir ədəd də qələmi Xatirəyə verdi. Sonra üzünü pəncərədən çölə tutub dedi:

— Əlməmmədin məktubunu oxumusan. İstəyirsən verim, yenə oxu.

— Lazım deyil, məzmununu bilirəm. Əlindən iş gəlməyən kişidən belə şeylər çıxar.

— Heç gəlmirdi?

— Necə deyim?

— Aydındı.

— Nəə?

— Əsəbiləşməyin, xanım, bu qədər adamı bura gətirməyin mənası yoxdu, biz dil tapammayacağıqsa, həyətə toplaşanlar neyləyəcək?

“Xanım” sözü Xatirənin ürəyinə yağ kimi yayıldı. Sözü bir neçə dəfə ürəyindən keçirtdi, heç vaxt Əlməmməd mənə xanım deməyib desəydi, dili quruyardı. Özünə gəlib müstəntiqə cavab verdi:

— Mən belə şey görməmişəm. Anama dedim, o da camaata.

— Siz cavansız, gözəlsiz. Gələcəyiniz qabaqdadı. Sizi cəzalandırmaq...





— Saxlamayın sözünüzü deyin.

— Ərinizin ölümündə günahkarsız. Fərqi yoxdu, ya xır-xıradan, ya zır-zıradan.

— Başa düşmədim.

— Bu hüquq dilidi. Siz onu başa düşməyə bilərsiz.

— Onda adam dilində danışın mən də bilim.

— Bədii ədəbiyyat oxumusuz?

— Bəli. Niyə oxumamışam? “Tıq-tıq xanım”, “Cırtdan”, “Ağ atlı oğlan”. Yenə deyim?

— Yox. Bədii əsərlərdə şairlər, yazıçılar yazırlar: “Mənəvi cəza fiziki cəzadan daha ağırdı”. Nəzərinizə çatdırım ki, siz də Əlməmmədə mənəvi cəza vermisiz. Nəticədə Əlməmməd özünə qəsd edib.

— Axı, o özü özünü öldürüb.

— Nə fərqi var, axır ki... Siz məsuliyyət daşıyırsız. Həyəcanlanmayın, xanım. Sizi atmıram, kəsmirəm. Allah eləməmiş sizə naməhrəm iş də təklif eləmirəm.

Xatirə “naməhrəm” sözünü eşitcək müstəntiqin nəyə işarə vurduğunu anladı. Ancaq özünü o yerə qoymadı:

— Sizə artıq-əskik söz demirəm ki? Mən də insanam, sizi başa düşürəm. Aman verəydiz, kişinin qırxı çıxaydı, mənim də ürəyim açılaydı. İndi yas içindəyəm, bir anlığa məni özünüzün yerinizdə hesab edin, siz ölsəydiz arvadınızın qəlbi açılardımı?

Müstəntiq Xatirənin nə demək istədiyini anlamadı. Ona görə də sifətini bozartdı. Səsinin tonunu bir qədər artırdı:

— Başa düşmürəm, xanım, fikrinizi əməlli açıqlayın.

— Qadanızı alım, müstəntiq. Niyə əsəbiləşirsiz? Mənim başım bu saat doludu. Siz deyənlərin çoxunu qanmıram. Əşi, siz böyük adamsız. Yanınıza gündə yüz adam gəlir. Onların dəlisi də olur, ağıllısı da. Hamısına belə əsəbiləşsəniz, sizdən bir şey çıxmaz?

— Məndən nə çıxmalıydı ki, xanım, xahiş eləyirəm ifadələ-

rinizə fikir verəsiniz.

— O nəmənə şeydi, qadan alım.

— Ərinizi intihara niyə məcbur eləmisiniz?

— Qadan alım, bəyəm, heç arvadınızla aranızda dava-dalaş olmayıb? O, sizi kimsəyə qısqanmayıb? İnanmıram olmasın. Onda özünüzü asıb öldürməliydiniz, cənab müstəntiq? Deyilən, boş-boş sözlərə də, o məktuba da inanmayın. Kişi son zamanlar yolunu azmışdı. Mən canıyanmış da onu tərbiyə eləmək istədim. O da vurub belə elədi. Şükür Allaha ki, o, özünü öldürüb. Niyyəti öz başında çatlayıb. Düz demirəm, müstəntiq?

— Özünüzə haqq qazandırmayın.

— Ə kişi, çox-çox üzr istəyirəm, siz nə qanmaz adamsız? Lap tutaq ki, siz mənə gəzmək təklif eləmisiz. Mən də sizə “hə” demişəm. Qoyub maşına aparmısız Hacıkəndə, ya Kəpəzin qoynuna. İnsanıq da... Gəzmişik, dolanmışıq, qayıtmışıq...

Müstəntiq stulun arxasındaca uduxdu. Tez də özünə gəlib — Hə... — dedi.

— Kimsə bizi görüb, sonra da gedib, sizin arvadınıza xəbər verib. Axşam getmisiz evə, arvadınız düşür üstünüzə. O, gəzdiyin kim idi? Niyə mənə xəyanət eləmisən? Bu, alçaqlıqdı, binamusluqdu. Atan-anan belə-belə olsun.

— Necə yəni belə-belə olsun?

— Yəni atan itlə yatsın. Onda siz də gedib özünüzü asıb öldürməlisiz, ya arvadınızla dil tapmalısınız?

— Nə deyim, vallah... dünyanın işini necə tutsan elə də gedər.

— Allah ölünüzə, dirinizə rəhmət eləsin. Qanan adamsız. Qanana hər şeyim qurbandı. Qanmazın... Bax, indi özünüz fikirləşin. Günahımı mənə açın deyin, bilim. Siz Allah, qurtarın bu işi. Mən də özümə gəlim. Ər yox, uşaq yox, başımı qata. Bir sözlə, qoz burda, fındıq burda. Mən də camaat kimi gün görmək istəyirəm.





— Danışdıq?

— Əlbəttə, mən də insanam, mənim də hissim var.

Xatirə qarşısındakı kağıza bir kəlmə də yazmadı. Müstəntiq nəsə düşündü, qadını çox çəh-çöhürə salmadı:

— Dur, get, çağıranda gələrsən — dedi.

— Tək, ya cüt!

— İzahatı tək-tək alırlar.

— Oldu.

Xatirə qapıdan çıxdı. Qohum-əqrəbası onu dövrəyə aldı:

— İzahat verdinmi?

— Yox! Müstəntiq hal əhlidi. Bir az söhbət elədik. Çox mədəni adama oxşayır. Təcrübəsi çoxdu, söz qanandı, qandırandı. Axırda bildirdi ki...

Anası atıldı:

— Nəyi?

— Dedi ki, gedin, çağıranda gələrsiniz.

— Elə bu?

— Əşi, irəli başdan nə deməliydi ki? Görünür, nə sözü var çağıranda deyəcək. Mən də ona uyğun hərəkət edərəm.

Əlacları kəsilən qohum-əqraba nagüman halda geri dönüb, növbəti çağırışı gözlədilər.

Çağırışlarla Xatirədən bir şey qoparammayacağını düşünən müstəntiq bir neçə gündən sonra Əlməmmədin ölümü ilə bağlı istintaq işini qapayıb arxivə göndərdi.

* *
*

Tək yaşamağa adət eləyən İqrarın kürəyində son zamanlar tez-tez ağrılar olur, ürəyində sıxılmalar, döyüntülərlə yanaşı, nəfəs daralmaları hiss eləyirdi. Heç vaxt xəstələnməyən bu adam düşündü ki, azadlığa çıxandan maddi çətinliklərlə yanaşı, əsəb,

dərd, kədər ağuşuna atıldığından, görünür, ürəyində də ciddi qüsurlar yaranmaqdadı. Bunları fikirləşdikcə əhvalı pozulurdu. Axşamdan xeyli keçsə də, İqrar nimdaş pencəyini geyib küçəyə çıxdı. Gəzə-gəzə Gəncə çayının sahilinə necə gəldiyini bilmədi. Sahildəki enliyarpaq, şah budaqlı çinarlar, ağ qovaqlar parkda yanan elektrik lampalarının ətrafa yaydığı işıqların qarşısını kəsdiyindən ağacların yan-yörəsi qaranlıq idi. Onların altında qoyulan skamyalarda əyləşən adamları, onların nələrlə məşğul olduqlarını görmək olmurdu. İqrar öz aləmindəydi. Düşünürdü ki, yetimliklə, min cür əziyyətlə boya-başa çat, qudurmuşun birisi özünün, ailə üzvlərinin həyatını zəhərləsin, məhv eləsin, sən də dur bax, gözlə ki, nə vaxtsa, qisasımı alacam. Ürəyin xəyanət eləsin, sən də bir iş görənmə. Böyük faciədi. Dərdi-sərini, istəklərini, arzularını yığ, köç elə bu dünyadan. Bütün bunları düşünəndə dəhşətə gəlirəm... İqrar düşüncələr içərisində çayın sol sahilinə yaxınlaşdı. Səma apaydın görünürdü. O biri sahildən baxıb gülümsəyən yarımqövsü Ayın, ulduzların ələnən, sayrışan ağ işığı çayın nəriltiylə axan sularına qərq olurdu. İqrar çaya xeyli daldı, hay-harayla axan suların coşğun nəğmələri ruhuna doldu. Handan-hana arxaya çevrildi. Aralıda yamyaşıl iynəyarpaqlı şam, küknar ağaclarının qara divləri xatırladan siluetləri görünürdü. Yel əsdikcə yaxınlıqdakı ağ qovaqların, çinarların budaqları bir-birinə çırpılır, yarpaqlarının aramsız titrəyişi insanı sehirləyən pıçıltılar yaradırdı. — Heyf, çox heyf, bu gözəl həyat mənə qismət olmadı — deyə dərin təəssüf hissi keçirtdi. Günün əksər çağlarını acı təəssüratlar, xatirələr içərisində yaşayan bu adam fərəh doğuracaq arzulardan, qəlbini riqqətə gətirəcək xəyallardan, şirin vədlərlə dolu illüziyalardan çox-çox uzaqdaydı. Daim əziyyətlər, məhrumiyyətlər içərisində yaşayırdı. Kənardan atılan daşlar onu dəhşətli dərəcədə sarsıdırdı. Anlayırdı ki, vicdanını nə qədər təmiz saxlamağa çalışsa da, onun qüruru, vüqarı, heysiyyəti, namusu, ləyaqəti, şərəfi... tapdalanmışdı.





Qara kölgələr İqrarın onsuz da daralan köksünü bir az da sıxdı. İçindəki qarşısıalınmaz tufanlar, fırtınalar dincliyini əlindən almışdı. Beynindəki çalpaşıq fikirlər onu heç cürə rahat buraxmırdı. Bəs o günahkarlar kimlər idilər? Özümü? Anasımı? Bacısımı? Arvadımı? Şər Müzəffərmi? Müstəntiq Xatazadəmi? Bəlkə, yaşadığımız xəstə cəmiyyətdi? Biz ayrı-ayrı fərdlərik. Fərdlər ayrı-ayrı toplumlar yaradırlar. Onlar da birləşərək cəmiyyəti. Cəmiyyət xəstədisə, fərdlər də xəstədi və əksinə. Başına gələnlərin bütün səbəbkarı cəmiyyətdi. Qanunlarla, qadağalarla idarə olunmayan cəmiyyət ölümə məhkumdu... Mən hər şeyini itirmiş, ayaq üstə can verən bir zavallıyam. Ürəyim dəyanətsizlik eləməsə, qisasımı alacam. Adamların hərəsi bir cürə xəstədi, mən də belə...

Evə qayıtdı. Qapıya çatanda evin tinində gözlənilmədən qaraltı hiss elədi. Əlini bıçağa atmaq istədi. Unudub evdə qoymuşdu. Qaraltı iki-üç addım ona tərəf yeridi. İşıqda aydın göründü. Ucaboylu, kök, sallaqqarın, hiyləgər sifətli, bir gözü kor olan bu adam ilk baxışdan ikrah hissi oyadırdı. Qırx-qırx beş arası yaşı olardı. Çallaşmış üzünü təraş etdirməmişdi. Qarmaqvarı burnu möhtəkir üzünü daha da eybəcərləşdirirdi. Başına qara papaq qoymuşdu. Papağın tükləri aşınmışdı. Əyninə cins şalvar və gödəkçə geymişdi. İqrar fikirləşdi ki, Şər Müzəffər bu adamı sifarişlə onun üstünə göndərib. Özünü cəmləşdirdi. Naməlum adam İqrarın hazırlıq vəziyyəti aldığını duydu:

— İqrar, mən bura davaya, haqq-hesab çəkməyə gəlməmişəm. Səninlə kişi kimi danışmaq istəyirəm.

— Buyur.

— Adım Sərxandı. Çoxdandı səni izləyirəm. Başına gələnlərdən xəbərdaram. Biz bir olmalıyıq. Ayrı-ayrılıqda hərəkət fayda verməz.

— Nə hərəkət?

— Oğlun qayınananın yanındadı. Təkliflə razılaşmasan, oğlun götürüləcək.

— Biz nə eləməliyik?

— Qoluzorlular, imkanlılar xalqı talayırlar. Bizim banda onların xalqdan qopardıqlarını əllərindən almalıdı. Kimliyini onlara qandırmalıdı.

— Hansı yollarla.

— İnsan ovu. Evlərə basqın. Başqa yollar da var.

— Mən elə şeyləri bacarmaram.

— Bacararsan.

Sərxan əlində tapançanı oynadaraq dedi:

— Bundan sənə veriləcək.

— Mən onunla davranmağı bacarmıram.

— Dedim, bacararsan! Cavan oğlansan, canına heyfin gəlsin. Sənə iki gün fikirləşmək üçün vaxt verirəm. Üçüncü gün saat on tamamda səninlə əlaqəyə girəcəklər. Mənim evim bir tin aşağıdadı...

Bunu deyən Sərxan yavaş-yavaş darvazadan çıxıb getdi. İqrar çaşqın halda qapını açıb otağa keçdi. İşığı yandırıb çarpayısına uzandı. Onu fikir götürdü: Sərxan kimdi? Onu İlqar tanıyırmı? O, məni oğlumu götürməklə hədələdi. Təklifi qəbul eləmədiyim halda öldürülməliyəm. Bəs Şər Müzəffər? Müstəntiq Bilal Xatazadə? Görünür, bu əclaflarla razılaşmasam, heç kəsdən qisasımı ala bilməyəcəm? Yox, razılaşsam, onda qatı cinayətkar olacam. Gec-tez...

Hər halda bu adam tək deyil. Necə dedi? Bizim banda? Bəlkə, bu banda Şər Müzəffərinkidi? Yəqin ki, o, yanıma tək gəlməmişdi. Kimlərsə onu kənardan müşahidə eləyirdi. Açıq danışdı. Qorxmurdu, çəkinmirdi. Qatı cinayətkar olduğu üz-gözündən oxunurdu. Maraqlıdı, məni bu alçağa kim tanıdıb? Onu bura Müzəffər göndərib? Müzəffər göndəribsə, o, məni tapançayla niyə vurmadı? O mənim başıma gələnləri hardan bilir? Bəlkə





sözgəlişi deyir? Bu sözlə məni inandırmağa çalışmır ki? İki gün vaxt verdi. Kimsə mənimlə əlaqəyə girməlidir. Əcəb işdi, nə düşünürdüm, nə baş verdi?

İqrar yata bilmədi. Səhərədək çarpayısında çabaladı. Bir qərara gələmmədi. Əlacsız qalıb iki gün sonranı gözləməli oldu...

Verilən vaxt başa çatırdı. Bir saatdan sonra “qonağı”yla görüşməliydi. Bu gün o, qərarlaşdırdı ki, təklifdən qəti imtina etdiyini gələn şəxsə bildirsin.

Qapı döyüldü. — Nə tez? — deyə İqrar düşündü, gedib qapını açdı. Gələn İlqar idi. Üz-gözündən qorxu, həyəcan, təlaş oxunurdu. Soruşdu:

— Nə olub, İlqar?

— Aşağı küçədə yaşayan Sərxanı tanıyırsan?

İqrar söhbətin kimdən getdiyini dərhal anladı.

— Hə, necə bəyəm?

— Mağazanın qabağında şəxsi “Mersedes”ində alnından tapançayla vurublar.

— Ola bilməz.

— Əclaf qatı cinayətkar idi. Oğurluqla, adam öldürməklə məşğul idilər. Gətirdilər evinə. İnanmırsan, gedək gözlərinlə gör.

Sərxangilə getdilər. Adamların pencəklərinin yaxalığında Sərxanın şəklini görən İqrar İlqara pıçıltıyla dedi:

— Odu. İndi qayıdaq evə.

— Nə tez?

— Sənə deyiləcək sözüm var. Belələrinin yasında olmaq özü də günahdı, İlqar.

İqrar Sərxanla görüşünü, aralarındakı söhbəti danışanda sanki İlqarın nitqi tutuldu. Nə deyəcəyini bilmədi. İqrar soruşdu:

— Sərxanla Şər Müzəffər arasında bir əlaqə yoxdu ki?

— Ola bilər. Şər Müzəffər şeytandı, Sərxan isə qulyabanı.

* *
*

Artıq soyuq, qarlı, şaxtalı qış arxada qalmışdı. İlqarla İqrar səhər ara verəndə Gəncədən çıxıb Göygölə gedirdilər. Dağları, təpələri aşdıqca təbiət daha ecazkar bir görkəm alırdı. Əyri-dolam yollar. Sərv ağacları, göylər dələn yamyaşıl meşələr. Gurultuyla axan dağ çayları. Güllü-çiçəkli yamaclar... Tarixlər şahidi, bütün dövrlərdə nəsillərin ruhuna zəngin dəfinələr ərmağan edən böyük qüdrət sahibi dağlar. Uca, şiş, başı qarlı silsilə qayalar. Bu qayaların üstündən axıb gələn, adamın canına işləyən, sanki damarlarda qanı donduran sərin küləklər. Qızışıb sürət götürən maşının nəriltisi meşələrə, dağlara gurultu salırdı. Göygölə çatar-çatmaz İlqar maşını saxladı. Onlar özləriylə gətirdikləri yeməkləri, meyvə şirələrini götürüb maşından düşdülər və adamı özünə heyran qoyan füsunkar Göygölün sahilinə gəldilər. Təmiz hava, rəngbərəng çiçəklərin insanı bihuş eləyən ətri... Xeyli gəzdilər. Təbiət qoynunda yüngül süfrə açdılar. Bir-iki loxma kəsmişdilər ki, kənardan iki nəfərin onlara sarı gəldiyini hiss etdilər.

— Gələnləri tanıyırsanmı?

İlqar başını qaldırdı. Qarşıdan gələn ucaboy, sarışın, qırx yaşı olar-olmaz bir kişi onlara çatmamış:

— Rəisə salamlar — dedi.

İlqarla İqrar qalxmaq istəyirdilər ki, kişi sözünə davam elədi.

— Xahiş eləyirəm, qalxmayın. Naharınızı eləyin. Maşınınızı gördük, bildik burdasız. Gəldik həm sizinlə görüşək, həm də deyək ki, günorta İbadullanın kababxanasında sizi gözləyəcəyik.

İlqar:

— Fərid müəllim, bəlkə siz bizə qonaq olasız?

— Başqa vaxt. Özünüz də tanış olun, bu cavan oğlan qonağımdı. Bakıdan gəlib, bizə təhkimdi. Prokurorluqda işləyir, adı





Zülfüdü...

İlqar da öz növbəsində İqrarı göstərərək:

— Qonşumdu, həm də uşaqlıq dostumdu.

Fərid:

— Çox gözəl, İlqar müəllim, işinizdə olun, biz də yamaca tərəf gedirik.

İlqarla İqrar bir-iki loxma kəsib süfrəni yığışdırdılar, dərəyə sarı düşdülər. Bir dəstə adam yeyir-içir, zurnaçılar dəstəsi çalır, gənclər, uşaqlar oynayırdılar. Bu mənzərəyə onlar xeyli tamaşa elədilər. Yenidən Göygölün ətrafına gəldilər... Nahara az qalırdı. Maşına tərəf getdilər. Çataçatda İqrar soruşdu:

— Fərid şəhərdə nə işləyir?

— Şəhər prokurorudu. Necə bəyəm?

— Dostluğunuzdan istifadə eləyib bir söz demək istəyirəm.

— Çəkinmə, İqrar.

— Bəraət məsələmi qaldırmaq istəyirəm. Bilirsən ki, mən düşünülmüş qurğu nəticəsində həbs olunmuşam. Günahsızam. Özüm üçün narahat deyiləm. Axı mənim Əfsunum var.

İqrar "Mənim Əfsunum" ifadəsini elə dedi ki, İlqarın qəlbi titrədi. O, dönüb İqrara baxdı. İqrar dayandı. Bir anlığa baxışları toqquşdu. Qəribəydi, İlqar heç vaxt İqrarı belə görməmişdi. Onun gözlərindən kimsəsizlik, acizlik yağırdı. Özünü saxlaya bilməyən İqrarın gözləri doldu. Bir də dilləndi:

— İlqar, mənim Əfsunum var.

İlqar titrək səslə cavab verdi:

— Əfsunun İlqar kimi də əmisi var. İndi Fəriddən də, Zülfüdən də məsləhət alarıq.

— Qorxuram pulsuz düzəlməyə.

— Pulun dərdini niyə çəkirsən?

İqrar daha bir söz demədi. Maşına oturub İbadullanın kababxanasına getdilər. Stol açılmışdı. Süfrə zəngin idi. Təzə pomidor, xiyar, gilas, ərik, çiyələk, quzu əti, kabab, ürək, böyrək, ağ

ət... isti-isti süfrəyə gətirilirdi. İlqar qədəhlərə araq süzdü. İqrar astadan:

— Mən içmirəm — deyə bildirdi.

Fərid də astadan dedi:

— Bura gələsən, özün də içməyəsən, bu, böyük cinayətdi. Süz!

Gülüşdülər. Fərid qədəhi götürdü:

— Zülfü məndən də cavandı. Ziyalı ailəsində doğulub, boya-başa çatıb. Gözəl ailəsi var. Sağlam nəslin nümayəndəsidi. Bacarıqlı hüquqşünasdı. Hər şeydən əvvəl ədalətlidi, mərhəmətlidi, sözübütövdü. Dediyi sözün üstündə durandı. Dostluqda möhkəmdi. Təklif eləyirəm ki, bu badələri Zülfü qardaşımızın şərəfinə qaldıraq.

Qədəhlər bir-birinə vuruldu. Hər kəs süfrəyə əl uzadıb meyli çəkdiyindən götürürdü. İqrar çəkinirdi. Fərid dözməyib bildirdi:

— İqrar, çəkinməyin, çörəyinizi yeyin. Qədəhi öpüb yerə qoymayın. Mən İlqarın xatirini çox istəyirəm. Onu kiçik qardaşım sanıram. İlqarın dostu, elə bizim də dostumuzdu...

İlqar qədəhləri doldurdu. Fərid davam elədi:

— İlqar böyük iş görür. Gəncədə göydələn binaları tikən bu kişidi. Olduqca bacarıqlı və çörəkverən adamdı. Obyektdə nə qədər adam işləyir. Neçə-neçə adamı mənzillə təmin eləyib. Kimsəsiz uşaqlar evini öz xərcinə təmir elətdirib. Hər bayramda onlara paltar alır, ət, meyvə, şirniyyat göndərir. Neçə-neçə imkansızı sevindirir... Bunların sayını xeyli artırmaq olar. Son tikəsini adamlardan əsirgəmir. Sözündə qətidi, prinsipialdı. Çox namuslu oğlandı. Atası Tuğay kişini atam qədər istəyirəm. Çünki belə oğul tərbiyə eləyib. Adamlar tanıyıram ki, güc-bəlayla dolanır, ancaq özünü elə aparır, guya şəhərdə bundan savayı kişi yoxdu. Böyük yük maşınları hərəkət eləyən küçəyə sığmır. Hansı ki, imkanda İlqarın ayağının altı da deyil. Ancaq bununla





belə şəxsən mən İlqardan incimişəm.

İlqar təəccübləndi. Fərid gülümsünüb sözünə davam elədi:

— Bu yaxında özünə xeyir iş eləmisən. Məni toya çığırmamısan. Səni başa düşürəm. Sən olduqca diqqətlisən. Hər şeyin yerini bilənsən. Xahişim budur ki, məni toyuna çağırmamısan, heç olmasa, gələcəkdə oğlunun xeyir işində unutmayasan.

Hamı gülüşdü. Zülfü bildirdi:

— Təki xeyir iş olsun, unutmaz.

Fərid:

— Qardaş, sənin şərəfinə. Sən ləyaqəti, şərəfi özündə olan adamsan.

İlqar:

— Təşəkkür eləyirəm.

Qədəhlər boşalıb yenidən dolurdu. İlqar söz demək istəyirdi ki, Fərid saxladı:

— Bu sağlığı da deyim, sonrakını sən deyərsən. Mən bu qədəhi də İqrarın sağlığına qaldırıram. Onunla ilk tanışlığımızdı. Atalar deyib: "Yoldaşını göstər, kim olduğunu deyim". İnanıram ki, İlqarın dostu da İlqar xasiyyətdə adam olar. İqrarın sifətindən kişilik, mərdlik yağır. Zəhmət adamıdı. Üz cizgilərindən, gözlərinin dərinliklərindən görünür ki, əzab-əziyyətləri çox olub. O, insanlardan etibarsızlıq, dəyanətsizlik görüb. Adamlara inamı azalıb. Mən falçılıq eləmirəm, müşahidələrimdən danışıram. Tələsmə, həyat səni bişirir, hər şey yaxşı olacaq. Bu qədəhləri də qaldıraq İqrarın sağlığına...

Qədəhlər vuruldu. Fərid axıra qədər içdi.

Sonuncu tostu İlqar deməli oldu:

— Əvvəla, qonağımıza mən də can sağlığı, xoşbəxtlik diləyirəm. Mən sevinirəm ki, bu gün dostlarım sırasında hörmətli Zülfü qardaşımız da var. Bunun üçün Allahıma şükürlər diləyirəm...

Fərid qardaşım barəmdə o qədər xoş sözlər dedi ki, qəlbim

fərəh hissiylə doldu. Niyə? Mən yaxşı bilirəm ki, Fərid adamları yaxşı tanıyır. Müşahidələri itidi. Hər kəsə, layiq olduğu yeri göstərməyi bacarır. Fərid neçə vaxtdı ki, bizim şəhərdə prokuror işləyir. Böyük adamları kiçik, sadə adamlar çox yaxşı görürlər. Onun pisini də, yaxşısını da ayıra bilirlər. Fərid hər şeydən əvvəl namuslu adamdı, vicdanı təmizdi. Heç kəs bu kişi barəsində başqa söz deyə bilməz. Qabaqlar şəhəri dağıdırdılar. Onların hamısının əl-qolunu yığıb. Simasız adamların çoxu şəhərdən çıxıb qaçıb. Kriminogen vəziyyət yarıbayarı azalıb. İnsanları yaxşı tanıdığından düz dəyərləndirir... Çox danışmaq olar Fərid müəllim barədə. — Mən qardaşımın, böyüyümün, məsləhətçimin özünün, ailəsinin şərəfinə badə qaldırmaq istəyirəm. Fəxr eləyirəm ki, Fərid mənə “qardaşım” deyir. Siz də mənə qardaş kimi etibar eləyə bilərsiz. Sağ olun!

Axşama az qalırdı. Soyuq düşürdü. Qəflətən göyün üzünü qara, boz buludlar aldı. Göy gurladı, ildırım çaxdı. Çox çəkmədi ki, ağ leysan yağmağa başladı. Dağlardan, dərələrdən qopan gurultu adamın canına vahimə salır. Bayaqdan yağışı müşahidə eləyən Zülfi bildirdi:

— Əla! Çoxdandı belə yağış görməmişdim. Bu da təbiətin möcüzəsidi.

Fərid gülümsündü:

— Qardaş, həmişə deyirik, gəlmirsiz. Buyurun, gözümüz üstə yeriniz var.

İlqar:

— Görüşümüz təsadüfi oldu. Güman eləyirəm ki, bizim tərəflərə təşrif buyuranda bizi də unutmazsız.

Zülfü:

— Qətiyyən.

İlqar:

— İstərdim bir məsələyə aydınlıq gətirəsiniz.

— Fərid də, Zülfü də İlqarın üzünə baxdılar. O, davam elədi.





— Mənim yaxın qohumum var. Doqquz il bundan əvvəl səkkiz il müddətinə azadlıqdan məhrum olub. Yatıb gəlib.

Fərid:

— Nə üstə tutulub?

— Guya narkotik maddə alveri eləyib. Təkrar eləyirəm ki, guya.

Zülfi:

— Demək istəyirsiz ki, şərlənib?

İlqar:

— Bəli!

Fərid:

— Müstəntiq kim olub?

İlqar:

— Gərək ki, Bilal Xatazadə. Biz kimdənsə şikayət eləmək niyyətində deyilik. Bilirəm ki...

Zülfü:

— Narkotika. Bu, bir az... Güc vurarıq. Lazım gəlsə, gərək Fərid müəllim də mənə kömək eləsin.

İlqar:

— Mən hər ikinizdən umuram. Təsəvvür eləyin, o xeyirxahlığı mənə eləyirsiniz.

Fərid:

— Danışdıq.

İlqar:

— Deməli, mən sizi gözləyəcəm.

Zülfü:

— Oldu.

Onlar yeyib-içib süfrədən qalxanda axşama lap az qalırdı. Fərid bildirdi.

— İlqar, siz qabağa düşürsüz, biz?

İlqar:

— Siz.

Fərid:

— Özüm telefon açacam.

Onlar dal-qabaq yola düşdülər. Bir həftə keçər-keçməz Fərid İlqara telefon açıb yanına çağırdı. İqrarın sənədlərini aldılar. Özündən xəbərsiz adından ərizə yazdırıb əlavə materiallar hazırlayıb yuxarılara göndərdilər.

* *
*

Dərdi-sərini götürüb qaçmağa yer axtaran İqrarın ürəyindən elə bil daş asılmışdı. Çox-çox sonralar kabinetində İlqar ona deyəndə ki, maşın qəzası nəticəsində Şər Müzəffərin yaralanması, onun iki şərikinin ölümü ilə bağlı müstəntiq Pərvin Namazov gəlmişdi, yola saldım, getdi, İqrarı dəhşət bürüdü. O, xeyli fikrə getdi. Əvvəl-əvvəl nə deyəcəyini bilmədi. Handan-hana özünə gəlib dedi:

— Qardaşım, sən çox ciddi səhv elədiyini anlayırsanmı? Axı mən sənə dəfələrlə dedim, yalvardım ki, sən cinayət törədə bilacək adam deyilsən. Onun üçün təcrübə lazımdı. Başa düşürsən, təcrübə! Müstəntiq Pərvin Namazov axmaq adamdı. Onda kişilik sifəti görmürəm. O, bu cinayəti ört-basdır eləyəcək o vaxta qədər ki, ayağın yenidən sürüşsün. Onda bu zir-zibilləri də qaldıracaq.

— Onu məhv eləyərəm.

— Yox, eləyə bilməzsən. O, aldığı rüşvətə görə hələlik susur. O, tülküdən də hiyləgərdi. Əmindi ki, Şər Müzəffəri sən duyuq salmısan. Ona görə iki nəfər qətlə yetirilib. Bu çirkin niyyətindən çətin ki, əl çəkəsən. Şübhə eləmirəm ki, bu işə bir də girişəcəksən. Yeni cinayət törədəcəksən. O da çözələnəcək. Belə olduğu halda, sən onun əsirinə çevriləcəksən, o, bir müddət keçəcək, yenə səndən pul qoparmağa gələcək. Əks halda





sirrini başqalarına sızdıracaq.

— Sən nə danışırsan, İqrar.

— Bəli! Mənim küt başımla qandığım budur. Bu həyatın o qədər müəmmalı sualları var, adam onların hamısından baş aça bilmir. İlişir, özünü daha cəncəl, qəliz işlərin ağuşuna atır. İlqar, bir anlığa təsəvvür eləyək ki, sən mənim sirrimi cikinə-bikinə qədər bilirsənsə, mən də bundan agahamsa, sənin məni təqib elədiyini düşünürəmsə və bu sirrimi nə vaxtsa açacağını zənn edirəmsə, deməli, daim qorxu içərisində yaşayacağam, özümü səndən xilas eləmək üçün yüz cür bəhanələr, fırıldaqlar axtaracam, səndən faydalanmaq üçün hər cür alçaqlıqlara əl atacam. Əlim hər şeydən qırılanda, gümanım boşa çıxanda sənə bacardığım pisliyi eləyəcəm. Bu, həyatda milyon dəfələrlə sınanılmış riyazi düsturdur. Bu düsturunsa, isbata ehtiyacı yoxdur. Bu hal harın məmurun da, ac-yalavac kəslərin də başına gəlir. Oturduğun yerdə başına iş açmısan. Gözləyək. Budu gördün, müstəntiq Namazov kabinetin qapısını döyür, ya da katibəyə deyir: rəisə de ki, müstəntiq Namazov gəlib, səni görmək istəyir. Ola bilər ki, qapını açıb özü icazəsiz, filansız içəri keçsin, səndən xərclik istəsin. Bir-iki dəfə verəcəksən. O, şirnikəcək. Çirkin əməllərini daha da inkişaf etdirməli olacaq. Əsəb hüceyrələrini hərəkətə gətirən sinirlərin onda davam gətirməyəcək, partlayış baş verəcək. Əsəblərin gərgindisə, partlayış tez olacaq, yox, möhkəmdisə bir qədər gec. Türmədə belə şeyə insan ovu deyirlər. Nə fərqi var. Oğurlayıb aldın, ya alıb oğurladın. Hər ikisi pul niyyətiylə baş verir. Turacı, kəkliyi, ya canavarı, ayını, şiri ovlamaq çətindi. İnsanı ovlamaq çox asandı. Bilirsən niyə? Çünki insan sadəlövhlüyündən özü çox zaman tora gəlir... Sən də özünü tora salmısan. Bunları deməklə səni həyəcanlandırmaq, qorxutmaq fikrində deyiləm. Sadəcə ayıq-sayıq salmaq istəyirəm.

— Belə çıxır ki...

— Mən o müstəntiqi görəndə, nədənsə iblis yadıma düşür.

İnanıram ki, nə vaxtsa, ondan bizə zərbə dəyəcək. İndi anlayıram ki, bizim bu şəhərdə iki başlıca düşmənimiz var: Şər Müzəffər və müstəntiq Pərvin Namazov. O, əclaf yaxşı bilir ki, nə vaxtsa, ayılacaqsan. Ayılmasan da, özü ayıldacaq. Buna arxayın ola bilərsən. Hələlik onu ayıq salmaq da olmaz. Təəssüf eləyirəm ki, hazırda o, sənin həndəvərində dövrə vurur. Onu bilən kimi, səni dərdi-sər götürəcək, yediyin-içdiyin zəhərə dönəcək. Onda da addımbaşı səhv addımlar atacaq, başına olmazın bəlalar açacaqsan. Qorxu, həyəcan, təşviş, vahimə içərisində yaşatmalı olacaqsan. Belə olanda sənin gündüzün gecəndən də qatı zülmətə çevriləcək. Hissin, duyğun bulaşacaq. Beynin kilidlənəcək, düşüncələrin qarışacaq. Əlacsız qalsan, ya gedib özünü onlara təslim eləməlisən, ya da intihar yolunu tutmalısan. Bu isə dəhşətdi. Ən ağır zərbə bizə bundan gələcək. Fikirləş qərarını de...

İlqar fikrə getdi. Sonra bir şey olmamış kimi gülümsündü:

— Çox şişirdirsən, İqrar. O, elə qələt eləyə bilməz. İnan onu da, özümü də məhv eləyərəm.

— Yenə səhv düşünürsən. Mənə elə gəlir ki, dünyanın ən güclü məktəbi türmədi. İstərdim ki, hüquqşünas olmaq istəyən adamlar heç olmasa, beş il, on il türmə həyatı keçsinlər. Ordakı həyat təcrübəsini qazansınlar. Bilsinlər, insan nədi, qanun nədi, cəza nədi. Əks təqdirdə onların taleyini dərk eləyə bilməzlər.

İlqar özünü saxlaya bilməyib əlini-əlinə vurub uğundu:

— Eh... Mənim fanatik qardaşım. Deyirsən, hüquqşünaslar təcrübəni türmə həyatı keçirməklə qazansınlar? Ayə, vallah, bu fikrə dünyanın ən böyük mükafatı düşür...

İlqar, türmə həyatı çox əzablıdı. Oranı təriflmək istəmirəm. Ora da insanlar üçündü. Ağıllı adamlar ordan çox şey götürürlər. Ağıldan kəmlər üçün orda baş verənlərin heç bir mənası yoxdu. Orda dünyanı idarə eləməyə qabil çox hazırcavab, hər şeyə əlac tapan, tükü-tükdən seçən, hər cür hörmətə, ehtirama layiq adamlar var. Belələri dünya siyasətini çox gözəl, səlis, aydın





təhlil eləyirlər. Əvvəlcədən öz sözlərini deyirlər. Bir müddət keçir, hər şey onlar deyən kimi olur. Onların ağlını dəyərləndirirəm. Mənim dediklərim düşüncələrimin mücərrəd dəlilləridi. Bu dediklərim türmədəki təcrübədən gələn səslərdi, qardaş. Sən mənə inana da bilərsən, inanmaya da. Mən olduqca realist bir adamam. Həyatda hər şeyi olduğu kimi görmək istəyirəm. Türmədə addımbaşı müstəntiqlərin tovlayıb aldatdıqları adamları görməsəydim, nə belə düşünə bilərdim, nə də sənə o sözləri deyərdim. Gələcəkdə sənin həyatına atılan daşlardan qorxuram, əclaflar səni aldadalar. Məndən incimə, yeri gəlib deyəcəm, səndə özünəheyranlıq, valehlik duyğusu var. Xatırladım ki, bu, çox pis şeydi. Özündənrazılıqdı. Bu, təkəbbür xəstəliyinə qapıları taybatay açmaqdı. Bunu səndə görmək istəməzdim. Sözlərimə gülməyin də ona sübutdu. Bu, böyük qəbahətdi. Ona görə də belə yabançı, insanı hörmət və ləyaqətdən salan hisslərin səndə baş qaldırmasını istəməzdim. Mənim arzum odur ki, bu nadandan, dələduzdan uzaqda dayanasan. Belə yaramazlar gələcəkdə sənin başına olmazın bəlalar aça bilər. Fikirləşirəm ki, bu gün biz onun barəsində tədbir görməsək, onu aradan götürməsək, ondan uzaqlaşmasaq, o iti caynaqlarını nə vaxtsa boğazımıza keçirəcək, bizi məhv eləyəcək. Sən mənim kimi düşünməyə də bilərsən. Hətta, "İqrar çərənləyir", "İqrar başını itirib", "İqrar boş-boş danışır, səfehləyir" deyə məni ələ də sala bilərsən. Səni inandırıram ki, mübarizədə bu cür mövqe sənə heç bir şey verməyəcək.

— İqrar, mən səni çox istəyirəm, qardaş. Sənə canımı da verməyə hazıram. Məni ayılmağa, səhvlərdən qaçmağa sövq eləyirsən. Bunun üçün sənə ancaq təşəkkür eləyə bilərəm.

— İnsanın qəribə düşüncə tərzi var: bəzən elə vecsiz, elə məntiqsiz şeylərə inanır ki, sonralar özü də bu işə məəttəl qalır. Yalanlara, yanlışlara elə həqiqət donu biçirlər, düşünürsən, bu insanın ağlı varmı? Yalanlar ağuşunda özünə rahatlıq tapanlar

yanlışlarını özünün əqidəsi səviyyəsinə qaldırırlar. Mənasız fikirlər içində azad, sərbəst nəfəs alırlar... Beləlsəri barədə düşünəndə dəhşətə gəlirəm. Nəinki yalanlar seylabında çimənlərə, hətta, onu dinlədiyim üçün özümə də yazığım gəlir.

Gələcəyi görən ağıllı adamlar, məncə, həyatı düzgün dəyərləndirənlərdi. Baş vermiş hadisələri yüz ölçüb bir biçən soyuq başlardı. Buz kimi ürəklərdi. Belə adamlara, İlqar qibtə eləyirəm. Bəlkə də yan-yörəmizdə beləlsəri çoxdu. Biz bəzən onları seçə, lazımınca dəyərləndirə bilmirik. Unuduruq ki, beləlsəri çox həssas, hadisələri qabaqlayan, münasibətlər arasında iti məntiqi əlaqələr yaratmağı bacaranlardı. Kaş sənin hissə qapılmaların olmayaydı. Düşündüklərini saf-çürük eləmədən, yaxşını pisdən ayırmadan tələskənlik eləyib iş görməyəydin. O, nə vaxtsa, işimizi korlayacaq. Tam əminəm ki, sən o işi görəndə illüziya içərisində olmusan. Ağlının itiliyinə, cavanlığına, gücünə inanmısan. Unutmusan ki, Şər Müzəffərdən çox özün öz əleyhinə işləyirsən. Şər Müzəffəri ayıltmısan. Onu da düşünürəm ki, müstəntiq Pərvin Namazova Şər Müzəffər özü sənin adını verib. Ola bilməz ki, onu sıxışdıran, qəzaya uğradan maşının sənə məxsus olduğunu Müzəffər bilməsin və müstəntiqə məlumat verməsin. Nəticədə Şər Müzəffər salamat qaldı, günahsız iki nəfər həlak oldu. Bizimsə niyyətimiz heç nədən faş oldu. Bu, lazım deyildi.

— Bəlkə də hər şey sən deyən kimidi, bəlkə də yox!

— Elə şübhələr var ki, adamın içini yeyir, onu dəli-sərgərdan eləyir. Eləlsəri də var, adamı ayıldır, düşünməyə vadar eləyir, həqiqəti üzə çıxarmağa yollar açır. Məncə, ikinci təfəkkürün məntiqi düşüncənin çevikliyinin əlamətidir. Onlar insanın zinəti, yaşam təsəllisidir.

Qəza barədə müstəntiq səndən izahat istəsə, yəqin ki, yalan danışmalı olacaqsan. Hiyləyə əl atacaqsan. Çünki hiyləgərlik yalanın mahiyyətindədi. O, açılanda adam tələyə düşür. Tələyə düşəndə isə tələdən qurtara bilmirsən. Əvvəl dediyin yalanlara





sonrakılardan sipər çəkməli olursan. Nəticədə nə özünü, nə də dediyin yalanları pərdələyə bilirsən. Axırda da miskin, biyabırçı vəziyyətə düşürsən.Mən bunu istəməzdim. Doğrudu, yalanla yaşadığımız, bu azad sandığımız həyata o qədər açıq münasibət bildirilmir. Uzaqbaşı adamlar səndən üz çevirib gedirlər. Türmədə isə yalan dərəcəsindən asılı olaraq, qol-qıçların, bəzən dilin kəsilməsilə, gözün çıxarılmasıyla, bəzən də ölümlə nəticələnir.

— Burda elə bir qorxulu şey yoxdu. İqrar, uzaqbaşı deyərəm ki, mən də həmin yolla hərəkət eləmişəm. Ona toxunmamışam, bir kəlmə də söz deməmişəm. O, sükan arxasında yuxulayıb üstümə gəlirdi. Mən siqnal verdim, o diksinib çaşdı, maşını yolun kənarına çəkmək istədi. Böyük sürətlə gəldiyindən Şər Müzəffər maşını yoldan çıxartdı. Maşın aşdı. Münasibətimiz olmadığına görə ona kömək də eləmədim. Əcəb eləmişəm. Kaş, Şər Müzəffər də öləydi. Kim mənə nə deyə bilər? Müstəntiq Pərvin Namazovun da gözlərini çıxararam. Namazov bilir ki, onu sistemdən qovdura bilərəm. Ona görə də o, nə mənim yanıma gələcək, nə də məndən əlavə xərclik istəyəcək, arxeyin ola bilərsən. Qaldı sənin dediklərinə. Onları qəbul eləyirəm. Gərək Şər Müzəffəri duyuq salmayaydım. Bunu da bil ki, mənim qanımı tökdürən Şər Müzəffər öz əcəliylə ölməməlidi.

Cəsarəti, prinsipiallığı İqrarın ürəyindən olsa da, istəmirdi ki, dostu bu çirkin işə girişsin, adı orda-burda hallansın, kiminsə qarşısında izahat versin, son anda gedib türməyə düşsün. Özözünə dedi: — İlqar çirkaba bulaşmamağın naminə, mən sənin bütün cinayətlərini üzərimə götürməyə hazıram. Sən türmə adamı deyilsən, ordakı təzyiqlərə dözməzsən. Çox dəliqanlısan, hövsələsizsən...

*     *
*

Yeni bir əxlaqsızlıq yuvasında məskunlaşan, yüngül həyatın qaydalarına can-başla riayət eləyən Gilan "əqidə, məslək" dostlarını son vaxtlar tez-tez xatırlayır, şirin xatirələri beynində çözələyirdi. Hərdənbir İqrar gəlib gözləri önündə dayanırdı. Qardaşına vurduğu ruhi yaraların, çalın-çarpaz dağların heç vaxt sağalmayacağını düşünürdü. Belə olanda qəlbinin pünhan guşələrində özünə yer eləyən duyğularının cızzağı çıxırdı. Onda qollarını açıb qardaşının boynuna dolamaq, üz-gözünü yalamaq, anasının ətrini ondan almaq istəyirdi. Qəhərlənirdi, kövrəlirdi Gilan. Gözlərindən sel kimi yaş axıdırdı. Dərdini açmağa adam axtarırdı. Bilirdi ki, bu yeni əxlaqsızlıq yuvasında ona ürəkdən yanan yoxdu. Ona hər kəs istifadəyə görə yanaşır, diqqət göstərir, "can" deyir. Bezdirmişdi onu bu boğazdan yuxarı, ürək bulandıran, zəhlətökən "canlar". Kimə nə deyəydi, özü öz ayağıyla, öz istəyilə ayaq açmışdı bura. İndi geriyə yolu yoxdu. Axı hara gedəydi? Yeganə ümidi Əlməmmədə gəlirdi. Onun yalanlarından bəzən təsəlli tapırdı. Rəfiqələri o qədər də etibar olunası adamlar deyildilər. Deyinirdi, donquldanırdı, odlanırdı özünün ağılsız hərəkətlərinə. Oturub-durub söyürdü Şər Müzəffəri... Bilal Xatazadəni... Ağasəf Şükürlünü... Kimləri... Kimləri... Ancaq nə fayda?! Gedən gedib... Olan olub... Geri qayıdacaq bir şey yoxdu. Bircə əlacı qalır. Özünü... Nəhayətsiz dəryada qərq olacaq, boğulacaq anları gözləmək... Yaxındadımı, uzaqdadımı — bilmirdi. Gilan axır ki, qərara gəldi: qardaşına ürəyindəkilərini açmaq! Qunduzu yuxuya verib gecə İqrara belə bir məktub yazdı:

"Salam, qardaş! Bilirəm, məktubumu alıb təəccüblənəcəksən. Yalvarıram sənə, and verirəm anamızın ruhuna oxumadan cırıb atma. Qardaş, sənə sevgim böyükdü. Səndən ötrü ürəyim titrəyir. Bilirəm ki, səndən qaçmaqla bütün varlığımı, ruhumu itirmişəm, insanlığımı ayaqlamışam. Qadınlıq ləyaqətimə, şərəfimə tüpürmüşəm. Bunları yazmaqla nə yanına qayıtmaq, nə də





ürəyini yumşaltmaq fikrindəyəm. Əsla yox! Həbsindən sonra başımıza gələnləri sənə danışmaq niyyətindəyəm. Düşünürəm ki, başıma bir iş gəlsə, ya tale bizi görüşdürməsə sənin üçün çox şey gizli qalacaq... Barəmdə eşitdiklərinin çoxu yalan-yanlış olacaq. Bunu istəmədiyimdən sənə məktub yazıram. Tam haqqın var ki, mənə bacı deməyəsən. Mən sənə doğrudan da, bacı ola bilmədim. Qardaşım olduğun üçün Allahıma yüz dəfələrlə şükranlıq oxuyuram.

İqrar! Sən həbs olundun. Həmin gündən də Allahın qəzəbinə tuşlandıq. Məni, anamızı, Aytacı müstəntiqin otağına dəvət elədilər. Müstəntiq hər birimizdən izahat aldı. Bizi hədələdi. Narkotik maddə alverində bizim də iştirakımız olduğunu söylədilər. Nə qədər and içdik inanmadılar. İki dəfə anamın ürəyi sıxıldı. Üstünə həkim gəldi. Aytac Əfsuna hamilə olduğu üçün müstəntiq bir az güzəştə getdi. Güzəştin səbəbini sonralar öyrəndim. Hamilə olmasaydı... Aytac yaxşı adamdı. İstəməzdim onu etibarsızlıqda, vəfasızlıqda, sədaqətsizlikdə günahlandırasan, qardaş!.. Müstəntiq məndən əl çəkmədi. Dedi: — "Mən deyəni eləsən, səni də, ananı da, gəlininizi də ilişdirməyəcəm. İstintaqı elə aparacam ki, qardaşın da bir müddət sonra bəraət ala bilsin. Çox dedi bu sözləri mənə. Çox get-gəldən sonra o, məni inandırdı... Razılıq verdim. İstirahət günü məni şəxsi maşınında Hacıkənddəki restorana apardı. Sonralar öyrəndim ki, bu restoran Şər Müzəffərinmiş, o Müzəffər ki, mənim bakirəliyimi əlimdən almışdı. Yedirib-içirəndən sonra istirahət evinə getdik. Əvvəlcədən bir otaq götürübmüş... Mənimlə oldu. Sonralar da əl çəkmədi. Şəhərdə ev tutub (bəlkə də özününkiydi) məni tez-tez ora apardı. İstəyinə nail oldu. O, məni bir neçə dəfə qonaqlarına da ötürdü. Bezmişdim. Onu mərkəzə dəvət elədilər, getdi. İki dəfə ismarıc göndərdi dalımca, getmədim... Razı olmadım. Başıma gələnləri Aytaca, anama danışdım. Kaş deməyəydim. Anamız dərdimə dözmədi. Xəstələndi və bir müddət sonra dün-

yasını dəyişdi. Anamdan az sonra, dəqiq vaxtını deyəmmərəm, unutmuşam, hər axşam qapımız döyüldü. Bizə evdə qalmağa imkan vermədilər. Mənə elə gəlir ki, o da Şər Müzəffərin toxuduğu toruydu. Aytacla belə qərara gəldik ki, o anasıgilə köçsün, mən də yaxın rəfiqəm, sinif yoldaşım Mayagilə. Belə də elədik. Maya pis qız deyildi. Əvvəllər mənə rəğbət bəsləyirdi. Bir gün dedi ki, səni qardaşıma alacam. Əvvəl razı olmadım. Mən başıboş vəziyyətimi ona açıb danışdım. Mənə bir söz demədi. Bir dəfə qardaşının ad günündə özünə də, mənə də şərab süzdü, içdik. Ata-anası birinci, mən, Maya, bir də onun qardaşı Ağasəf ikinci mərtəbədə yatırdıq. Ağasəfin otağı ayrıydı. O, gecə yarı əlində şərab şüşəsi otağımıza gəldi. Həmin şüşəni də boşaltdıq. O, özünü sərxoşluğa vurdu. Mən heç nə başa düşmədim. Oğlan həmin gecə mənə təcavüz elədi. Özümə gəlib işığı yandıranda Mayanı yanımda görmədim. Onda başa düşdüm ki, bu mənim "əziz-xələf" rəfiqəmin qurmasıymış. Səbəbini Mayadan soruşanda utanmadan dedi: "Əşi, nəyin ziyana gedib, bəyəm mənim qardaşım olduqlarından pisdi..." Sözüm olmadı. Hər axşam Ağasəflə Maya yerlərini dəyişirdilər. Xeyli vaxt keçdi. Hamilə oldum. Anası məni aldatdı: "Qızım, uşağı götürdək, sonra yüngülvari toy eləyərik". Mən yenə aldandım. Dediklərini elədim. Ağasəfi əsgərliyə göndərtdirib məni evdən çıxartdılar. Bir qədər sonra eşitdim ki, əsgəri xidmətdə olarkən Ağasəf maşın qəzası nəticəsində həlak olub.

Qardaş! Bir müddət xalamgildə qalası oldum. Orda mənə toxunmurdular. Cəmşid evlənəndən sonra qara günüm başlandı. Gəlin Sənanə məni ərinə qısqandı. Ordan da getməli oldum. Qalmağa yerim yox! Yemək-içmək yox! Ayaqqabı, paltar yox... Hamısı bir dərd. Həyatımın fəlakətli günləri. Hara getdim, hərə bir niyyətlə məni qəbul elədi. Özümü öldürməyə gücüm çatmadı. Şərtlərlə razılaşıb əxlaqsızların yuvalarına ayaq açdım... Sən həbsdən qurtarıb gələn ərəfədə də küçəlimiz Əlməmmədlə görüşdüm. Əxlaqsızlığın bütün sirlərinə yiyələnmiş oldum. Gəncədəki taleyim beləydi. Mən səninlə nəinki qarşılaşa, hətta bir şəhərdə qalıb yaşaya bilməzdim. Məni tanıyanlar sənə "oğraş", "namussuz", "bacısı qəhbə", "qeyrətsiz" damğası vuracaqdılar. Papağını yerə soxduğum üçün qanım sənə halaldı. Mən ölümə layiqəm. Ancaq nəzərə al ki, iti öldürüb günaha batmazlar. Gedib həbsxana küncündə oturub can çürütməzlər... Axı sən hansı günahın sahibisən?.. Qardaş, yalvarıram sənə, heç kimlə işin olmasın. Məni bu günə sadəlövhlüyüm, ləyaqətsizlərə inamım saldı. Bakıda üç aydan artıq yaşadım. Görünür, bu da mənim həyatımdı. Sən bu məktubu alanda mən xarici ölkələrdən birində olacam... Ölsəm də, qalsam da geri qayıtmayacağam. Sənə də məsləhət görürəm. Axtarma məni, tapammayacaqsan.

Əlvida, əziz qardaşım İqrar.

*Səni dünyalar qədər sevən və həsrətinlə*
*yaşayan Gilan".*

İqrar məktubu oxuyub hönkür-hönkür ağladı. İstədi bıçağı götürüb ürəyinə sancsın. Həyatına son qoysun. Yatağındakı bıçağa çatanda hansı qüvvənin təsiriylə fikrindən döndü. Bir az əvvəl düşündüklərinin üzərinə qayıtdı. Qəti qərarını təsdiqlədi: Şər Müzəffər ya sən, ya da mən!

* *
*

İqrarın gözlərinə sanki qatı duman çökürdü. Duman qatılaşdıqca ürəyi sıxılır, nəfəsi təngişirdi. Şüurunda tutqunluq, düşüncələrində donuqluq yaranırdı. Dumana, çənə bürünmüş halda, boz-bulanıq təsəvvürlər içərisində anlamağa başlayırdı ki, həyat belə davam eləyə bilməz. Gilan bu şəhərdən qaçıb getməklə canını qurtarmır, əksinə, özünü daha böyük fəlakətə yaxınlaşdır-

maqdadı və bu fəlakət onun bütün istəklərinə, arzularına son qoymaq iqtidarındadı. Gilan müsibətlərə məhkumdu.

Hər dəfə həbsindən qabaqkı illəri yadına salanda, üstünü qübar almış analı, bacılı günlərinin xoş xatirələri indi ona zəhərdən də acı təsir bağışlayırdı. Beyninə səpələnən ayrı-ayrı nöqtələr arasında zərif rabitələr yaradan düşüncələri, ətrafda cərəyan eləyən hadisələr bəzən gözləri önündə gah parlayır, gah da əriyirdi. Heçliyə, boşluğa dönürdü. İqrar təlatümlü düşüncə dənizində boğulurdu. İçində ümidsizlik dərinləşir, əlləri hər tərəfdən üzülmək həddinə gəlir, özünə, ətrafdakı adamlara, hətta, yaxınlarına, doğmalarına inamsızlıq güclənir, insanlara nifrət qığılcımları alova çevrilirdi. Hər dəfə məktubu oxuyarkən sözlər üzərində demək olar ki, yalnız baxışları gəzirdi. Əsəbiləşdikcə sözlərin məzmununu bəzən başa düşmür, faktları, epizodları unudur, qarışdırır, özünü ələ alıb baş verənlərə aydınlıq gətirmək istəyində kələfi dolaşdırır, hissiyatı donurdu. Belə hallarda həyəcandan, təşvişdən özündə olmurdu. Ölü bir varlığa çevrilirdi. Elə hey düşünürdü ki, bacısı mənliyini, şəxsiyyətini çirkin ayaqlar altında xışdayır.

Həcmcə nə qədər kiçik olsa da hər dəfə məktubu oxuyanda İqrar orda yazılanları bir cürə mənalandırırdı və belə qənaətə gəlirdi ki, orda yük daşımayan boş, mənasız cümlələr, gərəksiz fikirlər, təmtəraqlı ifadələr, artıq sözlər yoxdur. Başına gələnləri, intim duyğuları elə aludəliklə, elə həssaslıqla şərh eləyir ki, guya əxlaqı pozğunluq adi məsələdi. Guya İqrar da bunun üçün bacısını alqışlamalıydı. Qəribədi. Necə də gülünc, utanc gətirən bir məktub: “Filankəs belə elədi”, “O birisi də elə elədi”, “Mən günahsızam, filankəslər günahkardı” — deməklə, namussuzluq ləkəsini yumaq olarmı?.. Əslində, məsələnin çözələnməsində İqrar da maraqlıydı. O, baş verənləri şişirtmədən, dəqiqliyilə öyrənmək istəyirdi. Düşmənlərini tanımaq arzusundaydı. O, bilirdi ki, gec-tez hər şey açılacaq, ağ süddən də ağ olacaq... Ancaq İqrar yan-yörəsindən heç nə eşitmək istəmirdi. Kiməsə nəsə çatdırmaq fikrində deyildi. Onun qənaəti beləydi: hadisənin səbəbkarlarının üzə çıxması marağında olduğunu büruzə verməmək, mümkün qədər özünü kənarda saxlamaq, deyilənləri guya qulaq ardına vurmaq; heç kəsin yanında kimsə barədə söz danışmamaq; adamlarla münasibətləri istiləşdirmək; tutduqları hərəkətlərindən xəbərsizliyini düşmənlərinə çalışıb inandırmaq; kədərlərinə acımaq, sevinclərinə şərik çıxmaq; kənarda dayanıb əlverişli məqam və məkan seçməklə nəzarət imkanlarını genişləndirmək...

Düşüncələr içərisində vurnuxan İqrar anlayırdı ki, bacısı onun qorxusundan bu şəhərdən getmişdi. O, bəlkə də, qardaşının bəzi günahlara batmasından, başqa sözlə, cinayət törədə biləcəyindən ehtiyatlanmışdı. İqrar çox şeydən hələ ki, uzaqdadı. Bir anlığa Gilan İqrarın gözləri önündə canlandı. O, bir şeydə özünə təskinlik tapırdı: əlləri doğma bacısının qanına batmayıb; ata-anasının ruhlarını incitməyib; el içində rüsvay olacaq söz-söhbətdən uzaqdı; törədəcəyi cinayətin üstü açılsa, bacısının əxlaqsız, mənəviyyatsız ruhunu ittiham predmetinə çevirməyəcək... Bunlar ötəri rahatlıq gətirsə də, İqrar onu da bilirdi ki, bacısı harda qərar tutsa, orda da dinc durmayacaq, özünün nacins, natəmiz əməllərini daha da inkişaf etdirəcək. Bu düşüncələr İqrarı miskin vəziyyətə salırdı. İqrara çox az şey aydın idi. Ancaq Gilanla söhbətə oturmağı, hər şeyi ayırd eləməyi, açıbağartmağı qüruruna sığışdırmırdı. Bunu özü üçün ölümdən də betər sanırdı. Getdikcə dərinləşən, beynində xaos yaradan bu qarmaqarışıq, yöndəmsiz fikirlər onda Müzəffərə də, elə bacısı Gilana da, Gilanla əlaqədə olan adamlara da nifrət hissini artırırdı. Hadisələr elə bir məqama yetişmişdi ki, İqrar az qala insanlardan üz çevirməyə hazırıydı. Müzəffərdən intiqamını almamışdı. Ancaq onu da anlayırdı ki, bacısının yaşamağa haqqı yoxdu. Bundan sonra o, daha xəcalətli işlər törədəcək. Ya həbs olu-

nacaq, ya da kiminsə tərəfindən öldürüləcək. Başqa cür ola bilməz. Cinayətin toru çoxkeçidli, çoxilgəklidi. O tora düşdünsə, çabalayacaqsan, çabaladıqca da düyünlənəcək, çarpaşıq düşəcək... İqrarın beynində doğan bu qaraguruh fikirlər toparlandıqca Gilanın başı üzərində qara bulud laylarından qalın bir təbəqə əmələ gəlirdi. Gah da hərdənbir doğmalıq, qan hissi bulud dağıdan top atəşinin qəlpələri tək təbəqədə seziləcək çalın-çarpaz çatlar, bəzən də dərin yarğanlar yaradırdı. Bunların hamısından xəbərsiz Gilan rəfiqələrinin, "dostlarının" təsiriylə özünün xəyal dünyasında var-gəl eləyirdi. Ona elə gəlirdi ki, qaçıb yuvasını dəyişməklə onun əməllərindən nə xəbər tutan olacaq, nə də onu əxlaqsızlar yuvasından bir dəfəlik yox eləyən. O, heç cürə anlamırdı ki, "cidanı çuvalda gizləmək olmaz". Nə vaxtsa, hər şey açılıb, süddən ağ olacaq. Nə qədər kədərli də olsa, tarix acı həqiqətlərlə doludu. Onu anlamaqçün, qanmaqçün gərək ağlın ola. Ləyaqət, şərəf, namus itirildisə, ya alındısa, özünü öldürsən də, onları geri qaytara bilməyəcəksən.

Gərginləşən hadisələr İqrarın xarakterindəki kobud cizgiləri dərinləşdirirdi. Düşüncələrini arzuolunmaz bir məcraya yönəldirdi. Hərdən Gilanın Bakıda olması barədə dumanlı xəbərlər də eşidirdi. Onun daha da azğınlaşdığından danışılırdı. Bunların heç biri şayiə deyildi. Gilan sarıdan təngə gələrək, İqrarın nə vaxtsa, faciə törədəcəyindən qorxan Mirvari əmisi qızını xilas eləyə biləcək bütün imkanlarını itirmişdi. Hissiyyatı Mirvariyə onu da pıçıldayırdı ki, harda olmasından asılı olmayaraq, Gilanın başında qan çanağı var, o nə vaxtsa partlayacaq və İqrarı qanda boğacaq. Mirvari düşündü: neyləməli? Ar-namusunu itirmiş, azğın ehtiraslarının quluna çevrilmiş qadını yola gətirmək, düşdüyü çirkabdan çəkib çıxarmaq nə qədər müşkül məsələymiş... Birinin nadan əməlləri başqalarını da fəlakətə sürükləyir... Axı bəs "Allah" dediyimiz o qüdrət hara baxır? Niyə mərd namərd ağuşunda can verməlidi? Niyə haqq nahaqqda boğulmalıdı? Bu-





mudur həqiqət?! Belə mi olur ədalət?! Həmişə nahaq libasına bürünüb haqq axtarışında oluruq. Tapırıqmı? Yox! Çünki haqla nahaq əkslikdi. Həmişə Allahın səbrinə sığınıb təsəlli tapmalı oluruq. Budur insanın siqləti!

* *
*

Qunduzun hərraca qoyduğu Gilan getdikcə aldandığını başa düşür, Bakıya gəlişinin peşmanlığını çəkirdi. O, evdə oturub olub-keçənlər barədə düşünürdü: Zərnigar xalanın, Mirvarinin məsləhətlərini niyə eşitmədim? Əlməmmədin sözünə niyə inandım? O, nə üçün məni aldadıb elimdən obamdan uzaqlaşdırdı? Doğrudanmı, o da İqrardan qorxurdu? Həqiqətənmi Əlməmməd özü-özünü asıb? Yoxsa, məcbur eləyiblər onu intihara? İqrardan qaçmasaydım, onunla gedib görüşsəydim, həqiqətən qardaşım məni öldürməzdimi? İndi Qunduzun torundan necə çıxım? O, hər gün məndən alət kimi istifadə eləyir. Qazandıqlarımı əlimdən alıb yarı bölür. Məgər, Əlməmməd bunu tanımırdımı? Məni Qunduzun yanına göndərdiyi üçün bircə dəfə peşmançılıq hissi keçiribmi? Son vaxtlar səsimi kəsmək üçün məni masajxanaya işə düzəldib. Bura işə düzələndə elə bilirdim ki, vəziyyətim düzələcək. Əməyimlə pul qazanacam. Mən zavallı hardan biləydim ki, masajxanalar da qadın alqı-satqısı üçün nəzərdə tutulubmuş... Gündə neçə kişini masaj eləmək olar? Hamısıyla görüşüb, yüksək səviyyədə yola salmaq. Onlardan qopardıqlarımın bir hissəsini sahibkara vermək, bir hissəsilə Qunduzun ev kirayəsini ödəmək, yerdə qalanını isə gündəlik xərcinə sərf eləmək. Eldar, Həmzə, Qunduz kimlər imiş, İlahi!? Fırıldaqçılar, əxlaq düşkünləri, mənəviyyat satqınları! Deyirlər ki, xaricə getmək əladır. Yəqin ki, ora da belədi. Gəncəyə necə qayıdım? Qayıdıb kimə nə deyim? Necə deyim ki, getdim, ordada özümə yer ta-

pammadım. Qayıdıb üstünüzə gəlmişəm. Lap tutalım qayıtdım. Mənə kim yaxın durar? Heç kim. Mən dünyanın bədbəxtiyəm. Kimsədən küsməyə, kimsədən inciməyə haqqım yoxdu. İndi neyləməli? Azdan-çoxdan əlimdə olanları da verib xaricə gedimmi? Lap getdim. Neyləyəcəm? İngilis, alman, fransız, ərəb kişilərinin əllərində oyuncağamı çevriləcəm?! Mən hər şeyimi itirmişəm, məhv olmuşam. Nə olsun ki, nəfəsim gedib-gəlir? Nə olsun ki, ayaq üstə gəzirəm? Bu yaşamaqdımı? Yox! Meşədə çaqqal da, canavar da, meymun da, ayı da yaşayır. Heyvanların da insanlar kimi yaşam tərzi var. Mən bütün insani hisslərini, əqidəsini itirmiş bir canlıyam. Özümü elə bir vəziyyətə salmışam ki, nə heyvanam, nə insan!.. Mən nə ölüyəm, nə diri... Arzum, istəyim, sevgim, xəyalım var, hissim, duyğum, düşüncələrim var. Belə çıxır ki, bəşər övladıyam. Ancaq özüm də özümə inanmıram. Heyvanlar instinktlə yaşayışlarını təmin eləyə bilirlər. Bəs mən niyə hər şeydən məhrumam? Bu yola düşən tək mənəmmi? Görürəm yox, mənim kimilər çoxdu, lap çox. Hamısı da gözləri yaşlı. Məni pozdular, ağlımı, düşüncəmi əlimdən aldılar. Hissiz, duyğusuz bir məxluqa çevirdilər. Nə dedilər, onu elədim. Yaxşıdı, pisdi, fərqinə də varmadım. Çoxları isə bu yola istəkləriylə, arzularıyla atılıblar. Müstəntiq Bilal Xatazadə də, Şər Müzəffər də, atasının kim olduğunu bilməyən Əlməmməd də... Hamısı mənim kimilərdi. Əxlaqsız qadınla mənəviyyatsız kişi arasında bir fərq varmı? Məncə “qadın”, “kişi” anlamları da şərtidi. Nə mənim kimilərə qadın, nə də onlara kişi demək olar! Onlar da insani hisslərini itirmiş əcaiblərdi, çibinlərdi, dünyanın ən iyrənc canlılarıdı. İstəmirəm belə həyat tərzini. Ölmək istəyirəm, neyləyim ki, ölə bilmirəm. Özümü məhv eləməyə də cəsarətim çatmır. Əlməmməd həqiqətən intihar eləyibsə, ona qibtə eləyirəm. Dünən eşitdim ki, bir qadın metroda özünü qatarın altına atıb. Qatar da onu doğrayıb... Suda özünü boğanlar nə böyük ürək sahibidirlər. Çirkin əməllərinə son qoya biliblər. Özlərini də, doğmalarını da ətrafda olanların tənələrindən qurtarıblar. Şərəfləri özlərinə qayıtmasa da, adları təmizlənməsə də, barələrindəki dedi-qodular səngiyəcək... Tanımayanlar onlara saf, təmiz, ləyaqəti, şərəfi özündə olan vicdan sahibləri kimi baxacaqlar... Mən özümü də, nəslimi də məhv elədim, çirkli ayaqlarım altına atıb tapdadım...





Qunduz birdən otağa girib sevinə-sevinə:

— Dur, yığış, gedirik — dedi. — Bu nədi, səni kefsiz görürəm.

— Hara?

— Şüvəlandakı bağa. Həmzə maşınında bizi gözləyir... Bir azdan Eldar müəllim də gələcək.

Gilan sanki üç dəqiqə bundan əvvəlki adam deyildi. Yerindən atıldı. Paltarlarını geyindi. Lazım olanları götürüb aşağı düşdülər. Maşına oturub Şüvəlana getdilər. Qarmaqarışıq, nizamsız salınan bağlar. Necə gəldi bir-birini kəsib keçən adsız küçələr. Dar cığırlar. Zənginlərin böyük həvəs və xərclə ucaltdıqları çoxmərtəbəli villalar. Onların da yan-yörəsində birmərtəbəli alçaq evlər, quş, toyuq hinlərini xatırladan daxmalar. Gilanın bir anlığa daxma sahiblərinə yazığı gəldi. Bu hiss tez də ötdü: “Daxmaları olanlar da bəxtəvərdilər, mənimsə, o da yoxdu...” O, üzünü Qunduza tutub:

— Burda adam azar. Evdən çıxsaq, qayıdıb evi tapammarıq — dedi.

Həmzə:

— Sizi evdən buraxan kimdi ki?

Qunduz:

— Deyirsən, oğurlayıb apararlar.

Həmzə:

— Bəli! Sonra da gəl Gilanı axtar, görüm hardan tapırsan?

Gilan:

— Əşi, mənnən kimin nə işi var?

Həmzə:
— Eh... Burda o qədər təntimiş kişilər var ki...
Qunduz:
— Bəyəm, biz ölmüşük, Gilandan...
Bu vaxt maşın ikimərtəbəli evin böyük darvazasına çatdı. Həmzə tələm-tələsik düşüb darvazanı açdı və maşını həyətə saldı. Təmiz hava adamın ciyərlərinə dolurdu. Gilan dərindən nəfəs aldı. — Buranın nə təmiz havası var, — deyə düşündü. Həyətdə təzəcə tumurcuqlayan armud, alma, çiçəkləyən alça, gilas, ərik ağacları, yarpaqlamaqda olan tənəklər, bağın ətrafında hörülən daş divarın dibindəki yamyaşıl şam, küknar, əncir ağacları göz oxşayırdı. Həmzə evin qapısını açıb bağajdakı zənbilləri içəri daşıdı.
Bağ bellənmədiyindən hər tərəfi ot-ələf basmışdı. Bunu görən Qunduz zarafatla dedi:
— Həmzə, qadan alım, bel, lapatka olsaydı, gəlmişkən bağı da bellərdik.
Gilan gülərək Qunduzun sözünü təsdiqlədi:
— Həm ziyarət, həm ticarət. Molla gəlmişkən...
Həmzə:
— Yamanca dil açmısan ha...
Qunduz:
— Onun günahı Eldardadı. Gələr, deyərik, əl-ayağını yığışdırar, — deyib güldü.
Həmzə:
— Siz göy-göyərtini təmizləyin. Əti, balığı doğrayın. Mən manqalı yandırım. Bağa gələsən, kabab yeməyib gedəsən, bu Allaha, onun bəndəsinə xoş getməz.
Hər şey hazır olandan sonra Həmzə şişləri gözərən manqalın üstünə düzdü. Kababın ətri aləmi bürüdü. Gilanla Qunduz şişlərə tamaşa eləyirdilər. Həmzə qəsdən Qunduzdan soruşdu:
Gilanın Dubaya getmək işi nə oldu?





— Gələn həftə.
— Yəqin ki, bu günləri unutmaz.
— Gilan elə qız deyil.
Gilan:
— Hələ bir gedək çıxaq, sonrasına baxarıq.
Eldar gecikirdi. Həmzə narahat olmağa başladı. Qunduz əlacsız qalıb Eldarın əl telefonuna zəng çaldı. Cavab gəlmədi. İkinci, üçüncü dəfə telefon açdı, yenə danışıq alınmadı. Narahatlıq artmağa başladı. Elə bu vaxt Eldar darvaza qapısını açıb içəri keçdi. Gilan qaçıb onu qucaqlayıb öpdü. Eldar həyətdəki rəngbərəng çiçəkləri görcək cibindəki balaca qatlama bıçağını çıxarıb gülləri dərməyə başladı. İki dəstə bağlayıb birini Qunduza, o birisini Gilana verdi.
Qunduz:
— Niyə gecikirdin? Narahat olduq. Zəng çalırıq, telefonu götürmürsən.
— Telefon işdə qalıb. Yolda maşın şuluqluq elədi, qadası.
Gilan gül dəstəsini iylədi.
— Nə gözəl ətri var.
Həmzə:
— Bəs nə bilmişdin? Görün onu kim əkib-becərib.
Qunduz:
— Özünü tərifləmə. Eldar olmasaydı, bizə gül dərmək ağlına da gəlməzdi.
Həmzə:
— Əvvəla, özünüz gülsüz. Gülə gül vermək, məncə, ədalətsizlikdi. İkincisi, bəyəm kabab bişirmək gül dərməkdən az əhəmiyyətlidi?
Gilan:
— Az danış... Kababı yandıracaqsan. Sonra Qunduzun davasına dözəmməzsən...
Həmzə kababları süfrəyə gətirdi. Eldar birinci badəni Gila-

nın sağlığına qaldırıb xaricə getmək vizasını ona verdi. Gilan vizanı alan kimi Eldarı öpdü. — Bir azdan əvəzini çıxaram, — otaqda qəhqəhə səsi aləmi bürüdü...

Xaricə viza alan Gilan bu günkü məclisin əsas fiquruna çevrildi. Onun şərəfinə xoş sözlər deyilir, sağlığına badələr qaldırılırdı. Ona elə gəlirdi ki, ətrafdakı fırıldaqçılardan, gündəlik dava-dalaşlardan, dedi-qodulardan, əsəb gərginliyindən qaçıb canını qurtaracaq. Bu zirək və iltifatlı bu köməkçilər sayəsində yeni həyatda bir balaca sakitləşəcək...

Onlar iki günlük bağ istirahətindən sonra şəhərə qayıtdılar.

*  *
*

Sabah Bakıyla, həmkarlarıyla vidalaşacağını düşünüb kövrələn Gilan ağır sıxıntı keçirirdi. Güman eləyirdi ki, geri qayıtmayacaq, qardaşı ilə bircə dəfə də olsun görüşməyəcək. Çox fikirləşdi, çox götür-qoy elədi, çıxış yolu tapmadı... Ağladı, sıtqadı.

Ağır iztirablardan başı dumanlanan Gilan çörək mağazasına getmək üçün yolu keçirdi ki, sürətlə gələn "Mersedes" markalı maşın onu vurdu. O, göydə bir neçə dəfə mayallaq vurub səkinin qırağına çırpıldı. Elə o andaca hərəkətsiz qaldı. Kimliyindən xəbərsiz adamlar hadisə yerinə toplaşdılar. Ağır vicdan əzabı çəkən sürücü cəsədə yaxınlaşdı. Gilanın gözləri açıq idi. Kəlləsindən axan qan üst-başını, donuq çöhrəsini boyayırdı. Oğlan təlaş, qorxu içində kiminləsə telefonla danışdı. Çox çəkmədi ki, polislər, təcili tibbi yardım maşını gəldi. Gilanın cəsədi meyidxanaya aparıldı.

Axşam televiziyada belə bir elan verildi:

"Səhər doqquz radələrində "M" küçəsində 006 "Mersedes" markalı maşın iyirmi beş-iyirmi altı yaşlı bir qadını vurmuşdur. Qadın yerindəcə keçinmişdir. Üstündə heç bir sənəd tapılmadığından kimliyini müəyyənləşdirmək mümkün olmamışdır. Onu tanıyanlardan xahiş olunur 000027 nömrəli telefona zəng çalıb məlumat versinlər..." Elanın dalınca Gilanın şəkli göstərildi. Elandan sonra bütün günü nigarançılıq keçirən, onu xaricə yola salmaq istəyən Qunduz, Eldar, Həmzə və Gəncədəki doğmaları Gilanın faciəli ölümündən xəbər tutub təəssüfləndilər.

Elandan bir saat keçər-keçməz Bakıdakı həmkarları Gilanın sənədlərini xəstəxananın baş həkiminə təqdim etdilər.

*  *
*

Televiziya ekranında elanı görən Mirvariylə Zərnigar dözməyib bir-birindən xəbərsiz taksiyə oturub İqrargilə gəldilər. Onlar söhbətə başlamışdılar ki, qapı döyüldü. Gələn Tuğay kişi ilə Gülər qarıydı. Ər-arvad salam verib əyləşdilər. Tuğay kişi Mirvariylə Zərnigarı altdan-altdan gözucu süzdü. Sonra gülümsünərək dilləndi:

— Allah qocalığı kəssin, oturuncaya qədər sizi tanımadım. Bağışlayın. Evdə uşaqlar necədilər?

Zərnigar astadan dedi:

— Balalarınız sağ olsun. Yaxşıdılar.

Mirvari:

— Çox sağ olun, Tuğay dayı.

Tuğay:

— Yəqin siz də televizorda gedən elana görə gəlmisiz?

Mirvari:

— Bəli!

Tuğay:

— Nə fikirləşirsiz?

Zərnigar:

— Meyidi gətirib dəfn eləmək lazımdı. Bu iş təkcə bizim ba-

şımıza gəlməyib ki?

Tuğay əlini saqqalına çəkib arvadı Gülərin üzünə baxdı. Arvad dərhal bildirdi:

— Mən uşaqlıqdan Gilanı tanıyırdım. Pis uşaq deyildi. Onu yolundan çıxartdılar. Nə isə, onlar arxada qaldı. Səhvini düşünüb əlimizi əlimizin üstünə qoya bilmərik. İqrar da uşaq deyil, cavandı, hər şeyi düşünəndi. Doğrusu, biz bilmirdik Bakıya getdiyini.

Mirvari:

— Bakıda olduğunu biz də bilmirdik. Doğrudu, məktub almışdım. Yazmırdı ki, Bakıdayam.

Zərnigar:

— Mən də məktub almışdım. Şəhərdə olmayacağını göstərsə də Bakıya getdiyini mənə də yazmamışdı. Nə isə, indi olan olub.

İqrar:

— Nə fərqi var, torpağa orda basdırıldı, ya burda. Mənə elə gəlir ki, bunu səsə-küyə salmağa ehtiyac yoxdu. Camaata əziyyət verməyək.

Tuğay:

— Oğlum, bu insandı. Hadisə də insan başına gəlir. Kökün, gələcək nəslin səni bağışlamaz. Üzünə bir söz deməyəcəklər. Bəlkə, üzünə gülüb sənə haqq qazandıranlar da olacaq. Ancaq arxanca yaraşmayan quramalar düzəldəcəklər. Düşmənlərin sevinəcək. Gətirməmək, el adətiylə dəfn eləməmək nə sənə, nə də ömrümüzün bu qürub çağında bizə yaraşmaz. Bilirəm, imkanın yoxdu. Gündəlik çörəyini ancaq çıxarırsan. Allah-Təala yası da, toyu da öz üzərinə götürür. İmkansıza özü qapı açır. Pul qəhri çəkmə. Bura gələndə İlqara telefon edib vəziyyəti onunla danışmışam. Belə qərara gəldik ki, oğlum, sənin yanına bir adam qoşaq. Gedin gətirin. Meyid ölüxanada olacaq. Onu hər maşınla gətirmək olmaz. Yalnız təcili tibbi yardım maşınıyla gəlməlidi.





Bu axşam çıxın Bakıya. Siz gəlincə biz də hazırlıq işi görək. Çox saxlamayaq, gətirən kimi dəfn eləyək. Bizi tanıyanlar göz-gözə durublar. İqrar sən deyən kimi hərəkət eləsək, deyərlər ki, böyüksüzdülər, ağsaqqalları yoxdu. İki günlük əziyyət üçün, üç-beş manat xərc üçün bu boyda sözü üstümüzə götürməyə dəyməz! Mən belə məsləhət bilirəm.

Zərnigar:

— Tuğay kişi, imanın kamil olsun. Hər üzü, başı ağarana ağsaqqal deməzlər. Sən ağsaqqalsan. Mirvariylə mən də elə düşünürdük. İqrarın başqa yolu yoxdu. Özgə adam lazım deyil. Əmioğluyla mən gedərəm. Evdən hazırlıqlı çıxmışam. Oğlum, qalx geyin, gecikməyək. Səhər erkən ölüxanada olaq. Sənədlərini də götür. Sənədsiz bizə meyid verməzlər.

Mirvari:

— Qalx, qardaş!

İqrar daha bir söz deməyib ayağa qalxırdı ki, Tuğay kişi əlini cibinə saldı. Bir dəstə pul çıxardı. Bunu görən Zərnigar dilləndi:

— Götürmüşəm, varımdı, Tuğay kişi.

Gülər:

— Yenə lazım olar.

— Özümdəki bəs elər.

Mirvari:

— Məndə də var.

Zərnigar:

— Siz hazırlıq görün.

İqrarla Zərnigar Tbilisidən gələn qatarla Bakıya yola düşdülər.

* *
*

Meyid gətirən maşın həyətə girəndə saat dörd idi. Bütün ağırlığı üzərinə çəkən Tuğay kişi hər bir ehtiyatı görmüşdü.

Doqquz illik ömür kəsiyində İqrar bacısıyla canlı yox, onun cəsədiylə görüşdü. Qüssə, kədər az qala onu aciz, iradəsiz bir insana çevirirdi. Deyilənlərin çoxunu eşitmirdi. Soyuqqanlı və qaradinməz olmuşdu. Axşam günəş qüruba çəkiləndə Gilanın nəşi qaldırıldı. İqrar bacısının cəsədini torpağa tapşırıb geri qayıtdı. O, Tuğay kişigildən, Zərnigar və Mirvaridən ayrılaraq evə gəldi, çarpayısına uzandı, gözlərini yumdu. Müstəntiq Bilal Xatazadəylə görüşləri, onun qərəzli sualları gəlib durdu gözləri önündə. Arvadı Aytacın dediklərini yadına saldı. Gilanın məktubunu qalxıb yenidən dönə-dönə oxudu. Öz-özünə: Ailəmizin başına gələn bu faciəni sən törətdin, Bilal Xatazadə, — deyə düşündü. Həngamələrin baisi Şər Müzəffərdi! Maymaq Əlməmməd də, zavallı Gilan da, elə mən də sizin çirkin əməllərinizin qurbanıyıq, bizi adam saymaya bilərsiz! Çünki Bilal Xatazadə, sənin əlində qılıncdan iti qanun, bitib-tükənməyən pulun var. Şər Müzəffər, bilirəm, pul toplamaq üçün ananı, arvadını da hərraca qoymağa öyrəncəlisən! Xeyli varidat toplamağından xəbərdaram. Mənim pulum yoxdu. Əlimdə kəsərli qanunum yoxdu. Bircə təmiz vicdanım qalmışdı, ona da tüpürdünüz. Mən də sizə tüpürəcəm. O günü prokuror Fərid, onun müstəntiq qonağı necə dedi? Xatazadə yuxarıda Ağır Cinayətlərə dair Axtarış idarəsində işləyir. İmkanları genişdi... Olsun! Mən də artıq belə yaşamaq istəmirəm, cənab Bilal Xatazadə!

* *
*

Bacısının qırxını verən İqrar elə həmin axşam axtarış üçün Bakıya yola çıxdı. İş yerinə gedib Xatazadənin telefonunu öyrəndi. İki gün onu işdən çıxanda izlədi. Maşınının nömrəsini götürdü. Taksiyə minib evə gedən Bilal Xatazadənin ardınca getdi. Maşınını hansı qaraja saldığını izləyib Gəncəyə qayıtdı. Bir neçə gün düşündü. Əməliyyat harda həyata keçirilməlidi? İş yerindən çıxandamı? Bu səs-küyə səbəb ola bilər. Aradan çıxammaram. İlişərəm. Şər Müzəffərlə haqq-hesabım qalar. Evdə də çətin olar... Arvad-uşaq, qonşular... Xidməti silahı var. Atmaq təcrübəsi var. Kimi birinci? Böyük fiqur Bilal Xatazadəni, yoxsa, peşka Şər Müzəffəri? Şər Müzəffəri götürsəm, dərhal şübhələnə bilərlər. Məni həbs eləyərlər. Xatazadədən qisasımı alammaram. Bəs Xatazadə necə? Onu götürsəm, hadisə yerində tutulmasam, hüquq mühafizə işçiləri Xatazadənin evinin, iş yerinin həndəvərində vurnuxacaqlar. Ona kimi Şər Müzəffərə yetişərəm. Allahdan imdad diləyirəm, Şər Müzəffərin qanından bir stəkan içə biləydim! Yaxşı Xatazadəni harda, nə vaxt, necə? Qarajda. Axşam, ya səhər. Necəliyini isə özünün yaratdığı şərait məlum edər. Ən başlıcası iz qoymamaqdı. İqrar onu da düşündü ki, Gəncədən çıxdığını kimsə bilməməlidi. Günorta tanınmayan yol maşınıyla Gəncədən getməli, hadisəni törədib o anda da geri qayıtmalı... Planı İqrar beləcə beynində cızdı. İndi başlıca məsələ cəsarət, bir də cinayətin törədiləcəyi anda operativlikdi!

Adi iş günlərindən biriydi. İqrar günortaya yaxın iki bıçaq götürüb evdən çıxdı. Plan üzrə hərəkətə başladı. İşin sonunda Xatazadənin qarajını nəzarətə götürdü. Müstəntiq xeyli gecikdi. Gözləməkdən hövsələsi daralırdı. Saat on birə qalırdı. Xatazadə gəlib çıxmırdı ki, çıxmırdı. Qəflətən geniş asfalt yoldan bir maşın qaraja tərəf döndü. İqrar qonşu qarajın tininə sıxıldı. Xatazadə maşından düşərək qarajın qapısını açıb içəridən işığı yandırdı. Hərəkətlərində səndələmə hiss olunurdu. İqrar müstəntiqin hansı ziyafətdənsə gəldiyini, yarı sərxoş olduğunu düşünüb sevindi. Xatazadə maşını içəri salan kimi əməliyyatın uğurlu keçəcəyini ehtimal eləyən İqrar müstəntiqin qarajının qapısına tərəf getdi. Hər şeyin qaydasınca olduğunu düşünən müstəntiq maşının işığını söndürüb qapıdan çıxırdı ki, İqrar var gücüylə bıçağı atdı. Havada görünməz olan bıçaq bir göz qırpımında Xatazadə-

nin köksünə işlədi. Bıçağın zərbəsindən Xatazadə yerindəcə səntirlədi. İqrarın atdığı ikinci bıçaq bu dəfə müstəntiqin kürəyinə sancıldı. Müstəntiq qəfil aldığı zərbələrdən bircə dəfə “Aaa...” deyə bildi. Hər iki bıçağın tiyəsi ürəyə işlədi. Səs çıxmadığını görən İqrar qarajların arasından keçib yola çıxdı. Maşına əyləşib: — “Əcəmi” metrostansiyasına, — dedi. İqrar gecəykən qatarla Bakıdan Gəncəyə qayıtdı... Səhər iş yerində oldu. Bənna Mürsələ daş, palçıq verdi...

Axşam televiziyada tanınmış müstəntiq Bilal Xatazadənin özünə məxsus olan qarajında naməlum şəxs tərəfindən bıçaqla qəddarcasına qətlə yetirilməsi və qatilin qaçması barədə elan verildi.

* *
*

Aralarında bir illik zaman məsafəsi olmaqla iki qatı düşmənini aradan götürən İqrar üçüncü fiqur barədə qərarını qətiləşdirdi. O, indi özünü rahat, sakit hiss eləyirdi. Ömründə adam öldürməyi ağlına gətirməyən İqrar “uf” demədən iki nəfəri qətlə yetirmişdi. Qatı cinayətkar olduğunu özü də anlayırdı. Düşünülmüş plan, zərif və həssas gedişlər, türmədəki həmkarlarının təcrübəsi onu əmin eləyirdi ki, əməliyyatda heç bir səhvə yol verməyib, müstəntiqlər üçün iz qoymayıb. Lap günü sabah dünyanın yüksək səviyyəli kriminalistləri gələ onu bu cinayətlərdə günahlandıra bilməzlər. İqrar bu qənaətdə idi ki, cinayəti heç bir həyat təcrübəsi olmayan uşaq da, adi adam da, ruhi xəstə də, lap Nobel mükafatına layiq görülən alim də, yazıçı da, musiqiçi də, rəssam da törədə bilər. Bu, hünər deyil. Hünər cinayətdə izin buraxılmamasıdı. Cinayətdə cüzi iz qoyuldusa, ələ cüzi bir fakt verildisə, istər təcrübəli hüquqşünas olsun, istərsə də uşaq, fərq etməz, onun əlində aciz bir qula çevrilir insan. Elə bir adam





yoxdu ki, türmədən qorxmasın, türməyə düşmək təhlükəsi yarananda qorxu, vahimə keçirməsin. Azadlığım əlimdən alınır, — deyə misgin vəziyyətə düşməsin. Türməni sərt qanunların tətbiq olunduğu düşərgə sanırlar. Çox ehtimal ki, bu belə deyil. Türmədəki davranışla adi həyatdakı davranış arasında o qədər böyük fərq yoxdu. Elə adamlar var ki, onlar türmədəkilərdən daha ağır cəzaya məhkumdular. Doyunca yeməyə çörək tapmırlar. Gecə-gündüz qul kimi işləyirlər. Maddi imkanları yoxdu ki, bir məkandan o birisinə keçsinlər. Hər gün sahibkarları tərəfindən məzəmmətlənirlər, söyülürlər, bəzən də döyülürlər. Ailələrinin, övladlarının qəlb küskünlüyünə mənəvi göz yaşları axıdırlar nadanların əliylə. Hər cür məşəqqətlərə, hər cür iztirablara atılırlar. Bəyəm, bunlar insan yaşamının məhdudiyyətləri deyilmi? Yaşadıqları dünya əzab məngənəsidirsə, onun türmədən nəyi artıqdı? Həyatın azadlığı iş-gücünü atıb ürəyin istəyən yerə gedə bilməyindi. Türmədə də kef çəkənlər var. Orda da həyatın ləzzətini duyanlar çoxdu. Türmədə qazan dibi yalayanları, arvad kimi ayaq yuyan bədbəxtləri, həddini aşan məddahları, anasının əmcəyini kəsən fırıldaqçıları saymaqla qurtaran deyil. Obşaq da var. Onların da öz qanunları, öz tələbləri, öz əxlaq normaları... İstədiyini udur. Obşaqlar üçün yazılı qanunlar yoxdu. Lazım gələndə, azadlıq sanılan həyata da, onun sakinlərinə də təsirlərini göstərə bilirlər. Unudulan deyil. Obşaqların kef çəkmək üçün azad həyatdan gətirdikləri qadınlar. Türmə rəhbərlərini meymun kimi oynatmaları... İçəridə oturub çöldəki basqına, adam ölümünə rəhbərlikləri... Türmənin də, azad həyatın da bir “ağası” var. O da puldu, pul! Pul içəridə də, çöldə də gücdü, qüdrətdi, hökmdü! Həm o dünyadı, həm də bu dünyadı! Adam dəhşətə gəlir: onu kim yaradıb? Niyə yaradıb? O Allahın iradəsinə tabedi, yoxsa Şeytanın?!

İnsan istər türmədə olsun, istərsə də “azad” sayılan həyatda. O zaman özünü azad sana bilər ki, Allahla özü arasında pak, ülvi

münasibət şəbəkəsini yarada bilsin. Əks halda, "azad insan" yoxdu. Bu, qondarma, kiməsə fayda verən ifadədi. Hərə pis-yaxşı bir ömür yaşayır. O dünyanın mövcudluğuna da inanmaq çətindi. Doğrudu, bəşər övladının son məskəni, nəsibi qara torpaqdı. Fani dünyasından ayrılan hər kəs orda qərar tutur. Orda əbədiləşir. Ancaq ordan — həqiqi, əbədi məskənindən fani, yalançı dünyasına qayıdan olmur. Eşq olsun, insan yaradan mövcudata! Yaratdıqlarını elə tənzimləyir ki, əbədi dünyanın ilahi gücünə səcdə etməyə bilmirsən!

Türmə! Həyat! Əslində türmə də həyatdı. Bəzi insan ömürlərinin növbələnən anlarıdı. Axmaqlar, səfehlər orda da çoxdu, burda da. Baxın, dəyyus Əlməmməd, insanlara ələm, qüssə, dərd-sər gətirən, arvadını hərraca qoyan Şər Müzəffər, insani hisslərini itirən, əxlaq, mənəviyyat qəssabı müstəntiq Bilal Xatazadə... Bəyəm, bunlar türmədə ya həyatda yaşamağa, ömür sürməyə layiqdilərmi? Bunların törətdikləri cinayətlər neçələrini ölüm kabusu ilə qarşılaşdırmayıb? Neçə ailəyə zülm, məşəqqət gətirib? Neçə ailəni başsız qoyub? Neçə ailənin qazancını qamarlayıb əllərindən alıblar? Neçə uşağın göz yaşlarını axıdıblar? Adamları oğurlamaqla neçə anaları oğulsuz qoyublar? Cavan oğlanları qaranlıq zindanlara atdırıblar. Neçə qadını əxlaqsız, mənəviyyatsız yollara çəkiblər? Həyatı məşəqqətlər qoynunda keçən Gilan da onlardan biri deyildimi? Hara baxır qanun keşikçiləri? İnsanlar həyatda belə zorlanmalara məruz qalırlarsa, içərisində yaşadığı cəmiyyət onlara biganəlik göstərirsə, qanun keşikçiləri belələrinin mühafizəçisinə çevrilərək, onları divana çəkmirlərsə, necə düşünürsüz, türmə yaxşıdı, yoxsa, cani-dildən sevdiyiniz bu süni, bu qondarma həyat? Türmədə obşaqların qanunları sərtdi, ancaq obyektivdi, insanı razı salandı, kişiliyə əsaslanandı. Orada fırıldaqdan, dələduzluqdan, yalandan, haqqı nahaqqa boğdurmaqdan söhbət gedə bilməz. Hər şey ədalət mizan-tərəzisində ölçülür. Bax, budur içəriylə çölün fərqi...





Şər Müzəfləri aradan götürmək o qədər də çətin deyildi. İqrar mağazada da, restoranda da, yolda da onun həyatını qapaya, işığını söndürə bilərdi. Özü də gedib polisə təslim olardı. Eşidib bilən də, hadisədən xəbərdar olanlar da, onu qınamazdılar. Hətta, içərilərində elələri də olacaqdı ki, İqrara haqq qazandıracaqdı: "Bacısının namusuna təcavüz eləməyəydi, İqrar da onu öldürməyəydi". "Satqınlığın son aqibəti ölümdü", "Şər Müzəffər çox qan tökmüşdü, onu da qanına qəltan elədilər"... Bütün bunları İqrar yaxşı anlayırdı. Onu da başa düşürdü ki, təhlükəli cani adını alacaq. Bəraətə təşəbbüs göstərsə də, törədəcəyi cinayətdən sonra o, sərbəst həyat üzünə həsrət qalacaq, oğlu ilə bir də görüşə bilməyəcək. Onun bu hərəkəti böyük hörmət bəslədiyi Tuğay kişinin ailəsini də, əmisi qızı Mirvarini də, anası əvəzi Zərnigarı da narazı salacaq, əsəbiləşdirəcək. Ancaq o məsələni belə də qoya bilməzdi. Şər Müzəffərlə aralarındakı münasibəti birdəfəlik qurtarmalıydı. İqrar xeyli müşahidədən sonra belə nəticəyə gəldi ki, axşamların birində evindəcə onunla qurtarmaq!

İqrar əməliyyat üçün əlverişli məqam axtarmalı oldu.

Hardasa oxumuşdu: Həyatın qəribə qanunları var. Qanunların əsirinə çevriləndə insan hissləri öz axarından çıxır. Belə olanda səhvlərin, yanlışların qapıları taybatay açılır. Rənglər əlvanlaşır. İnsan haldan-hala düşür. Nə düşünürdü, nələrlə qarşılaşdı. İqrarın dodaqları arasından həqiqət və ədalət pıçıltıları qopdu. O, öz-özünə düşündü: "Həqiqəti hamı görə bilmir, elələri də var ki, görmək istəmirlər. Çox zaman həqiqəti görənlər ədaləti duymurlar, dərk eləmirlər. Çox çəkməyəcək, mən Şər Müzəfləri öldürəcəm. Çoxları bunun şahidi olacaq. Ancaq bu cinayətdə qan, ölüm gözləri tutacaq. Hisslərin təsiri altında vurnuxanlar, inanıram ki, həqiqətin ağuşunda ədaləti görməyəcəklər. Məni sarsıdan, haldan-hala salan bax, budur... Etiraf eləyim ki, içimdə kinlə, ədavətlə dolu, susmaq bilməyən bir nifrət var.

Bu kədərli iztirab hər gün məni boğur. Hünəri var, Şər Müzəffər onu təqib eləyən bu təhlükədən xilas olsun..."

Nə baş verdisə, birdən-birə sakitləşdi İqrar. Bu sakitliyin ilk anlarında o duyuğa getdi. Gözlərində durğun bir fikrin müəmmalı ifadəsi sezildi. Arabir götür-qoyları nəzərə alınmazsa, İqrarın Gilan barədə düşüncələri xeyli səngidi, Şər Müzəfferlə "görüşə" önəm verdi. O, Əlməmmədlə Bilal Xatazadəni xətasız-filansız yola salmaqdan daxilən qürur hissi keçirirdi. Deməli, istənilən adamı ovlamaq mümkündü; onunla istənilən vaxt haqq-hesab çəkmək olar... Bu nadanı aradan götürməklə, ondan neçəsinin qisasını almış olaram?! Son zamanlar bu və buna bənzər pırtlaşıq düşüncələr İqrarı heç rahat buraxmırdı. Özlüyündə bunun da səbəbini o, Şər Müzəfferlə, görüşəcəyi bu mənfur adamla əlaqələndirirdi. İqrar daxilən narahat idi. Tələsirdi. Hardansa ürəyinə dammışdı: Bilal Xatazadə əməliyyatına görə onu ilişdirə bilərlər; Şər Müzəffər məni aradan götürmək üçün qanun keşikçilərinə ideya verər; müstəntiqlər törədilmiş cinayətlə bağlı müəyyən məsələlərdə mənim üzərimdə dayana bilərlər... Müstəntiqlərə nə var ki? Onlara kiçik fakt, detal gərəkdi. Əllərinə keçdisə, ucundan tutub hadisəni çözələyəcəklər. Mən dediyim kimi yalan danışmalı olacam. Yalanın məntiqi də yalandı. Yalanlar məni uçuruma çəkəcək. İstəsəm də, istəməsəm də gözümü açıb görəcəm ki, quyunun dibindəyəm. Həqiqətin müdafiəsi yalanın müdafiəsindən çox-çox asandı... Qəribədi, mən ilişib həbs olunsam, türmənin cəngindən qurtara biləcəyəmmi?! Şər Müzəffər yenə salamat qalacaq. Onda mənim niyyətim həyata tam keçməmiş qalacaq... Yox! Bu, mənimçün ölümə bərabər olardı. Şər Müzəfferin qətlini nə vaxtadək uzatmaq olar? Məsələ çürüməsə, mən rahat olammayacam. Qoy məni cinayətkar da adlandırsınlar. Mənə qaniçən də desinlər. Qisasçı, intiqamçı olduğumu da söyləsinlər. Bir adama nə qədər qəsd eləmək olar? Şər Müzəffər niyə zülmkardı? Niyə insafsızdı? Adam əgər doğrudan da adamdısa, günahsızları əzərmi? Bu insanın insanı didməsi, parçalaması, dağıtması deyilmi?! Şər Müzəffər adi bir həqiqəti niyə anlamır ki, zülm yerdə qalan deyil. Nə vaxtsa, elədiyi zülmləri kimsə ona qaytaracaq. Bir gün ədalət də doğacaq. Özünün sərt, dönməz sifətini göstərəcək, bükülməz qolunu işə salacaq, hər şeyi öz mizan tərəzisində ölçüb-biçəcək. Onda şərəfsiz Şər Müzəffər də haqqı-sayına çatacaq. Belə getsə, hələ Şər Müzəffər çoxlarının aşına çox zəhər qatacaq. Hə... O gün Qüdrət necə dedi? "On ildən artıqdı ki, Şər Müzəffər şəhəri ələk-vələk eləyir. Altını üstünə çevirir. Pullu adamlar, imkanlı evlər axtarır. Elə ki, tapdı, kişilərin hərəsini bir hiyləylə aradan götürür, onları təzyiq altında saxlayır, pullarını qamarlayır. Belə alınmadıqda evlərə basqınlar təşkil elətdirir. Xoşuna gəlməyən, dediklərini eşitməyən, sözünü qaytaran adamları oğurladır. Hərəsinin başına bir və ya bir neçə güllə çaxdırır, sonra da gecəykən erməni qəbristanlığında basdırtdırır. Axırda bu namərd nə desə yaxşıdı? Yatın Surenlə, Arakellə, Köçəryanla... Nə bilim, kimlə... kimlə birlikdə". Qardaş, bu nəsə ayrı şeydi. Onun adam olmasına da şübhə eləyirəm... Həqiqətən də dəhşətdi. Qüdrət düz deyir: "Bu, nəsə ayrı şeydi... Adam deyil Şər Müzəffər".

Yaxşı, bu, hara kimi belə getməlidi? Buna niyə bir söz deyən yoxdu? Yəni pul, varidat bu qədər şirin şeydi? Axı hər şeyin həddi var. Deyirlər ki, şəhərdə azı on yerdə obyekti, bir helə də məhləsi var Şər Müzəfferin. Pulunun da sayını bilmir. Yaxşı bu aranqutan meymununu mən qətlə yetirsəm, onun varidatı kimə qalacaq? Əgər insanın sonu budursa, kimsəyə pislik nəyə lazım?! Bəyəm, insani hisslərlə yaşayammazdımı Şər Müzəffər?! Böyük nüfuz qazanıb saf vicdanla ömür sürsəydi qiyamət qopardımı? Beş-üç imkansızı sevindirsəydi, nə olardı?! Elə olsaydı, onun qətli barədə bu qədər baş sındırardımmı?!.

İqrar fikirləşdikcə əsəbiləşirdi. O, qalxıb balıncının altında gizlətdiyi bıçağını götürdü, düyməsini basdı. Bıçaq şaqqıltıyla

açıldı. Polad tiyənin parıltısı az qala adamın gözlərini qamaşdırırdı. O, bıçağa baxdı, baxdı. Sonra astadan dedi:

— Doğrudu, mən İlqarı çox istəyirəm, lap çox. Cəsarəti də, prinsipiallığı da xoşuma gəlir. Ancaq imkan verməyəm ki, bu çirkablı işə o girişsin. Mənim intiqamımı o alsın. O gecə İlqar təsadüfən yaralandı. Onun qanı heç nədən töküldü. Bircə dəfə də olsun ata-anası demədilər ki, İqrara atılan güllə oğlumu tutdu. İnsafən İlqar da onu mənə eşitdirmədi. İndi də heç o barədə düşünmürlər. Sizin böyüklüyünüz, əzəmətiniz qarşısında diz çökürəm, Tuğay dayı, Gülər xala... Əzizim İlqar! Sən adam qətlə yetirəmməzsən. Cinayətkar olammazsan... Mən cinayətkarlığın nəzəriyyəsini türmədə çox yaxşı mənimsəmişəm. Əlməmmədlə Bilal Xatazadənin qətli tam sübut elədi ki, nəzəriyyəni təcrübəyə tətbiq eləyə bilirəm... Yalvarıram sənə, İlqar! Çəkil mənim yolumdan. Necə olsa da bu yolu mən keçəcəm. Sənin ikicanlı qadınının gözləri yaşlı qala bilməz. Atan da, anan da ömürlərinin qürub çağlarını yaşayırlar. Bu yaşda onların qəlbinə çalınçarpaz dağ çəkənmərik. Qana-qana, bilə-bilə qocalara sitəm verəmmərik. Səni nə qədər istəmələrini mən bilirəm. Onlar səninlə yaşayırlar, İlqar! Mən razı ola bilmərəm ki, mənim işimi sən yerinə yetirəsən, sən ilişəsən. Belə olarsa, mən sənin valideynlərinə də, elə Allaha da xəyanət eləmiş olaram. Bağışla məni, bu namərdliyi üzərimə götürəmmərəm... Həmişə cinayətkarlara, qatillərə, canilərə nifrət eləmişəm. Düşdüyüm şərait gör məni nəylə qarşılaşdırır? Adam öldürməklə! Qatil, cani olmaqla! Bunu özümə heç vaxt arzulamasam da, indi qərarım qətidi. Şər Müzəffəri mən öldürməliyəm... Bəli, təkrar eləyirəm, mən! Onu qətlə yetirdiyim üçün ömrüm boyu içimdə fəxranəlik duyacam!

* *
*





Ala-çalponun başlanğıcında, günün qaş qaralan çağında, əsəbilikdən bütün bədəni titrəyən İqrar parkın yanından iti addımlarla şəhərin "N" küçəsinə sarı irəliləyirdi. Yolun kənarında şaxələnən ağaclar, səhər gur yağan yağışdan dolan gölməçələr, qarşıdan gələn maşınlar, çala-çuxur səkidə üzbəüz gəldiyindən bəzən toqquşan adamlar... onun səbr kasasını doldururdu. Az qalırdı ki, tanımadığı, üzünü ilk dəfə gördüyü, kəlmə kəsmədiyi adamları küçədə yaxalasın, onları bihörmət eləsin, Şər Müzəffərin cinayətkar fəaliyyətində onları da günahlandırsın. Bu hal İqrarın iradəsindən asılı deyildi. İllərlə üst-üstə qalaqlanan əsəbləri sanki qaz sıxımının ağlagəlməz təsiri altında püskürən vulkan kimi içini dağıdırdı. O, getdikcə dəhşətli vəziyyətə düşürdü. Qəzəb bütün bədənini çulğalayır, ağlını, hissini özünə tabe edir, bəzən dondururdu. Acığı gələn, nə vaxtsa, sözü çəpləşən hər kəs qarşısına çıxıb bircə kəlmə namünasib söz desəydi, o, fikirləşmədən, axırının nəylə qurtaracağını sonalamadan cibindəki düyməli bıçağını çıxarıb onun qarnına soxacaqdı. İqrar indiki vəziyyətində cinayət törətməyə, qan tökməyə, "Uf" demədən adam öldürməyə hazırıydı, təki hirsini boşalda biləydi...

O, "N" küçəsinə çıxıb o tərəf-bu tərəfə baxdı. Susuzluqdan dili-ağzı quruduğundan, dodaqları təpidiyindən yaxındakı mağazaya girib bir şüşə su aldı, elə ordaca şüşənin qapağını açaraq başına çəkdi. Soyuqluğunun fərqinə varmadan qurta-qurtla şüşəni boşaltmağa başladı. Su onun yanan ürəyinə bir sərinlik gətirdi... Mağazadan çıxıb tindəki qoşa doqquzmərtəbəli binanın arasından keçdi. Qarşısını təzəcə istifadəyə verilmiş bina kəsdi. O: — Hə, bu binadı — deyə Şər Müzəffər yaşayan mənzilin pəncərələrinə baxdı. Şüşələrdən ətrafa işıq seli axırdı. Şiddətli külək əsdiyindən ətrafda adam görünmürdü. O, yavaş-yavaş, saymazyana girəcəyə yaxınlaşıb dayandı. Bir də yan-yörəyə göz gəzdirdi. Elə bu vaxt üz-gözünü bürüyən yaşlı bir qadın girəcəkdən çıxıb arxaya baxmadan qonşu binaya tərəf qaçdı. İqrar axıra qə-

dər qadının ardınca baxdı. O, düşündü ki, qadın onu görsəydi mütləq arxaya çevrilib baxmalıydı. Baxmadı. Deməli, bu qadın məni görmədi. İqrar iti addımlarla girəcəyə daxil olub üçüncü mərtəbəyə qalxdı. Qapının üstündəki lampanın gur işığı girəcəyi apaydın işıqlandırırdı. O, cibindən düyməli bıçağını çıxarıb girəcəyə diqqət yetirdi. Kimsənin gəlmədiyini yəqinləşdirərək bıçağın dəstəyilə lampanı qırdı. Bir an dayandı. Yenə aşağıdan, yuxarıdan kimsənin gəlib-gəlmədiyinə qulaq verdi. — Gələn olsaydı, ayaq səsləri eşidilərdi, — deyə düşündü. Cibindəki əlcəkləri çıxarıb geyindi. Ayaqlarına ayaqqabıların üstündən qara meşin üzlük keçirtdi. Bu andaca ürəyinin döyüntüsünü eşitdi. O, qorxmurdu, çəkinmirdi... Sakit olduğu halda, ürəyinin çırpıntısı özünə də müəmmalı göründü... Bir anda ailəsində baş verənlər, özünün, bacısının, arvadının, oğlunun qaramat taleyi, el içindəki rüsvayçılığı, hər gün Zərnigarın, Mirvarinin, Tuğay kişinin, Gülər qarının ona verdikləri təskinlik, bəzi adamların həqarətli baxışları yadına düşdü. Az qala qan beyninə vurdu. Bıçağın dəstəyi ilə qapının zəngini basdı. Çox çəkmədi ki, qapı açıldı. Qəddi-qamətli, mütənasib bədənli, girdə, ağ sifətli bu qadının qara, yaşantılı gözləri vardı. Qəribə baxışları adamı halbahal eləyirdi. Gözlərində dərin qorxu, həyəcan duyulurdu. Saçlarını sarı rənglə boyamışdı. Təzə alınmış qaşları, uzun kirpikləri ilə haşiyələnmiş gözləri vardı. Enli alnı, şiş burnu, balaca ağzı üzünə cəlbedicilik gətirirdi. Göz-qaşla danışması, özünü əzdirib-büzdürməsi nazlı xanım olmasından xəbər verirdi. Arvadı görcək bir anlığa İqrar düşündü: at yiyəsinə bənzər. Deyəsən, əri kimi bu xanım da insan ovuyla məşğuldu... Dəhlizdə yanan lampa girəcəyi ala-toran işıqlandırırdı. İqrar evdə kimsənin olmağının fərqinə varmadan içəri soxuldu. Qadın qorxudan çaş-baş qaldı. İstədi qışqırsın, qonşuları haylasın. İqrar imkan vermədi... Bir əli ilə qadının ağzını tutdu, o biri əliylə bıçağı boğazına dirədi:

— Səsin çıxsa, boğazını üzəcəm. Evdə kim var?





Qadın dil-dodağı təpiyə-təpiyə, bütün bədəni titrəyə-titrəyə boğuq səslə dedi:

— Heç kim... Təkəm.

— Ərin hardadı?

— Aşağıdakı qonşudadı, indi gələr.

— Adın nədir?

— Mənzər.

— Mən ərinin düşməniyəm. O, bu axşam evə gələcəkmi?

Qadın tutuldu. Danışmağa dili olmadı. Handan-hana:

— Bəli, — dedi.

— Hə... Onunla bu axşam haqq-hesab çəkməyə gəlmişəm.

Vahimə, təlaş içərisində çabalayan qadın yalvarmağa başladı:

— Məni öldürmə. Mən günahsızam. Evdə çoxlu pul, qızıl, qiymətli daş-qaş var. Onları götür, mənə dəymə, yazığam.

— Sən də ərin kimi pulla danışırsan? Məni satınmı almaq istəyirsən? Əxlaqsız!

— Qurban olum, nə deyirsən eləyim.

— Neyləyə bilərsən?

— İstədiyini.

— Onun üçün gəlməmişəm.

İqrar əsəbdən gülümsündü, sonra nəsə demək istəyirdi ki, Mənzər “Aaa...” deyə şappıltıyla yerə çırpıldı. İqrar əvvəl nə baş verdiyini duymadı. Qadının gözləri çevriləndə elə başa düşdü ki, onun ürəyi sıxılıb. İstədi qayıdıb qapıdan çıxsın, fikrindən döndü. Mənzərin nəbzini yoxladı. Nəbzinin vurmadığını görcək İqrar əlinin arxasını qadının ağzına yaxınlaşdırdı. Bir az gözlədi. Nəfəs gəlmədi. Mənzərin ürəyi döyünmədiyini yəqinləşdirdi və anladı ki, o keçinib. Ürəyi xəstə olan bu qadının ölümü ürəyincə olmadı. Təəssüfləndi. Qadını qucağına alıb yan otaqdakı çarpayıda uzandırdı. Sonra vanna otağına keçib, su kranını açdı. Əl-üzünə su vurdu və kranı bağlamadan istirahət otağına keçdi.

Yumşaq kresloda əyləşib Şər Müzəffəri gözlədi. İqrarın ağlına da gəlməzdi ki, bu qadının ürəyi xəstəymiş... Üç otaqlı bu ev yenicə təmirdən çıxmışdı. Oturduğu mənzilin divarlarına ağ kağız çəkilmişdi. Pəncərədən asılan tül pərdə, ayaq altına sərilən təzə xalça, divarın dibinə düzülən şabalıdı rəngli mebel, yumşaq divan, oturacaqlar, geniş ekranlı televizor, onun da yanında qoyulan video, musiqi mərkəzi otağı bəzəyirdi. O, ətrafa diqqətlə göz gəzdirdi. Müzəffərlə Mənzərin divardan asılan çərçivədəki şəkillərini görcək, elə bil başından bir qazan qaynar su tökdülər. Cəld oturduğu yerdən qalxıb şəkli götürdü və döşəməyə çırparaq ayaqları altında əzişdirdi. Sonra nə fikirləşdisə, şəkli bir neçə yerə bölüb cibinə qoydu. Yenidən keçib kresloda əyləşdi. Astadan öz-özünə:

— Məni bağışla, Mənzər. Sən çox gözəl idin, təravətliydin. Mən bu dar macalda səninlə istədiyim kimi davrana bilərdim. Ancaq mən Şər Müzəffər deyiləm. Qadın zorlamağı mənliyimə sığışdırammaram. Mən bura elə alçaq niyyətlə gəlməmişəm. O binamusluqdu, vicdansızlıqdı, şərəfsizlikdi. Mən elə namərdliyi kişiliyimə, ədəb-ərkanıma, əsil-nəcabətimə sığışdıra bilmərəm. Onun üçün də mən sənin qadınlıq ləyaqətinə, ismətinə toxunmadım. Bağışla məni, sən ölməli deyildin, günahsızsan. Sən ərinin ləyaqətsiz hərəkətlərinin qurbanı oldun. Təəssüf ki, ölümünə mən səbəbkaram. Günaha batdım. Neçə vaxtdı ərini qanına qəltan eləmək üçün izləyirdim. Müzəffərlə hesabımı çəkmək üçün sakit yer, əlverişli məqam tapammırdım. Neyləyim ki, tale baş verəcək cinayətin məkanı kimi buranı seçdi. Seçməsəydi, səni öldürməyəcəkdim. Görünür, belə qismətmiş... Ərin sənə xəyanət elədi. Görünür, sən də nə vaxtsa kiməsə xəyanət eləmisən. Sən də o xəyanətin qurbanı oldun... İndi yat, rahatlan. Sənə söz verirəm, bu axşam ərinlə bir otaqda uyuyacaqsız. Dəyyus ərin, heyf ki, səni o dünyaya özündən qabaq yola saldı...

Şər Müzəffərin cinayətlərini, qadınlarla kef anlarını təsvəvüründə canlandıran İqrar fikirləşdikcə intiqam hissindən alışır, yanırdı. O, qəflətən oturduğu yerdən qalxdı:





— Hardasan, ay oğraş, gəlib çıxsana. Az qala ürəyim çatlayır. Sənin qanını içəcəm... Bədənini deşik-deşik eləyəcəm. Məni alçaltdın, nəslimə-kökümə tüpürdün. Bütün həngamələrindən xəbərdaram. Əmin ola bilərsən, bu axşam səninlə qurtaracam. Sonra görək nələr baş verəcək? Səni öldürməsəm, içim boşalmayacaq. Gec də olsa, görən, murdarlanmış namusumu yuya, ləkələnmiş şərəfimi, ləyaqətimi təmizləyə biləcəmmi? Yox! O, bikara söhbətdi. İnsanlıq bir dəfə çirkaba bulaşdısa, heç cürə safa çıxa, paklığa, ülviyyətə qovuşa bilməz. Ay alçaq! Bu qisası sənin qanınla, canınla əvəzləyə bilərəm. Xəyanət kişi işi deyil! Xəyanətin bir cavabı var. O da məşəqqətli ölüm!..

Bu dəhşət saçan, qorxunc, vahiməli gecədə otaqlar qəbri andırırdı. İqrar kreslodan qalxıb yan otağa keçdi. Otaq qaranlıq zülmət içərisindəydi. Əlini qaldırıb üzünə yaxınlaşdırsaydın, gözlərin onu görmək imkanı yoxuydu. İqrar belə qərara gəldi ki, Müzəffəri elə bu qaranlıq otaqda çarpayının qırağındaca əyləşib gözləsin. O, fikirləşdiyi kimi də elədi. Gözlənilmədən ağlına belə bir fikir gəldi:

— Ay dadi-bidad, birdən Müzəffər bu axşam gəlmədi? Onda neyləməliyəm? Yox, ola bilməz ki, evə gəlməsin. Arvadını tək evdə qoyub, qonşuda yatıb qalmayacaq ki... Xoruz banına qədər gözləməli! Sonra aradan çıxmalı! Başqa məqam, başqa zaman axtarmalı! Bəlkə, Müzəffər evə özüylə kimisə gətirdi? Tək gəlmədi?.. Onda necə olsun?

Ehtimallar... Mülahizələr... Hamısı bir-birindən əcaib! İqrar içində danışığına davam elədi:

— Nə olur olsun! Şər Müzəffər öləcək. Mən bu cinayəti törətmək üçün səkkiz il bıçaqla oynamışam. Türmədə bunun (bıçaq atmağın) mahir bilicisinə çevrilmişəm. Heç kim mənimlə bəhsə girə bilməzdi. Mən gələndə nər kimi oğullar bıçağı qo-

yardı əlindən yerə. — İqrar olan yerdə bizim bıçaq tullamağımız ayıbdı, — deyərdilər. O gün İlqar necə dedi: — "Mənim tapançamdan sənin bıçağın etibarlıdı". Düz fikirləşirsən, İlqar. Bıçağın səsi-küyü yoxdu. Səsi aləmi başına götürmür. Ərini qədr-qiymətdən salmağa çalışan qadınlar kimi çığır-bağır salmır. Bəli, öləcəklər... Heç kəs başıbəlalı, günahsız qətlə yetən Mənzərdən artıq deyil! Başıma gələnləri Mənzərə bağışlayıb qayıdıb gedə bilərdim. Ancaq arvadımın məcbur edilərək evdən çıxmasını yox! Oğlumun qapılarda qalmasını, boynunu büküb dolanmasını yox! Bacımın faciəli ölümünü yox! Namus yeganə şeydi ki, heç nəylə əvəzlənmir. Dəyiş-düyüş olunmur, satılmır, alınmır, kimsəyə bəxş olunmur!..

Axşamdan xeyli keçmiş evə kefli qayıdan Müzəffər cibindəki açarla qapını açıb içəri keçdi. Qapını çırpdı: "Mənzər!" "Mənzər!". Hardasan, əzizim, qalx yatağı aç, başım hərlənir, — deyə-deyə işıq yanan otağa keçdi. Otağın ortasında ani olaraq dayandı. Suyun şırıltısını eşitdi. Ona elə gəldi ki, Mənzər vanna otağında təmizliklə məşğuldu. Şər Müzəffər həmin otağa keçmək istədikdə arxasında kiminsə dayandığını hiss elədi. Geri dönəndə İqrarı gördü. Qorxudan qıçları titrədi, nə eləyəcəyini bilmədi.

— İqrar məni öldürmə. Mənə yazığın gəlsin.

— Sonra?

— Evdə yarım milyon ABŞ dolları var. Nə qədər deyirsən, sənə qızıl, brilyant verim.

— Sonra?

Müzəffər ani olaraq fikirləşdi:

— Şəhərdəki obyektlərimi verərəm.

— Yox, Müzəffər, yenə alçaqlıq eləyirsən! Mən nə sən düşünən sadəlövhlərdən, nə də pul, varidat düşkünlərindənəm.

— Kim deyir ki, sən elələrindənsən?

— Gəl otur, səninlə açıq söhbətim var.





Müzəffər əyləşdi. İqrar nifrətlə onun gözlərinin içinə baxdı. Orda qorxaqlıqdan, vahimədən savayı heç nə duymadı. İqrar soruşdu:

— Özünü necə hiss eləyirsən?

Gözlənilməz sual Şər Müzəfferi çaşdırdı. O, nə deyəcəyini bilmədi, donub qaldı. Yanaqlarının əti səyriməyə başladı. İqrar sualı bir də təkrarladı. Şər Müzəffər səsi titrəyə-titrəyə dedi:

— İqrar, bilirəm bura niyə gəlmisən.

— Niyə gəlmişəm?

— Məndən intiqamını almağa.

— Almayım?..

Sual cavabsız qaldı.

— Mənə niyə şər atdın?

— Qələt eləmişəm.

— Arvadım, bacım yaşayan evin qapı-pəncərəsini döyməkdə məqsədin nə idi?

— Axmaqlıq eləmişəm.

— Anamın ölümünə sən səbəb olduğunu bilirsənmi?

— Yox.

— Arvadım başqasına ərə gedib, oğlumu da başqası saxlayır. Başıma bu oyunları niyə açdın?

Sual cavabsız qaldı.

— Məni niyə təqib eləyirsən? Kim idi evimdə mənə atəş açan?

— Tacəddin.

— Aha... Bu qədər pisliyin kökündə kim dayanırdı?

— Müstəntiq Xatazadə, sonralar Pərvin Namazov, Gəncəli polkovnik Tofiq.

— Gəncəli polkovnik Tofiq hardadı?

— Xərçəngdən ölüb.

— Arvadına təzyiq göstərərək öldürmüsən.

— Arvadımı öldürdüyünü heç kəsə demərəm. Ölümünü üzə-

rimə götürərəm.

— Yaxşı, götür dəstəyi, təcili tibbi yardıma telefon aç. Arvadının ürək tutmasını xəbər ver və onlardan kömək istə. Başqa söz desən, başını üzəcəm.

Bütün vücudu tir-tir əsən Şər Müzəffər tapşırığı yerinə yetirdi. Aradan beş dəqiqə keçər-keçməz İqrar ikinci tapşırığı verdi:

— Təcili tibbi yardıma bir də zəng çal. De ki, daha gecdi. Arvadım keçindi. Əks halda, bıçaq ürəyinə yeriyəcək.

Şər Müzəffər bunu da elədi. Telefonda artıq həkimlərin yola düşdüyünü bildirdilər. Şər Müzəffər dəstəyi yerinə qoymuşdu ki, İqrar bıçağı onun ürəyinin üstündən endirdi. Sonra cinsi orqanlarını kəsdi. Qan çölə fışqırmağa başladı. Müzəffərin hərəkətsiz hala düşdüyünü görcək İqrar mətbəxə qaçıb bir stəkan gətirdi. Onu qanla doldurub başına çəkdi. Sonra stəkanı yuyub cibinə qoydu. İqrar astadan:

— Qoşa qarıyın, qoşa uyuyun. O dünyada görüşənədək! — dedi.

*  *
*

Mənzərin meyidini yataq, əri Müzəffərinkini istirahət otağında görən həkimlər nə edəcəklərini bilməyib əl-ayağa düşdülər. Tibb işçiləri gələndə hələ də Şər Müzəffərin aldığı bıçaq yaralarından qan damcı-damcı axırdı. Bu, onu göstərirdi ki, həkimlərin gəlişiylə törədilən cinayət hadisəsi arasındakı zaman əlaqəsi çox azdı. Güman ki, qatil o anda çox da uzağa gedə bilməzdi. Onlar dərhal polisə və xəstəxanaya telefon edib vəziyyəti bildirdilər. Qonşulardan əvvəl polislər və ikinci təcili tibbi yardım maşını gələndə üzbəüz qonşular da ayıq-sayıq düşdülər. Adamlar çaş-baş qaldılar. Dərhal cəsədlərin müayinəsi başlandı. Həkimlərin ilkin ehtimalına görə Mənzərin ürəyi qorxu nəticəsində çatlamışdı. Ölüm hadisəsi baş verdiyini eşidən Badam qarı adamların arasından özünü içəri atdı. O, Mənzərin cəsədini görcək qışqırıb geri atıldı. Onun beyinə işləyən səsi həkimləri də, polisləri də və hətta girəcəkdə dayanıb gözləyən adamları da həyəcanlandırdı. Oğlu Mahir anası Badamı geri çəkmək istəyirdi ki, arvad şapıltıyla koridorun döşəməsinə sərildi. Oğlan anasını qucağına almaq istəyirdi ki, kimsə dedi:





— Qoy, həkimlər ona sakitləşdirici iynə vursunlar, yardım eləsinlər.

Badam bir balaca özünə gəldi. Mahir anasının qoluna girib onu evə apardı. Eşidib bilənlər hadisə yerinə axışırdılar. Tanıyanlardan kimsə Müzəffərin qonşu binada yaşayan anasına xəbər çatdırdı. Minayə gələndə ev, girəcək adamla doluydu.

Ana cumub cəsədi qucaqlamaq istəyirdi ki, kimsə dedi:

— Səbr elə. Polislər gəlirlər. İmkan verin, əl-ayaq izlərini götürsünlər. Təhqiqat aparacaqlar, mane olmayın.

Qəfil baş verən hadisədən Minayə də tutulmuşdu. O, nə ağlaya, nə danışa bilirdi. Gələnlərin qabağına qaçır, oğlunun, gəlininin qatilini adamlardan soruşurdu. İlk baxışda adama elə gəlirdi ki, bu qadın ruhi xəstədi. Əlindən heç bir iş gəlməyən, kimsədən məlumat ala bilməyən ananın elə bil getdikcə donu açılırdı. Törədilənləri anlamağa başlayırdı. O, birdən qışqırıb baş-gözünə döyməyə, saçlarını yolmağa başladı. Arabir qonşuları köməyə çağırırdı. Onun aləmində nə oğlu, nə də gəlini belə bir cəzaya layiqdi. Onlar günahsızdılar. Hansısa namərdin, qansızın əliylə qətlə yetiriliblər. Ana bu cinayətin səbəbini və onu törədənin kimliyini təsəvvürünə gətirə bilmirdi. Səs-küyə, haray-qışqırığa gələn adamlar da çaş-baş qalmışdılar. Minayədən savayı hamı şər Müzəffərin kimliyini, əməllərini yaxşı bilirdi. Anlayırdılar ki, bu qisasdı. Adamlar bir-birinə yaxınlaşır, ürəyindəkiləri boşaldırdılar: “Eləmişdin, elədilər”, “Şəhəri az qala qırıb çatacaqdı”, “Ailələrə bədbəxtlik gətirdi”, “Neçə ananı gözü

yaşlı qoyub”, “Satqının, əclafın biriydi”, “Yaxşı oldu onu məhv elədilər”, “Əcəb eləyib aradan götürdülər”, “Dəyyusa bu da azdı”, “Baştutan gorbagor”, “Bəlkə, adamların canı qurtara”, “Qalsaydı neçə adamı bədbəxt eləyəcəkdi”, “Öldürənin başına dönüm”... Hamı onu oğru, dələduz, qaniçən, murdar, namərd, ikiüzlü, yalançı, pulgir kimi tanıyırdı. Qonşu Ruh kişi yanında dayanana dedi: Ulu babası da, atası da bu xislətdəydilər, mərdimazarıydılar. Neçə günahsızı qətlə yetirmişdilər. Onun-bunun arvadına, qızına sataşmışdılar. Babasını da qətlə yetirmişdilər. Gorbagor eynən ata-babasına çəkib. Qonşulardan heç kim ona rəğbət bəsləmirdi, əksinə, öz aralarında: —Yaxşı oldu, rədd elədilər başımızdan, — deyirdilər. Bununla belə amansız qətlə müəmmalı cinayət kimi baxanlar, onu təfərrüatıyla öyrənməyə çalışanlar da vardı...

Mənzər ali təhsilli həkim olsa da işləmirdi. Son vaxtlar xəstəydi. Ancaq geyinib-gecinməyi sevərdi. Üç uşaq anasını boşatdırıb Şər Müzəffərə ərə gəlmişdi. Hər gün güzgü qabağında fırlanmaq, gündə dörd-beş dəfə paltar dəyişmək, daş-qaş taxmaq onun şakəriydi. Pula, daş-qaşa hərisliyi ən ali hisslərdən yüksəkdə dayanırdı. Qonşu arvadları ona “farmazon” ləqəbini qoymuşdular. Hər axşam da o, Şər Müzəffərlə hesaba oturardı.

— Yığdığını, tapdığını bura qoy. Bu gün dünənkindən niyə az olub?

— Düzələr. Tələsmə.

Sanki Şər Müzəffərlə farmazon Mənzərin torpağı bir yerdən götürülmüşdü. Halları bir, xislətləri bir... Pula, zinət şeylərinə hərislikləri bir.

Şəhərdə üzlərini görməsələr də, bu ailə barəsində təsəvvürü olmayan az-az adam olardı...

Sahə müvəkkili mayor Sarıyev üzünü adamlara tutub dedi:

— Evdən çıxın. İmkan verin, işimizi görək.

Minayə dərhal soruşdu:





— Mən mərhum Müzəffərin anasıyam. Mənzərin də qayınanası. Qurban olum, icazə verin mən qalım.

Sarıyev müstəntiq Pərvin Namazovun üzünə baxdı:

— Nə deyirsiz, cənab müstəntiq?

— Qalsın. Ancaq qalanlar çıxsınlar.

Adamların üzündən əsəbilik, qorxu, həyəcan, vahimə oxunurdu. Minayənin gözlərindən isə hirs, qəzəb, nifrət tökülürdü. Əsəbilikdən özünü saxlayanmayan, bir az da çılğın, emosional Qumru qarı hirslə dedi:

— Mənzər mənim bacım qızıdı. O, öləsi bala deyildi. Ağzım yananda üstünə qaçardım. Əl tutardı. İndi mən hara üz tutacam? Gümanım ona gəlirdi. Bu, allahsızlıqdı. Kiminlə haqq-hesabın var, onunla çək də hesabını. Gəlinin nə günahı, a namərd? Bəyəm arvada əl qaldırmaq, onu öldürmək kişi işidi?

Minayə dönüb çəp-çəp Qumruya baxdı. Qumru dərhal özünü yığışdırdı. Sözünə xeyli düzəliş verdi:

— Minayə yazıq deyilmi? Nə zülmlə oğul böyüdüb, ərsəyə çatdırıb. Şəhərdə sözü keçən iki kişidən biriydi Müzəffər. Gözünün ağı-qarası bircə balası getdi. Özü də necə? Al-qana boyanmış halda. Bundan sonra o binəva neyləyəcək? Bu yaşda arvad təzədən ərəmi gedəcək?! Lap tutalım getdi, uşaqmı doğacaq?! Onu böyüdüb ərsiyə çatdırmağa ömürmü çatacaq?! Yox! Kimsəsiz qaldı Minayə! Zülmlə uşaq böyütmüşdü. Bu müsibətə kim dözər?!

Hadisə yerində axtarış aparan hüquq-mühafizə işçiləri cəsədləri nəzərdən keçirdilər. Müxtəlif pozalardan cəsədlərin şəkilləri çəkildi. Videolentə köçürüldü. Qonşular danışdırıldı, ilkin izahatlar alındı. Axırda müstəntiqin göstərişiylə meyidlər tibbi ekspertiza üçün xəstəxanaya göndərildi. Müstəntiq Pərvin Namazovun, sahə müvəkkili Sarıyevin, baş leytenant Sərdarovun, zərərçəkən Minayənin və qonşu, ağsaqqal Kamandar kişinin iştirakı ilə evə baxış keçirildi. Mümkün izlər, şübhə doğuran fakt-

lar qeydə alındı və qətlin motivi müəyyənləşdirildi: qətl tamah məqsədiylə törədilməmişdir; qızıl-ziynət şeyləri, beş yüz min ABŞ dolları, üç yüz min milli əskinas öz yerindəydi. Müzəffərlə Mənzərin birlikdə çəkdirdikləri və çərçivəyə salınaraq divardan asılan şəkillərinin götürülməsi istisna olmaqla cani ev əşyalarından heç bir şeyə toxunmamışdı. Hazırda təkcə şəkil yoxa çıxmışdı. Yəqinliklə belə qənaətə gəlindi: qətldə tamah məqsədi güdülməmişdir. Şəklin getməsi maraq doğurur. Böyük ehtiyatla, hansı bəhanəyləsə cani çox ehtimal ki, Mənzərin qapı açması zəminində evə soxulmuşdur. Qatil professional səviyyədə məqsədinə nail olmuş və evdən getmişdir. Cinayətin törədilməsi, vaxtı, hadisə yerində səs-küyun eşidilməməsi, həyət-bacada, binanın həndəvərində, girəcəyində caninin görünməməsi, heç bir iz qoymaması qatilin peşəkarlığına dəlalət eləyir...

Bu qətl müstəntiqi də, polis işçilərini də həyəcanlandırdı. Onlar oturub-durub fikirləşirdilər: Müzəffərin cinsi orqanlarının kəsilməsi göstərir ki, qətl namus üstə törədilmişdir. Bəs nə üçün qatil cinayəti başqa yerdə deyil, məhz evdə törətmişdi? Mənzərin ölümü hansı məqsədi güdürdü? Sonra gələn həkimlərin də diaqnozlarına görə Mənzər ürək tutmasından ölmüşdü. Heç şübhəsiz ki, bu ölüm qorxu, vahimə nəticəsində baş vermişdi. İz azdırmaq, yoxsa, şahidi aradan götürmək? Cinayətdə üçüncü versiya nə ola bilərdi? Bəlkə, bu qadının ölümü ərini xilas etmək üçün apardığı mübarizənin nəticəsidi? Bu cani Mənzərin keçmiş oynaşı ola bilərmi? Çox güman, bu evdəki səs-küyü divarın arxasındakı qonşular eşitməliydilər. Sorğu-suala tutulmamaq, baş ağrısına düçar olmamaq üçün qonşular səs-küyü eşitsələr də, gizlədə bilərlər.

Bu dumanlı, dolaşıq məsələləri istintaq ayırd edəcək.

Ucaboy, qırmızısifət, seyrək dişli, xırda, göygözlü müstəntiq Namazov çantasını götürüb gedirdi ki, düşmənin kimliyini ağlına gətirəmməyən Minayə hönkürə-hönkürə, göz yaşları yanaqlarına süzülə-süzülə müstəntiqə yalvarmağa başladı:





— Qurbanın olum, oğlum, mənə yazığın gəlsin. Balamın qatilini tap. Onun qanun qarşısında cəzalandırılmasını istəyirəm. Bu yaşımda yeganə oğlumu, ar-namusu özündə olan gəlinimi əlimdən aldılar. Belimi qırdılar, başıma daş saldılar. Ümidim onlaraydı. İndi hara gedim, kimə nə deyim, bilmirəm. Məni də anan hesab elə. Mən ləyaqətsiz qadın olmamışam.

Müstəntiq dedi:

— Tələsmə, səbrli ol. Cani tapılacaq. Cinayətin üstü açılacaq. Müzəffər dostumuz idi. O, bizə də lazım idi. Təəssüf, kisəmizdən getdi. Heyf! Çox heyf!

— Sağ ol, oğlum, sənə inanıram.

Ruh kişi qonşular eşitməsin deyə ehtiyatla Minayəyə yaxınlaşıb dedi:

— Çox da ağ eləmə. Açılsa, zibili çıxar. Bu yaşında səni də evindəcə...

Minayə Ruhun gözlərinin içinə baxdı, astadan dilləndi:

— Hə...

— Hə!

Adamlar təskinlik üçün Minayəyə yaxınlaşırdılar. Qəribəydi. Yaxınlaşanlar arasında İqrar da vardı. O da qəm, qüssə içərisindəydi. Minayəyə dedi: “Dərdinizə mən də şərikəm”. Sonra ağır-ağır, kimsənin üzünə baxmadan hadisə yerindən uzaqlaşdı.

* *
*

Şər Müzəffərin arvadı Mənzərlə qətlə yetirilməsi Mirvarini çox düşündürürdü. Ürəyinə danmışdı ki, bu böyüklükdə cinayəti törədən İqrar olacaq. Əmisioğlu olduqca qapalıdı, görəcəyi iş barədə gözünün işığına da sirr verən deyil. Başqaları kimi “arxa çatmamış çırmanmağı” xoşlamır. O, yalnız iş görməyi sevir. Lap

uşaqlıqdan da beləydi. Neçə vaxtdı özümü yeyib-tökürəm, Gilan barədə qərarını mən boyda arvad hələ də öyrənməmişəm. Elə bil daşdı, sözü ondan kəlbətinlə də qoparmaq olmur. Rəhmətlik anası deyərdi: "İqrarın sir-sifəti də, oturuşu-duruşu da, halı-xisləti də eynən atasıdı. Ayağını atasının ləpirinə qoyub..." Eyvandaca oturub özünə qapılmışdı. Həyət qapısının döyülməsi onu fikrindən ayırdı. O:

— Qapı açıqdı, gəl — dedi.

İqrar gülümsünərək içəri keçdi. Mirvari əmisi oğlunu görcək ayağa qalxıb ona əl verdi və otağa dəvət elədi. Sonra astadan soruşdu:

— Nə yaman yorğun görünürsən, İqrar? Üz-gözündən əsəbilik yağır. Ədə, dünyanın dərdi-səri, bəyəm, sənə qalıb? Qardaş, nə dolanmaz başın var ki, hər bura gələndə hiss eləyirəm, özündə olmursan, sənə and verirəm Allaha, canına bax.

— Dərd də, iş də çoxdu, bacı. Neyləyim ki, qulaq ardına vurammıram, başqaları kimi, "cəhənnəmə olsun" deyib məsuliyyətdən yaxa qurtarammıram. İlqarın da işi ağırdı tikintidə. Başın qaşımağa macal tapmır. Onu köməksiz qoyammaram ki?

— İş qurtaran deyil, İqrar.

Mirvari sözünə azacıq ara verdi. Söhbətin səmtini dəyişdi:

— Eşitməmisən?

— Nəyi?

— Şər Müzəfferlə arvadı Mənzəri qətlə yetiriblər.

— Nə danışırsan, ola bilməz. Müzəffərin böyür-başında qorqoduq çoxdu, inanmıram, cəsarət eləyib ona yaxın duran olsun. Eləsi varsa, qurd ürəyi yeyib.

İqrarın sözü belə təəccüblə qarşılaması və ona qəti münasibət bildirməsi Mirvarini bayaqdan düşündüklərinin yanlış olduğuna tam əmin elədi. İndi bu xanım əmisi oğlunu and-misafa da çəkə bilərdi. Mirvari başı ilə sözünü təsdiqləyib astadan bildirdi:

— Hə... Öldürüblər. Şər Müzəffər ölməliydi, görünür, Mən-





zər də onun zibilinə düşüb. Deyirlər, bir təhər qadınmış. Ancaq bacarıqlı həkimmiş...

— Necə yəni birtəhər?

— Əxlaqca dürək.

— Şər Müzəffərin arvadı elə olardı da. Ondan başqa nə gözləmək olardı ki?

— Sən onların ölümünü eşitmisən?

— Qonşu Ema dedi... Hüzürə gedibmiş. Deyir, anası ağlayıb üz-gözünü cırırmış... Yazıq analar belədi də.

— Bəs anası bilmirdi ki, oğlu camaatı şərləyib içəri atdırır, qadın alqı-satqısıyla məşğul olur? Belə bir günün Şər Müzəffər üçün də olacağını, özünün də oğlunun vayına oturacağını düşünmürdü?

— Görəsən, kimin işi olar?

— Onu gərək öldürəndən soruşaydıq, ya da Müzəffərdən. Dünya belədi də. Öldürmüsən, öldürəcəklər. Atalar deyib: "Quyunu qazanda enli qaz, özün də düşə bilərsən". Hərə bir yolla, bacı, dünyasını dəyişir. Allah bilir, bizim başımıza nə gələcək. Ata-at zəmanəsidi. Allah uşaqlardan uzaq eləsin. Biz azdan-çoxdan, pis-yaxşı yaşamışıq.

Mirvari qulağını çəkərək "tu"... "tu" elədi.

Söhbəti dəyişmək istəyən İqrar soruşdu:

— Çayın varmı?

— Hə... Toxta, bu saat...

Mirvari tələm-tələsik mətbəxə gedib əlində çay stəkanı geri qayıtdı:

— Ay İqrar, yamanca qapalı adamsan, şəhərdə olursan, gün axşamacan adam arasındasan, xəbəri də məndən alırsan. Nə dinib-danışırsan, nə qaş-qabağın açılır. Mən də üzünə baxa-baxa qalıram. Bilirsən, o gün Əfsanə nə dedi:

— Yox!

— Deyir, İqrar əmi bizə daha sual vermir, daha bizi istəmir.

— Oy... oy... Aman Allah, uşaq düz deyir. Başım elə qatışır, uşaqları unuduram. Gərək belə olmasın...

İqrar əslində öz hayındaydı. İçindəki fırtına, tufan onu dəli-divanə eləyirdi. Gərilən əsəbləri sanki çarmıxa çəkilirdi:

Mirvarinin əmisioğluna yazığı gəlirdi. O, dedi:

— Keç, o biri evdə uzan, dincini al. Ona kimi də nahar hazırlayım, ye-iç, sonra gedərsən.

İqrar bu sözə bənd imiş kimi ayağa qalxıb yan otağa keçdi. Pencəyini çıxarıb stulun arxalığından asıb divana uzandı. Gözlərini yumsa da Mənzərin günahsız ölümü ona sakitlik vermirdi. Hadisədən saatbasaat, günbəgün uzaqlaşdıqca Mənzərin ölümünə daha artıq yanırdı. Nə fayda. Cinayət törədilmiş, Mənzər dünyasını dəyişmişdi... Şər Müzəffər yadına düşəndə, onun ölüm səhnəsini, yalvarışlarını xatırlayanda qəzəbi, nifrəti birəyüz artır, əsəbiləşib Mənzərin də ölümündə özünə haqq qazandırırdı. Onun aləmində arvad hər vasitəylə ərini cinayətlər törətməkdən, pis əməldən çəkindirməyə borcludu. Mənzər bu borcunu ödəməmişdi...

İqrarın həyatına təhlükə ola biləcəyini ehtimal eləyən Mirvari qəlbində daim intizar, həsrət, həyəcan, qorxu, təlaş hissi yaşadırdı. Ona elə gəlirdi ki, günün istənilən anında kimsə İqrarın ya qətlə yetirildiyini, ya da həbs olunduğunu gəlib ona xəbər eləyə bilər... Mirvari onu da yaxşı bilirdi ki, İqrarın qarşılaşmaq istədiyi, içində kin, qəzəb, nifrət bəslədiyi adamlar Əlməmməd, Xatazadə, Şər Müzəffər hansı səbəbdənsə, fərqi yoxdu, fiziki cəhətdən məhv ediliblər. İqrar bunların ölümü üçün nəinki təəssüf hissi keçirir, hətta, ola bilsin ki, indi tamam başqa bir atın üzəngisinə ayaq qoymaqdadı. İqrarın halına, xislətinə yaxşı bələd olan Mirvari anlayırdı ki, əmisioğlunun beynində fırlada biləcəyi yeganə adam Ağasəf ola bilərdi. O da ki əsgəri xidmətdə olarkən faciəli şəkildə məhv olmuşdu. Qadın oturub-durub bu faciənin — cinayətin qarşısını necə almaq barədə düşünürdü.





Ona görə də özündən iki yaş kiçik doğma qardaşı İntiqamı işdə, küçədə İqrara nəzarətçi qoymaq qərarına gəldi. İnsafən o da əmisioğlunu qarabaqara izləyir, hara, nəylə getdiyindən, kimlərlə oturub durduğundan, əlaqə saxladığından xəbər tuturdu. Güdüldüyünü açıq-açığına İqrar da duyurdu. Günlərin birində o, axır ki, Mirvariyə əsəbi halda, ancaq çox incə şəkildə irad tutdu:

— Bacı, balalarına qurban olum, məni çox izləyirsiz. İşdə İntiqam, burda sən. Yəqin şəhər üçün də nəzarətçi ayırmısan. Lap rəhmətlik nənəmiz yumurtası tərs gəlmiş toyuqları güdən kimi.

— Ay saqqalın ağarsın. Mən evdə səni niyə güdməliyəm ki?

— Əşi, evi özüm zarafat eləyirəm.

— Onda əsəbiləşmə. Əmin oğludu, yəqin səninlə yaxın olmaq istəyir. Bunun nəyi pisdi?

— Təki sən deyən olsun. Mən təsir altında yaşayammıram. Sərbəst olmaq istəyirəm.

— İqrar, deyirsən, mən də sözünü çevirmirəm. Doğrusu, səndən şübhələnirəm, əmioğlu. İstəyirəm ki, sənin Şər Müzəfferi, Mənzəri qətlə yetirmədiyinə inanam. Kaş elə olaydı. Ancaq içim mənə tamam başqa şey deyir.

— Axı nə deyir?

Mirvari tutuldu. Əvvəl nə deyəcəyini bilmədi. Sözünə ani ara verib bildirdi:

— Həyat çox keçməkeşlidi. O qədər də böyük nəsil deyilik. Hamımız güc bəlayla başımızı saxlayırıq. Şükür ki, heç kəsdən minnət götürmürük. İstəmirəm ki, məsuliyyətsiz hərəkət eləyək. Dünən baş verənləri unudaq, sabahımız barədə düşünməyək. Bəli, düz başa düşmüsən, səni güdməyi, səni gözdən uzağa qoymamağı İntiqama mən tapşırmışam. Mən ona nə demişəm? İqrar narahatdı, ürəyi xəstədi, onu özündən uzağa buraxma. Axı mənə lap uşaqlıqdan “bacı” deyirsən. Sən mənim şərəfimi, ləyaqətimi, ar-namusumu çəkə bilərsən, mənsə sənin taleyin üçün

düşünəmmərəm? Yox, İqrar, hissə qapılırsan... Unutma ki, sən mənim əmimin yadigarısan. Olub keçənləri çıxart başından. Gilanın ölümü məni də düşündürür. Artıq o, yoxdu, olmayacaq da. Reallığı qəbul eləməliyik. Sən ağıllı adamsan. Onun ardınca özünü fəlakətə atmamalısan. Cəmiyyət özü məhvərindən qopub.

İqrar Mirvarinin nə düşündüklərini təqribən duyduğundan çalışdı ki, onu fikrindən yayındırsın: — Sən səhv fikirdəsən. Heç kəslə haqq-hesab çəkmək niyyətində deyiləm...

O, etinasız halda sözünə davam elədi:

— Mirvari, dediklərinin hamısını qəbul eləyirəm. Balalarından ürəyimi də əsirgəmərəm. Gilan öz yolunu seçdi. Gərək, bu yolu seçməyəydi. Mən qəddar adam da deyiləm. — Türmədə yatmışam, — deyə çoxları düşünür ki, mən ağına-bozuna baxmadan hər cür cinayət törədərəm. Qatil də, cani də olaram. Məni bircə adam düşündürür: oğlum. Onunla birgə yaşayışım. Bu baş tutarsa, heç kimlə, heç nəylə işim yoxdu. Kimsəni atıb-kəsən də deyiləm. Bu, o demək deyil ki, heç nə fikirləşmirəm, əsəbiləşmirəm...

— İçində nələr çəkdiyini duyuram və doğma bacın üçün narahatlığını qiymətləndirirəm. Bu, belə də olmalıydı. Sənin narahatlığın qeyrətdəndi, namusdandı. Kişi şəxsiyyətini alçaltmaz, nüfuzunu tapdalatmaz...

Böyük sıxıntı, nigarançılıq keçirən Mirvari hiss eləyirdi ki, nə qədər çalışsa da, İqrarı düşüncə və əqidəsindən yayındıra bilməyəcək. İqrarın inadkarlığı, içindəki coşğun həyəcan, zirvəsindən enməyən nifrət onun bütün içini, ürəyini didib parçalayırdı. Bunu qəlbən hiss eləyən Mirvari doluxsunaraq astadan, iniltili səslə dedi:

— Tutduğunu buraxan, əqidəndən dönən deyilsən.

— Eh... Sən elə danışırsan, guya bu saat gedib kimisə parçalayacam. Ömründə məni bir toyuq başı kəsən görmüsən? Ya





barəmdə deyən olub?

— Əmioğlu, atalar yaxşı deyib: “Avazın yaxşıdı, oxuduğun Quran olsa”.

İqrar gözənilmədən ucadan güldü. Özünü saxlaya bilməyən Mirvari də ona qoşuldu. Handan-hana İqrar öz-özüylə danışırmış kimi mızıldandı:

— Həyatın müəmmalı gərdişlərinə bax. Həmişə qayğıyla, sevgiylə, məhəbbətlə yanaşdığım bacım barədə indi düşünmək belə istəmirəm. Ən əlacsız dərd doğmalarının sənə xəyanətiymiş... Özgəylə dalaşmağa, haqq-hesab çəkməyə nə varmış?..

Gözlənilmədən Mirvari söhbətin səmtini dəyişdi.

— Müzəffərlə Mənzərin qətllərinin üstü açıldı?

Gözləmədiyi sualdan diksinən İqrar əmisi qızının gözlərinin içinə baxdı. Bir şey anlamadığından sakitcə cavab verdi:

— Mən hardan bilim? Onu müstəntiqdən soruşam gərək. O da o saat şübhələnib, atar məni içəri.

— Elə də şey olar?

— Niyə olmur, əmiqızı?

— Araşdırarlar, günahsızdısa, buraxarlar. Günahkardısa, cəzasını çəkməlidi də.

— Əmiqızı eşitmisən?

— Nəyi, İqrar?

— Tülkü tülkülüyünü sübut eləyincə dərisi boğazından çıxır.

— Ola bilərmi ki, günahsız adamı tutsunlar, qatil haqsızlığa dözməyib cinayəti boynuna götürsün?

— Sən hansı cəmiyyətdən, hansı zəmanədən danışırsan, bacı?

— Öz cəmiyyətimizdən, öz zəmanəmizdən.

— Yox! Bizdə elə də sadəlövh cani olmur.

— Onda caninin vicdanı ləkəlidi.

Mənzərin qətli dərhal İqrarın gözləri qarşısında canlandı:

— Ləkəsiz vicdan sahibindən cani olmaz. Bir də ki vicdan

mücərrəd anlayışdı. Onun mahiyyətindən xəbəri olanlar da danışır, olmayanlar da. Çətini ona bir dəfə tüpürməkdi. Cinayəti törədən əvvəlcədən vicdanına tüpürür.

— Necə yəni, İqrar?

— Ola bilməz ki, eyni əməliyyatda zavallı Mənzər də, Şər Müzəffər də eyni dərəcədə təqsirkar olsunlar. Şübhəsiz birininki az, o birininki çoxdu. Yaxud biri günah işlədib, digəri onun qurbanına çevrilib. Deməli, öldürülən şəxslərdən biri günahsızdı. Qatil günahsızı öldürdüyü üçün əvvəlcədən vicdanını hərraca qoyub.

— Günahsızı öldürməyə bilməzdi?

— Mən müstəntiq deyiləm, əmiqızı. Bu qədər sual verərlər? Eşitməmisən, qurunun oduna yaş da yanar.

— Məni günahsızın ölümü yandırır. Onu necə öldürmək olar?

— İmkan ver, qatil tapılsın, sənin yanında ondan soruşaram. Nə olsun ki, qatildi, canidi, cinayətkardı, lap əclafdı, axır ki, o da adamdı.

Mirvari gülməkdən uğundu. Sonra yenə soruşdu:

— Onda nə deyəcək bizə?

— Şahidi aradan götürməkçün.

— Şahidin anası-bacısı olsun...

— Əşi, o qədər sual verdin, mənim də başım xarab oldu. Mirvari dərin fikrə getdi. Qəflətən gözlərini İqrarın gözlərinin içinə dikdi. İqrar ürəyindəkiləri gözlərində ifadə etməməyə çalışsa da o anda bacarmadı. Udqundu. Çətinliklə gözlərini Mirvarinin üzündən çəkdi. Qadının sanki ürəyi qırılıb ayaqları altına düşdü. Sinəsi qalxıb enməyə başladı. Heç bir söz demədən ayağa qalxmaq istəyirdi ki, İqrar gülümsünüb pıçıltılı səslə, aramla dedi:

— Mirvari, düz tutmusan. Qeyrətsiz kişidən, bütün qışı mağarada yatan ayı yaxşıdı. Mən qeyrətsiz olmaq istəmədim. Başqa cürə olsaydım, nə vaxtsa sənin də mənə nifrətin oyanardı. Qərarın nədi, onu da ver.

— Qeyrətinə, namusuna qurban olum, əmioğlu!

* *
*

Xudahafizləşib Mirvaridən ayrılan İqrar yolu necə getdiyini bilmirdi. Hey Müzəffərlə Mənzərin qətlində təqsirli bilinərək həbs olunan şəxs barədə düşündü. İqrar onu da anlayırdı ki, belə cinayətdə ilişən, şübhəli bilinən adamların aqibəti yaxşı olmur. Ya onun qazandığı var-dövlət əlindən alınaraq handan-hana azadlığa buraxılır, ya da rüşvət verməyə pulu olmadıqda döyülüb qol-qıçları sındırılaraq cinayət işi onun boynuna qoyulur. İqrar Mirvariylə söhbətini xatırlayaraq öz-özünə dedi:

Vicdan!.. O, gözlə görünmür, çəkisizdi. Kimdə az, kimdə çox olduğunu sübut eləmək çətindi. Şər Müzəffərin vicdanı vardımı? Olsaydı, bu qədər imkansız qız-gəlini mal kimi, zinət şeyləri tək alqı-satqıya qoyardımı? Günahsız adamları şərləyib tutdurardımı, ya hüquq-mühafizə əməkdaşlarına yem edərdimi? Adamları oğurladıb öldürtdürərdimi?.. Yaxud, elə götürək məni! Vicdanım ləkəli deyildisə, dolayısı ilə Mənzəri qətlə niyə yetirdim? Günahsız Mənzərə təzyiq göstərməklə mənim də vicdanımın səsi, qışqırtısı, çığır-bağırı aləmi başına götürməliydi! Götürmədi. Məni cırıb dağıtmalıydı! Dağıtmadı! Diksinmədi! Oyanmadı! Kimsəni köməyə çağırmadı! Məni şeytanla oturub-durmağa, iş birliyinə vadar elədi! Niyə? Doğurdanmı vicdan var? Doğurdanmı onun məskəni mənim, sənin, onun — başqa sözlə, hamımızın içindədi? Bəlkə, elə o Allahın özüdü. Mən boynuma alıram ki, qatiləm, caniyəm, qatı cinayətkaram. Özü də amansızından! Bu əllərim həm günahsız, həm də günahkar adamın qanına batıb. Təlimə yeni alışmaqda olan canavar balası

kimi dişlərimin dibini axtarsanız qan şirəsi taparsız! Gələcəkdə həmin titulları yenidən qazanmayacağıma da, söz vermirəm. Bu barədə düşünmürəm də. Alicənablığı, nəslimin qürurunu hər şeydən üstün tuturam. Sadəlövh cinayətkar da deyiləm. Mən güzgü qənşərinə keçib hadisə qabağı eybəcərliklərimi gizlədərək özümə süni görkəm verən adamlara da bənzəmirəm. Hamı mənə "qatı cinayətkar" — deyə bilər. Məni iyrənc qatil də adlandırarlar. İkiüzlülükdən, riyakarlıqdan zəhləm gedir. Mübaliğəsiz deyirəm: Qəlbimin pünhan guşələrində güc-bəla ilə də olsa, seziləcək, insanilik duyğuları mürgüləyir. Vicdanıma bəzən soyuqqanlılıqla yanaşmağı bacarıram. Həyat, yaşam insanı çox şeyə vadar eləyir. Məncə, ən böyük cinayətkar başqalarını cinayətə təhrik eləyənlərdi, əxlaq, mənəviyyat qəssablarıdı, qəlb oğrularıdı! Adam öldürməyə nə var ki?! Törətdiyim cinayətə qədər vicdanlıydım, qürurum, vüqarım vardı. Məni Şər Müzəffər alçaltdı... Neyləyim ki, məni cinayətə sürükləyənlər vicdanımla kifayətlənməyib qürur və vüqarımı da, ar və namusumu da, ləyaqət və şərəfimi də aldılar. Daha hərraca qoyulası bir şeyə gümanım yoxdu. Yazıq, zavallı Mirvari məndən vicdan umur... O, çoxdan əldən gedib, əmiqızı! Əvəzində yalan, riyakarlıq, rəzalət, ikiüzlülük, namərdlik... nələr, nələr qazanmışam. Bundan sonra da nələri itirib, nələri tapacağımı da bilmirəm. Əziz bacım, Mirvari, sənin vicdanın təmizdi. Mənim tayım deyilsən. Balalarını göz bəbəyi kimi qoru. Heç vaxt qıyma, imkan vermə vicdanlarının ləkələnməsinə! Ləyaqət və şərəflərinin tapdalanmasına...

Əziz bacım, Mirvari! Mənim taleyimçün sən yamanca narahatsan. Mən səni başa düşürəm. Canında qorxu var. Sən hər şeyi bilirsən. Ağzın da lap uşaqlıqdan möhkəmdi. Sirr saxlamağı bacarırsan. İçimdə şeytan var. Canımda ilanlar, əqrəblər cövlan eləyir. Düşündüklərimin hamısını həyata keçirəmməmişəm. Hələ qarşıda görüləcək işlərim çoxdu. Hazırda həbs olunacağım





anı gözləyirəm. Sübut eləyə biləcəklər, ya bilməyəcəklər bu sonranın işidi. Özümü müdafiəyə ağlımın, məntiqimin gücü çatacaqmı? Onu da bilirəm ki, qorxmaq, çaşmaq, həyəcanlanmaq, vahimələnmək acizlik əlamətidi...

* *
*

Bütün varlığıyla Şər Müzəffərdən qanını almaq barədə düşünən, onu aradan götürmək üçün yollar axtaran İlqar son vaxtlar qəribə hallar keçirirdi. Ona elə gəlirdi ki, Müzəffərin faciəli ölümündə onu təqsirləndirib həbs eləyəcəklər. İnsan qəribə məxluqdu. Dünən bir şey fikirləşirdi, bu gün tamam başqa şey fikirləşir. Ümidsiz, arzusuz yaşaya bilmir. Bir yerdən ümidi qırılanda, başqa bir yerdən ümid qığılcımları oyanır. Başını onunla qatır. Yenə nəsə arzulayır. Yaşamaq eşqiylə, firavanlıq arzusuyla ürəyi döyünür. Özü-özünü aldadır. Beləcə düşünən İlqar işə gündəkindən tez gəlmişdi. Axşamdan yağan çisəngi yağış kəsmişdi. Əvəzində şiddətli külək əsirdi. Çətirlənmiş nəhəng ağacların budaqları bir-birinə çırpıldıqca uğultu, gurultu, şaqqıltı aləmi başına götürür, adamı dəhşətli vahiməyə salırdı. O, balkona çıxıb titrəyə-titrəyə gah başının üzərində küləyin təsiriylə qatar-qatar uçub gedən qara buludlara, gah da ağacların qırılıb tökülən qol-budaqlarına, yerlə-yeksan olan yarpaqlarına baxdı. Hardasa özünün təlatümlü qəlbiylə tufanlı təbiət arasında bir bənzərlik gördü. Soyuğa dözə bilməyib içəri qayıtdı. Yumşaq kresloda əyləşdi. Hardansa başına qəribə fikirlər gəldi — insan anadan cinayətkar doğula bilərmi? Cinayət törətməklə başqalarına ziyan vurmaq insanlığa sığandımı? Yaxud hiyləyə, fırıldağa əl atmaqla adamların həyatına zəhər qatmaq insafdandırmı? Allah bunları götürərmi? Bu suallar ilk baxışdan cılız görünür. Uşaq da bunlara fikirləşmədən cavab verə bilər. Bu əcaib, düşük suallara gö-

rə adama əl çalıb gülmək də olar. “Sənin başın işləmir, işləsəydi, belə sualları verməzdin” də deyə bilərlər. İçərisində yaşadığımız cəmiyyətin insana təsirini azaltmaq, yaxud onun üstündən qara bir xətt çəkmək fikrində də bulunmağa dəyməz. Onsuz da insan qəbahətlər içərisində çabalayır, vurnuxur. Hər yerdə, hər an insan cinayət törədə bilər. Oğurluqla məşğul olar, zorlama əməliyyatı keçirər, satqınlıq eləyib adam tutdurar, şər, iftira, böhtan atar, adam qətlə yetirər. Bunların təsadüfdən, ya zərurətdən yarandığını demək yersizdi. Ancaq burda bir məsələ var. Cinayətin törədicisi fərddi. Cinayətkarı himayə eləyənlər ayrı-ayrı adamlardı. Axı bu adamlar, fərdlər cəmiyyətin üzvüdür. Üzvlərinin cinayət tərkibli əməllərinə içərisində yaşadığı cəmiyyət məsuliyyət daşımırmı? Bəs, bu cəmiyyət tarix qarşısında üzərinə məsuliyyət götürmürmü? Daşıyırsa, bəs onda hara baxır? Cinayəti biri törədir, cəzanı isə tamam başqa bir günahsız çəkir. Belə olduğu halda cəmiyyətin vicdanı niyə oyanmasın? Oyanmırsa, niyə başa düşmürük ki, axı həyat təkcə şirin röya və xəyallardan ibarət deyil. Acılı-şirinli xatirələrin ağuşunda uyumaqla iş bitməyəcək. İnanıram, əks halda, cəmiyyətin həyatına tətbiqi mümkün olmayan nəzəriyyələr, hüquqi aktlar xəyallar tək hara gəldi uçub gedəcəklər...

Çaxnaşmalar içərisində dolaşan İlqar onu da düşündü ki, belə havada fəhlələri işlətmək ən azı ədalətsizlikdi. Onların səhhətini nəzərə almamaq insafsızlıqdı. O, stuldan qalxıb tikinti meydanına getdi. Əmək haqları ödənilməklə fəhlələrə bu günlük istirahət verdi. Adamların üzündə sevinc parladı. İqrarı isə otağına dəvət elədi. İlqarın gözlərindən həyəcan, təlaş yağırdı. Sifəti ağarmışdı. Sanki bədəni uçunurdu. İqrar ondan heç bir söz soruşmadı. Onlar otağa gəldilər. Otaq istiydi. İqrar stullardan birini çəkib əyləşdi. İlqar qəmgin-qəmgin, nüfuzedici bir nəzərlə ona baxdı, nə fikirləşdisə, üzünü pəncərəyə tərəf tutub dərindən köks ötürdü, handan-hana sakit tərzdə fikrini ifadə elədi:





— Mənim xasiyyətim çox pisdi. Dözümsüzəm, çılğınam. Sonalamadan hər şeyə yerli-yersiz müdaxilə eləyirəm, tez münasibət bildirirəm. Çılğınlığım, istiqanlılığım həmişə məni çətinliklərlə üzləşdirir. Özüm də bilirəm ki, hərəkətlərim düz deyil. Bilə-bilə səhvlərimi təkrarlayıram. O səhvlər də məni fəlakətlərə sürükləyir. Çox çəkmir ki, bəlaya düşürəm. Bunlar da ondan irəli gəlir ki, mən yaltaqlıqla, riyakarlıqla barışa bilmirəm. Onları özümə rəva görmürəm. Yaltaqlanıb qılığa girənlərə də açığını deyim ki, yaxşı baxmıram, nifrət eləyirəm.

— Bunları mənə niyə deyirsən, İlqar. Mən səni özümdən yaxşı tanıyıram. Sadaladığın əlamətlərin haqsızlığa dözə bilməməyindən irəli gəlir. Həqiqət, ədalət axtarırsan, onları tapammayanda əsəbiləşirsən, acıdillilik eləyirsən. Ürəyin yumşaqdı. Humanistsən, mərhəmətlisən. Səni başa düşməyənlərə yerini göstərmək istəyirsən. Məncə, özünə qiymət verən adam sənin kimi hərəkət eləməlidi. Ona görə də özündən bədgüman olma.

— Bədgüman deyiləm. Dediklərim sadəcə olaraq özümə, hərəkətlərimə bir nəzərdi... Bilirsənmi, səni bura niyə çağırmışam? Xəbərin var ki, it oğlunu gəbərdiblər?

İqrar özünü bilməməzliyə vurdu. Təəccüblənirmiş kimi soruşdu:

— O, kimdi?

— Şər Müzəffəri deyirəm də.

— Hə... Fikrim tamam başqa yerdəydi. Nə olub ki?

— Gəbərdiblər alçağı.

— Mən də eşitmişəm. Ondan bizə nə?

— Qanı üstümüzə sıçramaz ki?

— Günahımız yoxsa, nədən qorxmalıyıq?

— Deyirlər, öldürən peşəkardı.

— Nədən biliblər?

— Heç bir iz qoymayıb... Neçə gündü məni fikir götürüb. Ola bilsin ki, dəyyusun zir-zibilini mənim üstümə sürtsünlər.

Avtomobil qəzasından sonra müstənbiq bu ideyaya gələ bilər.

— Sən peşəkarsan?

— Yox!

— Onda nədən qorxursan?

— Şərdən, böhtandan...

— Narahat olma.

— Getdikcə canımı vahimə alır.

— Keçən dəfə dediklərimi, görünür, qəbul eləyirsən. Pərvin Namazov Şər Müzəffərin astarıdı. Səndən pul almaq üçün ondan nə desən çıxar. Eşitdiyimə görə, o, Şər Müzəffərlə arası olmayanların siyahısını tutub, hamısını yanına çağırır. Ciblərinə girib buraxır.

— Müzəffərlə arası olmayan, ya düşmən həddində olan adamları hardan tanıyır?

— Müstəntiq Müzəffərlə bütün məsələlərdə əlaqədə olub. Onlar əqidə dostlarıdılar. Ona görə də gorbagorun əleyhdarlarını müstəntiq ondan yaxşı bilir.

— Aha.. Bizim adımız o siyahıda var?

— Yəqin ki...

— Sən deyənə baxmadım. İndi düşünürəm ki, ciddi səhvə yol vermişəm.

— Keçən şey barədə fikir eləməzlər. Ölməmişik ki, sən türməyə düşəsən, rəis.

— Təsəlli üçün çox sağ ol... Fikirləşirəm, çağırsalar nə deyim?

— Öldürmüsən?

— Yox.

— Onda deyəcəksən ki, mənim işim deyil. Əlbəttə, olanı deməlisən. İlqar, avam olma, o əclaflar yaxşı bilirlər ki, səndən adam öldürən olmaz. Pulsuz, adamsız birini tapıb boynuna qoyacaqlar. Ondan sonra hamının canı qurtaracaq.

İlqarın qorxduğunu görən İqrar gülərək zarafat elədi:





— Allah məndən də uzaq eləsin... Səni də başa düşürəm, dərd güc gələndə adam ürəyini boşaltmağa yer axtarır. “Suda boğulan saman çöpünə əl atar”. Sən nə vaxtsa, müstəntiqlə qarşılaşacaqsan. Məsləhətim budu ki, əsəbiləşmə. Özünü də aciz aparma. Nagüman adam özünü itirən olur. Naümidlik pis şeydi...

İlqar pəncərəyə yaxınlaşıb səssiz-səmirsiz göz işlədikcə uzanıb gedən şəhərə baxdı. Ancaq heç nə görmürdü. Onun ağlına da gəlmirdi ki, məsləhət aldığı İqrar da eyni hissləri, eyni narahatlığı keçirir. Onları eyni instinkt bir araya çəkib gətirirdi. Hər ikisi öz içərilərində həyəcanlanır, qorxur, təlaş keçirirdi. Bəzən də içərilərində Şər Müzəffərə nifrətdən doğan ittiham irəli sürür, qəti qərar verirdilər.

İlqar güldü. Ancaq düşündüklərinin tam əksinə olaraq qəflətən soruşdu:

— İqrar, düzünü de, Şər Müzəfféri sən öldürmüsən?

İqrarın rəngi bozardı. Ona elə gəldi ki, İlqarın qulağına nəsə çatıb. İlqarın gözlərinin içinə baxdı. Sonra da sakit səslə:

— Bu nə sözdü, İlqar? — dedi.

İlqar suala sualla cavab verdi:

— Doğrudan, xəbərin yoxdu?

İqrar başını yellədi:

— Gözləməzdim. Düşünürsən ki, türməsizləmişəm?

— Eləməmisənsə, sifətin niyə bozardı?

İqrar ani olaraq keçirdiyi halı ustalıqla pərdələdi:

— Başqası o sözü mənə desəydi, götürməzdim, İlqar.

— Sən tapançaları mənə çaya atdırdın. Ancaq özün bıçağı atmadın. Müzəfféri sən öldürmüsənsə, mənim qanımı almısan.

— Yaxşı bilirsən ki, mən həmişə o işə qarşı çıxmışam. Açığını deyim ki, türmə çox ağırdı. Ordan salamat çıxdığım üçün Allahıma dönə-dönə şükürlər diləyirəm. Mən o xarabanı gördüyüm üçün həmişə səni o ağır cinayətdən çəkindirməyə çalışmışam. Heç vaxt rəva görmərəm ki, sən cinayət törədib mən gö-

rənləri görəsən. Mənə nə dərəcədə inanırsan, o sənin öz işindi. İndi başa düşürsənmi sifətim niyə bozardı?

— Bağışla, İqrar, deyəsən, qəlbinə toxundum. Mən səni sancmaq istəmirdim.

İlqarla İqrar ayrı-ayrılıqda müstəntiq Pərvin Namazov barədə eyni qənaətə gəlmişdilər: o, dəhşətli adamdı; ondan hansı eybəcərliyi, desən, gözləmək olardı; elə gözlənilməz şeylər fikirləşib tapırdı ki, adam mat-məəttəl qalırdı, əl-ayağı yerdən üzülürdü. Yüz dəfələrlə oturub-durub adam fikirləşməli olur: bu nədi? Onu fikirləşib necə tapdı? Ağlına hardan gəldi? Hiyləgərlik bu müstəntiqdə başlıca xarakterik keyfiyyətə çevrilmişdi. Adam aldatmaq, iftira, böhtan, davakarlıq, pulgirlik, əyyaşlıq, dəyyusluq, özündən rütbəcə, vəzifəcə böyüklərin qarşısında diz çökmək... hər şey gəlirdi onun əlindən. Olduqca kinliydi. Adamları heç nədən üz-üzə qoymaq, dolaşdırmaq, sonra da onlardan ayrı-ayrılıqda faydalanmaq başlıca məziyyətləriydi. Bir sözlə, insani dəyərlərin əksinə hərəkət eləməkdən elə bil o, ləzzət alırdı.

İlqar otaqda tək qalmaq istədiyindən İqrara dedi:

— Get. Sonra söhbət eləyərik. Bir şey eşitsən, mənə də məlumat verərsən.

— Oldu.

Fikirli-fikirli İlqarın otağından çıxan İqrar nə eləyəcəyini bilmədi. O, yaxşı anlayırdı ki, İlqar əvvəllər özlüyündə nə qədər atıb-tutsa da, Şər Müzəfféri öldürmək üçün nə qədər imkanlar axtarsa da, indi bərk qorxur. Ola bilsin ki, müstəntiq Pərvin Namazovla lazımsız əlaqələri barədə ona dediklərim indi başına batır. Açıq etiraf eləməsə də İlqarda bir qədər cəsarətsizlik də, hadisələri düzgün təhlil eləməmək də, dəqiq nəticə çıxara bilməmək də var. Onu qınamıram. Yaşlı ata-ana. Cavan arvad. Pis-yaxşı əlində işi. Nüfuzu. Gəliri də kifayət qədər. Artıq Şər Müzəffər yoxdu. Nə olsun ki, onu başqası qətlə yetirib. Ən başlıcası





türmənin vahiməsi İlqarı basır... İndi mən gedim ona nə deyim? Necə deyim ki, sən narahat olma, Şər Müzəfféri mən öldürmüşəm. Buna ehtiyac varmı? İlqar, bəlkə, heç bu məsələyə qayıdan olmayacaq? Bəlkə, heç qatil tapılmayacaq? "Qanun keşikçiləri" düşərlərini toplayıb istintaq işini bağlayıb arxivə göndərəcəklər? İndidən "qarğa, məndə qoz var" deməyə nə ehtiyac var. "Arxa çatmamış çırmanmaq", ən yüngülü "tələsmək" ağılsızlıq deyilmi? Sirr saxlamağı bacarmaq lazımdı, İlqar. Heç bir iş görmədən, İlqar, haray-qışqırığın aləmi başına götürmüşdü. Nə az — nə çox iki tapança da almışdın. Kəpəzin qoynunda sən məni də qızışdırdın. Sənə bıçaq göstərdim. Bıçaqatma bacarığımı nümayiş elətdirdim. Sən elə bilirsən mən düz elədim? Qətiyyən! Sirri kimsə bilməməlidi. Bildisə, o, ağızdan çıxdısa, artıq sirr olmur. Gec-tez adamın özünə qarşı çevrilir, başına bəla açır.

İqrar anlaşılmaz hisslər burulğanındaydı. Qəflətən bədəni cimildəşdi. Özündə narahatlıq duydu. Vicdan əzabı çəkə-çəkə düşündü: İlqar, qorxma, qardaşım. Heç yadımdan çıxmaz. Mən türmədə olanda günahsız bir adamı qətl üstə şərləyib içəri atmışdılar. Onun təqsirsiz olduğunu türmədə hamı başa düşürdü. İnsafən özü də nəzakətli, oturuşunu-duruşunu bilən, yersiz danışıb-gülməyən, Allahına sədaqətli, bir sözlə, tükənməz mənəvi gücə malik bir adamıydı. Mənəvi gərginlik hallarında o özündə ləyaqət və şərəfdən doğan qüvvə və inam tapırdı. Çoxlarında olmayan bu keyfiyyətləri onu hamıya sevdirirdi. O, həmişə deyərdi: "İftira, böhtan atmaq, şər işlər görmək tərbiyəsizlikdi. Tərbiyəsizlik təkcə şəhvət hissini boğa bilməmək deyil. Həm də bütün ali hissləri tapdalamaqdı, ona tüpürməkdi. Bu isə adamın əsl-nəcabətindən uzaqlaşması, kökünü itirməsi əlamətidir. Bu, nəyə bənzəyir? Dövlət vəzifəsinə mahir kəndirbazın seçilməsinə. Bu kəndirbaz dövlət xadimindən ölkə əhalisinin umacağı nə ola bilər? Belə dövlət xadimi səlahiyyətində olanlara yaxşı nə verə bilər? Nə güzaran yaradar?" İlqarı anlayıram. Onun əxlaqı-

nın təmizliyinə, vicdanının saflığına bələdəm. Ağlına lap uşaqlıqdan qibtə eləyirəm. Sədaqətinə söz olammaz. İnsanları sevəndi. Ömrü boyu iyrənc yollara addım atmayan, uydurulan söz-söhbətlərə inanmayan, çirkin zarafatlardan, lovğa, ədəbsiz hərəkətlərdən, mənasız girinti-çıxıntılardan zəhləsi gedən bu adamın çatışmayan xüsusiyyəti o idi ki, səhvi bağışlamağı, adamlara güzəştə getməyi bacarmır. Şər Müzəffərin sifarişlərinə mən də sərt cavab verərdim. İlqar açılan atəşlə öldürülə də bilərdi. Yaxud həmin atəş mənə tutaydı, mən öləydim. Şər Müzəffərə "Gözün üstə qaşın var" deyən tapılacaqdımı? Əsla, yox. İlqar, mənim aləmimcə, Şər Müzəffərə güzəşt eləməməkdə haqlıdı. Onun yeganə günahı bacarmadığı, öhdəsindən gələmmədiyi işə girişməsiydi. Tələsib müstəntiqə elədiyi müəmmalı "hörmət", bir də verdiyi yöndəmsiz, yonulmamış cavablardı. İlqarın başı burda ağrıyacaq. O, özünü müdafiə eləyib aradan çıxammayanda mən özüm ortaya çıxmalı olacam. Onda bu qədər dəqiqliklə apardığım işin səliqə-səhmanı öz faydasını itirəcək. Bəli! Məndən əvvəl də çox deyiblər, məndən sonra da deyəcəklər: insan, doğrudan da, qəribə məxluqdu. O, həyatı üçün bir təhlükə hiss eləyəndə həmişə cinayət törətmək fikrində bulunur. Düşmənini bir göz qırpımındaca yırtıb dağıtmaq istəyir. Cani-dillə adam öldürmək! Qatil olmaq! Caniyə çevrilmək!! Deyə bilərsiz ki, bu dəliliyin əlamətləridi. Ağıllı adam kimsəni qətlə yetirməz! Bəs, o ağıllı adamın həyatına edilən qəsdin müqabilində necə? Həmən o, ağıllı sakit dayanaraq özünün həyatına növbəti qəsdimi gözləsin?! Məncə, elə bunun özü də dəliliyin simptomlarıdı. Deyə bilərsiz ki, qanunlar var. Etiraz eləmirəm. Bir anlığa mən də sizin tərəfinizdə. Əgər qanun cinayətkarın əlindədisə, yaxud cani-dillə qatilə xidmət eləyirsə, onda necə?! Kimdən imdad gözləməli? O, böyük Qüdrətdənmi?! Axı onun da səbri genişdi, tükənməzdi! Məncə, caninin, qatilin səni öldürəcəyini oturub gözləməyin, ona adekvat tədbir görməməyin özü xəstə təsəvvürün,





uydurma təxəyyülün məhsuludu. Qorxu, həyəcan və məyusluq içində vurnuxan İlqar gözləmək yolunu tutammazdı. İstədiyinə nail olammayıbsa, bu onun təcrübəsizliyilə bağlıdı. Soyuq başla, gülə-gülə adam öldürmək çox çətindi. Ola bilsin qatil zahirən soyuq görünsün, onun üzündə gülüş sezilsin, ancaq içəridə keçirdiyi tufanlardan, qara qorxulardan biz xəbərsiz olaq. Bu, caninin nifrət dərəcəsindən asılıdı. İcraçı öldürdüyünə nifrət eləməyə bilər. Onda nifrət axtarmaq əbəsdi. Unutmaq olmaz ki, icraçının nifrətini, nifrətinin dərəcəsini sifarişçinin içində axtarmaq lazım gələcək. Qorxu, təlatüm icraçıda, hiyləgərlik sifarişçidə, insanlığa xəyanət isə hər ikisində...

Yarım ildən artıq axtarışlarını davam elətdirən, onlarla adamdan guya şübhələnib izahatlar alan, başladığı istintaq əməliyyatından nəticəyə gələmməyən müstəntiq Pərvin Namazov axır ki, İlqarla üzləşmək qərarına gəldi. Bir neçə polis nəfəri göndərib onu iş yerində həbs etdirib şöbəyə apardılar. Odlu və soyuq silah tapmaq ümidiylə iş yerində, evində axtarış apartdırdı. Müstəntiqin hərəkətləri İqrarın əvvəlcədən İlqara dediklərini tam sübuta yetirdi. Danışıqlara cəlb olunmadan İlqar iki gün kamerada saxlanıldı. Müstəntiq gecə yarıdan keçmiş İlqarı otağına gətirtdi. Qarşısına ağ kağız, qələm qoyub sorğu-suala başladı. İlqarın bənizi solmuşdu, gözləri qıpqırmızı qızarmışdı, əsəbdən boğulurdu, vücudu titrəyirdi. Bu anda şöbənin işıqları söndü. Müstəntiq İlqarın müqavimət göstərə biləcəyindən ehtiyatlanıb özünü cəmləşdirdi. Əlini siyirmədəki silahın üstünə qoydu. İlqarsa, bu anlarda müstəntiqin düşündüklərinin əksinə olaraq, özünə toxtaqlıq verməyə çalışırdı. Otağın qaranlığı yarımqövsü ayın əsrarəngiz şüalarının qəmgin-qəmgin pəncərədən süzülməsiylə az da olsa ayazıdı. Müstəntiqlə müttəhim bir-birinin üz-gözündə baş verən dəyişmələri izləyəmməsələr də, qaraltılarını görürdülər. İlqarın hərəkətsiz oturduğunu görən müstəntiq sakitləşdi. Namazov stolun üstündəki əl telefonunu götürüb nöm-

rələri yığırdı ki, işıqlar yenidən yandı. Otağı çilçirağın işığı bürüdü. Ömrü boyu kin, ədavət hissiylə yaşayan, başlıca məqsədi adamları qorxudub pul qoparmaq olan müstəntiq dilləndi:

— Səninlə burda görüşmək qərarına gəldim. Özünü necə hiss eləyirsən?

Ləyaqəti təhqir olunmuş İlqar cavab verdi:

— Əla!

— Tapança hardadı?

— Nə tapança?

— Keçən görüşümüzdə stolun üstünə qoyduğun tapança.

— Məndən götürdüyün üç banderol hanı?

— Mənə böhtan atma... Sən uduzmusan. Məni şərləyə bilməyəcəksən. Səni həbs elədiyim üçün gəl mənə qara yaxma.

— Görünür, işdə də, evdə də axtarış aparmısan.

— Bəli!

— Deməli, mənim ailəmə də təsir göstərmisən? Borclu borclunun sağlığını istər, Pərvin.

— Mən müstəntiqəm.

İlqar istədi ki, hərəkətlərindən ağlı bir şey kəsməyən müstəntiqə izahat verməkdən imtina eləsin. Sonra nəsə fikrindən döndü:

— Oxşamırsan... Müstəntiqdən çox...

— Əlimdə olduğunu unutma.

— Sən də yadda saxla ki, qisasımı alacam.

— Məndən?

— Sözümü dedim!

Elmsizliyini, ağılının dürəkliyini, dünyagörüşünün məhdudluğunu dərk eləməyən müstəntiq özünə məftunluğunu qabardır, özündən arxayınlıq nümayiş elətdirirdi. Başqaları hesabına vəzifə tutmuşdu. Yersiz fəxranəlik, lovğalıq, təkəbbürlük onun canına hopmuşdu. Özündən savayı kimsəni dəyərləndirə bilmirdi. Tez-tez güzgü qabağında dayanıb qadın kimi özünə sığal verməyə, saçlarını daramağa öyrəşmişdi. O, müttəhimlə sorğu-sual qabağı həmişə güzgü qabağında dayanır, gah gülümsəyərək sifətinə xoşhallıq, gah da sərtlik gətirirdi. Maqnitofonu işə salıb bəzən səsini mülayimləşdirir, bəzən də ciddiləşdirirdi. Belə olduqda, müstəntiq təbiiliyini itirirdi. İzahat tələb elədiyi adam dərhal onun hiyləgərliyini, xəyanətini başa düşüb özünü yığışdırırdı. Səmimiyyət, inam itdiyindən onun işi də qeyri-ciddi olurdu. Müstəntiqi Şər Müzəffərlə iki cəhət birləşdirirdi: birincisi, nəsli-kökündən, doğma balasından artıq istədiyi pul; ikincisi, nazlı-qəmzəli, eyşi-işrətə meylli gözəl qadınlar. Bu iki şey üçün o, ailəsini də satmağa qadir idi. Namazov bu yolda başqalarının nifrətini duymurdu, dedi-qodularını eşitmirdi. Sözünü deməyi bacaran, döşü təpərli adamları özünə qatı düşmən sanırdı. O, yaxşı bilirdi ki, İlqar Şər Müzəffəri öldürməyib. İlqarı iki şey bu kameraya çəkib gətirmişdi: pulu və ötkəm sözü.





Müstəntiq gülümsündü:

— Dilin çox acıdı. Özün də mənə hədə gəlirsən. Burdan canını qurtarsan, bildiklərini eləyərsən.

— Baxarıq.

İlqarla sərt danışmağın səmərəsizliyini anlayan müstəntiq tədricən mülayim davranmaq qərarına gəldi:

— İlqar, cavan oğlansan, bura tamam başqa yerdi. Xarakterin nə qədər sərt olsa da cəsarətin, doğrusu, xoşuma gəlir. Azadlıqda mənəm-mənəm deyənlər, burda pişiyə dönürlər. Çünki, bilirlər ki, burda taleləri həll olunur.

— Sözünü açıq de, müstəntiq.

— Özünü nəzakətli apar. Qarşındakına qiymət ver.

Avtomobil qəzasında iki nəfərin ölümünün səbəbkarısan.

— Sübut!

— Onların sorğu-sualını aparmıram.

— Şər Müzəffər öldürülən vaxt hardaydın?

— Kababxanada.

— Müzəffərin ölümündən təqribən iyirmi-iyirmi beş dəqiqə əvvəl səni Şər Müzəffər yaşayan binanın tinində görüblər. İstəyirəm, qoyulan suallara düz cavab verəsən.

— Yalandı.

— Səni beşinci mərtəbənin bir neçə sakini görüb.

— Mən orda olmamışam. Görünür, böyük zəhmət çəkib qondarma şahidlər tutmusunuz?

— Üzünə dursalar necə?

— Gətirin, mən də tanıyım.

— İlqar, gəl bizi dağa-daşa salma. Müzəfferi necə öldürdüyünü boynuna al. Mən də sənə öz qayğımı göstərərəm.

— Mən təəssüflənirəm ki, onu öldürmək niyyətimi həyata keçirə bilmədim. Kimsə məndən qabağa düşdü. Arzumu ürəyimdə qoydu. Gərək, mən bir az tələsəydim. Sən də yaxşı bilirsən ki, bir zamanlar oturduğum yerdə mənə güllə atılmasının sifarişçisi Şər Müzəffər olub. Onunla olan şəxsi əlaqələriniz imkan vermədi ki, sən həmin cinayətin üstünü açasan. Çünki sən özün də cinayətkarsan. Bu, həqiqətdi, müstəntiq!...

— Məni şərləyib çılğınlıq dərəcəsinə gətirməkdə məqsədin nədi?

— Boy... Nə şərləmək? Nə çılğınlıq dərəcəsinə gətirmək? Səhv eləyirsən, müstəntiq. Sadəcə olaraq, həqiqəti boynuna almaq istəmirsən. Fırıldaqlarından xəbərdar olduğumu anlayıb “şər”, “böhtan”, “iftira” sözlərini deməklə yaxanı törətdiyin cinayətlərdən qurtarmağa çalışırsan. Özündən də artıq şeylər uydurma.

— İlqar, mən hər şeyi bilirəm. Cinayəti necə törətdiyini aç danış. Kişi kimi deyirəm. Mən sənə kömək eləyəcəm. Cavan oğlansan. “Yaxşılığa yaxşılıq hər kişinin işidi, yamanlığa yaxşılıq ər kişinin işidi”. Tüpürüm Şər Müzəffərin cəmdəyinə. Sözündən belə başa düşdüm ki, guya mənim onunla əlaqələrim olub. O, indi ki, yoxdu. Səninlə yaxınlıq mənə daha sərfəlidi.





— Əcəb müstəntiqsən. “Hər işin düzəlib, qalıb bircə saqqal darağın”. İndi də başlamısan, mənə ağıl verməyə. Hətta, elə danışırsan ki, guya qeydimə qalırsan. Həyatım üçün məsuliyyət daşıyırsan. Səndən də yaxın adamım yoxdu. Qaldı bizim yaxınlığımıza. Unutma ki, mən cinayətkarlarla əlaqələrə girmirəm. O, mənim üçün ən böyük təhqir olardı.

Müstəntiq yüngülcə başını yelləyə-yelləyə gülümsündü və halına heç bir təfavüt eləmədən sakit səslə, aramla danışmağa başladı:

— İlqar, açığını deyim ki, mən səninlə danışammıram. Guya biz lap düşmən həddindəyik. Axı bu belə deyil. Sən imkanlı oğlansan. Hər şeyin var. Bir balaca sıxışdırmışam, dəli olmaq dərəcəsinə gəlmisən... Keçirdiyin hissləri başa düşürəm. Baxıram, mənim də ruhum inciyir. Sən keçən dəfə kabinetində mənə böyük hörmət elədin. İndi də onunla dolanıram. Söz verirəm, sənə qarşı etinasızlıq, saymazlıq eləməyəcəm. Sən mənə inanmırsan. Məni özündən kənarlaşdırmağa çalışma...

— Cənab müstəntiq, bizim tərəflərdə sən söyləyənlərə “moizə eləmək” deyirlər.

— O, nə deməkdi, İlqar?

— İti görüm, qurdu görüm, səni görməyim.

Müstəntiq nəfəsi təngimiş halda ucadan dedi:

— Sözündən belə çıxır ki, mən yalan deyirəm? Burda sənə yağlı vədlər verib arxada öz bildiyimi eləyəcəm? Müstəntiq üzünü yana çevirərək sözünə davam elədi:

— Gorun çatlasın, qəbrin od tutub yansın, Müzəffər! Niyə elə düşünürsən ki, mən yalan danışıram, dilimə həqiqəti gətirəmmirəm?

— Onları sən deyirsən, müstəntiq!

— Sən qatilsən! Canisən! Toplanan faktlar, gətirilən dəlillər sənin törətdiyin cinayətlərini sübuta yetirir. Sən müxtəlif bəhanələr gətirməklə faktdan qaça bilməzsən. Bir yolun var, o da tö-

rətdiyin cinayəti boynuna almaq, İlqar!

— Xeyir, müstəntiq! Sadaladıqların sənin uydurma dəlillərindi. Həqiqətdən uzaq subyektiv fikirlərin, qondarma mülahizələrindi. Onların da mənə şəxsən heç bir dəxli yoxdu. Yaxşı olar ki, cinayətin açılmasına, həqiqi qatilin tapılmasına çalışasan, cənab müs-tən-tiq!

— Bu, nə deməkdi, sənin başın xarab olub, deyəsən.

— Cənab, tək mənim başım xarab olsaydı, nə vardı ki?

— Başa düşmürəm.

— Niyə ki? Bir nəfər ağlı başında olan adam göstər. Hərə bir cürə...

— "Oxunu atıb, yayını gizlətmə". Sözünü axıracan de...

— Yəni, hərə bir cürə dəlidi.

— Bunu kim deyib?

— Hər kim. Sahibini tapıb cəzalandırmaq sənin səlahiyyətindədi.

— Sənin dilin zəhərdi, kəsilməlidi.

— Mənə təsir göstərmə, müstəntiq. Niyyətinə çatanmayacaqsan.

— Mənim niyyətim həqiqəti tapıb ortaya qoymaqdı.

— Hansı həqiqəti?

— Bilirsən hansı həqiqəti. Özün də söz güləşdirirsən.

— Mən indiyədək bir həqiqət tanıyırdım. İndi isə anlayıram ki, həqiqət bir olsa da, səciyyəsi ikidi.

— Başa düşmədim... Yəni necə?

— Cənab, biri sənin düşüncənin məhsulu olan, qondarma faktlara əsaslanan, saxta dəlillərinin törəməsindən alınan "üzüqara həqiqət", ikincisi isə mənim beynimdə inikas eləyən həqiqət.

— Məni dolayırsan?

— Öz adını mənə qoyma, müs-tən-tiq!

— Fırıldaqsan! Unutma ki, sənin kimiləri mən çox görmü-





şəm.

— İnanmıram.

— Təkəbbürlü adamsan. Elə bilmə ki, çoxbilmişsən, hiyləgərsən, zirəksən! Əsla yox! Dediklərin hüququ yayındırmadı! Həm də çərənçisən! Sənin kimi səfehləri, boşboğazları danışdırmaq mənə də ləzzət verir...

Bu sözləri deyən müstəntiq dayandı. Səsinə ara verdi.

— Gərək belə danışmayaydım — deyə təəssüfləndi. — Mən bu alçağı karıxdırmaq istədim. Gör nə baş verdi. Onu şübhələndirdim. Faydasız bir iş gördüm. O, heç vaxt mənə inanmayacaq.

Özünə lazım olan izahatı bu gün alammayacağını anlayan müstəntiq İlqarı kameraya göndərib otaqda var-gəl eləməyə başladı. İstədi onu döydürüb, gözünü qorxutmaq üçün yanına iki şərəfsiz göndərsin. İlqarın arxasında kimlərinsə ola biləcəyini düşünüb, fikrindən vaz keçdi.

* *
*

Neçə gün idi ki, kameraya salınan İlqar öz içinə qapanmışdı. Hey düşünür, ruhu xəstələr kimi öz-özünə danışırdı. Tez-tez fikirləri qarışdığından başında qurduğu sistem dağılırdı. Özüylə bacara bilmir, çaşırdı. Bəzən nə deyəcəyini də unudurdu. Çarpayısına uzanıb yenidən eyni şeyləri beynində çözələyirdi. Bir az keçirdi, yenə düşüncələri qatış-bulaş olur, sonu bir tərəfə çıxmayan xaotik bir vəziyyət alırdı. Hey düşünürdü: Şər Müzəffəri qətlə yetirmiş olsaydım, həbsim mənə o qədər də təsir eləməzdi. Gələcək müəmmalı həyatım indi-indi ala-toran halda, gözlərim önünə gəlir. Mən burda — bu dar, qaranlıq, rütubətli kamerada ikən, əlləri işdən qalan ağsaqqal atam, ağbirçək anam necə olsun? Bəs cavan, ikicanlı arvadımın taleyi? İqrar, qardaşım, sən nə qədər haqlısanmış?.. Ağıllısanmış... Tanış-bilişlər, dostlarım

barəmdə görən nə düşünürlər?

Qəribədi. Bol-bol müəmmalı düşüncələr. Beynimi qurd kimi didən dəhşətlər! Vahimə, fəlakət doğuran yöndəmsiz suallar! Ölçüsüz-biçisiz mühakimələr! Yaramaz qənaətlər! Amansız ittihamlar! Sonu uzunillik qazamat, türmə həyatı! Çirkab! İftira! Yalan! Böhtan! Cinayəti boynuma qoyacaq qondarma ifadələr! Yalançı şahidlər! Günahın olmadan özünü boş və mənasız müdafiə! Axırı guya ifşa! Bəs türmədə vəziyyət necə olacaq? İşgəncələr! Söyülmələr!.. Döyülmələr!.. Müxtəlif cəza növləri ilə qarşılaşmalar!.. Fikirləşəndə adam dəhşətə gəlir. Bu arqumentlər nədən irəli gəlir? Qorxaqlıqdanmı?! Həyata olan sevgili münasibətdənmi?! Yaşamaq eşqindənmi?! Etiraf eləyim ki, burda canımın qorxusu da, ədalətə, həqiqətə basqından doğan nifrət də, içimdəki ən ali insani duyğular da var!..

Çarpayıda eşələnən İlqar zəhlətökən, qorxunc fikirlərdən yaxa qurtara bilmirdi. Bu fikirlər gecə-gündüz yırtıcı qurd kimi beynini deşir, ürəyinə dəhşətli əzablar verirdi. Kədərli hiddət, şəxsiyyətini alçaldan, mənliyinə uyuşmayan nifrət doğulurdu...

Fikrin gətirdiyi əzablardan, əsəbilikdən, bunlara rəğmən bəzən yaşamaqdan da qorxurdu. Bəzən detalların, hadisələrin üstünü toz-duman alır, qatılaşan nifrət, hiddət duyğuları seyrəlir, hadisələrin sirli guşələri ayazıyır, təsəvvüründə aydınlıq yaranırdı. Bəzən də hər şey — faktlar, iddialar, mülahizələr çılpaqlığı ilə şüurunda əks olunub, əsəb məngənəsinə atılır, qəlbini hiddət və nifrət didir, çılğınlaşırdı...

Belə bir psixoloji məqamda, təsir altında qurduğu sistemin altını üstünə çevirir, dağıdırdı. Onda da əli hər tərəfdən üzülürdü. Ağa qara, qaraya da ağ deməli olurdu:

— Bir halda ki, mən bu qədər qorxu, həyəcan keçirəcəkdim, gərək, İqrarın sözünə baxıb tapancanı çaya atmayaydım. Şər Müzəfferi girib kabinetindəcə özüm qətlə yetirəydim. Onda qanımı almış olardım. Atam, anam, tanış-bilişlərim də görərdilər ki, mən qisasımı almışam. Müstəntiqin də suallarına tərəddüd eləmədən cavab verərdim: Əcəb eləyib Şər Müzəfferi öldürmüşəm. Cinayəti törətdiyim üçün də peşman deyiləm. Nə fikirləşirsiz, cənab müstəntiq, qətlə yetirilən məni tüfənglə vurdura bilərdimi? O, törətdiyi cinayətə görə cəzasız qalmalı, mən də onu vurmamalıydım? Cənab müstəntiq, siz də bu işdə günahsız deyilsiz. Cəzasızlıq ən böyük cinayətdi. Siz onun verdiyi rüşvətə aldanmayıb vaxtında cəza tətbiq eləsəydiz, o, həbs olunsaydı, qələt eləyib şəhərdə bu qədər cinayətlər törətməzdi. Bu gün mən və mənim kimi günahsız adamların da arxasınca düşməzdiniz. O gün İqrar necə dedi: “Siyahı tutulub adamların cibi boşaldılır...” Əcəb işdi. Adamlar min bir əzabla gedib balası üçün çörək qazanırlar, onu da bir fırıldaqla əllərindən alırsınız... Buna nə ad vermək olar? Başqa uşaqların göz yaşları hesabına öz övladlarınızı güldürə bilərsinizmi? Yox, cənab müstəntiq. Bir nağılda deyildiyi kimi, heç vaxt buynuzsuz qoçun qisası buynuzluda qalmır. Mən də inanıram ki, dünyanı tənzimləyən var. Ola bilməz ki, həmişə nahaq ayaq tutub yerisin. Ədalətsizlik ədaləti boğsun. Bu qədər nadanlıq, ləyaqətsizlik, şərəfsizlik olmaz axı. Şər Müzəffər qaba cinayətkar idi. Siz də onunla şərik, həmrəy. İndi də mən sizdən soruşuram: sizin cəzanız nədi? Sizinlə kimlər haqq-hesaba oturmalıdırlar? Şərə, böhtana rəvac verib bir zaman günahsız İqrarı həbs elədiz. Onu səkkiz il azadlıqdan kənarda saxladız. O gün televizora baxıb Xatazadənin faciəli ölümündən xəbər tutdunuzmu? İnanın, belə bir gün də sizinçün olacaq.

Qatı cinayətkarlardan, şəhvət düşgünlərindən bundan artıq nə gözləmək olar? Elədikləriniz sizin mahiyyətinizdi, simanızdı. Şər Müzəffərdə mərhəmət hissindən, ərənlikdən, ədəb-ərkandan söhbət gedə bilməzdi. Dəhşətli dərəcədə həyasız idi. Nadanlığa xidmət eləyən yalançı süni təvazökarlıq onun xarakterinə hopmuşdu. Pula hərislik, insanlara paxıllıq üzündən həd-

siz cinayətlər törədən bu simasız, bu şərəfsiz hər cür alçaqlığa əl atırdı. O, öz arvadını, qızını, oğlunun bir üzü qız, bir üzü gəlin arvadını da işi keçən adamların altına salırdı. Sonra da bu belə də olmalıymış kimi adamlar içində arsız-arsız danışıb gülür, arnamusdan dəm vururdu. Siz də ona baxıb altdan-altdan qımışırsız, arxasınca nalayiq sözlər deyirsiz, "oğraş" adlandırırsız. Sonra da ona güzəştə gedirsiz. Bunu nə adlandırmaq olar? Boz bulanıq düşüncələr, bayağı hərəkətlər, hırıltılı gülüşlər kimə gərəkdi? Mənhus işlərə baş qoşmaq hüquq mühafizəçilərinə yaraşarmı? Xalqın gözü sizdədir. O, ümidini sizə bağlayır. Sizdən də nalayiq işlər görəndə, axmağı, dəyyusu, dələduzu, cinayətkarı müdafiə etdiyinizin şahidi olanda sizə inanarlarmı?! Adamların sizə həqarətlə baxmalarını təsəvvürünüzə gətirirsinizmi?! Gədə-güdənin ortaya atılıb simasızlığını nümayiş elətdirmələri yalnız nifrət doğurur. Kimsə deyə bilər ki, bunların hamısı söz-söhbətdi, dedi-qodudu, böhtandı. Sən düz danışmırsan. Özün də get kimə deyirsən, de. Biz neçə illəri belə işləmişik, bundan sonra da belə olacaq. Bunlar kimə gərəkdi. Ən başlıcası niyyətiniz nədi? İstifadəmi, məqsədə çatmaq üçün müvəqqəti iş birliyimi, həmkarlıqmı? Yox! İnanmıram, siz də elələrinə yaxşı baxasız. Başqa yolunuz da yoxdu. "Üzünə tüpür, əlindəkini al" prinsipiylə gününüzü keçirirsiniz. Hərdən adam düşünür ki, zalım səlahiyyətli kabinetində oturub ədalətsiz göstərişlər verirsə, məddah, nadan qul-beçələr cinayətlər törədirsə, onda kimə nə deyəsən?

Cəmiyyət heç vaxt yalnız mərhəmətlilərdən, ədalətlilərdən, həqiqətpərəstlərdən, yaxud da yalnız nadanlardan, naxələflərdən, dələduzlardan ibarət olmayıb. Belə olsaydı, yaşadığımız həyat da iki qəpiyə dəyməzdi. Tarixən cəmiyyətdə düz xətt üzrə inkişaf yoxdu. Həyatın dolanbacları, kələ-kötürləri düzündən çoxdur. Hər şeyə insanlıq çərçivəsindən yanaşılmalıdır. Yanaşa bilirikmi? Əlbəttə, yox.





O, danışdıqca əsəbiləşdiyindən özündə-sözündə deyildi. Bir yerdə qərar tuta bilmirdi. Otaqda o tərəf-bu tərəfə gəzirdi. Hərdənbir də köksünü ötürüb dizlərinə vururdu. Birdən otağın ortasında dayandı və astadan: — Pul, varidat, şəhvət, vəzifə Şər Müzəffər kimilərin insani hisslərini öldürür. Onlar unudurlar ki, ləyaqətli ömrün sonu şərəfli ölümdür. Pulun ətri, şöhrətin çələngi adamı çaşdırır: qızışdırır, qızışdırdıqca da simasızlaşdırır...

*   *
*

İlqarın həbsini eşidən İqrar bir an içində donub qaldı. Kiminlə nə danışacağını bilmədi. Düşündü ki, onsuz da mən indi İlqarla görüşəmməyəcəm. Mənə onun yanına getməyə imkan verən də olmayacaq. İlqarın ilişməsinə səbəb öz ehtiyatsızlığı, səbirsizliyidi, düşünülməmiş atdığı addımlardı. Mənim ehtimalım düz çıxdı. O, İlqarla qarşılaşdı. Ancaq nahaq yerə. Burda Şər Müzəffərin ölümü bir bəhanədi. Onu rüşvət qoparmaq üçün həbs eləyiblər. İlqar ona gedəcəkmi? İnanmıram. Ancaq İlqar da tərsdi. Qəribədi. Prokuror Fərid Babayevin yerini başqa şəhərə dəyişən kimi müstəntiq İlqarı qamarlayıb içəri atdırdı. Belə çıxır ki, İlqarın gücü, qüvvəsi Fəriddəymiş... Ola bilər. Burda nə pis iş vardı ki? Doğrudu, mən onunla bircə dəfə görüşmüşəm. Ancaq ilk təəssürat da adama çox şey deyir. Onun üz-gözündən kişilik, mərdlik, ərənlik yağırdı, insanlıq duyulurdu. Baxışları səmimiydi. Üzündən mehribanlıq oxunurdu. Mən Fəridimi axtarıb tapım? Mən ona necə deyim ki, Şər Müzəffərin ölümündə İlqarı şərləyib tutublar. Onun bu işdə günahı yoxdu. Onda mənə sual verməz ki, bəs sən hardan bildin? Birdən dedi: "Araşdıracaqlar, təqsirsizdisə, buraxacaqlar". Onda sözüm nə olacaq? Çox güman ki, elə deyəcək! Hələ ola bilər ki, başqa cürə desin: "O, mənlik deyil", "Qələt eləyib, bir dəfə sizi süfrəyə dəvət eləmə-

dim ki?..” Aman Allah bunu desə, mənə ölüm fərzdi. Bəlkə, müstəntiqin özüylə görüşəm. Onun mənə cavabı nə ola bilər? “Araşdırma gedir”, “Günahkardı”, “Qətldə əli var”, “Qətli İlqar təşkil eləyib”, “Şər Müzəffəri İlqar öldürüb”, “O, qatildi”, “Cinayət törətməsəydi, onu içəri atmazdıq...”. Gəl indi bunlara döz görüm, necə dözürsən?.. Onda da əsəbləri cilovlayamma, əlindən xəta çıxart. Artıq əskik danış, səni də bir bəhanəylə salsınlar içəri... İlqarın ehtiyatsız, düşünülməmiş hərəkətləri gör nəylə nəticələnir? İnanıram ki, indi onun həndəvərində fırlanan kabus, sabah mənim başımın üzərini alacaq. Başqa cür də ola bilməz. Gərək, İlqarı nəzərimdən kənara buraxmayaydım. Axı necə? O uşaq deyildi ki, otur evdə, heç hara getmə — deyəydim. İlqar, — Tuğay dayı, Gülər xala məni bağışlasınlar, — ev heyvanı deyildi ki, tövləyə salıb ağzına da bir qıfıl vuraydım... Eh.. Əzazil dünya... Mərdi dərd-bəlaya salan dünya, insanın iradəsini necə də asanlıqla qırırsan?! Necə də amansızsan?! Bəzən dağlar ağırlıqda yükü yumalayırsan birinin boynuna... İmkan da vermirsən, çabalayıb altından çıxmağa. Öyrəncəlisən, beləl追rinin iniltilərini eşitməyə. Dinləməyə. O birisinə də bəxş eləmisən elə özün boyda, özün buxunda aləmi... Nəydi mənim günahım?! Anamın, bacımın, arvadımın, oğlumun təqsiri?! İndi də cinayətdən xəbərsiz İlqarı içəri atdırıb məni hara sürükləyirsən?! Axı özün də bilirsən, qurduğun oyunlardan mən də haliyəm... Hiyləgərsən, çoxbilmişsən, həm də xəyanətkarsan!.. Zalımsan...

Mən gedim Tuğay kişiyə, Gülər xalaya nə deyim? Necə deyim ki, Şər Müzəffəri mən öldürmüşəm? Ancaq cəzasını İlqar çəkir. Onlar mənə deməzlər ki, a biqeyrət, a bişərəf, dar günündə biz sənə dayaq durduq, evimizə gətirdik, — oğlum, — deyə sənə süfrə açdıq, qabağına çörək qoyduq, üstəlik evini təmir elətdirdik, iş verdik, nəticəsi də bu oldu? Bizə fəlakət gətirdin. İlqarın ikicanlı arvadını gözləri yaşlı qoydun.

— Yox belə olmaz, — mən də başa düşürəm. Narahat olmayın, hələ gözləyirəm, mənə imkan verin, iş bərkə düşəcəksə, mən də bu işə bir əncam qılacam. Hər dərdin öz çarəsi var. Hər müşkülün öz əncamı var... Bilirəm, Tuğay dayı, Gülər xala, yaxşılığı qiymətləndirməməyin özü də cinayətdi.

Yaranmış vəziyyətdən doğan anlaşılmaz hisslər İqrarı haldan-hala salırdı. Dərinə getdikcə hərdən bədəni cimildəşirdi. İçində baş qaldıran hansısa naməlum qüvvə onu içəridən söküb dağıdırdı. Mürgü döyən vicdanı yavaş-yavaş oyanırdı: Mən niyə belə hərəkət eləyirəm? Mən niyə başqalarının qanını qaraltmalıyam, onları əzaba, iztirablara qatlaşdırmalıyam? Qəlblərini qırmalıyam? Göz yaşlarını tökdürməliyəm? Bəyəm, bunu Allah götürərmi? Törətdiyim cinayəti öz üzərimə niyə götürməyim? Mən bu sirri faş etməklə həm özümü, həm də ətrafdakıları — Tuğay dayını, Gülər xalanı, Mətanət xanımı, İlqarı çıxılmaz vəziyyətdən qurtarmırammı? Bəli! Törətdiyim cinayəti boynuma almalıyam. Özü də tez. Əks halda, bu nadanlığı, vicdansızlığı mənə Allah da bağışlamaz. Ola bilsin ki, qohumlarım,ələlxüsus da xalam Zərnigar, bacım Mirvari də onların dediklərinə məhəl qoymayıb törətdiyim cinayətə görə məndən inciyə bilərlər. Mənə bir müddət lap nifrət də eləyərlər. Ancaq ona da inanıram ki, inciklik də, nifrət də müvəqqəti olacaq. Sonra da vicdanımın hökmü ilə hərəkət elədiyimi düşünüb mənə tərəf dönəcəklər. Bəlkə də mərdliyimə görə haqq qazandıracaqlar. Məni ən azından vicdansız, əclaf, binamus, bişərəf, xəyanətkar, sədaqətsiz, çörəyi dizinin üstündə olan adlandırmayacaqlar. Eşidib-bilənlər mənə heç bir şeyi irad tutmayacaqlar. Çoxları oğraş kimi baxmayacaq mənə. Bununla da içimdə yaranan boşluğu doldura, miskin vəziyyətimi aradan qaldıra biləcəm.

İqrar psixoloji cəhətdən elədiyi cinayəti boynuna almağa hazır idi. O, məhbus həyatından qorxmurdu. Başa düşürdü ki, həyat davam eləyir. Türmədə təsəvvür olunmaz məşəqqətlərlə qarşılaşsa da, elə bir dönüş baş verə bilər, ona münasibət tamam

dəyişər. Bu gün İqrara cani, qatil kimi baxanlar, ağır maddələrlə onu həbs eləyənlər, sabah özləri açıb azadlığa buraxarlar...

Bu və buna bənzər fikirlər içərisində vurnuxan İqrar Tuğay kişigilə gəldi. Tuğay kişi həyətdəki kötüyün üstündə oturub dərin duyuğa getmişdi. Kişi səsə diksindi, başını çiyni üstündən cəld çevirib arxasında dayanmış İqrara baxdı. Üzündə narazılıq ifadə eləyən bir kədər olduğunu duyub kişi ayağa qalxdı. Ona tərəf bir-iki addım atıb, gözlərinin içinə baxdı. Tuğayın baxışlarında aydınlıq yarandı. Bu, İqrara sirayət elədi və tez də yox oldu. Yerini ağır kədərdən doğan qəmgin görüntü tutdu. Handan-hana İqrar soruşdu:

— Tuğay dayı, eşitdim getmisənmiş. Təzə xəbər varmı?

— Müstəntiq deyir şahidlər var. Bu günlərdə İlqarla üzləşdirəcək.

— Rəsmi izahat veriblər?

— Hə.

Bunu eşidən İqrarın başından elə bil bir qazan qaynar su tökdülər. Bədəni alışıb yandı. Dərindən köksünü ötürdü. Dodaqları arasından pıçıltılar eşidildi:

— Alçaqlar, namərdlər nə qədər desən!

O, bir qədər səsini qaldırdı və sözünə davam elədi:

— Tələsməyin... Bir az da dözün. Görək axırı necə olur.

— Necə olacaq? Şahidlər varsa, deməli, qurama faktlar da olacaq. Məhkəmə də olacaq, orda əcaib məhkəmə də quracaqlar. Qatı cinayətkar kimi azı on illik həbs də kəsəcəklər. Biz yaşda adamlar onun azadlıqdan qurtaran gününü görəcəyikmi? Mənim arvada, bir də cavan gəlinə yazığım gəlir. Allah onlara qıymasın. Mən bu gün varam, sabah yox!...

Tuğay kişinin ailəsi dəhşətli sarsıntı içərisindəydi. Arvadı Gülər evin tinində dayanıb qollarını sinəsində çarpazlayaraq gözlərini məchul bir nöqtəyə zilləmişdi. Qəribəydi. O, nə fikirləşdisə, birdən-birə hıçqıra-hıçqıra ağlamağa başladı. Əri ilə





İqrar bunu görcək onun tərəfə bir-neçə addım atıb dayandılar. Arvad handan-hana özünə gəlib dedi: “Mənim yaxşı yadımdadı. Biz o uşaqları zidgirliklə böyütmüşük. Doyunca çörək yeməyiblər. Əyinləri heç vaxt təzə paltar görməyib. Biz hansı məşəqqətlərə düçar olmamışıq? O zamanlar kimsədən vəziyyətimizi soruşmağa ehtiyac yox idi. Uşaqların gözlərinə baxmaq, qəmli, kədərli baxışlarını görmək kifayət idi... İçimdə yanırdım, yaxılırdım, ürəyim yarpaq kimi əsirdi. Elə düşünürdüm ki, uşaqları böyüdəmməyəcəyik, acından, soyuqdan qıracağıq... Şükür Allaha böyütdük. İndi əlləri çörəyə çatan yerdə gör nəylə qarşılaşmışıq... Gorbagoru qanına-qəltan eləyən qatil qalıb kənarda, mənim balam düşüb odun içinə. O, orda yanır, bizim də burda cızdağımız çıxır. Namərd qatil də arvad kimi çəkilib durub kənarda. Səsini də çıxarmır”.

Bu sözləri eşidən İqrarın bədəni lərzəyə gəldi. İstədi ürəyində nə var açıb desin. Tez də özünü ələ aldı:

— Narahat olma, Allahın mərhəməti böyükdü. Ola bilməz ki, qatil günahsız adamın həbsinə dözsün. Onun da vicdanı var. Görünür, onun da nəsə gözləməsi var. Bir də gördün özü atıldı ortaya — “Şər Müzəffərin qatili mənəm”, — dedi.

— Elə şey olar? İnanmıram, İqrar! Məni dəhşətə gətirən gəlindi. Mən ona nə deyəcəm? Necə deyəcəm ki, ərin şərə düşüb türmədədi? Otur onu gözlə... Vallah çətindi. Zavallı gəlin güc verib gözlərinin yaşına... Uşaq deyil, aparıb başını aldadım. Hər şeyi özü məndən yaxşı bilir. Biz yaşda adamın dili olmur danışmağa. Kaş mən öləydim, bu günü görməyəydim.

Vallah, ay İqrar, İlqar subay olsaydı, mənə belə təsir eləməzdi.

Arvadına yazığı gələn Tuğay kişi dərindən nəfəs aldı:

— Arvad, iş adam başına gələr. Sevinc də, kədər də adam üçündü. Heç görmüsən, çör-çöpün işə düşdüyünü?

— Təsəlli üçün çox sağ ol, kişi. Mən anayam...

— Mən də atayam, Gülər.

İqrar danışmağa, təsəlli verməyə söz tapammırdı. Xeyli söhbətdən sonra Tuğay kişigillə xudahafizləşən İqrar onların darvazasından çıxdı.

* *
*

Gülər qarının dediklərindən xəcalətlənən İqrar Mirvariylə, Zərnigarla görüşmək qərarına gəldi. Əvvəl Mirvarigilin qapısını döydü. İçəri keçib oturmuşdu ki, əmisi qızı təəccüblə soruşdu:

— Bu nə sir-sifətdi, sənə nə olub?

İqrar çiyinlərini çəkdi. Sonra da bir şey olmamış kimi yalan danışmalı oldu:

— Yamanca soyuqlamışam.

— Gözlərindən əsəbilik, yorğunluq tökülür.

— Kasıblar hamısı belə olur, bacı.

— Əşi, məni aldatma, nəsə içində oynadırsan?

— Qətiyyən. Qorxduğun Əlməmməd idi. Elə getdi.. Şər Müzəffər də ömrünü bizə tapşırdı. Gilan da o cür... Daha kim qaldı ki, əmiqızı? İndi niyə əsəbiləşirəm ki?

— Mən də o gün elə fikirləşirdim. Şükür Allaha xətaları səndən uzaq oldu. Deyirlər, itin ölümünü İlqardan görürlər.

— Hə. Yazığım Tuğay kişigilə gəlir.

— İlqar sakit adamdı. Keçən dəfə yazıq gülləyə tuş gəldi. Nə qədər qan itirdi, xəstəxanada yatdı.

— Görünür, zavallı indi də onun zibilinə düşüb...

— Nə desən, çıxar. Buna nənələrimiz — qaraçuxa — deyərdilər.

— O, nəmənə şeydi?

— Adamınkı gətirməyəndə, tez-tez işə düşəndə, elə deyərlər: “Qaraçuxası yatıb”.





— Eh... Bu nənələrdən demə... Uşaqlar hardadı?

— Dərsdə.

— Gəldim, onları görəm. Sual-cavab aparım. Olmadılar evdə. Gedirəm. Zərnigar xalamla çoxdandı görüşmürəm. Canınıza sağlıq, yamanca soyuqlamışam. Həmişə o mənimlə görüşə gəlir. Söz vermişəm ki, gərək bu dəfə onu qabaqlayam.

— Əcəb eləyirsən. O, da özünə söz verib ki, görən kimi sənin abrını alsın.

— Niyə?

— Evlənmədiyin üçün. Neçə dəfələrlə mənə telefon edib. Bilirsən nə deyir?

— Yox. Nə deyir?

— Ona niyə xanım tapmırsan? O qədər gülmüşəm. Axırı dözməyib bildirdim: “Əşi, bu bəyəm, əşya-zaddı. Gərək bu barədə özü düşünə”. Allah ömür vermiş, elə dediyini dedi. Əlacsız qalıb onunla razılaşdım.

— Bu dəfə zəng çalsa, ona çatdır: İqrar deyir, kiçik bir məsələ var, onu da həll eləyim, sonra.

— İqrar ikibaşlı danışma... Biz dəli olmuşuq daha. Harda biri ölür, ya öldürürlər, ürəyimizin yağını yeyirik. Elə bilirik sənin işindi.

— Əşi, siz də qəribə adamsız. Bir az da keçsə, inanıram ki, məndən Milli qəhrəman da düzəldəcəksiz. Koroğlu! Nəbi, İqrar... Barəmdə dastan da yazacaqlar.

Hər ikisi güldü. İqrar ayağa qalxıb əmisi qızı ilə xudahafizləşdi. Çox şeydən xəbərsiz olan Mirvarinin ürəyinə bir şey gəlməsə də İqrar bu həyətə son gəlişini duyub kövrəldi və ona bildirməməyə çalışdı.

İqrar Zərnigargilin qapısının bağlı olduğunu görəndə çox pərişan oldu. Arxaya çevrilib qayıtmaq istəyirdi ki, orta yaşlı, qarabəniz bir qadın ondan soruşdu:

— Sizə kim lazımdı?

— Zərnigar xala.

— Şəhərdə yoxdular. Bir neçə günlük oğluyla gəlini onu Moskvaya aparıblar. İstəyirlər həkimə göstərsinlər.

— Nə vaxt gələcəyini deməyiblər?

— Mənə elə gəlir, bir ay çəkər.

— Çox sağ olun.

İqrar xalası Zərnigarla görüşə bilməməsinə təəssüfləndi.

Düşüncələri yol boyu onu rahat buraxmırdı. Hardansa, ağlına yöndəmsiz bir fikir gəldi: Gülər xala Şər Müzəffərin qatili barəsində danışarkən mənimi nəzərdə tuturdu? "Namərd qatil də arvad kimi çəkilib durub kənarda, səsini də çıxarmır" — fikrini necə də dəqiq ifadə elədi?! Mən Şər Müzəffəri öldürməsəydim, bu gün İlqar kamerada oturmayacaq, Gülər xala da elə odlu-odlu danışmayacaqdı. İndi mən də özümü polisə təslim etmək barədə düşünməzdim. Bəlkə də xeyir bundadı. Müzəffər heç vaxt sakit dayanmayacaqdı. Axı o, gecə-gündüz qorxu, vahimə içərisindəydi. Fikirləşirdi ki, gec-tez biz onun barəsində tədbir görəcəyik. İmkan düşən kimi bizi təkləyib ya özü qətlə yetirəcəkdi, ya da kiməsə sifarişimizi verəcəkdi. Bunu bilə-bilə niyə mən onu öldürməyəydim? Qanunlar işləsəydi, insanlığını itirən Şər Müzəffər bu qədər cinayət törədə bilməzdi. Bu gün də İlqar kamerada yatmazdı. Əgər yalançı şahidlər tapılıbsa, deməli, qondarma izahatlar da ortaya qoyulacaq... Bununla da hər şey bitəcək. "Cinayətkar, qatil mənəm" — deyə özüm ortaya atılanda şahidlər də, müstəntiq də rüsvayçı bir vəziyyətə düşəcəklər. Faktlar zibil yeşiklərinə atılacaq. Şahidlərə, müstəntiqə tüpürəcəklər. İnsan niyə özünü bu qədər ucuzlaşdırır, Xudaya? İndi-indi şeytanın nə olduğunu anlamağa başlayıram. Ali hisslərini itirmiş insan! Bəs iblis nədir? Şərəf və ləyaqətini ayaqlayan insan! Yəqin ki, gözlənilmədən cinayəti boynuma almağım əvvəl-əvvəl hamını, elə müstəntiqi də çaş-baş salacaq. Donub qalacaqlar. Sonra adamların gözləri önündə baş verən bu hadisə fantastik bir şey kimi görünəcək. Məni fanatik adlandıracaq, romantik sanacaqlar. "Başsız", "ağılsız", "dəli" deyəcəklər. Aşağılar da, yuxarılar da bu bacarıqsız, oyunbaz, fırıldaqçı, kələkbaz... müstəntiqə həqarətlə baxacaqlar. Yeyib içdikləri gürzə zəhərinə dönüb müstəntiqin qanına işləyəcək. Bu sarsıntıya, biabarçılığa ürəyi dözəcəkmi müstəntiqin?





İnsanın ağlı tez-tez kəsərini itirir. Belə olanda yerindən oynayır, sahmanını itirir. Biz azərbaycanlıyıq. Qəribə xislətimiz var: varidata hərisik; nizamsızlığa meyilliyik; həddimizi aşanıq; unutqanıq; hər şeydə özümüzü görənik... Hələ axtarsan sadalammayadığım çox şey taparsan bizdə. Fəlakət törədən, heysiyyətimizi tapdaladan bu siqlət nəyə lazım?! Bunların hər biri barədə min dəfələrlə ata-babalarımız deyiblər, danışıblar. Salnamələrdə dönə-dönə yazılıb, bunlar mənim sözüm deyil. Deyilmişləri təkrarlayıram. Kimsəni bu xilqətimiz üçün təqsirləndirməyə də lüzum yoxdu. Həyat görünür əvvəldən belə qurulub: şər xeyirə, nahaq haqqa, ədalətsizlik ədalətə, yalan həqiqətə hücum çəkir. Qalib gəlir, ya gəlmir, o başqa məsələdi.

*     *
*

Növbəti dəfə müstəntiqlə sorğu-suala oturan İlqar əvvəlki dindirmələrdəkindən xeyli sakit görünürdü. Müstəntiq psixoloji üstünlüyünü İlqara diktə eləməyə çalışırdı. Düşünürdü ki, müttəhim əsəbiləşəcək, kiçicik çək-çevirdən sonra tələblərini yerinə yetirəcək. İlqar dərhal müstəntiqin qara, çirkin niyyətiini duydu. Ona çox etinasız, saymazyana münasibət bəslədi. Müstəntiq də onu başa düşdü. Ani olaraq düşündü və bir qədər kəskin tonda dedi:

— Biz nə vaxtacan söz oynatmalıyıq?

— Xatirin istəyənədək.

— Gəl, insan kimi bir-birimizi başa düşməyə çalışaq.

— Bəyəm, keçən dəfəki heyvan kimi idi?

— Hə... Özünü dovşan tək aparırsan, müttəhim.

— Belə çıxır ki, sən də məni çaqqal kimi qova-qova tutmaq istəyirsən?

— Başa düşmədim.

— Demək istəyirəm ki, hər şey qarşılıqlıdı, müstəntiq. Bu gün sən, sabah mən.

— Yenə başa düşmədim.

— Sənə eləmədiyim cinayət barədə izahat verməyəcəm. İstəyirsən, get özün yaz.

— Mən hər şeydən halıyam, istəyirsən həqiqəti de, istəyirsən yalan danış.

— Doğrudan da, hər şeydən halısansa mənə dönə-dönə niyə bu qədər suallar verirsən? İncidib niyə hövsələdən çıxarmağa çalışırsan?

— Həqiqət naminə.

— Əcəb adamsan, müstəntiq. Gah həqiqəti bildiyini israr eləyirsən, gah da həqiqət axtardığını deyirsən. İndi mən sənin hansı sözünə inanım: ha... ha... ha... Mənə elə gəlir ki, sən həqiqətlə yalanı dolaşdırırsan, ayırammırsan. Onların hər ikisi sənin xəyallarındadı. İncimə, müstəntiq, deyəsən, bir az da romantiksən.

— Məni dolayırsan?

— Yox, mənə necə təsir bağışlayırsansa, elə də ifadə eləyirəm. Bu mənim şəxsi təəssüratlarımdı.

— Müttəhim, fantaziyasız heç bir elm ola bilməz. O cümlədən də hüquqşünaslıq... Faktlar, dəlillər — istər həqiqət olsun, istərsə də yanlış, fərqi yoxdu — düşünmədən, təxəyyülü hərəkətə gətirmədən məntiqi nəticəyə gəlmək mümkün deyil. Xülya da, xəyal da təfəkkürdən törəmədi. Əslində bunlar sözün geniş mənasında psixologiyadı. Gəl başımızı cəfəng şeylərə qarışdırmayaq.

— Siz səhv eləyirsiz, cənab müstəntiq. Psixologiya heç vaxt boş, mənasız sözlər yığını deyil. O, sizin düşündüyünüz kimi cəfəng ola bilməz. O, reallıqdı, insan qəlbinin açarıdı. Düşüncəni işıqlandırır, onu parlaqlaşdırır. Necə ki, iki vurulsun iki dörd elədiyi kimi. Başqa sözlə, riyaziyyat... Necədi, bu düsturun açılmasına şübhən yoxdu ki? Ola bilər ki, elmin inkişafı bunu başqa cür də sübuta yetirsin. Ancaq hələlik belədi, cənab müstəntiq.

— Gəl, məsələni qəlizləşdirməyək. Əks halda, hər ikimizin başımız ağrıyacaq. Vaxt itirməli, söz güləşdirməli olacağıq. Bu, nə sənə fayda verəcək, nə də mənə. Ailədə neçə nəfər işləyən var?

— Tək mən idim.

— Neçə uşağın var?

— Hələ yoxdu.

— Allah sənə də övlad qismət eləsin.

— Məsləhət bilsə, etiraz eləmərəm.

— Məntiqin güclüdü... Əsəblərin də möhkəmdi.

— Ola bilər.

— İradəni deyəmmərəm.

— Şübhə eləməyə bilərsən.

— Tikintidə təcrübən çoxdandı? Neçə ildi işləyirsən?

— On il.

— Biz nə qədər çənə döyməliyik?

. . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Müstəntiq maqnitofonun düyməsini basdı. Kor-kobud kişi səsi eşidildi — "Axşamdan xeyli keçmiş mən balkona çıxdım. Şiddətli külək əsirdi. Arabir yağış da gəlirdi. Papiros yandırdım. Bir-iki qullab götürüb surahıya söykəndim. Girəcəkdə adam gördüm. Əvvəl fikir vermədim. Sonra bu adamın ora-bura baxdığını gördüm. Şübhələndim... O, üzünü çevirib bizim balkona tərəf baxdı. Mən dərhal geri çəkildim. Diqqətlə fikir verdim,

handan-hana tanıdım. Bu adam İlqar idi. Dəqiq bilirəm. Ehtiyac olsa, üzləşə də bilərəm....”

İlqar fikrə getdi. Handan-hana müstəntiqdən soruşdu:

— Nə üçün şahid mən həbs olunana qədər polisə məlumat verməyib?

— Sadəcə olaraq qorxub.

— Daha başqa şahidin varmı?

— Var!

Müstəntiq kaseti bir qədər irəli fırladıb saxladı.

Cavan qadın səsi eşidildi:

— Mən İlqarı son vaxtlar bir neçə dəfə binanın tinində görmüşəm. O oğrun-oğrun kimisə pusurdu. Hətta, Müzəffərin arxasınca bir dəfə gəldiyini də görmüşəm...

Müstəntiq İlqarın gözlərinin içinə baxaraq: — Buna nə deyirsən, müttəhim — deyə soruşdu.

— Bu sənin məşuqəndi?

— Nə məşuqə?

— Əsəbiləşmə. Yenə varmı?

Müstəntiq əsəbi halda:

— Bəli! Bu səsi də dinləsən, məncə, kifayət elər.

Müstəntiq düyməni basdı. Yaşlı qadın danışmağa başladı:

— Mən yuxarı mərtəbədən düşürdüm. Ayaq səsləri eşidib dayandım. Gördüm İlqar gəlir. Doğrusu, onun bizim binaya gəlişi məni çaşdırdı. O, Müzəffərgilin qapısının zəngini basdı. Qapı açıldı. İlqar içəri keçdi. Dərhal qışqırıq səsi eşitdim. Bərk qorxdum. Qayıdıb evə qaçdım. Səhərə qədər səs qulağımdan çəkilmədi. Heç kəsə də bir söz deyəmmədim. Səhər eşitdim ki, Müzəffəri al-qanına boyayıblar. Mənzər də qorxusundan ölüb...

Müstəntiq:

— Bundan da, əsaslandırılmış fakt?

— Bunlar öyrədilmiş adamlardı. Sən deyənlər də öz ömrünü yaşamış nəzəriyyədi. Özü də sənin çürük nəzəriyyən.





— Sən cinayət eləmisən, özü də ayıq başla, əvvəlcədən düşünərək. Yüngülləşdirici hal kimi yaza bilərsən ki, əsəbi olmusan, affekt keçirmisən. Cinayəti şüur pozuntusu nəticəsində eləmisən. Bu, hamının başına gələ bilər.

İlqar uğundu. Xeyli güləndən sonra özünə gəlib dedi:

— Yaxşı təsəlli verə bilirsən. Lap adamın ürəyini muma döndərirsən. Şəhərdəki yas yerlərində çox olmağın məsləhətdi.

— Kəs səsini, əclaf!

— Çox gözəl adınız var, müs-tən-tiq!

Müstəntiqin hüquq elmindən məlumatsızlığı, özündən razılığı, təkəbbürü kəlməbaşı özünü göstərirdi. O, otaqda var-gəl eləməyə başladı. Çıxarıb papiros yandırdı. Pəncərəyə yaxınlaşıb həyətə baxdı. Otağa ölü bir sükut çökdü. Handan-hana gəlib əvvəlki yerində oturdu:

— Mən iyirmi ilə yaxındı müstəntiq işləyirəm. Xeyli təcrübəm var. Səriştəm, bacarığım çox şeyə imkan verir. Ağır cinayətlərin üstünü açmışam. Hüquq elminə dərindən yiyələnmiş, sərt cinayətkarlarla üz-üzə oturmuşam. Sonda törətdikləri cinayətləri boyunlarına alıblar. Cinayətkarların hamısına alçaq, oğru, dələduz... kimi baxmaq düz deyil. Mərdləri də çoxdu. Müttəhim, istəmirəm ki, səninlə mükalimədə sərt metodlara əl atım. Buna imkanım da var. Qorxutmuram səni. Ancaq onu da bildirmək istərdim ki, vadar eləsən, həmin metodun tətbiqi istisna deyil. Yüksək səviyyəli müstəntiq araşdırmalarımı nəzərə alıb, məni neçə dəfələrlə mükafatlandırıblar. Yuxarı vəzifələrə çəkmək istəyiblər. İndi də yuxarının təklifləri öz yerində qalır. Bunları deməklə sənə qandırmaq istəyirəm ki, əlimdən qurtara bilməyəcəksən. Cinayəti öz xoşunla boynuna almasan, məcbur olub alacaqsan. İndi fikirləş...

İlqar müstəntiqin gözlərnin içinə baxdı. Hiyləgərlikdən, namərdlikdən, kindən savayı heç nə görmədi. Qəlbindəki az-çox ümid qığılcımları yavaş-yavaş sönməyə başladı. Müstəntiqin

boş və mənasız, quramaları, həqiqətlə uyuşmayan fakt və dəlilləri, fikir və mülahizələri İlqarın mənəviyyatını tədricən zorlayırdı. Əxlaq və mənəviyyata əsaslanmayan, adi etik normalara sığmayan sözlər İlqarın gözləri önündə müstəntiqin ləyaqətsiz, meymuna bənzər obrazını yaradırdı. O, anlayırdı ki, qarşısındakı müstəntiq yox, qeyri-ciddi, ədəbsiz bir varlıqdı. İlqarda belə bir təssürat yarandı ki, müstəntiq insaniyyət nə olduğunu anlamır; Əxlaq və mənəviyyatca pozğundu; adi etik normaları gözləmək qabiliyyətindən məhrumdu; qeyri-ciddi, ədəbsiz sözlərlə nitqini bəzəməyə çalışır; ləyaqət və şərəf hissindən uzaqdı; hər cür nifrət və qəzəbə layiqdi; işi-gücü rüşvət yığmaq, əclaflıqla vəzifə tutmaq, ucuz karyera qazanmaqdı; hırıltı, diş ağartmalar, yalan, iftira, böhtan, qeybət xarakter cizgiləridi; məqsədinə çatmaq üçün məzəmmətdən, söyülməkdən, hətta, üzünə tüpürülməkdən qorxan, abır-həya eləyən deyil... Bunun özü qatı cinayətkarın analoqudur. Bu namərd ola bilsin ki, gecə kameraya məni əzişdirmək üçün adam da göndərsin... İlqar:

— Hansı metodu istəyirsiz tətbiq eləyin. Sizə də həmin metod tətbiq olunacaq, — dedi.

— Düşünmək üçün sənə əlavə bir həftə də vaxt verirəm.

Müstəntiq polis nəfərini çağırıb İlqarı kameraya göndərdi.

*  *
*

Kameraya qayıdan İlqar düşdüyü vəziyyətdən çıxış yolları axtarır, lakin tapammırdı. Əsəbilikdən, narahatlıqdan az qalırdı başı çatlasın. Keçib çarpayısının qırağında oturdu. Başını əlləri arasına alıb sıxmağa başladı. Nə fayda? Əlini çəkən təki ağrılar yenə bərpa olurdu. O, başını yellədi. Əlini yumruqlayıb dizinə vurdu. Qoca ana-atasını xatırladı: eh, ata, ana, yəqin düşünürsiz ki, törədilmiş cinayətdə mənim əlim yoxdu. Anam da ağlayıb





and-misaf eləyir, adamları inandırmağa çalışır ki, mənim balam şərə düşüb. O, qəddar deyil. Həqiqətən də elədi. Məni müstəntiq şərləyib. İndi də məcbur eləyir, qondarma izahat verim, cinayəti üstümə götürüm. Alçaq müstəntiqin hərəkətləri məndə belə təsəvvür oyadır ki, bəlkə Şər Müzəfərin də qətlində müstəntiqin əli var. Əgər belə deyilsə, o, ciddi-cəhdlə mənim üzərimdə niyə dayansın? Yalançı şahidlər tapıb üzümə niyə durğuzsun?.. Bəlkə də, cinayətdə heç onun əli yoxdu. Bu mənim şübhəmdi, subyektiv düşüncəmdi. Səbr eləyin...

Eh... Mətanət! Bilirəm, əzizim, evdə oturub arxamca göz yaşları axıdırsan. Birlikdə yaşadığımız günləri yadına salıb çox şeylər barədə düşünürsən. Bir zamanlar arzuların qanadında uçar, ürəyimizdən keçənləri söylərdik. Fikrən qurar, tikər, yaradardıq. Xoşbəxt gələcəkdən danışardıq. İndi oturmuşam kamerada, bir an da gözlərim önündən çəkilmirsən. — Ürəyindən keçənləri duyuram. Məndən ötrü narahatsan. Ağlayırsan. Həmişə bir şeyi nəzərə al: dost, düşmən var. Dostu ağladıb düşməni güldürə bilmərik, əzizim. Mənimlə görüşmək, ürəyini boşaltmaq üçün çarə axtarırsan... Tələsmə... Bir qapını bağlayan Allah, deyərlər ki, o birisini açar. Səni yaxşı tanıyıram. Ağıllısan... Tədbirlisən. Özü də səni çox sevirəm. Bilirəm, mənsizlik səni təngə gətirir, bezikirsən. Gərək dözümlü olasan. Ən ağır dərdləri sıxışdırıb başından çıxarmağa qabil olasan. Cismən səndən uzaqdayam, mənən, ruhən yanındayam. Səni anıram, səni düşünürəm. Bilirəm, başıma gələnlər uzun çəkə bilməz. Hər sarsıntının, əzabın sonu var, istər yaxşı olsun, istər pis. Ancaq bil ki, bu cinayəti mən törətməmişəm. Kaş törədəydim. Elə olsaydı, bu qədər əzab çəkməzdim.

Lap uşaqlıqdan "xəyanət" sözünü eşitsəm də, onun necə həyata keçirildiyini, adama necə dəhşətli, ağır təsir elədiyini təsəvvürümə gətirəmmirdim. Mən xəyanətin nə olduğunu indi anlamağa başlayıram. Adam yaramazlardan, namərdlərdən, dələ-

duzlardan nə əməllər görərmiş? Tanımadığım, üzünü görmədiyim adamlar necə də üzümə şahid dururlar. Bu ləyaqətdimi?! Bu insanlıqdımı?! Çalışmışam tanımadığım adamlara belə əl tutum, qayğı göstərim. Allah bilir, şahidlər, bəlkə də, hörmət elədiklərimdi? Əzizim, bilirsən ki, insanlara inanıram. Ömrü boyu inanacam da. Mən sadəlövh deyiləm. Ancaq Şər Müzəffərin insaniyyətdən uzaq hərəkətləri, qocaları, anaları, gəlinləri, qızları, uşaqları gözü yaşlı qoyması yadıma düşəndə az qalıram ağlagəlməz cinayətlər törədim.

Oğrularla, dələduzlarla, Müzəffər kimi alçaqlarla iş birliyinə girən, böhtanlar, iftiralar qoynunda uyuyan, mənəviyyat qəssabı müstəntiqlə qarşılaşanda dəhşətə gəlirəm. Zavallı İqrarın nələr çəkdiyini indi-indi anlayıram. Bu dar kamerada oturub-durub özümü məzəmmətləyirəm ki, niyə belələrini uzun müddət görəmməmişəm. Deyilənlərə inanmışam. Qanunlara səcdə eləmişəm. Ağlıma da gəlməzdi ki, qanunu ayaqlayanlar çox zaman qanun qoruyucularıdı. Günahkar mən deyiləm, Mətanət, günahkar üzüqara cəmiyyətdi. Bizə ədalətli, işlək qanunlar gərəkdi. Elə bir qanun ki, şahla çobana fərq qoymasın...

İqrar deyənləri indi-indi anlayıram. O, həmişə məni səbrə, təmkinə çağırardı. Olduqca diqqətli, həssas adamdı. “Sən cinayət törədə bilməzsən?” — deyərdi mənə. Üzünə deməsəm də elə bilərdim ki, İqrar qorxur, çəkinir. Sən demə, o çox ayıq imiş, həssas imiş... Yaddaşı da möhkəmdi. Sirr dağarcığıdı. İndi anlayıram ki, o niyə çox şey barəsində susur, danışmırdı. Ona qibtə eləyirəm. O, adam tanıyandı. Ucundan-qulağından bir şey anladısa, onu boş buraxmaz, axtarıb kökünə çatar. Dəmir məntiqi var. Müstəntiq barədə dediklərinin hamısı düz çıxdı. Bu, müstəntiq gədəymiş...

* *
*





Səhər yataqdan qalxanda halı özündə olmayan İlqarın soyuqdanmı, əsəbdənmi, narahatlıqdanmı, ya nədənsə, elə bil qolqıçlarını, qol-qabırğasını vurub sındırmışdılar. Ona elə gəlirdi ki, boyun-boğazı qırılıb-tökülür. Başı üstündə durmurdu. Əhvalı tamam dəyişmişdi. Sıxılırdı. Üstünə elə bil sal daşlar, qayalar uçub tökülmüşdü, dünyanın dərd-səri altındaydı... Axşamüstü İlqar yatan kameraya otuz yaşı olar-olmaz, qısaboylu, sarışın, arıq bir kişi də gətirib saldılar. Uzun sifəti, qabağa çıxmış yumru çənəsində qızılı, seyrək tüklər vardı. Bığları uzanıb ağzını örtmək üzrəydi. Adətkar olduğundan tez-tez gah əllərini bığına çəkir, gah da hərdən bir dilini çıxarıb pişik kimi bığlarını yalayırdı. Çuxura düşmüş qara gözləri işıldayırdı. Onu səssiz-səmirsiz müşahidə eləyən İlqarın bu adamdan gözü su içmədi. Düşündü ki, bu sarsağı hardan gətirdilər? Zəhləmi tökəcək. Bundansa, kamerada tək qalmağım yaxşı idi.

Kişi qısılıb kameranın küncündə xeyli vaxt səssiz-səmirsiz oturdu.

İlqar soruşdu:

— Adın nədi?

— Göyüş.

— Mənimki İlqardı.

— Lap yaxşı.

— Sən nə üstə bura düşmüsən?

Kişi bir balaca sinəsini qabartdı, təkəbbürlü görkəm alaraq cavab verdi:

— Heç... Zibilə düşmüşəm... Oturduğum yerdə... Allah başını qatsın, buna deyillər də...

İlqar onun sözlərindən heç nə başa düşmədi. Deyəsən, bunu o təzə gələn adam özü də anladı. Fikirlərinin məntiqini guya sahmana salırmış kimi ani xəyala daldı gözlərini qıydı, sir-sifətini əyişdirərək danışmığa başladı:

— Qətl üstə... Heç özüm də bilmirəm necə oldu. Başıma daş

saldım öz əllərimlə... Onun otağına girəndə qıçlarım sınaydı...

İlqar müsahibinin gözlərinin içinə baxdı. Heç nə görmədi. Düşündü ki, "öyrədib göndəriblər". Üzündə qəsdən gülüş ifadəsi yaratdı:

— Özünü ələ al, başdan danış. Görək hadisə necə olub?

Kişi bir qədər duruxub sözə başladı:

— Günortaya az qalırdı. Qonşu otağa keçdim. Şöbə müdirimiz cavan qız idi. Stolun üstündə iki paçka pul gördüm. Qız pulları dərhal götürüb stolun siyirtməsinə atdı. Mən gülümsünərək ona tərəf getdim. O, elə güman elədi ki, hücum çəkib pulları ondan alacam. O, dərhal pulları atdığı siyirtmədən tapança çıxarıb üstümə tuşladı. Onun od kimi parıldayan gözləri hədəqəsindən az qala çıxacaqdı. Çənəsi, yanaqları titrəyirdi. Yerimdəcə heyrətdən donub qalmışdım. Əvvəl nə edəcəyimi bilmədim, fikirləşdim: "Üstünə atılıb tapançanı əlindən almaq". Hadisənin nəylə qurtara biləcəyini düşünmədən qərarımı qətiləşdirirdim. Xanıma baxa-baxa aramızdakı məsafəni müəyyənləşdirdim. Fikrinin yayınacağı anı, göz qırpmalarını gözlədim. Onu belə qəddar, amansız görməmişdim. Gözlərindəki qəzəb, nifrət qığılcımları qəlbimi sıxırdı. Buna baxmayaraq, dəliqanlılıq elədim. Ov üstünə atılan pələng, şikarı üstə şığıyan qartal kimi qızın üstünə atıldım. Biləyindən tutub yana çəkərkən gözlənilmədən qapı açıldı, bir cavan oğlan başını içəri saldı. Güllə onun alnını tutdu. O, çıqqırığını çıxarmadan qapı ağzındaca yıxıldı. Hər ikimiz bu gözlənilməz hadisədən çaşbaş qaldıq. Mübarizəni dayandırıb ölənə baxdıq. Bir anlığa adama elə gəldi ki, təsadüfi qətlin, gözlənilməz cinayətin səbəbkarı biz deyilik, tamam tanımadığımız, üzünü görmədiyimiz bir şəxsdir... Araya sükut çökdü, günahsız adamlar kimi bir-birimizin üzünə baxdıq. Hər ikimiz təəssüfləndik, peşmançılıq keçirtdik. Sonra da bir-birimizi təqsirkar çıxarmağa başladıq. Mən dedim:

— Cinayəti sən törətdin, tapança sənin əlindəydi; tapançanı





sən tutmuşdun; tapançaya sən əl atmışdın.

Sonra da o, başladı məni günahlandırmağa:

— Üstümə sən atıldın, məni sən qamarladın...

Bax, beləcə başladıq imdaddan uzaq mülahizələrə, hər kəs özünü yumağa. Bu işin də faydasızlığını əvvəlcədən anlayırdıq. Ona görə də günahkar axtarası olmadıq. Qəribədi, hadisə baş vermişdi. Qana susayan iki düşmən — biz birlikdə törətdiyimiz günahsız qətlin gizlədilməsi çarəsini də birlikdə axtarmalı olduq. Əcəb məntiq! Sonra da aramızda əcaib məntiqdən doğan müəmmalı dialoq oldu:

Xanım dedi:

— Səndən qan qoxusu gəlir.

Cavab verdim:

— Cinayətini üstümə atma. Mən özümü qorumağa çalışmışam.

— A kişi, necə yəni özümü qorumağa?

— Düz adamın tapança nəyinə gərəkdi? Özün də qadın xeylağısan, deməli, əyrisən. Onun üçün də özünlə silah gəzdirirsən. Onsuz da hamısını polis araşdıracaq. Qanun qarşısında cavab verməli olacaqsan, xanım!

— Mən səni vuracaqdım, cavan oğlan, səni alqanına boyayacaqdım.

— Məni, ya başqasını, nə fərqi var, deməli, öldürəcəkdin, cinayət törədəcəkdin.

— Fərqi çoxdu, onu öldürməklə ikimiz də günahsız qana batmışıq.

— Batmışıq yox, batmışam, de, — xanım.

— Yox, batmışıq.

— Tapança kimindi, xanım?

— Mənim!

— Qətl sənin tapançandan açılan atəş nəticəsində baş verib. Tapança olmasaydı, qətl də olmazdı.

— Olacaqdı. Sən öləcəkdin.

— Bir halda ki, elədi, tapançadan mənə də atəş aç, xanım, məni də öldür, niyyətinə çat.

— Tapançanın bir patronu da var. Ondan da istifadə eləyə bilərəm. Əmin ola bilərsən, səni də gəbərdəcəm.

— Sən xanım yox, iblissən!

Mən bu sözü deyəndə onun üzündə miskin, kədərli, zəif bir təbəssüm göründü. Sonra bildirdi:

— Sözü ora-bura atma, mənim söz oynatmağa nə vaxtım var, nə də həvəsim. Qabağında iki yol var — ya cinayəti boynuna götürüb özünü polisə təhvil verməlisən, ya da mən səni güllələyəcəm; Özün də narahat olma. Sən düşünən qədər də boşboğaz deyiləm. Nə eləyəcəyimi yaxşı bilirəm. Düşündüklərimi də indi həyata keçirəcəm.

— Necə?

— Əvvəl, səni öldürəcəm, sonra da bu xarabadan cəhənnəm olub gedəcəm.

Təşviş içərisində xanıma baxdım. O, isə qapını arxadan bağlayıb tapançanın lüləsini başıma diriyərək, oturmaq hökmünü verdi və qarşıma bir ağ kağız və bir də qələm qoydu, “yaz” — dedi. Necə ki, Sərvər Məşədi İbada izahat yazdırmışdı. O, diktə eləyənləri yazmalı oldum:

Gəncə şəhər Polis İdarəsinə!

*Mən Göyüş Məti oğlu Gülüşov rəsmi izahat verirəm ki, işlədiyim idarənin şöbə müdiri Sevda İskəndər qızı Şükürzadənin pullarını almaq niyyətiylə onun otağına girdim. Tapançanı üstünə çəkib qorxutmaq istədim. Biz süpürüşdük. Qonşu otaqdan Mərifət Cəfər oğlu Həsənzadə səsə gəldi. Tapançadan atəşin necə açıldığını bilmədim. Bir də onu gördüm ki, Həsənzadə şappıltıyla döşəməyə sərildi.*

*İmza:* *Göyüş Məti oğlu Gülüşov*





İndi də gəlib düşmüşəm bu anasının əmcəyini kəsən müstəntiqin əlinə. Çevirir işi o üzə-bu üzə. Deyirəm, a balam, nə iş verəcəksən-ver. Nə cavab versə, yaxşıdı? İzahata filan şeyləri də əlavə elə. Öz qələtim azdı, başqasınınkını da boynuma alım? Axır ki, bildirdim: “Cənab müstəntiq, nə yazırsan yaz, gətir, qol çəkəcəm”. Bundan sonra məndən əl çəkdi, dedi ki, istintaqı yekunlaşdırım, çağıraram gəlib qol çəkərsən...

Deməli, İlqar orbitə düz düşmüşdü. O, müstəntiq barədə bir kəlmə də söz demədi. Gülümsünüb Sevda İskəndər qızı Şükürzadə barədə bir neçə məsləhət verdi:

— Həbsdən qurtaracaqsan... Nə vaxtsa, Sevda xanımla görüşəcəksən. Məsləhətim budur ki, onun barəsində pis fikirləşməyəsən. Axı o qadındı, həbs olunmaq onun üçün ölümə bərabərdi:

— Kaş öləydi.

— Sözümü kəsmə. Günah sənin özündə olub. Səhlənkarlığa yol vermisən, bir az da sadəlövhlüyə. O, da qorxub. Elə bilib ona xəsarət yetirib əllərindəkini alacaqsan. Həyəcandan üstünə tapanca çəkib. Kim olsaydı, qorxardı. Gərək içində ona nifrət bəsləməyəsən. Olub keçənləri unut. Əks halda, bundan sonrakı həyatını da əzablar içərisində keçirəcəksən.

Bu hadisədi, cinayətdi. Törəyib. Onu hamıya açıb-danışmaq olmaz. Məsələdən tam xəbərsiz, yarı-yarımçıq məlumatlı adamlar səni də qınayacaqlar. Məncə, bu halı sən özünə də bağışlaya bilməyəcəksən. Elin qınağı çox pisdi. Haqq, ədalət sənin tərəfində olsa da, özünü gözüqıpıq, günahkar sanacaqsan... Həyat da qəribədi. O da vəd elədiklərinin hamısını bizə qismət eləmir. Qaldı müstəntiqə o da vəzifəsini icra eləyir. Onu da qınama, Göyüş.

Belə məsləhətdi.

Göyüş İlqarın gözlərinin içinə baxdı. Daha bir söz demədi. Sabahdan o, İlqarın kamerasına bir də gətirilmədi. İlqar gülüm-

sünüb:

— Bu priyomun da baş tutmadı, cənab müstəntiq, — deyə öz-özünə düşündü.

* *
*

Səhər yatağından erkən qalxan İqrar evdə yır-yığış eləyib, Tuğay kişigilə getdi. Onu eyvandaca gözləri yaşlı Mətanət qarşıladı və: — Evdədilər, keçin içəri, — deyib özü də nəyləsə məşğul olmağa başladı. İqrar otağa keçəndə qocalar: ər-arvad özlərində deyildilər. İqrar qocalarla salamlaşıb stulda əyləşdi. — Təzə xəbər varmı — deyə soruşdu. Kişi başını yellədi. Gülər dilləndi:

— Bu gün balamın doğum günüdü, oğlum. Olub-keçənləri xatırlayıram, dağ çəkir sinəmə balamın yoxluğu. Həmişə bolluca süfrə açan Gülər xalan indi ölmək istəyir. Ancaq ölüm də məndən qaçır...

Tuğay kişi səsi titrəyə-titrəyə:

— Bəsdi, ay arvad — dedi. Özünü ələ al. Ağlayıb-sıtqamaqla iş düzəlməyəcək. Şükür ki, yerini bilirik. Şçükür ki, salamatdı.

Elə bu dəm Mətanət əlində stəkan içəri girdi. İqrarı qəhər boğdu. O, bütün mənəvi qüvvəsini toplayıb astadan bildirdi.

— Gülər xala, sənə qurban olum, axşama cücə-plov bişir. İlqar gələcək, gecə də evində yatacaq.

Mətanət özünü saxlayammayıb hıçqırdı. Gülərlə Tuğay eyni anda soruşdular:

— Kim deyir?

İqrar üzünü yana çevirib astadan pıçıldadı:

— Mən!

Bu sözü böyük inamla deyən İqrar evdən çıxıb birbaşa pro-





kurorluğa getdi. Qapı ağzında onu polis nəfəri qarşıladı:

— Kim lazımdı?

— Prokuror.

— Məşğuldu, olmaz.

— Ona çatdırın ki, cani gəlib, özünü təhvil vermək istəyir.

Polis işçisi İqrarın gözlərinin içinə baxdı:

— Sən caniyə oxşamırsan.

— De ki, Şər Müzəffərin qatili gəlib.

Bu dəfə polis, deyəsən, İqrardan çəkindi. O, geri çəkilib prokurorun köməkçisinə telefon açdı.

Dəstəyi köməkçi götürdü:

— Eşidirəm.

— Bir nəfər gəlib, deyir. Şər Müzəffərin qatiliyəm. Özünü də prokurora təhvil vermək istəyir.

— Bir dəqiqə.

Köməkçi prokurorla danışdı. Polis nəfərinə bildirdi:

— Götürün, gəlin içəri.

İqrar növbətçiylə birlikdə prokurorun otağına getdilər. Orqan rəhbərinin uca boyu, dolu bədəni, çallaşmış saçları, girdə sifəti, yekə gözləri vardı. O, İqrarı ayaqdan başa süzdü. Növbətçiyə dedi:

— Sən gedə bilərsən.

Prokuror üzünü İqrara çevirib başıyla saymazyana “buyur” işarəsi verdi:

— Müzəffərin qatili mənəm — İqrar İdrak oğlu Kamilov. Günahsız bir insan həbs olunub. Törətdiyim cinayət əməlinə görə kiminsə cəzalanmasını vicdanım qəbul eləmir. Gəldim, özümü təhvil verim.

Prokuror əlindəki qələmi stolun üstə atıb diqqətlə İqrarın üzünə baxdı. Əvvəl inanmaq istəmədi. Sonra soruşdu:

— Həbs olunan tikinti idarəsinin rəisi İlqardı?

— Bəli!

— Aa ha...

— Deməli, cinayət törətmisən?

— Yox, cənab prokuror!

— Necə yəni yox?

— Mən öldürmüşəm. Ancaq cinayətkar olub-olmadığımı istintaq ayırd eləyəcək.

— Heç nə başa düşmürəm. Mənimlə "qaçdı-tutdu" oynamaq niyyətindəsən?

— Qətiyyən!

— Yaxşı.

Prokuror selektorun düyməsini basıb müstəntiq Pərvin Namazovu otağına çağırdı. Az keçmiş Namazov çəkinə-çəkinə içəri keçdi. Prokuror dedi:

— Tanış ol! Şər Müzəffərin qatili — əsl cinayətkar!

İqrar dərhal:

— Sübut olunsa, — deyə cavab verdi.

Prokuror üzünü müstəntiqə tutaraq qışqırdı:

— Məni nə qədər aldadacaqsan? Adamları nə vaxtadək şərləyəcəksən? Günahsız adamlara nə qədər cəza verəcəksən? Budur, qatil qarşındadır. Get, İlqarı götür, yanıma gəl.

Müstəntiq dedi:

— Bu quramadı.

Prokuror:

— Qurama sənin özünsən.

Rəngi bozarmış müstəntiq qapıdan çıxdı, tez də İlqarla geri qayıtdı. Məhbusun üzünü tük basmışdı. Bir neçə gündə arıqlayaraq yanaqlarının sümükləri çıxmışdı. Gözləri çuxura düşmüşdü. Onu belə görcək İqrar qəhərləndi. İlqar gözlərinə inanmadı. "Prokurorla İqrarın nə alış-verişi ola bilər" — deyə düşündü. Ordaca görüşüb öpüşdülər. Prokuror başını aşağı dikdi. Sonra o, İlqara əl verdi və onun işarəsiylə İlqar əyləşdi. Prokuror üzünü müstəntiqə tutdu:





— Deyəsən, girdirmə əməliyyat aparmağa öyrəncəlisən? Gəlib məni inandırmağa çalışırsan ki, qatili tapmışam. Sənin tapdığın qatil İlqardı? O, heç cinayətkara oxşayır?

— Onu mən demirəm, şahid ifadələri təsdiq eləyir, cənab prokuror.

— A qanmaz, qatil qarşındadı. Gedib qondarma, yalançı şahidlər tapınca, axtarışla məşğul olaydın. İzlər axtaraydın, detallar tapaydın. Sənin ağlın hisslərinə xidmət eləyir. Başa düşürsən ki, qanun keşikçisi üçün bu nə deməkdi? Sənin kimi nadanlara, nadürüstlərə görə adamlar bizə inanmaq istəmirlər. — Özümüzü işə salarıq, — deyə hamı bizdən qaçır. Vicdansızlar o qədərdi ki, onların arasından vicdanlıları tapıb ayırmaq olmur.

— Mən bütün gücümü bu işə sərf eləmişəm, cənab prokuror, əlbəttə ki, sübuta yetirə bilməsəydim, onu da açıb buraxacaqdım.

— Döyüb, şil-küt eləyib boynuna qoyacaqdın? Mənə elə gəlir ki, xalqı sənin kimilərin əlindən almaq vaxtı çatıb. Yoxsa, çox günahsız adamları içəri salacaqsız. Şəxsən sən anlamırsan ki, cinayət olduqca mürəkkəb, psixoloji durumda baş verən hadisədi. Onun araşdırılmasına ən ciddi baxış məzmunla forma arasındakı münasibətlərdi. Boş, mənasız cümlələri, təmtəraqlı ifadələri, artıq sözləri, uydurma, dolaşıq fikirləri mahiyyətdən ayırmaq gərəkdi. Bu, psixoloji hücumları dəf etmək imkanı verir. Təkrar eləyirəm, formanı diqqətdə saxlamadan məzmuna enmək fayda verməyəcək. Fakt məzmundur. Forma isə faktlar və eləcə də faktorlar arasındakı münasibətlərdir. Onlar da gizlənən, yaxud üzə çıxarılmış ideyalara biçilən libasdır. Bu libas ölçülü-biçili də ola bilər, səliqəsiz də. Onun cavabdehi isə dərzidi. İndi qalx, qapı arxasında gözlə! Çağıranda gələrsən!

— Oldu, cənab prokuror.

Müstəntiqin qapı arxasında saxlanması İlqarın ürəyincə oldu. Onun sifətində ötəri bir təbəssüm yarandı, tez də ötüb keçdi.

İqrar gülümsünərək dedi:

— Cənab prokuror, İlqarın doğum günüdü. O, bu gecə burda yata bilməz.

Prokurorun sifəti bozardı:

— Bayaqdan baş verənlər zarafatdı?

— Niyə ki? Müzəffəri mən öldürmüşəm, mən də cavab verməliyəm.

İlqar:

— İqrar...

— Hə... Onu sən öldürmüsən?

— Mən öldürmüşəm. Cənab prokuror, indi hökmünüzü verin.

Çaş-baş qalan prokuror geri çəkilib kreslosuna yayxandı. Handan-hana üzünü İlqara tutub dedi:

— Axşam Fərid telefon açmışdı. Xeyli söhbət elədik. Bu gün günortadan sonra kabinetinə zəng çalacaq.

— Təşəkkür eləyirəm. Bəlkə təkcə bu axşam İqrara icazə verəsiz, mənim ad günümdə iştirak eləsin.

Prokuror gülərək:

— Zamın durursan, rəis.

— Bəli!

— İqrarın öz arzusuyla buraya gəlişini nəzərə alıb icazə verirəm. Hə, az qala yadımdan çıxacaqdı. İqrara bəraət veriblər. Fərid dedi ki, onu da sənə çatdırım. İndicə teleqram almışam. Sizi təbrik eləyirəm. Gələcəkdə bu, mütləq İqrara lazım olacaq.

İqrarla İlqar prokurora təşəkkürlərini bildirdilər. Kabinetdən çıxan kimi İlqar Fəridə telefon açdı. Yaxın vaxtda onunla görüşmək istədiyini bildirdi.

İqrara elə gəldi ki, anadan indi doğulub. Dostlar həyətə girəndə Gülərlə Tuğay sanki qanad açdılar. Mətanətin gözlərində gilələnən sevinc yaşı axıb yanaqlarına süzülürdü.

Axşam plov qazanı açıldı. Gülər qarı dedi: — Plovu bişirə-





cəkdim. And olsun Allahın böyük qüdrətinə, İqrar sən gəlməsəydin, bir düyü də kimsəyə verməyəcəkdim. Tuğay kişi kövrəlib dilləndi: İqrar da bizim oğlumuzdu...

İqrar təşəkkürünü bildirib plovdan doyunca yedi, səhəri gün kameraya qayıtdı.

On gün keçər-keçməz şəhərə xəbər yayıldı: Şər Müzəffərlə cinayətdə əlbir olduğu sübuta yetirilən müstəntiq Pərvin Namazov həbs olunub...

Ey dadi-bidad, — deyə — İqrar fikirləşdi: Yenə istintaq! Müstəntiq axtarışları! Dar kamera! Faktlar! Dəlillər! Mühakimələr! Mülahizələr! İttihamlar! Sübutlar! Qarşıda isə məhkəmə!..

* *
*

İqrarın özünü gedib polisə təhvil verdiyini eşidəndə elə bil dünya uçub Mirvarinin başına töküldü. Danışmağa nə dili, nə də sözü oldu. Bədəni sustaldı. Nə az, nə çox, bir həftə başını balıncdan qaldırammadı. Ona bir stəkan çayı da, bir loxma çörəyi də qonşusu Hürzat qarı verdi.

* *
*

Kamerada tək qalan İqrarı daha heç bir şey düşündürmürdü. O, əmin idi ki, qarşıda onu fərəh doğuran heç nə gözləmir. Təkcə təsəllisi o idi ki, bəraət qazanmışdı. Şər Müzəffərin ona qarşı cinayətlərinin üstü açılmışdı. Müstəntiq Xatazadənin cinayət xarakterli iş apardığı müəyyənləşmişdi. Növbəti istintaqda məhkəmədə, şübhəsiz ki, onlar nəzərə alınacaq. Ömürlük həbsdən söhbət getməyəcək. Əgər türmədə ölməsə, qırx neçə yaşındasa, oğlu ilə görüşə biləcək. İqrarın yeganə ümidi, arzusu bu idi.

O, öz taleyinin belə uğursuzluğunu düşünüb sızıltılı, iniltili hisslər keçirirdi:

— Mən bədbəxtəm. Dünyaya gəlişimin də, yaşamağımın da mənası yoxdu. Artıq heç kəsə lazım deyiləm. Türmədən nə vaxtsa, qurtarsam, oğlum da ola bilər, bu sözü mənə desin. Yəqin ki, vecsiz yerə yaşayıram. Qəribədi, indi ən ağır cinayətlər törətməyə də hazıram. Bəlkə dörd nəfəri qətlə yetirdiyim üçün öyrəncəliyəm. Çətini bir nəfəri qətlə yetirməkmiş...

Oturub-durub düşünürəm ki, insanı ən ağır cinayətkar eləmək olarmış. Necə ki, məni elədilər. Əlməmmədi, Xatazadəni öldürməyimdən hələ ki, kimsə xəbər tutmayıb. Onlar açılsa, necə olacaq? Cəmiyyət mənə necə baxacaq? Necə baxırlar, baxsınlar. Mən haqlıyam. Mən cavab vermişəm. Cavabımı kimsə, qisas da, intiqam da adlandıra bilər. Öz işidi. Qan tökmək, adam öldürmək nə asan işmiş, Xudaya. Bunun üçün sadəcə olaraq içində öldürmək hissini doğmağı bacarmaq gərəkdi. Doğdunsa, böyüdəcəksən, ərsəyə çatdıracaqsan. Bu doğulan hissə bəzən qəribə ad da qoyurlar: Şeytan. Adamın lap gülməyi gəlir. Bir də fəlakət törətmək istəyirsənsə, vicdanını yatırmağı bacarmalısan. Vicdan yatıbsa, cinayət hissi kobra kimi içində baş qaldırır. Ləyaqətini, şərəfini tapdalayıb üstündən keçir. Vicdan və qətl törətmə hissləri bir-birinə düşməndi. Onların ikisi bir araya sığmır. Ölüm, qətl və bütün əxlaqsız, mənəviyyatsız hisslərin qarşısını kəsən yeganə şey vicdandı. O, bəlkə də, insaniyyət sözünün sinonimidi. Dediklərim həqiqətdi. Təcrübədən gəlir. Bəlkə də, lap həyatın özüdü. Həyat çox mürəkkəbdi. Yaşayırıq, elə bilirik dünya da bizimdi. Yaranmışlar da bizim iradəmizə tabedi. Yox! Burda səhv eləyirik. Bəlkə, həyat da bizimdi. O, özü də bizik. Ancaq bir anlığa düşünək, özümüz-özümüzə tabe olammırıqsa, yer adlı aləmdə özümüz-özümüzə qarşı çevriliriksə, öz iradəmizi, nəfsimizi özümüz cilovlayammırıqsa, mövcudatın iradəsini özümüzə tabe elətdirmək cəhdimiz azğınlıq, qudurğanlıq, əclaflıq deyilmi?! Həyat adlandırdığımız məchul varlıq bizə xidmət eləyirsə, bizi ali bir varlığa çevirirsə, biz müəyyən məqama və məkana çatanda həddimizi aşaraq, ona qarşı çevriliriksə, görəsən, bizim adımız nədi?! Bu dar, ala-toran, rütubətli kamerada oturub fikirləşməkdən özgə çarəm yoxdu. Mən də "insan-həyat", "həyat-insan" çirkabından, onun zülm və işgəncələrindən qaçıb bura düşmüşəm.





Kim danışmayıb insan-həyat münasibətlərindən? Əlbəttə, hamı! Milyon illərdi o anlama bərbəzək vurulur, əlvan çalarlar artırılır. Ancaq hər şey tağında qalır. Mahiyyət dəyişmir ki, dəyişmir.

Bəli, onu da anlayıram ki, insan düşüncəsi fəaliyyətdədi, axtarır. Düyünlənmiş kələfin ucunu tapırlar. İpi çəkdikcə kələf çözələnir, düyünlənir, yenidən açılır. Bunun isbatına ehtiyac yoxdu. Bu, qanundu, planetlərin hərəkəti kimi. Onlar da fırlandıqca fırlanır. Həyat buymuş: zaman, məkan, şərait. Ulularımızdan qabağa gedəmmirik. Hər cür sivilizasiya yolunu keçən babalarımız təəssüflənirəm ki, özünüdərk yolunu tutammadılar. Elə biz də tutammırıq. Şübhə eləmirəm ki, o yolu tutmaq gələcəkdəkilərə də nəsib olmayacaq. İnanıram ki, həyat bunu sirr olaraq bətnində saxlayacaq.

Qəribədi, hamı özünə müdriklik görmək istəyir. Guya bunu ona kimsə əta yoluyla ötürməlidi. Gərək, insan özü düşünsün, can atsın özünüdərkə. Hər kəs öz ağacının meyvəsindən dadsın. Məncə, budur "həyat-insan", "insan-həyat" şəbəkəsinin mahiyyəti...

Müdrikliklə nadanlıq, əxlaqla əxlaqsızlıq, mənəviyyat və mənəviyyatsızlıq zidd anlayışlardı. Onların məna tutumu aydındı, çərçivəsi məlumdu. Bəs mən kiməm?! Sadaladığım anların birinci tərəfi? Əsla, yox! Onda ikinci tərəfi? O da yox! Bəs, kiməm?! Bax, bu kamerada oturub o suallara cavab tapammıram. Tapsaydım, inanıram ki, burda oturmazdım. İsti yorğan döşəkdə

yatardım. Həyat deyilən bir şeydən mən də zövq alardım. Mənim xoşbəxtliyim nadanların əlində boğuldu. Xeyli yaşım var. Hər şeyimi itirmişəm. Hər dəfə də üzümü haqq olan Allaha tuturam. İndi görək, hansı möcüzə baş verəcək? Görən, doğrudan, o möcüzə baş verəcəkmi?!

Mən günahsızam. Üzüm ağ, alnım açıqdı. Lap Allahın hüzurunda da. Doğrudu, dörd adam öldürmüşəm. Ancaq ləyaqətsizlik eləməmişəm. Şərəfsiz addım atmamışam. İnsanları sevirəm. Gözəl əməlləri sevirəm, sevəcəm də! Ədalətdi, haqdı, həqiqətdi mənim yolum! Kim məni cinayətkar sanırsa, sansın! Kim mənə nifrət eləyirsə, qoy eləsin! Mən ki, bilirəm vicdanımın təmizliyini!...

* *
*

İki gün əvvəl İlqar Şər Müzəffərlə müstəntiq Pərvin Namazovun qohum olduqlarını ona xəbər verəndə İqrar az qala eşitdiklərinə inanmadı. Ona elə gəldi ki, yuxudadı, özü də qorxulu bir röya içərisində çabalayır. Handan-hana özünə gələn İqrar qərarlaşdırdı ki, müstəntiq Pərvin Namazovun suallarına cavab verməkdən qəti imtina eləsin. Şəman Mikayılov onu izahat üçün otağına çağırtdıranda İqrar sevindi.

O, ucaboylu, qarayanız, qıvrım saçlarına dən düşmüş bir kişiydi: cod, sərt, arıq sifəti bozarmışdı. Eynək taxdığından gözlərindəki ifadələri duymaq çətiniydi. Əllərinin damarları çıxmışdı. Sağ əlinin ortasındakı nazik uzun barmağına qızıl üzük taxmışdı. Əyninə təzə, ağ cizgili qara kostyum, ağ köynək geymişdi. Boz qalstuk taxmışdı. Ayağındakı qara ayaqqabı yenicə silindiyindən parıldayırdı.

Geyiminin səliqə-səhmanı onun özündənrazılıq hissinə dəlalət eləmirdi. Hərəkətlərində ağırlıq, işgüzarlıq, baxışlarında





səmimilik duyulurdu. İddialı adama oxşamırdı. Ona qaradinməz, qapalı adam da demək olmazdı. İlk baxışdan bu şəxs İqrara yaxşı təsir bağışladı. Öz-özünə dedi:

— Bu çox yaxşı oldu. O, şəhərə təzə gəlib. Xeyli yaşı var. Yəqin ki, hissə qapılıb iş aparmaz. Qarşısında dayanan insanı başa düşər...

Müstəntiq Mikayılov arxasında əyləşdiyi masanın üstündəki sahmansız tökülmüş kağızları qovluğa yığıb şkafdakı digər qovluqların arasına qoydu. Dərindən nəfəs alıb İqrarın qənşərinə suallar yazılmış xüsusi formalı kağız, qələm qoydu və onun üzünə baxdı. O, müstəntiqin üzünə zillənən durğun baxışlarında ağır bir kədər duydu, dərhal da gözlərini ondan çəkib qarşısındakı kağıza dikdi. Müstəntiq astadan:

— İqrar, — dedi. Açığını deyim ki, sənin barəndə xeyli məlumat toplamışam. Həyatın qovğaları səni çox qarsıb. Ancaq sındırammayıb. İnsanlardan daim pislik görmüsən. Keçdiyin dolanbac, kələ-götür yollarda nələr çəkdiyini anlayıram. Bu gün mən müstəntiqəm, sən müttəhim. Cəsarətinə valehəm. Ərənliyinə heyranam. Kaş, hamı sənin tək olaydı...

Təsəvvür elə ki, bu otaqda mən də yoxam. Vərəqdə qoyulan suallara cavab yaz. Unutma ki, yalanın nə kökü olur, nə də məntiqi. Məhkəmədə prokuror, hakim adi bir sual verən kimi yalan dağım-duğum olur. Ona görə də doğru-düzgün ifadə ver. Çalışaq əsəblərimiz tarıma çəkilməsin... Etiraz eləmirsən ki?

İqrar gülümsündü və müstəntiqin gözlərinin içinə baxdı:

— Deməli, məni vicdanımla üz-üzə qoyursuz, cənab müstəntiq. Ən ağır ittiham budur. Şər Müzəffərin hərəkətlərini xatırlayanda az qala havalanıram. Obyektivliyi saxlamaq, ədalətli olmaq çətindi...

— Bilirəm, nələrə işarə eləyirsən. Danışma, yaz...

İqrar xeyli düşündü. Şər Müzəffərin özünün, ailəsinin başına açdığı müsibətləri bircə-bircə xatırladı; gördüyü, şahidi olduğu,

müşahidə elədiyi cinayətlərini, Gəncə əhlinə tutduğu divanı, Gilanın faciəli ölümünü və ondan aldığı məktubu gözləri önünə gətirdi. Evində şam naharına oturarkən özünə açılan atəşlə İlqarın yaralanmasını yadına saldı. Cinayəti nə vaxt, hansı şəraitdə, necə törətməsini yerli-yataqlı düşündü. Səkkiz illik türmə həyatından sonra aldığı bəraəti təsəvvürünə gətirdi. Yalnız bundan sonra Mənzər epizodu və nəzərdən qaça biləcək xırda detallar istisna olmaqla əsaslandırılmış izahat yazdı. İmza atıb tarix qoydu və izahatı müstəntiqə verdi. Şəman Mikayılov izahatı çox diqqətlə, dönə-dönə oxudu. Sonra gülümsünərək dedi:

— Səkkiz illik türmə təcrübəsindən də bəhrələnmisən.

— Ola bilər... Təəssüf ki, o da həyatımın bir parçasıdı.

— Bəraət qazanmağın səni tam məhv olmaqdan qurtardı. Bu, həyatının ən zəruri nöqtəsidi. Ağır cəzadan xilas oldun.

— Bilirəm, cənab müstəntiq.

— Əlavə izahata ehtiyac olarsa, yenə görüşə bilərik. Çalış təmkinini itirmə. Unudula biləcək zəruri faktları qeyd elə.

— Oldu.

— Cinayət işi tamamlanan kimi Ağır Cinayətlərə Dair Məhkəməyə göndəriləcək. Prokurorun, hakimin, vəkilin suallarına yaxşı hazırlaş. Çıxışından çox şey asılı olacaq.

— Aydındı.

Müstəntiq İqrarı kameraya göndərib onun halına acıdı.

*    *
*

Hüquqlarının pozulmadığını görən İqrar özlüyündə müstəntiqə dönə-dönə təşəkkürünü bildirdi.

Qəribədi. İnsan bəzən yüz əzab-əziyyətini, məşəqqətini həyatının bir xoş anına dəyişməyə can-başla hazır olur. Cinayətkarları, xalqa, millətə qarşı fəlakət törədən nadanları, namərdləri, quldurları niyə də müdriklərə, aqillərə qurban verməyəsən? Həyatı gözdən salan alçaqları hansı səbəbdən yerində otuzdurmayasan? Qızılgül olan yerdə qanqala ehtiyac varmı? İşıq olan yerdə qaranlıq nəyə, kimə lazımdı?! Eh... Fikirləşdikcə az qalır başım çatlasın. Mən insanam. Belə doğulduğum üçün hər gün dönə-dönə Allahıma şükr edirəm. Həm də vətəndaşam. Bəli! Canımdan da artıq sevdiyim bir ölkənin vətəndaşı. Hər an, hər saat canımı ona fəda eləməyə hazıram. İçimdə ölkəmə, vətənimə, xalqıma, millətimə sevgidən ali hiss yoxdu və ola da bilməz. Məni valideynlərim belə tərbiyə eləyiblər. Necə deyərlər: “Süldlə gələn sümüklə çıxar”. Mənim bütün vücudum, ruhum Allaha məhəbbətdən doğmuşdu. İnsanpərvərəm, insanlara sədaqətliyəm. Ən çox hörmət bəslədiyim müdrik, aqil insanlardı. Çünki aqillərlə, müdriklərlə nadanlar, yırtıcılar, vəhşi təbiətlilər bir araya gələ bilməzlər. Bəli! Budur, mənim iç dünyam!..

Sözün qısası, mənim öz düşüncəm, insanlara öz baxışım var. İndiyə qədər gördüklərim mənə çox şey deyir, çox şey danışır. Əqidəmin sağlamlığına inanıram. Əməllərimlə fəxr edirəm. Heç kəs məni yolumdan döndərə bilməz, əqidəsini mənə qəbul elətdirə bilməz. Çünki haqlıyam, ədalətliyəm. Dediklərim çoxlarına gülməli görünə bilər. Hərəkətlərimə təəccüblənənlər də tapılar... Açığını deyim ki, müstəntiq Şəman Mikayılov mənə mənən çox yaxşı təsir elədi. Ona görə yox ki, hüquqlarımı tapdalamadı, məni incitmədi, mənə güzəştə getdi. Yox! Ona görə ki, müttəhim-müstəntiq münasibətləri çox şəffaf, aydın bir müstəvidə durdu. Bir-birimizi başa düşdük. Başqa müstəntiqlər kimi mənə heyvani münasibət bəsləmədi. O, özü insan olduğu üçün mənə də insan kimi baxdı. Qoy, məhkəmədə hansı cəza verirlər, versinlər mənə. Ömrüm boyu müstəntiq Mikayılovu qəlbimdə əziz insan kimi yaşadacam.

Etiraf eləyim ki, içimdə özümdən də, ətrafımdakılardan da inciyirəm. Başa düşürəm ki, düşdüyüm acınacaqlı vəziyyət tale-

yin hökmüdü. Məqsədsiz, mənasız bir təşviş içindəyəm. Həyatım korlanıb. Ömrümü əlimdən verirəm. Canım əclafların təsiriylə kimlərəsə fəda olur. Əlacım kəsildiyindən indi də oturub-durub özüm özümə suallar yağdırıram. Mən niyə yaşayıram? On il də indi türmə cəzası alsam, dözə biləcəmmi? Nə olsun ki, bəraət almışam. Nə az, nə çox, on səkkiz il türmədə yaşadığımı bilənlər inanıb mənə etibar eləyəcəklərmi? Mənimki mövcud olmaqdı, yaşamaq yox. İnsan nəsil artırmaq, gözəl, sağlam ailə qurmaq üçün yaşamırsa, ideyalı uğrunda mübarizələrə atılmırsa, arzularının həyata keçməsinə ürəkdən ümid bəsləmirsə, istəklərinə görə burulğanlarda boğulmursa və onlara can verməyə mənəvi qüdrəti çatmırsa, o da həşaratlar, böcəklər kimi dünyada kor ömür sürür.

Mən adam öldürmüşəm. Peşman da deyiləm. Mən gərək bu işi görməyəydim, — fikrini ağlıma də gətirməmişəm. Həmişə öldürdüklərim üçün içimdə özümə təşəkkürlərimi bildirmişəm. İndi də əməllərimə haqq qazandırıram. Türmədə də israrla deyəcəm: Qətli mən törətmişəm və haqq eləmişəm. Öldürməsəydim, bağrım çatlardı. — Kişiyəm, — deməyə haqqım olmazdı. Mənim söylədiklərim heç də başqalarını da: — Ardımca gəlin, — deyə arxamca çəkmək deyil. Heç kimə arzulamıram mənim taleyimə bənzər bir ömür sürsün, həyatıma oxşar həyat yaşasın.

Nə yaxşı ki, indi əsəblərim yerindədi, möhkəmdi. Ürəyim xəyanət eləmir mənə. Daha ağrı-acı gətirəcək, əzab verəcək dərin fikirlərə dalmıram. Təkcə oğlum Əfsundan nigaranam. İnanmıram ki, anası onu başına buraxsın, nənəsi ondan qayğısını əsirgəsin... Papağını fırlayacaq, o da yaşa dolacaq, böyüyüb kişi həddinə çatacaq. Ancaq Allaha yalvarıram ki, oğlumun taleyi mənimkinə bənzəməsin. Özümçün türməni azadlıq sanıram. Qorxu, təlaş, vahimə türmədə də var, azad sandığımız sərbəst həyatda da. Daha elə gündəyəm ki, mənimçün sevinclə kədərin, sevgiylə nifrətin təfavütü yoxdu. Hamısı bir şeydi: ağ, qara...





Mötədillik tanımıram, tanımaq da istəmirəm.

Gələcəkdə yaxşı yaşamım ola biləcəyini təsəvvürümə gətirmirəm. Bunu başa düşüb canıma qəsd eləmək niyyətim də yoxdu. Əzab və işgəncələrə, ağır həyata öyrəncəliyəm. Bilirəm ki, günəş də, yer də, hava da, su da insanlar üçündü. İnsanların onlardan istifadə eləyib, ləzzət almağa haqları var. Məni isə maraqlandıran yeganə məsələ oğlumun taleyidi. Onun təhsili, tərbiyəsidi. Həyata baxışlarının düzgün formalaşmasıdı. Bu gün mən oğlumdan çox-çox uzaqdayam. Ona əl uzatmağa gücüm çatmır. Gücsüzlüyümü görüb acizləşirəm, mütiləşirəm. Həsrətini çəkməklə kifayətlənməyə məcburam. Durduqca, qəmə, qüssəyə batır, həyəcan keçirirəm. Həsrətində olduğum, nigarançılığını çəkdiyim, dərin məhəbbətlə sevdiyim yeganə varlıq Əfsunumdu. Məni yandırıb-yaxan təkcə oğlumdu. Kimsəyə bir söz deməsəm də, adını kimsənin yanında çəkməsəm də məni dərinliklərə endirən yeganəm — Əfsunumdu...

Əvvəllər, etiraf eləyim ki, böyür-başımda olanların heç birini görmürdüm, eşitmirdim. Qəribəydi, görüb eşitmək də istəmirdim. Çünki düşdüyüm mühit mənə yalnız qaranlıq, yalnız zülmətlər vəd eləyirdi. Hər şeydə qüsur axtarırdım. Maraqlıdı. İndi heç şey nəzərimdən qaçmır.

* *
*

Əlləri qandallanmış İqrar məhkəmə zalına girəndə gözlərinə inanmadı. Zal ağzınadək adamla doluydu. Məhkəmə tərkibinin, adamların gözləri İqrara dikilmişdi. O, əvvəl çaşdı. Adamların arasından keçib dəmir barmaqlıqlar arasına necə girdiyni bilmədi. Handan-hana özünə gəlib hakimə, prokurora, özünün və zərərçəkənin vəkillərinə gözaltı baxdı. Sonra da üzünü saymazyana zaldakı adamlara tərəf çevirdi. Tanıdığı və tanımadığı adam-

ların üzündə əsəbilik, nigarançılıq, qəm, qüssə, kədər ifadələri duydu. Tanımadığı adamlar da vardı zalda. Onlar da zərərçəkənin qohum-əqrabaları, tanışlarıydı. Bu adamların, İqrara baxışlarında açıq-açığına kin, qəzəb, nifrət hiss olunurdu. Elələri də vardı ki, zaldan İqrara atmacalar atırdı. O, belələrinə fikir verməyin əhəmiyyətsiz olduğunu yaxşı anlayırdı. Onu da dərk eləyirdi ki, elələrinə qarşı çevrilmək əsəbiliklə nəticələnə bilər, bu da məhkəmənin gedişinə zərərli təsirini göstərmiş olar.

Məhkəmə sədrinin əllidən artıq yaşı vardı. Ucaboy, üzügülər bir kişiydi, saçlarını arxaya daramışdı. Sədr zalı nəzərdən keçirərək ayağa qalxdı:

— Hörmətli dövlət ittihamçısı! Məhkəmə iclasçıları! Xanımlar və cənablar! Bu gün Şərbətov Müzəffər Müstəcəb oğlunu qətlə yetirən Kamilov İqrar İdrak oğlunun törətdiyi cinayət işinin müzakirəsinə başlayırıq. Prokurorluğun qərardadını oxumaq üçün söz ikinci dərəcəli ədliyyə müşaviri, təcrübəli dövlət ittihamçısı Mübariz Kələntərliyə verilir.

Gödək, dolubədənli, qarnı xeyli özündən qabağa çıxmış, lopa bığ, qalın səsli bu adam ilk baxışdan ədalətsiz, özündən razı, lovğa adam təsiri bağışlayırdı. O, sinəsini qabardaraq ayağa qalxdı. Özünü nümayiş etdirirmiş kimi zalı diqqətlə nəzərdən keçirdi, əllərini yumruqlayıb stola dirədi. Boy-buxunundan çoxçox yüksək əda ilə sözə başladı. O, Kamilov İqrar İdrak oğlunun törətdiyi cinayətin motivləri, müstəntiq sorğu-sualları, faktlar əsasında cinayətin sübutu, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinə uyğun olaraq, həbs qəti imkan tədbirinin seçilməsi ilə bağlı prokurorluğun qərardadını açıqladı. Sonra cinayət işinin müzakirəsi başlandı.

Sədr:

— Müttəhim, özünü təqsirli bilirsənmi?

— Xeyr.

— Məhkəmədə yalan danışmağın məsuliyyətini anlayırsanmı?





— Bəli!

— Bu cinayəti törətməyə səni kim və nə vadar eləyib?

— Möhtərəm sədr, hörmətli iclasçılar! Mən heç bir cinayət törətməmişəm. Ona görə də məsələnin o şəkildə qoyuluşuna etiraz eləyirəm. Təklifim budur ki, məsələnin qoyuluşunda "cinayət törətmək" ifadəsi, "öldürüb" sözü və ya "qətlə yetirib" ifadəsiylə əvəz olunsun.

Zal uğuldadı. Adamlar arasına pıçapıç düşdü. Sədr, dövlət ittihamçısı, iclasçılar, vəkillər... bir-birilərinin üzlərinə baxdılar. Əlacsız qalan sədr əlindəki qələmlə bir neçə dəfə stola vuraraq adamları sakitliyi bərpa eləməyə çağırdı. Sonra üzünü müttəhimə tutaraq:

— Məhkəmənin gedişində sübut eləsəniz ki, məsələnin qoyuluşu həqiqətən də düz deyil və bizi buna inandıra bilsəniz ifadə dəyişməlidi, onda məhkəmə məsələnin qoyuluşuna yenidən baxar. İndi suala cavab ver. Birinci sual — cinayətkar deyildinsə, özünü könüllü olaraq polisə niyə təhvil verirdin? İkincisi: Dəmir barmaqcıqlar arasında niyə otururdun?

— Mən Şər Müzəffəri öldürmüşəm. Ona görə özümü polisə təhvil vermişəm ki, araşdırsın, günahkarı üzə çıxarsın. İkinci sualınıza cavab olaraq deyim ki, mən burda öz arzumla oturmamışam, hüquq səlahiyyətçiləri oturdub.

Prokuror:

— Axı sən izahatında törətdiyin cinayəti təsdiqləmisən.

Müttəhim:

— Törətdiyim cinayəti yox, öldürdüyümü, qətlə yetirdiyimi təsdiqləmişəm. Mətni gərək diqqətlə oxuyaydınız.

Zalda yenə pıçapıç düşdü. Sədr qələmi stola döyəclədi. Prokuror başını yellədi. Sonra da özünü saxlaya bilməyib astadan pıçıldadı:

— Əcəb işə düşdük. Məhkəməni teatra çevirəcək.

Müttəhim dərhal cavab verdi:

— Siz, yoxsa mən?

Sədr dərhal prokurora:

— Heç kəs mövzudan kənara çıxmasın.

Zərərçəkənin vəkili əsəbiləşib sədrdən söz istədi:

— Müttəhim Kamilov, Müzəfferi qətlə yetirdiyini təsdiq eləyirsən, bəyəm bu cinayət törətmək deyil? Bizi dolaşdırıb, dağa-daşa niyə salırsan?

— Hörmətli vəkil, bilməlisiniz ki, günahsız adamın ölümü cinayətdi. Cinayətkarın ölümü isə cinayət deyil və ola da bilməz. Siz yalnız hüquq anlayışlarıyla oturub durursuz. Unutmayın ki, humanizm anlayışı da var. Cinayət işi araşdırılarkən o da nəzərə alınmalıydı. Təəssüf ki, iş birtərəfli aparılıb.

Prokuror:

— Bəlkə, bizə humanizm prinsiplərindən də mühazirə oxuyasan, müttəhim Kamilov?

— Məncə, onu özünüz indiyə qədər öyrənməliydiz.

Zərərçəkən Şər Müzəfferin vəkili:

— Adə, bu əcəb pazdı ki?

Müttəhim:

— Mənə sübut elədiz ki, sizə, doğrudan da, əxlaq dərsi lazımdı.

Zal uğuldadı. Sədr əsəbiləşərək:

— Hamınızı intizama dəvət eləyirəm.

Sonra üzünü müttəhimə tutaraq:

— Qətli törətməyinizə səbəb nə idi?

Müttəhim aramla danışmağa başladı:

— Şərlənərək səkkiz illik türmə cəzası almağım, onun motivləri, ailəmizin təqibi, dağılması, anamın ölümü, bacımın zorlanaraq əxlaqsızlar yuvasına salınması və cismani məhvi, oğlumun qapılarda qalması və sair. Bütün bunlar izahatda təfərrüatıyla göstərilmişdir və siz də ondan tam xəbərdarsız. Şər Müzəffər xeyli adamın şərlənərək zindanlara atılmasında, onlarla adam oğurluğunda, evlərə basqınlarda, az yaşlı qızların zorlanmasında və eləcə də qadın alqı-satqısında ya birbaşa, ya da dolayısı ilə iştirak etmişdi. O, cinayətkar əməlləriylə şəhər əhalisini vahimə içərisində saxlayırdı.





Müttəhim danışdıqca zal susurdu. Kimsənin nəfəsi belə eşidilmirdi. O, səsinə ara verib fikrini davam elətdirdi:

İcazənizlə bir faktı da diqqətinizə çatdırım. Şər Müzəfferdə qudurğanlıq o həddə çatmışdı ki, evimin içində də təqib eləyərək, Tacəddin adlı bir nəfərin əliylə mənə tüfəngdən atəş açdırdı. Güllə mənə yox, qonağıma dəydi. O, xeyli qan itirdi. Yalnız uzun müddət xəstəxanada müalicə olunaraq ölümdən xilas ola bildi. Nəzərinizə çatdırım ki, sonralar da Şər Müzəffər məni təqib eləməkdən əl çəkmədi. Düşündüm ki, mən onu öldürməsəm, o, məni qətlə yetirəcək. Xeyli müddət bu hissiyatla yaşadım. Ağlıma belə bir fikir gəldi ki, Mən Şər Müzəfferi öldürsəm, onun törədə biləcəyik yeni cinayətlərinin qarşısını almış olaram.

Zaldan kimlərsə "əla", "halal olsun" deyə müttəhimi alqışlayırdılar. Müttəhim sözünə davam elədi:

— Namusu ləkələnmiş, ar-isməti tapdalanmış bacımın mənə yazdığı məktubu ölümündən sonra aldım. Oxudum, elə həmin gün Şər Müzəfferi evindəcə qətlə yetirdim.

Bayaqdan müttəhimə tərs-tərs baxan orta yaşlı kişi yanındakı qadını dümsükləyərək: — Dur rədd olaq, hələ çox şey çıxacaq, — deyə qadını ilə zaldan çıxdı.

Zal bir an susdu. Sədr üzünü kollegiya üzvlərinə tutaraq:

— Kimin müttəhimə sualı var? — soruşdu.

Prokuror:

— Yalandı. Vaxtında niyə hüquq-mühafizə orqanlarına müraciət olunmayıb? Böhtandı...

Müttəhim:

— Müraciət olunub. Neçə vaxtdı İlqarın qanını tökən cinayətkar tapılıbmı? Möhtərəm hakim, yəqin ki, başqa şahidləriniz də var? Güman ki, onlara da söz verəcəksiz.

Sədr:

— Buyurun, şahid İlqar Niyazov:

İlqar:

— Mən İqrarla qonşuyam. Onun evində şam yeməyi zamanı təqibə məruz qalan qonaq mənəm. Pəncərədən atılan atəş məni tutdu. Tam məsuliyyətlə deyirəm ki, həmin atəş İqrar üçün hesablanmışdı. Qaldı Şər Müzəffərin elədiklərinin qanun keşikçilərinə çatdırılmasına məhkəmə təhqiqatı dərindən aparılsa, görərsiz ki, qanun keşikçilərinə vaxtında məlumat verilib. Təəssüf ki, həmişə Şər Müzəffər onlar tərəfindən mühafizə və müdafiə olunub. Bunun üçün əldə istənilən qədər dəlillər var.

Kabinetimdə oturmuşdum. Tacəddin adlı birisi mənə zəng edib dedi: — Bağışla, mən İqrarı qətlə yetirməliydim, güllə səni tutdu. Sifariş də Şər Müzəffərin idi...

Zərərçəkən Şər Müzəffərin vəkili:

— Sən inandın deyilənlərə?

— Bəli. Bu, gündəlik həyati müşahidələrdi. Bu, Şər Müzəffərin birinci, ikinci... onuncu cinayəti deyildi. Müttəhim çox yaxşı açıqladı. Şər Müzəffər bəzi qanun keşikçiləriylə əlaqəyə girərək, müxtəlif xarakterli ağır cinayətlər törədirsə, ona məhəl qoyan yoxdursa, gözün üstə qaşın var deyən tapılmırsa, şəhər əhli neyləməlidi? Belə olmasaydı, xalq ona “Şər” ləqəbini də verməzdi. O, yaramazın əməllərinin nəticəsidir ki, biz indi burdayıq. Müstəntiq Pərvin Namazov da onunla iş birliyinə girdiyi üçün həbs olunub. Hələ onların çox cinayətləri açılacaq...

Prokuror söz alaraq:

— Cavan oğlan, hələ bilmək olmaz ki, müstəntiq Pərvin Namazov təqsirkardı, ya yox, həmçinin Müzəffər. Biz Müzəffərin ölümü barədə müzakirə aparırıq...





Sədr:

— Şahid Aytacı dinləyək, sonra...

Bunu eşidən İqrarın sanki ürəyi dayandı. O, zala baxdı. Arxada əyləşən Aytacı, bir də yanında əyləşən Əfsunu gördü. Qəhər onu boğdu. Özünü güc-bəla ilə saxladı...

Aytac:

— Möhtərəm hakim, İqrar namuslu adamdı. O, yalan danışmır. Şər Müzəffər bizim ailəni dağıtdı. Adamı cismən öldürməyə nə var ki? Vay o günə ki, adamı mənən qətlə yetirəsən. Şər Müzəffər ailəmizin mənəviyyatını zorladı. Əxlaqsızlar yuvasına aparmaq üçün bizi təqib elədi. Bizi evimizdəcə qorxutdu. O, hər cür ağlagəlməz cinayətlər törədirdi. İndi o öldü, getdi. Onun törətdiyi cinayətlərə cavab verənlər tapılacaqmı? Yoxsa, öldürdüyü adamların qanı batacaq? Zorlanmış azyaşlı qızlar, satılan qadınlar haqlarını kimdən tələb eləyəcəklər? Bayaqdan bəri Şər Müzəffərin vəkili elə danışır ki, ixtiyarı olsa, bəlkə, ona əməllərinə görə... O, yetişməmiş qızları yuxarı vəzifəlilərə ötürürdü. Möhtərəm prokuror, hörmətli vəkil, cinayət nəyə deyirsiz? Cismən öldürülənlərə, yoxsa, mənən zəhərlənənlərə. Bəyəm, Şər Müzəffər İqrarın ailəsinə qarşı törətdiyi cinayəti hansı birinizin ailəsinə qarşı törətsəydi, belə ağız dolusu danışardınızmı? İqrar hələ oğlunu düz-əməlli görməyib. Uşaq onu bu zalda tanıyıb. Bəyəm, bu cinayət deyil? Məgər it öldürmək cinayətdi?

Aytac ağlayıb tribunadan düşdü. Oğlunu yanına çağırıb dedi:

— Sənin atan odur! Dəmir barmaqlıqlar arasında oturan İqrar! Get, atanın əllərindən öp!.. Mən indi bilirəm ki, sənə layiq qadın deyiləmmiş, İqrar! Olsaydım, dözərdim! Namusuna qurban olum!

Əfsun atasına yaxınlaşıb əlindən öpdü.

— Bəs, niyə onda atam olduğunu mənə demədin?

— Bax, bu günüm üçün, oğlum!

Zal titrəyirdi, uğuldayırdı. Bunu məhkəmə sədri də, proku-

ror da, vəkillər də müşahidə eləyirdilər..

Zərərçəkən Şər Müzəffərin vəkili söz aldı:

— Uşağı bura gətirməklə məhkəməyə təsir göstərmək istəmisiz.

Müttəhim:

— Səhv eləyirsiz.

Şər Müzəffərin vəkili:

— Səmimi deyin. Mənzərin ölümüylə Müzəffərin ölümü arasındakı əlaqə nədir? Qadını necə öldürmüsüz?

Müttəhim:

— Onu istintaq araşdırıb, hörmətli vəkil. Mən elə adam görməmişəm, tanımıram da.

— Axı ola bilməz, belə müəmmalı qətl olsun. Onda sən otağa necə girdin?

— Mən Şər Müzəffəri öldürmək üçün gəlmişdim. Qapının zəngini basdım. Müzəffər içəridən əsəbi halda dedi, gəl, həkim, artıq arvad öldü. Mən içəri keçdim. Biz koridorda qarşılaşdıq. O, məni görcək qorxdu. İstirahət otağına qaçdı. Düşündüm ki, o, silah götürmək üçün gedir. Dərhal atılıb onun ürəyinin tuşundan bıçaqla vurdum. Adamların, o cümlədən bacımın namusuna təcavüz elədiyinə görə onun cinsi orqanlarını da kəsdim. Vaxt az idi. Bildim ki, həkimlər gələcəklər. Qapıdan çıxdım. Binanın tininə çatmışdım ki, təcili tibbi yardım maşını gəlib girəcəkdə dayandı. Mən getdim. Daha nələr baş verə biləcəyilə maraqlanmadım.

Müzəffərin vəkili:

— Müzəffərin öldüyünü dəqiq bildinmi?

Müttəhim:

— Bəli, bildim!

Prokuror:

— Bıçaq necəydi?

Müttəhim:





— Dəstəyi şirmayı, adi çörək bıçağıydı.

Prokuror:

— Onu neylədin?

Müttəhim:

— Ocağa atıb yandırdım. Sonra da tiyəni atdım zibil yeşiyinə. Səhər fəhlələr zibillə birlikdə onu da maşınla apardılar.

Prokuror:

— Bununla da bıçağın izi itdi.

Müttəhim:

— Niyə ki, cinayətkarı tapmaq çətin olsa da, istəsəz bıçağı tapa bilərsiz.

Prokuror:

— Sən qatı cinayətkarsan, özü də təcrübəlisindən. Yəqin ki, İlqar həbs olunmasaydı, sən özünü polisə təhvil verməyəcəkdin.

Müttəhim:

— Əvvəla, cinayəti sübut elə, sonra mənə cinayətkar de. İkincisi, görünür, sən cinayətkar sözünün mənasını başa düşmürsən. Bayaq aydınlaşdırdım. Yenə bir şey hasil olmadı. Siz mənə pis oxuyan şagirdi xatırladırsız, cənab prokuror. Müəllim nə qədər başa salırsa, kor tutduğunu buraxmayan kimi, pis şagird də hey öz bildiyini deyir, siz də elə.

Prokuror üzünü sədrə tutaraq:

— Cənab sədr, müttəhim məni təhqir eləyir.

Sədr:

— O da öz sözünü deyir. Təhqirə qalsa...

Prokuror:

— Günahınızı boynunuza alın, Kamilov.

Müttəhim:

— Yalnız özünü düşünən, mənsəb üçün millətini, dinini, vətənini satan şəhvət düşkününü, oğrunu, qulduru, baş kəsib qan tökəni, qadın alverçisini, zorlama əməliyyatı keçirəni öldürmək

bəyəm günahdı? Cənab prokuror, siz Allaha şükür eləyin ki, mən onu öldürmüşəm. Adamları bir alçağın əlindən qurtarmışam. Siz məni mühakimə eləməyin. Mənə təşəkkür düşür. Bəlkə, mənim fəaliyyətimi dəyərləndirə bilmirsiz?

Şər Müzəffərin vəkili:

— Mən görürəm, sən qəddar adamsan. Yəqin ki, bu qəddarlığı səndə səkkizillik türmə həyatı formalaşdırıb.

Müttəhim:

— Sizlərdən kim deyə bilər ki, sabah türməyə düşməyəcəksiz? Siz çox səhv fikirdəsiz. Bir az da təkəbbürünüz var, hörmətli vəkil, azadlıqda olduğu kimi, orda da ləyaqətli insanlar var. Unutmayın ki, içəridəkilər çöldəkilərin övladları, qardaşları, qohum-əqrəbalarıdı. Çöldə pis tərbiyə olunan orda da əməllərini davam elətdirir. Qanunların keşiyində duran vəkil axı həm də tərbiyəçidi...

Şər Müzəffərin vəkili səhvini anladığından sir-sifəti qızardı.

Prokuror:

— Bəlkə, bu əməlinizlə özünüzü qalib də sanasız?

Müttəhim:

— Mən nə dediyimi başa düşürəm, cənab prokuror. Şər Müzəffəri öldürməkdə düz eləmişəm və bu barədə qətiyyən peşmançılığım yoxdu, özümü təqsirkar saymıram, elə çaqqalların leşini indi də yırtıb dağıtmağa hazıram... Mənə həqarətlə baxmayın. Aytac yaxşı dedi, mənim başıma açdıqlarını sizin hər birinizin başınıza gətirsəydi, ona neylərdiz?! Bir anlığa onun törətdiyi əməlləri xatırlayın: evlərə soxulub adamların diş-dırnaqlarıyla qazandıqlarını oğurlayır; adam öldürür; qadın zorlayıb, sonra da işi keçən adamlara ötürür... Özünüz deyin, belə bir cinayətkarın yaşamasına dəyərmi?! Onun cinayətləri nəticəsində azmı adam fəlakətlərə düçar olub?! Bəyəm, onun elədikləri cinayət deyil? Mən oturub gözləməliydim ki, qanun keşikçiləri nə vaxt onu tutacaqlar? Aylarla onu mühakimə eləyəcəklər? Cinayətini





sübuta yetirə bilsələr, bir neçə illiyə onu həbs eləyəcəklər? Sonra da qeyri-dövlət hüquq müdafiəçilərinin hayqırtıları qopacaq. Onların köməklərinə arxalanıb siyasi dustaq adını alacaq. Bir müddətdən sonra da həbsdən azad ediləcək. Bəraət qazanacaq. Sonra da cinayətkar əməllərini yenidən davam elətdirəcək. Yox, cənablar! Mən onu gözləyə bilməzdim. Cinayətkar öz layiqli cəzasını almalıydı. Cəzanı ona kimsə verməliydi. Mən həbsdən qorxmuram və kimsədən çəkinmirəm. Ölümə də hazıram. Mən tutduğum hərəkətdən də, sizin təbirinizcə desəm, törətdiyim cinayətdən də utanmıram, əksinə, qürur duyur, sevinirəm. Xalqa, millətə əməlləriylə utanc gətirəcək biabırçı bir adamı aradan götürmüşəm. Onu yer üzündən silmişəm. O, bir daha cinayət törədə bilməyəcək. Bəs, siz necə? Elə adamı müdafiə eləməklə şəxsiyyətinizə, mənliyinizə, qürurunuza nə qədər xələl gətirdiyinizi bilirsizmi?! Vicdanınız qarşısında hesabat verirsinizmi?!

Prokuror:

— Özünə yersiz bəraət qazandırmağa çalışma, müttəhim İqrar Kamilov. Sən qan tökmüsən, adam öldürmüsən. İndi də bizi ələ salırsan. Guya sən haqlısan. Ayıbdı. Özünü də gəl bizi də ələ salma. Çox gülməlidi: "Cinayətkarı öldürməklə cinayətlərin qarşısını kəsmişəm?" Necə düşünürsən? Biz də sənə haqq qazandıraq, camaat qırsın bir-birini, sonra da desinlər, cinayətkarı öldürmüşük?! Müttəhim İqrar Kamilov, əməllərin qanuna ziddir. Düşüncələrin sərsəmdi. Bildiklərini desəydin, hüquq mühafizə orqanının əməkdaşları cinayətkarı cəzalandırardılar.

Müttəhimin vəkili söz aldı:

— Cənab prokuror, əvvəla, siz təhqiramiz ifadələrlə çıxış eləyirsiz. Öyrənmək istəyirəm, yöndəmsiz mövqeyinizlə həqiqəti üzə çıxarmaq istəyirsiz, yoxsa, haqq-nahaq İqrar Kamilovu müqəssir çıxarmaq? Məni bağışlayın, çıxışınızdan belə qənaətə gəlmək olar ki, zaldakı adamlara özünüzün kimliyinizi nümayiş

elətdirirsiz. Xatırladım ki, sizin mövqeyiniz qəbahətlidi, dövlət ittihamçısına şərəf gətirməz.

Prokuror:

— Siz yanlış fikirdəsiz. Diqqət yetirsəniz, anlarsız ki, mən həqiqətin üzə çıxması naminə çıxış eləyirəm.

Müttəhimin vəkili:

— Elə isə təhqiramiz ifadələrdən əl çəkin. Onsuz da neçə illər ərzində müttəhim yersiz təhqir və hədələrə, fiziki və mənəvi cəzalara, təqiblərə çox məruz qalıb. Müttəhim çıxışında çox şeyi ifadə eləyir. Hüquq-mühafizə orqanı işçilərindən bir çoxu cinayətkara açıq-açığına şərait yaradıblar. Şər Müzəfferi hamı tanıyıb, o cümlədən də istintaq aparanlar. Onlar cinayətkarla mübarizəyə vaxtında qalxmayıblarsa, həbsdə olan İqrar Kamilov neyləyə bilərdi?

Prokuror:

— Mən o suala cavab axtarmıram. Bir də ki müttəhim kimdi? İqrar Kamilov, yoxsa, qanun keşikçiləri?

Müttəhimin vəkili:

— Cənab prokuror, sizin bu müəmmalı mövqeyinizə təəssüf eləyirəm. Biz həqiqəti üzə çıxarmalıyıq. Mövqeyimiz isə ədalət olmalıdı. Unutmayaq ki, hazırda özümüz də ədalət məhkəməsinin kürsüsündəyik. İstintaq birtərəfli gedə bilməz. Bu işdə günahkarlar cavab verməlidirlər. Heç kəsi himayə eləməyə haqqımız yoxdu.

Sədr:

— Şəxsi çəkişmələrə son qoyun.

Müttəhimin vəkili:

— Mən ədalət naminə çıxış eləyirəm, möhtərəm sədr.

Müttəhim:

— Cənab hakim, haqq-ədalət həsrətiylə nə az, nə də çox səkkiz il sərasər yatmışam. Ailəm barədə deyilənləri də eşitdiniz. Özümə də bəraət qazandırmıram. Sizdən də mərhəmət um-





muram, hər şeyi boynuma almışam. Siz qanunlardan, hüquqi aktlardan danışırsız. Nəzərinizə çatdırım ki, tətbiq etdiyiniz qanunların, qadağaların bir çoxu praktikada özünü doğrultmur. Sizin qanunlarınız təcrübəyə əsaslanmayan mülahizə və mühakimələr toplusundan başqa bir şey deyil.

Zərərçəkən Şər Müzəffərin vəkili sədrdən söz alır:

— Mən müttəhimin həyasızlığına məəttəl qalmışam. A kişi, qan töküb, adam öldürüb, özü də deyir ki, mən cinayətkar deyiləm!

Müttəhim:

— Təhqirlərinizə görə təəssüflənirəm. Elə alçağın qanından bir stəkan... Gördüyüm işin mahiyyətini yaxşı anlayıram. Mənimlə razılaşın ki, Allah izn verməsəydi, Şər Müzəfferi elə asanlıqla öldürə bilməzdim.

Sədr:

— Sən gah qanunlara, nəzəriyyələrə qarşı çıxırsan, gah da özündən müştəbehlik eləyirsən. Yaxşı olardı ki, özünü müdafiə eləyəsən.

Müttəhim:

— Qanunlarda boşluq varsa, qanunlarla təcrübə arasında uçurum özünü göstərirsə və onları tətbiq eləmək olmursa, deməli, qanunlar düz yazılmayıb. O, təcrübəyə əsaslanaraq yazılmayıbsa, deməli, kordu. Mənim də qanunlardakı boşluqlar barədə danışmağa tam haqqım vardır.

Prokuror:

— Bəlkə Allah-təala əzrayılın də funksiyasını sənə verib, biz bilmirik?.. Çox çılğınsan, müttəhim. Qəzəbin, nifrətin güclüdü. İntiqam, qisas hissi səni cinayətə sürükləyib, məhkəməyə gətirib çıxarıb və son nəticədə bədbəxt eləyib.

Müttəhim:

— Cənab prokuror, ola bilər ki, hamı kimi mən də bədbəxtəm. Ancaq tam əmin ola bilərsiz ki, mən qisas, intiqam hissiylə

qətl törətməmişəm. Sadəcə olaraq ailəmin, özümün təəssübümü çəkərək o, məlunu öldürmüşəm. Bunun üçün də sevinirəm və özümü xoşbəxt sanıram. Siz haqdı-nahaqdı məni günahkar çıxarmağa çalışırsız. Bu işdə çox israrlısız. Adam öldürmək ağıllı adamların işi deyil. Əlbəttə, bunu başa düşürəm. Ancaq mən cinayətkar deyiləm və o adı mənim üstümə qoymayın. Günahsız adamları öldürən, azyaşlı qızları zorlayan, hər cür alçaqlığa gedən bir adamı nəyə görə cinayətkar saymırsız, bilmirəm?! Bu haqsızlıqdı! Başqasının haqqını, hüququnu tapdalamağın özü cinayətdi.

Zərərçəkən Şər Müzəffərin vəkili:

— Sən başqasının hüququnu tapdalayanda cinayət olmur, kimsə bir balaca sənin böyründən keçdi, hüququn tapdalanır, o adam cinayətkar olur, eləmi?

Müttəhim:

— Sizi başa düşmürəm, cənab vəkil! Mənim, ailəmin başıma gətirilənləri görməmək korluqdur. Görüb qiymətləndirməmək nadanlıqdır. Bu faciələri "bir balaca böyründən keçdi" adlandırırsız. Bu mülahizəniz hüquq elminə "mükəmməl" yiyələnməməyinizdən irəli gəlir, yoxsa, qeyri-obyektivliyinizdən? Bir də ki, xahiş eləyirəm, məni o alçaqla eyniləşdirməyəsiz. Mənə tez-tez cinayətkar deyirsiz. Məhkəmənin son qərarını nə mən bilirəm, nə də siz. Mən əlimi qaldırıb təslim olmamışam. Olanda mənə cinayətkar deyərsiz.

Sədr:

— Müttəhim, sən səmimisən. Vicdanın təmizdi. Ədalət və həqiqət axtardığın üçün dilin acıdı. Şər Müzəffər də, sən də, yəni hər ikiniz cinayətkarsız. Ancaq eyni səviyyəli yox. Törətdiyiniz cinayətlərin məqsədi də, motivi də ayrıdı. Cinayət işində də müstəntiq Mikayılov o fərqləri çox yaxşı nəzərə alıb.

Müttəhim:

— Mən cinayət eləməmişəm, cənab sədr! Hərəkətlərimdə





cinayət tərkibi yoxdu. Mən sadəcə olaraq qana qan eləmişəm. Ondan qisasımı almışam. Bir də təkrar eləyirəm, cinayətə gedən yolları kəsmişəm. Adamları növbəti xəta-bəladan uzaqlaşdırmışam. Mən fədakarlıq göstərmişəm.

Sədr:

— Qisasçılıq cinayət deyil?

Müttəhim:

— Bu, qisas deyil!

Prokuror gülərək:

— Bəlkə sinəndən bir orden də asaq?

Müttəhim:

— O, sizin səlahiyyətində deyil, cənab prokuror. Deyəsən, çox öyrəncəlisən səlahiyyət hədlərini aşmağa.

Zaldan gülüş səsləri eşidildi:

İqrar danışdıqca əsəbiləşir, yorğun üzündəki halsızlıq cizgiləri aydınca sezilirdi. Ancaq hələ də inamı, qətiyyəti özündəydi. O, dərindən köks ötürüb sözünə davam elədi:

— Mən müqəssir olsaydım, bu saat məhkəmədən üzr istəyərdim. Bağışlanmağım üçün yalvarardım. İndi gedin, necə düşünürsüzsə, elə də qərar verin.

O, gözlənilmədən üzünü Mirvariyə tutdu:

— Bacım, gözümün işığı, səndən savayı kimsəm yoxdu. Nə eləmişəmsə, namusum, ləyaqətim, şərəfim naminə eləmişəm. Mən insani hisslərini itirən bir adamı öldürmüşəm. Onun ölüm aktına imza atmışam. Mən ata-anamın övladıyam. Namusu, vicdanı onlar mənə təlqin eləyiblər. Ağlama, get uşaqlarından muğayat ol. Mən oğluma arxa olammadım. Oğlumu böyütməliydim, təəssüf ki, onu bacarmadım...

Adamların gözləri nəmliydi. Hamının nəzərləri İqrara dikilmişdi.

Sədr:

— Müttəhim, məhkəməni teatr zalına çevirmə. Prosesdən

sonra imkan verərik, istədiyin adamlara sözünü deyərsən. Kollegiya üzvlərindən indi kimin sözü var?

Müttəhimin vəkili söz alır:

— Cənab sədr! Mən qırx ildən artıqdır ki, hüquq mühafizə orqanlarında çalışıram: on beş il prokurorluqda, iyirmi il məhkəmə sistemində, altı ildi də vəkil işləyirəm. Etiraf eləyirəm ki, belə məsələylə qarşılaşmamışam. Məncə, bu işdə səmimi, sərbəst və azad olmaq lazımdı. Şər Müzəffərin nadanlığı, törətdiyi cinayətlər çoxlarına məlumdu. Bu gün biz desək ki, Gəncədə qanun keşikçiləri onun cinayətlərindən xəbərsiz olublar. Bizə gülənlər də, ağız büzənlər də, barəmizdə hər cür söz-söhbət eləyənlər də tapılar. Eləsi də olacaq, sadəcə, bizdən üz çevirib gedəcək... Mən sevinirəm ki, zavallı müttəhimin ürəyi tab gətirərək hələ yaşayır. Şər Müzəffər xalqına, millətinə xəyanət eləyib. Niyə gizlədirik onun cinayətlərini, niyə ört-basdır eləyirik çirkin əməllərini?! Onları gizlətməklə bu xalq nə qazanır? Heç nə. Ədalət naminə bunları açsaq, çoxlarına görk olar. Bir çox valideynlər də övladlarını belə şeylərdən çəkindirərlər.

Prokuror:

— Həqiqəti üzə çıxarmalıyıq. Adamları həqiqət maraqlandırır.

Müttəhimin vəkili:

— Onu qanun keşikçiləri açmalıdırlar. Xatırladım ki, müttəhimin işi böyük cinayətin vintciyidi. Cənab prokuror, Şər Müzəffər sizi özünə vəkil seçməyib. Məncə, öləndə də, elə vəsiyyəti olmayıb. Onun öz vəkili var və özü də olduqca fəaldır.

Heç kim münasibət bildirmək istəmədiyindən zalı nəzərdən keçirən sədr əlavə elədi:

— Tərəflərin razılığıyla istintaq yekunlaşdırılır. İttiham nitqi söyləmək üçün söz prokurora verilir.

Prokuror:

— Hörmətli sədr! Möhtərəm kollegiya üzvləri! Müstəntiq





araşdırmaları, sual-cavablar, məhkəmə təhqiqatı belə qənaətə gəlməyə əsas verdi ki, qətldə tamah məqsədi güdülməsə də, törədilməsi əvvəlcədən düşünülmüşdür. Müttəhim əməlində cinayət tərkibi olmadığını ciddi-cəhdlə israr eləyir. Törətdiyi qətlin səbəbini Şər Müzəffər tərəfindən adamlara yeni basqınların, təcavüzün ola biləcəyi ilə əlaqələndirir. Bir sözlə, cinayətkar olduğunu boynuna almaq istəmir. Ancaq cinayət işi məhkəmə istintaqında şahid ifadələri və iş materiallarıyla təsdiq olunur. Bütün bunları nəzərə alaraq müttəhimin müvafiq maddəylə təqsirli bilinərək doqquz il müddətinə məhkum edilməsini xahiş edirəm.

Sədr:

— Söz müttəhimin müdafiəçisinə verilir.

Vəkil:

— Möhtərəm hakim, hörmətli xalq iclasçıları! Hüquqlarını müdafiə elədiyim Kamilov İqrar İdrak oğlunun hərəkətləri göz qarşısındadır. Göründüyü kimi, müttəhimin bir zaman zərərçəkən tərəfindən şərlənərək haqsız yerə səkkiz il müddətinə cəzalandırılması, onun ailəsinin dağdılması, anasının aldığı mənəvi zərbədən dünyasını dəyişməsi, bacısına qarşı yaramaz hərəkətlərin müntəzəm davam etdirilməsi və evində oturduğu yerdə atəş açılaraq qonağına cismani yara vurulması Kamilov İqrar İdrak oğlunun əsəblərinin gərginləşməsinə gətirib çıxarmışdır. Şübhə eləmirəm ki, bu qətl məhdud düşüncədən, keçirdiyi pis güzərandan, ruhu düşkünlükdən, adamların diqqətsizlik və laqeydliyindən, həqarətli baxışlarından və kobud rəftarından, məhrumiyyət və uğursuzluqdan, dözümsüzlükdən törəmişdir. İlkin müstəntiq araşdırmalarında da qətl zamanı müttəhimin psixoloji durumunun itməsi, əsəb sistemlərinin həddən artıq zəifləməsi nəticəsində özünüidarəetmənin pozulması hallarına işarə olunur. Keçirdiyi psixoloji gərginlik və keçmiş həbsdən bəraət qazanması da aşkarlandı. Müttəhimin qətl törətməsini etiraf et-

məsi və özünü hüquq-mühafizə orqanlarına könüllü təhvil verməsi cinayət məsuliyyətinin yüngülləşdirilməsinə tam haqq qazandırır. Ona görə də cəza müəyyənləşdirilərkən müttəhimin vəziyyətinin nəzərə alınmasını xahiş eləyirəm.

Sədr:

— Müttəhimə son söz verilir.

Müttəhim:

— Hörmətli sədr! Möhtərəm kollegiya üzvləri! Məsələnin qoyuluşunda və prokurorun qərardadında "cinayət" və "cinayət törədilməsi" söz və ifadələrinin "qətl" və "qətl törədilməsi"lə əvəzlənməsini xahiş eləyirəm. Boynuma alıram ki, qətl törətmişəm. Bunun üçün peşman deyiləm. Hüquqlarımın pozulmadığı üçün ədalət məhkəməsinə minnətdaram.

Sədr:

— Məhkəmə məşvərətə gedir.

* *
*

Barmaqlıqlar arasında məhkəmənin son qərarını gözləyən İqrarın yumulan gözləri sanki birdən-birə açıldı. Ətrafında baş verənləri öz cildində görməyə başladı. O, artıq dərin uçurumun qırağına gəlib çıxdığını, məhv ola biləcəyini anladı. Həyatında baş verə biləcək dəyişməni daha möcüzə sanırdı və özü də ona heç cürə inanmırdı.

Düşüncələri bulaş-bulaş olmuşdu. Onun aləmində məşvərət zamanı hakimlərin yüngül qərara gələ biləcəyi inandırıcı görünmürdü. Müttəhimin keçirdiyi ağır psixoloji anlar daha üzücüydü. İndi nə eləyəcəyini, dərdini kiminlə bölüşdürəcəyini bilməyən İqrar öz-özünə deyirdi: Onlar məni niyə anlamırlar? Məsələnin mahiyyətinə niyə dərindən varmırlar? Görəsən, hər gün qanun pozmayan adam varmı?! Günah işlətməyən elə bir adam





tapmaq olarmı?! Yox! Onda qanunlarda təsbit olduğuna görə gərək hamını həbs eləyəsən, türmələrdə çürüdəsən. İnsani hisslərin korlandığının, əxlaq normalarına tüpürüldüyünün hər gün şahidi oluruq. Mehvərindən çıxan cəmiyyətə kəskin, ikili səciyyə daşımayan qanunlar lazımdı. Qanunlar elə sürüşkəndi ki, məsuliyyətə cəlb olunanlar aqibətinin nəylə qurtaracağını bilmirlər. Gərək, qanunlar hamı üçün eyni olsun. Gülməşəkərlərlə zəiflər, piylənmişlərlə imkansızlar arasında fərq qoyulmasın. Qanun yalnız gülməşəkərlərə qapı açmamalıdı. Həm də imkansızlara şərait yaratmalıdı. Doğrudur, mən qətl törətmişəm. Qanunun əksinə addım atmışam, qan tökmüşəm. Qəbahətə yol verərək cəmiyyətin qadağalarına "yox" demişəm. Hamısını qəbul eləyirəm. İndi də mən soruşuram: evlər yıxan, az yaşlı qızları zorlayan, adam ovlayan, puldan ötrü günahsızları oğurlayan Şər Müzəffərə ayağını geri çək deyən yoxdursa, azadlıqda gəzirsə və o da bu güzəştlərdən (bunları güzəşt sanmaq mümkündürsə) geninə-boluna istifadə eləyərək, gedib yeni cinayətlər törədirsə, buna kimlər məsuliyyət daşıyırlar?! Çirkin niyyətlərlə ona göz yuman, imkan yaradan bəzi hüquq-mühafizə orqanı işçiləri, yoxsa cinayətkarın özü? Bəlkə nadanı öz içində yaşadan cəmiyyət?!

Ömrümün bir hissəsini həbsdə oldum. İndi də yenidən əjdaha kimi türmənin qapıları taybatay üzümə açılır. Taleyim məşvərət masasının arxasında həll olunur. Hakimin, iclasçıların insafından da çox şey asılıdı. İkinci dəfə cızdağımı çıxaracaqlarmı? Məni məhv eləyəcəklərmi? Yoxsa, mənə rəhmləri gələcək?! Halıma acıyacaqlar?!. Bəlkə deyəcəklər ki, özü öz başına oyun açıb; öz cəzasıdı, özü çəksin; ağlı olaydı, özünü oda atmayaydı; dili də zəhərdi. Taleyin hökmü nə yaman olurmuş?.. Ömrü boyu həqiqət axtaran, ədalət arayan, Allahsız iş görməyənlər bəzən necə də cinayətkarların, quldurların, dələduzların əlində aciz qalırlar, mütiləşirlər, meymun kimi oynamalı olurlar? Mərdi qova-qova namərd eləyirlər. Sulğunc söyüdlər kimi başlarını is-

tədikləri səmtə, istədikləri qədər əyirlər. İradəsini sındırmağa çalışırlar, sındırırlar da. Türmədə müxtəlif ağılda, müxtəlif xarakterdə insanlar olur. Qalan həyatımı da onlarla olacam. Bir süfrə başında oturacam, yeyib-içəcəm, danışıb-güləcəm və hər cür işgəncələrə tab gətirəcəm. Təki anasıyla yanaşı əyləşib həsrətlə, intizarla, həyəcanla mənə baxan qəmli, qüssəli oğlumun — Əfsunumun canı sağ olsun...

*    *
*

Beyni kilidləşən, düşüncələri bulaş-bulaş olan İqrar zaldakı adamların məyusluq içərisində qaldıqlarını sezcək özünü ələ almaq istəyirdi ki, arxa qapıdan sədr və iclasçılar zala daxil oldular və yenidən öz yerlərini tutdular. Hakim ağır-ağır, təmkinlə sözə başladı:

— Xanımlar və cənablar! İstintaq araşdırmaları və eləcə də məhkəmə təhqiqatıyla işdə cinayət tərkibi olduğu tam sübuta yetirildi. Hər bir cinayətkar öz cəzasını almalıdı. Bu labüddü. Buna söz ola bilməz. Bu gün görün, nələr baş verir: böhtanlara, iftiralara məruz qalan günahsız şəxs səkkiz il müddətinə azadlıqdan məhrum olur. Anası mənəvi terror nəticəsində məhv edilir. Arvadı, bacısı halalca evindən ağlagəlməz təzyiqlərə məruz qalaraq küçələrə atılır. Arvad ikinci ərə gedir. Bacı əxlaqsız, mənəviyyatsız yola sürüklənir, nəticədə o da qəzaya düşüb ölür. Azyaşlı uşaq başqalarının himayəsinə sığınır. Hələ bunlar azmış kimi təqib olunaraq evində ona atəş açılır. Xoş bir təsadüf nəticəsində salamat qalır. Bunların nə olduğunu bir anlığa gözləriniz önünə gətirirsinizmi?! Bu, dəhşətdi! İnsanlığa qarşı yönəlmiş cinayətdi! Allahın özünə xəyanətdi! Cinayətkarın məsuliyyətə cəlb olunmadığını görən zərərçəkən əlacsız qalıb, onu aradan götürməli olur. Biz də mühakimə eləyib müttəhim kürsüsündə





əyləşən şəxsi cəzalandırırıq. Mən müttəhimin hərəkətlərini təqdir eləmirəm. Ona "haqlısan" — demirəm. Bəlkə də hüquq tarixində belə cinayət işinin analoqu olmayıb! Belə olduqda, məncə, biz mürgü döyən vicdanımızı oyatmalıyıq. Bəşəri duyğuları, humanist prinsipləri nəzərə almalıyıq. Mən tam əminliklə deyirəm, müzakirə elədiyimiz məsələyə yalnız hüquqi nöqteyi-nəzərdən yanaşsaq, ciddi səhv etmiş olarıq. Doğrudur, müttəhim qanunların əksinə hərəkət eləyib. Belə ki, soyuq silah gəzdirib. El arasında "Şər" ləqəbiylə tanınan qatı cinayətkar Müzəffər Müstəcib oğlu Şərbətovu qətlə yetirib. Nəzərə alsaq ki, onu qanunla da cəzalandırmaq mümkün idi. Baxılsaydı, deməli, onda müttəhimin bu yolu seçməsinə ehtiyac qalmazdı. Müttəhim hədsiz çılğınlığa, hissə qapılıb, o, hərçənd öz hərəkətində cinayət tərkibi görməsə də bir anlığa qəbul edək ki, ağır cinayət törədib. Barmaqlıqlar arasında səssiz-səmirsiz, donuq halda dayanan İqrar sanki hakimin dediklərini eşitmirdi. Onun beynində yalnız türmədəki gələcək həyatı canlanırdı. Gah da təlaş keçirən Aytacın yanında məzlum-məzlum oturan Əfsununa baxırdı, onun kimsəsiz gələcək taleyinə yanıb yaxılırdı... Hakim səsinə ara verdi. Onun nitqində yaranmış boşluq bir anlığa İqrarı özünə qaytardı. Hakim sözünə davam elədi:

— Biz məhkəmə prosesində əvvəldən axıradək bir suala da cavab axtardıq: müttəhimi belə bir cinayət törətməyə vadar eləyən motiv nə olmuşdur? Fikrimcə, məhkəmə araşdırmasında hadisələrin çözələnməsi, sorğu-suallar, şahid ifadələri, müstəntiq və kollegiya üzvlərinin mülahizə və mühakimələri buna da aydınlıq gətirdi. Müttəhimin narkotik maddə alverçisi kimi şərlənərək istintaqa cəlb olunması; müstəntiqin saxtakar istintaq araşdırmaları; 26 oktyabr 1983-cü il tarixdə keçirilən məhkəmənin qərarının qeyri-obyektivliyi; heç nədən müttəhimin səkkiz il həbsxana həyatı yaşamağa məcbur edilməsi; ailəsinin və özünün aramsız fiziki-mənəvi təzyiq və təqiblərə məruz qoyulma-

sı... Nəzərə alsaq ki, bu adam indi bəraət qazanıb, onda o zamankı hüquq mühafizə orqanı işçilərinin fəaliyyətinə nə ad vermək olar? Əslində onlar qanunla məhkəmə məsuliyyətinə cəlb olunmalıdırlar. Təəssüf ki, bizdə belə qanun da yoxdu. Qanunlar çox zaman təcrübəyə əsaslanmadığından, müttəhimin dediyi kimi, nəzəri xarakter daşıyır, boşluqlar meydana çıxır. Müttəhim belə bir şəraitdə Müzəffər Müstəcib oğlu Şərbətovu evində qətlə yetirib və özü də könüllü təslim olub. Hüquq qanunlarını və humanist prinsipləri nəzərə alaraq məhkəmə hökm verir: İqrar İdrak oğlu Kamilov 22 dekabr 1992-ci il tarixdə ağır cinayət törətdiyinə görə səkkiz il müddətinə azadlıqdan məhrum edilsin; Müttəhimin bu gün aldığı cəza 26 oktyabr 1983-cü il tarixdə keçirilən məhkəmənin hökmünə əsasən aldığı cəzayla kompensasiya olunsun və İqrar İdrak oğlu Kamilov zaldan azadlığa buraxılsın! Hökm qətidi, heç bir şikayət qəbul olunmur.

Qəribəydi. İqrar məhkəmənin son qərarını anlamadı. Onu durğunluqdan adamların sürəkli alqış səsləri ayırdı. İqrarın psixoloji durumunu görən hakimin də bir anlığa bədəni titrədi. O, tez də özünü ələ alıb zalı tərk elədi.

* *
*

Ağlına gətirə bilmədiyi iki görünməz hal İqrarın içində birdən-birə tüğyan elədi: biri məhkəmənin qərarına qədərki varlığını sarsıdan, ruhunu donduran təlatüm; ikincisi isə qərardan sonra cövlan eləyən, sevinc, fərəh doğuran duyğular çələngi. İqrarı titrədən içindəki kədər və sevinc hisslərinin toqquşmasıydı. Görəsən, onlardan hansı qalib gələcək: kədər, yoxsa, sevinc? Kədər nə qədər özünə dərin kök salsa da, qəflətən peyda olan sevinc, fərəh hisslərinin hökmüranlığı şübhəsizdi. Belə olduğu halda, İqrarın taleyində möcüzə baş verirdi. Bu möcüzə İqrara





bir anlığa yuxu kimi göründü. Sonra da keçirdiyi kədər və sevinc hissləri yavaş-yavaş öz tağımından enməyə başladı. Mirvari, Zərnigar, Gülər, Tuğay, İlqar İqrarın üz-gözündən öpüb təbrik eləyirdilər ki, o, arxasında Əfsunla Aytacın dayandıqlarını gördü. Ananın yekə, qara yaşantılı gözlərində giləlvalən yaş üstdən aşağı solğun çöhrəsinə süzülürdü. İqrar birgə yaşadıqları dövrdə incimədiyi Aytacgilə tərəf döndü. Kirpiklərini qırpmaqla keçmiş arvadına razılığını bildirdi və Əfsunu qucaqlayıb öpdü: "Mənim balam, mənim oğlum, mənim Əfsunum..." Əfsun atasının boynunu qucaqlayaraq:

— Mən səni çox istəyirəm, səninlə qalmaq istəyirəm, ata, — dedi:

— Hə... Mən də... Mən də...

Aytac pıçıltıyla bildirdi:

— Oğluna sahib dur, İqrar!!! Onu sənə tapşırıram.

İqrar Aytacın gözlərinin içinə baxdı. Orda nələr yoxuydu! Qadın asta-asta geri çəkildi. Hər ikisinin qəlbindən bircə sözdən ibarət olan nida qopdu — Əlvida! Əlvida Aytac!. İqrar bircə balasının əlindən tutub doğmalarının müşayiətilə zalı tərk elədi.

***2007***

# Təxribat

Quşbaşı yağan qardan boyun-boğazı islanan, kəsici sazaqdan, dondurucu şaxtadan bütün bədəni titrəyən, hərdənbir ayağı sürüşərək yıxılıb əzilməkdən özünü güc-bəla ilə saxlayan cavan oğlan ilgəhləri çözülmüş, köhnə, badamı dəri gödəkcəsinin yaxalağını qaldırıb boynunu çiyinlərinə qısaraq laqeydcəsinə həmişə yanından ötüb keçdiyi qızıl mağazasına tərəf yan aldı. O, heç kimi görmürmüş kimi saymazyana, ancaq daxilən böyük tərəddüd içində mağazaya çatıb qapı ağzında dayandı. Aşağı-yuxarı, sağa-sola baxdı. Sonra da üst-başının qarını çırpdı, üstündəki qar dənələri tökülsün deyə çəkmələrinin dabanlarını bir neçə dəfə girəcəyə, səliqəylə düzülmüş ağ mərmərə vurdu və heç bir şeyin təfavütünə varmadan içəri keçdi. Qızdırıcılar içərini əməlli-başlı isitmişdi. Nəsimana elə gəlirdi ki, adamlardan bəziləri canlarını qardan, sazaqdan qurtarmaq, bəziləri də göz oxşayan bər-bəzəklərə baxmaq üçün buraya gəlmişdilər. Tək-tək adam tapılardı ki, pulunu verib xoşuna gələni, ürəyinə yatanı alsın. Əslində, buna çox az adamın maddi imkanı çatırdı. Tavandan asılan çilçıraqların işıqları zinət əşyalarının parıltısına qarışaraq adamda qəribə hisslər oyadırdı. Onların da cazibədarlığı adamın içini silkələyirdi. Bütün vücudunu culğalayan, ancaq əldə edilməsi mümkün olmayan əlvanlığın təsiri altında bir anlığa mağazanı hardan və necə müşahidə edəcəyini unutdu. Tez də özünə gəldi. Sağ çiyni üstə dönüb piştaxtaya yaxınlaşdı. Qadın zinətlərinə — üzüklərinə, sırğalarına, boyunbağılarına, bilərziklərinə, sonra da onların qiymətlərinə sakit nəzərlərlə bircə-bircə baxdı. Zinət əşyaları nə qədər maraq doğursa da, qiymətləri onu məyus elədi. Düşündü ki, nə qədər işləsə də, özünü dağa-daşa salsa da, həyat üçün ən təhlükəli işlərə girişsə də, bikara şeydi, o, halallıqla bu qədər varidatdan üç-beşini heç vaxt qazana bilməz. Bu daş-qaşları yalnız oğurluqla, əyri-yollarla, basqınlarla, ya da qətllərlə əldə eləmək olar. Təəssüf... Belə çıxır ki, mən və mənim kimilər yaxşı yaşamaq, gözəl ömür sürmək üçün yalnız və yalnız oğruların, dələduzların, fırıldaqçıların yolunu tutmalıyıq. Yeri gəlsə, lap ən qatı cinayətkara da çevrilməliyik... Əks halda, ehtiyac, dərdi-sər, zidgirlik içərisində dolanmalıyıq... Bizə gündürlük yoxdu və olmayacaq da. O, başında olan zidiyyətli fikirləri toqquşdura-toqquşdura qızıl mağazasını gəzdi. Sonra da onun içində belə bir məzəli ideya doğdu. Satıcılar da zinətlərin, daş-qaşların özləri kimi cazibədardılar. Gözəldilər, adamı özlərinə cəzb eləyirlər... O, beləcə mağazadan çıxdı. Ac yalquzaq kimi fikirli-fikirli üzüaşağı getdi. Yaxınlıqdakı çayxanaya girib küncdəki stulda əyləşdi. Soyuqdan titrəyən əliylə pencəyinin döş cibindən papiros qutusunu çıxararaq, bir dənəsini dodaqları arasına qoyub alışqanla yandırdı. Bir çaynik çay sifariş verib, çoxdan tüstüyə həsrət qalan adamlar kimi papirosu sümürməyə başladı. Vitrindəki qızıllar, brilyant qaşlı üzüklər, sırğalar, qolbağılar, boyunbağılar gəlib durdu gözləri önündə. Od tutub yanan qiymətləri də həmçinin. Sonra da küçə aşağı-yuxarı şütüyən xarici markalı minik avtomobilləri, qədim şahların al-qumaşlı saraylarını andıran malikanələr... Üç ayda bir ucaldılan göydələnlər, çalın-çarpaz salınan beton yollar, insanı heyrətləndirən avropasayağı körpülər, onlara xərclənən milyonlar, qara qızıldan əldə olunan milyardlar... İçini qazıyan, dağıdan təlatümlü fikirlərdən hiss olunmaz dərəcədə başını yelləyib heç bir şey olmamış kimi üzünü yana çevirdi. Çayxananın pəncərəsi önündən keçən ağır zənbilli, beli donqarlı qarı titrəyə-

titrəyə, başına örtdüyü köhnə, cındır, qıraqları süzülmüş, boz yaylığının ucuyla tez-tez soyuqdan bozaran üz-gözünə tökülən qar dənələrinin suyunu silirdi. Qarı addımlarını atdıqca deşilən çəkməsindən lil, çirkab sular fışqırıb arxadan qıçlarını palçığa batırırdı. O, istədi ki, içdiyi çayın pulunu ödəyərək gedib qarıya kömək eləsin. Bu anda yanında üç-dörd yaşlı uşaq olan cavan bir qadının əllərini irəli uzadaraq adamlara yaxınlaşıb sədəqə istədiyini gördü. Bərk narahatlıq keçirtdi. Qadına yazığı gəldi. Handan-hana təəssüf hissiylə başını buladı, sonra da cibinin boşluğunu düşünüb: "Pulun olsa da, gedib hansına yardım eləyəsən", — deyə qadından gözlərini yayındırmağa çalışdı. Heç kimdən heç nə əldə eləyənməyən qadın adamların arasında gözdən itdi. Oğlan doğulub boya-başa çatdığı Çinarlı qəsəbəsinin sakinləriylə şəhər əhli arasında bu qədər fərq ola biləcəyini heç vaxt ağlına da gətirməmişdi. Çinarlıda adamlar var-dövlətlərinə görə nə qədər bir-birilərindən fərqlənsələr də bir o qədər də yaxınıydılar. İmkanlılar kasıblara, xəstələrə, şikəstlərə, kimsəsizlərə... əl tuturdular. Dərdlərinə şərik olurdular. Lap ağır anlarında çalışıb onların dərdlərinə çarə qılırdılar. Yaman gündə onları tək buraxmırdılar... Yanlarında olurdular. Şəhərə gələli gördüklərinin hamısı cavan oğlana çox təəccüblü görünürdü. İndi ona elə gəlirdi ki, xətir də, hörmət də, insani münasibətlər də, yaxşı mənada hər nə varsa, hamısı doğulub boya-başa çatdığı Çinarlıda qalıb. Səs-küylü, adamların gün axşamacan vurnuxduğu, axtardığı, nəsə qoparmaq istədiyi bu izdihamlı şəhərdə hər şey tapılır, təkcə müdrükcəsinə düşünən, Allahrzasına danışan, nurani babası Şərifin, bir də tanıdığı və tanımadığı adamların qayğısını çəkən xeyirxah, şirin dilli ağbirçək nənəsi Məryəmin insanlıq barədə dediklərindən savayı. O, bu qənaətə birdən-birə gəlməmişdi. Üç ay yarımlıq şəhər həyatı ona hər şeyi göstərmişdi. İnsafən, o, cavan da olsa, sadəlövh deyildi. Gözləri iti, hissiyatı güclüydü. Ağlı yetərincəydi. Eşitdiklərindən, gördüklərindən





dərhal nəticə çıxarmağı bacarırdı. Sözü göydəcə tuturdu. Söylənən fikri ayırd eləməyi bacarırdı. Şəhərə gəldiyi tez macalda insanlara yanaşmağı da öyrənmişdi. İlk görüşdən gülərüz, mehriban, səmimi təsir bağışlayan bu adam əslində qapalıydı. Ürəyindəkiləri heç kimə açmazdı. Söhbətə çalışıb birinci başlamazdı. Babası Şərifin "Çox danışma, müsahibinin sözünü kəsmə, imkan ver, axıracan danışsın. Götür-qoy eləmədən, deyəcəyin sözün arxasınca nə gələcəyini aydın təsəvvür eləmədən cavab vermə" məsləhətini özü üçün "Quran ayəsi" kimi unutmamağa, gündəlik həyatına tətbiq eləməyə çalışırdı.

İyirmi altı yaşı hələ tamam olmamış bu cavan oğlanın normal boy-buxunu, dolu bədəni vardı. Adama idmançı təsiri bağışlayırdı. Qonur gözləri, geniş alnı, qalın, qara saçları, enli sifəti, yastı çənəsi adama xoş gəlirdi. Ucadan danışıb gülməzdi. Bir çox hallarda gülərkən dodaqları bir qədər yana çəkilər, ağ sədəf kimi dişləri görünər, tez də dodaqlar öz yerinə qayıdardı... Dərhal da dişləri görünməz olardı... Cəld və çevikiydi. Heç nədən qorxusu-hürküsü yoxıydı. Heç kəsdən də gözüqıpıq deyildi. Qəribəliyi ondaydı ki, əsəbiləşəndə tamam başqa adam olurdu. Çılğınlaşırdı. Adi söhbət əsnasında deyənmədiklərini gözlənilmədən düz adamın gözlərinin içinə nettər kimi taxırdı. Qarşısındakı həddini aşanda əl-qol işlətməsi də vardı. Sinirləri tez qızışdığı kimi, tez də soyuyurdu. Adamların qəlbinə asanlıqla toxunur, sonra da dərin peşmançılıq hissi keçirirdi. Səhvlərini etiraf eləyib üzr də istəyə bilirdi. Yaxından tanıyan Çinarlı tay-tuşları ona "sən xatasan" deyərdilər. O da əvəzində: — Neyləyim, hərdən özümü ələ almağı bacarmıram, — cavabını verərdi...

Şəhərə gələli on beş-iyirmi gün ərzində Çinarlıdan olan həmyerlisi Qəşəmin köməyi ilə tikintidə güc-bəlayla özünə iş tapmışdı. Daş, qum, sementlə işləyir, dizlərində güc, qollarında zor olsa da hər gün hədsiz dərəcədə yorulur, şam yeməyi hazırlamağa da bəzən ərinirdi. Axşamlar tez yatır, səhərlər də erkən

qalxıb tələm-tələsik əl-üzünə su vurur, bir-iki loxma kəsir, işə gecikməmək üçün tələsirdi. Geciksə, işdən qovula biləcəyindən çəkinirdi. Kiçik yaşlarından atadan yetim qalan bu oğlan anası Qızılgülə və bir də iyirmi üç yaşlı vərəm xəstəliyinə tutulan bacısı Təcəssümə maddi yardım göstərməliydi. Ancaq iş elə gətirmişdi ki, onun aldığı məvacib gündəlik yeyib-içməyə və bir də kirayə pulunu verməyə ancaq çatırdı. Ayaqqabısı deşilsəydi, ya şalvarı bir şeyə ilişib cırılsaydı, yenisini alıb onları dəyişməyə pulu çatmayacaqdı. Belə olduğu halda, ya geri — doğulduğu qəsəbəyə qayıtmalıydı, ya da hardansa oğurluq eləməliydi. Kasadlıq dərdi onu çox sıxırdı. Sanki ürəyindən hər gün daş asılırdı. O, tez-tez öz aləminə qapılırdı. Qapıldıqca da gərginləşirdi, kiçik bir şeydən əsəbiləşirdi. Haldan-hala düşürdü. O, bəzən şəhərə gəldiyi üçün peşmançılıq hissi keçirir, halbahal olurdu. Hərdən geri — Çinarlıya qayıtmaq da istəyirdi. Başının havası dağılanda tez də bu fikirdən yan keçirdi. Sarsıntı, küskünlük, fikri dalğınlıq həmişə onu tanışlardan qaçırırdı. Bilirdi ki, hamı özüyçün çalışır. Fayda ummayan kimsə ona yaxınlaşmayacaq. Lap yaxınlaşsalar, neyləyəcəklər? Boş-boş danışıb vaxt itirəcəklər, kiminsə qeybətini qıracaqlar, hansı qadınınsa barəsində olmazın böhtanını, iftirasını eləyəcəklər... Bütün bunları düşündüyündən tək gəzməyə, özü-özüylə danışmağa üstünlük verirdi... Tənhalıq getdikcə onun üçün adətə çevrilirdi...

O, sifariş verdiyi çayın pulunu nəlbəkiyə atıb ayağa qalxdı. Hara gedəcəyini, nə iş görəcəyini bilmədiyindən yaxınlıqdakı "Sevinc" kinoteatrına getdi. Dünəndən başlayan çovğun, sazaq öz işindəydi. Nə vaxt kəsəcəyi bilinmirdi. Hər halda, üzü axşama, xüsusilə də gecə soyuğun, şaxtanın şiddətlənəcəyi ehtimal olunurdu. Düşdüyü acınacaqlı vəziyyətə kənardan diqqətlə baxan olsaydı, çox güman ki, asanlıqla onun üz-gözündən nələr çəkdiklərini sezə bilərdi. O, öz halına, taleyinə acıyaraq düşündü: "Bu vəziyyətdə hara üz tutacam? Ümid gələn yerim varmı?





Ac-yalavac gedib kirayənişin yaşadığım ev sahibəsinə nə deyim? Necə deyim ki, evində saxladığın kimi, zəhmət çək qarnımı da doydur? Geyim-keçimimi də təmin elə? Yazıq qarı onsuz da mənə əl tutur. Üstəlik bunu demək üçün ya dəli olmalısan, ya da qatı cinayətkar. Mən bu şəhərə cinayətkar olmaq üçünmü gəlmişəm? Deyəsən, fəlakətə gedən yola düşürəm. Bəlkə də cinayət törədiləcək bir aləmin astanasındayam. Cinayət qapıları üzümə taybatay açılmaq üzrədir. Azacıq təşəbbüs göstərsəm, heç bir müqavimətlə qarşılaşmadan içəridə olacam. Onda da geriyə qayıdılacaq bütün qapılar üzümə bağlanacaq... Olacam qatı cinayətkar. Bilirəm, bu hüququ anlamdı, onun məzmun çərçivəsi tam cızılmayıb, əhatə dairəsi çox genişdi. İctimai normaların cüzi pozulmasından tutmuş bəşəri cinayətlərədək hər şey ora daxildir... Qızıl mağazasındakı zər-zibalar, daş-qaşlar, zinət şeyləri hardandı? Bəyəm, onlar halal yollamı toplanıb? Hardan götürülməsindən asılı olmayaraq, həmin varidatlar cinayətlər törədilərək əldə olunmayıbmı?.. Eh... Anam yazıq, yemir-içmir, zidgirliklə bacımı dolandırır. Ətiylə-dırnağıyla qazandıqlarını bacımın iynə-dərmanına məsrəf eləyir. Hələ üstəlik, mənim dərdimi də çəkir. Mən neyləyirəm? Küçə aşağı, küçə yuxarı gəzirəm. Dayanıb kənardan baxan olsa, düşünəcək ki, avarayam. İşsizgücsüz, səfilsərkərdanam. Tufeyliyəm. Bu bikarçılığıma görə kimsə mənə nifrət də eləyə bilər. İndi də gəlib durmuşam burda — bu kinoteatrın qarşısında — əhlikeflər düşərgəsində. Sonu heç bir yerə çıxmayan, fayda verməyən şeylər barəsində boş-boş fikirləşirəm. Yüz boş düşüncədən, cəfəng fikirdən, mənasız mülahizədən bir real şey çıxarmı? Min yalandan bir həqiqət doğarmı? Bəs, özümü bu ağ yalanların ağuşuna niyə atmalıyam? Bir anaya oğul, bacıya qardaş olanmayacamsa, yaşamağa dəyərmi? Əli işdən qalan ananı, xəstə, imdad diləyən bacını dörd divar arasında qoyub şəhərdə boş-boşuna veyillənmək nəyə lazım? Axı mən şəhərə qazanc üçün gəlmişəm... İşləmək, tər tö-

kübçörək pulu əldə eləmək istəyirəm. Mənim başqa niyyətim yoxdu. Qarnımı halalca əməyimlə doydurmaqdı... Əgər iş də qəhətə çıxıbsa, ümidim hər şeydən qırılıbsa... Həyat, sən nə qədər rəzilsən?! Sən başdan-başa məzhəkəsən. Hər cür cinayətlərin məskənisən. Hər rola girə bilirsən. Sadəlövhləri necə də asanlıqla yoldan çıxarmağı bacarırsan!.. İndi mən neyləyim? Üzümü hara tutum? Necə deyim ki, mən də bu elin, obanın övladıyam? Ay məni eşidənlər, mən də sizin kimi məxluqam. Mənə də iş verin. Mən sizə lazım ola bilərəm...".

Getdikcə gurlaşan qardan, şiddətlənən çovğundan uzağı görmək olmurdu. Asfalt üzü axşama getdikcə buz bağlayırdı. Səkilər, şam, küknar ağacları sanki qardan yorğana bürünmüşdü.

Buzun üstünü qar aldığından, adamlardan ehtiyatsızlıq eləyənlər sürüşür, büdrəyir, çox çətinliklə müvazinətlərini saxlayırdılar. Elələri də vardı ki, özlərini saxlayanmayıb yanakı, ya kürəyi üstə yıxılırdılar. Ehtiyatsızlıqdan doğan belə hallar qartopu oynayan uşaqlar üçün çox gülməli görünürdü. Təbiətin yaratdığı bu çətinliklər azmış kimi, yeniyetmələrin, cavanların yaşlılara qartopu atmaları da bəzən yol gedənlərin çətin vəziyyətini bir qədər də gərginləşdirirdi. Kirayənişin yaşadığı evdə necə vaxtdı ki, istilik sisteminin işləməməsi, dünəndən qazın zəifləməsi, təqribən üç saat olardı ki, qaz və işığın xırp kəsilməsi cibində qəpik-quruşu qalan bu oğlanın halını pisləşdirirdi. Onun daxiliylə xarici aləmi arasında bir uyarlıq, eynilik vardı. Soyuqdan daldalanmaq üçün kinoteatr binasının küncünə çəkildi. Külək yağan qarı fırladıb ora da səpirdi. O, burada da daldalana bilməyəcəyini düşünüb kassanın qənşərinə gəldi. Kimisə gözləyirmiş kimi orda dayanıb gah əllərini bir-birinə sürtür, gah da nəfəsiylə qızdırmağa çalışırdı. Dayandığı bu yer çöldən xeyli istiydi. Ara-sıra kinoya baxmaq üçün gələnlərin üst-başlarından, ayaqqabılarından tökülən qar əriyib ayaq altına döşənmiş betonu da islatmışdı. Hardansa onun ağlına belə bir fikir gəldi: "Burda





boş-boşuna nə qədər dayanmaq olar? Bu saat kimsə mənə yaxınlaşıb "kimi gözləyirsən, sənə kim lazımdı?" — deyə soruşacaq. Onda nə deməliyəm? İnandırıcı cavab verəmməsəm — şübhəsiz ki, verə də bilməyəcəm, onda da heç nədən şübhə doğuracam, polis çağırıb məni ən yüngülü şübhəli, avara, tüfeyli adam kimi onlara istinad verəcəklər. Polislərə də əslində, bu, lazımdı. Onda da gəl canını qurtar görüm onlardan necə qurtarırsan...". O, fikirlərini içində qaynatmağa lap uşaqlıqdan öyrəncəliydi. Gördüklərini, eşitdiklərini başında o tərəf-bu tərəfə çevirir, gah qarışqanı filə, gah da fili qarışqaya döndərirdi...

Qəflətən duruxdu. Nəsə fikirləşdi. Gödəkcəsinin yuxarı düyməsini bağladı. Sonra sakit addımlarla kinoteatrdan çıxıb bayaq gəldiyi yolla pay-piyada evə sarı getdi. O, yol boyu özünü məzəmmətləyir, hətta, dünyaya gəlişinə təəssüflənirdi: "Niyə doğulmuşam? Mənim yaşamağıma nə ehtiyac var? Yazıq anam, xəstəliyin bezikdirdiyi bacım elə bilirlər ki, fərəzən gündəyəm. Qazanıram, yeyirəm, içirəm, geyirəm, başım kefə qarışıb, onlara əl tutmuram... Onları qınamıram. Mən də elə düşünərdim... Evdən gələli özümə bir corab da alanmamışam. Üstəlik, əynimdəkilər də köhnəlir. Belə getsə, sabah, ya o biri gün cır-cındır içərisində yaşamalı olacam... Doğrudur, tikintidə üç-beş adamdan savayı, məni tanıyan yoxdu. Uzaqbaşı onlar üzümə, ya arxama nə deyirlər-desinlər. Qəbulumdu. Bəs, anamın, bacımın ümidləri?..".

Küçəni dönmüşdü ki, elektrik cihazları mağazasının qarşısında yük maşını dayandığını gördü. Kabinədən düşən mağaza sahibi oğlanın fəhlə olduğunu anlayıb dedi:

— Oğlan, maşında bir az yük var. Onu boşaltmağa kömək eləyərsənmi?

Sonra da gülümsünərək sözünə davam elədi:

— Adın nədi?

— Nəsiman.

— Pulunu verəcəyik.

Nəsiman bayaqdan düşündüklərini bir an içərisində unutdu və sevincək halda bildirdi:

— Keçəl halva yeyər, puluna minnət.

— Ancaq ehtiyatlı ol. Onun biri bilirsən neçəyə başa gəlib?

— Təsəvvür eləyirəm.

— Yaxşı, başla.

Sahibkardan zəhməthaqqı nə verəcəyini soruşmayan Nəsiman yükləri boşaltmağa başladı. Sonuncu yükü də maşından boşaldıb sahibkara dedi:

— Daha başqa işiniz varmı? Varsa...

— Bu gün yox... İyirmi manat versəm, razı qalarsanmı?

— Bəy verən atın dişinə baxmazlar. Nə vaxt işiniz olsa...

Pulu alan Nəsiman yola düzəldi. O, pilləkənləri qalxaraq cibindəki açarla evin qapısını açıb içəri keçmişdi ki, yan otaqda yetmiş altı yaşlı ev sahibəsi Sənubər qarının zarıltısını eşitdi. Bir-iki dəfə qapını döydü. İçəridən: — Gəl, — səsini eşitcək otağa girdi.

— Sənubər xala, xəstələnmisən? Sənə nə olub?

— Nəsiman, oğlum, soyuq məni haldan saldı. Damarlarımda qanım donur. Belə getsə...

— Hə... Bu saat.

Qarı otağın küncündə qoyulmuş köhnə, taxta çarpayıda uzanmışdı. Üstünə sərdiyi nazik sətin, saya yorğanın üzlüyü çirk-pas içindəydi. Arvadın sir-sifəti bozarmışdı. Cavanlıqda gözəl-göyçək olduğu üz-gözündən oxunurdu. Saçları dümağıydı. Yanaqlarının sümükləri çıxmışdı. Boyun-boğazının, qollarının və əllərinin üstündəki damarları açıq-aydın görünürdü. Gözlərində tor hiss olunurdu. Birlikdə yaşadığı, özündən üç yaş kiçik bacısı Gülarə gecənin yarısı xəstələnib dünyasını dəyişəndən və qırxı çıxandan sonra qonşusu Fatış qarının təkidiylə o, Nəsimanı evinə kirayənişin buraxmışdı. İnsafən də həmin vaxtdan indiyəcən





üç otaqlı mənzilin hərəsi bir otağında ana-bala kimi baş-başa verib dolanırdılar... Nəsiman yan otağa qaçdı. Özünün yorğanını gətirib Sənubər qarının üstünə sərdi. Əlinin arxasını qarının alnında, üzündə gəzdirib hərarətini yoxladı. — Xala, sənə soyuq olub — dedi. Nəsiman çay qoymaq, yemək hazırlamaq istədi. Qaz gəlmədiyindən əvvəl nə eləyəcəyini bilmədi. Tez də fikirləşdi ki, evdəki yemək və çay termosunu götürüb yaxınlıqdakı yeməkxanaya qaçsın. Ordan isti, sulu yemək və çay alıb gətirsin. Belə də elədi... Qarını yedirib içirtdi. Böyür-başını basdırdı. Əllərini, qollarını, ayaqlarını yüngülcə ovuşdurdu. Qarı yavaş-yavaş özünə gəlirdi. Nəsiman gülümsünüb dedi:

— Sənubər xala, məni yamanca qorxutdun... Görürəm, indi yaxşısan.

— Hə... Oğlum, yalqızlıq pis şeydi. Kimsə yaxşı deyib: “Aslanın özü də yalqız olmasın”.

— Hə, onu düz deyirsən. Onda adam özünü kimsəsiz hiss eləyir.

— A bala, bu qarda, çovğunda hardaydın? Belə havada bəyəm, tikintidə iş olur?

— Yox... İstədim bir az vaxtımı keçirim.

— Bu qarda, çovğunda? Cavanlıq eləmə. Xəstələnərsən. Sən də xəstələnsən, mənə kim baxar?

Sənubər yatağındaca böyrü üstə çevrildi. Sonra sözünə davam elədi:

— Gərək ki, pulun yoxıydı. Bu yemək-içməyə pulu kimdən aldın?

Nəsiman gülümsündü:

— Nəyinə lazımdı? Gərək hər şeyin yerinə çatasan? Pulum olmasaydı, almazdım ki...

— Yox... Oğlum, bu yaşda mən nə yeyib-içdiyimi bilməliyəm. Beş-on günüm qalıb, gethagetdəyəm. İndi də soruşub yerli-yataqlı öyrənməsəm... Allah insanı yaradanda məsuliyyətini

də çiyinlərinə qoyub.

— Yük vardı. Onu boşaltdım... Narahat olma, sabaha da pulumuz çatar.

— Sabah mən də təqaüdümü almalıyam. Köməkləşib dolanarıq.

— İndiki işim yarıtmır məni. Bir az babat gəliri olan iş tapsaydım... Nə vaxta qədər belə olacaq? Mən işin ağırlığından qorxmuram. Nə olur-olsun, məvacibi çox olsun. Lap gecə də, gündüz də yük daşımağa hazıram.

— Hə... Oğlum, əldə maya lazımdı. Azdan-çoxdan ələ maya salsaydın, gedib kiçik alverə başlayardın. İtin-qurdun ağzında çeynənməzdin. Çox fikir eləməzdin. Fikir pis şeydi, adamyıxan olur. Ağıllı oğlansan, sonra da alverin böyüyünə keçərdin.

— O da yoxdu, Sənubər xala, matım-mutum quruyub. Elə bir adamım da yoxdu ki...

— Deyirlər, neftdə pul çoxdu, bəlkə özünü neft-çıxarma idarələrinə vurasan. Atalar deyib: "Gəzən ayağa daş dəyər". Bəlkə, bir şey çıxdı... Bəxtindən kişi də dünyasını tez dəyişdi. Yoxsa, onu salardım yanına, gedib axtarardız. Bilirsən, rəhmətlik nə kişiydi? Daşdan çörək çıxaran adamıydı. Tayı yoxıydı. Onu da Allah mənə çox gördü.

— Görək də... Belə olsa...

— Tələsmə. — Çətin günün ömrü az olur, — deyirlər...

Gecədən xeyli keçmişə qədər Sənubərlə Nəsiman dağı arana, aranı dağa qatdılar. Bəzən də söhbətləri təkrarlanırdı. Həmin gecə nə qaz gəldi, nə işıq yandı. Sənubər bir neçə dəfə öskürdü. Qarının halının ağırlaşa biləcəyini düşündü. Sonra da astadan deyinməyə başladı:

— Əşi, adamlara nə deyəsən? Necə başa salasan? Belə havada da qazı, işığı kəsərlərmi? Bilmirlər ki, qocası, xəstəsi, körpəsi, uşağı olanlar var?

— Kimə nə deyəsən, a bala? Yatmağın vaxtıdı. Bütün günü





qarda, çovğunda ayaq üstə olmusan. Gələndən də zəhmətimi çəkirsən.

— Nə zəhmət? O mənim borcumdu, Sənubər xala. Onu eləməyəcəkdimsə...

— Adyalını götür. Dur get, sən də yat. Səhər açılsın görək başımıza nə gəlir. Dünya birtəhər olub. Heç kim heç kimin kitabını oxumur. Halına yanmır. Söz deyirsən, üzünü yana çevirib gedir.

— Bundan artıq nə gələcək? Hər kəs öz hayındadı. Mənim kimilər də başlarını itiriblər. Kimdən nə umasan? Umsan nə çıxacaq?.. Heç yuxum gəlmir.

— Yuxusuz adamı soyuq tez alar...

— Adyalsız sənə də soyuq olacaq.

— Olmaz.

— Rəhmətliyin paltosu, gödəkçəsi şkafdan asılıdı. Götür onları, at üstünə. Divarlar buz kimidi, adamı özünə çəkir.

Bunu eşidən Nəsimanın bədəni üşəndi. O, gülümsünərək bildirdi.

— Nə danışırsız, Sənubər xala? Mən ölüdən qorxuram. Bilsəydim, rəhmətliyin paltarları hələ evdədi... İnan ki, bura ayaq qoya bilməzdim.

— Neyləyəcəkdin?..

— Heç nə, yatanmazdım.

— Ədə, boş-boş danışma. Ölü adama neyləyir ki... Onda qala onun paltarları ola. Bir-iki dəfə geyib. Qət-təzədilər. Götür gey əyninə, canın qızsın. İstidən adama ziyan olmaz.

— Yox, yox, o yana elə. Gecə yatağımdaca dəli olaram, ürəyim çatlayar. Səhər qalxıb görərsən ki, ölmüşəm.

Sənubər gülümsündü, üstündən yorğanı kənara sıyırıb ayağa qalxdı. Adyalı Nəsimana verib gedib şkafı açdı. Asılqandan bir neçə köynək, kostyum, bir palto və gödəkcə asılmışdı. Qarı ərinin paltosu ilə gödəkçəsini gətirib öz yorğanının üstündən sərdi.

Üzünü Nəsimana tutub mızıltıyla dedi:

— Saqqalın ağarsın. Adam azanda qəbristanlıqda özünə həyan tapar. Gör sən nə danışırsan? Uşaqlıq eləmə. Adyalını götür, sən də get yat.

Nəsiman adyalı götürüb qarı ilə xudahafizləşdi. Şam işığında öz otağına keçdi. Soyuq onu əldən salsa da, əsəbləri gərilsə də, heç cürə soyunub yerinə girmək istəmirdi. Anasıyla bacısının vəziyyəti gəlib dururdu gözləri önündə. O, ayaqqabılarını çıxarıb, paltarlı yatağına uzandı. Adyalı üstünə çəkdi. Çox çəkmədi ki, soyuq ona təsir eləməyə başladı. Yuxuya gedə bilməyəcəyini düşündü. Qalxıb çarpayının qırağındaca oturdu. Adyalı kürəyinə ataraq bir qədər qarşıya tərəf əyildi və dirsəklərini qıçlarına dirəyib başını qolları arasına aldı. Gecənin bu vədəsində fikir bu cavan oğlanı çəkib lap uzaqlara aparırdı. Bəzən də özgə vaxt ağlına gəlməyən, xarakterinə uyuşmayan şeylər barəsində düşünürdü. Bəzən də özlüyündə cinayətkarlara, oğrulara, basqınçılara da haqq qazandırmalı olurdu. İçində imkansızlıq insanı hər şeyə vadar eləyir qənaətinə gəlirdi. Tez də bu fikirdən vaz keçməyə çalışırdı. Ancaq nə fayda. Bulanıq, xarakterinə yad düşüncələr ara-sıra onu yaxalayırdı. Öz-özünə düşündü: “Ağla pis şey gəlməsin, gəldisə, gec-tez səni yoldan çıxaracaq. Başını dumanlandıracaq. Ən ağır, əlacsız xəstəliyin mikrobları kimi beyinə soxulacaq, sağlam düşüncə yarada biləcək hüceyrələri didib-dağıdacaq. İnsan qəribə məxluqdu. Gec-tez virusların girdabına çevriləcək. Sağlam fikri xəstə düşüncə məhv eləyəcək. Bu qarlı-şaxtalı gecədə, zil qaranlıq otaqda gör mən nələr barədə düşünürəm? Görünür, başım xarab olur. Deyirlər: “Allah adamın əvvəl ağlını alır, sonra var-dövlətini, ən axırda da canını”. Mənim var-dövlətim yoxdur. Ancaq canım var... Başıma bir iş gəlsə, anam, bacım neyləyərlər? Allahın onlara yazığı gəlsin...”.

Oğlanın “ah”, “uf”lardan savayı, heç bir səs-səmiri çıxmırdı. Nabələd kəs otağa girsəydi, burda adam olduğunu ağlına gətir-





məzdi. Milçək uçsaydı, eşidilərdi. Nəsimanın ürəyindən sanki ağır daş asılmışdı. O, ayağa qalxdı, pəncərəyə tərəf yaxınlaşıb pərdəni bir balaca kənara sıyırdı. Şəhər zülmətə qərq olmuşdu. Nə küçələrdə dirəklərin başındakı elektrik lampaları yanır, nə də ətrafdakı beş, doqquz və çoxmərtəbəli binaların pəncərələrindən işıq seli axırdı. Bir anlığa ona elə gəldi ki, azmərtəbəli binalar qəbirlər, çox- mərtəbəlilərsə baş daşlarıdı. Bu gün, sabah, ya o birisi gün, nə vaxtsa əcəli tamam olanda hər kəs — lap elə özü də, Sənubər qarı da, doğmaca anası, bacısı da dünyalarını dəyişəcəklər. İstəsək də, istəməsək də hamımız üçün belə qəbirlər qazacaqlar. Hamı bu dünyasıyla vidalaşacaq. Adamlar bir daha üzləşməyəcəklər. Bir-biriləriylə dərdlərini bölüşməyəcəklər. Kimsə başqası barədə düşünməyəcək. Onda beyinləri didən, insanları fəlakətlərə düçar eləyən beyin virusları da məhv olacaq... Nəsiman bu fikirlər içərisində vurnuxurdu ki, qulağına Sənubər qarının səsi gəldi. O, zəif şam işığında qolundakı atadanqalma köhnə saatına baxdı. Saat üçə iyirmi dəqiqə işləyirdi. Nəsiman asta-asta gedib Sənubər qarı yatan otağın qapısını açdı. Bunu hiss eləyən qarı zarıltıyla dilləndi:

— Sən də yatanmırsan, oğlum? Belə getsə, mən səhərə çıxanmayacam. Mənə əlac elə.

— Necə, Sənubər xala?

— İsti çay.

Nəsiman qarıya yaxınlaşdı. Əlinin arxasını onun alnında, yanaqlarında gəzdirdi. Qadın soyuqdan titrəyirdi. Bədənində sanki qanı donurdu. Nəsimanın qarıya yazığı gəldi. Tələm-tələsik termosun dibində qalan çayı stəkana süzüb ona verdi. Sənubər çayı içib ağlamağa başladı:

— Mən donacam. Mən belə ölmək istəmirəm. Bu yaşamaq deyil, it kimi gəbərməkdi, Nəsiman. Ürəyim əsir... Bu dünyada nələr görmədim mən. Günahım nəydi ki, bu əzablara düçar olam?

— Qorxma, bu saat bir şey fikirləşərəm.

Çöldəki parlaq qarla, içəridəki yanar şam az da olsa evi işıqlandırmışdı. Qarı titrəyirdi. Nəsiman ala-toranda qarının gözlərinin içinə baxdı. Orda nələr yoxıydı? Həyatının sönməsini büruzə verən işartılar: qorxu, təlaş, həyəcan, vahimə... nələr... nələr...

Nəsimanın ürəyi kövrəldi. Bir anlığa ona elə gəldi ki, bu qadın yad adam deyil, doğmaca anasıdı... Qarının keçirdiyi hisslər oğlanın gözlərini yaşartdı. O, qarı görməsin, bir şey başa düşməsin, — deyə üzünü yana çevirdi. Gözlərini gizlətməyə çalışdı. Yüngülcə başını yelləyib, dərindən köks ötürdü. Düşündü: "Kasıblar, əlsiz-ayaqsızlar, fəqirlər belə olurlar... Bizi dünyaya gətirənlər gələcəkdə nəylə qarşılaşacağımızın fərqinə də varmırlar... Sənubər xala, sən də elə. Həmişə oğlun, qızın olmağınla öyünərdin. Onları təriflərdin. İndi bir şəhərdə yaşayırsız. Deyərdin, nəvələrim var. Hanı doğmaların? Mən bu evdə kirayənişin qalalı heç birini görməmişəm. Sənə əl tutmayıblar. Vəziyyətin barədə düşünmürlər. Düşünsəydilər, sənə bircə dəfə baş çəkərdilər. Bu günündə sənə sahib durardılar... Yəqin, mənim anam da, bacım da soyuqdan donurlar. Qarınları acdı. Mən sənin övladların barədə düşünən kimi, anam, bacım da yəqin mənim dəyanətsizliyim haqda fikirləşirlər. İndi mən neyləyim? Hara gedim? Kimə ağız açım? Necə? Gecə gecədən keçib. Çayxanalar bağlanıb. Şübhə eləmirəm, onların da qazı gəlmir, işıqları yanmır. Bircə yolum qalır. Həyətə düşüm. Bu qarda, çovğunda, şaxtada ocaq qalayım, sənə çay hazırlayım. Onda da qonşulara hay düşəcək, hərə bir söz danışacaq... Eh... Nə danışırlar-danışsınlar... Özləri bilərlər. Fakt budur ki, bir insan donur. Ona əl uzadıram. Deyirlər: "Balığı at dəryaya, balıq da bilməsə, xaliq bilər". Bu saat! Bu saat, Sənubər xala, sənin üçün çay hazırlayacam. İçərsən, bədənin isinər...". Nəsiman böyük çaydanı su ilə doldurub köhnə qəzetlərdən birini götürərək tələm-tələsik həyətə düşürdü ki, Sənubər: — Nəsiman, — deyə dilləndi.





— Eşidirəm?

— Hara gedirsən, oğlum?

— İstəyirəm, sənə çay hazırlayım.

— Qaz gəldi?

— Yox!

— Bəs, necə hazırlayacaqsan?

— Bir şey fikirləşəcəm.

— Qorxuram, getmə. Sən yanımda olanda sakitləşirəm. Elə bilirəm ev dolu adamdı. Hamı qarşılaşacağım fəlakətdən məni qoruyur. Ölüm nə ağır şeymiş... Elə belə vaxtlarda, işimiz xod gedəndə ölümü adiləşdiririk. Elə ki, bir balaca ayağımız büdrədi, nəfəsimizi ağır aldıq, onda ölümün zəhmi bizi basır!

— Nə ölüm?! Narahat olma. Burdayam, nə lazım olsa, eləyəcəm. Bəlkə, telefonlarını verəsən, oğlunu, qızını çağırım.

— Yox... İstəmirəm. Onlardan umacağım da, nigarançılığım da yoxdu... Mənə Allah özü dayaq dursun. Bəndədən heç nə istəmirəm.

— Məndən də.

— Yox, mənə yazığı gəlib, səni Allah özü göndərib bura.

Gülüşdülər

— Onda səbr elə, gəlirəm.

Nəsiman həyətə düşüb yaxınlıqdakı tikinti obyektindən, qarın altından kiçik taxta parçaları, talaşaları yığdı, həyətdə ocaq qaladı. Nə vaxtsa girəcəyə qoyulmuş mişar daşlarından ikisini gətirib ocağın kənarına qoydu. Qəzet parçasını bürkələyib alışqanla yandırdı və ocağa yaxınlaşdırdı. Talaşalar yavaş-yavaş alışdı, həyət-baca ala-torana büründü. Taxtalar çırtaçırt yandıqca, Nəsiman onların əvəzinə yenilərini ocağa qoyurdu. Az keçmişdi ki, arxasında səs eşitdi. Kimsənin gəlişini gözləmədiyindən, qəfləti səs eşitdiyindən diksindi. Ancaq özünü o yerə qoymadı. Yavaşca arxaya çevrildi. Ala-toranda səs çıxaranı görmə-

yə çalışdı. O, ucaboy, qurğaz bir adamıydı. Başına köhnə, tükləri getmiş dəri papaq qoymuşdu. Əynindəki boz, nimdaş paltonun yuxarı düyməsi bağlansa da, aşağıdakı iki düymə açıqıydı. Qalın səsli bu adamı ilk dəfə gördüyündən ona əvvəl cavab vermək istəmədi. Kişi bu dəfə əsəbi tonda dilləndi:

— Ayə, yekəbaş, həyətdə nə lotuluq eləyirsən?

— Təhqir eləmə. Həyətdə ocaq qalayıb çay hazırlamaq bəyəm lotuluqdu?

— Bəli... Bu, təzə hoqqadı? Hər gələn məhləyə təzə nırx qoyur.

— Mən səni tanımıram. Evdə xəstə var. Onun üçün...

— Xəstə... Camaat sağlamdı. Götür çaydanını da rədd ol burdan. Yoxsa, çaydanını götürüb çırparam kəllənə. Onda qanarsan.

Nəsiman məsələnin ciddiliyini anladı. İstədi gedib onun boğazından yapışsın. Bir-iki sillə vursun. Sonra nəsə fikirləşib dayandı. Astadan bildirdi:

— İmkan ver, çayı qaynadım.

— Sənin başın xarabdı. Nə elədiyni də bilmirsən. Bütün məhlənin yuxusuna zəhər qatırsan. Qanmırsan ki, külək zibil qarışdırar. Məhləni od alar. Deyirsən, zəng çalıb polis çağıraq? Ya səni yıxıb yerə qandıraq?

— Onu bacararsan?

— Canını da alaram. Sənin kimilərdən çoxlarının qəbrini qazıb bu lələşin... O yan-bu yan eləsən, məhlənin qarını sənə yedirəcəm. Dinmirik, danışmırıq, qabaqlarından qaçırıq, gündə bir atasından xəbərsiz gəlib burda oyun düzəldir.

Nəsiman əsəbləşdi:

— Yekə kişisən, özünü uşaq kimi aparma... Sənə axırıncı dəfə deyirəm, get burdan, öz adını da başqalarına qoyma, qanacaqsız.

— O gün də anasının əmcəyini kəsənlər gecə yarı gəlib burda zurna çalıblar. Arvad-uşağı dəli eləyiblər. Anaları namaz üstə olub ki, mən evdə olmamışam. Bilirsən, neylərdim onlara?

— Yox... Bir də ki, kim neyləyib özü bilər. Xəstə məni gözləyir, ona isti çay çatmalıdı, içib bir balaca isinsin.

— Bayaq da dedim, kim ölür-ölsün. Mənə nə dəxli var.

— Deyəsən, sənin əcəlin çatıb. Məni qana çalxama.

Nəsiman aşağı əyilib taxtanı ocağa qoyurdu ki, tanımadığı bu adam arxadan ona bir təpik çaldı. Az qala Nəsiman üzü üstə ocağa yıxılacaqdı. O, müvazinətini çətinliklə düzəldib əlindəki taxtanı tanımadığı adamın gicgahına ilişdirdi. Yenə vurulacağını güman eləyən adam üzü aşağı — tikintisi yarımçıq qalan binaya tərəf qaçdı. Əvvəl Nəsimana elə gəldi ki, o adam da ağac, ya başqa şey götürmək üçün qaçdı. Nəsiman onun ardınca getmək istədi, ancaq nəsə fikirləşib getmədi. Çaydanın qaynamasını gözlədi. Aradan xeyli vaxt keçdi. Vurduğu adamın qayıtmadığını görcək düşündü:

— Yəqin xəstəymiş. Xəstə olmasaydı, geri qayıdardı. Gərək dözəydim, vurmayaydım...

O, beləcə peşmançılıq hissi keçirirdi ki, gurultuyla iki yanğınsöndürən maşının həyətə gəldiyini gördü. Nəsiman əvvəl-əvvəl onların gəlişinin fərqinə varmadı. Sonra düşündü:

— Görünür, binaların hansındasa yanğın baş verib. Gecəyarı. Qar-qiyamət... Yazıqlar... Ev yansa, arvad-uşaq neyləyəcək?..

O, bu fikirlə başını qaldırıb ətrafdakı binalara baxırdı ki, yanğınsöndürənlər maşından tökülüşdülər. Komandirləri Zülfəli Zülfüqarlı qışqırmağa başladı:

— Ayə, başı xarab, gecənin bu vaxtında həyətdə ocaq qalayarlar? Hələ Novruz çərşənbəsinə iki aya yaxın vaxt var. Atılmısan ortaya, adamları dəli eləmisən.

— Nə Novruz? Nə çərşənbə? Görürsüz, çay qaynadıram.

— Elə bildim yumurta qaynadırsan?

Yanğınsöndürənlər uğundular: ha... ha... ha...

Nəsiman daxilən əsəbiləşsə də onlara başqa söz deməyib ocağa taxta qırıqlarından bir neçəsini qoydu. Onun bu saymazyana hərəkəti komandirə təsir elədi:

— Deyəsən, sənə söz batmır.

— Komandir, imkan verin, arvada çay çatdırım.

"Arvad" sözünü eşidən komandirin həmkarı Qəməş Qəməşovu gülmək tutdu. O, handan-hana özünə gəlib dedi:

— Ayə, arvadın hökmünə bax ey. Ayə, biqeyrət, arvaddan qorxan kişi belə havalarda qapı arxasında qalar. Bu, ələ düşəsi nüsxə döör: ha... ha... ha...

Yanğınsöndürənlər gülüşdülər. Söz altda qalmayan Nəsiman sakit tərzdə mızıldandı:

— Az fərqimiz var. Gecənin bu vaxtı hamımız bu gündəyik. Mən belə, siz elə.

Komandir Nəsimanın nəyə işarə elədiyini anladı. Ancaq açıb ağartmadı. Oğlana tərs-tərs baxıb astadan dedi:

— Bizim qonşuda arvaddan üyüdən bir kişi vardı. Məhəllə əhli yığıldı. Onun ələhəmini tərsinə qaldırdılar...

Nəsiman təəccüblə soruşdu:

— O nə deməkdi?

— Quyuladılar. Adını da qoydular məhəllənin çiçəklənməsi uğrunda mübarizədə fədakarcasına həlak olan qonşu. Qəbir daşına da elə beləcə yazdırdılar. Doğrudur, onda orqan işçiləri böyüklü-kiçikli yüzə qədər tökülüşüb gəlmişdilər.

Nəsiman qəsdən soruşdu:

— Sonra nə oldu?

— Heç nə. Nə olacaq? Aktlaşdırdılar. Cinayət işinə xitam verdilər. İndi qandın ələhəmin tərsinə qılınması nə deməkdi?

— Onun arvadı necə oldu?

— Heç... İşsiz-gücsüzdü. Əlacı kəsilib indi də onun-bunun möhübünü düzür.

— Əcəb kişisiz? Bolluca qeyrətiniz var.





— Səni də o yolla göndərə bilərik.

Nəsiman əlini-əlinə vurub ürəkdən güldü. Sonra dedi:

— Komandir, mənimlə məzələnirsiz, yoxsa...

— Hə, danışığa bax ey. Ayə, özgə dərdimiz-sərimiz yoxdu, oturub səninlə məzələnək? Ya laqqırtı vuraq? Çənə döyək? Ad-familiyan, atanın adı nədi?

— Nəcəfzadə Nəsiman Xələf oğlu.

Nəsiman başını yelləyib ocağı qurdaladı. Ocaq çırtaçırtla yanırdı. Özü də əllərini ocağın istisinə tutdu. Bunu görən komandir acıqlandı:

— Bizə yanmışıq verirsən? Bizi saymırsan?

Yanğınsöndürən Qəməş Qəməşov irəli yeridi:

— Cənab komandir, akt hazırdı. İmzalaya bilər. Ya imzalayıb cərməni ödəsin, ya da adam balası kimi, bizə görüm-baxım eləsin. Biz də vaxt itirməyək. Ola bilsin, başqa çağırışlar da var.

Nəsiman:

— Nə cərimə? Nə şirinlik? Qaz yox, işıq yox. Evdə arvad xəstə, bəs mən neyləyim?

— A bədbəxt, qaş qayırdığın yerdə vurub göz çıxararsan. Xəstəni zəhərləyib öldürərsən. Ondan sonra gəl canını qurtar polislərin əlindən, görüm necə qurtarırsan. Yoxsa, sən bizim polisləri tanımırsan?

Qəməş Qəməşov:

— Polislər də onu istəyirlər.

Komandir:

— Qəməşov düz deyir... Bir az cərimə keçirt, bir az da uşaqlara hörmət elə. Soyuqda, qarda-qiyamətdə əziyyət çəkib gəliblər. Gedib boğazların yaşlasınlar. Bu sənə də dərs olar.

— Mən özüm acından ölürəm. Bircə dilənməyim qalıb. Nə cərimə, nə hörmət?

— Aktını şöbəyə təqdim eləsək, polislər səni ya barmaqlıqlar arasına, ya da dəlixanaya aparıb çıxaracaqlar. Axırda da ev-eşi-

yini satıb onun-bunun əl-ayağına düşəcəksən.

Elə bu vaxt çaydanın qapağı atılıb-düşməyə, lüləyindən buxar çıxmağa başladı. Nəsiman çaydanı götürüb getmək istəyirdi ki, Qəməş Qəməşov onun yolunu kəsdi.

— Deyəsən, sənə söz təsir eləmir? Canın üçün səni bir hala salarıq...

— Yağışdan çıxıb yağmura düşdük, buna deyiblər də...

— Evsiz-eşiksiz adamam. İmkan verin, arvad evdə gözləyir, çayı aparım.

Söhbətin alınmadığını hiss eləyən və arxa maşının kabinəsində əyləşən üçüncü yanğınsöndürən Məməti Məmətiyev aralıdan qışqırdı:

— Ayə, camaatı gecə vaxtı bezdirmə. Nə deyirlər, ona da əməl elə. Gərək deyirsən, əl-qol işə salaq, a dılğır?

Nəsiman:

— Əvvəla, dılğır özünsən. Ağzı başına danışma. İkincisi sənə bir toy tutaram hardan gəlib hara getdiyini bilməzsən... Dəvədən böyük fil də var.

Komandir:

— Nə var?

— Dedim də.

Komandir çevrilib sağa-sola, aşağı-yuxarı binalara, sonra da Nəsimana baxdı:

— Ayə, sabaha az qalır. Camaatı bura yığma. Bizi hövsələdən çıxarma.

— Komandir, gedin o qoz-qozu başqasıyla oynayın. Mən sizin kimi qəmişdən çox görmüşəm.

Nəsimandan bir şey qopara bilməyəcəklərini anlayan komandir ucaboy, beli donqarlı Şirbala Şirbalayevə "vur" işarəsini verdi. O da bu işarəyə bəndmiş kimi gözlənilmədən Nəsimana bir şillə vurdu. Nəsiman səndələdi. Bunu görən Qəməş Qəməşov yerdəki taxta parçasını götürüb o da Nəsimanı vurmağa başladı.





Nəsiman özünü ələ almağa çalışırdı ki, Məməti Məmətiyev hücuma keçdi. Nəsiman başıyla onu vurub göz qırpımındaca yerə sərdi. Sonra da komandirin üstünə atıldı. Əlacsız qalan Nəsiman isti çaydana əl atdı. Bunu görən komandir işçilərini meydançada qoyub aradan çıxdı. Çox çəkmədi ki, gecənin qaranlığında görünməz oldu. Komandirdən xəbərsiz Şirbala Şirbalayev növbəti dəfə Nəsimana tərəf atıldı. Cana doyan Nəsiman qaynar suyla dolu çaydanı Şirbala Şirbalayevin başına ilişdirdi. Qaynar su Şirbalanın üz-başını, boyun-boğazını yandırdı. O, ayı kimi bağırdı. Elə bu vaxt Qəməş Qəməşov hardansa əlinə keçən qırmızı kərpic parçasını Nəsimanın üzünə vurdu. Gözlənilməz zərbədən huşunu itirən Nəsiman yerə sərildi. Səsə ətraf binalardakı sakinlər oyanıb pəncərələri taybatay açdılar. Gecənin bu vədəsində bu mərəkəni görən adamları heyrət bürüdü. Kimisi təcili tibbi yardıma, kimisi polisə zəng çaldı. Kimiləri də adam öldürürlər — deyə şaxtaya, soyuğa məhəl qoymadan allı-güllü tuman-köynəkdə hadisə yerinə axışdılar. Komandir qaçsa da həmkarları Nəsimandan əl çəkmək istəmirdilər... Hamıda belə təsəvvür yaranmışdı ki, yanğınsöndürənlər Nəsimanı öldürməsələr, ondan əl çəkməyəcəklər.

Bu hadisə qadınlara, uşaqlara daha çox təsir eləmişdi. Hamı qışqırırdı. Onları aralamağa çalışırdı. Məhəllədəki itlər də bərk həyəcanlanmışdılar. Onlar da hürə-hürə, dala-qabağa baxa-baxa, böyük təşviş içərisində olayların tamaşaçıları, hətta, iştirakçıları olmağa çalışırdılar. Hadisənin nədən qaynaqlandığını bilməyən bəzi adamlar ağına-bozuna baxmadan ağıllarına gələni danışırdılar. Şər, böhtan, qurama söz-söhbətlər, uydurma fikirlər hadisə yerindəcə rişələr atmaqdaydı. Doxsan yaşlı Cəfərqulu: — Nəsiman işləri korlayıb, dövlət adamlarına əl qaldırıb, günah onun özündədi, gərək səhvə yol verməyəydi. Tamam qarı: — Nəsiman hardan hara gəlib camaatın arvadına-qızına girişəndə, qanmalıydı ki, nə vaxtsa onun da qabağına bir xırsızı çıxa bi-

lər, yaxşı qurtarıb, hələ aparıb xızıllıqda başına pislik də aça bilərdilər. Fitvaçı Canəli: — Təxribatla məşğul imiş, deyilənə görə vahabilərlə də oturub-dururmuş. Çənəgir Feyzi: — Yüz dəfə dedim, gedə-güdələrlə fırlanma, səni gec-tez baqaja qoyacaqlar. Qapıbir qonşu küyçü Salatın: — Nəfsinə güc gələnməyib oğurluq eləyib. "Su çanağı suda sınar", aparıb ağıllandırarlar, ağlı başına gələr. Alkaş Səmid: — Narkotiklə məşğul idi, çəkən idi, vuran idi, elə olmasaydı, onunla kimin düşmənçiliyi vardı ki... Quşbaz Sərdar əmioğlu: — Günahsız adamı gecənin bu vədəsində it gününə salmazdılar ki... Fikirləşdikcə, adamın ağlına çox şeylər gəlir. Doğrudur, indi boynuna almayacaq, canınız üçün içəri atılan kimi biqeyrət gözümüzlə gördüyümüzə görə hələ bizə də sataşacaq. Polisin zopası pis şeydi. Mən hələ klassik metodların tətbiqini demirəm. İşdi-şayətdi tətbiq eləsələr, ondan çətin ki, adam ola... Balam, ona deyən vardı, hardan gəlib burda neyləyirsən... Beləcə uydurmalar baş alıb gedirdi. Hər kəs öz içini açıb tökürdü. Bayaqdan dayanıb baş verənləri sakit-sakit izləyən, deyilənlərə səbrlə qulaq asan İlxas da dözməyib dilə gəldi: — Bu boyda cinayətin araşdırılmasıyla niyə polis yox, yanğınsöndürənlər məşğul olurlar? İlxasın bu sözü gombul Şərifi hərəkətə gətirdi: — Camaat, məni çaşdıran molla demişkən, qatıq məsələsidir. Səs-küyə toplaşan, ancaq gücləri dillərinə çatan bina sakinləri də, Nəsimanı çırpışdıran yanğınsöndürənlər də bir anlığa dayanıb gombul Şərifin üzünə baxdılar. Şərif sözünə davam elədi: — Gecənin bu vədəsində bu zırhazır kimlərə xidmət eləyir? Hamı bir ağızdan: — Nəsimana! — Əgər elədisə, onda bəs, bu yanğınsöndürən maşınlar, yanğınsöndürənlər, qalanan ocaq, hisli-paslı çaydan? Yoxsa, Həzrət Abbas haqqı, dəmir məntiqimlə bu hadisəni, onu doğuran səbəbləri və onların nədən qaynaqlandığını açıb tökərdim. Qurbağa deyir: — Çox şey bilirəm, ağzıma su dolur, danışanmıram...". Elə bu dəm bir neçə polis maşını də uğultuyla həyətə girdi. Ağına-bozuna baxma-





dan, söz soruşmadan Nəsimanın qollarına qandal taxdılar. Bayaqdan qonşulardan imdad uman Nəsiman üzünü Sitarə qarıya tutaraq kövrəldi:

— Sitarə xala, çaydanda az da olsa qaynanmış su qalıb. Onu Sənubər xalaya çatdır. O, xəstədi.

Bunu eşidən Gülgəz ürəyiyumşaq və arif adamıydı. O, dərhal dedi:

— Nigaran qalma, oğlum. Aparacaq da, qulluq eləyəcək də. Bu paltarda rəisin yanına getmək ayıbdı. Narahat olma. Sən qeyrətli oğulsan. Sabah tumanımı atıb başıma gələrəm. Özüm rəislə danışaram, qorxma.

Polislər Nəsimanı sorğu-sualsız darta-darta yumşaq yerinə bir-iki vura-vura aparıb maşına mindirdilər. Sonra da qayıdıb yanğınsöndürənləri sorğu-suala tutdular:

Ucaboy polis:

— Oğlanı bu hala niyə salmısız?

Komandirdən savayı, bütün yanğınsöndürənlər bir ağızdan cavab verdilər.

— Onu komandirdən soruş.

— Hanı komandir?

Qəməş Qəməşov:

— Qaçdı.

Gödək polis:

— Əcəb kişidi.

Məməti Məmətiyev:

— Qaçmaq onun peşəsidi.

Ucaboy polis:

— Peşəsini tərgidərik. Gəlin, siz də əyləşin maşına.

Şirbala Şirbalayev:

— Biz iş başındayıq. Həm də dövlət adamıyıq.

Gödək polis:

— Gözümüz aydın, dövlət adamısız. İş başında cinayət törə-

dirsiz. Buna nə ad vermək olar?

Qəməş Qəməşov:

— Əşi, nə cinayət? Siz hər işdə öyrənmisiz cinayət axtarmağa. Belənçiklərin dərslərini verməsək, hər gecə əlli yanğın törədərlər.

Ucaboy polis:

— Döyməklə tərbiyə eləyirsiz?

Məməti Məmətiyev:

— Əşi, nə döymək? Bir-ikisini o, bizə vurub, bir-ikisini də biz ona.

Gödək polis:

— Əyləşin maşına, qalanını şöbədə danışarıq.

Elə bu vaxt Zülfəli Zülfüqarlı da həmkarlarının yanına qayıtdı. Polis nəfərləri ilə hədələşməyə başladı. Axırda vəziyyətin gözlənilməz hal aldığını görən Zülfəli Zülfüqarlı gülümsünərək dedi:

— Adam ölməyib, qan düşməyib. Sülh, barışıq lazımdı. Məsələni uzatmayaq. O, heç kəsə xeyir gətirən iş döör.

Ucaboy polis:

— Sülhü şöbədə bağlayarsız.

Əlacları kəsilən yanğınsöndürənlər polislərlə razılığa gəldilər. Zülfəli Zülfüqarlı bildirdi:

— Biz iş başındayıq. Hadisə baş verə bilər.

Şirbala Şirbalayev:

— Ayə, bu nədi, əə. Başımıza daş düşdü. Sən öl uşaqlar evdə acından öləcəklər. Gəldik, dəyusdan beş manat alaq. Gör nə günə düşdük. İndi get müstəntiq qarşısında otur. Komandirin tifağı dağılsın. Kişiliyi buna çatırdı. İtin dalınca düşən zibilliyə tuş gələr.

Qəməş Qəməşov üzünü polis nəfərlərinə tutdu:

— Zülfəli düz deyir. Sabaha nə qalıb? Tezdən gələrik şöbəyə. Nə sözünüz var, orda deyərsiz. Lap qulağımızdan da tutub





cəzalandırarsız.

Polislər bir-birilərinin üzünə baxdılar. Gödək polis boynunu qısıb çiyinlərini çəkdi. Ucaboy polis yanğınsöndürənlərin sənədlərini alıb: — Sabah saat onda şöbədə olun, — deyib maşına əyləşdilər. Maşın hansı sürətlə həyətə gəlmişdisə, Nəsimanı götürüb elə də həyətdən çıxdı.

* *
*

Sabah ara verəndə təcridxanaya salınan Nəsiman aqibətinin nəylə nəticələnəcəyi barədə düşünürdü. Gecə yanğınsöndürənlərdən aldığı zərbələrin yerləri ona rahatlıq vermirdi. O, şəhərə qazanc dalınca gəldiyi üçün özünü məzəmmətləyirdi: “Çinarlıdakı dolanışığım burdakından pis idi? Əzab-əziyyət... Axı mən nə pis iş gördüm? Donmaq üzrə olan bir qarıya havadarlıq eləmək üstəmi söyüldüm, döyüldüm? Təcridxanaya atıldım? İnsanlıq budurmu? Bəyəm, yıxılanı ayağa qaldırmazlarmı? İmkansıza qayğı göstərmək nə vaxtdan qəbahətli sayılır? Heyif... Zərbə yerləri necə də ağrıyır... Uff... Üzümdəki yara izləri gedəcəkmi? Mən anamı, bacımı, dost-tanışlarımı necə inandıracam ki, bu işdə günahsızam. Baş verən hadisəni təfsilatıyla danışsam, mənə inanan olacaqmı? İnanmıram. Ən qorxduğum şey polisə ilişmək, cinayətkar adını üstümə götürmək idi. Düşdüm də, götürdüm də. İndi neyləməli? Mənə kömək eləyəcək kimsəm olacaqmı? Yox... Yeganə nigarançılıq keçirəcək adam Sənubər qarıydı. O da elə. Bəlkə o zavallı sabaha çıxmayacaq. Buz kimi daş divarlar arasında soyuqdan donacaq. Görəsən, Sitarə qarı çaydandakı qaynanmış suyu Sənubər qarıya çatdırdımı? Oğuldan, qızdan yarımayan, yazıq qarı... Polislər qollarımı qandallayıb məni maşına basanda Gülzar qarı necə dedi? Gələcəm rəisin yanına? O, gəlib qapı arxasında qalmaqdan savayı neyləyəcək? Uzaqbaşı

göz yaşları axıdacaq... İnanmıram, anam məni bu gecə yuxuda görüb nigarançılıq keçirməsin... Dərdimə bax. Atalar yaxşı deyib: “Sən saydığını say, gör fələk nə sayır...”. Nəsiman bu fikirlər içərisində kiçik, rütubətli, yarıqaranlıq təcridxanada qoyulmuş dəmir çarpayıda gah oturur, gah durur, gah da qıçlarına döyürdü. Düşünürdü ki, kimsəsizdi, hər şeyi yığıb-yoğurub onun üstünə qoyacaqlar, işini də tez bir zamanda mühakimə üçün məhkəməyə göndərəcəklər...

Nəsiman ayaq üstə dözənmədi, ayaqqabılarını soyunub çarpayıya uzandı. Çöldəki soyuqluq sanki pambıq döşəyə, çirkli, köhnə adyala da çökmüşdü. O, üşüyüb ayağa qalxdı. — Belə getsə, mən də bu kamerada Sənubər xalanın vəziyyətinə düşəcəm, — deyə düşündü. Əlacı kəsilən Nəsiman soyuqdan qorunmaq üçün səhərə qədər təpik döyməli oldu.

* *
*

İşin başlama vaxtına az qalmış Gülgəz qarı polis idarəsinə gəldi. Onu qapı ağzında növbətçi qarşıladı. Gülgəz yan-yörəsinə baxıb növbətçiyə dedi:

— Mən rəisinizlə görüşmək istəyirəm.

— Rəis gəlməyib. İşi çox olur. Nə sözünüz var, deyin. Bəlkə, biz...

— Əşi, dedim mənə rəis gərəkdi. Uzatmaq nəyə lazım? Lazım bilsəydim, sözümü gəlib sənə deyərdim də.

— A xanım, bəyəm rəisin yanına düşmək asandı? Hər gələn tullanıb keçsin onun kabinetinə?

— Ağzıbaşına danışma. Rəisin gələr, “tullanma” nə olduğunu sənə qandıraram. Sən hələ danışmağı da bacarmırsan. Görünür, yanğınsöndürənlər də sənin kimilərdən dərs alıblar. Nə onları, nə də səni bu dildə qoymaram.





— Xanım, belə ötkəm danışmaqda görünür...

— Hə... Saxlama de...

— Aaa. Sən dava-davasan ki. Rəislə də belə danışsan, on beş sutkalıqsan.

Elə bu dəm arxada xarici markalı minik avtomobili dayandı. Rəis maşından düşmüşdü ki, növbətçi onun qənşərinə qaçıb ayaqlarını cütlədi, sağ əlini qulağının dibinə qaldırıb salam verdi. Rəis başıyla salamı alıb pilləkənləri qalxırdı ki, Gülgəz ona yaxınlaşdı:

— Sabahın xeyir, rəis.

Rəis dönüb saymazyana baxdı, sonra üz-gözünü turşudub dilucu cavab verdi:

— Aqibətin xeyir.

— Rəis, savadsız uşaq-muşağı yığmısan bura, onlar da adamla danışanmırlar. Şit-şit çərənləyirlər. Bəyəm, bura məzə yeridi? Olmazdı ki, özünə layiq olanları götürəydin ki, sözü, şikayəti olan adamları da insan kimi qəbul eləyəydilər?

Rəis ayaq saxladı. Gülgəzi başdan-ayağa süzdü. Söz altda qalan arvada oxşamadığını duydu.

— Qarı, mənə ağıllı adamlar xeyir gətirmir. Eşitmisən də?

— Nəyi?

— Ağıllı fikirləşincə, dəli çayı basıb keçir.

— Hal əhlisən. Varam sənin kimilərlə.

— Rəis, mən vacib iş üçün gəlmişəm. Məni qəbul elə. Ürəyimdəkiləri deyim. Sonra gedim. Canın üçün şəkərəm. İnsulini də vurmamışam. Hirsimdən dilimin altından bir damcı su keçməyib. Yıxılıb ölərəm, ya koma vurar, qanınız qaralar. Səhər-səhər, xeyir-şərinizi eləmədən, alverinizə başlamadan qanınız qaralacaq. İstəməyənlər də hərəsi sizə bir ad qoyacaqlar. Bu, sizə lazımdımı?

Rəis maddım-maddım Gülgəzin üzünə baxdı:

Gülgəz:

— Nə baxırsan üzümə maddım-maddım? Elə bil ömründə nə qadın görmüsən, nə də onunla kəlmə kəsmisən. Rəisin matımutu qurudu. Gülgəz yenə əlavə elədi.

— Məni dinləyəcəksən, ya yox?

— Dinləyəcəm.

— Allah səni arvadına çox görməsin.

Rəis gülməkdən uğundu. Böyür-başında dayanıb onu müşayət eləyən polislər də buna bəndmiş kimi gülüşdülər. Gülgəz dərhal polislərə acıqlandı:

— Siz nəyə gülürsüz, ay qırışmallar? Rəis gəlməmişdən şirəpələngə dönmüşdüz. İndi sizə nə azar düşdü?

Polislər dərhal gülüşlərini kəsərək bir-birilərinin üzünə baxıb geri çəkildilər. Rəis üzünü onlara tutdu:

— Hə, necədi? Səsiniz çıxmır. Yaxşı deyiblər: "Qoç döyüşünə qoç çıxar".

Gülgəz:

— Ey rəis, heyf, keçdi o günlər. Papağımı günə yandırdım. Olaydı cavanlığım, bunlar baxaydılar...

— Neyləyərdin?

— Gözləriylə görərdilər ki, analar necə qız doğub... Məni pilləkəndə saxlama, rəis. Görünür, toqqanın altını yaxşı bərkitmisən. Dedim axı...

— Aydındı. Gəl kabinetə.

Rəis qabaqda, Gülgəz də onun ardınca binanın ikinci mərtəbəsinə qalxıb birbaşa kabinetə girdilər. Rəis gödəkçəsini çıxarıb yumşaq oturacaqda oturdu. Gülgəzə də əyləşmək üçün stul göstərdi. Sonra dedi:

— Adın nədi, xanım?

— Adım Gülgəzdi, rəis. Sən vicdanın mənə xanım demə.

— Niyə?

— Ətim tökülür. Mənim nəyim xanımdı? Bəzi qor-qoduqlar adlarına bəy dedizdirən kimi.





— Bəs nə deyim?

— Nənən yaşında qadına nə deyəcəksən qarıdan başqa.

— Əşi, yox, nə qarı. Hələ...

— Ağ eləmə. Gəl nə sən mənim, nə də mən sənin vaxtımızı alaq. Uzatmayaq. Birbaşa keçək mətləbə.

Rəis qəhqəhə çəkməkdən özünü güc-bəlayla saxlayırdı. Gülgəzə dedi:

— Keçək mətləbə.

— Qısası budu ki, bu gecə bir dəstə yanğınsöndürən bizim məhəllədə xuliqanlıq eləyib.

— Niyə?

— Qulaq as, kəmhövsələ olma. Deyəcəm hamısını.

— Buyur, buyur, xanım.

— Dedim axı mənə xanım demə. Cimmilləşdirmə bədənimi. Fərli-başlı canım-cəsədim də yoxdu.

— Yaxşı, yaxşı. Sözünü de.

— Bizim binada Sənubər qarı yaşayır. Oğlu-qızı onu atıb gediblər. Arvad güc-bəlayla özünü idarə eləyir. İstilik, işıq olmadığından evlər buza dönüb, hamı sinsidir. Eləcə Sənubər qarı da. Onun bir kirayənişini var. Adı da Nəsiman. Arvad donurmuş gecə. Sənubər çay istəyib. Oğlan da qaz gəlmədiyindən, elektrik olmadığından istəyib həyətdə zavallıya çay hazırlasın. Yanğınsöndürənlər hardansa, bizim məhəllədə peyda olublar.

— Binalarda yanğın-zad olmayıb ki?

— Xeyr... Sözümü kəsmə, fikrim qarışacaq. Şəkəri zəhrimara qalsın. Sonra məndən bir təməsik anlamayacaqsan.

Rəis özünü saxlayanmayıb gülməyə başladı. Güldükcə də kişinin bədəni titrəyir, çiyinləri qalxıb enirdi. Sanki hansısa klubun, mədəniyyət evinin səhnəsində şux, oynaq musiqi sədaları altında rəqs eləyirdi. Gülgəzin sifəti ciddi görkəm aldı:

— Bir özünə gəl, rəis, burda özünü çöldə qoyan yoxdu...

— Bağışla...

— Bu insafsızlar Nəsimanı ölüncə döydülər. Səsə, qışqırtıya həyətə çıxanda bina sakinlərini dəhşət bürüdü. Şəxsən mən əvvəl bilmədim yanğınsöndürənlərin hücum elədikləri nədi? Sonra bilǝndəki yazıq Nəsimandı, danışmağa sözüm olmadı. Sizin polislərə də Allah insaf versin. Qəflətən çıxıb böyürdən oğlanın qollarına qandaldı, nədi, ondan vurdular. Dalına-başına döyə-döyə baş-ayaq eləyib atdılar maşına. İndi o uşağın dalınca gəlmişəm. Onu sizin gepezedən çıxarıb Sənubərə təhvil verməliyəm.

— Mənim bu gecəki işlərdən xəbərim yoxdu.

— Bəs, niyə oturmusan burda? Belə çıxır vəzifənin öhdəsindən gələnmirsən? Ayıbdı, elə söz danışma. O söz sən boyda rəisə yaraşmır. Gərək deyəsən hər şeydən xəbərdaram. Gendən baxanlar da desinlər kişi ayıq adamdı. O, adamların gecə hansı üzü üstə yatdıqlarını da bilir.

Rəisin sifəti bozardı, qarının gözlərinin içinə baxdı. Özünü saxlayanmayıb qəhqəhə çəkdi. Handan-hana özünə gəldi. Gülgəz qəti və bir qədər də sərt şəkildə dedi:

— Ağ eləmə də.

— Nəyi ağ eləyirəm, xanım.

— Kişi "xanım" sözünü deməklə məni gic eləmə də. Özün də bilirsən ki, mən o söz.

— Nə o söz?

— Şəkərəm.

Rəis başını yelləyərək dərindən nəfəs aldı. Sonra öz-özünə dedi:

— Xeyir-şər eləməmiş əcəb paza keçdim.

— Uşağı ver, sonra da kimdən nə alış-verişin var, elə. Əlini qabağına verənin atasına lənət. Hə... Az qala yadımdan çıxacaqdı, nəyə deyirsən and içim. Nəsimanın heç nəyi yoxdu. Nə olsa, yanğınsöndürənlərdən çıxacaq... Yanğınsöndürənlərin də böyüyü gərək ki, sənsən.





Rəis əsəbiləşdi:

— Hə, necə bəyəm?

— Deməli, sənə arxalanıblar?.. Əşi, odu da. Çatmamış yazıq uşaqdan pul istəyiblər. Rəis, mən döyürəm, sənsən. "Yoluğun nəyi var, cırığa nə verə".

— Əşi, yavaş danış, səsini eşidən olar.

— Eşitsinlər də. Bəyəm, burda bic iş görürük? Söhbət eləyirik də. Ayə, əyri işin yoxsa, nədən xoflanırsan?

Elə bu dəm kabinetin qapısı aralandı, yekə bir baş içəri keçdi. Salam vermişdi ki, rəis onu içəri dəvət elədi. Gülgəz dərhal baş sahibinə bildirdi:

— Sən gözlə. Rəislə qurtarım, sonra gələrsən.

Rəisin diqqətsizliyindən sifəti bozaran Gülgəz üzünü yana çevirərək başını yellədi:

— Rəis, sən zor adamsan. Canın üçün mən belə qanmazlarla bir gün də işləmərəm. Hərəsinin dalına bir dubinka çalaram. Bağıra-bağıra gedərlər.

— Niyə?

— Çünki mədəniyyətləri yoxdu. Bunlar əvvəlcədən belə öyrənmişlərdi, yoxsa, sən tərbiyəsiz eləmisən? Çoxu da ki, əldəgözdü. Belənçiklərdən əlhəzər.

Bədəni çöldə, başı içəridə qalan şəxs rəisin növbəti çağırışını gözlədi. Əlacı kəsilən rəis bu dəfə əliylə ona: "Qapı ağzında dayanma, gəl" işarəsini verdi. Kişi cəsarətlənib bədənini də içəri soxdu. Rəis dərhal bildirdi:

— Qarı, o məsələlərə mən baxmıram. Onlara bu müstəntiq baxır.

— Məni dağa-daşa salma. Hər evin bir kişisi olur. Kişisiz ev qurd-quş yığnağı olar. Biri deyəni də o birisi anlamaz. Bu evin də kişisi sənsən. Kişiliyini boynundan atma. Atsan, bir ayaq geri qoysan, o sənə şərəf gətirməz. "Ağır ot, batman gəl". Beş-üç manat səni aldatmasın.

Rəis müstəntiqin üzünə maddım-maddım baxdı. Sonra əlini başına vuraraq astadan dedi:

— Başıma daş düşüb. Bunu mən içəri hardan dəvət elədim?

Müstəntiq:

— Nə olub, polkovnik?

— Alə, canıma dərd olub, çör olub. Öz əlimlə başıma oyun açmışam. Bunu çək apar, öz otağına.

Gülgəz:

— Məni dağa-daşa salma. Mən nə dilənçiyəm, nə də dərvişəm sədəqə yığam. Məni də hamı tanıyır, elə sizi də. İşçilərin dəstələrə bölünüb ölkəni dağıdırlar. Sən də onlara göz yumursan. Axı niyə? Adə pul da, qızıl da yaxşı şeydi. Gərək, halal yolla qazanasız. Yoxsa, gecə saat dörddə dılğırlar gəlib məhlədə, adamların gözlərinin qabağındaca uşağı eşşək kimi döysünlər, ayı kimi bağırtsınlar, nə var, nə var, pul vermirsən. Adamın kişiliyi olar. Əyinə şalvar geymək, başa papaq qoymaq bilirsən ki, kişiliyə dəlalət eləmir. O köhnə zəmanədə qaldı. Şalvardan, papaqdan indi qadınlar da istifadə eləyirlər. Kişilik sözdədi, əməldədi.

Rəis:

— Bizi təhqir eləyirsən. Səni atdıraram içəri.

Gülgəz:

— Qızışma rəis. Səksən yaşıma dörd aydı keçdiyim. Belə hərbə-zorbalardan çox görmüşəm. Çox azı dişlər qırmışam. Adam elədiyini deməz. Məni qızışdırma. Mən namərd adam döörəm. İstəmirəm məni qadın sanasan.

Müstəntiq:

— Ayıbdı, xanım.

Gülgəz:

— Hə... Bu hardan çıxdı, əə? Rəis, bunu başa sal. Bir də xanım desə, burda zıppıltı qopacaq.

Rəis:





— Qurtardıq, qarı, imkan ver, işimizi görək. Məsələyə ədalətlə baxacağıq.

Müstəntiq:

— Rəis, mən sözümü deyib gedirəm. Prokurorluqdan indicə məlumat almışıq ki, Gülgəz qarıgilin məhəlləsində bu gecə adam qətlə yetirilib. Meyid qar altından tapılıb.

Rəis:

— Nə? Təəcili danışın, təhqiqat qrupuna bizdən da nümayəndə daxil eləsinlər. Qətl yeri araşdırılmalı, meyid müayinədən keçirilməlidir.

Bunu eşidən Gülgəz tutuldu. Nə deyəcəyini bilmədi. İstədi durub kabinetdən çıxsın. Sonra fikirləşdi ki, heç nədən rəislə müstəntiqdə şübhə yarada bilər. Onlar da qərəzkar mövqe tutar, qətli axşamkı dava-dalaşla əlaqələndirər, cinayəti Nəsimanın üstə atarlar. Yazığı əlli-ayaqlı göndərərlər türməyə. Sonra da gəl haqqını tələb elə. Haqq yerini tutunca, nahaq boynunu qıracaq.

Rəis üzünü Gülgəzə tərəf çevirdi:

— Qarı, dur sən get. Gördün, ondan da vacib işimiz var.

Gülgəz:

— Gedirəm, rəis, Allah haqla getsin. Ancaq sənin bu müstəntiqindən gözüm su içmir. Nəsimanı sənə tapşırıram. Səndən də gəlib alacam.

Müstəntiq:

— Rəis, bunu hardan tapmısan?

Rəis acıqlandı:

— Verdim sənə.

Gülgəz:

—Ağzı başına danışmayın, əə. Mən sizin üçün nəyəm? Unutmayın ki...

Rəis:

— Nəyi?

Gülgəz:

— Çox mənəm-mənəm deyənlərin şalvarlarını çıxartdığımı?

Müstəntiq:

— Yaxşı get, sonra sən deyənlə də məşğul olarıq.

Gülgəz: — Hələlik, — deyib kabinetdən çıxdı...

Müstəntiq prokurorluğun yaratdığı təhqiqat qrupunun tərkibində hadisə yerinə getdi. Ocağın yandırıldığı, Nəsimanın döyüldüyü yer, ondan otuz metr aralıdakı daş-kəsəklikdə qar altda donub qalan meyidi müşahidə etdilər.

Adamlar hadisə yerinə axışırdılar. Onlar donub qar altında qalan şəxsi dərhal tanıdılar. Bu on ildən artıq psixi xəstə olan, xeyli müddət dəlixanada yatan İsmətov İsmət İsfəndiyar oğluydu.

İsmət qarşıdakı binada yaşayırdı. O, tez-tez həyətdə, küçədə dava-dalaş salar, ağlına nə gəlsə, onu da eləməkdən çəkinməzdi. Anası Məsmə həmişə onun arxasınca düşər, heç bir vəcdlə onu gözündən uzağa getməyə qoymazdı. İndi ana oğlunu donmuş vəziyyətdə görcək heyrətləndi. Qadının gözlərindən yaş sel kimi axmağa başladı.

— Şükür Allahın məsləhətinə. Bir övlad verdi, o da xəstə. Axırı da bu.

Ana oğlunu qucaqlamaq istəyirdi ki, müstəntiq ona imkan vermədi:

— Kənara çəkilin, meyid müayinə olunmalıdı.

Adamlar qadının qolundan tutub onu kənara çəkdilər. Müstəntiqin göstərişiylə meyidi təcili tibbi yardım maşınına qoyub xəstəxanaya — tibbi ekspert müayinəsinə göndərdilər. Ölənin psixi xəstə olmasına baxmayaraq, onun barəsində qonşular arasında müxtəlif fikirlər, ziddiyyətli mülahizələr söylənilirdi. Talıb kişi dedi:

— Qar donub, yer sürüşkən olub. Görünür, ayağı sürüşüb yıxılıb. Başı daş-kəsəyə dəyərək ölüb...





Səfər dərhal onun sözünə qarşı çıxdı:

— Əşi, yox. Son vaxtlar onda xəstəlikdən əsər-əlamət qalmamışdı. Adamla ağıllı-başlı danışıb gülürdü...

Qan çıxmayan yerdən qan çıxarmağa, ara qarışdırmağa öyrəncəli Tuğra qarı dilləndi:

— Eh... Eh... Mən də elə düşünnəm, Səfər kişi... İnanmıram... İsmət öz xoşuna ölən döördü. Onu öldürüblər, özü də insafsızcasına. Bu cinayəti dəlixanadakı dəlilər eləməzlər ki, görəsən? Onlar gecəykən bu qarda-qiyamətdə gəlib eləyiblərsə, heç nə, qanı batdı.

Müstəntiq onların sözlərindən istifadə edib sual verdi:

— Sizcə İsmətin ölümünün bu gecəki hadisəylə əlaqəsi yoxdu ki?

Nuruş kişi üz-gözündə cidiyyət yaratdı. Papiros dənəsini yandırıb əli əsə-əsə dodaqları arasına qoydu. Dərindən nəfəs alıb, astadan dedi:

— Cənab müstəntiq, bayaqdan mən də elə düşünürəm. Güman eləyirəm ki, ya onu Nəsiman öldürüb, ya da yanğınsöndürənlərin komandiri. Ola bilər xəta digər yanğınsöndürənlərin də əlindən çıxsın. Nəsiman öldürübsə, məqsədlidi, yanğınsöndürənlər qətlə yetiribsə, çox güman ki, təsadüfdü. Bunu onlardan soruşsanız yaxşıdı.

Elə bu vaxt Qaçay Qılınclı özünü adamlara yetirdi. Deyilənləri dinləyib dedi:

— Nuruş kişi, camaata böhtan atma. Ağzına gələni danışmağa öyrəncəlisən. Bir ayağın burda, o birisi gorda. Kimə gəldi, şər atırsan...

Sonra da Qaçay Qılınclı üzünü müstəntiqə tutdu və sakit tərzdə dedi:

— Axşamdan xeyli keçmişdi. Hava qaralmışdı. Mən teatrdan çıxıb evə gəlirdim. Yolum burdan düşdü. Kimsə İsmətlə mübahisə eləyirdi. Mən ayaq saxlamaq istədim. O adam mənə əsəb-

ləşdi: — Burda meymun oynadıram? Rədd ol burdan, səni doğrayaram. Doğrusu, mən çəkindim. Ağlıma gəlməzdi ki, o, xəstə adama əl qaldırar. Getdim evə. Kimsəyə bir söz demədim. İndi də məlum olub ki, İsmət ölüb. Burda nə Nəsimanlıq, nə də yanğınsöndürənlərlik iş var. Ay camaat, fəhmlə danışmayın. Təhqiqatın istiqamətini dəyişə bilərsiz. Cinayətkar qalar kənarda, bir günahsız ilişər... Allahınızdan qorxun, oturduğunuz yerdə heç nədən bəlaya düşərsiz...

Müstəntiq Qaçaya bir neçə sual da verdi. Sonra dedi:

— Saat üçdə səni gözləyəcəm.

— Baş üstə.

Bu söhbətdən sonra təhqiqat qrupunun üzvləri maşına oturub getdilər. Binaların sakinləri də kor-peşman, məyus-məyus dağılışdılar.

*   *
*

Əsəbi halda kabinetinə daxil olan müstəntiq növbətçini çağırıb kamerada yatan Nəsimanı yanına gətizdirdi. Ayaqdan-başa süzdü və onda belə bir fikir oyandı ki, bu oğlanda davakarlıq, kimsəyəsə sataşmaq ola bilməz. Gülgəz qarının dediklərində hardasa həqiqət var. Ancaq buna baxmayaraq, müstəntiq ona sual verdi:

— Kimsən? Hardan gəlmisən? Harda qalırsan? Gecə, o hadisə nə üçün baş vermişdi?

Qoyduğu suallara yerli-yataqlı cavablar alan müstəntiq növbəti sualını verdi:

— Yanğınsöndürənləri əvvəlcədən tanıyırdınmı?

— Yox...

— Nə qədər pul istədilər?

— Miqdarını demədilər. — Bir az banka köçürt, bir az da bizə ver, — dedilər.





— Şəhərə gəlməkdə məqsədin?

— İşləmək, ailəmə xərclik göndərmək.

— Özünü günahkar sanırsanmı?

— Nə günahkar? Neyləmişəm?

— Çox danışma. Sualıma cavab ver.

— Yox.

— Yox...

Müstəntiq qısa söhbətdən sonra növbətçini çağırıb Nəsimanı təcridxanaya göndərdi. Bir həftə sonra istintaqı aparan müstəntiq dəyişdirildi. Nəsimanla bu dəfə prokurorluğun müstəntiqi Asəf Quliyev sual-cavaba başladı:

— Cavan oğlan, bildirim ki, Cinayət Məcəlləsinin sənə xuliqanlıq və qəsdən adam öldürmə maddələriylə cinayət işi qaldırılıb.

— Nə? Nə xuliqanlıq? Nə adam öldürmək?

— Boğazının yoğun yerinə salma. Nə özünü ələ sal, nə də bizi. İsməti öldürməkdə məqsədin nə olmuşdu?

— İsmət kimdi?

— Özün yaxşı bilirsən. Şahidlər var. Üzünə duracaqlar.

— A ha... Bircə bu qalmışdı.

Asəf Quliyev:

— Özünü tülkülüyə qoyma. Gec-tez boynuna alacaqsan.

— Nəyi? İsməti öldürməyimi?

— Biqeyrət, xəstəyə əl qaldırarlar?

— Müstəntiq, məni təhqir eləmə. Mən şəhərə kabab iyinə gəlmişdim, ancaq eşşək dağlandığını gördüm. Adam öldürmək, kimsəyə əl qaldırmaq mənim işim deyil. Mənə hansı cəzanı verirsiz, verin. Mən heç kimin cinayətini üstümə götürməyəcəm.

— Dilini kürəyindən çıxardaram.

— Onu eləyə bilərsiz. Ancaq heç bir böhtanı, iftiranı boynuma götürə bilmərəm. Qaldı mənim bura düşməyimə, o, pulumun olmamasıyla bağlıdı. Bilirəm, pulsuz, kimsəsiz adamı həbs

də eləmək olar, öldürüb qanını batırmaq da.

— Bu nə danışıqdı, əə, qırışmal. Səni mən gətirmişəm bura? Yanğınsöndürənlərlə canınız çıxaydı, ictimai yerdə xuliqanlıq eləməyəydiz. Neçə binanın sakinlərini yuxudan oyatmısız. Gecəyarı camaatı tuman-paça həyətə tökmüsüz. Nalayiq sözlərlə arvad-uşaqların qulaqlarını doldurmusuz. Hamı sizdən bezardı... İndi də həyasız-həyasız bunun danışığına bax. Səndən pul istənib?

— Elə danışırsız, guya mən qəbahət eləmişəm.

— Aa... Qəbahətin olmayıbsa, burda nə qələt eləyirsən?

— Mənim qəbahətim insanlığımdı, cənab Quliyev.

— İnsanlıq adından istifadə eləyən azıydı, qalmışdın sən. İçəridə boş-bikar oturmusan. Qələm, kağız verim, insanlıq barədə qəzetlərə məqalələr yaz. Kimliyini tanıt.

— Hörmətli müstəntiq, görürəm, əhvalınız çox yuxarıdı, indi mənə ömürlük həbs hökmü də verə bilərsiz. Unutmayın ki, hamının Allahı var.

— Bəli, psixi xəstəni öldürməyi sənə heç vaxt qanun bağışlamayacaq. O cinayətdən sonra gərək dilin söz tutmasın.

Əsəbləri dözməyən Nəsiman əlini stola vurub qışqırdı:

— Dedim, mənə böhtan atmayın. Öləcəm, ancaq siz quramalarınızı mənim boynuma qoyanmayacaqsız. Açın qulaqlarınızı, yaxşı-yaxşı eşidin. Bir qarın çörək dalınca gəlib işləyən adamı görün necə də fəlakətlərə düçar eləməyə çalışırsız. Buna qanunmu, insanlıqmı, ədalətmi deyirsiz? Quramalara əsaslanan saxta hökmlərin heç zaman kəsəri olmaz...

Müstəntiq diqqətlə Nəsimanın gözlərinin içinə baxdı. Orda qəzəbdən, nifrətdən savayı, heç nə duymadı. İçində Nəsimana inamı oyanmaqda olan müstəntiqdə belə bir hissiyyat yaranmağa başladı: “Bəlkə, doğrudan da İsmətin ölümündə bu günahsızdı. Hər halda, yoxlamaq lazımdı. Fakt toplamaq, onunla yenə danışıqlara oturmaq gərəkdi”. Bu məqsədlə də o, növbətçini çağırıb Nəsimanı yatdığı kameraya qaytardı.





Sonra da düşündü:

— Nəsiman, deyəsən, haqlıdı. Faktsız, maddi dəlilsiz sorğu aparıram. Bu sorğuya ehtiyac varmı? İki dəfə uzunmüddətli dəlixana həyatı keçən İsməti öldürməyə Nəsimanın nə ehtiyacı vardı? Bu tələsik araşdırma kimə lazımdı? Kimsə İsmətin psixi xəstə olduğunu bildiyi halda, onunla belə qəddar rəftarı özünə rəva görərdimi? Yəqin, tezliklə həkim rəyini alarıq...

*   *
*

Kameraya qayıdan Nəsiman əsəbindən başını az qala divara çırpacaqdı. O, belə də zülm olar, — deyə düşündü. Bəlkə, axşam məni arxadan təpiklə vuran, ocağa itələyən, taxtayla vurduğum o adam elə İsmətdi? Axı o, psixi xəstəyə oxşamırdı. O, mənim vurduğum zərbədən ölsəydi, yanımdaca yıxılardı. Gecənin qaranlığında qarda-çovğunda qaçmazdı... İsmət məndən aralanandan sonra ayağı sürüşüb yıxıla bilərdimi? Bu zaman başı nəyəsə dəyərdimi?... Nə bilmək olar. Əgər sürüşüb yıxılıbsa, başı daşa, dəmirə, ağaca dəyib ölübsə, mən nə günah sahibiyəm? Onun ölümü mənlik deyil. O, məni vurub, cavabını da alıb. Allah bilir ki, mən onu qətlə yetirmək niyyətində olmamışam. İndi də o niyyətdə döörəm. Ölən həqiqətən odusa, rəhmət diləyirəm... O adamın adı İsmətdisə, İsmət ölübsə, mən onun qətlini yüz müstəntiq ola, heç vaxt üstümə götürməyəcəm...

*   *
*

Hadisədən üç gün sonra müstəntiq əvvəl yanğınsöndürənlərin komandiri Zülfəli Zülfüqarlını kameradan yanına gətizdirdi.

Nəsimanla arasında olan savaşı xatırlatdı:

— Nəsiman yaşayan məhəlləyə niyə getmişdiz?

— Çağırışa.

— Kim çağırmışdı?

— Qonşular... Dedilər, həyətdə yanğın var.

— Lap yaxşı. Yanğın vardımı?

— Getdik gördük, cavan oğlan həyətdə ocaq qalayıb çay qaynadır.

— Özü də ocağın yanındaydımı? Yəni, ocağa nəzarət eləyirdimi?

— Nəzarətini deyənmərəm, ancaq ordaydı.

— Sizi nə vadar elədi ki, dörd nəfər bir şəxsin üstünə töküldüz? Onu döyməyə başladız?

— O, bizi eşitmədi.

— Nə dediz ki, o, sizi eşitmədi?

— Biz ondan cərimə pulu istədik, vermədi.

— Nəsimandan əlavə pul niyə istəyirdiz?

— İstəməmişik. O, yalandı, böhtandı, cənab müstəntiq.

— Axı əlavə pul istədiyini sənin həmkarların etiraf eləyirlər.

— Dedim, yalandı.

— Yaxşı, hadisə yerində bir nəfər İsmət adlı adam qətlə yetirilib. Onu hansınız öldürübsüz?

— Nə? Cənab müstəntiq, onu indi eşidirəm.

— Bəlkə, onu da kərpic parçasıyla sən vurmusan?

— Nə danışırsız? Mən savaş yerindən tez qaçdım... Bəlkə, məndən sonra öldürüblər. Xəbərim yoxdu.

Müstəntiq sözünə ara verdi. Sonra təmkinlə soruşdu:

— Sənin həmkarların öldürə bilərdilərmi?

Komandir dayandı. Əvvəl nə deyəcəyini bilmədi. Handanhana çiyinlərini çəkib dilləndi:

— Mən heç kəsin yerinə and içənmərəm... Bəlkə də... İnsan çiy süd əmib...





— İsmət Nəsimana köməyə gəlibsə, həmkarların onu öldürə bilərdilər?

— Mənimlə həmkar olsalar da bir az dələduzluqları var.

— Deməli, dolayısıyla mən deyənləri təsdiq eləyirsən?

— Dəqiq deyənmərəm.

— Səndə dələduzluq yoxdu ki?

— Yox...

— Gözlərinin içinə kimi yalan deyirsən, məncə, ən böyük dələduz sənsən. Aləmi sən qatmısan.

— Mən niyə?

— Xeyirxah bir adamı döymüsən. Onu söyüşlərlə təhqir eləmisən. Həmkarlarını qızışdırıb onun üstünə qaldırmısan. Kərpic parçasıyla onu vurub-yıxmısan. Nə var, nə var, sizə pul verməyib. Axı sən dövlət adamısan. İş başında olmusan, namərd.

— Müstəntiq, qələt eləmişəm. Bir də o şeyi yemərəm.

— Şahidlər var. Deyirlər, İsməti yanğınsöndürənlər qətlə yetiriblər.

— Mən yox...

— Həmkarların da etiraf eləyirlər.

— Görünür, onlar məni şərləyirlər.

— Niyə?

— Yəqin qaçdığıma görə.

— Kişi də meydandan qaçarmı?

— Kişi olsaydım, burda nə gəzirdim, müstəntiq?

— Hə, onu düz deyirsən... Deməli, İsmətin ölümündə iştirakını boynuna almırsan?

— Nəslinə lənət onu öldürüb bizi bəlaya salanın.

— Komandir, onda belə çıxır ki, onu Nəsiman qətlə yetirib?

Komandir fikrə getdi. Sonra tərəddüdlə bildirdi.

— Savaşa qədər deyənmərəm. Savaş qurtarar-qurtarmaz polislər gəldilər. Nəsimanı maşına basıb şöbəyə gətirdilər. Əgər o, polis şöbəsində qalıbsa...

— Polisdə qalmaya bilərdi?
— İndi elə zəmanədi, adam ata-anasına da inanmır.
— Deməli, boynuna almırsan?
— Dedim, mən öldürməmişəm.
Müstəntiq növbətçini çağırıb dedi:
— Komandiri aparın, o birisi yanğınsöndürənləri növbəylə gətirin.
Növbətçi komandiri yatdığı kameraya aparıb Qəməş Qəməşovu gətirdi. Müstəntiq boğazını arıtlayıb təmkinlə sözə başladı:
— Nəsimanı döyüb ölümcül vəziyyətə salmısız. Komandiriniz də cinayətlərini boynuna alıb. Bununla bağlı cinayət işi açılıb.
— Elə komandirin atasına lənət. Başımıza daş saldı, balamızı yetim qoyacaq oğraş.
— Söyüş söymə. Bura nə cinayət törətdiyiniz yerdi, nə də burda Nəsiman var.
— Yanıram, cırılıb-dağılıram axı, müstəntiq. Beş manatdan ötrü gecə-gündüz canım çıxır kamerada.
— Nəsiman kimdi?
— Sən demə, yetimin biri — kirayənişin. Əşi, onun pulu var? Qarnına çörək tapmır. Biz də düşmüşük yazığın üstünə. Başımız kəsilməlidi, ölməliyik, vallah.
— Özünüzü günahkar sanırsızmı?
— Ayaqdan başadək.
— Yaxşı o İsməti hansınız öldürüb?
— Onun ölümündən xəbərim yoxdu. Bilirəm, hərləyib-fırlayıb onu da bizim boynumuza qoyacaqsız. Onun ölümündən xəbərim varsa, atam-anam itlə yatmış olsun.
— Valideynlərini niyə təhqir eləyirsən?
— Çünki mən ağılda övlad dünyaya gətiriblər.
Müstəntiq Qəməş Qəməşovu kameraya göndərib Məməti Məmətiyevi gətizdirdi:





Müstəntiq:
— Bura niyə düşdüyünü bilirsən də?
— Hə...
— ...
— Allah qənim olanda adam nə iş gördüyünü də bilmir. Biz ölməliyik, müstəntiq.
— Niyə?
— Necə niyə? Gecə vaxtı dəyyusun sözüylə get günahsızın birini şil-küt elə. Bəyəm, bu insanlıqdı?
— Bəs niyə elədiz?
— Ağılsızlıqdan, qudurmuşluqdan.
— Nəsimanın günahı nə idi?
— Heç nə... Ocaq yandırıb xəstə qarıya çay hazırlaması. Oğlanın biz dəyyusları elə ordaca doğramağa haqqı vardı.
— Bəs, İsməti kim öldürüb?
— Onu deyənmərəm. Yəqin o cinayəti də haqsızlığımıza görə Allah bizim qabağımıza çıxarıb.
— Axı komandir deyir, həmkarlarım eləyib.
— Bəlkə də cinayəti o, özü eləyib, bizi də orda bəlaya salaraq qaçıb ki, özü aradan çıxsın. Qətl bizim üstümüzdə qalsın. Ondan nə desəniz gözləmək olar.
— Özünü nədə günahkar hesab eləyirsən?
— Nəsimanın döyülməsində.
— Komandir Zülfəli Zülfüqarlı deyir ki, Nəsiman da bizə əl qaldırıb. Bu, doğrudurmu?
— Onu dörd adam çırpıb. Elə bil kilim çırpırdıq. Zərbələrin gubbultusu aləmi başına götürmüşdü. Belə vəziyyətdə o yazıq dümdüz durmalıydı? Heç əl-qol tərpətməməliydi? Hələ bu harasıdı, biz yanğında bişməliydik. Onda olardı ədalətli iş.
— Belə çıxır ki, İsmətin ölümündən xəbərsizsən.
— Hə... Mən o barədə söz deyənmərəm. Məlumatsızam.
Müstəntiq Məməti Mərmətiyevi kameraya göndərib Şirbala

Şirbalayevi gətizdirdi.

Müstəntiq:

— Şirbala Şirbalayev, siz dörd nəfər Nəsiman adlı cavan oğlanı ağır vəziyyətə salmısız. Hətta, kərpic parçasıyla üz-gözünü dağıtmısız. Bədənində əzilməyən yer qalmayıb. Siz yaşda adamlar ictimai yerdə, adamların gözləri qarşısında xuliqanlıq eləmisiz. Bunu nə adlandırmaq olar?

— Cənab müstəntiq, biz bura gətirilmişiksə, deməli, qanunla cəzalandırılacağıq. Bunun başqa yolu yoxdu. Məni qızışdırıb bu işə təhrik elədilər.

— Kimlər?

— Komandirimiz, bir də həmkarlarım. O gecə işə çıxan yerdə qıçlarım sınaydı. Arvadım iki aydı dünyasını dəyişib. Altı uşaq mənim umudumdadı. Mən burdayam, uşaqlarım başsız qalıblar. Ağlaşırlar evdə. Atam-anam sənə qurban, balalarıma yazığın gəlsin.

— Nəsimanın günahı nəydi?

— Günahsızlığı. Bizim hamımız ayağımızdan asılmalıyıq. Aparın bizi şəhərin ən izdihamlı yerinə, qoyun adamlar üzümüzə tüpürsünlər.

— Bəlkə, şəxsən sənin üzünə Nəsiman tüpürsün. Həm də bağışlasın.

— Gəlsin tüpürsün. Onun əl-ayağını yalayaram.

— Nakişi...

— Bəli...

— Adını düzmü dedim?

— Bəli!

— Nəsimandan pulu hansı adla qoparmaq istəyirdiz?

— Əşi, qudurmuşduq... Allah da bizə belə qənim oldu. Cəzalandırdı. Hamının yanında xəcalətli elədi.

— Başqasını təhqir etməyin cinayət olduğunu bilirsənmi?

— Bəli... Bəli...





— Keçək o biri cinayətə. İsməti hansınız öldürdüz?

— Müstəntiq, onu məndən uzaq elə, vallah, ondan xəbərim .

— Təqribən eyni yerdə, eyni məqamda iki hadisə baş verir. Ağlın nə kəsir, onlar arasında əlaqə ola bilərmi?

— Cənab müstəntiq, danışmağa söz tapammıram. Nəyə deyirsiz and içim, o qətldən xəbərim yoxdu.

— Şahidlər üzünüzə dursa necə?

— Bu saat hamı yalana öyrənib. Anasını-bacısını satanlar o qədərdi ki? Bir balaca hərbə-zorba gəlsən, keçən əsrdə öz əcəliylə ölənlərini də bizim üstümüzə şələləyəcəklər.

— Deməli, boynuna almırsan. Unutma ki, istintaq hər şeyi aydınlaşdıracaq. Onda vəziyyətin ağır olacaq. Unutma ki, etiraf yüngülləşdirici hal kimi dəyərləndiriləcək.

— Müstəntiq, etiraf eləyim ki, bizə inanmamağa, bizdən şübhələnməyə tam haqqınız var. Biz o gecə Nəsimanla davaya girişməkdə cinayət eləmişik. Cinayətimi də boynuma alıram. Özüm də sizə yalvarıram, nə istəyirsiz deyin, gedim gətirim, məni xətadan uzaqlaşdırın. Balalarımın başına and olsun, canımdan xeyir görməyim, İsmət it oğlunun qətlindən xəbərim yoxdu.

Müstəntiq gülüb ayağa qalxdı. Kabinetdə iki dəfə o tərəf-bu tərəfə getdi. Sonra da pəncərəyə yaxınlaşıb məyus-məyus çölə baxdı. Handan-hana dönüb Şirbala Şirbalayevə dedi:

— Siz bir dəstə cinayətkarsız. Eyni cinayətin iştirakçılarısız. Qalsanız da bir olacaqsız, ölsəniz də. Sənin heç bir şeyin mənə lazım deyil. Yaxşısı budu, İsmət barədə bilgilərini açıqlayasan.

Bu sözü deyib müstəntiq Şirbala Şirbalayevi də kameraya yola saldı.

* *
*

Hadisədən bir neçə gün keçmiş müstəntiq meyid üzərində müayinə aparan həkim ekspert komissiyasının rəyini aldı:

**......rayon prokuroruna**

İsmətov İsmət Məhəmməd oğlunun ölümüylə əlaqədar rayon tibbi ekspert komissiyasının

**Rəyi**

Vətəndaş İsmətov İsmət Məhəmməd oğlunun meyidinə 04 aprel 1994-cü il tarixdə rayon tibbi ekspert komissiyası tərəfindən hərtərəfli baxış keçirildi. Məlum oldu ki, psixi xəstə olmaqla ölümü ərəfəsində onda ürək tutması baş vermişdir. O, ürək tutmasından huşunu itirərək yıxılmışdır. Bu zaman kəllə baş-beyin qabığından bərk əşya ilə bir dəfə öldürücü zərbə də almışdır. Çox güman ki, onun başı yerdəki hansısa daş-kəsəyə dəymişdir. İsmətov İsmət Məhəmməd oğlunun bədənində heç bir iz-əlamət yoxdur.

*Tibbi ekspert komissiyasının*
*sədri: G.Səlimxanov*
*04.04.94*

Müstəntiq rəyi dönə-dönə oxudu. Sonra da onu masanın üstündəki xüsusi qovluğa qoydu. Dərin fikrə getdi. Əlləriylə alnını ovuşdurdu. Düşündü ki, ölüm işində qəsd yoxdur. Adamları çək-çevirə salmaq mənasızdır və heç kəs də o qatılıqda cinayəti üzərinə götürməz. Bu sahədəki axtarışlara ehtiyac qalmır.

Prokurorla məsləhətləşib istintaq işinə xitam verilməlidir. Qaldı gecə yarı xuliqanlıq məsələsinə. O işdə də qaranlıq, mübahisəli elə bir məsələ yoxdur. Şahidlər də Nəsimanın günahsızlığını, yaşlı, xəstə qarıya xeyirxahlıq göstərməsini təsdiqləyirlər. Üstəlik, yanğınsöndürənlər də günahlarını etiraf eləyirlər. Yəqin ki, Nəsimandan üzr də istəyərlər. İstəməsələr, təzyiqi bir balaca artıraram, yanğınsöndürənlər lap onun ayağına yıxılarlar. Hər biri: — Atam-anam sənə qurban, keç günahımdan,





qarşında günahkaram, — deyərlər. Atalar: — “İstədiyim yar idi, yetirdi pərvərdigar”, — deyiblər. Bunları soymağa dəyər. — Tısbağanı öldürdün, ya arxası üstə çevirdin — buna deyiblər də. Pul bu dəyyusların canıdı. Elə olmasaydı, günahsız adamın üstünə qudurmuş it kimi tökülüşüb didişdirməzdilər. O mənzərəni yaxşı təsəvvür eləyirəm. Vurhavurda, qırhaqırda Nəsiman şikəst də olardı, hələ ölə də bilərdi. Bilirəm, Nəsimana “güzəştə get, onları bağışla” — deməklə, mən də cinayətkarların, xuliqanların, azğınların tərəfinə keçmiş oluram. Rüşvət almaqla mən də cinayətkara çevrilirəm. Nəsimanın yaddaşında rüşvətxor, ədalətsiz, çirkin, cinayətkar kimi qalacam... Nəsiman mənimlə razılaşacaqmı? Hər halda, onu razı salmalıyam. Bəlkə, yanğınsöndürən əclafların ona görüm-baxım eləyəcəklərini də Nəsimana sezdirim. Belə eləsəm, Nəsiman ona necə baxacaq?.. Bilmirəm, hər halda, bu barədə düşünmək gərəkdi... İsmətin ölümü mənə çox manevr eləmək imkanı verir. Bunu əldən buraxmaq, məncə, axmaqlıqdı. Yanğınsöndürənlərlə danışım, sonra Nəsimanla söhbətə oturaram...

Bu məqsədlə müstəntiq yanğınsöndürənlərlə yenidən görüşmək qərarını qətiləşdirsə də, prokurordan xəbərsiz bu işə girişməyə cəsarət eləmədi. O, qalxıb prokurorun kabinetinə getmək istəyirdi ki, qapı döyüldü. Müstəntiq: — Gəl, — deyə ucadan səsləndi. Qapı açıldı, Gülgəz içəri keçib salam verdi. Sonra əyləşmək üçün müstəntiqdən üzr istədi. Müstəntiq bu qadını ilk dəfə görürdü. Ona oturmaq üçün yer göstərdi. Qadın əyləşib o tərəf-bu tərəfə baxdı. Gülgəzin bu gəlişi və hərəkətləri müstəntiqdə maraq doğurdu. O, astadan soruşdu:

— Adınız, familiyanız?

— Gülgəz Məşədi Cəfər qızı.

— Çox yaxşı, eşidirəm.

— Mənə polisdən dedilər, Nəsimanın məsələsinə sən baxırsan.

— Bəli...

Gülgəz hökmlə dedi:

— O, günahsız adamdı. Burda nə qədər qalacaq?

— Siz Nəsimanın nənəsisiz?

— Kaş elə olaydım. Qeyrətli oğula nənə də olmaq şərəfdi, qonşu da.

Müstəntiq təəccübləndi. Sonra da gülümsündü.

— Düz deyirsiz... Deməli, qonşusuz.

— Bəli!

— Nədən bildin ki, Nəsiman günahsızdı.

— Hadisə gözümüzün qarşısında olub, müstəntiq. Gəlmişkən, prokurorun da yanına gedəcəm. Yalana, yapmalara inanmayın.

— Siz narahat olmayın.

— Əşi, necə narahat olmayım? O, adam öldürəndi? Onda qalmışdı ki, psixi-misixi.

— Tələsməyin. Kiçik məsələ var. Onu cənab prokurorla aydınlaşdıraq. Ağıl-ağıldan üstündü... Baxarıq...

— Gözləyim?

— Yox, gedin, sabaha-zada...

— Əşi, o yazığı heç nədən çürütməyin.

Müstəntiq Gülgəzi yola salıb prokurorun kabinetinə getdi. Yarım saat keçər-keçməz öz otağına qayıtdı. Əhvalı olduqca yaxşıydı. Yanğınsöndürənlərdən nə qədər qoparacağı barədə prokurorla razılığa gəlmişdi. Əlacsız qalan yanğınsöndürənlər özləri yenidən dilə gəldilər.

Müstəntiq əvvəl Nəsimanı kabinetə gətizdirdi. Gözlərinin içinə baxıb gülümsündü.

— Cavan oğlan, görürsən, ədalət qalib gəlir. İsmətin ölümündə sənin əlin olmadığı müəyyənləşdi. O işdə günahsızsan. Mən heç vaxt haqsız iş görməmişəm. Ancaq dava-dalaşda sən də günahsız deyilsən.





— Mən o işdə də günahsızam, cənab müstəntiq.

— Ağ eləmə, cavan oğlan. Mən həmişə sənə rəğbətlə yanaşmışam.

— Çox sağ olun.

— İndi də rəğbətlə yanaşıram... Gülgəz qarı da gəlmişdi. Xeyir ola, onun subay nəvəsi-zadı yoxdu ki?

Nəsiman da, müstəntiq də gülüşdülər. Nəsiman:

— Bilmirəm.

— Ah... Əcəb oğlansan. Qarı sənin barəndə canıyananlıqla danışırdı. Elə bildim, doğmalarındansan.

— İmanı kamil olsun.

— Nəsiman, yanğınsöndürənlər səninlə dalaşdıqlarına çox peşman olublar. Hətta, istəyirlər səninlə barışsınlar.

— Onlar çox şey istəyə bilərlər. Məncə, hər şey qanun çərçivəsində həll olunmalıdır. Qanundan kənar yol tanımıram.

— Qanuna qalsa, sən də xuliqanlıq eləmisən. Birincisi, ictimai yerdə ocaq qalamısan. Kim deyə bilər ki, ocağı qalamaqda sən başqa məqsəd güdməmisən. Ən ağırı odur ki, sən bilə-bilə yanğınsöndürənlər dövlət adamıdı, iş başında onlara əl qaldırmısan. Üçüncüsü, ekologiyanı korlamısan. Bina sakinlərinin rahatlığının pozulmasına səbəb olmusan. Həyətdəki taxtaları yandırmısan. Niyə başa düşmürsən ki, onların da sahibləri var. Qanun keşikçiləri elədi ki, gərək onlar deyənləri eşidəsən. Nə var səni dolaşdırmağa? Bir halda ki, onlar səninlə barışmaq istəyirlər, səninlə düşmənçilik mövqeyində dayanmırlar, gəlmə adamsan, barış getsin. Sülh yaxşı şeydi. Babalarımız da sülhsevər olublar.

Nəsiman müstəntiqin yanğınsöndürənlərlə sövdələşməyə getdiyini anladı. Başa düşdü ki, müstəntiq onunla məsələni qurtarmaq istəyir. O, fikrə getdi. Sonra da əlacı kəsildiyindən astadan mızıldandı: "Zeynəb qarı demişkən, yer yiyəsiz olanda donuz təpəyə çıxar". Necə istəyirsiz, elə də eləyin. Kasıbın anası ölsün. Başıbəlalı doğulur. Sonradan dərdinə çətin əlac tapıla....

Müstəntiq Nəsimanın razılığa gəldiyini eşitcək daxilən sevinsə də, özünü o yerə qoymadı. Bir şey olmamış kimi əvvəlcədən hazırladığı barışıq sənədinə imza atdırıb Nəsimanı kameradan azad elədi...

Müstəntiqi indi yanğınsöndürənlərdən qoparacaqları düşündürürdü. O, yanğınsöndürənlərlə iki gün ərzində tək-tək görüşdü. Söhbət əsnasında onlara təzyiqi bir qədər də artırdı. Cinayət işini yekunlaşdırıb tezliklə məhkəməyə göndərəcəyini və Nəsimanın onlardan əl çəkməyəcəyini bildirdi. Hay-küylə, cığır-bağırla günahsızlığını sübut eləməyə çalışan, Nəsimanı günahkar çıxarmağa cəhd göstərən komandirin səsi çıxmırdı. Sanki lal idi, dili-ağzı bağlanmışdı. Nə deyəcəyini bilmirdi. Bir sözlə, quzuya dönmüşdü. O, gözlənilmədən səsi titrəyə-titrəyə astadan müstəntiqə dedi:

— Mənə şərait yarat, evə xəbər göndərim, gəlib sizinlə görüşsünlər. Nə sözünüz varsa, onlara deyin. Məni burdan rədd eləyin. Bir də belə qələtə ata-babamla, nəsli-zatımla yol verməyəm.

Müstəntiq ani fikrə getdi. Sonra dedi:

— Kim gələcəksə, gərək həmkarlarının adamlarıyla da o, danışsın. Razılığa gəlsinlər. Sən tək deyilsən. Ya hamınız burdan azad olmalısız, ya da o söz — məh-kə-mə-yə... Məhkəməni də bilirsən də... Qarışqanı fil eləyəndilər... Elə burdaca...

— Oldu, cənab müstəntiq.

Elə həmin gün müstəntiq komandirə şərait yaratdı. Səhəri gün saat on olardı, müstəntiqin kabinetinin qapısı döyüldü. Müstəntiq: — Gəl, — demişdi ki, qırx beş yaşı olar-olmaz, ucaboy, kök, qarabuğdayı, çal saçlı, girdəsifət, yekəburun, əyninə təzə gödəkçə geymiş bir kişi içəri keçdi. Salam verib: — Mən yanğınsöndürənlərin komandirinin qardaşı Surxayam — dedi. O, müstəntiqin göstərişiylə əyləşdi. Bir balaca nəfəsini dərib sonra sözə başladı:





— Cənab müstəntiq, sizinlə söhbətə oturmağa da xəcalət çəkirəm. Yerə girirəm. Danışmağa dilim yoxdu. Şəhərə də çıxanmıram. Tanış-bilişlər hey soruşurlar "Nə oldu o iş?". Ya başımı aşağı salıb sualı eşitməzliyə vururam, ya da: — Qurtardı, — deyirəm. Əlqərəz, mən Qəməş Qəməşovun da, Məməti Mamətiyevin də, Şirbala Şirbalayevin də adamlarıyla görüşdüm, danışdım, razılaşdım.

Müstəntiq guya başa düşmürmüş kimi, qəsdən — "Nəyi?" — sualını verdi. Surxay Zülfüqarlı məsələni açmağa məcbur oldu.

— Belə məsləhət oldu, sizinlə mən görüşüm.

— Niyə?

— Bizim uşaqlar işləri korlayıblar. Gəldim, onlara kömək eləyəsiz.

Müstəntiq Surxay Zülfüqarlıyla əməlli-başlı oyuna girişdi:

— Onlar ictimai yerdə asayişi pozublar. Nəsiman adlı cavan oğlanı ölümcül döyüblər. Vurub üz-gözünü dağıdıblar. Xuliqanlıq maddəsiylə onlara cinayət işi açılıb. Bu günlərdə cinayət işi məhkəməyə göndəriləcək. Surxay müəllim, yaxşı olar ki, onu məhkəməylə danışaydız.

— Əşi, sənə and verirəm əzizlərinin canına, bizi dağa-daşa salma. Burda nə iş var. Özün çürüt getsin.

Məzəndəni qaldırmaq məqsədiylə müstəntiq sir-sifətini bozartdı:

— Bir iş yoxdusa, bura niyə gəlmisən? Get, məhkəmə sədriylə danış. Bu iş cənab prokurorun şəxsən nəzarətindədi. Xasiyyəti ağırdı. Ağzı da yekədi. Bilsə, səninlə keçi alış-verişinə girişirəm, canına and olsun, başıma oyun açar. Polis rəisi də nəzərə alınmalıdır. Gündə telefon açıb vəziyyəti soruşur. Guya almışam, ona bir şey vermirəm.

— Cənab müstəntiq, siz həmkarsız. Bu işin əsas sahibi sizsiz. Sizdən razılıqsız nə qədər ağzı böyük olsa da, o, bir şey eləyənməz. Gəlmişəm, məni əliboş yola salma. Məyus eləmə. Onların

balalarının gözləri yoldadı.

— Balalarının gözləri yolda olan köpək oğlanları elə qələt eləyərlərmi?

— Yox, eləməz. Söy, başına dönüm, onlara bu da azdı.

— Surxay Zülfüqarlı bu, mənlik iş döör. Bəlkə, cənab prokurorla özün danışasan?

— Mən sizin yanınıza gəlmişəm. Nə sözünüz var, deyin. Əşi, özün də bilirsən bu saat elə-belə, havayı-kəlam barmağa...

— Deyəsən, qanan adamsan, Surxay müəllim. Açığını deyim, prokuror hörmət eləsə, hərəsindən on beş min istəyəcək.

— On beş min nə?

— ABŞ dolları.

— Axı...

— Axısı-maxısı yoxdu. Əks halda, iş gedəcək məhkəməyə. Məhkəmə sədri deyəcək: "Mənim payımı ver". Düzdü? Prokurora bir şey qalmalıdı? Adınıza layiq vəkil də tutmalısız? Kişi, onu tək yemək olmaz. Hələ kimlərin, kimlərin də ağzını yumacaq... Mənə olmasa da, olar.

— Cənab müstəntiq, atamın goru haqqı, onların hərəsi beş min ancaq düzəldə bilər.

— Ayə, beş minə bu kişilər toyda qol açıb oynamırlar. Yoxlarıdı, qoy gedib cəzalarını çəksinlər. Nə düşmüsən bu dəyyusların dalınca. Onlar damda çürüməlidirlər. Türmədəkilər bilirsən də neyləyirlər? Qazanın dibini də sıyırtdırırlar. Olmasa, bütün ağla gələn və gəlməyən klassik metodlardan istifadə eləyirlər. Ar-namus əldən gedir. Gərək onu nəzərə alasız.

Surxay Zülfüqarlı bir an susdu. Sonra narazı halda bildirdi:

— Gedim, bir də danışım. Görüm nə deyirlər.

— Get. Axşam üstü bu nömrəyə — 00-05-08-ə zəng çalarsan. Başqa söz danışma. Artıq-əskik sual işləri korlaya bilər. Aləm qarışar. Hüquq işçilərinə etibar yoxdu. Bir də gördün bir tozanaq qaldırdılar, guppultusu qulaq batırır, tüstüsü göz çıxarır.





Tozanaqdan nəfəs almaq olmur... Olacaqsan kor-peşman. Razı olsalar, qısaca "pilus", olmasalar, "minus" deyərsən. Bir də əlavə eləyərsən: "Əhmədli" metrosunun çıxacağında nə vaxt görüşəcəyimizi?

— Oldu.

İş vaxtının qurtarhaqurtarıydı. Müstəntiqin telefonu açıldı. Danışan Surxay Zülfüqarlıydı.

Müstəntiq:

— Alo... Eşidirəm...

— Pilus. Səkkiz.

— Oldu.

Surxay Zülfüqarlının dil-dodağı təpimişdi. Müstəntiq əlini-əlinə sürtərək öz-özünə dedi: "Yamanca qaşınır..."

Səhəri gün prokurorla dolları bölüşən müstəntiq yanğınsöndürənlərlə də axşama yaxın xudahafizləşdi...

*    *
*

Neçə gündə istintaq altında yatan, mənliyi, heysiyyəti alçaldılan, doyunca yeyib-içməyən Nəsiman kirayənişin yaşadığı evə gələndə Sənubər qarı doğma balası kimi onun bağrına basıb üzgözündən öpdü. Sonra da özünü saxlayanmayıb: — Mənim oğlum, mənim balam, — deyərək hönkür-hönkür ağladı. Handanhana özünə gəlib dedi:

— Bağışla məni, oğlum, səni oturduğun yerdəcə oda saldım. Sən gedəni elə bildim ki, belim sındı. Neçə gün yatdım, çarpayıdan qalxanmadım. Başına gələnləri Sitarəylə Gülgəz danışdılar mənə. Allah saxlasın Gülgəzi. Bir dəfə polis rəisinin, bir dəfə də müstəntiqin yanında olub. Bildiklərini danışıb.

— Çox sağ olsunlar. Əsas sənin vəziyyətindi, Sənubər xala.

— Mənə nə var, ay saqqalı ağarmış. Günümü görmüşəm, ne-

cə deyərlər, dövranımı sürmüşəm. Nigarançılığım səndəniydi. Şükür, sən də gəlib çıxdın. İndi nə deyirlər?

— Nə deyəcəklər? On gündən artıq yatızdırdılar. Qismətdi də, neyləmək olar? Deməli mənimki də belə imiş...

— Gəl otur. Bircə stəkan çay iç. Yemək hazırlayım, toqqanın altını bərkit. Üzünə demək yaxşı döör. Bir balaca sınıxmısan.

— Əşi, sınıxmaq bikara şeydi. Köklükdən zəhləm gedir.

Nəsiman keçib stulda əyləşdi. Sənubər qarı iki stəkan çay gətirib birini Nəsimanın qarşısına qoydu, o birini özünə götürdü. Qarı qəlbini almaq üçün Nəsimana zarafatla dedi:

— Kepeze də, türmə də kişi üçündü.

— Hə, ora yaxşıdı, bir qanun keşikçiləri, bir də arvadından bezənlər üçün... Özünü idarə eləyənməyənlər, arvad qabağında tir-tir əsənlər məhbəsdəkilərin üstünə elə xoruzlanırlar, gəl görəsən.

— Dünya əzəldən belə qurulub, oğul. Hamı bir ağılda, bir boyda, bir biçimdə olsaydı, heç yaşamağa dəyərdimi?.. Yəqin, anan-bacın üçün darıxmısan. Mən təqaüdümü almışam. Verim, get onlara dəy. Beşdən-üçdən də ver.

— Nə danışırsan, Sənubər xala? Narahat olma. Uşaq deyillər ki? Yəqin, fikirləşirlər, işim çoxdu.

Elə bu vaxt qapı döyüldü. Nəsiman gedib qapını açdı. Gələn Gülgəz qarıydı. O, Nəsimanı görcək oğlanın üstünə atıldı. Sənubərə göz aydınlığı verib — Gəlirəm — deyə qapıdan qayıtdı. Çox çəkmədi ki, əlində bir qutu tort, iki qab meyvə şirəsi geri qayıtdı. Nəsiman əlini-əlinə vurub gülməyə başladı:

— Vururuq?

Gülgəz sevincək halda cavab verdi:

— Əlbəttə. Ən əziz günümüzdü, oğlum. Sən gedəni Sənubər on dəfələrlə ölüb-dirilib. İnan mənə. Yeyib-içdiyimiz canımıza yatmayıb. Gəlmisən, dərd-sərimiz, ağrı-acımız canımızdan çıxar... Ayə, ay Nəsiman, o nə müstəntiqdi, a bala?





Sənubər:

— Müstəntiqdə nə görübsə, Gülgəz gələndən ona rişxənd eləyir.

Nəsiman:

— Niyə?

Gülgəz:

— Gözü-başı qaynaşır. Elə bil adama gəlir. Ayə, onun indisi belədisə, cavanlığı necəymiş?

Sənubər:

— Bizi biabır eləmə, yoxsa, sənə girişib?

Nəsiman az qala gülməkdən uğunacaqdı.

Gülgəz:

— Ağrım onun ürəyinə... Elənçikdənsə, mənə ağıllı-başlı, rahat qəbir lazımdı. İtə kimdi baxan? Ağız, abır-həyamızı atıb ağlımıza nə gəlsə danışırıq. Oğlum da düşünər ki... Qorxdum, müstəntiq Nəsimandan uma, bir şey qoparmaq istəyə.

Sənubər:

— Ay qız, zarafat eləyirəm. Bir də ki, Nəsiman nə pis iş görüb? Müstəntiq də, biz də ona "çox sağ ol" deməliyik.

Gülgəz:

— Zarafat eləməyəndə nə olacaq ki?

Nəsiman:

— Məndə nə vardı ki, umalar?

Sənubər:

— Söhbətə başımızı qatma, Gülgəz, dur əl ver, bir şey qaynadaq. Sonra nə qədər kefin istəyir, danış-gül.

Qarılar deyə-gülə mətbəxə keçdilər. Səhər alınmış təzə dana ətindən qovurub süfrəyə gətirdilər. Doyunca yeyib-içəndən sonra Nəsiman dedi:

— Ağzım dada gəldi.

Gülgəz:

— İş adam başına gələr.

Nəsiman:

— Adam oturduğu yerdə, günahı olmadan, əcəb xətaya düşə bilərmiş.

Sənubər:

— Hər şey olar, oğlum. Xəta-bəla Allahın yaratdığı bəndədən uzaqda deyil. Şeytan ki var, adamı hər yola çəkir. Gərək, özünü qoruya biləsən.

Gülgəz:

— Xəta sənə hesablanmamışdı, yanğınsöndürənləriniydi. Yəqin, bir az varlarıymış. Şalvara sığmadılar. Şeytan qəlblərinə girib mərəkə qopardı. Allah da onları müstəntiqə düçar elədi. Tutdular, şalvarlarını çıxarıb buraxdılar. Fikir eləmə, sənin də qisasını onlardan aldılar. Tısbağanı öldürdün, ya arxası üstə çevirdin. Qələt eləyərlər, bir də elə iş görməzlər.

Nəsiman:

— Gülgəz xala, elə danışırsan, lap elə bil müstəntiqlə yanğınsöndürənlərin sövdələşməsində olmusan.

— A bala, onu bilməyə nə var ki? Müstəntiqin də, ondan böyüklərin də çörəkləri elə işlərdən çıxır. Bəyəm, onlar barmaqlarını sovurmalıdırlar? Sənin işin süddən ağ oldu. Anladılar ki, səndə bir şey yoxdu. Yoxsa, canın üçün səni də boş buraxmazdılar.

Sənubər üzünü Nəsimana tutaraq soruşdu:

— Yoxsa, sənin də boynuna bir şey qoyublar?

Nəsiman:

— Yox, məndən istəmədilər. Sadəcə barışıq razılığımı aldılar.

Gülgəz təəccübləndi. Sonra qəhqəhə çəkdi:

— Ədə, da niyə mıs-mıs eləyirsən, deyirsən Mikayıl anası ölmüşü it tutub, de ki, parçalayıb da. Səndən alacaqlarını da yanğınsöndürənlərdən qoparıblar.

Gülgəz üzünü Sənubərə tutub sözünə davam elədi:





— Bacı, canına and olsun, ürəyimə dammışdı ki, o həyasızlar puldan ötrü Nəsimana da girişəcəklər. Onu nəzərə alıb getdim rəisin də yanına, müstəntiqin də. Onlara qandırdım ki, Nəsimanın heç nəyi yoxdu. Gözlərini yığsınlar. Görünür, hardasa, mənim də sözlərimin təsiri olub.

Nəsiman istədi desin ki, müstəntiqlər, hüquq mühafizəçiləri bizlərdən tamamilə fərqlidilər. Onların əksəriyyətinin həyata, insanlara, baş verən hadisələrə öz münasibətləri olur. Kənardan deyilən söz, haqlı-haqsız fikirlər, özlərinin dedikləri kimi, eşitdikləri ideya və mülahizələr başlarına batmasa və ya yuxarıda dayananlardan qorxub çəkinəcəkləri olmasa, çətin ki, mənim kimi adamlara onlarda mərhəmət hissi oyana. Əllərindəki qanunlar qılınc kimi kəsərlidi. O kəsər qanun keşikçilərinin canına, ruhuna hopub. Ona görə də qərar çıxararkən müttəhimdən çox özlərini düşünürlər. Qazanc yoxdursa, istəklərinə çatmaq ümidləri azacıq da olsa işartı vermirsə, sən onların sərt söyüşləriylə, dubinkalarıyla qarşılaşacaqsan. Özlərinin təbiriylə desək, “ağıllanmalı” olacaqsan. Bu şəxslərin həyatı bizimkindən fərqləndiyi kimi, xarakterləri də başqadır. Yumşaq kəlmə də, xoş söz də, xoş rəftar da insana inam da sadə adamlardadı. İstərdim, aralıdan özümüzə baxaq. Yaşlarımız arasında müəyyən fərqlər olsa da nə qədər mehribanıq, səmimiyik. Sözlərimiz necə də anlaşıqlıdı. Dediklərimiz bir-birimizin boğazından asanlıqla keçir. İndi ana-bala kimi oturub tapdığımızı yeyirik. Allaha şükürlər diləyirik. Onlardan çox yox, biri burda olsaydı, heç zaman belə rahat nəfəs alanmazdıq. O, zəhmli-zəhmli, hiyləgərcəsinə danışmalıydı, bizsə, ya qorxudan, çəkingənlikdən, ya da ən azı abır-həyamızı gözləmək xatirinə: — Bəli! Bəli! — deməliydik. Kamerada yatdığım bu neçə gündə bir qəti qənaətə gəldim. Fizioloji baxımdan nə qədər eyniliyimiz, uyarlığımız olsa da, biz mənən başqa-başqa adamlarıq. Onların gözlərində biz həşəratlarıq. İstədikləri vaxt məqsədləri naminə sadə, imkansız adamları

çibin, qarışqa, danadişi kimi... tapdalaya, məhv eləyə bilərlər. Onlara yeganə bir şey gərəkdi: — Pul...

Nəsiman sözünə ara verdi, nəsə düşündü. Ancaq başqa söz demədi. Handan-hana Gülgəzə xoş getsin deyə, daha doğrusu, əməyinə dəyər vermək naminə bildirdi.

— Şübhəsiz, rəislə, müstəntiqlə sizin söhbətinizin də mənə köməyi olub. Mən onları inkar eləyə bilmərəm.

Elə bu dəm telefonun səsi otağı bürüdü. Nəsiman Sənubər qarının üzünə baxdı. Qarı dərhal dedi:

— Qalx, telefona cavab ver. Kişi dura-dura...

Hər üçü gülüşdü. Sonra Nəsiman dəstəyi götürdü.

Qadın səsi eşidildi:

— Alo... Alo... Mənəm Qızılgül. Nəsimanı olarmı?

Oğlan dərhal anasının səsini tanıdı:

— Mənəm, ana, Nəsimanam.

— Ədə, neçə gündü səsini eşitmirəm. Az qala ürəyim çatlayacaqdı.

— Mən yaxşıyam. Bacım necədi?

— O da yaxşıdı. Neçə gecədi başımı yastığa atan kimi səni yuxuda görürəm...

Nəsiman ilk dəfə anasına yalan deməyə məcbur oldu:

— İş çoxdu, ana. Vaxt tapammıram. Axşamlar işdən evə gec gəlirəm. Yaxın vaxtda gələcəm.

— Eybi yoxdu, oğlum, tələsmə, zəng çaldım, halını xəbər alım. Yaxşı, işdən gəlmisən, dincəl.

Oğul anasıyla xudahafizləşib dəstəyi yerinə qoydu. Kövrəlib gözləri yaşarmış halda gəlib stulunda əyləşdi. Gülgəz qəsdən söhbətin səmtini dəyişdi.

— Ədə, Çinarlıda adamın varmı?

Nəsiman qadının nə demək istədiyini anladı, ancaq qəsdən özünü başadüşməzliyə vurdu:

— Var, hə... Anam, bacım, xalam, əmim...





— Ayə, saqqalın ağarsın, sözü burcutma. Mən onları demirəm. Gözaltın varmı?

Sənubər:

— Mənim oğlumu utandırma. Hələ tezdi. Qabaqda çox iş var.

Gülgəz:

— Sənə qalsa, bir də görərik, uşaq qocalıb.

Nəsiman:

— Sənubər xala düz deyir. İş... Ev... Pul...

Gülgəz:

— Onlar da düzələcək. Qorxma. Qorxan gözə çöp düşər. Kişi gərək çəkinməsin. Yeri gələndə ovu bərədə vurmağı bacarsın...

Bu dəfə söhbətin səmtini Nəsiman dəyişdi:

— Dava düşən gecəsi, deyirlər, həyətdə adam ölüb?

Gülgəz:

— Hə, ölüb... Şərini üstünə atmağa əlimyandı adam axtarırdılar.

Nəsiman Gülgəzin gözlərinin içinə baxdı:

— Nə?

— Vallah, anan namaz üstəymiş. Azacıq dırnaq ilişən yer olsaydı, səni güdaza verəcəkdilər. Doğrusu, mən ondan çox qorxurdum. Ancaq həyətdə müstəntiq sorğu-sual aparanda Qaçay Qılınclı kişilik elədi.

— Necə yəni?

— Onun sözü sənin qanının arasına girdi. Ürəyimdən tikan çıxartdı. Dedi, qaş-qaralanda mən evə gəlirdim. Gördüm İsmət ucaboy bir adamla hədələşir.

— Hədələşir nədi?

Sənubər:

— Ağız, yüz dəfə demişəm, adam dilində danış, biz də səni başa düşək.

Gülgəz:

— Yəni dilləşir... Söz atışmasına girişiblər. İstədim məsələyə qarışım. O, adam kimiydisə, mənə də söz atdı. Onun İsməti öldürəcəyini ağlıma gətirməyib üzümü çevirib getdim. İndi də məlum olur ki, İsmət ölüb.

Sənubər:

— Ağız heç o da öldürməyib. İsmət dəliydi. Yaşının yarısını anası ölmüş dəlixanada keçirib... Qar... Şaxta... Yer buz... Sürüşüb yıxılıb. Buz yorğan-döşək, ya balınc döör ki, yıxılanda əzilməyəsən. Belə havalarda şəhərdə yüzü yıxılır. İsmət də onların biri. Görünür, anası ölmüşün qisməti beləymiş də.

Nəsiman hadisə yerində müstəntiqə izahat verən o adamın kimliyini, boy-buxununu ağlına da gətirənmədi.

Gülgəz saatına baxdı. Sonra dedi:

— Mən gedim. Sizi də yordum. Nəsiman da necə gündü əziyyət çəkir. Yatıb rahatlansın.

Sənubər:

— Oğlum, xalan düz deyir. Su gəlir. Sən burda olmayanda paltarlarını yuyub ütüləmişəm. Yuyunmasan dincəlməyəcəksən... Qalx, yuyun...

* *
*

Təcridxanadan çıxdığının səhəri günü Nəsiman işlədiyi tikinti obyektinə getdi. Çəkinə-çəkinə, utana-utana iş icrası Səidə yaxınlaşdı. Salam verib neçə gündə işə çıxmamasının səbəbini açıqlamaq istəyirdi ki, Səid narazı halda dilləndi:

— Ay qağa, belə işləməzlər. Kefin qalxanda gedirsən, enəndə gəlirsən. Burda da iş tökülüb qalır. Belə olmaz. Axı bu xarabanın da sahibi var. Onlara cavab verməyə söz tapammıram.

Deyəcəklərini başqalarının eşitməməsi üçün Nəsiman astadan dedi:





— İşə çıxmamağım məndən asılı olmayıb, Səid.

— Bəs kimdən asılıdı?.. Əcəb adamlarsız. İşə götürüncəyədək xahiş-minnət... Elə ki, götürdün, hərənin bir dərdi ortaya çıxır. Hərəsi də bir bəhanə gətirir. Düşünürlər ki, nə desələr, mən də hamısına inanacam.

Nəsiman tutuldu. İstədi xudahafizləşib getsin. Sonra düşündü ki, beş-üç gün dolanmağa ehtiyat pulum yoxdu. Elə bir adam da tanımıram ki, mənə kömək eləsin. Əlacsız qalan Nəsiman bir balaca kənara çəkilib Səidin son sözünü gözlədi. Handan-hana Səid işçilərdən aralandı. Sonra Nəsimana tərəf dönüb onu çağırdı:

— Bura gəl görüm.

Nəsiman tutqun halda ona yaxınlaşdı. Səid astadan, qayğıkeşliklə ondan soruşdu:

— Çinarlıya getmişdin?

— Yox...

— Xəstələnmişdin?

— Xeyr.

— İşə çıxmamağına səbəb nədi?

— Heç nədən polisə düşməyim.

Qeyri-ixtiyarı Səidin səsi qalxdı:

— Nə?

— Polisə düşməyim.

— Nə qələt eləmisən?

— Heç nə, Səid. Gedib polisdən də, qonşulardan da soruşa bilərsən. Günahsız-filansız neçə gündü məni orda yatızdırıblar. Axşam buraxıblar.

— Oğurluq üstə?

— Yox, heç nədən dava oldu.

— Deməli, xuliqanlıq. İctimai yerdə özünü idarə eləyə bilməmək. Yox, atam, onsuz da tikintidə işləyənlərə hərə bir cürə baxır. Avaralar, dələduzlar, xuliqanlar kimi. Açığını deyim, işçi-

lər bilsələr ki, səni polislər saxlayıblar, özün dediyin kimi, bir neçə gün səni orda yatızdırıblar, onda vəziyyətin burda fəna olacaq. Kimin nəyi itsə, hamı səndən şübhələnəcək. Bir də görəcəksən, polisə məlumat veriblər. Onlar da axışacaqlar bura. Tikintinin də adı vay-qanlıdı. Elə bilirlər, burda qaz vurub qazan doldururlar. Biz də qazanıb altımızı doldurmuşuq. Onlara vermirik... Qanun keşikçiləri qaşınmayan yerdən qan çıxarırlar. Heç bir şey olmasa, gündə gəlib tikinti materialı istəyəcəklər. Biri deyəcək filan şeyi ver, ev təmir elətdirirəm. İkincisi, bildirəcək ki, hamama kafel, metlaq qoyuram. Üçüncüsü, usta, fəhlə istəyəcək. Bir başqası isə — əlini cibinə sal, üçdən-beşdən ver — deyəcək. Daha nə bilim, nə... nə... Atam, başına dönüm, çək xatanı məndən...

Axıradək Səidi dinləyən Nəsiman sözü çevirməyə ehtiyac duymadı. O, başa düşdü ki, bu qədər əsaslandırmadan sonra onu bu obyektdə işə götürən olmayacaq. Lap olsa da, Səidin sözündə həqiqət var. Hələ dərindən tanımadığı, halına-xislətinə bələd olmadığı adamlar ona yaxşı baxmayacaqlar. Əlacı kəsilən Nəsiman Səiddən soruşdu:

— Mən on beş gün işləmişəm. Həmin günlərin əməkhaqqını nə vaxt gəlib ala bilərəm?

— Nə əmək haqqı? Neçə gündə işimizi ləngitməyin yetmir, indi də gəlib bizdən haqq istəyirsən? Ayıbdı.

— Niyə? Elə şey olar? İşlədəsən, sonra da...

— Nə sonra?..

— Səid, mən heç kəsə əl açmıram. Öz zəhmətimin haqqını tələb eləyirəm.

— Boş-boş danışma... Bu saat səni gəldiyin yerə qaytartdıraram... Ağlın başına gələr.

— Ora özüm də qayıda bilərəm.

— Mənə hədə gəlirsən?

— Hədə niyə?





— Bəs, necə qayıdacaqsan?

— O yolu özüm bilirəm. Get deyirsən, gedirəm. Ancaq səninlə bir də görüşəcəm, Səid. Aç qulağını eşit. Mənim böyük zəhmətlə, alın təriylə qazandığımı sən həzm eləyənməzsən. Sənin özünü udaram. Bəlkə, düşünürsən ki, pulun, daldan var. Unutma ki, adam ilişəndə onlar da kara gəlmir...

Nəsiman qəzəblə onun gözlərinin içinə baxdı. Deyəsən, Səid çəkindi:

— Yaxşı, özüm zarafat eləyirəm. İşləmisən, pulunu da almalısan. Nə qədər versəm, razı qalarsan?

— Dilənçi özünsən, Səid. Mən əməkhaqqı cədvəlinə imza atıb pulumu alacam.

— Yaman kömhövsələsən, Nəsiman. Görünür, ona görə də adamlarla sözün tuş gəlmir. Adam musquluna guvənməz. Qolun zoru heç zaman ağıla üstün gələnməz. Dava-dalaş qopur, adam özü də bilmədən qurbağa ilan ağzına düşən kimi polisin caynağına keçir...

— O söhbətləri qurtardıq. Çox danışıb vaxt aparmayaq.

— Yaxşı, elə isə gələn həftə xəzinədarla əlaqə saxlarsan.

— Bu başqa məsələ.

Əsəbi halda Səiddən ayrılan Nəsiman özü üçün yeni iş axtarmalı oldu.

* *
*

İşsizlikdən bezən, olan-qalanını xərcləyib qurtaran, hər tərəfdən ümidi qırılan, ac-yalavac Nəsiman əlacı kəsildiyindən qaş qaralanda kirayənişin yaşadığı evə üz tutdu. Öz-özünə düşündü: təqaüdlə, güc-bəlayla dolanan Sənubər xalaya gedim nə deyim? Necə deyim ki, iş tapammıram. Tapıncaya qədər evində qalım, tapdığından bir loxma da mən kəsim? Adama deməzlər ki, ba-

lam, məscidin qapısı açıq oldu-oldu, bəs itin abırına nə? Aman Allah, gör nə günə düşmüşəm? Bunun axırı hara gedir? İndi başa düşürəm, adamlar cinayəti elə-belə, kefdən törətmirlər. Onları o yola sürükləyirlər. İşdi-şayətdi, Allah ağlımı alıb oğurluq eləsəm, yolumu azıb harasa basqına getsəm, ya dolanışıq üçün adam qətlə yetirsəm, günahkar kim olacaq? Mən?! Yaşadığım cəmiyyət? Düşdüyüm mühit? Yoxsa... Nə yoxsa?.. Zaman zamandı. O axında cinayətkarlar da, məzlumlar da yaşayırlar. Doğrudur, hərə bir cürə. Baxır kim nəyi necə qəbul eləyir. Ancaq bu, belə gedə bilməz. Hərəyə bir ömür verən, tale biçən Allah gərək hamının düşərini özü müəyyənləşdirsin... Cavan oğlanam. Gücüm var. İşləmək, halal çörək qazanmaq uğrunda mübarizə aparıram. Kimsəyə gözün üstə qaşın var demirəm, heç kəsə toxunmuram, onda bir loxma çörəyə niyə möhtac qalmalıyam. Anamın, bacımın, lap elə Sənubər xalanın gözlərinə xəcalətdən niyə baxanmayım? Nə vaxta qədər mən doğmalarımın, tanışlarımın yanında gözləri qıpıq qalmalıyam? Belə getsə, ömür boyu?... Qəribədi... Məsrəfsiz, başı küt hesab elədiyin adamlar hardan qoparırlar o milyonları?.. Deməli, mən səhv eləyirəm. Aciz sandığım adamlar o qədər də ağıldankəm deyillər. Deməli, yaşamaq üçün gözləri açıq, ağlı iti, bir az da rəzil, alçaq... olmaq gərəkdi. Belə çıxır ki, gördüyüm yerdən kəsməliyəm? İnsanları oturduğu yerdə dərdi-bəlaya salmalıyam? Aman Allah, həyatın zidiyyətlərinə bax. Mizan-tərəzi necə də əyilib dələduzların, oğruların... xeyrinə.

Şəhər uzaqdan necə də çilçıraqban görünür. Onun libası necə də gözqamaşdırıcıdı. Al-əlvandı. Heyranedicidi... Mənə bir şey aydın oldu ki, şəhərlə kənd adamı bir-birilərinə zahiri cəhətdən nə qədər oxşardırlarsa, batilən bir o qədər fərqli, ziddiyyətlidirlər. Fərq düşüncələrindədi. İnsanlara münasibətindədi. Kənddə dilənçinin də sahibi var. Qanadları altına çəkəni var. Yatmışların üstünə yorğan çəkib namusunun, şərəfinin qoruyucuları tapılır... Bəs, şəhərdə nə görürəm? İnsan çibinə çevrilir. Dəlini, dilənçini lağa qoyub gülürlər. Nəinki dilənçinin, dəlinin, heç normal insanın da kimsəsi yoxdu. Bu, böyük fəlakətdi...





Pırtlaşıq fikirlər içərisində vurnuxan Nəsiman yaşadığı binanın girəcəyinə çatmışdı ki, yaxınlıqdakı ağacın altından kimsə onu bir neçə dəfə: — Nəsiman, — deyə çağırdı. O, dərhal ayaq saxlayıb səs gələn tərəfə baxdı. Qaranlıqda kimsəni seçmədi. Oğlan səs gələn tərəfə bir neçə addım atmışdı ki, qırx-qırx beş yaşlı ucaboy, enlikürək, dolubədənli, boz kostyumlu və qara dəri gödəkçə geymiş bir kişinin ona yaxınlaşdığını gördü. Onlar salamlaşdılar. Sonra həyətdə yanan elektrik lampasının altına getdilər. Kişinin uzun sifəti, iti, qonur gözləri, qalın dodaqları, seyrək dişləri, yekə burnu, enli alnı, uzuntüklü, topa bığları vardı. Üzünü yenicə təraş elətdirmişdi. Nəsiman bu adamı ilk dəfəydi ki, görürdü. Ani olaraq:— Bu adam kimdi, mənimlə nə işi ola bilər? — deyə düşündü. Naməlum adam gülümsünərək dedi:

— Deyəsən, məni tanımadın.

Nəsiman kişinin üzünə diqqətlə baxıb təəccübləndi:

— Yox, tanımıram.

— Biz bir binada yaşayırıq. Demək olar ki, qonşuyuq.

— Ola bilər.

— Adım Qaçay Qılınclıdı.

— Çox yaxşı. Mənim də ki, adımı bilirsiz?

— Hə... Kişi adamsan. O gün ki, yanğınsöndürənlərə tək başına cavab verdin. Ayaq geri qoymadın. Doğrusu, vuruldum cəldliyinə.

— Gərək olmayaydı. Utandığımdan adamların üzünə baxanmıram.

— Sən niyə? Utansın yanğınsöndürənlər. Onlar nakişilik elədilər. Yaxşılıq eləmək hər kişiyə nəsib olmur. Nakişiliyə nə var? Onu hamı eləyə bilər... Yaxşı yadıma düşdü... O gün eşit-

dim İsmətin ölümüylə də bağlı müstəntiq səni çək-çevirə salıbmış? O, düz idi?

— Hə... Bir balaca sorğu-sual elədi. Gördü günahsızam, məndən ötdü.

Qaçay Qılınclı boğazını arıtlayırmış kimi bir balaca öskürdü. O yan-bu yana baxdı. Sonra astadan pıçıldadı:

— Hüquq işçiləri çox ayıq olurlar, Nəsiman. Düşünmə ki, səni elə-belə buraxdılar. Onlar cinayətin izinə düz düşmüşdülər.

— Başa düşmürəm.

— Burda başa düşməzlik nə var ki? Sən ocaq qalayanda mən binanın girəcəyində, qaranlıqda dayanıb papiros çəkirdim. İsmət sənə yaxınlaşdı. Aranızdakı həngamə yadındadı da. Bəlkə yerli-yataqlı açıb dınışım? Mən nə yalan danışıram, nə də sənə böhtan, şər atıram? Zərbən İsmətə kifayət elədi. O, qaçdı, beyni silkələndiyindən huşunu itirib yıxıldı. Ekspertin gəldiyi qənaətə görə, aldığı zərbədən onun beyninə qan sızıb. Mən də üstün vurmadım... Ancaq zərbənin səbəbini düz müəyyənləşdirənməyiblər. Onlar səbəb kimi ürək tutması və yıxılarkən başına daş-kəsək dəyməsini göstəriblər... Ola bilsin o andaca İsmətin ürəyi də tutub.

Hadisəni yerli-yataqlı danışan Qaçay Qılınclının sözləri Nəsimanın içini titrətdi. Bir an içində Nəsimanın bütün düşüncələri sarsılıb bulaş-bulaş oldu. Udqundu. Deməyə söz tapanmadı. Söhbətin ala-toranda gedişi kiçicik də olsa, keçirdiyi hissləri gizlətməyə Nəsimana imkan verdi. Oğlan tez də özünə gəldi:

— Sən nə danışırsan?

— Qışqırma... Bir az astadan danış, eşidən olar... Anasının əmcəyini kəsənlər aramızdakı söhbəti eşidib gecəykən prokurorluğa çatdırarlar. Sirr heç vaxt gizli qalmır. Nə vaxtsa açılır.

— İsmətin ölümündə mənim əlim yoxdu. Onu mən qətlə yetirməmişəm.

— Dedim, asta danış, Nəsiman. Demirəm ki, qəsdən öldürmüsən. Yox... Sadəcə zərbən güclü oldu. Onun da görünür əcəli çatıbmış... Onsuz da dəli, ona-buna oturduğu yerdə sataşan, camaatı abır-həyadan salan adam kimə lazımıydı ki?





— Axı... Mən İsməti...

— Nəsiman, neçə vaxtdı səni tanıyıram. Yaxşı oğlansan. Əslində, mənim də dəyyus İsmətdən zəhləm gedirdi. Uşaqlıqdan giciydi, ağlı çatmırdı. Çatana çatır, çatmayana bir daş atırdı. Məhlədə cummadığı qız, qadın yoxıydı. Gözünə xoş dəyənin, qırmızı tumanın gözlərinə yel dəyməyə qoymurdu.

— Sən deyənlərin mənə nə dəxli var? İsmət kimə sataşmışdı, özü bilərdi. Sataşdıqlarının da yəqin sahibləri var. Onların qisaslarını mən almalı deyildim ki?

— Deyəsən, sən məni başa düşmürsən? Özünün də xəbərin olmadan mən səni itin-qurdun caynağından qurtardım. Hadisəni tamam başqa səmtə yönəltdim. O, mənim uydurmamıydı. Təşəkkür əvəzinə, məni yalançı çıxarmağa çalışırsan. Ayıbdı... Mən sənə deyirəm, qorxma, bu hadisə ikimizin aramızda qalacaq. Polisdə də, prokurorluqda da dostlarımız çoxdu. Lazım gəlsə...

Nəsiman Qaçay Qılınclının onu əlində saxlamaq istəyini anladı. Ancaq özünü o yerə qoymadı. Başa düşdü ki, müsahibi olduqca hiyləgər və qorxulu adamdı. Bacardıqca bu adamdan uzaqda dayanmaq lazımdı. Onunla yanaşı addımlamaq, ən kiçik məsələdə həmrəy olmaq birbaşa ilişmək olardı. İndi onun dediklərilə razılaşmaq gələcəkdə faciəylə nəticələnə bilər. Nəsiman onu da anlayırdı ki, Qaçay Qılınclı ona açıq-açığına qəmiş olur. Onu ələ almağa çalışır...

Qaçay Qılınclı təskinlik verirmiş kimi dedi:

— Yamanca bikef görünürsən, Nəsiman. Çox fikir eləmə. İş adam başına gələr. Qəsdən eləməmisən ki. Bir də ki, atalar necə deyib...

— Nəyi?

— Kişinin başı qalda gərək.

— Törətmədiyim qətli, deyəsən, boynuma qoyursan?

— Görürəm, möhkəmsən, qonşu. Səninlə iş görmək olar.

— Xatanı məndən uzaq elə. Kasıb oğlanam. Əli işdən qalan anam, xəstə bacım var. Hələ özüm bir yana, onların xatirinə mən cinayət eləmərəm.

— Kişi ağlamaz, Nəsiman. Biz düşmən deyilik. O gün müstəntiqə sənin barəndə izahat vermişəm. Bəlkə, heç xəbərin də yoxdu. Mən satqınlığı, namərdliyi, dəyyusluğu heç vaxt özümə sığışdırmaram. Qeyrətli oğlanları qorumaq, müdafiə eləmək nər kişinin işidi. Nə vaxtsa sənə nə elədiyimi özün başa düşəcəksən. Gəl, söhbətin səmtini dəyişək. Yolda öz-özünlə danışa-danışa gedirsən. Yanından keçənlər də sənə baxıb təəccüblənirlər. Çalış, özünü ələ al... Bilirəm, çox fikirlisən. Nə qədər fikirli olsan da...

— O mümkündü. Sənubər xala deyir: "Gecələr çox sayıqlayırsan". Adamın özündən asılı olmur.

— İçində az qaynat. Elə zəmanədə yaşayırıq ki, doğmalar belə bir-birinə ata-atdadı, kimsə kiməsə girhagirdədi. Hamı yalan danışır. Kimə inanasan, bilmirsən. Sən şəhəri yaxşı tanımırsan, Nəsiman. Adamı beş manatdan ötrü öldürüb qanını da batırırlar. Heç axtaran da olmur. Elə bilirsən, qanun keşikçilərinin ondan xəbəri yoxdu? Var. Onları da öz mənafeləri düşündürür.

Nəsiman rişxəndlə soruşdu:

— Belə çıxır ki, ölkədə düz adam yoxdu? Elə düşünmək, qardaş, düz olmaz. Qanun keşikçiləri içərisində də ləyaqətliləri, vicdanlıları çoxdu. Hamı əclaf ola bilməz.

Qaçay Qılınclı başını yellədi:

— Hələ çox cavansan, özün də kənddən gəlmisən, — boynun qoltuq görməyib, — deyə belə danışırsan. Cəmiyyətin iyrəncliklərini görərsən, onda mən deyənlərə gələrsən... İstər sağlam olsun, istərsə də xəstə, fərqi yoxdu. Cəmiyyətsiz ictimai





mühit yoxdu və ola da bilməz. İctimai mühitin özü elə cəmiyyətdi. Elə götürək məni. Ali təhsilli hüquqşünasam. Güc-bəlayla ixtisasım üzrə iş tapmışdım. Vəkil işləyirdim. Heç nədən məni dolaşdırıb işdən uzaqlaşdırdılar. Onsuz da çox maaş almırdım. Ailəmi zidgirliklə dolandırırdım. Gözlərimin qabağındaca məndən bilikcə zəif, bacarıqsız adamlar xalqı soyub talaya-talaya milyonlar qazanırdılar. Gözüm görüb ağlım kəsdiyi halda, kimlərin uydurmalarına inanmalıyam, Nəsiman. Hamı oğrudursa, dağıdıcıdırsa, insan insanı didib parçalayırsa, sağlam cəmiyyətdən danışmaq olarmı? İnan mənə, sənin tək düşünən tək-tək düz adamların da imkanı yoxdu, olsa, onlar da dələduzlardan betər olarlar. Elə bir dövr gəlib çıxıb ki, ictimai mühit ağına-bozuna baxmadan sadə, imkansız insanları daim sıxır. Az qalır beləlı özlərini dağıt-duğut eləyə. İntihardan savayı, çarələri qalmır. Çünki o iyrənc həyatı idarə eləyənlər özləri qanunları aydın təsəvvür eləyənmirlər. Onu ümumiləşdirməyə ya əllərində əsaslı faktları olmur, ya da fırıldaqçıların yalanlarına, şirin vədlərinə inanırlar. Boş və mənasız təbliğatına uyurlar. Gözləri qapanır, addımlarını hara, necə gəldi atdıqlarını bilmirlər. Əldə tutarlı faktlar olmadıqda və hər deyilənə müticəsinə inandıqlarından, bir qisim adamlar özləri də bilmədən qula çevrilirlər. Bir loxma çörək üçün gücsüzlər, imkansızlar barədə yürütdükləri mülahizələr çox zaman boş və mənasız söz yığınına çevrilir. Özləri də bilmədən məddaha çevrilirlər. Belə olmaz, Nəsiman. Mən havadan danışmıram. Gördüklərim, duyduqlarım əsasında inam və əqidəmi ifadə eləyirəm. Sən mənə inana da bilərsən, inanmaya da. Öz işindi. Sənə əqidəmi qəbul elətdirmək fikrindən də uzağam...

— Qaçay Qılınclı, bu sözləri deməklə, hamını eyni qəlibə salmırsan ki? Axı düşüncələr müxtəlifdi.

— Tamamilə düz deyirsən. Cəmiyyət hazırda iki qrupa bölünüb: imkansızlar və imkanlılar. Kasıblar və məmurlar. Birinci-

lərlə ikincilərin ideyaları, istəkləri, amalları tamam başqa-başqadı. Onların düşüncələrində, qəlblərində üst-üstə düşən nöqtələr ola bilməz. Birincilər insanlıq, ikincilər isə milyardları necə əldə eləmək uğrunda mübarizə aparırlar. Bu, tarixən belə olub, indi də belədi, sabah da belə davam eləyəcək. Ömür nə qədərdi ki, Nəsiman? İnsanlar həyatı dərk eləmək həddinə çatanda özləri də hiss eləmədən ömür karvanı son mənzilinə yan alır. Dərketmənin də faydası olmur... Birincilərlə ikinciləri birləşdirən bircə arzu var. Deyəcəksən o, nədi? Daim zəngin və əyləncəli həyat qurmağa can atmaq. Onun üçün çalışır, dəridən-qabıqdan çıxır, hətta, alçalırlar... Son istəyə çatanmırlar. Qazandıqca qazanırlar. Ancaq arzu arzu olaraq qalır. Bax, budur yaşanan həyatın iyrənc fəlsəfəsi. Əqidəm belədi: əzab-əziyyətlər içərisində çabalamaqdansa, bir loxma üçün varlığımı əritməkdənsə, milyardlar ağuşunda mürgü döymək daha yaxşıdı.

— Həyat haqqındakı mülahizələrin çox kəskindi.

— Necə olmalıydı ki, Nəsiman. Heç vaxt yadımdan çıxmaz. Vəkil işləyirdim. Yanıma yaşı səksən olar-olmaz bir kişi gəldi. Beli bükülmüşdü. Saqqalı, bığı dümağıydı. Üzünün sümükləri, belinin donqarı çıxmışdı. Gözlərinə tor gəldiyi hiss olunurdu. Bəbəklərində iki gilə yaş vardı. Kişini görcək mərhum atam yadıma düşdü. Ürəyim yumşaldı. Kişi dedi: "Oğlum, kimsəm yoxdu, mənə kömək elə. Uçuq daxmada qalıram. Aldığım təqaüd çörəyə çatmır. Mənə yazığın gəlsin". Mən çıxarıb kişiyə pul verdim. Özünə də tapşırdım: "Ağsaqqal, hər ayın sonunda gəl, sənə çörək pulu verəcəm". Bu, bir neçə ay davam elədi. Bir axşam televizora baxırdım. Gözlənilmədən televizorda bu bədbəxt qocanı gördüm. O, ölkəni dağıdan, insanı insan saymayan bir nazir barədə mədhiyyə oxuyurdu. Məni dəhşət bürüdü... Ayın axırında kişi yenə yanıma gəldi. Qucaqlayıb üz-gözümdən öpdü. Mən həmin kişiyə dedim: "Qoca, səni televizorda gördüm. Bu yaşda, ayağının biri burda, o birisi gorda, sənə elə danışmaq yaraşardımı?". Kişi nə desə yaxşıdı? "Hörmətli nazirin adamları mənə iki qutu papiros almışdı. Ona görə də televizorda elə danışdım". O andaca kişi gözümdən düşdü. Bəlkə də pulu olsaydı, neçə ayda verdiklərimi ondan geri alardım. Bax, budur insanın xilqəti.





— Axı hamı belə olmur.

— İnsan hər şeyə gedə bilən məxluqdu.

— İnsanlıq barədə istəməzdim belə qəddar düşünəsən, Qaçay.

— Mənim də ali təhsilim var. Maşınqayırma üzrə ixtisas almışam. Həyat barədə az da olsa təcrübəm var. O sözünə şərikəm ki, ictimai həyatın dairəsi dürüst deyil... Sənubər xala nigarandı... Getməliyəm, inciməsən, söhbətimizi başqa vaxta saxlayaq.

— Olar.

Nəsiman Qaçay Qılınclıdan cismən xudahafizləşsə də dərin narahatlıq içərisində evə getdi. İçəri keçib oturmuşdu ki, Sənubər qarı soruşdu:

— Oğlum, bayaqdan pəncərədən baxırdım. Qaçay Qılınclıyla nə söhbət eləyirdiz?

— Heç, xala. Evə gəlirdim, binanın girəcəyində məni saxladı. Tanış olduq. O yan-bu yandan söhbət elədik.

— Sən məhlədə təzəsən. Hələ heç kəsi tanımırsan. O, cüvəllağı adama oxşayır. Ağlım ondan bir şey kəsmir... O, həyətdə gündüz görünmür. Nə vaxt baxsan, gecəquşu kimi, tək-tənha ağacların altında gəzir. Deyirlər, qabaqlar vəkil işləyib. Nə qələt eləyibsə, neçə vaxtdı vəzifəsindən uzaqlaşdırıblar. Günahsız adamla kimin nə işi var ki?

— Hüquqşünas olduğunu, işdən çıxarıldığını özü də etiraf elədi.

— Əməli-saleh adam olsaydı, onu işdən qovardılar?

— Yox.

— İndi də işləmir. Hardan, nədən dolandığını bilən yoxdu.

Sənubər səsini alçaldıb o yan-bu yana baxaraq sözünə davam elədi:

— Deyirlər, şübhəli adamdı. Əlindən basqın da, oğurluq da gəlir. Unutma, oğlum, belələri çox hiyləgər və xəyanətkar olurlar. Qurtar ondan. Səni ilişdirər. Qonşular sənə də yaxşı baxmazlar. Adama deyirlər: "Yoldaşını göstər, kim olduğunu deyim".

— Sənubər xala, Qaçayı müstəntiq də çağırıbmış. Hətta, İsmətin ölümündə mənim əlaqəmin olub-olmaması ilə bağlı ondan izahat da alıb. İnsafən, bu da yaxşı danışıb...

— Necə? İsməti bəyəm, qətlə sən yetirmişdin?

— Yox...

— Onda olanını deyib də. Yoxsa, sənə şər, böhtan da atmalıydı? Nəsə onun fırıldağı var. Sənin xətti-xalına, gül camalına susamayıb. Canın üçün üstünə benzin töküb onu odlayaram. Sən məni deyəsən, yaxşı tanımırsan.

Nəsiman əlini-əlinə vurub ucadan güldü.

— Ay səni, xala. Neçə vaxtdı bir evdə yaşayırıq, bu xasiyyətindən xəbərsiziydim.

— Ondan uzaq gəz. Şeytandan, namərddən, dələduzdan adama dost olmaz. Xeyir gəlməz. Bir də gördün ilişdin. Səni təzədən müstəntiq çağırdı. Sorğu-sual apardı. Bu, sənə lazımdımı? Yaxud, eləmədiyin işi, götürmədiyin yükü boynuna qoyar, altından çıxanmazsan.

— Mən razı, Sənubər xala. Həyətdə qarşılaşanda mən ondan nə vaxta qədər qaçım? Necə deyim ki, məndən uzaq ol.

— Deyənməyəcəksən, uzaq olmayacaqsan, budu deyirəm, oğlum, bəlasını da gec-tez çəkəcəksən...

Sənubər qəflətən səsini qaldırdı:

— Adə, ay başıboş, o, nanəcibin sifətinə, gözlərinə fikir vermisən?





— Necə bəyəm?

— Gözlərindən cin yağır... Elə kişi sifəti olar? Ölür adamlara qarmaq atmaq üçün. Öyrənib avamları caynağında saxlamağa... O, it oğlunun barəsində Tükəz bilsən nələr danışır? Eşitsən, özün o gedəyə tüpürərsən.

Nəsiman dərin fikrə getdi. Qarıya bir söz deməsə də içində onunla həmrəy oldu. Ancaq İsmətin ölümüylə bağlı Qaçayın dedikləri Nəsimanı susmağa məcbur elədi. Başqa söz tapanmayıb Sənubərə bildirdi:

— Sənubər xala, bayaqdan Qaçay Qılınclını faktsız-filansız təpikləyirsən, pisləyirsən. Ancaq onun konkret törətdiklərini demirsən.

— Oğlum, sənə hansını deyim?... Oğraşdı, dəyyusdu, dələduzdu... Əlindən adam öldürmək gəlir. Düşmənləri çoxdu.

— Yenə konkret demədin.

Qarı əsəbi halda başını yellədi. Sonra Nəsiman tərəfə əyildi:

— Orda-burda ağzı başına danışma. Danışsan, boynuma almayacam. Dükanlara, evlərə basqınlar elətdirir. Narkotikayla məşğuldu. Qadın alqı-satqısı, adam oğurluğu, silah gəzdirməsi... Bunun birini üstünə itələsə, onca il barmaqcıqlar arasına düşmənə kifayət eləyər. Bəlkə, düz demirəm?

Nəsimanın susmaqdan, eşitdiklərini başıyla təsdiqləməkdən savayı, yolu qalmadı. Sənubər sözünə davam elədi:

— Rəhmətlik kişi adam tanıyanıydı. İlk dəfə onu görəndə dedi ki, ayə, bu zalım oğlu nə yaman xəta-gün adamdı. Öz əcəliylə ölməyəcək...

— Aydındı, Sənubər xala. Narahat olma. Çalışaram...

— Başıbatmış başımızı qarışdırdı. Yeyib-içmək yaddan çıxdı...

Sənubər qarı bişirdiyi xörəyi çəkdi, Nəsiman onları süfrəyə gətirdi. Yeyib-içəndən sonra Nəsiman öz otağına keçdi. O, fikirləriylə baş-başa qalmaq istəyirdi. Hadisə baş verən gecəni xatır-

ladı. Vurduğu bircə zərbədən İsmətin öldüyünə inanmadı. Ancaq ona bir şey aydınıydı ki, Qaçay hər şeyi gözləriylə görüb. Hər şeyi yerli-yataqlı bilir. Belədisə, o, nə üçün həqiqəti müstəntiqə açmadı? Hələ üstəlik, onu da etiraf elədi ki, hüquq-mühafizə orqanları işçiləriylə sıx əlaqədədi, onların arasında dostları var. Əgər ixtisasca hüquqşünasdısa, bir müddət vəkil işləyibsə, deməli, həqiqətən, qanun keşikçiləriylə dostluq əlaqələri də mümkündür. Onlar arasında Qaçay Qılınclının həmfikirləri var. Araları açıqdı. Bir-birilərinə çəkinmədən sirr verə bilərlər. Qaçay Qılınclı Sənubər xala sadaladığı cinayətlərin həqiqətən də törədicisidimi? Əgər bu cinayətləri qarı bilirsə, bu, o deməkdi ki, polis də, prokurorluq da, rayonun digər rəhbər işçiləri də ondan xəbərdardı. Qəribədi, bəs, bilə-bilə cinayətkar barəsində niyə həbs qət-imkan tədbiri seçmirlər? Deməli, o məsul şəxslər ya bu adamla bilavasitə bağlıdırlar, ya da onun yuxarıda daha etibarlı, möhkəm tellərlə bağlanmış əlaqələri var. Hər iki halda, Qaçay Qılınclı tək deyil. O, böyük bir mafiyanın üzvüdür. Bəlkə də, İsmət əvvəlcədən hazırlanmış bir fırıldaq əməliyyatın qurbanıdı. Onun qətli məni ilişdirməyə xidmət eləyir. Yox, ona inanmıram. O, hardan bilərdi ki, gecə mən ocaq qalayıb çay qoymalı olacam. İsmətin də belə bir faciəsinə hazırlıq görsün. Hə, ona inanıram ki, bu adam məni bu məhəlləyə gələli görüb, müntəzəm olaraq izləyib, ilişməm üçün əlverişli məqam axtarıb. Hadisə baş verən gecə də istədiyinə yetişib. Yem axtaran balıqlar qırmağa keçən kimi, mən də Qaçay Qılınclının toruna düşmüşəm... Məni müdafiəyə qalxması da, təcridxanadan çıxmam da, bu gün onunla danışmam da təsadüfi deyil... Deməli, məni məndən xəbərsiz cinayətkar sistemə — mafioz qrupa Qaçay Qılınclının əliylə daxil eləyiblər. Bu gün, sabah, ya da o biri gün məni də çağırıb fəaliyyətə təhrik eləyəcəklər. İstəklərini icra eləməsəm, qatı cinayətkar kimi məni içəri atacaqlar. Nə bilmək olar. Bəlkə də məni o zavallının vəziyyətinə salacaqlar. Onun





yanına göndərəcəklər... Sənubər xala, sən düz fikirləşirsən. Xata-bəla məndən uzaqda deyil. Qara kabus ətrafımda vurnuxur, başımın üzərində o tərəf-bu tərəfə şığıyır...

Nəsiman fikirləşdikcə, olub keçənləri yerbəyer elədikcə daha dərinlərə gedib çıxır, dəxli olmayan məsələlər arasında da məntiqi əlaqələr qururdu. Qurduqca da fikirləri pırtlaşır, onu darıxdırırdı. Gah sustalır, ümid işığı öləziyir, gah da damarlarındakı qanı coşur, fikirləşirdi ki, hamı yuxuya dalanda gedib Qaçay Qılınclını evindən çıxarıb birdəfəlik aradan götürsün. Hardansa ağlına belə bir fikir gəldi: "Qızışmıram ki? Düşündüklərim yanlış olmaz ki? Tələsmək nəyə lazım? Bəlkə, gözləyək?...". O, paltarını soyunmadan çarpayısına uzandı. Bir dəqiqə keçmədən ayağa qalxdı. Çaşqın və məyus halda gedib pəncərənin qarşısında dayandı. Pərdəni kənara sıyırıb həyəti gözdən keçirtdi. Orda şam, küknar, çinar ağaclarından savayı, heç nə görmədi. Gözləri məchul bir nöqtəyə dikilərək duyuğa getdi. O, iki-üç dəqiqə beləcə qaldı. Sonra özünə gəlib dedi: "Tapdığım quru loxmama zəhər qatan, namərd. Bilirəm, qorxu, həyəcan, vahimə içərisində belə yaşamaq çox çətindi. Lap ölümdən də betərdi. Ayağım sürüşüb. Qaçay Qılınclının torundayam. Sən deyənləri eləməsəm, nə vaxtsa, cəzamı alacam. Həyat nə qədər anlaşılmaz, etibarsız, həm də parıltılıymış...". O, ciddi təşviş və tərəddüdlə yenə çarpayısına qayıtdı. Yenə uzandı. Pırtlaşıq fikirlər, dolaşıq mülahizələr. Əsassız ehtimallar. Dolaşıq və pərakəndə faktlar, anarxist düşüncələr... Tərəddüdlər dərin ziddiyyətlər doğururdu, dramatizmi artırırdı...

Nəsiman bütün gecəni yatağında çabaladı. Gah nəfəsi daralır, onu soyuq tər basır, gah da olub-keçənləri başından qovub çıxarmağa çalışırdı. Bu cəhdlər də heç cürə fayda vermirdi... Öz-özünə dedi:

— Çinarlıya necə qayıdım? Qaçay Qılınclı məndən əl çəkəcəkmi? Bəlkə də mənim hər addımımı, İsmətin ölümünü özü-

nün daxil olduğu bütün sistemə açıqlayıb. Elədisə, çıxış yolum qalırmı? Yox... İnanmıram...

*  *
*

Hər səhər şəhərin qul bazarına ayaq döyən, kimlərinsə evində, həyət-bacasında, bağ evlərində xırda-para işlər görərək gündəlik üç-beş manat pul qazanıb qarnını doyduran Nəsiman Qaçay Qılınclının sözlərinin təsiri altından yavaş-yavaş çıxmaqdaydı. Təsadüfdənmi, ya nədənsə səhər evdən çıxanda Sənubər qarının dedikləri gün axşamacan onun beynində dolanmağa başladı. İsmətin ölümü qurd kimi onun beynini deşirdi. Hissiyyatı onu rahat buraxmırdı. Hərdən öz-özünə deyinirdi: "Çox zaman ürəyimə daman başıma gəlir. Qaçay Qılınclı bu səhər rəhmətliyin qızının yadına hardan düşdü. Bütün əhvalımı dəyişdirdi. Nə işlədiyimi bilirəm, nə də danışığımı. Görünür, mərdüməzar oğlu mərdüməzar nəsə bir şey eləyəcək. Cəhənnəmə, nə eləyir-eləsin. Nə qədər qorxu, vahimə içərisində yaşamaq olar. Daha əsəblərim tab gətirmir. Belə yaşamaq çox da uzağa gedə bilməz. Bilsəydim o sirr hələ yalnız özündədi, onunla məmuniyyətlə haqq-hesab çəkərdim. Nə bilmək olar. Bəlkə, doğrudan da qanun keşikçiləri ilə Qaçay atdı-tutdudadı. Həqiqətən də belədisə, onda "cidanı çuvalda gizlətmək" müşkül məsələ olacaq. Yox... Bunu dəqiqləşdirmədən iş görməyin özü də yanmaq deməkdi. Doğrudu, Sənubər qarı Qaçay yaramazla yaxınlaşmağa, onunla ünsiyyət saxlamağıma razı deyil. Axı bu, belə də olmaz. Qaçay Qılınclının içi açılıb tökülməlidi, mümkün qədər əlaqələri öyrənilməlidi, ondan sonra ehtiyac olarsa, zəruri tətbirlərə əl atılmalıdır. Onu saya salmasam, o, nə vaxtsa, hərəkətə gələcək. Barəmdə gördüyü işlərdən xəbərsiz-ətərsiz olacam. Ağlıma gəlməyən yerdə, qəflətən qamarlanacam. Ola bilsin ki, bundan da





artıq şərə, böhtana məruz qalacam. Qaçay Qılınclı qorxulu adımdı. Xəta-günlük ondan uzaqda döör... Qarının sözüylə ondan qorxub axşamlar həyətə düşməmək də mənə yaraşmaz. Azacıq hiss eləsə ki, ondan qorxuram, ya çəkinirəm, o, üstümə daha da ayaqlanacaq. Çıxış yolu tapanmayan pişik itin üstünə tüklərini qabardıb fısqıran kimi onda da məni vurmaq həvəsi baş qaldıracaq. Yox, buna imkan vermək olmaz...".

Nəsimanın ağlına hardansa belə bir fikir gəldi. "Qılınclı özü etiraf eləyir ki, İsmətin ölümündə sənin əlin olmadığı barədə müstəntiqə izahat vermişəm. Belədirsə, o: — Düz izahat verməmişəm, müstəntiqi aldadaraq istintaqın səmtini dəyişmişəm — deməklə yenidən istintaq işinin açılmasına nail ola bilərmi? Həqiqətin üzə çıxması naminə məsələyə yenidən baxmaq mümkündürmü? Mümkündü, bununla belə Qaçay çox xatalı, fırıldaq, şərə-şur adamdı. O, məni izləyir. Axı niyə? Bu boyda şəhərdə adam azlığıydımı?

Həmin gün Nəsiman iş-gücünü qurtarıb yorğun-arğın evə tez qayıtdı. Sənubər qarı onu qapı ağzında qarşıladı. — Sənə nə olub, oğlum, nəsə yenə bikef görünürsən? — dedi. Səni əsəbiləşdirən olmayıb ki? Nəsiman: — Yox, yamanca yorulmuşam, əzginəm, — deyə cavab verdi və əl-üz yuyulan yerə keçdi. Yuyunub tez də geri qayıtdı. Yüngül nahar eləyib çarpayısına uzandı. Onun bütün əzələləri ağrıyır, qıçları sızıldayırdı. Elə bil ayaqlarının damarları şişmişdi. Kürəyində küt ağrılar duyurdu. Ona elə gəlirdi ki, ağrıyan ürəyidi, sadəcə olaraq ürəyinin ağrıları kürəyinə vurur. Beləcə düşünə-düşünə onu yuxu apardı. Çox çəkmədi ki, arabir xorultusu eşidilməyə başladı. Bir qədər yatmışdı ki, qonşu girəcəkdən gəlin aparmağa gələn maşınların siqnal səsləri, çalğıçıların musiqisi onu yuxudan oyatdı. O, səksəkə içərisində başını balıncdan qaldırdı. Pəncərəyə baxdı. Pərdə tünd olduğundan içərini ala-toran göstərirdi. Ona elə gəldi ki, o, çoxdan yatır. Gumanladı ki, səhərin ala-toranıdı. Bir azdan

hava işıqlanacaq. Qəribəydi. O, özünün harda yatdığını bir an hiss eləmədi... Handan-hana özünə gəldi. Səhv elədiyini anladı. Dərhal da: — Lənət sənə, kor şeytan, — deyib, özünü ələ almağa çalışdı. Başa düşdü ki, o qədər də çox yatmayıb. Gün batmaq üzrədi. İçərini qaraldan pəncərənin tünd pərdəsidi. Hələ axşama xeyli var... Nəsiman yataqdan çox halsız qalxdı... Üz-gözündən kədər yağırdı.

Oğlan Sənubər qarının otağına keçdi. Qarı oğlanın əhvalını durultmaq üçün ona zarafat elədi:

— Səhərdən göyün üzünü alan boz-bulanıq buludlar dağılmır ki, dağılmır. Elə bil qocalmısan. Sənin taylarının başında bilirsən, nələr gəzir? Harda qaldı Gülgəz? Bircə gəlib çıxsaydı, aranı qarışdırardı. Sən özünə gələrdin. Oğlum, nəyə deyirsən and içim, sən kefsiz olanda elə bilirəm, divarlar uçub gəlir üstümə.

— Bilirəm... Gəl tələsməyək. Gülgəz xalan hardasa, indilərdə gələr.

— Qonşusu qızını ərə verir. Eh, sən onu tanımırsan. Gedib toyda sındıra-sındıra oynamasa, dərd-sərini dağıtmasa, doyunca yeməsə, içməsə, bir sözlə, azarını öldürməsə, vallah, gələn döör. Rəfiqə mənimdi, halına yaxşıca bələdəm.

— Düz eləyir.

— Əlbəttə, düz eləyir, oğlum

— Adam çox şeyi gərək içinə salmasın. Yaşamağı bacarsın. Elə ki bacarmadın, heç nə. Həmişə dərd-sər içində olacaqsan. Qəmi, qüssəni maqnit kimi özünə çəkəcəksən. Lap uşaqlıqda sənə kimlər pislik eləyibsə, nə kimi narahatçılığın olubsa, onlar da gəlib düşəcək yadına. Başlayacaqsan götür-qoy eləməyə. O da əlavə bir yük olacaq sənə. Gərək, dərd-səri özündən qovub uzaqlaşdırmağı bacarasan. Odu ha, Gülgəz kimi...

— Sənubər xala, mənim Gülgəz xaladan xoşum gəlir.

— Saqqalı ağarmış, bəyəm, mənim ondan acığım gəlir? Onunla söhbətimiz tutmasaydı, əlli il rəfiqəlik eləyərdikmi? Bu





illər ərzində o, mənə həm ana olub, həm də bacı. Gülgəz olmasaydı, kişidən sonra çoxdan dünyamı dəyişmişdim.

Elə bu vaxt telefon zəng çaldı. Nəsiman dəstəyi götürdü. O, səsi dərhal tanıdı. Danışan anasıydı.

Nəsiman:

— Mənəm, ana, salam.

— Oğlum, darıxmışıq sənin üçün. Sənubər xalan necədi? Bizim salamımızı ona çatdır.

— Baş üstə... Özü də eşidir salamını. Yaxşısanmı? Bacım necədi?

— Özüm yaxşıyam. Bacın soyuqlayıb-nədi, ağırlaşıb. Həkim gəlib, baxıb, resept yazıb. İmkanın olsaydı, iynə-dərman üçün...

Bu sözləri eşitcək sanki Nəsimanın ürəyi qırıldı. Sifəti bozardı. Cibində cəmi-cümlətani ikicə günlük çörəyinə çatar-çatmaz qəpik-quruşu vardı. O, fikirləşmədən, tərəddüd eləmədən, qeyri-ixtiyari halda dedi:

— Narahat olma. Sabah pul alacam, sizə də göndərərəm. Bacıma da de.

— Yaxşı, hələlik, oğlum.

— Öpürəm ikinizi də, ana.

Nəsiman dəstəyi yerinə qoydu. Heç bir söz demədən alnını ovuşdurdu. Dərindən köksünü ötürdü.

Nəsimanın pulunun olmadığını Sənubər qarı yaxşı bilirdi. O, mat-məəttəl oğlanın üzünə baxdı.

Astadan dilləndi:

— Pulun yoxdu, yalan niyə danışırsan, Nəsiman?

— Bacıma iynə-dərman lazımdı. Lap sabah yerdən çıxarmaq üçün də olsa pul tapıb göndərməliyəm. Əlacları kəsilməsəydi, anam heç vaxt zəng çalıb məndən pul istəməzdi.

— Bəs neyləyək? Kasıblığın üzü qara olsun. Vallah, gümanım gələcək yerim yoxdu gedib ağız açam. Nə də satılacaq bir şey yoxdu. Gülgəz də bizim kimi. O, elə adam döör. Bizdən lox-

masını əsirgəməz.

— Sabah evində işlədiyim adamdan alaram.

O, bu sözləri Sənubər qarını sakitləşdirmək üçün dedi. Əslində, bu gün evində işlədiyi adamla xudahafizləşdi. Ondan avans kimi aldığını da gətirib iki gün əvvəl bu qarıya vermişdi. İndi dünya elə bil başına fırlanırdı. Bütün mövcudat Nəsimana gah qırmızı, narıncı, gah da qara, boz rəngdə görünürdü. Bəzən də bu rənglər qarışır, anlaşılmaz, zəhlətökən çalar yaradırdı. Onu daxilən sarsıdırdı. Təsəvvüründə hər şey öz cildini dəyişirdi. Odsuz-alovsuz yandırıb yaxırdı onu. Bir anlığa yaşadığı cəh-cöhürlü, zığ-zığlı həyat gözlərində qaranlıq zülmətə döndü. Sənubər qarının otağındaca ölmək istədi. Handan-hana göz qapaqlarını qaldırıb qarının üzünə baxdı. Sonra da dərindən köksünü ötürüb balkona çıxdı. Balkonun məhəccərindən tutdu. Qacay Qılınclını xatırladı. Hansı yola çəkməsindən asılı olmayaraq, onu borc ala biləcəyi yeganə adam hesab etdi. Başqa yolu yoxıydı. Həyətə, ağacların altına göz gəzdirdi. Nigaran baxışları uzaqlara, yaxınlara dikildi. Kövrəldi. İki damcı yaş bəbəklərindən yanaqlarına süzüldü. Əllərinin içilə qarı görməsin deyə, üz-gözünün yaşını sildi. Özünə toxtaqlıq verib otağa qayıtdı:

— Sənubər xala, darıxıram, aşağı düşmək istəyirəm.

Qarı istədi ki: — Getmə, itlə qarşılaşa bilərsən, — desin. Ancaq demədi. Başını yana əyib çiyinlərini çəkdi. Bununla da qarı Nəsimana: — Etiraz eləmirəm, get, — işarəsini verdi. Oğlan geyinib həyətə düşdü. Xeyli həyətdə gəzdi. Təmiz, soyuq hava vurduqca Nəsimanın nəfəsi genişlənir, bir az əvvəl keçirdiyi hisslərini yavaş-yavaş öz tağımından endirirdi. Qaş qaralmaq üzrəydi. Şam, küknar, çinar ağaclarının kölgələri ətrafa nəzərən öz diblərini rəssam fırçası tək bir az da qaraldırdı. Elə bu vaxt Qaçay Qılınclı binanın girəcəyindən çıxdı. Nəsimana tərəf addımladı. Yaxınlaşıb bir-birilərinə köhnə dostlar kimi əl verdilər. Hal-əhval tutdular. Qaçay dedi:





— Neçə gündü görünmürsən. Bir yana getməmişdin ki?

— Yox... Təkcə qul bazarına gedirəm. İş tapanda....

Qaçay təəccübləndi:

— Nə, qul bazarına?

— İş yox, güc yox. İşləməyəndə də dolanmaq olmur. Gedib kimə ağız açasan?.. Dolanışıq mümkündü? Keçən həftə bir cavan oğlan “Qul bazarı”nda özünü ağacdan asmışdı. O hadisə gözlərimin qabağından çəkilmir. İndi də yadıma düşəndə üşənirəm. İş sahibləri gələndə təsəvvür eləyirsən, cavan oğlanlar hansı hissləri keçirirlər. Onların qabağına necə qaçırlar? Nəinki dilləriylə, hətta, gözləriylə yalvarırlar: — Məni apar, işlət, — deyirlər. Onlar neyləyirlər? Aparırlar, işlədirlər, alçaldırlar. Adamı adamlıqdan çıxarırlar. Onda adam özünə də, içərisində yaşadığı cəmiyyətə də nifrət eləyir. Dünyaya gəlməsinə peşman olur. Axırda nə baş verir? Səninlə sövdələşdiyi qiyməti də kəsir. Elələri də olur ki, “qulun” gördüyü işi guya bəyənməyərək verəcəyi pulu yediyi çörəklə əvəzləyir. İçin də, çölün də od tutub yanır. Üç-beş manata görə vurub öldürməli deyilsən ki... Adamı elə vəziyyətə gətirirlər ki, cinayət törətməkdən savayı, özgə yolun qalmır. Hara gedirik, belə? Bu yolun sonu varmı? Yox! Sanıram ki, intəhasızdı. Sonu heçlikdi. Gömülüb bir ovuc torpağa qovuşmaqdı, Qaçay. Vəssalam...

— Mən səni anlayıram, Nəsiman. Adamı yandıran bəzi insanların anlamazlığıdı. Heyvan olmaq bəzən insan olmaqdan yaxşıdı. Heyvanlar öz cinslərindən olanları yırtıb dağıtmırlar. İnsanların vəhşiliklərinə fikir ver. Adam dəhşətə gəlir. Hamı qanundan, insanlıqdan danışır. Əməldə neyləyirlər: yırtırlar, dağıdırlar, parçalayırlar... Təmtəraqlı sözlər, qulaqlarda ilk dəfə səslənən gözəl ibarələr onu deyənin yaxşı adam olduğuna bəyəm, dəlalət eləyir? Düzünü bilmək istəyirsənsə, mən boğaza yığılmışam. Heç kimə inanmıram. Lap doğmalarıma da. Addımbaşı cinayət törədənlərlə, sarsaq, azğın iş görənlərlə qarşılaşı-

ram. Hamı ata-atdadı, çırpışdırha-çırpışdırdadı. Kimə nə deyəsən? Dovşan tülküdən çaqqala, çaqqaldan canavara... nə qədər şikayət eləməlidi? Oturub dovşanı dinləyən varmı? Axırda nə baş verir? Vəhşilər birləşərək dovşanın özünü məhv eləyirlər. Bu haqsızlıq məzlumların sabaha olan inamını qırır. Oturub-durub fikirləşirsən, ay dadi-bidad, mən ömrümün müəyyən hissəsini birtəhər yaşamışam. Hələ ev-ailə sahibi olanmamışam. Başıma bir iş gəlsə, doğmalarım necə olacaq? Xeyli vəkil işləsəm də, bax, bu suala cavab tapanmıram. Görünür, imkansızlar heç vaxt tapanmayacaqlar da. Ömürlərini beləcə, dərd-sər içərisində çürüdə-çürüdə dünyalarını dəyişəcəklər.

İmkansızlıqdan çıxış yolu tapanmayan Nəsiman asanlıqla Qaçay Qılınclının sözlərinə şərik çıxdı. Başqa vaxtlar razı olmasaydı da, bacısının vəziyyəti onu öz xoşuyla içindəkilərlə heç cürə uyuşmayan və hisslərini əsla ovundurmayan təbliğatın təsiri altına saldı. Sabiq vəkilə də bu lazımıydı. Ancaq Qaçay bu tezliyə onu özünə ram eləyəcəyini ağlına da gətirmirdi. İlk zərbədən oyunçusunu nokaut vəziyyətinə salan sabiq vəkil qələbəsi üçün daxilən özündən razı qalsa da, o, bu hərəkətlərini Nəsimandan gizli saxlamağa üstünlük verdi. Dərhal da üzünü yana çevirib dedi:

— Gedək, yaxınlıqdakı parkda bir az gəzək. Başımız açılsın. Dərd-sər gec-tez ürəyimizi çatladacaq.

Nəsiman tərəddüd elədi. Bu anda Sənubər qarının Qaçay barəsində dedikləri yadına düşdü. İstədi getməsin. Dərhal da anasının telefonda dediklərini xatırladı: "iynə-dərman üçün...". Nəsiman bir andaca onu da düşündü ki, axı mən Qaçayla görüşmək üçün həyətə düşmüşəm. İndi də ondan qaçmağa lüzum varmı?.. Oğlan qeyri-ixtiyarı olaraq özündən uydurdu.

— Bura bir nəfər gəlməlidi. Gedərəm, gəlib məni tapmaz. O da yaxşı düşməz.

— O, kimdi? Mən onu tanıyırammı?





— Yox, rayondandı... Gecikir.

— Gəlişi xeyirdimi?

— Mənə əl borcu gətirməlidi. Xəstəmiz var.

— Nə qədər lazımdı?

— İki yüz demişəm, gətirsə, kifayət eləyər.

— Məndə var.

— Yox... Çox sağ ol.

— Borcdu, ondan alma, məndən al... Qazanıb qaytararsan.

Qaçay şalvarının cibindən bir dəstə pul çıxarıb beş yüz manat Nəsimana uzatdı və almasını təkid elədi. Nəsiman puldan iki yüz götürüb qalanını qaytardı. Sonra sakit addımlarla parka tərəf getdilər. Yol uzunu adamların vəziyyətinin ağırlığından danışdılar. Parkda bir az gəzmişdilər ki, Qaçay ayaq saxladı və sakitcə "filosofluq" eləməyə başladı:

— Qardaşım, dünya biz düşünən qədər də adi deyil. Sadəlövhlər hər şeyə inanırlar. Ona görə də həmişə öz xoşlarıyla boyunduruq altına girirlər. Ömürlərinin axırına qədər də minilib çapılırlar. Öləndə də həmin boyunduruğu vəsiyyət eləyib oğul-uşaqlarının boyunlarına keçirirlər. Bununla da bütün törəmələri imkanlıların quluna çevrilir.

— Heç nə başa düşmədim, Qaçay.

— Başa salaram... Cəmiyyət ayrı-ayrı fərdlərdən ibarətdi?

— Bəli...

— Yaşadığımız cəmiyyətin görünən və görünməyən tərəfləri var. Məmurlar və kasıblar görünən tərəflərdi. Qanun keşikçiləri də həmçinin. Mafioz qrupların isə adları var. Üzvləri bilinmir. Özlərini daim gizlində saxlamağa çalışırlar. Fikrimi çatdıra bilirəmmi?

— Hə.. Hə.. Maraqlıdı.

— Əslində bizim xalq dediyimiz o zavallı kasıblardı. Əli hər şeydən üzülən imkansızlardı. Hər deyilənə inanan sadəlövhlərdi. Eşitməmiş olmazsan. Dövlətin yaradıcısı və mənbəyi xalqdı.

Dövlətlə xalqın birliyi həmişə olub, olacaq da. Məmurlar isə kasıblar, imkansızlar, başqa sözlə, xalq üzərində ağalıq eləyənlərdi. Müxtəlif bəhanələrlə, yollarla onların ciblərinə girənlərdi, qanlarını içənlərdi.

— Axı məmurlar da xalqın içərisindən çıxanlardı. Xalqın etibar elədikləridi.

Qaçay başını qaldırıb uzaqlara baxdı. Sonra da gülümsündü:

— Ona görə də istefa tələbini qoyan kimi xalqı qırırlar? Yox, Nəsiman, əzizim, xalq içərisindən çıxsalar da onların dediklərinin xalqla heç bir əlaqəsi yoxdu. Şəxsi mənafelərindən, ambisiyalarından savayı, özgə şey tanımırlar. İstəməzdim onları xalq adlandırasan. Mənimlə, özünlə, "Qul bazarı"nda imdad diləyənlərlə onları eyniləşdirmə. Bəri başdan deyim ki, belələrini eyniləşdirmək ciddi səhv olardı.

— Qəribədi.

— Onlar olsa, olsa, qruplardı. Məmurlar necə? Onlarla eyniyyət təşkil eləyə bilərlərmi? Özləriylə malını-madarlarını soyanlar arasında keçilməz səddi götürərlərmi?

— Sən mənii gözlərimdə məmurların düşmən obrazını yaratmırsan ki, Qaçay?

— Oturub, yaxşı-yaxşı fikirləşsən, mən deyənə özün gələcəksən. Götürək qanun keşikçilərini. Onların əksəriyyəti, əsasən, təkrar eləyirəm, əsasən, məmurlar təbəqəsindən çıxırlar və məmurların da mövqeyində dayanırlar. Hər zaman onlara xidmət eləyirlər. Bilirsən niyə? Çünki pul, imkan məmurlardadı. Onlardan bəziləri də mafiyanın üzvləridi. Demirəm, Nəsiman, ucdantutma hamısı belədi. Onların içərisində xalqını, vətənini sevənlər də var. Kasıb, imkansız təbəqəyə ləyaqətlə qulluq eləyənlər də var... Pulu özünün varlığı sananlarla addımbaşı qarşılaşırıq. Başına gələn hadisəni yəqin ki, unutmamısan. Səni də, yanğınsöndürənləri də atdılar dəmir barmaqlar arasına. Gizli kəşfiyyata keçdilər. Kimsəsizliyini, əli işdən qalan anan, xəstə





bacın olduğunu dəqiqləşdirdilər. Başqa sözlə, imkansızlığını üzə çıxardılar. Müəyyənləşdirdilər ki, səni həbs eləmək o qədər də səmərə vermir. Ən yaxşısı, səni buraxmaq, yanğınsöndürənlərin hərəsindən on beş min ABŞ dolları almaq daha faydalıdır. Aldılar da. İsmətin ölümüylə bağlı səni də mənə hədiyyə elədilər.

— Nə?

— Bəli! Bəli, cənab Nəsiman! Axı sənə dedim ki, barəndə izahat vermişəm. Bu məsələləri sonra dərk eləyəcəksən. Əgər mənə inanmasan, günü sabah məsələni qaldıra bilərlər. Onda mənim izahatım da, ekspertlərin gəldikləri nəticələr yazılmış kağız da yoxa çıxacaq. Yenidən sanksiya veriləcək, yenidən istintaq başlanacaq... Mən istəyirəm nə qədər acı olsa da, bu həqiqəti biləsən. Həqiqət bütün uydurma və əfsanələrdən çox yaxşıdı. Ancaq nədənsə insanlar yerli-yersiz həqiqətdən çox yalana inanırlar. Bu da ondan irəli gəlir ki, əksər hallarda yalanların mahiyyətində şirin vədlər, təsəllilər var.

Qaçay danışdıqca, gərginlik əlaməti bəzən həddini aşırdı. Nəsiman müsahibinin qaynayan gözlərini görəndə canında qorxu hiss elədi və fikirləşdi ki, bu məlun nə vaxtsa, ona əngəl törədəcək: "Hüquqşünas olsa da, bu adamdan nə desən gözləmək olar. O, danışarkən özünü unudur və qızışır. Ehtiyatsızlıq eləyib heç danışılması lazım gəlməyən, bəzən də ifrata varan sözləri də ağzından çıxarır. Özünün sirlərini də açır..." Nəsiman düşündü: "O, bu sirləri niyə açır? Ağzıboşluğundanmı, dardüşüncəliliyindənmi? Yoxsa, məni ələ almaq, inandırmaq, özünə bağlamaq üçün? Məncə, ikinci daha inandırıcıdı". Bununla belə, Nəsiman çalışırdı ki, Qaçayın bir sözünü də unutmasın. Onların mənalarını daha dəqiqliyilə tuta bilsin. Tutduqca da bəzən oğlan dərindən əsəbiləşirdi. Hərdən heyrətlənir, özünü itirirdi. Belə hallarda tez də özünü ələ almağa çalışırdı. Nəhayət, Nəsiman Qaçayı həqarətli baxışlarla süzərək soruşdu:

— Bəs, mafiya nədir?

— Mafiya eyni məqsəd uğrunda mübarizə aparan mütəşəkkil gizli dəstədir. Onun üzvləri sənin, mənim kimi imkansızlardan, məmurlardan və qanun keşikçilərindən ibarətdi.

— Necə, necə? Sənin, mənim kimi...

— Bəli!.. Nə üçün təşviş keçirirsən? Unutma ki, təşviş qorxudan vahiməlidi. Fikirləşmə. Fikirləşsən, qorxunu, ən əhəmiyyətsiz narahatçılıqlarını belə təşviş yaratmağa yönəldəcəksən. Psixi hallar keçirəcəksən. Beynin kilidləşəcək. Qaş qayırdığın yerdə vurub göz çıxaracaqsan. Bununla da işləri korlayacaqsan. Özünü təhlükə altına salacaqsan... Hər bir mafiyanın arxasında nəhəng qüvvələr dayanır: pramidanın zirvəsində qərar tutan zəhmli siyasətçilər; iqtisadiyyatı barmağında fırlada bilən iqtisadçılar; qanunları istədikləri səmtə yönəltməyə qüdrəti çatan hüquqşünaslar; hər şeyi yerbəyer etməyə qabil dələduzlar; gözlərini qan örtmüş cinayətkarlar. Xatırladım ki, bunlar hər iki cinsdən ola bilərlər. Mafiyanın öz qanunları var: güzəştsizdilər; üzvləri arasında yalandan söhbət gedə bilməz; yalan, xəyanət ölüm deməkdi; sirr kənara çıxmamalıdı; satqınlıq bağışlanmazdı; tapşırıqlara sözsüz əməl olunmalıdır; silahla yüksək səviyyədə davranmağı bacarmaq mütləqdi; mafiyaya girdi var, çıxdı yoxdu, əks halda, atəş gicgahında açılacaq... Yenə deyim? Başlıca məsələ bunları sənə çatdırmaq idi. Çatdırdım. Bütün məsələlərdə tapşırığı məndən alacaqsan. Mafiyanın digər üzvlərini tanımağa cəhd göstərmə. Onu da sənə deməyi özümə borc bilirəm ki, mafiya hörümçək toru kimi cəmiyyəti əhatə eləyir. Hətta, türməni də. Başqa sözlə, o, dövlət içərisində dövlətdi. İzləri görünməzdi... İşdi-şayət görünsə, dərhal qırılır...

— Mən heç bir mafiyanın üzvü olmaq istəmirəm, Qaçay.

— Qəbul eləyəndə heç kimdən heç nə soruşmurlar, Nəsiman. Şəxsən sənin qəbulunda mənim zəmanətim kifayət eləyib. Pramidanın zirvəsindəkilər səni məndən yaxşı tanıyırlar. Sabah axşam yenə burda görüşürük. Bütün hallarda təhlükəsizliyin təmin olunacaq.





— Əgər qanun keşikçiləri də mafiyaya xidmət eləyirsə...

— Dedim, hamısı yox.

Nəsiman çaşıb qalmışdı. Qaçayın bir çox sözləri qulaqlarında taqqıldasa da mənalarını anlayanmırdı. Qorxudan, həyəcandan az qala ürəyi sıxılacaqdı. Alnını tər damcıları bürüdü. Ancaq Qaçaya nə "hə", nə də "yox" deyə bilirdi. Qaçay oğlanın çaşqınlığını, tərəddüdlərini anlayırdı. O, pencəyinin yaxasını kənara sıyırdı. Toqqasının altına keçirdiyi tapançanı ona göstərib astadan dedi:

— Bundan səndə də olacaq. Məni başa düşdün? Bu oyunun öz qaydaları var. Onlara əməl eləməyə borclusan... Başqa sözün yoxdusa, indi qayıda bilərik.

— Yox... İmkan verin, bir az fikirləşim.

— Daha gecdi. Sirlərin cüzi də olsa, bir hissəsi səndədi. Əbəs yerə vahimə keçirmə. Gedək.

Qaçayla Nəsiman parkdan çıxıb ayrıldılar. Nəsiman kirayənişin yaşadığı evə, Qaçaysa əks istiqamətə getdi. O, qaranlıqda tez də gözdən itdi...

Nəsiman çətinliklə pillələnləri qalxıb qapını bir neçə dəfə döydü. Bu dəfə qapını içəridən Gülgəz qarı açdı. O, Sənubərgilə gəlmişdi. Sevincək halda dedi:

— A kişi, bura kənd döör. Başının salamat olmağını istəyirsənsə, evinə tez gəl. Sənə can-ciyərimi ümid olmuşam. Sənsə o küçə mənim, bu küçə sənin, gəzirsən. Düşəcəksən itin birisinin əlinə. Səni salacaq tora. Sonra da qalacaqsan çaş-baş. Nə qədər çalışacaqsan, canını qurtaranmayacaqsan, əlində girov qalacaqsan.

Nəsiman əvvəl tutuldu. İstədi desin ki, artıq tordayam. Sən deyən girovdayam. Nə düşündüsə, bu fikrindən vaz keçdi. Sonra gülümsündü. Gülgəzin sözünü təsdiqləyib otağa keçdi:

— Yamanca susuzlamışam. Sizə də çay süzümmü?

Qarılar bir ağızdan etiraz etdilər:

— Yox... Çay içməkdən bezmişik.

Nəsiman özünə bir stəkan çay süzüb stola gətirdi. Gecədən keçincəyədək olub-keçənlərdən söhbət elədilər. Gündüz lazımınca yatıb yuxularını aldıqlarından və gecə yatmağa ehtiyac duymadıqlarından qarılar bir sözü qoyub o birinə keçirdilər. Cavan vaxtkı şücaətlərini yada salıb qürrələnirdilər. Nəsiman özlüyündə qarıların dediklərinə vaxtı keçmiş adi xatirə kimi baxırdı. Əhvalları xoş olsun deyə özünü elə aparırdı ki, guya qarıların bəzən elədikləri duzlu-şirin söz-söhbətlərin, uzaq-yaxın zamanlarda yaddaşlarının lap dərinliklərindən eşələyərək tapıb tapışdırdıqlarının hamısı ona ləzzət verir. Əslində, Nəsimanın üzü gülürdü. Başı qaynayırdı. İçindən qan sızan dərin bir yarğan açılırdı. Onu da bilirdi ki, başına gələnlər, Qaçaydan eşitdikləri yalnız özünə məxsusdu. Açıb ağartsa həqiqətən də həyatı üçün təhlükə yaratmış olardı. Nəsiman uduzduğunu anlayırdı. Ürəyindəkiləri deməyə, dərdinə əlac eləməyə, ya ona şərik çıxmağa elə bir adamı da yoxıydı.

Çayını içib qurtarmışdı ki, Gülgəz dedi:

— Oğlum, şəhəri görənlər kəndə çətin ki, qayıda. Qazandıqlarını çalış dağıtma. Tapdıqlarını yığ. Başını soxmağa daxma ala bilsən, qalanlar düzələcək.

— Ay pir olmuş, iş var ki? Dünya ki, belə iqtisadi böhran keçirir, olan-qalan ümidim də sönür.

Sənubər:

— Elə ümidsiz danışma. Allahı olan nagüman qalmaz. İstəsə adama elə yerdən qapı açar ki, yüz adam tökülə bağlayanmaz. Başa düşürəm səni, əlinə beş manat çatmamış, on manatın xərclənməsi üçün yol açılır.

Gülgəz:

— Hansımız elə olmamışıq ki? Yadındadı qonşu Əsmər? Bir





lotereya almışdı. Onunla bir maşın uddu. Maşının puluna ev də aldı, hələ üstəlik qızına cehiz də. On beş gün keçər-keçməz qızı ərə verdi. Bəxtin gətirməsi, taleyin üzə gülməsi buna deyərlər.

Nəsiman:

— Eh... Məndə o bəxt hardadı. Bir lotereyaya bütün işim düzələ.

Sənubər:

— Naşükür olma. Sağ canın var, əzaların yerindədi. Zəhmət çək, işlə, qazan, dağıtma. Onda istəyinə də nail olarsan.

Nəsiman:

— Allah ağzınızdan eşitsin... Siz ki, namaz qılan, oruc tutan əməli-salehlərsiz. Ümidvaram ki, Yaradan sizin sözünüzü daha tez eşidər.

Gülüşdülər. Gülgəz:

— Qanan balasan. Sənə dua eləmək olar. Bir də ki, ay Nəsiman, sənə elə öyrəşmişik, səsini eşitməyəndə elə bilirik ki, evdə nəsə çatışmır.

Sənubər:

— Nəsiman evdə olmayanda, deməli, Nəsiman çatışmır da.

Beləcə söhbət baş alıb gedirdi. Nəsiman dedi:

— Siz söhbətinizi eləyin. Mən səhər tezdən işə gedəcəm. Gedib yuxumu alım.

Gülgəz:

— Mən də qəribə adamam... Gələndə özümə söz verirəm tez qalxacam, ağzım qızışır sizinlə söhbətə. Çöör tatı, vur tatı. Gecə-gecədən keçir. Ay Sənubər, sən də mənə demirsən ki, dur itil burdan.

Nəsiman yatmaq adıyla öz otağına keçib çarpayısını açdı. Sonra nəsə fikirləşib balkona çıxdı. Çil-çıraqban şəhər qeyri-adi görünsə də onun qəlbini açmırdı. Anasının həyəcanlı, qorxu doğuran danışığı, bacısının vəziyyəti gəlib durdu gözlərinin qabağında. Ürəyi qubarlandı. Kövrəldi. Öz-özünü məzəmmətlədi:

— Bağışla məni, bacı. Xəstə vəziyyətində yanında olanmıram. Dərdindən xəbər tutanmıram. Sənə minnət də qoymaq istəmirəm. İmkansızlıq ən böyük dərdmiş. Yavaş-yavaş anlayıram ki, adamlar heç də öz xoşlarına, ağılsızlıqları ucbatından caniyə, qatilə, quldura, oğruya... nəyə, nəyə çevrilmirlər. Sən demə, adamlar bu yola məcburən gedirlərmiş. Getdiyi yol bağlananda, insan məqsədinə çatmaqdan ötrü özü yeni çıxış yolları axtarır. Tapanmayanda özünü dağa-daşa vurur, lap qatı cinayətkara da çevrilir. Mən sizdən ayrılanda elə bildim şəhərə külək əsib qoz tökülüb. Gəlib mən də hamı kimi ciblərimi dolduracam. Qazanacam, özümü də dolandıracam, sizi də ağ günə çıxaracam... Sən demə, yanılırammış... Bilirəm, hazırkı vəziyyətimdən xəbərsizsiz. Anamın da ürəyi dözmür. Tez-tez mənə telefon açır. İndi də kömək istəyir. Yazıq ana, əziz bacım, vəziyyətimi bilsəniz məni dərhal geri çağırarsız: — Gəl evdə otur, biz necə, sən də elə, — deyərsiz. O da çıxış yolu döör. Mən də əlacsızam. Düşündüklərimə, arzularıma, ucundan tutub getdiyim yolun ziddinə hərəkət eləməyə başlayıram. Burda mən günahsızam. Elə siz də. Günahkar dövrandı, yaşadığımız cəmiyyətdi. Tapdığımı sabah sizə göndərəcəm. Təki mənim bacım şəfa tapsın. Uğrunuzda can verməyə də hazıram... Qəm, qüssə içərisində balkondan otağına qayıdan Nəsiman yatağında xeyli çabaladı. Nə vaxt yuxuya getdiyini bilmədi.

* *
*

Yuxudan erkən qalxan Sənubər hələ yataqdaykən, dilinin altından su keçirmədən evdən çıxan Nəsiman Qaçaydan aldığı pulu poçtla anasının ünvanına göndərib tələm-tələsik "Qul bazarı"na yollandı. Bazar adamlarla doluydu. Yorulub çömlək oturan kim, qıçlarının ağrısına dözənməyib o tərəf-bu tərəfə gəzən





kim, ayağının birini götürüb o birini qoyan kim. Hamı da salafana qoyulmuş tozlu-torpaqlı, hisli-paslı, cır-cındır iş paltarları qoltuğunda gözlərini gəlib-gedən minik avtomobillərinin salonuna dikmişdi. Üzdə bir söz deməsələr də, içərilərində Allahından imdad diləyirdilər. Qarşılarına halal, insafı, mürüvvəti olan varlı-hallı şəxs çıxmasını arzulayırdılar. İyirmi iki-iyirmi üç yaşı olar-olmaz, üzünü yenicə təraş elətdirmiş, ucaboy, arxaya daranmış zil-qara gur saçlı, qarayanız, qonur gözlü cavan oğlan əyilib dizlərini ovuşdurdu. Onun üz-gözündən yorğunluq, qəm, qüssə, kədər yağırdı. Geyiminin sadəliyi və təmizliyi səliqəli olduğuna dəlalət eləyirdi. İlk baxışdan adamda elə təsəvvür oyana bilərdi ki, bu oğlan olduqca qaradinməz və qapalıdı. Əslində, elə deyildi. İlk tanışlıqdan, onunla ünsiyyətə qoşulduqdan sonra oğlanın nə qədər mehriban, səmimi, ünsiyyətcil olduğu özünü büruzə verirdi. Nəsiman ona yaxınlaşıb əl verdi. Sonra könülsüz halda soruşdu:

— Şaiq, deyəsən, bu gün də bazarımız...

— Bazarımız yox, qardaşım, bəxtimiz. Atalar necə deyib?

— Eh... Atalar o qədər şeylər deyiblər, mən nə bilim hansını istəyirsən?

— Bəxtin yatdı, sən də yat.

Şaiq keçib yaxınlıqdakı çay daşının üstündə oturdu. Bayaqdan bəri sızlayan ayaqlarını yenidən ovuşdurmağa başladı. Baldırlarını bir neçə yerdən dartışdırdı və əlləriylə döyəcləməyə başladı. Bu hərəkətləriylə o, qıçlarındakı sızıltının qarşısını almağa çalışırdı. Handan-hana dilləndi:

— Ayə, məni yandıran burda qıy vurub oturmağımız döör ey. Evdəkilər elə bilirlər ki, biz burda pul qazanırıq, onu da barlarda, nə bilim harda, harda gözəllərə xərcləyirik, kef çəkirik. Ağıllarına da gətirmirlər ki, bu qədər adam gözlərini dikib yoldan keçən maşınlara. Sürücülərin də gözlərinə dönüm, bizə çatanda ayaqlarını əyləcə basırlar. O andaca ağlımız başımızdan

çıxır. Quzular analarının üstünə qaçan kimi biz də tökülüşürük maşınların dalınca. Fikirləşmirik ki, o gələn maşın da olsa-olsa ikimizi, ya üçümüzü aparar da. Hamımızı aparmayacaq ki?

Gödək, dolubədənli, qırmızısifət, qızıldişli, Nuruş ucadan güldü:

— Sən öl, bundansa, anadan qız doğulsaydıq, yaxşıydı.

Nəsiman təəccüblə Nuruşun üzünə baxdı:

— Nəyə görə deyirsən?

Söz altda qalmayan Şaiq Nuruşun əvəzindən dərhal cavab verdi:

— Bir fəqirin başını piyləyib gedəcəydi ona ərə. Doğub tökəcəkdi. Doğuzdurmusan, canın çıxsın, get, qazan gətir, onları da yedirt-içirt, məni də. Düzmü deyirəm Nuruş?

Nuruş:

— Düz təpəsindən vurursan... Əə... belə də kişi olar? Arvad-uşaqdan xəcalətli. Tanış-biliş yanında başıaşağı...

Şaiq:

— Cibdə beş manat pul olanda sinəni qabardıb kişiləşməyin olmaya. Sən öl, Nuruş, işsizlik ucbatından o gün özünü ağacdan asıb intihar eləyən Zaminə həsəd aparıram.

Nəsiman:

— Niyə?

Şaiq:

— Kişinin oğlunda mənlik, qürur varmış. O, hər gün alçalmağı özünə rəva bilməyib. Yoxsa, bizim kimi... Nə yaxşı ki, evlənməmişəm. Tək qarnını doyduranmayan evlənərmi, əə? Evlənsə də, arvad pulsuz əri kişi sayarmı? Rəhmətlik Sabir necə deyib?

Fəhlə, özünü sən də bir insanmı sanırsan?!
Pulsuz kişi, insanlığı asanmı sanırsan?!





İnsan olanın cahi-cəlalı gərək olsun,
İnsan olanın dövləti, malı gərək olsun.
Himmət demirəm, evləri ali gərək olsun,
Alçaq, ufacıq daxmanı samanmı sanırsan?!
Axmaq, kişi, insanlığı asanmı sanırsan?!

Dövlətliyik, əlbəttə, şərafət də bizimdir,
Əmlak bizimdirsə, əyalət də bizimdir,
Divan bizim, ərbabi-hökumət də bizimdir,
Ölkə dərəbəylik deyə xan-xanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Nəsiman:

— Əla! Sənin şeir deməyin də varmış?

Şaiq:

— Mən qurban olduğumun işinə mat qalmışam.

Nuruş:

— Niyə?

— Necə niyə? Ayə, hər şeyi bir qrup adama hədiyyə eləyib. Onlar da ölkənin altından girib üstündən çıxırlar. Ağıllarına nə gəlirsə, onu da eləyirlər. Onlardan çox demirəm, bir az biz tərəfə atanmazdı? Ailə yanında xəcalətli qalmayaydıq.

Nəsiman:

— Ağıl kimdədi, varidat da ondadı.

Nuruş:

— Bu sıntarmış sifət ki, bizdədi, hələ çox şey görəcöök.

Bütün vaxtlarını cəfəng danışıqlarla başa vuran "Qul bazarı"nın sakinləri batmaqda olan günəşin sarımtıl şüaları öz təsirini itirəndə salafan torbalarını qoltuqlarına vurub hərəsi bir tərəfə dağılışdı. Çox çəkmədi ki, günəş tamam görünməz oldu. Olan-qalanını günorta naharı üçün üç peraşkiyə ödəyən Nəsimanın avtobusa verməyə pulu qalmamışdı. O, əlacsız qalıb evə pay-pi-

yada gəldi. Sənubər qarıya salam verib: — Başımın ağrısına dözənmirəm, — deyə öz otağına keçdi və paltarını çıxarmadan yatağına uzandı. Özündən də, günahsız tanış-bilişlərindən də narazı qalan, bütün gününü üç peraşkiylə yola salan bu cavan oğlan düşündü ki, səhərə də ac-yalavac çıxmalıyam. Onun başqa imkanı yox idi. Öz-özünə dedi: "Məscidin qapısı açıq olanda, itin abrına nə". Hər gün qarnımı bu qarımı doydurmalıdı? O, dinmir, danışmır, bəs mənim abrıma, ləyaqətimə nə? Görünür, özünü intihar eləyən Zamin də belə çıxılmaz vəziyyətə düşübmüş. Deyirlər, özünəqəsd zəiflik əlamətidi. Kim nə deyir-desin, mən ona inanmıram. Şaiq demişkən, o, ancaq, qürurlu, vüqarlı adamların işidi. O, əməl, şərəf və ləyaqətinin alçalmasını özünə sığışdırmayan böyük vicdan sahiblərinə xasdı. Çıxılmaz vəziyyətdə qalan qüdrətlilərin hünəridi. İt kimi onun-bunun qapısında sülənməkdənsə, ilan kimi sürünməkdənsə ölüm fərzdi. Bilirəm, bu sözlərə görə məni qınayanlar da tapılacaq. — Sən bu sözlərlə gəncləri hara çəkirsən? — deyəcəklər. Doğrudur. Bax, indi mən neyləyim? Oğurluq, yoxsa quldurluq eləyim? Mən işi hardan tapım? Mən işləmək istəyirəm. Zəhmətimlə, alın tərimlə dolanmaq üçün harda olsa işləməyə hazıram. O da yoxdu. Bax, buna əsəbləşirəm. Axı vətən, el, oba hamınındı. Mən qarnımı doydura bilmirəm. Xəstəm üçün iynə-dərman alanmıram. Bir yerdə qərar tutanmıram. Necə tutum? Bəyəm, mən insan döörəm? Nəyə görə filankəslər zər-ziba içərisində yaşasınlar? Niyə onlar gündə yüksək komfortlu maşınlarda gəzsinlər, mən avtobusa verməyə qəpik-quruş tapanmayım? Sənubərin çarpayısında acından eşələnim? Bir qarın çörək dərdi çəkim?.. Bu, ədalətdimi? Bu, insafdımı? Bu, insanlıqdımı? İmkanlılar hər cür cinayət törədə bilirlər. Onlara, — "ayağını geri çək" — deyən olmur? Qanunlar niyə yalnız onlara xidmət eləməlidi? İmkansızlar sözünü niyə deyənməsin? Qanunun kəsəri yalnız bizədimi? Cəhənnəm olsun hər şey. Xəstə cəmiyyət həmişə sağlam "mən"ləri





də şikəst elər. Bu, mənim faciəmdi. Faciəli olduğum üçün də Qaçay Qılınclının çağırışına səs verməli oluram...

Nəsiman qəflətən çarpayısından qalxdı. Əsəbi, çılğın halda vədələşdikləri vaxtan da əvvəl Qaçayla görüşə getdi. Qaçayı görmədiyindən qolundakı saatına baxdı. Görüşün vaxtına təqribən yarım saata qədər qalmışdı. Gözləməkdən savayı çarəsi yox idi. Bəli, Nəsiman hansı addımları atdığını, nə üçün atdığını çox yaxşı anlayırdı. Bilirdi ki, bu yolda atacağı hər addım onu cinayətə aparacaq. Onu narkotika, basqınlar, oğurluqlar, qətllər gözləyir. Nəticəsi həbsdi, ölümdü. Nə qədər ağır olsa da, Nəsiman özü-özünə suallar verdi: "Kimdi bu nadanlıqların baisi? "Qul"lar, yoxsa böyük imkan sahibləri? Ölkənin bu qədər sakinlərini kimlər incik salırlar? Cavabdeh şəxslər papaqlarını qarşılarına qoyub niyə düşünmürlər ki, bu qədər işsiz — potensial güc zaman gələr onların özlərinə qarşı çevrilə bilər?.. Mənim anladığım odur ki, bütün bunların baisi içərisində yaşadığımız eybəcər cəmiyyət, üfunətli mühitdi...".

Nəsiman bu fikirlər içərisində boğulmaqda ikən Qaçay Qılınclı şam ağacının arxasından çıxdı. Onlar salamlaşıb ağır addımlarla parkın aşağısına, adamların az olduğu yerə getdilər. Qaçay:

— Pulu yola saldın? — deyə soruşdu.

— Hə... Saldım. Çox sağ ol, Qaçay. Elə bil üstümdən dağ götürüldü... Sonra da "Qul bazarı"na getdim. Heç nə... İş olmadı. Xeyli vaxtımı itirdim.

— Az da olsa, pulun varmı?

Nəsiman sualı eşitməzliyə vurdu. Qaçay bir-iki addım atıb yenidən sualını təkrar elədi. Nəsiman cavab verməyə məcbur oldu:

— Yox...

— Şam eləmisənmi?

Sualı Nəsiman yenə cavabsız buraxdı. Qaçay sözünü çevir-

mədi. Onlar gəzə-gəzə yaxınlıqdakı kafeyə girdilər. Qaçay xidmətçini çağırdı:

— Xanım, yeməyə nəyiniz var?

— Toyuğun ləvəngisi, soyutması, quzu ətindən döymə, lüləkabab, balıq.

Qaçay Nəsimanın üzünə baxdı. Oğlan qızardı. Sifətini xırda tər damcıları bürüdü. Qaçay Nəsimanın sıxıldığını görcək özü xidmətçiyə sifariş verdi.

— İki lülə, iki tikə. Təzə pomidor, xiyar. Bir şüşə də araq.

Nəsiman arağa etirazını bildirsə də Qaçay əlavə elədi:

— Xanım, sən gətir, içilməsə, qalar, apararsan.

Xidmətçi getdi, çox çəkmədi ki, sifarişləri stola gətirdi. Qaçay qədəhlərə araq süzdükdə Nəsiman yenə etirazını bildirmək istədi. İndi də Qaçay onu eşitməzliyə vurdu və qədəhi götürdü:

— İlk dəfə çörək kəsirik. Ancaq bir-birimizi hələ yaxşı tanımırıq. Unutma ki, cəmiyyətin bütün zümrələrini birləşdirən çox həssas, gözəgörünən və görünməz bağlar var. Onlardan başlıcası iqtisadi bağlardı. Atalar yaxşı deyib: "Ac qılınca çapar". Biz artıq uşaq deyilik. Ailə bizim hər birimizin namusumuzdu. Əgər onu qoruyanmırıqsa, bir tikə çörəyə möhtac olub hansısa anasının əmcəyini kəsənə anamız-bacımız əl açmalı olacaqsa, bizim yaşamağa haqqımız varmı? Əlbəttə, yox. Məni bağışla, Nəsiman, imkanımız olmasa, dəyyuslar, oğraşlar hər an namusumuza təcavüz eləyərlər. Biz o anımı gözləməliyik? Götürək narkotikanı. Ən gəlirli biznesdi. Onun başlıca mənbəyi Əfqanıstandı. Doğrudu, bəzi növləri bizdə də, bir sıra digər ölkələrdə də yetişdirilir. Əfqanıstandan gətirilən, bu "ağ ölüm" adlandırılan maddələr İrana, ordan tranzit ölkə kimi Azərbaycana, burdan da Rusiyaya, Orta Asiyaya və nəhayət, Avropaya, Qərbə ötürülür. Sən buna necə baxırsan? Bunu imkansızlar eləyə bilərmi? Yaxud, silah satışını götürək. Bu işi əsasən böyük dövlətlər həyata keçirir. Mən böyük qırğınlar törədən silahları demirəm. Adi





ov tüfənginin qiyməti neçəyədi? Onları vaqonlara, yaxud təyyarələrə doldurub dünyanın bir qitəsindən o biri qitəsinə aparıb dollara çevirmək səncə, adi adamların işi ola bilərmi? Hələ insan alverini, rüşvətxorluğu, oğurluğu, basqınları, korrupsiyanı... qoyaq bir kənara. Əzizim, dünya heç də biz düşünən kimi deyil. Dünyanın elə bir yeri yoxdu ki, orda "obşaqlar" hökm eləməsinlər, meydan sulamasınlar. Uşaqlar istisna olmaqla, mən təsəvvür eləmirəm ki, elə bir adam tapılsın ki, cinayətdən kənarda qala bilsin. O adamlar qalır ki, onların imkanları yoxdu. Bəyəm, biz ağıllıyıq? Bilirəm, qardaşım, məni qatı cinayətkar da, cani də adlandıra bilərsən. Hərçənd hələ adam öldürməmişəm. Heç vaxt qatil də olmaq istəmirəm. Ancaq olmayacağıma da zəmanət vermirəm. Şərait yaransa, mənə təcavüz olunsa, o da mümkündü. İnanmasan da, bir məsələni də sənə açmaq istəyirəm. Ona görə ki, cinayətkar aləmi az da olsa, təsəvvür eləyəsən. Cinayətkar aləm türmələrə də öz üzvlərini çoxdan yerləşdiriblər. Türmədə oturan "obşaqlar" azadlıqda, azadlıqda hərəkət eləyən qatı cinayətkarlar isə türməyə düşən düşmənlərinin qətllərinə sifarişlər verirlər. İstəyirəm, bunları yadında saxlayasan. Bunun üçün başlıca məsələ dili saxlamağı bacarmaqdı...

— Sən nə danışırsan, Qaçay? Sən danışdıqca, mən dəhşətə gəlirəm. Belə çıxır ki, heç kəsə etibar eləmək olmaz. Onda yaşamağa da dəyməz ki...

Qaçay ciddi görkəm alaraq qədəhi qaldırdı: — Tanışlığımızın şərəfinə, — deyərək Nəsimanın qədəhinə vurub başına çəkdi və axıra qədər içdi. Məcburiyyət qarşısında qalan Nəsiman da qədəhini boşaltdı. Hərəsi lülə kabablardan birini götürüb yeməyə başladı. Bir neçə tikə kəsmişdilər ki, Qaçay qədəhləri yenidən doldurdu. Sonra astadan sözünə davam elədi:

— Adamlara etibar eləmək olmaz — dedin. Bu qənaətə indimi gəldin? Əzizim, hamımız yeri gəldi-gəlmədi sədaqətdən, kişilikdən, əxlaqdan, mənəviyyatdan danışırıq. Özümüzü ağıllı sa-

nıb başqalarına dərs verməyə çalışırıq. Elə başa düşürük ki, hamı bizə inanır, etibar eləyir. Yox... Mənafelər üst-üstə düşəndə güzəştlər başlanır. Anlaşıqlı münasibətlər yaranır. Oluruq bir-birimizə qardaş, dost, əvəzolunmaz adam. Elə ki, mənafelərimiz toqquşdu, oluruq düşmən. Özümüzü bir-birimizi didməyə, parçalamağa kökləyirik. Nə qədər acı olsa da, budur yaşadığımız həyatın fəlsəfəsi. Milyard illərdi həyat davam eləyir. Ancaq elə suallar var ki, insanlar daim onlara cavab axtarırlar, ancaq acı, zəhlətökən həqiqət də olsa, tapanmırlar. Qəribə orasındadı ki, həyat bundan sonra da nə qədər davam eləyəcəksə, bitib-tükənməyən axtarışlar heç bir fayda verməyəcək. Sualların cavabları sirr olaraq qalacaq. Gedən insanları başqaları əvəzləyəcək. Ancaq düşüncələr öz axarını davam etdirəcək. Saxlamayaq, Nəsiman, bu badələri də qaldıraq sənin sağlığına.

— Təşəkkür eləyirəm.

— Sən təmiz oğlansan. Üz-gözündən ləyaqət yağır. Təmizliyin səni yandıra da bilər. Gərək həmişə ayıq olasan. Necə deyərlər, siyasi sayıqlığını itirməyəsən.

Onlar qədəhlərini bir-birinə vurub yenidən boşaltdılar. Qaçay boğazını arıtladı:

— Həyat çox dəyişkəndi. Nə onun nəbzini tam tutmağa, nə də cilovlamağa gücümüz çatar. İnformasiyalar o qədər zəngindir, formasını, məzmununu elə tez-tez dəyişir ki, özümüz də çox zaman çaşıb qalırıq. Bir fikir ver, dünən hökm sürən ab-havadan bu gün əsər-əlamət yoxdur. Ona görə də harasa, nəyəsə, ya kiməsə məqsədsiz-filansız səlib yürüşü eləməyə ehtiyac yoxdur. Nəyin üstünə getdiyini yüz dəfələrlə ölçüb-biçməlisən. Götür-qoy eləməlisən. Ağıl nə üçündü? Axtarmaqdan, tapmaqdan, nizamlamaqdan ötrü. Çox vaxt özümüzə güvənib qızışırıq. Çılğınlıq eləyirik. Özümüzə, gördüyümüz və ya görəcəyimiz işlərə fayda verməyən, hətta, bəzən də zərər yetirən sözlər, ifadələr işlədirik. Başımız onun da bəlasını çəkir. Unuduruq ki, söz hər





şeyi həll eləmir. Hər şeyin əlacı səbirdədi, düşüncədədi. Anlamazlıq, hövsələsizlik, boşboğazlıq, ya qarşındakının ağlını lazımınca dəyərləndirməmək, halını-xislətini nəzərə almamaq üzündən deyilən sözlər, atılan addımlar gözləmədiyin, duymadığın nəticələrlə qarşılaşdırır səni. Elə buna görə də böyük fəlakətlər baş verir... Gəl, bu badələri də içək mənim sağlığıma.

Bu dəfə Nəsiman Qaçayı qabaqladı. Qədəhi ilk dəfə o, götürdü. Qədəhləri döyüşdürüb araqları axıra qədər içdilər. İçki müsahibləri xeyli yaxınlaşdırmışdı. Nəsiman başındakı qorxu, hürkü, ehtiyat hisslərindən xeyli uzaşmışdı. Aralarındakı sədd, demək olar ki, aradan çıxırdı. Bunu duyan Qaçayın gözləri parıldayırdı. Əhvalı xeyli yüksəlmişdi. Nəsiman da hərəkətə gəlirdi. Onda da danışmaq, söhbətə müdaxilə eləmək həvəsi yaranırdı. Ancaq Qaçayla danışıqda özünün hazırlığının kasadlığını da duyurdu. İçkinin təsiri azalanda özünü az da olsa, ələ almağa çalışır, danışmaqdan, fikir söyləməkdən çox susmağa üstünlük verirdi. Əslində, Nəsimanın ağlı hisslərini üstələyirdi. O, özünənəzarəti qoruyub saxlayır, əldən vermirdi. Bunu Qaçay da duyurdu. İnsafən, Nəsimanın içərək özünü itirməsinə o da təşəbbüs göstərmirdi. Anlayırdı ki, Nəsiman özünü itirsə də onu maraqlandıran heç bir əlavə fikir söyləyənməyəcək. Bu cavan oğlana hələ çox dərs keçmək lazım gələcək...

Yeyib-içdikdən sonra Qaçay xidmətçini çağırıb yemək xərcini ödədi. Sonra da Nəsimana başıyla: — Gedək, — işarəsini verdi. Onlar kafedən çıxanda axşamdan xeyli keçmişdi. Parkın işıqlarından bəziləri söndürülmüşdü. Qaçayla Nəsiman yanaşı addımlayırdılar. Onlar yaşadıqları evin tininə çatanda Qaçay Nəsimana dedi:

— Al, bunu da qoy cibinə. Sənə lazım olacaq.

Nəsiman almaq istəməyəndə Qaçay pulu onun pencəyinin yan cibinə qoydu. Sonra da: — Qurtardıq, — dedi. Nəsiman danışmağa, ona təşəkkürünü bildirməyə söz tapammırdı. Qaçay

gözaltı yan-yörəni nəzərdən keçirib pıçıltılı səslə:

— Məndə bir az şey var. Onu versəm əridə bilərsənmi?

— Nə şey?

— Heroin... Kibrit qutularına qoyub əridə bilsən, iki min ABŞ dolları zəhmət haqqı sənin. Mənimkini sonra verərsən. Hələlik əlinə maya sal. Cavan oğlansan, nə vaxta qədər boş-boşuna gəzəcəksən. Ondan-bundan minnət götürəcəksən:

— Qorxuram, Qaçay.

— Qorxan gözə çöp düşər. Onsuz da həmişə qorxu içərisində yaşayırıq. İmkansızlıq söküb dağıdır bizi.

— Birdən ilişdim?

— Onda kimsəni tanımırsan. Narkotikanın bir ucu yuxarıda oliqarxların, o biri ucu türmədə "obşaqlar"ın əlindədi.

— Deməyəcəklər ki, bunu hardan almısan?

— Tindən, zibillikdən tapmışam. Vəssalam. Satqınlıq eləməsən, səni yüngül xərclə qurtararıq. Elə bilmə ki, öz işimi sənə gördürürəm. Əsla yox. Bir o qədər də özümdə var. Mən də onu əridəcəm.

— Yaxşı.

— İndi gətirimmi?

— Gətir.

Qaçay tələm-tələsik binanın girəcəyindən içəri keçdi. Nəsiman yaxınlıqdakı qovaq ağacının altına getdi. Öz-özünə dedi:

— Mən bu yolu əlacsızlıqdan seçdim. Daha yaşamaq imkanım yoxdu. Allah məni bağışlar. Daha qorxmuram. Adam gərək özünü əvəzolunmaz sanmasın. İnsan yeganə məxluqdu ki, yoxuş da, eniş də onun üçündü. Hoppanıb irəli düşmək istəyən adam bəzən tullanıb geri düşür. Gərək ehtiyatlı olam. Hər adama yaxınlaşmaq təhlükəlidi. Mən əyri yolla çörək qazanmaq istəmirəm. Bunun üçün kimsəni satmaq, mərdiməzarlıq eləmək, fəlakətə sürükləmək kişi işi deyil...

Nəsiman bu fikirlər içərisində vurnuxurdu ki, Qaçay qapı





ağzında göründü. Nəsiman boğazını arıtlamaqla ağacın altında onu gözlədiyinə işarə elədi. Özü də Qaçaya tərəf bir neçə addım atdı. Ondakı kiçik bağlamanı alıb tez də ayrıldılar. Nəsiman evə gəlib əlindəki bükülünü çarpayısının altındakı köhnə çantasına qoydu. Sonra da Sənubər qarının otağına keçdi. Qarı çarpayısına uzanıb mürgüləyirdi. O, Nəsimanın gəlişini görcək ayağa qalxdı. Üst-başını düzəldib mətbəxə keçdi. Bir stəkan çay süzüb oğlana gətirdi:

— Hə, necədi, başağrın kəsdimi?

— Hə, kəsdi.

— Bəlkə təzyiqin var, oğlum. Həkimə getsən, pis olmaz. Ağrıların səbəbini bilərsən.

— İş üçün çox fikirləşirəm. Əsəbiləşirəm.

— Bilirəm. Qəribə dünyadı. Kimisinin başından aşır, kimisi də... Nə isə... O dərdi də içimizə salsaq, özümüzə yük eləsək, onda gərək yaşamayaq, oğlum. Xeyli yaşım var. Haram tikəni hardan desən, necə desən, əldə eləmək olar. Bax, bu dəqiqə çıxarsan küçəyə, ya metronun qarşısına. Girərsən birinin cibinə... Qaçırarsan bir xanımın çantasını. O anda ilişməsən, bir az da şirnikəcəksən. Cinayətini təkrarlayacaqsan. Nə vaxtsa, axır ki, ilişəcəksən. Yediyin gözlərindən töküləcək. Göz yaşları töküb özünü məzəmmətləyəcəksən... Nə qədər qanun keşikçilərinə yalvaracaqsan-yalvar. Sonrakı peşmançılıq fayda verməz. Həm fiziki, həm də mənəvi. Cəzanı çəkməli olacaqsan. Halal adam daim İlahinin nəzərində olur. Yatanda rahat yatırsan, kimsədən qorxmursan, çəkinmirsən. Dilin də uzun olur. Gözüqıpıqlıq nədi, bilmirsən. Sən işə gedəndə, mən evdə tək olanda, oturub-durub o gözəgörünməzə yalvarıram. Onun mərhəməti nə qədər sonsuzdu. Deyirəm, məni heç kəsin yanında sındırıb xar eləmə. Mən heç vaxt sənin buyurduqlarının əksinə hərəkət eləməmişəm, eləməyəcəyəm də. Allahına asi düşmək kafirlikdi. Qocalığın nə olduğunu yavaş-yavaş anlayıram. Dizlərim gücdən dü-

şür. Tanış-bilişlərim, hətta, doğmalarımın münasibətləri məni dəyişir. Dünən elədiklərimi bu gün eləməyə qüvvəm çatmır. Heç danışdıqlarımı da dilimə gətirənmirəm. Utanıram, xəcalət çəkirəm. Çox zaman sözüm eşidilmir. Məni keçmişin adamı, geridə qalmış sanma. Bu, qocalığın əlamətidi. Allah onu kəssin. Hərdən ağzıgöyçəklər deyirlər, guya hər yaşın öz gözəlliyi var. Yalandı. O söz insanın özü-özünə təsəllisidi. Başqa cür düşünəni geridə qalmış kimi təqdim eləyirlər. Özlərindən təzə sözlər də çıxarıblar — konservatordur, mühafizəkardır. Hərdən əttökən sözlər də işlədirlər. Baş qoşma, qocalıb, uşaqla onda fərq yoxdu. Qalıram mən boyda arvad yana-yana. Belə hallarda neyləyəsən bilmirsən, oğlum. Bəyəm, ənənələrə sadiqlik keçmişin qaxıncı olmaqdı? Necə deyərlər, konservatorluqdu, mühafizəkarlıqdı? Oğlum, mən deyənlər hələ sənə yerli-yataqlı çatmaya bilər. Hər şey — sadaladıqlarım və sadalaya bilmədiklərim qocalanda adamın içindən gəlib keçir. Heç bir şey eləyənmirsən. Danışa-danışa qalırsan. Hələ bunlar harasıdı. Bəzən ürəyindəkiləri dilinə gətirməyə cəsarət eləmirsən. Ayaqların sözünə baxmır. Çox şeydən qaçırsan. Bunların hamısı səni sıxır, təəccübləndirir, təəssüfləndirir, kədərləndirir. Kövrəldir, qəhərləndirir... Ən nəhayət, sənə göz yaşları tökdürür. Hansını deyəsən?! Əldən düşən çağlarında insanın müvazinətini qoruyub saxlaya bilməsi çox çətindir. Bir sözlə, işıqdan qaranlığa doğru addımlayırsan. Bircə onu anlayırsan ki, içini açdığın, dərd-sərini bölüşdürdüyün adamlar köçüb, təkcə sən qalmısan, özü də tənhasan. Bircə uşaqlarla birlikdə olmaq istəyirsən. Onların gülüşü, qəhqəhələri səni yaşadır. Danışdıqlarının hamısına ürəkdən bağlanırsan. Onda uşaqlar qocaların həmdəminə çevrilirlər. Bilirsən niyə? Çünki uşaqlar təmizdilər, pakdılar. Riyakarlıqları yoxdur. Xəyanətdən uzaqdılar... Qocalıq dövrünün ən cəlbedici, cazibədar anları uşaqlarla birgə gün keçirməkdədi. Əks halda, özün öz istəyinlə ürəklə bağlandığın bu həyatdan sən də vidalaşmağa





hazırlanırsan. Ölümdən qorxmursan, çəkinmirsən, təlaş keçirmirsən, vahimələnmirsən, hər şeyə təbii baxırsan. Bəzən də tüpürürsən...

— Elə danışırsan, Sənubər xala, vallah az qalır ürəyim yerindən çıxsın. Niyə elə danışırsan?

— Məni gördüyüm həyat, təcrübəm danışdırır. Məni qınama. Bəlkə sən də qocalanda mənim kimi düşünəcəksən. Allah eləsin, daim həyatından razı qalasan. Xoşbəxt olasan.

— Çox sağ ol, Sənubər xala. Dediklərin hamısı qanan üçün bir dərsdi. Ancaq incimə məndən, gəlib deyəcəm. Həyat tamam başqadı. Mən bir şeyə yanıb-tökülürəm.

— Nədi, a bala o?

— Mənim valideynlərim də, elə fərqi yoxdu, yaşıdlarımınkılar da həmişə bizə öyüd-nəsihət veriblər. Çərçivəsi də məlumdu. Milyard-milyon illərdi yaşlı nəsillər ardıcıllarına həmin nəsihətləri verə-verə gəlirlər.

— Hə, bala, doğrudu.

— Siz deyən öyüd-nəsihətlər kitablarda yazılıb. Hamı da onu bilir. İncimə məndən, siz də, sizə qədərkilər də məlumlardan, deyilmişlərdən artıq söz deyənmirsiz. Əminəm ki, biz də deyənməyəcəyik və eləcə bizdən sonrakılar da...

Söz Sənubər qarını tutdu. Onun sir-sifəti bozardı. Səsində yüngül bir titrəyiş yarandı. Qarı birlikdə yaşadıqları bu neçə vaxtda Nəsimandan belə etiraz doğuran dik söz eşitməmişdi. O, özünü ələ almağa çalışsa da özü də bilmədən səsi titrədi. Bunu Nəsiman da duydu. Oğlan istədi desin ki, Sənubər xala mən sizin sözünüzə qarşı çıxmaq istəmirdim, birdən xatirinizə dəyər. Elə isə məni bağışlayın. Üzr istəməsə də Nəsiman fikirlərini xeyli yumşaltdı:

— Xala, biz ana-balayıq. Ona görə də məncə, səmimi fikirlərimizi bir-birimizə çatdıra bilərik.

Nəsimanın bu dedikləri Sənubərin ürəyinə yağ kimi yayıldı.

Qarının sir-sifəti ayazıdı. Üzündə gülüş ifadəsi yarandı. Başıyla Nəsimanın sözünü təsdiqləyərək dedi:

— Əlbəttə, oğlum, başqa necə ola bilər ki?

— İnsan heç nəyi unutmur. Heç nəyə göz yummur. Sadəcə olaraq, əlacsız vəziyyətə düşüb susa bilər. Sizə nəzərən mənim həyat təcrübəm azdı. Siz çox şeydən xəbərdarsız. Bərkə düşən kimi illərin yaxşı-yaman hadisələrini xatırlayırsız. Hamısından da özünüz üçün müəyyən nəticələr çıxarırsız. Bax, indi də vəziyyətimiz budur. Nəyə görə başqalarının həyatı bir cür, mənimkimilərinsə həyatı tamam başqa cür qurulur? Məndə belə əqidə yaranıb ki, əzəldən tərbiyəmiz qüsurlu olub. İndiyəcən bizə həqiqi həyat yox, quru, hamının çeynəyib tökdüyü öyüd-nəsihətlər öyrədilib. Niyə əxlaqsızlar, mənəviyyatsızlar yaxşı yaşasınlar, az-çox vicdan sahibləri əzab-iztirab içərisində çürüsünlər. Buyurun, yaxşı-yaxşı baxın. Dələduzla ləyaqətli bir adamı qoyun yanaşı. Cəmiyyətdə tutduqları mövqeyi tutuşdurun. Onda açıq-aydın biləcəksiz nüfuz sahibi kimdi. Pullu dələduz, yoxsa, halal zəhmətiylə dolanan imkansız. İndi bir kənddə-kəsəkdə, şəhərdə, ölkədə yox, bütün dünyada fırıldaqçıların, oğruların, qaniçənlərin rəqabəti başlanıb. Biz sadəcə yaşamaq, ölməmək üçün bir tikə çörək, onlarsa milyardlar uğrunda mübarizə aparırlar. Qəribədi ki, bizim özümüzün özümüzə oxuduğumuz moizə azmış kimi, onlar da həmin moizəni başımıza zorla yeridirlər. Bizi yalanlara zorla inandırırlar. Məncə, indi boş-boş, cəfəng moizələr yox, gör-götür zəmanəsidi. Hərdən öz-özümə müəmmalı suallar verirəm: kimə lazımdı o ölü vicdan? Bir halda ki, ətrafında ağır cinayətlər törədiləndə o bircə dəfə də olsun diksinməyəcəksə, fəaliyyətə başlamayacaqsa, onu dilə gətirməyə lüzum varmı? Böhranlı məqamda — millətlərin, xalqların namusu tapdalananda ona qarşı əməli tədbir görmək əvəzinə, hay-küylü, qulaqbatırıcı bağırtılara nə ehtiyac var? Əxlaq pərdəsi heç nədən cırılıb-dağıdılırsa, mənəviyyat zorlanırsa və buna





qarşı çıxan yoxdusa, oxunan moizələr kimə lazımdı? Yalan həqiqətin ağzına daş basırsa, quldur günahsızı yırtırsa, qəbul olunan qanunlar da buna şərait yaradırsa, gedib kimə nə deyəsən?.. Dağılan iqtisadiyyatın sahibi öz məsuliyyətini dərk eləmirsə, xalqına, millətinə üstdən aşağı baxırsa, "Mən salim olum, cümlə-cəhan batsa da, batsın" prinsipiylə hökm verirsə, başqalarından nə umasan? Bir məmləkətdə haqqını tələb eləyənmirsənsə, orda yaşamağa, "mən insanam" deməyə lüzum varmı? Fahişəylə ictimai xadim cəmiyyətdəki yerlərini, rollarını bir-biriləriylə asanlıqla dəyişirlərsə və onu görüb susmaqdan başqa çarən olmursa, sənin intihardan savayı yolun qalırmı? Belə suallar yüzlərlədi, minlərlədi. Heç şübhə yoxdu ki, müəmmalı sualların cavabları da müəmmalı olacaq... Özün şahidsən mənim halıma, yaşam tərzimə, Sənubər xala, mən neyləyim? Özün mənə bir ana kimi məsləhət ver. Qoşulum namərdlərə, nadanlara, quldurlara, cinayətkarlara, ya qoşulmayım? Əlbəttə, sualıma verəcəyin cavabı bilirəm. Ən yüngülü mənə deyəcəksən, oğlum, çəkil o yoldan. Mən o çirkin yolla addımlamağı sənə rəva bilmirəm. Sən özünü qoru...

Nəsiman danışdıqca qızışır, qızışdıqca da əsəbiləşirdi. Qapı arxasından onun dediklərini eşidən olsaydı, elə qənaətə gələrdi ki, bütün bu anarxist hərəkətlərin baisi Sənubər qarıdı. Nəsimansa onu böyük günahkar sanaraq mühakiməyə qalxıb... Sənubər qarı isə donub qalmışdı. Nəsimana nə deyəcəyini bilmirdi. Ona bıçaq vursaydın, bir damcı da qanı yerə düşməzdi. Qarı da, Nəsiman da susdular. Araya dərin bir sükut çökdü. Handan-hana oğlan özünə gəldi:

— Hə... Necədi? Mən neyləyim? Belə cəmiyyətdə təmiz qalmaq olarmı?

— Saqqalın ağarsın. Sən danışdıqca içim titrəyir. Məni soyuq tər basır. Elə bilirdim sən dilsiz-ağızsız, çox şeydən xəbərsiz kənd uşağısan.

Hər ikisi gülüşdülər. Sonra Nəsiman dedi:

— Dərdimiz böyükdü, Sənubər xala. Belə hara gedirik? Kimsə yaxşı deyib, yaşayanlar ölənlərə qibtə eləyirlər. Çox sərrast deyilmiş sözlərdi.

— Nəsiman, bu axşam hardan gəldiyini bilmirəm. Oğlum, həm kefin yuxarıdı, həm də yamanca dilin açılıb. Bu, nəylə bağlıdı? Yoxsa, qız-mızla tanış olmusan. Elə işin varsa, utanma, de. Gedib valideynləriylə özüm danışaram.

— Yox, nə danışırsız, Sənubər xala.

— Cavan oğlansan, burda nə pis iş var ki? Gec-tez o da olmalıdı.

— Özünü saxlayanmayan adamın elə qələt eləməyə haqqı yoxdu.

— Qələt niyə?

— Gələr, üst-başına əl gəzdirər. Səni səliqəyə salar. Başın qarışar. Doğrusu, sənin barəndə düşünəndə mən də birtəhər oluram. Səhər bəzən bir loxma kəsirsən, ya kəsmirsən, işə qaçırsan, axşam da evdə olursan. Heç haranı görmürsən. Mənimlə səndə nə fərqi var?

— Deyirsən, yoxdu?

— Var, çox az. Bir cinsimizdə, bir də yaşımızda. Hərlənib-fırlanıb bir dəfə anan gəlsəydi bura, onu qabağımda otuzdurub yaxşıca başa salardım. Öz aramızdı, kənddə səni lap qız kimi böyüdüb. Tərbiyənə söz olanmaz, qalan işlərində gərək...

— Sənubər xala, boy-buxunuma baxma, qızı tapsaydım da, eynən belə olacaqdım. Ancaq bir iş də var.

— Nədi o?

— Qız olanda qayğı da çoxalır. Ürəyin hər an onun yanında qalır.

— Yaşamaq odu da. Deməli, kimin üçünsə darıxırsan. Kimsə də sənin üçün darıxır.

Nəsiman dərindən köksünü ötürdü.





— Eh, Sənubər xala, ən başlıcası pul lazımdı. O, məni saxlamalı döör ki. Gərək aldığın qızı xoşbəxt eləməyə imkanın ola. Almırsan ki, onu da dərd-bəlaya salasan.

— Doğrudu, oğlum, səni danışdırmaqda məqsədim əhvalını bir balaca yüngülləşdirmək idi. Təəssüf ki, hər dəfə danışanda gəlib çıxırıq imkansızlığın üstünə.

— Mən ağlamağı xoşlayan adam döörəm. Ancaq bilirsən ki, həyat pulun, varidatın üstündə qurulub. Üsyanlar, ölkələrarası savaşlar, dünyanı çalxalayan müharibələr, qırğınlar hamısı talan üçündü. İnsanın gözü doymur, heç vaxt da doymayacaq. Sadəcə götürək yalanları. Onları niyə deyirlər? İrəli düşmək üçün. Bəlkə, bunu da düz demirəm?

— Mən sənin hansı sözünə inanmıram ki?

— Tarixdə Süleyman adlı peyğəmbər olub, olmayıb, deyənmərəm. Ataların bir yaxşı sözü var: "Gün doğandan gün batana hökm eləyən Süleymana qalmayan dünya heç kimə qalmayacaq". Hə, nə deyirsən, ay ana, əcəb qızışdırdın məni. İndi də ağzımı yumanmırsan. Mənim də əlimdən bax, beləcə boş-boş danışıqlar gəlir.

— Oğlum, hər şeyin zamanı var. Səbirlilər uduzmurlar. Nəyin çatmır?

— Ha... Ha... ha... Nəyim var ki? Sabah birinin bankasına toxunub qatığını dağıtsam, xərcini ödəməyə gücüm çatmayacaq. O da yapışacaq boğazımdan. Arxası da gedib çıxacaq polisə. Ya da vurub dişlərimi tökəcəklər qarnıma. Onunçunmu şəhərə gəlmişəm?... Sən olmasaydın, kimiydi məni kirayənişin saxlayan. Allah var başımın üstündə. Nə vaxt məndən kirayə pulu istəmisən? Heç vaxt. Əksinə, bəzən də mən sənin hesabına yeyib-içirəm. Sabah mən burdan çıxası olsam, tinlərdə-bucaqlarda qalacam. Yaxud da qaçıb getməliyəm anamın üstə. Anam məni nə qədər saxlamalıdı? Doğrusu, türməylə indiki həyatım arasında elə bir kəskin fərq görmürəm. İnsanları cinayətə təhrik edənlər

də insanlardı.

Nəsiman iki qolunu dirsəkdən bükərək muskullarını şişirtdi. Sonra sözünə davam elədi:

— Əzələlərimi görürsən. Mən qulam. Bu yaşadığımız cəmiyyətdə qula sahib duran yoxdu. Hər şeyin həddi var. Hədd aşılanda fəlakətlər törənir. Heç kim heç kimin kitabını oxumaq istəmir. Hərc-mərclik baş alıb gedir. Qaçan da, qovan da Allahı çağırır. Onun kəramətinə qurban olum. Səbri çox böyükdü. O, haqq-ədalət deyilən şeyin mizan-tərəzisini mən görməyəcəmsə, eləcə də onun istisinə sığınmayacamsa, nəyi və kimi gözləyirəm? Heç kim mərcməyidə mənə nə ədalət gətirəcək, nə də güzəran. Mənim taleyim burda qapanacaq, anamla xəstə bacımınkı isə Çinarlıdakı uçuq-sökük komada. Mənim kimilər çoxdu, Sənubər xala, lap çox. Saymaqla qurtaran deyil. İşə bax, hamı öz xoşbəxtliyini, firavanlığını başqasında axtarır. Hamı bir-birindən nəsə umur. Bunun özü dilənçilik deyilmi? Mənim də qəlbimdə hamınınkı kimi çoxdan yuva salmış daxili şam vardı. Şəhərə gəlincə, burdakı çaxnaşmalara, anarxist vəziyyətə şahid olunca, cinayətkarları və cinayətləri gözlərimlə görüncə, o inamı büllur qab kimi əzizləyə-əzizləyə qoruyub saxlayırdım. İnsanlarla təmiz və qarşılıqlı münasibətlərə qoşulmaq istəyirdim. Ancaq onlar üzümə təmtəraqlı ifadələr dedilər. Arxamca rişxənd, istehzadolu sözlər söylədilər. Həyatımı təhlükəyə atıb hansı çətin işləri versəydilər, görəcəkdim. Bu şəhərdə hər şey mənə aydın oldu. O büllur hansısa gözəgörünməz hissin təsiriyləsə əlimdən düşüb çiliklədi. İndi məndə heç bir şeyə inam qalmayıb. Mən özüm də bilmədən düşüncəli, hər şeyi götür-qoy eləyən, ölçübbiçən duyğulu insan kapitalından cansız bir əşyaya çevrildim. İndi mən adi bir əşyayam. Mən xam materialam. Məndən hər şey düzəltmək olar. Lap robot da... Düşüncələrimdə doğan ziddiyyətlər olduğu kimi fəaliyyətimə çökməkdədi. Bu da heç şübhəsiz, ictimai mühitin mahiyyətindən doğur. Bunları sənə deməklə Sənubər xala, beynimdə doğan ziddiyyətlərə psixoloji cəhətdən bəraət qazandırmaq fikrindən çox-çox uzağam.





— Nəsiman, sən bayaqdan danışırsan. Mən də bir çox fikirlərinə şərik çıxdım. Danışdıqlarından görürəm, bala, yolundan azmaq həddindəsən. Adam üç-beş, lap yüzlərlə dələduza, anasının əmcəklərini kəsənlərə görə insanlardan bu qədər narazı olmaz. O qədər qızışdın ki, hələ Allahın səbrinə də girişdin. Belə olmaz. Açığı, mən səndən qorxmağa başlayıram. Anadan cinayətkar doğulmurlar. Cinayətə gedən yolu asta-asta keçirlər. Bir dəfə də biz gərək ki, bu mövzuda danışmışıq. Hər birimizin arxasında unutmayaq ki, vətən, millət, xalq dayanır.

Nəsiman dərin fikrə getdi. Gözləri qıyıldı. handan-hana: — Sənubər xala, — deyə təmkinlə sözə başladı:

— Sən çox dərinə getdin. Mən vətənimi, millətimi, xalqımı ürəkdən sevirəm. Onlar uğrunda canımı da fəda eləyərəm. Bu, mənim müqəddəs borcumdu. Onun məsuliyyətini hər bir adam dərk etməlidi. Mənim sözüm — “Vətən, vətən” — deyə qışqıranlara, — “Millət, xalq” — deyə bağıranlaradı. Bəyəm, Vətən bir qrup şəxslər üçündü? Məgər, bütün dövrlərdə Vətənini, xalqını satıb ölkədən qaçıb gizlənən azmı adamlar olub? İstərdim, məni düz başa düşəsən. Mən düşmənəm dələduzlara, ölkənin, vətənin əmlakını, varidatını dağıdan antipodlara. Necə ola bilər ki, Vətən, xalq dar gündə olanda hamı əlsiz-ayaqsızların, kasıbların üzünə baxsın, imkanlılar gizlənmək üçün dalda axtarsınlar, ölkədən çıxıb qaçsınlar?

— Oğlum, mən qorxuram ki, bu düşüncələr gələcəkdə səndə lazımsız hisslər oyatsın. Kimlərəsə nifrətə çevrilsin. Məsləhətim odur ki, yalnız yaxşı şeylər barəsində düşünəsən. Onda ürəyin sakit, başın salamat olar.

— Neçə aydı birlikdə yaşayırıq. Heç belə məzmunda söhbətlərimiz olmuşdumu?

— Yox...

— Məni sən danışdırdın.

— Günahkar mən oldum?

Gülüşdülər.

— Yox, Sənubər xala, mən nə karəyəm ki, sənin barəndə elə düşünəm. Heç Allah da onu mənə bağışlamaz. Açığını deyim, söhbətin əvvəlində elə filosofanə danışdız ki, mən də cavab verməli oldum. Bir də ki, narazılıq və razılıqlar insanın əhvalı-ruhiyyəsiylə bağlıdı. İş düz gətirməyəndə, insanın içində ziddiyyətlər yaranır. Hər şeyi başqa şəkildə görür: tünd, boz, qara. Belə hallarda tərəddüdlər keçirməli olur. Elə ki işi gətirdi, içində özündən razılıq, daha doğrusu, bəxti gətirmək hissi doğuldu, onda hər şey gözlərində tamam başqa bir qiyafədə görünür. Başlayır xoşu gəlməyənlərə də təriflər yağdırmağa. Odur ki, mənim danışdıqlarımdan həyəcanlanma, qorxma.

— Oğlum, mən qocalmışam. Ömrümün son akkordlarını vururam. Əqidəmdən dönmərəm. Ona xəyanət eləyənmərəm. Möhkəm intizam, səliqə-səhman tərəfdarıyam. Ədalət pozulan, həqiqətin üstünə boz-bulanıq pərdə çəkilən yerdə mən yoxam. Qırx il müəllim işləmişəm. Vətənin, xalqın tarixini gənc nəslə öyrətmişəm. Baxışlarım, tarixdən gətirdiyim faktlar hamını razı salırdı. Dostlarım, tanışlarım, şagirdlərim məni ixtisasıma sədaqətli, işimə məsuliyyətli adam kimi tanıyırdılar. Əmin ola bilərsən ki, mən yaşda adamı nə tutduğu yoldan sapındırmaq, nə də inamından döndərmək olar. İş tapmaq indiki halda dünyanın ən böyük problemidi. Televiziya kanallarını dinləsən, mətbuatı vərəqləsən, biləcəksən. Hamının çətinlik çəkdiyi şeyi gərək özün üçün problem eləməyəsən.

Sənubər gülümsündü. Sonra Nəsimanın gözlərinin içinə baxaraq əlavə elədi:

— İndi də bir az başqa şeydən danışaq. İş və işçi. Bunlar unutma ki, iki obyektdilər. Doğrudur, işçi sözü iş əsasında yaranmışdır. İşçi sözünün kökü də, əsası da işdir. Lakin iş nə qədər böyük əhəmiyyət kəsb eləsə də, nə qədər fayda gətirsə də, böyük kapitalların toplanmasında fövqəladə mənbəyə çevrilsə də işçini ona qurban vermək olmaz. İnsan kapitalı digər kapital yetirən bütün mənbələrdən və cəhdlərdən yüksəkdə dayanır. O da var ki, işçi kapitalı iş kapitalından asılıdır. İş əsasdır, müəyyənedicidir. İşçi ondan asılıdır. Ancaq bu asılılıq çox zaman hər şeyi həll eləmir. İşçinin aparıcı mövqeyi daha qabarıq, daha əhəmiyyətli şəkildə üzə çıxır. İşin öhdəsindən işçi gəlir. Ona görə də onların hər ikisinə eyni mənbədən başlanğıcını götürən vahid çayın ayrı-ayrı qolları kimi baxılmalıdır. İş passiv, işçi fəal olsa da, bütün hallarda onlar qoşadır. Bizim başbilənlərin faciəsi ondadı ki, hər şeyin əsasında öz mənafelərini qoyurlar. Bu mənafelər soruşa bilərsən ki, nədi? Birincisi, rüşvət, ikincisi korrupsiya, üçüncüsü, işçiyə qiymət verməmək. Dördüncüsü, yerliçilik, dostbazlıq, beşincisi, başqalarını yaxına buraxmamaq... Təsəvvür eləyirsən, öz ölkəmizin vətəndaşı qalır, xarici ölkələrdən işçi qüvvəsi gətirirlər. Bu və buna bənzər məsələlər sizin kimilərə dolanışıq imkanı vermir. Siz də yaxşısına-pisinə baxmadan, başqa sözlə, "babam mənə kor dedi, gələn-gedəni vur dedi" — prinsipiylə vətəndən də, millətdən də, xalqdan da incik düşürsüz. Belə vəziyyətdə, oğlum, narazılıq obyektini düz seçmək lazımdı. Mən səni başa düşürəm. Özü də tam mənasıyla. İstədim səni başa salam ki, bu anarxiya vəziyyətində nə Vətən, nə də xalq günahkardı. İndiyəcən səninlə bu qədər açıq danışmamışam. Danışmaq da fikrim yox idi. İndi söhbətin səmti məni məcbur elədi deyim ki, gəncliyin halına mən də acıyıram. Bu, belə çox çəkə bilməz. Ehtiyatlı ol, qızışma. Qızışsan, çox şey itirəcəksən.

— Məlumatlı adamsız, Sənubər xala. Siz gah dilçi, gah iqtisadçı, gah da siyasətçi kimi danışırsız. Doğrusu, sizin elminizə heyran qaldım.

— Məncə, danışdıqlarımız bu axşama bəs elər. Yuxumun

vaxtı keçəndə yatammıram. Eşələnirəm yatağımda. Eşələndikcə də əsəbiləşirəm. Sonra da təzyiqim qalxır. Sən də səhər işə getməlisən. Tezdən qalxacaqsan. İşə ac getmə. Dünən də yemədən-içmədən getmisən. Elə olmaz. Dur, get, yat.

Nəsiman: — Yuxun şirin olsun, — deyib öz otağına keçdi. Soyunub çarpayısına uzandı. Qaçay Qılınclıyla aralarındakı söhbət, xərclik üçün verdiyi pul, narkotik maddə və həmin maddənin satışı barədə düşündü. Düşünə-düşünə nə vaxt yuxuya getdiyini bilmədi.

* *
*

Axşamdan alkoqollu içki qəbul elədiyindən və gecə də Sənubər qarıyla söhbətə başı qarışıb gec yatdığından Nəsiman səhər yuxusundan halsız qalxdı. O, dərhal divardan asılan saata baxdı. Saat doqquzu ötmüşdü, 10-a işləyirdi. O, tələm-tələsik geyindi. Əl-üzünü yuyub qurulanırdı ki, Sənubər qarı onunla dəhlizdə qarşılaşdı:

— Sabahın xeyir, Nəsiman.

— Aqibətin xeyir, xala.

— Bala, iş adamı bu qədər yatmaz. Bu axşam yuxu-zad görməmisən ki?

— Yox... Mən lap az-az yuxu görürəm. Görəndə də oyanıram. O saatca da yadımdan çıxır. Necə bəyəm?

— Adətən şirin yuxu görənlər, xüsusilə də yuxuda var-dövlətə sahib olanlar yataqdan gec qalxırlar. Fikirləşdim, bəlkə sən də...

Nəsiman qarının fikrini anladı və özünü saxlayanmayıb ucadan güldü. Sənubər də ona qoşuldu. Nəsiman dedi:

— Allahın bədbəxtləri var. Dövlətə, pula, qızıla yuxuda sahib olurlar, aşkarda yox... Allah adamları bilirsən, niyə kasıb yaradıb?

— Hə... Oğlum, bilir ki, kasıblardan pul saxlayan olmaz. Oğrular, quldurlar tutub alacaqlar əllərindən. Biri mən özüm. Lap tutaq ki, çoxlu pulum var, onu harda saxlayacam?..

— Verərsən, mən saxlayaram.

— Deyirsən... Ancaq, sən də saxlayanmayacaqsan. O saat qaytarıb atacaqsan üstümə. Özün də deyəcəksən, bu zəhrimarı rədd elə burdan. Eşidib-bilən olar. Evə hücum çəkib özümüzü də...

— Oğlum, madam ki, işini bilirsən, bəzi qadınlar ərinin qeybətini edən kimi, bəs niyə deyinirsən?

— Mən pul istəmirəm, Sənubər xala, iş istəyirəm.

— Bu vaxt yataqdan qalxana işi məcməyidə gətirib sürpriz eləmirlər. Gərək axtarasan, quyruğunu suya vurasan.

Nəsiman susdu. Deməyə söz tapammadı. Sənubər sözünə davam elədi:

— Mənim müəllim həmkarım var. Onun oğlu hardasa böyük vəzifədədi. Telefon açım, mən onunla danışım. Evdədisə, gedib onunla görüşüm. Bəlkə, o, sənə iş tapa bildi.

— Axı...

— Xeyirxah adamdılar. Narahat olma.

— Sənə zəhmət olar.

— Dediklərim baş tutsa, əksinə, əziyyətimdən ləzzət alaram.

Sənubər dəstəyi götürüb nömrələri yığdı. Xəttin o biri başından qadın səsi eşidildi:

— Alo... Alo... Kim lazımdı?

— Salam qızım.

— Salam.

— Sənubər xalandı. Maya xanımı telefona olarmı?

— Hə... Bu saat...

Mayanın mikrofonda səsi eşidildi:

— Eşidirəm, kimdi danışan?

— Sənubərdi.

— Ooo... Səsini eşidək, necəsən? Ağız, neçə vaxtdı səsin çıxmır. Günəş hardan doğub?

— Qocalıq belədi də. Bir gün eşidəcəksən yoxam...

— Allah eləməsin.

— Bu gün evdə olacaqsanmı?

— Yeriyə bilirəm ki, dükan-bazar gəzəm? Ya harasa çıxam? Qıçlarım bəzən sözümə baxmır, ay Sənubər.

— Yaxşı telefonda vaxtını almayım. İstəyirəm yanına gəlim. Həm bir az mırt vuraq, həm də səndən məsləhət alam.

— Köhnə xasiyyətin başındadı. Gəl, gözləyirəm.

— Hələlik.

Sənubər dəstəyi yerinə qoyub Nəsimana dedi:

— Məni metroya qədər apar. Sonra qayıdarsan. İndi öz otağına keç, mən paltarımı dəyişim.

Nəsiman dərhal öz otağına keçdi, qarı paltarlarını dəyişdi. Çox çəkmədi ki, onlar evdən çıxdılar. Sənubəri metrodan yola salan Nəsiman özünü mağazaya verdi. İyirmi qutu kibrit alıb yarımçıq tikinti obyektinə tərəf getdi. O tərəf-bu tərəfə baxdı. Kimsəni görmədiyindən kibrit dənələrini nə vaxtsa qazılmış çalaya üst-üstə tökdü. Sonra da çöplərdən birini yandırıb ocaq kimi qalaqlanan dənələrə yaxınlaşdırdı. Kibrit dənələrini bir gözqırpımındaca alov bürüdü. Kükürd iyi ətrafı götürdü. Oğlan kibrit qutularını cibinə yığıb evə qayıtdı. Qəzeti kiçik parçalara böldü. Çay qaşığı ilə heroini eyni ölçüdə qəzet parçalarının üstünə tökük bükdü və onların hərəsini bir kibrit qutusuna qoydu. Sonra da onları qaytarıb çantasındakı paltarlarının altında gizlətdi. Pəncərənin qənşərinə gəldi. Kibrit qutularını kimə, necə, hansı qiymətə satacağı barədə düşündü: “Bu zəhrmarları tanımadığım adamlara təklif eləyəndə, onlar məni satmazlar ki? Aha, işin çətinliyi burdadı. İlişsəm, aləm qarışacaq. Qollarıma qandal taxıb





içəri atacaqlar. Qaçay Qılınclı onda məni tanıyacaqmı? İnanmıram...” Nəsiman düşündükcə, canını qorxu, təlaş bürüyürdü. O, özünü için-için yeyirdi. Birdən ağlına belə bir fikir gəldi: Qorxuyla cinayət törətmək bir araya sığmaz. Qorxursansa, cinayətdən uzaq ol. O gec-tez səni fəlakətlə üzləşdirəcək... İlahi, biz insanlar həm cismani, həm də mənəvi baxımdan nə qədər çirkinik? Bəzən pişik qədər özümüzə qiymət verənmirik. Haranı gəldi bulaşdırırıq. Ən güclü anarxist sayılan pişik azadlığı və təmizliyi ilə şüurlu insanı geridə qoyur.

Nəsiman fikirləşdikcə, hövsələsi daralırdı. Daraldıqca fikirləri bulaşırdı. Qaçay Qılınclının pullarının təsiri onu cinayətə ikiqat sürükləyirdi...

Nəsiman Sənubərin şad xəbərlə gələcəyinə ümid bəsləmirdi. Qarı rəfiqəsigildən gün əyiləndə qayıtdı. O, yaşlı olsa da beyni iti və dəqiq işlədiyindən yaddaşı ona xəyanət eləmirdi. Çalışıb hər şeyi yerli-yataqlı təfərrüatıyla xatırlayırdı. Nəsiman qarının gözlərinin içinə baxdı. Sənubər ümidverici tərzdə dedi:

— Nəsiman, gəl otur.

Oğlan stul çəkib qarıyla üzbəüz əyləşdi. Sənubər sözünə dolayısıyla başladı:

— Danışdım... Hər şeyi. İnsafən, məni pis qarşılamadı. Kişinin qızının təmtəraqlı şəraiti var. Allah özlərinə qismət eləsin. Çox sevindim. Bilirsən niyə? Çünki o da zəhmətkeş olub. Heç kimə pisliyi keçməyib. Kimsənin qeybətini qırmayıb. Hamı da onun başına and içib... Gəlini dəbdəbəli süfrə açdı. Ürəyimcə söhbətlər elədik. Yaxşı dincəldim. Sənin işin olmasaydı, ora getməyəcəkdim. Getdiyimə qəti peşiman döörəm.

Nəsiman cıqqırığını çıxarmadan diqqətlə qarının dediklərinə qulaq asırdı. Gözlədiyini eşitmədiyindən nəfəsi daraldı. Axır ki, özünü saxlayanmayıb onun sözünü kəsdi:

— Ay sənə qurban olum, əsas mətləbə keç. Ürəyimi çatlatma, yazığam.

— Elə ona gəlirəm də.

— Tez elə.

— Vəziyyəti necə var, elə də danışdım. Onsuz da gec-tez bilməliydi.

— O, nə dedi?

— Nə deyəcəkdi ki?

— Sənubər xala, görürəm kefin yaxşıdı.

— Hə... Bəs nə deyirəm? Hər şey ürəyimcə oldu. Dərdimi açan kimi kişinin qızı sevindiyindən palaz kimi açıldı.

— A ha... Maya xanımın sözündən bir şey çıxacaqmı?

— Qulaq as. Sözümü kəsmə, yamanca hövsələsizəm. Sonra da baxdı gəlininin üzünə. Balam olsun, əsilli-nəcabətli adamın qızıymış. Anasının südü ona halal olsun.

— Xala, bu boyda zarafat olar?

— Yox... Nə zarafat? Olanını deyirəm. Gəlin o andaca ərinə telefon açdı: — Dur, evə gəl, — dedi. O da kişilik elədi. Qabağımdakı çayımı içib qurtarmışdım ki, qapı taybatay açıldı. Boylu-buxunlu cavan oğlan içəri girdi. Məni görən kimi tanıdı. Əl verdim, öpdü əlimdən. Ləyaqət gərək insanda anadangəlmə ola. Kim nə deyir, desin. O sonradan qazanılası keyfiyyət döör. O keyfiyyət çox adamda yoxdu. Elə şeylər var ki, gör-götür dünyasıdı. Çalış, sən də elə ol. Nəsimanın hövsələsi lap daraldı. Dözənməyib dilləndi.

— Hə, mənim dərdimi ona sən açıb söylədin, yoxsa, anası.

— Sözümü kəsmə də. Axşam o qədər danışdın, bircə dəfə sözünü kəsdim?

— Bağışla, Sənubər xala.

— Hər ikimiz danışdıq. Maya mənə, mən də ona dəstək olduq. Yaşın, təhsilin, hazırkı ailə şəraitin. Nəyin, nəyin, hamısının barəsində mən məlumat verdim. İşə götürülməyinin vacibliyini Maya təkid elədi. Nə desə yaxşıdı?

— Mən hardan bilim? Söhbət sizin aranızda olub.





— Hə, bax onu yaxşı dedin.

Bir sözlə, mənə bu telefon nömrəsini verdi. Gərək bu nömrəyə sabah telefon açıb verdiyi vədədə yanına gedəsən.

— Adı nədi?

— Adı Kamal, pis oğlan döör, xoşuna gələcək.

— Dedi, düzələcək?

— Mən nə bilim, oğlum, o sabah aydın olar.

— Maya xalanın oğlu harda işləyir?

— Gəmiçilik idarəsində.

— Hə? Mən dənizə baxanda qorxuram, Sənubər xala. Onda qalmışdı ki, gəmiylə dənizdə üzəm. Qurban olum sənə, o yana elə. Gəmi məsələsi mənim işim döör. Sabah sənin xatirinə, əziyyət çəkmisən, get deyirsən, zəng çalıb gedəcəm onun yanına. Bəri başdan deyirəm, mənə elə iş lazımdı ki, ayaqlarım yerdə olsun. Kənd uşağıyam. Bizim tərəfdə nəinki dəniz-məniz, heç çay-may da olmayıb. Qəsəbənin bir arxı vardı, o da həyətbacanı suvarmağa bəs eləyirdi.

— İçməli suyu hardan götürürdüz?

— Kəhrizdən.

— Səni başa düşdüm. Deyirsən, ayaqların suda olmasın, məni başa sal görüm, göydə də olmaz?

— Yox!.. Yox!..

— Onda çox güman ki, gedib fışdırığını çalacaqsan, oğlum.

— Necə yəni?

— Səndən işləyib çörək qazanan olmaz.

Qəflətən Nəsimanı dəli bir gülmək tutdu.

Heç vaxt səddi keçməyən bu cavan oğlan qarnını qucaqladı. Özünə gələndə gözləri yaşarmışdı. O, Sənubərə handan-hana dedi:

— Mən daha neyləyə bilərəm?

— Hər şey aydındı. İş barədə söhbəti uzatmağa ehtiyac yoxdu. Çox danışdıqca adamın səhvi də çox olur. Səhv adamı mən-

girləyir. Əl-qolunu bağlayır. Dilini qısaldır. Xəcalət təri səni bürüyür. Peşiman olursan. Qarşındakından asılı vəziyyətdə qalırsan. Heç nədən zibilə düşürsən. Çıxış yolu axtarırsan. Məcbur olub üzr istəməli olursan. Səni bağışlayacaqlar, bağışlamayacaqlar, o sonrakı işdi. Təsəvvür eləyirsən?.. İndi biz burda üzbəüz əyləşmişik. Adama bir stəkan da çay qabağımızda. Götür-qoy eləyirik. Danışdığımız söhbətin nəylə qurtaracağını da bilmirik. Başqa imdad diləyəcəyimiz şəxs də ağlımıza gəlmir. Hələ ki, səsimizə səs verən yoxdu. Bəzi ağzıgöyçəklər demişkən, sərbəstik, azadıq. Elə ki, işimiz düz gətirmədi, onda lap ciddi qəbahətə yol veririk, Hər şey çezir. Narahat olmağa başlayırsan. Əvvəl inciklik, küskünlük yaradan söz-söhbət, dalısınca umu-küsü, dava-dalaş, sonra da qan-qada, ölüb-öldürmək.

— Mən səninlə razı... Ancaq.

— Nə ancaq?

— Sən mənim anamsan... İstənilən vaxt boynumu da vura bilərsən?

— Allah eləməsin... Məni işə salma. Gülgəz yaxşı ki, burda yoxdu, olsaydı, hırıldaya-hırıldaya dediklərindən yüz qəmbərqulu çıxaracaqdı. Onda da gəl ona cavab ver, canını qurtar... Nə isə... Mətləbdən uzaqlaşmayaq... Yoxsa, aləm qarışacaq, məssəb itəcək... Mayagildən gələndən şeytan girib qəlbimə. Nə olsa danışıram. Adam danışmasa, ürəyini boşaltmasa, yaşayanmaz. İnsan ki, var, nə qədər ki, yatmayıb, başı işləyir. Demirəm, yaxşı, ya pis, fərqi yoxdu, sakit dayanmaq, atmacalarsız olmur. Ətrafındakılara biganəlik çox çətindir. Kimsə yaxşı deyib: "Susmaq nə qədər qızıl olsa da, yandırıcıdı". Çalış, özündən böyükləri eşit...

Nəsiman sabah günortaya yaxın evdən Kamala telefon açıb görüş üçün vaxt istədi. Kamal kefsiz halda bildirdi:

— Qadan alım, bu səhər mənim özümü də işdən çıxartdılar. Yır-yığış eləyirəm. Məni bağışla. Sənubər xalaya da salamımı





çatdır.

— Allah bağışlasın... Baş üstə, çatdıraram.

— Baxaq, görək başımıza nə iş gəlir.

— Allah mərdimazarın tifağını dağıtsın...

Telefonda səs kəsildi. Nəsiman dəstəyi yerinə necə qoyduğunu bilmədi. Telefon açdığına da peşman oldu. Bir andaca ona elə gəldi ki, Kamalın işdən çıxmasının səbəbkarı o özüdü. Oğlanın içində bir uçurum yarandı və düşündü: "İndiki böhranlı zamanda işini itirmək çox ağırdı. Necə adam olduğunu bilmirəm, nə iş tutmasından, qəbahətlərindən xəbərsizəm. Bəlkə də mənim bəxtimdəndi... İndi Kamalın ailəsi də incikdi. Sənubər xalaya vəziyyəti deyim. Heç olmasa, rəfiqəsinə telefon açıb təsəlli versin... Hara gedirsən, insanların pisliyi... Vəhşiliyi... Kimə nə deyəsən?.."

Mətbəxdə çay dəmləyən Sənubər qarı Nəsimandan soruşdu:

— Hə, nə oldu, danışdız?

Oğlan ifadəsiz, soyuq baxışlarla qarını süzdü. Qarı onun baxışlarından heç nə başa düşməyib təəccübləndi:

— Nə oldu?

— Çox pis.

— Ola bilməz. Axı...

— Bu gün səhər onun özünü işdən çıxarıblar.

— Bəlkə başqa yerə düşmüsən, heç o döör?

— Yox, oradı. Özüylə danışdım. Yaxşı olar ki, sən ailəsinə telefon açasan... Təəssüfləndiyini bildirəsən.

Nəsimanın dedikləri Sənubərdə vahimə yaradırdı. Qarının ürəyinə qorxunc, dəhşətli fikirlər gəldi. Özünü saxlayanmayıb stulda əyləşdi. Batıq yanaqlarındakı təbəssümdən, çöhrəsindəki nurdan əsər-əlamət qalmadı. Qarı handan-hana dilləndi:

— Kamal ağıllı, görüb-götürmüş adamdı. Axı o nə iş görə bilər? Hansı qəbahətin sahibidi? Adamı elə-belə işdən çıxarmazlar.

— İndi nə desən olar. Quzğunlar ətə həris olurlar. Görəsən...

— Nə görəsən... Yazıq Maya... İndi-indi üzü gülürdü. Yazığın rahatlığı pozuldu...

Sənubər dəstəyi götürüb nömrələri yığdı. Mikrofondan kiçik-kiçik qudoklar eşidildi. Dəstəyi yerinə qoyub təzədən nömrələri yığdı. Telefondan Mayanın səsi eşidildi. Sənubər salam verib dolayısıyla sözə başladı.

— Salamatçılıqdımı?

— Hə... Yəqin söz eşitmisən?

— Hə... Doğrudu?

— Hə... Çıxarıblar.

— Bu, nəylə bağlıdı? Axı Kamal...

— Böyüklərini ilişdiriblər. Bunu da onunla əlaqələndirirlər.

— Oturduğun yerdə işə düşəsən budu da... Kamal nə deyir? Hələ gəlib çıxmayıb?

— Gəlsin görək, biz də yerli-yataqlı bilmirik. Özü də işdəki söz-söhbəti evə köçürən döör...

— Mən də gəlirəm.

— Əziyyət olar...

— Nə əziyyət?

Üzünü Nəsimana tutaraq astadan bildirdi:

— Gedək, onlara. İndi o ailəyə təskinlik lazımdı. Yazıq uşaq oturduğu yerdə...

Nəsimanla Sənubər tələm-tələsik evdən çıxıb birbaşa taksiyə oturdular. Çox çəkmədən maşın Mayagil yaşayan doqquzmərtəbəli binanın girəcəyində dayandı. Nəsiman sürücünün pulunu verib Sənubərin qoluna girdi və üçüncü mərtəbəyə qalxdılar. Onları qapı ağzında Kamal qarşıladı. Onun uca boyu, çallamış saçları, ağ sifəti, qonur gözləri, geniş alnı, dən düşmüş nazik bığları vardı. Əl verib görüşdülər. Elə bu vaxt Maya da yan otaqdan çıxdı. Bir an içərisində otaqdakı ab-hava dəyişdi. Hamının





çöhrəsində ötərgi təbəssümün zərif cizgiləri göründü və tez də əriyib yox oldu. Onlar qapısı dəhlizə açılan otağa keçib stullarda əyləşdilər. Hiss olunurdu ki, Kamal içindəki nigarançılığı, çəkinəcəkliyi ciddi-cəhdlə büruzə verməməyə çalışır: o, qəsdən çox danışır, gülür, hətta, zarafat eləməkdən də çəkinmirdi. Bunu hamı başa düşsə də heç kim birdən-birə açıb-ağartmaq istəmirdi. Əslində, buna heç ehtiyac da yox idi. Maya da insafən, özünü o yerə qoymurdu. Təkcə gəlin Reyhanədə dərin narahatçılıq duyulurdu. Maya üzünü Sənubərə tutub dedi:

— Bu cavan oğlanı tanımadım.

— Nəsimandı.

— Hə... Hə... Çox yaxşı.

Kamal gülümsünərək dedi:

— Bayaq mənə telefon açan?..

— Bəli!

— Neyləyim? Görünür, qismət beləymiş... Düzələr inşallah. Özünü darıxdırma.

— Mən öyrəncəliyəm işsizliyə, Kamal qardaş. Təki sənin işin düzəlsin.

Sənubər:

— Bu nə gözlənilməz hadisədi?

Maya:

— Gözlənilməz niyə?

Kamal:

— Vəzifə müvəqqətidi. Mən təyinatımı alanda, bilirdim ki, nə vaxsa onunla xudahafizləşməli olacam, Sənubər xala. Qətiyyən narahat olmayın. Onu tez-tez anama da, Reyhanəyə də deyirdim. Ömürlük vəzifə olmamalıdı. İnanın, mən özümə təskinlik üçün danışmıram. Heç bir qəbahətə yol verməmişəm. Əksinə, tam əmin ola bilərsiz ki, danışdıqlarımdan və eləcə də əməllərimdən iftixar hissi keçirirəm. Atalar yaxşı deyib: “Dost yolunda boran olar, qar olar”. Mənim şefimlə yuxarıda oturanlar-

dan bəziləri düz gəlmirdilər. Həmişə onu arxadan döyəcləyirdilər. Bunu özü də bilirdi. Siyasi cəhətdən çox hazırlıqlıydı. Lovğa, təkəbbürlü, əlindən iş gəlməzləri, yalançıları, müftəxorları özünə yaxın buraxmazdı... İkilikdə ona dedim:

— Bəlkə, bir az boş buraxasan. Xalq, xalq deyən yaramazlardan bir az özünü qoruyasan, dediklərini eşitməzliyə vurasan. Nə desə yaxşıdı: "Bacarmıram... Əqidəmi dəyişənmərəm..." Axır ki, yaramazlar istəklərinə nail oldular. Kişinin qollarını kabinetdəcə qandallayıb apardılar. Heyf, xalq, millət üçün doğulan elə kişidən.

Sənubər:

— Havayı yerə deməyiblər ki, xalq üçün ağlayan göz kor olar.

— O, haqq-ədalət adamıydı. Həmişə düzgünlük, ədalət uğrunda çalışırdı. Adamların hüququnu qoruyurdu. Demokratik, sərbəst, azad fikirli adam idi. O, xalqını da belə görmək istəyirdi. Bir dəfə kabinetimə gəldi. Katibə bizə çay verdi. O, sözarası dedi: — Kamal, quldurlar, dələduzlar, korrupsionerlər əlində girov olan xalq anarxist mühitdə yaşamalı olacaq. Daim haqqı tapdanacaq. Gələcək nəsillər də günahsız yerə yaramazlardan asılı qalacaqlar. Mən belə nadanlar mühitinə baş əymək üçün doğulmamışam. Belə girdabda yaşamaq da istəmirəm. Bu barədə düşünməyi belə özümə sığışdırmıram. Adamlar getdikcə olan-qalan imkanlarını itirirlər. Aşağılar qul olurlar, ortabablar da onlara yaxınlaşırlar. Yalnız dələduzlar zümrəsi hər şeydən yararlanır, milyardlarla dollara sahib olurlar. Mən hamısının adlarını, soyadlarını bircə-bircə deyə bilərəm. Mənsub olduğu xalqa xəyanət eləyən hər kəs, mən deyərdim ki, mələk qiyafəsində faşistdir... Onlar hamının gözlərinin qabağında ölkəni dağıdırlar. İmkansızları kölə vəziyyətində saxlayırlar. Bütün bunlar məndə ikrah hissi oyadır. Adamları cismən öldürməyə nə var ki? Belə ölüm asandı. Bir müddət fiziki əziyyət çəkirsən.





Sonra ölüb gedirsən. Bu təmtəraqlı həyat da sənin üçün yox olur. Ən çətin ölüm iztirabların, təhqirlərin, haqsızlıqların törətdiyi fəsadların nəticəsində baş verir. Bunun fərqinə isə çox vaxt heç kəs varmır. Cinayətkarlar, anarxistlər mühitində yaşamaqla uzağa getmək olmaz. Başqalarına bu qədər əzab vermək, işgəncələrə düçar eləmək hüququ heç kəsə verilməyib. Vəziyyət elə gətirib ki, cinayətkarlar təmiz adamları da cinayət törətməyə məcbur eləyirlər. Onların iradəsini qırırlar. Mən təəssüflənirəm insanların belə haqsızlıqlarla, cinayətlərlə qarşılaşdığına. Mən demirəm ki, varidat toplamasınlar, pul yığmasınlar, zəngin saraylara sahib olmasınlar. Olsunlar! Ancaq halal yolla. Əməkləriylə! Alın tərləriylə! Murdar üsullarla yox! Başqalarının ciblərinə girməklə yox! Evlərinə soxulub olan-qalanlarını əllərindən almaqla, sümürməklə yox. Bu, murdarlıqdı! Xəstə düşüncənin məhsuludur. Dəhşət dolu fəryaddı. Mən paxıl deyiləm. Kimsənin pulunda, varidatında gözüm yoxdu. Hamını tox, xoşbəxt, dərd-sərsiz görmək istəyirəm...

Sənubər:

— Kişi çox ağıllı adamdı. Belələri çoxlarına sərf eləmir. Ona görə də qollarını qandallayıblar

Maya:

— Oğlum, anarxistlərin əməllərinin çox zaman çərçivəsi olmur. Onlar necə gəldi düşünürlər, hərəkət eləyirlər. Hətta, öz yaşadıqları həyatlarından da bezirlər. Ürəklərində özlərinə ölüm də arzulayırlar. Qəribədi, vaxt keçir, sarsıntı, əzab, iztirab gətirəcək hallar ötüşür, yenidən öz anarxist həyatlarına bağlanırlar.

Kamal:

— Götürək Nəsimanı. İşi yoxdusa, özü-öz dolanışığını təmin eləyə bilmirsə, o, həmişə mənəviyyatının təhqir olunduğunu, alçaldıldığını hiss eləyəcək. Gəlin, açıq danışaq. Bu adam neyləməlidi? İnsanlığı zərrə-zərrə itirir, ətrafına nifrət eləməyə baş-

layır. Başqa yolu yoxdu. Cinayətkar cəmiyyət ancaq cinayətkar yetişdirər. Dediklərim bəlkə də heç danışılmasına lüzum olmayan məsələdi.

Reyhanə:

— Kamal qulaq günahkarıdı. O, çapıb-talasaydı, məni yandırmazdı. Səhər evdən çıxıb axşam yatanda yorğun-arğın gəlib evə. Vəzifədə olanda gün görmürdü. Bəzən ana-bala bir-birilərinin üzlərinə həsrət qalırdılar... Uşaqlar eşidəndə ki, atalarını işdən çıxarıblar, sevindiklərindən atılıb-düşürdülər.

Sənubər:

— Can, can...

Nəsiman:

— Təki canınız, balalarınız sağ olsun, Kamal qardaş.

Maya:

— Gəlin düz deyir. Neçə vaxtdı istirahət nədi bilmirdi. Özünə deyənməsəm də ürəyimdə çəkirdim. Nə böyük ailəyik ki, hər şeyi özümüzə dərd eləyək. Adi həyata biz öyrəncəliyik. Gəlin işləyir. Mən təqaüd alıram. Özü də hər halda pis-yaxşı iş tapar. Yəni, üç adam iki uşağı dolandıranmayacaq? Biz qənaətə öyrəncəliyik.

Kamal:

— Axı bilmirəm mənim işdən çıxmağımı niyə problemə döndərirsiz?..

Nəsiman:

— Belə çıxır ki, şefiniz siyasi dustaqdı.

Kamal:

— Hə... Elədi...

Sənubər:

— O pisdi də. Onda həmfikirlərinə də...

Reyhanə:

— Mən onu qəsdən dilimə gətirmirdim. Əslində, mənim də qorxduğum odu.





Kamalın sifəti bozardı. Anası üzündə bir şey hiss etməsin deyə heç bir şey olmamış kimi ayağa qalxıb pəncərəyə tərəf getdi. Pərdəni kənara sıyırıb həyətə baxdı. Hava mülayim idi. — Çoxdandı belə havaya həsrətəm, — dedi. Sonra da qayıdıb yerindəcə əyləşdi. Anasının könlünü almağa başladı:

— Anam məni vəzifə üçün doğmamışdı ki, indi də onun dərdini çəkə.

Nəsiman:

— Kamal qardaş, şefiniz cavandı?

— Yox... Günün görüb.

— Onu içəridə bir bəhanəylə qətlə yetirməzlər ki?

— Ağla gələn hər şey mümkündü, Nəsiman. Siyasi qətl nifrət doğuracaq hadisədi. Məncə ona getməzlər.

Sənubər:

— Ona kim zəmanət verə bilər ki?

Reyhanə:

— Heç kim.

Maya:

— Siyasi qətl nəyə deyirsiz?

Kamal:

— Azadlıq, demokratiya uğrunda mübarizə aparan adamların min hiylə və çirkin yollarla ardan götürülməsinə. Elə qətllər dünyanın hər yerində pis qarşılanır. Bu, həm də ermənisayaq terrordu. Elə addım atanlar mən deyərdim ki, cəmiyyətin törtöküntüləridirlər. Onu heç kəsə güzəştə getməzlər.

Maya:

— Qətl olmasın, olsa, neyləyəcəklər?

Sənubər:

— Dəli bir daş atır quyuya, aləm yığılır çıxaranmır.

Reyhanə:

— Yəni, elə axmaq yolu tutarlar, yoxsa, zarafat eləyirsiz?

Nəsiman:

— O çox təhlükəli zarafat olardı... Ağılsız adamların zarafatları da təhlükədən xəbər verir. Aləm elə korlanıb ki, hər bir sözdə, hərəkətdə şərəşurluq elementləri tapmaq mümkündü.

Maya:

— Amanın günüdü, söhbəti dəyişin. Dərinə getdikcə içimə üşütmə çökür. O vaxt vəzifəyə çəkilməyə "yox" demişdin, gərək, oğlum, sözünün üstündə duraydın. O işdə Reyhanə də, mən də günahkaram.

Kamal:

— Sizin nə günahınız vardı? O zaman kim ağlına gətirə bilərdi ki, kişini quru sözə görə heç nədən həbs eləyəcəklər.

Maya:

— Mən anayam. İçim göynəməyə başlayır. Elə bil hansı qüvvəsə qulaqlarıma nəsə pıçıldayır... Unutma ki, hər kəs əkdiyini biçir. Ola bilməz ki, buğda əkəsən, əvəzində darı biçəsən. Ya qarpız əkəsən, lobya yığasan... Vermədiyini ala bilməzsən.

Reyhanə:

— Bu saat dilinə düz söz gətirən yoxdu. Elə bil həqiqətlə adamlar arasına qurd yağı sürtüblər. Adamlar işi keçənə mədhiyyə oxuyurlar... Bu məziyyətləri normal adam ağlına sığışdıranmır. Biz birtəhər dözəcəyik. Hərdən fikirləşirəm ki, uşaqlar neyləyəcəklər?

Sənubər:

— Qəm yemə, ay Reyhanə. Uşaqlar gözlərini açandan hər şeyi əyri görüblər. Onlar əyrilik içərisində də formalaşacaqlar.

Kamal bu sözləri dilinə gətirməsə də onun içində dərin bir həyəcan, qorxu, vahimə vardı. O, anlayırdı ki, şefə görə vəzifəsindən kənarlaşdırılıbsa, deməli, hüquq-mühafizə orqanlarına da sorğu-sual üçün çağırılacaq... Bunu evdə hamı dərk eləyirdi. Ancaq heç kəs nədənsə, o barədə ağzını açıb danışmırdı. Bəlkə də danışmağa cəsarət eləmirdi. Araya dərin bir sükut çökdü. Sanki hamının sözü qurtarmışdı. Kamala ola biləcək təhlükə də





sovuşmuşdu. Sənubər üzünü Nəsimana tutub sözünə davam elədi:

— Oğlum, nə fikirləşirsən? Qalxaqmı? Biz də gedək. Maya xalangil də bir az dincəlsinlər.

Nəsiman başıyla "gedək" işarəsini verdi. Hamı ayağa qalxdı.

Təəssüf hissiylə Mayagildən ayrılan Nəsiman yolda Sənubərə astadan dedi:

— Xala, Kamalın həyəcanlarını hiss eləyirdinmi?

— Eləyirdim. Allahın Mayaya rəhmi gəlsin. Yeməyib-içməyib vur-tut bir oğul böyüdüb. O da güdaza getməsə yaxşıdı. Əlimizdən nə gəlir təssüflənməkdən savayı.

— Öz dərdim yadımdan çıxdı. Gör adamın başına necə oyunlar açırlar. Kimə görəsə kimisə cəzalandırmaq qatillikdi.

— Dünya əzəldən belədi, oğlum. Heç həyatından düz-əməlli razı adam görməmişəm. Görünür, olmayacaq da.

— Mən də elə düşünürəm.

* *
*

İşdən çıxarıldıqdan üç gün sonra prokurorluqdan Kamala çağırış gəldi. Əslində, bu, Kamal üçün gözlənilməz deyildi. Onu narahat eləyən yeganə şey qoca anasının, cavan arvadının və bir də ağlı kəsməyən uşaqlarının narahatlığı və nigarançılığı idi. Tanış-bilişlərdən, yaxud onu heç tanımayıb söz gəzdirənlərdən, güçə dedi-qodularından bəzi şəxslərin eşidib deyilənlərə inanacaqları idi. O, öz-özünə dedi: — "Mən heç bir şeydən qorxmuram. Reyhanəmin mənəvi gücünə, ağlına bələdəm. Həbs olunsam belə uşaqlarım da böyüyəcəklər. Heyf anama. Oturduğu yerdə bu yaşda ona zülm oldu... Heyf. Çox heyf". Ərinin əlində çağırış vərəqəsini görcək Reyhanə təəccüblə soruşdu:

— O nədi Kamal?

— Heç... Elə-belə.

— Həqiqəti mənə demək istəmirsən?

— Niyə ki, əzizim? Sadəcə olaraq, sizi həyəcanlandırmaq istəmirəm.

— Sən gizlətməklə döör, Kamal. Hamı olanı biləcək. Nə fərqi var, indi, ya bir neçə saatdan sonra?

— Çağırış vərəqəsidi, prokurorluqdan gəlib. Səndən niyə gizlədirəm ki, oxuyum, eşit:

"Çağırış vərəqi, №216. Vətəndaş Cəlilov Kamal Qüdrət oğlu, 17 aprel 1989-cu il tarixdə saat $17^{00}$-da rayon prokurorluğunda olmalısınız. Otaq 114.

Müstəntiq: M.Salayev"

Sonra üzünü arvadına tutaraq soruşdu:

— İndi aydın oldu?

Reyhanənin sanki dili tutuldu. Kamalsa kağızı iki qatlayıb pencəyinin döş cibinə qoydu. Reyhanə dərindən köks ötürdü.

— Bu günümüz də varmış.

— Narahat olma. Elə iş görməmişəm ki, ondan qorxub-çəkinəm.

— Çağırış tez olanmazdı?

— Olardı, görünür, belə məsləhət biliblər.

— Maraqlıdı elə gec niyə?

— Görünür, vaxtları onda olacaq. Bir də ki, öz işləridi. Söz sahibidilər. Onlara kim nə deyəcək ki?

— Bəlkə, səni orda saxlamaq fikirləri var?

— Elə fikirləri olsaydı, çağırış vərəqi göndərməzdilər, ardımca polis gələrdi.

Reyhanə nə deyəcəyini bilmədi. İstədi ata-anasına, qardaşlarına telefon açıb əhvalatı onlara da çatdırsın. Sonra da fikirləşdi ki, "qarğa məndə qoz var" eləməyim. Camaat haya düşəcək. Qoy Kamal getsin, görək ona nə deyirlər? Sonrasına baxarıq...





Özü də hiss eləmədən Reyhanənin içərisində təlatüm yarandı. Gözlərində giləl追 yaş yanaqlarına süzüldü. Bunu görcək Kamal arvadına dedi:

— Bu nə haldı keçirirsən? Bəyəm, çağırış vərəqi tək mənə gəlir? Şübhə varsa, mənimlə sorğu-sual aparmalıdırlar. Araşdırıb həqiqəti üzə çıxarmalıdırlar.

— Yox, ey... Bilirsən...

Kamal gülümsünərək bildirdi:

— Heç nə bilmirəm. Mənə təkcə o aydındı ki, günahsızam.

— Anan yan otaqda yatıb. Gedəndə onunla görüş. Qoy məlumatı olsun. Səndən sonra arvad onsuz da həyəcanlanacaq.

Kamal başı ilə arvadına razılığını bildirdi. Sonra da keçib stulda əyləşdi.

— Bir stəkan çay versəydin, pis olmazdı.

Reyhanə: — Bu saat, — deyib mətbəxə keçirdi ki, Mayayla dəhlizdə üzləşdilər.

Reyhanə:

— Nə olub, ana? Özünü pis hiss eləyirsənsə həkim çağıraq?

— Evin tikilsin, öyrəncəlisən həkimə. Bərk öskürən kimi həkim çağırırsan. İynə-dərman tökürsən başımızdan. Ağəz, yaşlı adamam. Fikirləşirsən, sizin kimi cəld, çevik olmalıyam? Yox, bala, o vaxtım keçdi.

— Oğlun da evdədi. Keç otur, təzə çay dəmləmişəm, gətirim, sən də bir stəkan iç.

— Hə... Pis olmaz.

Qarı keçib stulda oğluyla üz-üzə əyləşdi. Kamal anasından soruşdu:

— Gözümə yorğun dəyirsən.

— Əşi, başımı yastığa atan kimi qarma-qarışıq yuxular görürəm. Oyanan kimi hamısını da unuduram. Qocalığın da bu işindən keçmə.

Reyhanə üç stəkan çay gətirib birini ərinə, ikincisini qayın-

anasına verdi, üçüncüsünü də öz qabağına qoydu. Çayı içib qurtarmışdılar ki, Reyhanə ərinin üzünə baxdı. Kamal arvadının fikrini dərhal anladı. Ancaq o, söhbəti anasına necə çatdıracağı barədə düşündü. Başqa yol tapanmayıb arvadından soruşdu:

— O çağırış kağızını hara qoydun?

— Bilmirəm. Gör hardadı.

Maya:

— Nə çağırış kağızı, a bala?

Kamal:

— Bikara şeydi.

Reyhanə:

— Prokurorluqdan göndəriblər.

Maya heyrət içərisində oğlunun üzünə baxdı. Oğulsa anasını sakitləşdirmək üçün çağırışın elə bir ciddi şey olmadığını anlatmağa çalışdı. Ancaq ananın canında qorxu, təlaş yarandı. Fikirləri bulaş-bulaş oldu. Ürəyi döyünməyə başladı. Var qüvvəsini toplayıb oğlunu bir daha həyəcanlandırmamaq üçün özünü təmkinli aparmağa çalışdı:

— Bu gün gəlib?

Kamal:

— Hə...

— Yuxumun qarışması buymuş. Allahın nəzəri üstündə olsun. Gərək qorxub-çəkinməyəsən. Elə ki, çəkindin, sənə çox girişəcəklər. Onda da də özünü itirə bilərsən.

— Bunları sən hardan bilirsən, ay ana? Elə bil birdən-ikiyə müstəntiq qarşısında cavab vermisən.

— Müstəntiq səndən ağıllı döör ki. Fərq ondadı ki, o, sual verir, bir də əlində qanun var. Günahı olmayanın qarşısında qanun kəsərdən düşür. Çalış, özünü itirmə...

Maya üzünü gəlininə tutub sözünə davam elədi:

— Bayaqdan ona görə sir-sifətini bozardıb, burnunu sallamısan? Çayımızı içək, qalxıb axşama bir döşəmə plov bişirək. Kamal plov xoşlayandı axı.





Reyhanla Kamal eyni vaxtda Mayanı diqqətlə süzdülər.

— Anama qurban olum. Onda kişi cəsarəti var, yoxsa, Reyhanə kimi.

— Reyhanə cavandı, oğlum. Onun narahat olmağa haqqı var.

Kamal dərhal bildirdi:

— Günahsız adam niyə qorxmalıdı ki?

Maya:

— "Günahsız" sözünü tez-tez işlədirsən. Onu Reyhanəylə məni sakitləşdirmək üçün deyirsənsə, çox yaxşı. Qaldı arxeyinçiliyə. O özünü aldatma əlamətidi, başını yastığa qoymaqdı. Gözlərini yumub özünü rəqibinə, düşməninə can-başla təhvil verməkdi. Bu, ən yaxşı halda, özün görməli olacağın işi başqasına ümid eləməkdən də pisdi.

Reyhanənin üzündə ötəri və sezilməz bir təbəssüm doğdu, tez də yox oldu və dedi:

— Ürəyimcə dedin, Maya xala. Kamal elə danışır, guya kiminləsə bu, sorğu-sual aparacaq. Buna heç kimin sözü yoxdu.

Kamalın çöhrəsi işıqlandı:

— Bəs neyləyim, ay Reyhanə. Heç nədən sizin ürəyinizi qoparım? Mən düz danışıram. Necə deyərlər, aydan arı, sudan duruyam.

Maya:

— Mən tamam başqa cürə düşünürəm.

— Necə yəni?

— Qorxuram, səni Şefinin üzünə durmağa, ya kiminsə barəsində donos verməyə çağıralar. Xaraktercə zəif adamları başqalarının üstünə qaldırırlar. Adama şər, böhtan atmaq yolunu tutdururlar.

Reyhanə:

— Anam düz deyir, Kamal, doğrusu, o heç mənim ağlıma

gəlmirdi.

Kamal:

— Siz inanırsız ki, mən elə qələt eləyə bilərəm?

Maya:

— Demirəm ki, eləyərsən. Hər halda, bu da bir variantdı.

Kamal xeyli fikrə getdi. Nə düşündüsə astadan dedi:

— Ola bilər.

Çağırış vədəsinə az qalırdı. Kamal qalxıb kostyumunu geyindi. — Hələlik, — deyib müstəntiqlə görüşə getdi...

Qapını döydü. İçəridən kişi səsi eşidildi:

— Gəlin.

Kamal kabinetə keçib özünü müstəntiqə təqdim elədi. Sonra da onun göstərdiyi stulda əyləşdi. Müstəntiq ucaboy, qarayanız, başının tükləri çallaşmış, qırx yaşı olar-olmaz bir kişiydi. Qara gözləri, enli alnı, yastı çənəsi, üzünə mütənasib burnu vardı. Qalın səsli bu adam Kamalın düz gözlərinin içinə baxdı. İlk baxışdan hansı məqsəd daşıdığını duydu, ancaq halında heç bir təfavüt yaranmadı. Kamalın özünü çox sakit apardığını, heç bir həyəcan keçirmədiyini duyduğundan, o, ilk andan söhbətini səmimiyyət müstəvisində qurmağa çalışdı:

— Deyəsən, səni də  yoldan çıxarıb bəlaya salıblar, əclaflar.

— Qətiyyən. Məni yoldan çıxaracaqdılarsa, onda mənim ağlım hardaydı?

— Sualı mən verirəm.

— Buyurun, eşidirəm.

— Şefinizin dövlət əlehinə yaratdığı bandanın neçə üzvü vardı?

— Nə banda? O, heç bir banda yaratmayıb. Mən onu təmiz, xalqını, vətənini sevən, ədalətli və vicdanlı bir adam kimi tanıyıram.

— Sən bura kiməsə mədhiyyə oxumaq üçün çağırılmamısan.





— Mədhiyyə oxumaq xarakterimə yaddı.

— Yaxşı, deməli, əlbir-dilbirsiz.

— O, mənim rəhbərim idi. Vəzifəmi can-başla icra etməyə borclu idim.

— Sən böyük bir idarənin rəisi idin. Səni vəzifəyə qoymaqda onun məqsədi nə olmuşdu?

— İdarənin işini gücləndirmək.

— Ha... Ha... Ha... Ayə, adam tapılmırdı?

— Tapılsaydı, məni qoymazdı ki.

— Sən gəl, məni də, özünü də dağa-daşa salma. Bilirsən ki, altı ay əvvəl siyasi qətl törədilib. Dövlət adamı Sədiyev Möhnət Gülməmmədoğlu yaşadığı binanın girəcəyində öldürülüb. Əlimizdə tutarlı əsas var ki, o qətlin sifarişçisi şefinlə sənsən.

— Əsas deyəndə, siz nəyi nəzərdə tutursuz?

— Şahidləri, konkret faktları.

— Quramadı. Cənab müstəntiq, məndən nə qətl icraçısı, nə də sifarişçisi olar. Əgər məqsəd məni həbs eləməkdisə, özünüzü dağa-daşa salmayın. Qəbrə öz xoşuyla girəni geri qaytarmazlar. Çağırmısız, gəlmişəm, buyurun, həbs eləyin məni.

— Həqiqəti boynuna al, canın qurtarsın.

— Çağırın, şahidlər gəlsinlər.

— Əlbəttə, şahidlər də olacaq.

Kamal ani fikrə getdi. Nə deyəcəyini bilmədi. Əsəbləri dözməyib ayağa qalxdı. Pəncərəyə tərəf getdi. Müstəntiq onu seyr edib sifətinə ciddi görkəm verdi:

— Kamal Cəlilov, bura nə sənin evindi, nə də Dənizkənarı bulvar. Əlini arxaya qoyub özün üçün gəzəsən. Otur yerində, deyilənləri boynuna al. Möhnət Sədiyevi qətlə yetirəndə də şefinlə belə sərbəst və azad hərəkət eləyirdiz?

— Bu, keçməyəcək, cənab müstəntiq, niyyətinizi tam açıqlayın.. Mən də bilim, ona uyğun hərəkət eləyim. Yoxsa, qurama ittihamlar çox vaxt aparacaq. O, sizin də, elə mənim də əsəblə-

rimi heç nədən gərginləşdirəcək.

— Ağıllı ol, Kamal. Sizin kimi cinayətkarların öhdəsindən çox gəlmişəm. Mən istəyirəm ki, hər şeyi özün etiraf eləyəsən. Bir halda ki, etirafa gücün çatmır, şahidlə də üzləşərsən, hələ üstəlik təzyiqlə də qarşılaşarsan.

— Hə, əlinizdə qondarma şahidlər saxladığınıza şübhəm yoxdu. Qaldı təzyiqə. O da sizin gücsüzlüyünüzdən irəli gələn iş üslubunuzdu.

— Kamal, sən böyük bir idarənin rəisi idin. İşçilər arasında hörmət-izzətin var idi. Bolluca da rüşvət almaq imkanın. Sənə siyasi qətldə iştirak eləmək lazım idimi?

— Sən deyəsən, nə olsa, danışmağa öyrəncəlisən. Gah rüşvətdən danışırsan, gah siyasi qətldən. Adımı da cinayətkar qoyursan. İndi mən səndən soruşuram, cənab müstəntiq, Sədiyev Möhnət Gülməmməd oğlunun qətliylə əlaqədar istintaqa nə qədər günahsız adam cəlb etmisən, onları qorxu və vahimə içərisində yaşamağa nə qədər vaxt sərf etmisən, sonra da sənin təbirinlə desək, nə qədər rüşvət alıb buraxmısan?

— Ayə, boş-boş danışma. Şefin qanadları altına girəndə, onun himayəsində yaşayanda cinayət əməllərinin ağuşunda uyuduğunu qanmalıydın. Qanmamısan, indi cəzanı alacaqsan. Başa düşməlisən ki, qətl cinayətdi. Onu törədənlərsə cinayətkardı. Cinayətkara güzəştə getmək, yaxud onu himayə eləmək cinayətkarlığın məsuliyyətini bölüşməkdi. Qanunla səndən cavab alanmayacağamsa, mənim kimi səriştəli və bacarıqlı müstəntiq bu kabinetdə niyə oturub?

— Sən hüquqi dillə çox gözəl danışırsan, müstəntiq. Bir az da özündən müştəbehsən. Sanki mən uşağam, sənin dediklərinə aldanıram. Oğruyam, dələduzam, rüşvətxoram, siyasi qətl törətmişəm, ya da həqiqətən onun sifarişçisiyəm?

— Elə olmasaydın, bura niyə çağırılırdın? Niyə səninlə sorğu-sual aparırdım? Bəlkə düşünürsən ki, güclü intellekt sahibisən, mən də sənin nəyə qadirliyini müəyyənləşdirməyə cəhd göstərirəm? Belə düşünürsənsə, Kamal Cəlilov, ciddi səhv eləyirsən.





— İntellektim kifayət qədərdi. Sən məni başa düşməzsən. Çünki biz başqa-başqa adamlarıq. Qaldı ki, mənim intellektimin səviyyəsini müəyyənləşdirməyə, nə səndə qabiliyyətin həddini qeydə alan elə cihaz var, nə də mükəmməl ağıl.

Müstəntiq qışqırıb əlini stola vurdu.

— Bəsdi... Nadan.

— Kimin nadan olduğunu danışığı büruzə verir. Niyə inciyirsən, cənab müstəntiq? Biz hamımız nadanlar mühitində yaşayırıq. Belədirsə, deməli, hamımız nadanıq. Odur ki, burda umu-küsüyə, incikliyə ehtiyac yoxdu.

Müsahibini bu tezliyə ram eləyə bilməyəcəyini düşünən müstəntiq səsini bir qədər aşağı endirdi. Sonra sakit səslə: — Kamal Cəlilov, — dedi:

— Cəmiyyət kriminallaşıb. Heç kimə etibar eləmək olmur. Yaxşı tanıdığın, halına-xislətinə bələd olduğun adamlar elə cinayətkarlara çevrilirlər ki, özün də məəttəl qalırsan. İndi adam ən yaxın dostuna da inanmır. Görürəm, sən təmizsən, bir az da sadəlövhsən. Açıq etiraf eləyək, o əclaf şefin özün də bilmədən səni salıb bəlaya. İndi də ona çox inanırsan. Sifarişiylə qətl törədildiyini şefin boynuna alıb. Cinayətin törədilməsində səninlə şərik olduğunu da bildirib. Sənsə nəinki özünü, hətta, o cinayətkarı da müdafiə eləyirsən. Papağını qoy qabağına, yaxşı-yaxşı fikirləş. Özün nəticə çıxar.

— Xeyr! Heç vaxt sən deyənlərlə razılaşmaram. Təmiz adamları şərləmək, onları şantaj eləmək kişilikdən deyil.

— Kişiliyi bir anlığa qoyaq kənara. Axı o, cinayət işində səninlə şərik olduğunu etiraf eləyir... Sənsə, ciddi-cəhdlə... O, qoca qurddu, başa düşürsən? Sənsə, onun torunda çabalayan bir balıq, yaxud qəfəsdəki zəif bir dovşan.

— Əvvəla, məni təhqir eləməyin. İkincisi də, siz deyənlər heç vaxt ola bilməz. Hər şeydən əvvəl cinayətkarlıq mənim şefimə yaddı. Allahınızdan qorxun, cənab müstəntiq.

Müstəntiq nəsə fikrə getdi. Handan-hana masanın üstündəki "Cinayət Məcəlləsi"ni götürüb vərəqlədi. Sonra qolundakı saatına baxdı. Stolun üstündəki kağızı götürüb Kamala verdi:

— İmza at, bir müddət şəhərdən kənara çıxmağa ixtiyarın yoxdu. Kamal kağızda yazılanları diqqətlə oxuyub altından imza atdı. Müstəntiq dedi:

— Yenə görüşəcəyik.

— Nə vaxt istəsən.

* *
*

İş tapanmayan, Qaçay Qılınclıdan aldığını xərcləyib qurtaran Nəsiman kibrit qutularındakı heroini neçə gün idi ki, yavaş-yavaş əritməyə girişmişdi. O, gənclərin gur olduğu yerlərə, çayxanalara, bazara, kino-teatrların, metro stansiyaların qarşısına gedir, çox ehtiyatla, oğrun-oğrun adamları müşahidə eləyir, onların kəşfinə çalışırdı. Təhlükəsizliyinə tam əmin olandan sonra gözü tutan adamlara yaxınlaşır: — Uyuducu var, — deyirdi. Tez bir müddət ərzində Nəsiman tanınmağa başladı. Elə gənclər vardı ki, özləri Nəsimandan: — Varmı? — deyə soruşurdular. O, kibrit qutularını verir, pulunu alıb tez də ordan uzaqlaşırdı. Bu oğlan çox qorxulu, natəmiz bir işə girişdiyini özü də anlayırdı. Əlaqələri getdikcə genişlənirdi. — "Uyuducu var" — sözünü heç kəsə deməyə ehtiyac yox idi. Narkotika alış-verişi sahəsində müəyyən təcrübə qazanan Nəsimanın cibləri hər gün pulla dolurdu. Dolduqca da imkansızlıq barədə artıq düşünmürdü. Bu işə alışan Nəsiman böyük həvəslə səhər evdən çıxır, bir də gecə evə dönürdü. Sox vaxtlar onun belə gediş-gəlişləri Sənubərdə narahatçılıqla yanaşı, şübhə də doğururdu. Bir gün qarı:





— Xeyir ola, oğlum, son vaxtlar yamanca dəyişmisən, — deyə soruşması Nəsimanı diksindirdi. Nəsiman cavab verməyə söz tapanmadığından arvadın üzünə təəccüblə baxaraq gülümsünüb ciddi görkəm almağa çalışdı. Ancaq bu gülüşü, bu görkəmin boğazdan yuxarı, süni oldğunu Sənubər dərhal anladı. Səsinə azacıq ara verib mızıldandı:

— Əyri yoldasan, Nəsiman, özünü bədbəxt eləyərsən. Kasıblıq qəbahət deyil. Qəbahət ağlını itirib gədə-güdə yolunu seçməkdi.

— Necə-necə? Gədə-güdə yolu? O, nəmənə şeydi, Sənubər xala?

— Yol azmaq, oğurluq, kiminsə cibinə girmək, evini qarət eləmək.

Sənubər narkotik maddə adını çəkmədi. Ancaq Nəsimana elə gəldi ki, narkotik maddə alveriylə məşğul olduğunu qarı bilir. Onu utandırmamaq, işi çox ağartmamaq səbəbindən özü qəsdən ona belə deyir. Nəsiman əməlini pərdələmək istədiyi üçün dərhal qadının sözünə qarşı çıxdı:

— Mənim nəslimdə oğru, qarətçi olmayıb.

— Olmayıb, lap yaxşı, Unutma ki, təsadüfən biri işləri korlayanda, nəslin adı ləkələnir. Daha onu yuyub-təmizə çıxarmaq mümkün olmur. Təmiz ad, təmiz vicdan hamıya şərəf gətirir. Elə ki, vicdana tüpürdün, onu çirkaba batırdın, zibili çıxdı. Öləndə də vicdanına tüpürülmüş kimi dünyadan köçəcəksən. Özünü yuyub yarpız üstə qoyma, tərifləməyə də çalışma. Oğlum, sənə nəvəm təkin baxıram. Sən mənimlə bir süfrədə oturursan. Sənin həyatın üçün mən bu yaşımda ciddi məsuliyyət daşıyıram.

— Narahat olma, Sənubər xala.

— Necə narahat olmayım, a bala. Qoca arvadam, elə bilirsən, başım xarab olub? Ya özümü salıb itirmişəm? Gedib-gəlmə vaxtın məlum. İşləmirsən, beş manat pul qazanmırsan, bəs, har-

dan dolanırsan? Dünən cibindən xeyli pul çıxarıb kirayə xərcini stolun üstünə atdın. O pullar hardandı?.. Özün də bilmədən kəndirini kəsəcəklər ha. Gördün, yazıq Kamalı necə dolaşdırdılar? Bayaq telefon açdım Mayaya, istədim uşağın vəziyyətindən halı olam. Yazıq arvad, düşüb yorğan-döşəyə.

— Niyə?

— Kamalı çağırıblar prokurorluğa, sorğu-sual aparırlar.

— Axı Kamal günahsızdı.

— Günahı adamın boynuna lap rahat qoyurlar bizim zəmanədə, sonra da oturdurlar dəmir barmaqlıqlar arasında. O adam da qalır yana-yana. İnsan ki, var, çətin məxluqdu. Əvvəl cinayəti eləyir, ya danışığını bilmir, quş buraxır, sonra da başlayır için-için özünü yeməyə. Arsız-arsız tövbə də eləyir. Bunları sənə açıb deməklə istəyirəm qanasan, addımlarını hara atdıqların barədə əvvəlcədən yaxşı-yaxşı fikirləşəsən. Əməlin sənə peşmançılıq gətirməsin. Cavan vaxtı hansı kitabdansa oxumuşam. Allah qocalığı kəssin. Bildiklərimi itirə-itirə gedirəm. O, kitabın müəllifinin adını da unutmuşam. O, axmaqları ziyanlılar və ziyansızlar qrupuna ayırır. Ziyanlılar qış, ziyansızlar isə yay axmaqlarıdırlar. Qış axmaqları səliqəylə geyinir, ədəb-ərkan nümayiş etdirməyə, səninlə dostlaşmağa çalışır, süfrənin qırağında oturur, yeyir-içir, ürəyini ələ alır, sirlərini öyrənir. Fürsət düşən kimi sənə badalaq atır. Onda anlayırsan ki, bu əclaf, nadan qış axmağıdır...

Söhbəti diqqətlə dinləyən Nəsiman soruşdu:

— Bəs yay axmağı?

— Altı aylıq döörsən ki, imkan ver, sözümü başa çatdırım da.

— Hə... Hə... Bağışla, Sənubər xala.

— Yay axmağı isə qış axmağından əsaslı şəkildə fərqlənir. Səliqəsiz geyimi, hərcayi-hərcayi danışıqları, yöndəmsiz davranışlarıyla diqqəti cəlb eləyir. Dərhal anlamaq olur ki, bu yay axmağıdır... Bayaq özümü halsız hiss elədim. Geyinib aşağı düşdüm. Bir az hava alıb özümə gəlmişdim ki, nə görsəm yaxşıdı?





— Nə?

— Qaçay Qılınclı küknar ağacının arxasında dayanıb bizim balkona, pəncərəyə baxır.

Qeyri-iradi olaraq Nəsimanın sir-sifəti bozardı. Gözlərini Sənubərin gözlərindən yayındırmağa çalışdı. Ancaq bacarmadı. Udqundu. Sənubər yaranmış psixoloji vəziyyəti açıq-açığına duydu və duyduqlarını da fövtə vermədi:

— Rəngin qaçdı deyəsən, oğlum?

— Yox... Niyə ki?

— Niyəsini özün bilirsən. O, xalis qış axmağıdı.

Nəsimanı həyəcan bürüdü. Ona elə gəldi ki, taxdığı maskadan Sənubər əməlli-başlı xəbərdardı. O, gec-tez maskanı yırtacaq... Özü də hiss eləmədən hövsələsi daraldı. “Hər şey korlanır, mənə olan inamı, etibarı itirirəm” — deyə düşündü. Ancaq başqa söz demədi. Özünə toxtaqlıq verərək söhbətin səmtini dəyişmək istədi. O anda ağlına heç nə gəlmədi. Məcbur olub soruşdu:

— Bəlkə, bizim qapı-pəncərəyə baxması təsadüfdü.

— Mənim hissiyyatım çox güclüdü. Güman eləyirəm ki, ağlım da yetərincədi. Qorxuram, o, alçaq imkansızlığından istifadə eləyib səni güdaza verə.

Nəsiman başını aşağı-yuxarı qaldırıb-endirməklə qarının sözünü təsdiqlədi. Sonra da Qaçayla münasibətləri barədə Sənubərin fikrini yayındırmaq üçün bildirdi:

— Mənim də ondan gözüm su içmir.

— Onun barədə bir neçə dəfə söhbətimiz olub. Səni xəbərdar eləmişəm. İndi də deyirəm. O, sandıq tulasıdı. Toyuq olan qapıya tülkülər axışar. Ataların bir sözü də var: “Dən səpilməyən həyətə toyuq gəlməz”.

Nəsiman istehzayla bildirdi:

— Belə çıxır ki, mən toyuğam, o tülkü? Mən dənəm, o toyuq?

— Sözümü təhqir kimi qəbul eləmə. Ataların bir yaxşı məsəli var: "Ağladanın yanına get, güldürənin yox". Unutma ki, insan özü-özünü mühakimə eləyən "Mən"dir. O "Mən" elə insanın özüdür. Vicdan isə daim adamı qoruyur, onu bir çox təhlükədən xilas eləyir. Özünü qoruyanmayan adamın bədbəxtliyi başının üstündə olar. Ayağı büdrəyən kimi onu qamarlayarlar. Dediklərim nəzəriyyə döör, oğlum, gündəlik qarşılaşdığımız, başımıza gələn təcrübədi. Təcrübə isə həyatdı, gündəlik yaşamımızdı. Tarix yaxşı elmdi.

— Bütün elmlər yaxşıdı, Sənubər xala.

— Mən onu inkar eləmirəm. Bəşəriyyətin əmin-amanlığına, inkişafına xidmət eləyən hər şey gözəldi. Dünyanı dağıdan, alt-üst eləyən, bəşəriyyətin məhvinə yol açan tədqiqatlara, elm sahəsinə münasibətim həmişə pis olub. İndi də elə... Gəl məni danışdıra-danışdıra dərinə çəkmə. Mən ixtisasımı gecə-gündüz öyrənməyə çalışmışam. Əldə elədiklərimi şagirdlərimə çatdıranda, mən deyənlərə mükəmməl yiyələndiklərini, mənimsədiklərini hiss eləyəndə elə bilərdim dünyanın xoşbəxtiyəm. Ümid verən, üz ağardan şagirdlərimi dərsdən sonra, boş vaxtlarında evə dəvət eləyərdim. Əlavə materiallarla onların biliklərini zənginləşdirərdim. Hətta, rəhmətlik kişi neçə dəfə zarafatla deyərdi:

— Ay Sənubər, insafın olsun, mənə də vaxt ayır. Qəbri nurla dolsun. O da yaxşı adamıydı. Əlli il bir yastığa baş qoyduq. Bircə dəfə xatirimə dəymədi.

— Ancaq belə çıxır ki, sən onu incitmisən.

— Əstəğfürullah. Yox... Ola bilməzdi. O, incidilməyə layiq adam döördü. Bilirsən, həm də şagirdlərimi niyə çox istəyirdim?

— Yox... Nə bilim.





— Onlar mən deyənlərə qulaq asırdılar. Məsləhətimə əməl eləyirdilər. İndi çoxu böyük-böyük işlərlə məşğuldu. Məni görəndə özlərini indi də lap o vaxtlardakı kimi aparırlar. Əldən-ayaqdan gedirlər... Sənsə, tamam başqa adamsan. Qulaqlarına nə qədər üfürürəm, sənə çatmır. Bir də ayılacaqsan ki, iş-işdən keçib. Ayə, yüz dəfə deyirəm ki, Qaçay Qılınclıdan uzaq ol. "Hə...", "Hə..." deyirsən. Sabah eşidirəm, ya görürəm ki, yenə onunla ağac kölgəsində imsiləşirsən.

Nəsiman əvvəl istədi Sənubərin dediklərinə qarşı çıxsın. Sonra düşündü ki, yalan danışmağa ehtiyac yoxdu. Onsuz da qarı çox ayıq və həssasdı. Ona görə də Nəsiman Qaçayla məqsədsiz-filansız, təsadüfi görüşdüklərini dilinə gətirdi. Qarı dərhal dilləndi:

— Qaçay Qılınclı təsadüfi görüşləri sevmir. Sabah səni dolaşdıracaq. Sonra da arxanla it sürüsü tökülüb gələcək. Onlara cavab verməli olacaqsan. Onda...

Nəsimana elə gəldi ki, qarı evdəki narkotikadan da xəbərdardı. O, dərhal fikirləşdi:

— Bəlkə, hər şeyi olduğu kimi qarıya açıb deyim? Deyim ki, anamın imkansızlığı, bacımın xəstə olması ucbatından mən bu işə girişmişəm, Sənubər xala. İndi də geriyə yolum yoxdu. Lap tutalım, dedim, qarı mən deyənlərə inanacaqmı? İnansa, nə olacaq? İnanmasa, nə olacaq? Etiraf hər dərdə çarədimi?.. Tutaq ki, bu iyrənc narkotika alverindən əl çəkdim. Onda bacım necə olsun? Onun dərman pullarını hardan tapım? Tələsmə Nəsiman, sən narkotika alverçisi olduğunu belə asanlıqla boynuna alacaqdınsa, bu yaramaz, özünü alçaldan işə bilərəkdən niyə qoşulurdun?

Suallar sap kələfi kimi çözələndikcə, Nəsimanın başı dumanlanırdı. Sənubər qarı dedi:

— Çox yaxşı oğlansan, ancaq pis şagirdsən. İncimə məndən, Nəsiman. Mən həm də anayam. Başqalarına düzgün tərbiyə ve-

rə bildiyim halda, öz doğmaca oğlum Cəsarəti qüsurlu böyütmüşəm. Onun qüsurları çoxdu. Bunun üçün hər dəfə özümü məzəmmətləyirəm. Təəccüblüdür, harda səhvə yol verdiyimi tapa bilmirəm. Hərdən oturub fikirləşirəm: "Bəlkə, ona yersiz güzəştlər eləmişəm? Bütün istəklərini yerinə yetirməyə çalışmışam? Oğlumu zəhmətə alışdırmamışam? O, hər şeyi hazır əldə eləyib? Ömrümün qürub çağlarıdı. Bu yaşda övlad dərdi çəkirəm. Ondakı qüsurlar məni sarsıdır... Hərdən səndən gizləsəm də, göz yaşlarıma səbəb olur onun haqqında eşitdiklərim".

— Axı nədi, onun qüsurları?

Sənubər kövrəlib başını yellədi, sonra da oğlunun qüsurlarını deməkdən vaz keçdi. Nəsiman daha heç nə soruşmadı. Handan-hana özünü ələ alan qarı çöhrəsində təbəssüm yaradıb dedi:

— İnsan gələcək üçün yaşamalıdı. Gələcəyi düşünməyən şəxsin — "İnsanam" — deməyə haqqı yoxdu. Mən şagirdlərimin, övladlarımın, sən də onlardan biri, insani hisslərlə yaşamasını görmək istəmişəm. Bu yaşda, bu təcrübədə o sözü deməyə mənim də haqqım var, Nəsiman.

— Axı həmişə elə olmur? Düz tutub getdiyin yol bəzən səni elə tufanlarla qarşılaşdırır ki, özün də məəttəl qalırsan. Hey — "Bu niyə belə oldu?" — deyə düşünürsən. Günahkar axtarmalı olursan. Cəsarət qardaşdan danışdız. Bəlkə, siz müəllim kimi, ana kimi çox tələbkarsız? O, sizin tələblərinizi ödəyənmədikdə ondan incik düşürsüz?

— Mənim heç kəsdən maddi ehtiyacım yoxdu. Mən də hamı kimi mənəvi ehtiyaclıyam. Neçə vaxtdı sən də bu evdə qalırsan. Bircə dəfə Cəsarətin gəlişini görmüsənmi? Onu tanıyırsanmı? Qızım, Narınc da elə. Hiss eləyirəm, ana-bacına çox diqqətlisən. Bilirsən, bu məni nə qədər sevindirir? Qəlbinə toxunmasın, hərdən anana qibtə eləyirəm. Həmişə elə ol. Onu sındıra biləcəyindən qorx. Onda Allahın sevimlisi olarsan.

— Bəs, bayaq dediniz pis şagirdəm.





— Bəli. İndi də sözümün üstündə dururam. Yaxşı oğulsan, ancaq pis şagirdsən. Sənin də qüsurların çoxdu. Ancaq neyləmək olar... Mənə elə gəlir ki, evlənsən, bir çox qüsurların yavaş-yavaş itib-batacaq. Bir çoxunu da arvad özü korrektə eləyəcək. Onda olacaqsan əla kişi.

Otağı gülüş səsləri bürüdü. Handan-hana Nəsiman soruşdu:

— Arvad alsam, nə olacaq ki?

— Heç nə?.. Yelin-quzun çıxacaq. Şərəşur işlərdən uzaq olacaqsan.

— Yenə Qaçay Qılınclı? Axı ondan nə pislik görmüsən, bu qədər narazılıq eləyirsən?

— Ondan tək mənim pislik görməyim şərt döör. Deyirlər, məhəllənin ağıldan dürək yeniyetmələrini, gənclərini pulla şirnikdirir, sonra qurduğu tələyə ayaqlarını salır, onlara narkotik maddələr satdırır. Ağıldankəmlər də narkotika sata-sata həm də ondan çəkirlər. Tez bir zamanda alışırlar narkotikaya. Sonra səsləri ya türmədən, ya da xəstəxanadan gəlir. Ən pisi də odur ki, qadınlar da, cavan qızlar da tutulublar o xəstəliyə. Bunun axırı hara gedir? Bala, mən istəməzdim sən o bəlaya düşəsən.

— Sənubər xala, Qaçay Qılınclı adamları məcburən narkoman eləmir ki? Özləri ayaqlarıyla gedirlər, ciblərinin pulunu verirlər. Burda Qaçay Qılınclının günahı nədi?

— Mən müstəntiq döörəm suallarına cavab verəm. Hamı eyni ağılda döör ki? Ağılsız adamı bəyəm, şikəst eləyərlər?.. Məəttəl qalmışam polislərin işinə. Gəlib təzə-təzə başlayanları tuturlar, bir qisminin də cibinə özləri narkotik maddə atırlar, aparıb içəri soxurlar, evlərində, ciblərində nə var soyurlar, Qəribədi, Qılınclıya yaxın gedən, onun adını tutan da yoxdu.

Nəsiman özünü elə aparırdı ki, guya heç şeydən xəbəri yoxdu, özü də Qaçay Qılınclının tələsində çabalamır. O, qəsdən dedi:

— Bəlkə, Qaçay Qılınclı qanun keşikçiləriylə əlbirdi?

— Elə olmasa, belə qələt eləyə bilərmi? İndi hansı zəmanədi? Kim kimin nə eləməsindən xəbərsiz ola? Cəsarət evlənib burdan gedincəyədək gecələr yuxudan diksinib qalxırdım. Bəzən havalı adamlar kimi öz-özümə danışardım. Axır ki, bir dəfə dözməyib binanın tinində tutdum Qaçayı. Gözlərinin içinə dedim: — Qaçay Qılınclı, əlacsızlıqdan vəkilliyə adını saldırmısan, ləkələnmiş adamsan. Əslində, sənə iş verən də yoxdu. Nə işlər tutduğunu, hansı yuvanın quşu olduğunu çox yaxşı bilirəm. Canına and olsun, eşidəm-biləm Cəsarəti arxanca çəkmisən, onu bu çirkin oyuna qatmısan, səndən əl çəkən döörəm. Baxma ki, qadınam. Bağırsaqlarını bu əllərimə dolayaram. Qəflətən üstünə benzin töküb səni də, özümü də odlayaram...

Qılınclı üzümə baxa-baxa qaldı. Nə "hə" dedi, nə də "yox". O vaxtdan o yaramazın səsini almışam...

— Cəsarət özü narkotikaya meyl eləsəydi, onda necə? Günahı yenə də Qılınclıda görəcəkdinizmi?

— O, Cəsarəti elə işlərə yaxın buraxmamalıydı. Yadda saxla, adam gizli, sirli işlərə həmişə meyilli olur. İstəyir, görsün orda nə var? Onun üçün hər cür anlamazlıq eləyir. İndi səndən soruşuram, cinayət nədən törəyir?

— Cahillikdən... Anlamazlıqdan... Dardüşüncəlilikdən... Nəfsgirlikdən... Ağıllı adam ona deyirəm ki, yaranmış şəraitdə özü-özünü qoruya bilsin. Hər deyilən sözə inanmasın. Elə biri götürək səni. Bir axmaq iş törədib beş-on il gedib türmədə yatıb gələ bilərsən. Bədənin sağlam olarsa, sənə əlavə tor atmazlarsa, türmədən çıxarsan. Sonra tutaq ki, həbsinin o qədər də fərqinə varmadın. Bəs, doğmalarının çəkdikləri əzab-əziyyətlər, yanıb-yaxılmalar, onların göz yaşları necə olsun? Ən pisi odur ki, sən gəlincə əzizlərin dünyalarını dəyişə bilərlər. Bir daha bir-birinizi görməyə bilərsiz. Onda necə olsun, oğlum. Ömrün boyu əzab çəkməyəcəksən ki? O naqis əməlləri özünə bağışlaya biləcəksənmi?





— Düz sözə nə deyə bilərəm, Sənubər xala. Ancaq deyirlər qismət də var.

— Qələt eləyirlər. Ağıllı oğul ana-bacı ağlatmaz. Bunu qulağında sırğa elə.

* *
*

Bir gün əvvəl narkotik maddələrin satışından min manat həmyerlisindən anasına göndərən, nə az, nə çox, yeddi min də Qaçay Qılınclıya ötürən Nəsiman səhər yuxusundan hövlnak qalxıb əl-üzünə su vurdu. O, öz otağına keçdi, Sənubəri yuxuya verib narkotikayla doldurulmuş kibrit qutularından bir neçəsini ciblərinə qoydu. Sonra astadan qapıdan çıxdı. Yolu keçib yavaş-yavaş üzüaşağı parka tərəf getməyə başladı. Nədənsə, halı özündə deyildi. İstədi geri qayıtsın. Yatıb bir az dincəlsin, özünə gəlsin. Alverə olan həvəsi onu bu fikrindən döndərdi. O, yoluna davam elədi. Parkın içərisindəki çayxanaya çatanda gördüklərinə inanmadı. O, dərhal təhlükə hiss eləyib, yaxınlıqdakı qolbudaqlı qovaq ağacının arxasına keçdi. Diqqətlə çayxanaya baxdı. İçəridə yaranmış ixtişaşı görcək istədi parkdan uzaqlaşsın. Bu anda çayxananın içindəkilərdən bir neçəsi süpürüşə-süpürüşə çölə çıxdılar. Polislər iki nəfərin qollarını burub maşına tərəf aparırdılar. Bir neçə polislə gənc narkotiklər arasında hələ də didişmə gedirdi. Elə bu vaxt narkotiklərdən biri polislərin əllərindən çıxıb Nəsimana tərəf qaçdı. O, əvvəl çaşdı. Nə eləyəcəyini bilmədi. Nəsiman dərhal özünün də ilişəcəyini, narkotika dolu kibrit qutularının ciblərindən çıxarılacağını düşünüb o da qoşa dayanan binalara tərəf var gücüylə qaçmağa başladı. Polislərdən ikisi onun ardınca düşdü. Bu anda tindən çıxan əli zənbilli hamilə qadınla toqquşdu, ayıyla, canavarla qarşılaşmış kimi qadın qorxaraq əlindəki zənbili bir kənara atıb qışqırmağa baş-

ladı:

— Vay öldüm, belim sındı. Kömək eləyin.

Polis qaça-qaça ona yaxınlaşırdı ki, qadın cəld ayağa qalxıb polisi qucaqladı:

— Məni... Məni... Həkimə... Həkimə... Vəziyyətim ağırdı. Yoxsa...

— Burax məni, cinayətkarı tutaq. Sonra danışarıq.

Polis qadının əlindən çıxmağa çalışırdı ki, ayağı büdrəyib o da yıxıldı. Tez də ayağa qalxıb Nəsimanın ardınca qaçmağa başladı.

Vəziyyətdən qurtaranmayacağını düşünən Nəsiman "Suda boğulan saman çöpünə əl atar" düşüncəsiylə qoşa binalardan birinin girəcəyinə soxuldu. Polis həyətə keçəndə qaçan adamı görmədi. Yaxınlıqda zibil aparan qırx-qırx beş yaşı olar-olmaz məhəllə sakinindən soruşdu:

— Narkoman hara qaçdı?

"Narkoman" sözünü eşidən kimi məhəllənin narkoman sakini həmkarını satmaq istəməyib polisə əks istiqaməti nişan verdi.

Polis dərhal dedi:

— Ola bilməz. O, bu tezliyə qaçıb canını qurtaranmazdı.

— Mənə nə düşüb yalan dınışım. Polissən deyə bəlkə gəlib gözümü də çıxarasan? Kişinin boğaz arvadına kömək eləmək əvəzinə... Bir də ki, mən onu niyə müdafiə eləməliyəm? Bəyəm, onu tutmaq olardı? Görmədin, Qarabağ atları kimi qaçırdı. Elə sürət adam balasında olanmaz.

— Söz güləşdirmə... Polisə kömək eləmək lazımdı.

İkinci polis də gəlib çıxdı. Zibil atan kişinin danışıqlarını eşitcək o, həmkarına dedi:

— Ayə, bununla nə ağız-ağıza verib söz güləşdirirsən? Bu da onun tayıdı da.

Birinci polis güldü.

— Deyirsən onun əvəzinə bunu aparaq?





Zibil atan kişi:

— Bax, onu bacararsan. O da sizə ağır başa gələr.

Elə bu vaxt yıxılan qadının səsi eşidildi:

— Düşdü... Düşdü... Təcili yardım.

Zibil atan kişi:

— Gedin onu aparın, sonrasına da özünüz cavab verərsiz. Qovulanın aradan çıxdığını, yıxılan qadının vəziyyətinin pis olduğunu anlayan polislər başlarını bulaya-bulaya kor-peşman geri qayıtdılar.

Hadisəni əvvəldən axıradək müşahidə eləyən zibil atan kişi qadını təcili tibbi yardım xəstəxanasına yola salan polislərin getdiyinə əmin olduqdan sonra özünü girəcəyə salıb Nəsimanın ardınca yuxarı qalxdı. Oğlan binanın çardağına çıxmışdı. Onu dəhşətli qorxu, vahimə bürümüşdü. Zibil atan kişi onu görcək gülümsəyə-gülümsəyə bildirdi:

— Qorxma, yola saldım getdilər. Yamanca ilişəcəkdin. Ağızların döndərdim o tərəfə.

— Sən məni tanıyırsan?

— Sən bizim adamsan. Deyirsən, özümüz-özümüzü də tanımayaq?

— Axı mən səni tanımadım.

— Eybi yoxdu, sonra tanıyarsan. Mənim kibrit qutumu ver, mən gedim. Özün də düş əkil. Qayıda bilərlər.

Nəsiman kibrit qutusunun birini zibil atana verdi. O, dərhal dedi:

— Bu, havayıdı?

— Halalın olsun.

— Sən Qaçay Qılınclının şkolasındansan?

— Nədən bildin?

— Materialdan. Kişi bacarıqlı adamdı.

Tələm-tələsik çardaqdan düşən Nəsiman təntimiş halda evə qayıtdı. Yatağına uzandı. Heç cür rahatlana bilmədi. Gün günor-

tadan əyiləndə qalxıb ayaqlarını sürüyə-sürüyə metronun qarşısına getdi. Özü də olduqca ürəksiz halda. İçində bir qorxu, çəkingənlik də vardı. Qəzet köşkünün yanında dayanmışdı ki, bir nəfər ona yaxınlaşdı:

— Qərdüşümsən, bir dənə təşkil elə. Görək nə olur?

Nəsiman istədi onu özündən uzaqlaşdırsın.— Sən məni dəyişik salmısan — desin. Oğlanın gözlərinin qızardığını görüb fikrindən vaz keçdi, qəzet köşkündən aralandı, yaxınlıqdakı zibil kaskalarının yanına gəlib kibrit qutusunu ora atdı. Sonra da cəld geri qayıdıb bir qutunu oğlana verdi, pulunu alıb dayandıqları yerdən uzaqlaşdı...

Aradan xeyli keçmiş Nəsiman yenidən metrounun çıxacağına gəldi. Bir tərəfə çəkilib müştəri gözləyirdi ki, Qaçayı metrodan çıxan gördü və ona yaxınlaşdı. Əl verib görüşdülər. Qaçay Nəsimanın kefsizliyini dərhal durdu:

— Nə baş verib? Yoxsa, kefinə soğan doğruyan olub?

— Hə... Olub.

— Qorxmusan?

— Çox.

— Saxlama, danış görüm, nə baş verib?

Nəsiman baş verənləri yerli-yataqlı danışdı. Qaçay tutuldu. Handan-hana gülümsündü:

— Gedək çayxanaya, susuzluqdan boğazım quruyur.

— Məni ilişdirərlər.

— Qorxaqlar gözüqıpıq olurlar.

— Üstümdə qutular var.

— Çox yaxşı.

Qaçayla Nəsiman birbaşa çayxanaya gəldilər. Küncdəki stolda əyləşib çay sifariş verdilər. Qaçay çayçıdan soruşdu:

— Polislər hardadı?

— İndi gələrlər.

— Eşitdim burda haray-qışqırıq salıblar. Uşaqları qorxudublar.





— Bir balaca.

Qaçayla Nəsiman adama bir stəkan çay içmişdilər ki, iki polis içəri girdi. Onları görcək Nəsimanın sifəti bozardı. Ürəyinin gubbultusunu eşitdi. Astadan Qaçaya pıçıldadı:

— Onlar gəldilər.

Qaçay çevrilib qapıya tərəf baxdı. Sonra əliylə onlara: “Bura gəlin” işarəsini verdi. Polislər gülə-gülə gəlib Qaçayla görüşdülər. O, dərhal dedi:

— Əyləşin.

Polislər əyləşdilər.

Qaçay bu dəfə çayçıdan iki stəkan gətirməsini xahiş etdi. Nəsiman stəkanlara çay süzdü. Qaçay sakit tərzdə polislərdən soruşdu:

— Eşitdim bu gün aləmi qarışdırmısız. Yaxşı, bizə vurduğunuz ziyanı kim ödəyəcək?

Ucaboy polis dedi:

— Narahat olma, əvəzini çıxarıq.

Qaçay Nəsimanın üzünə baxdı. O, çaşdı. Nə deyəcəyini bilmədi. Qaçay dedi:

— Çıxar, hərəsinə bir qutu kibrit ver.

Nəsiman sanki qulaqlarına inanmadı. Qaçay dediklərini təkrar elədi.

Gödəkboylu, dolubədənli polis gülərək bildirdi:

— Çıxar, qorxma.

Nəsiman cibindəki kibrit qutularından polislərin hərəsinə birini verib hamiləlikdən yenicə qurtaran qadınlar kimi özündə bir yüngüllük hiss elədi. Sonra da onu dəhşət bürüdü. Gözləri önündə açılan bu qeyri-adi mənzərəni heç cür qiymətləndirə bilmirdi. Ömrü boyu düşündükləriylə indi gördükləri arasında dərin bir uçurum yaranırdı. Nəsiman çalışırdı ki, günün birinci yarısında keçirdiyi hissləri, düşüncələri, qəlbinə ağırlıq gətirən,

içində vahimə oyadan hər nə varsa, hamısını bir kənara atsın, ruhunu, əhvalını indiki anla bağlasın. Gözlərini yumdu, bir daha səhərki qorxu, vahimə hisslərini özündən uzaqlaşdırmağa çalışdı.

Qaçay Nəsimana:

— Arxeyin ola bilərsən. Sən işinlə məşğul ol — dedi.

— Oldu.

Stəkanlarını boşaldıb ayağa qalxdılar. Polislər parkın aşağısına, Qaçayla Nəsiman yuxarısına tərəf getdilər.

* *
*

Səhərdən ürəyində küt ağrı hiss eləyən Sənubər zəng səsinə yatağından qalxdı, halsız halda gedib qapını açdı. Gözlərinə inanmadı. Gələn oğlu Cəsarət idi. Ucaboy, sarıbəniz, saçları yana daranmış bu oğlanın otuz beş-otuz altı yaşı ancaq olardı. Onun uzun sifəti, buz kimi soyuq, göy gözləri, geniş alnı, şiş burnu, qara, lopa bığları vardı. Əyninə göy kostyum, ağ köynək geymişdi. Qırmızı qalstuk vurmuşdu. O, atasının qırxından sonra ilk dəfəydi ki, bu qapını açır, anasıyla salamlaşırdı. Oğlunu görcək ananın ürəyi titrəsə də özünü o yerə qoymadı. Onun üz-gözündən soyuqluq, məyusluq yağırdı. Ananın zahiri görkəmi oğula da təsir elədi. Oğlan tutuldu və handan-hana titrək səslə anasından soruşdu:

— Evə keçə bilərəmmi?

Ana küskün halda arxaya çevrilib astadan laqeydcəsinə:

— Gəlmisən, keç içəri, qapı ağzında dayanma. Oğlan içəri keçib, ayaqqabılarını çıxarmadan birbaşa anasının arxasınca getdi. Stulda əyləşib gözucu otağı — divara çəkilmiş kağızları, evdəki əşyaları nəzərdən keçirtdi. Dərindən köksünü ötürdü, sonra kinayəylə soruşdu:





— Mənə xoş gəlmisən demədin, ana.

— Nə əkərsən, oğlum, onu da biçərsən. Neçə vaxtdı üzünü görmədiyin, bircə dəfə telefon açmadığın, ölüsündən-dirisindən xəbər tutmadığın anana salam verməyib — Xoş gəlmisən — eşitmək umacağındasan. Bir şeyə heyfslənirəm.

Araya sükut çökdü. Bir müddət nə ana, nə də oğul səsini çıxardı. Handan-hana Cəsarət soruşdu:

— Heyfsləndiyin nədi?

— Adını Cəsarət qoymağım. Özünə uyğun sənə ad qoymamağıma heyfslənirəm. Rəhmətlik atan səni canından çox istəyirdi. Bircə dəfə gəlib məni onun qəbri üstünə aparmısanmı? Ya özün getmisənmi? Yəqin uşaqların da babalarını unutmuş olarlar — Ruhu şad olsun — deyə atana bircə dəfə Yasin oxutdurmusanmı?

— Bilirsən ki, mənim elə şeylərdən xoşum gəlmir. Elə işlər köhnənin qalıqlarıdı. Bir də ki, torpağa basdırılan ölü kimlərin ziyarətinə gəlib-getməsini hardan biləcək? Neçə tonluq torpaq altında qalan ölü Yasini hardan eşidəcək? Lap eşitsin, mənasını başa düşəcəkmi? Elə danışırsan, adamın gülməyi gəlir. Özün də müəllim olmusan, uzun müddət camaatın balasına ağıl vermisən, elm öyrətmisən.

— Əvvəla, müəllimliyimə şübhə eləməyə haqqın yoxdu. İkincisi, ağıl, elm verə bilsəydim, səni adam eləyərdim. Üçüncüsü, ölünü ziyarətə getmək gerilik əlamətidirsə, arvadının qırx il əvvəl dünyasını dəyişmiş nənəsinin üstünə ayda iki-üç dəfə niyə gedirsən?

— Bilmirsən, niyə gedirəm? Getməsəm, evdə dava-dalaş başlanır. Mırta-mırt qulağımı aparır.

— Bərəkallah, danışığına. Özün bilərsən, atan ölüb-gedib. Bir də səninlə qarşılaşmayacaq. Umu-küsü eləməyəcək. Səni utandırmayacaq... Arvadının nənəsinin ziyarətinə də pis baxmıram. O da lazımdı. Allah qəni-qəni ona da rəhmət eləsin. İnsa-

fən, pis adam döördü... Qaldı atana, sənə məndən çox o, zəhmət çəkib. Səni onun umuduna qoyub işə getmişəm... O, səni sinəsi üstündə oynadıb. Gündə yüz dəfələrlə üz-gözündən öpüb. Elə kişinin ruhuna da belə sədaqətsizlik, hörmətsizlik? Atana nə eləmisənsə, vaxt gələcək onu da uşaqların sənə eləyəcəklər. Bacın da sənin kimi... Axı, biz sizə belə tərbiyə verməmişdik... Bir rəvayət yadıma düşür. Onu qonşumuz rəhmətlik Zeynəb qarı tez-tez danışardı. Bir zamanlar guya adamlar yaşlanırlarmış, ancaq ölmürlərmiş. Oğullar qocalıb əldən düşən valideynlərini səbətə qoyub apararlarmış dağın uca zirvəsinə. Atalarını orda qayalara, daşlara tapşırıb, arxalarına baxmadan qaçarlarmış evlərinə. Bir gün sənin kimisi də atasını həmin zirvəyə aparır. Atasını səbətdən çıxarıb qara bir daşın üstündə oturdur. Oğul geri qayıdanda ata ürəyi dözməyib deyir:

— Oğlum, səbəti atma, onu yağışın, qarın altında qoyub xarab eləmə.

— Köhnə səbət nəyə lazım olacaq, ay ata.

— Sənə, oğlum. Bir zaman atamı o səbətdə gətirib mən bu daşın üstünə otuzdurmuşdum. Vaxt gələcək övladların səni də o səbətdə gətirib baban, atan oturan daşın üstündə otuzdurub gedəcəklər... Zənciri qırılmış dünya belə dünyadı, oğlum. Mən günümü görmüşəm, dövranımı sürmüşəm. Bundan sonrakı ömrümü də birtəhər yaşayacam. Sizə maddi ehtiyacım yoxdu, olmayacaq da. Ancaq məni qorxudan, narahat eləyən bacın Narıncla sənin aqibətindi. Unutmayın ki, valideynlərinizə nə eləmisinizsə, onu da görəcəksiz...

— Ay ana, sənə and verirəm kimi istəyirsən onun canına, qarnımı boş-boş sözlərlə doydurma. Onsuz da halım yaxşı döör. Bax, belə danışdıqların üçün də gəlmirəm. Mən özümə cavabdehəm. Narıncsa özü bilər. Əri, uşaqları.

— Xeyir ola, nə yaxşı gəlmisən?

— Gəldim, əvvəla, səninlə görüşüm. Qapını elə açdın, mənə





elə üz göstərdin, “salam” da yadımdan çıxdı. İkincisi, sən nə vaxta qədər tək-tənha yaşamalısan? Gəldim sənə deyim, yığış köç bizə. Bir yerdə yaşayaq.

Sənubər diqqətlə oğlunun üzünə baxdı:

— Yaxşı, bəs bu evi neyləyək?

— Sataq.

Sənubər tərs-tərs oğluna baxdı:

— Ay maşallah, o heç mənim ağlıma gəlməmişdi. Yaxşı oldu, sən dedin... A biqeyrət, niyə qanmırsan ki, bu ev atandan qalıb. Onun ruhu bu evə gəlib-gedir. Onu bu evdən perikdirənmərəm.

Cəsarət təəccüblə anasına tərəf döndü. Sonra kinayəylə soruşdu:

— Ruhu neyləyir?

— Dediklərimi eşitmədin? Yoxsa, yenə təkrar eləyim?

— Ha... Ha... Ha... Yox!.. Oyunun olsun, ay ana. Camaatın balasına neçə onilliklər dərs demisən, indi də danışdıqlarına bax... Köhnə steorotiplər hələ də başındadı. Ağlına nə gəlsə sonalamadan atırsan. İncimə məndən, elə həmin Sənubərsən. Bircə qırıq da dəyişməmisən. Bundan sonra da çətin. Yaxşı deyiblər, həştadında öyrənən gorunda çalar.

— Utanım yerinə. Anayla danışığına bax. Eşidib-bilən sənə nifrət eləyər... Yox, dəyişməyəcəm, Cəsarət, əmin ola bilərsən.

— Tək adamsan, üç otaq nəyinə lazımdı? Futbol oynamayacaqsan ki.

— Onu özüm bilərəm.

— Onda köç bizə. Nə bişirərik, ondan da bir qaşıq yeyərsən. Qoca arvadsan, bu yaşda özünə az əziyyət ver. Bir az da insan kimi yaşa.

— İnsan kimi yaşamıram?

— Yox.

— Mənim dərdimi çəkmə. Ölüncə bu evdə qalacam... Ata-

nın ruhunu incidənmərəm... Deyirsən, insan kimi yaşamıram. Yox, oğlum, belə yaşam məni qane eləyir.

— Ana, xasiyyətinə ağlım söz kəsəndən bələdəm. Dediyindən dönən deyilsən. Gəl, məni başa düş. Mənim uşaqlarım da sənin nəvələrindi. Onları yığ başına, bizimlə qal. Buranı da sataq, əlimizdə ehtiyat pulumuz olsun. Dünyanın işini nə bilmək olar? Bu gün varsan, sabah yox. Kimdi dünyanı tutub duran? Ölüm qaşla göz arasındadı, — deyirlər.

— Sən onun üçün narahat olma.

— Ana, bəlkə, qızının adına keçirmək istəyirsən bu evi? Bu dilləri o, sənə verib? Ağıllı ol, ha... Sonrası pis olar.

— Başın xarab olub?

— Unutma ki, atanın malı oğula düşür, kürəkənə yox.

— Hə... Belə de... Xoruzun quyruğu görünür...

— Satmağa razı olmursan, onda gəl buranı kirayəyə verək.

— Vermişəm, sən narahat olma.

Bu sözləri eşidən Cəsarət qalxıb yan otağa keçirdi ki, Sənubər onun yolunu kəsdi:

— Başqasının otağına icazəsiz keçməzlər.

— Onu mən bilərəm.

Cəsarət anasını kənara itələyib Nəsiman yatan otağa keçdi. Onun paltarlarını, əşyalarını bircə-bircə əllərinə alıb yuxarı qaldırdı, sonra da əsəbi halda döşəməyə atdı. Çarpayısının altındakı zənbili açıb eşələdi, köynəyin arasındakı narkotik maddəni və kibrit qablarını gördü. Sonra anasına sərt halda dedi:

— Bu narkoman kimdi? Kirayənişin saxlamağa bir qadın tapanmırdın? Bu yaşda sənə kişi nə lazım idi? Bayaqdan atamın ruhunun inciyə biləcəyindən danışırdın. Özün onun ruhuna xəyanət eləyirsən?

Sənubər əsəblərini cilovlayanmayıb Cəsarətin üzünə bir sillə vurdu:

— Alçaq, sən mənə nə deyirsən? O, mənim nəvəm yerindədi. Mənə həyandı. Sənin kimi qeyrətsiz oğuldan min dəfələrlə o, yaxşıdı. Çıx evdən, bir də bura üz tutma.. Mən öləndən sonra gəlib atanın əmlakına sahib olarsan. Ay alçaq, bu yaşda mənə kişi lazımdı?

Sənubər Cəsarəti itələyə-itələyə qapıdan çıxarırdı ki, Gülgəz qarı qapı ağzında göründü. O, Cəsarəti ayaqdan başa süzüb başını yellədi. Cəsarət pilləkənləri enib getdi. Gülgəz üzünü Sənubərə tutdu:

— Qonşulardan ayıbdı, keç içəri.

Qarılar içəri keçdilər. Sənubər stulda oturub ağlamağa başladı. Oğluyla arasındakı söz-söhbəti təfərrüatıyla danışmasa da oğlunun evini satmaq istədiyini bildirdi.. Gülgəz də anayla oğul arasına girmək istəmədi. Sadəcə olaraq bildirdi:

— Yaxşı, özünə gəl. Cavanlar hamısı belədi. Qocaları düz başa düşmürlər. Şeytana lənət oxu.

— Ay pir olmuş, burda şeytanlıq nə iş var? Yaramaz işlər görürük, ağzıbaşına danışırıq, sonra da şeytanı günahkar çıxarırıq. Ay bacı, mən həmişə demişəm, indi də deyirəm, şeytan insanların özləridilər...

— Eh... İnsanın başına hər an bir fikir gəlir, Cəsarət də elə. Bir az əvvəl ağlına gəlib ki, evi satsın, indi də görür ki, sən razı döörsən, dediklərinə peşman olacaq.

— İnanmıram. Evin satılması arvadının fikridi. Yoxsa, onun ağlına belə şey gəlməzdi... Sən otur, mən bir çay hazırlayım. Boğazım qurudu.

Sənubər qalxıb çaydanı suyla doldurdu, qaz pillətəsinin üstünə qoydu. Geri qayıdırdı ki, qapı bərk döyüldü. Bu dəfə qapını Gülgəz açdı. Üç polis nəfəri içəri daxil oldu. Onlar özlərini təqdim etdilər: polis mayoru Həsənov, leytenant Canıyev və serjant Məkirov.

Sənubər təəccüblə onları nəzərdən keçirtdi. Heç nə başa düşməyib dedi:

— Eşidirəm.
Həsənov:
— Bu ev kiminkidi?
— Mənim.
— Çox yaxşı. Evdə axtarış aparmalıyıq.
Gülgəz:
— Nə məqsədlə?
Canıyev:
— Sonra bilərsiz.
Sənubər:
— Böyük-böyük danışma.
Məkirov:
— İmkan verin, axtarış aparaq. Onda hər şey aydın olar.
Həsənov:
— Kirayənişin saxlayırsız?
Sənubər:
— Bəli!
— O, hansı otağı kirayə eləyib?
Sənubər otağı əliylə göstərərək.
— Bu otağı, necə bəyəm? — dedi.

Həsənov qabaqda, digər polislər də onun ardınca otağa keçdilər. Əllərini çarpayının altındakı çantaya atıb narkotik maddəni və narkotika yığılmış kibrit qutularını çıxartdılar. Həsənov üzünü Sənubərə tutdu:

— Qarı, bu tanımadığın narkomanı evə niyə buraxmısan?
— O, narkoman döör.
— Bəs bunlar nədi?
Ani olaraq Sənubərin ağlına belə bir fikir gəldi:
— Ona toxunmayın.
— Niyə?
— O rəhmətlik kişidən qalıb. Yadigardı. Ələ-zada düşməsin — deyə çantaya onu bu səhər mən qoymuşam.





— Ərin narkoman idi?
— Elə ciddi yox. Hərdən, az-az...
Gülgəz Sənubəri dərhal anladı və mayora dedi:
— Yəni, deyirsiz rəhmətlik kişi döördü?
Canıyev:
— Mayor, bunlar qarı döörlər ey, aferistdilər.
Gülgəz:
— Aferist əziz istəklilərindi, yaramaz!
Məkirov:
— Bunları aparaq şöbəyə.
Sənubər:
— Gedəyin. Görək kim kimə... Ayə, mənim yetmiş altı yaşım var. Hay-hayım gedib, vay-vayım qalıb. Məni həbs eləyəcəksiz?..
Gülgəz:
— Ona duxları çatmaz.
Həsənov:
— Deyəsən, siz polisin nə olduğunu bilmirsiz?
Gülgəz:
— Bala, biz bilməyən iş yoxdu. Özünüzə əziyyət verib bizi ora aparmayın. Lazımsa, tamırınız çəkirsə, bir neçə qram sizə də görüm-baxım eləyərik. Ondan ötrü özünüzü cırmağa dəyməz.
Canıyev:
— Yekə adamsan, o nə danışıqdı?
— Nə danışıqdı? Siz hələ gedin familiyanızın dərdini çəkin. Adam deməyə də utanır. Canıyev, Məkirov... Pa... Pa... Pa... Qulaq da qəbul eləmir. Bir-iki səs o yan-bu yan olsa, aləm qarışar.
Həsənov:
— Mənimki necədi? O da xoşunuza gəlmir?
Gülgəz:
— Onu evindəkilərdən soruş, mayor.

Həsənov:

— Mən familiyamı deyirəm.

Sənubər:

— Hə... Səninkinə söz olanmaz. Əsl müsəlmansayağıdı.

Canıyev:

— Cənab mayor, bunları çox saxlasaq, işin içindən qəmbərqulu çıxacaq. Tərs kimi də üzü axşama gedir. Təklif eləyirəm, aparaq, qoy rəislə dilləşsinlər. Onda xəta-bəladan uzaq olarıq.

Məkirov:

— Mən də elə düşünürəm, mayor.

Mayor qəflətən qışqırdı. Gülgəz qarı özünü saxlayanmayıb hıçqırdı. Arvadın bütün bədəni titrədi. Sənubər mayorun əlindəki narkotik maddəni alıb qeyzlə dedi:

— Bu elə belə şey döör, mayor. Sizə dedim, o rəhmətlik kişidən mənə əmanətdi.

— Ondan da əmanət olar? Biz yaxşı bilirik, o zəhrimar Nəsimanındı. O, it oğlu anaşa satmaqla məşğuldu.

— Nəsimanın adını çəkmə. Özün də öyünmə ki, mayorsannəsən. Biz mayor-miyor tanımırıq. Adamlara böhtan atmayın. Utanmırsız, bəyəm biz narkotik maddə qəbul eləyənə oxşayırıq?

— Mən sizi demədim ki. Oğlun Cəsarət özü Nəsimanın adını verib. Yoxsa, biz hardan bilərdik sizin evdə, çarpayının altındakı çantada narkotik maddə olduğunu?

Sənubər gülməkdən uğundu. Qarnını tutub əyildi-düzəldi. Gözləri yaşardı. Onun nə üçün güldüyünü anlayan Gülgəz də əvvəl hi... hi... hi... hi... eləyə-eləyə uğunmağa başladı. Onları görən polislər də qarınlarını tutub uğundular. O, uğundu, bu uğundu, nəhayət, hamısı bir yerdə uğundu. Uğunmaq səsinə qonşular da tökülüşüb gəldilər. Onlar da dayanıb əvvəl sakit-sakit uğunanlara tamaşa elədilər. Sonra da bir-birilərinə baxıb yavaş-yavaş gülməyə başladılar. Çox çəkmədi ki, uğultu bütün məhəlləni bürüdü. Səsə Qaçay Qılınclı ilə Nəsiman da gəlib





çıxdılar. Sənubər Nəsimanı görcək uğultunu xırp kəsdi. Nəsimanı hadisədən hali eləmək üçün bayaq dediklərini indi təkrarlamağa başladı:

— Hə... A kişilər, a xanımlar, kəsin bu yersiz hırıltıları. Mən bayaq da dedim, indi də deyirəm, o narkotik maddə ərimdən qalmadı. Bayaq oğlum Cəsarət gəlmişdi. Qorxdum kişinin əmanətinin dalına keçə. Ona görə də həmin maddəni və kibrit qutularını Nəsimanın çantasında mən gizlətmişəm. Hara deyirsiz, gedək, kimə deyirsiz, deyək. Balam, ölmüş adamın vaxtı ilə tutduğu işi dirinin üstünə yıxarlar? A kişilər, ev mənim, narkotik maddə rəhmətliyin, başqasının bura nə dəxli var. Beş gün evdə saxlamışam Nəsimanı, saxlamamış olum. Hə... Bu da Nəsiman. Atalar demişkən: “Adın çək, qulağın bur”. Özü də gəldi çıxdı söhbətin üstünə. İndi danışdırın onu görək nə təməssük anlayacaqsız? Heç nə. Bilirsiz niyə? Çünki narkotikadan o, xəbərsizdi...

Gülgəz tez irəli çıxaraq Nəsimanın yaxasından tutub mayorun yanına apardı. Sonra Nəsimana əsəbi halda dedi:

— Hə... Ayə, qırışmal, sən narkotika nə olan şeydi bilirsən?

Nəsiman sezilməz halda əvvəl Sənubərin, sonra Qaçayın üzünə baxdı. Hər ikisi başını yelləyərək ona “yox” işarəsi verdilər. Nəsiman ağız-burnunu büzüşdürdü, handan-hana “nə narkotika?” dedi. Başını itirib nə eləyəcəyini bilməyən mayor Həsənov leytenant Canıyevlə Məkirovun üzünə baxdı. Onlar da özlərində deyildilər. Hardansa leytenant Canıyevin ağlına belə bir fikir gəldi:

— Hi... Cənab mayor, narkomanları da, əşyayi-dəlil kimi narkotik maddəni də, hətta, kibrit qutularını da şöbəyə aparmalıyıq. Orda Sənubərlə Gülgəz özləri əsaslandırarlar narkotikanı bura kim, necə və hardan gətirib. Onda narkotik maddə qalar, rəis bunları buraxar. Yox, əsaslandıranmazlar, onda narkobiznesə qurşanmış adamlar kimi məsuliyyətə alınarlar. Türmədəki

obşaklara da özləri cavab verərlər.

Məkirov:

— Əla fikirdi, cənab mayor. Yoxsa, rəisin əlindən çıxanmarıq. Bizə bir zor gələr, yaşamaqdan imtina eləməli olarıq. Hələ nəsli-zatımızın çəkəcəkləri xəcaləti demirəm.

Mayor Həsənov Sənubərlə Gülgəzin qollarına qandal taxdı. Özü qabaqda, Canıyev Sənubərin, Məkirov Gülgəzin qolundan tutub onun ardınca pilləkənləri düşdülər. Onları maşına əyləşdirib birbaşa polis şöbəsinə apardılar. Hadisədən heç cür baş açanmayan adamların hərəsi özündən bir şey uydururdu. Qonşu səy Güləndam: — Bu, dünənki iş döör ki, bilmirdiz, Sənubər əri dövründən narkobizneslə məşğul idi? Gop-kələk Anaqız: — Neçə dəfə özüm şahidi olmuşam Sənubərin narkotika al-veri eləməsinə. Elədiyini ərinin üstünə yıxır. Zavallı kişinin ruhunu incidir. Ərə belə də sədaqətizlik olar? Gülsəfa qarı: — Özü alıb gətirirdi o gedəyə, kirayənişininə satdırırdı. Yoxsa, bu yaşda gedə nəyinə gərəkiydi onun? Şayiələr getdikcə çoxalır, rəngdən-rəngə çalırdı. Adamlar yavaş-yavaş dağılışdılar. Qaçayla Nəsiman həyətə düşdülər. Nəsiman əsəbi halda bildirdi:

— Qaçay, mən qarıları oda sala bilmərəm. Gedib deyəcəm ki, narkotik maddə mənimdi.

Qaçay Nəsimandan soruşdu:

— Deməyəcəklər hardan almısan?

— Deyərəm zibillikdən tapmışam. Yada deyərəm ki, tanımadığım həmşəridən almışam.

— Yox... Qarılar səni vəziyyətdən çıxarmağa çalışırlar, Nəsiman. Onlar ağıllı qadınlardılar. Düz mövqe seçiblər. Başqa yol yoxdu. Onu da yaxşı bilirlər ki, yaşlarının çoxluğuna görə onları saxlamayacaqlar. İndilərdə onları buraxacaqlar.

— Mən daha onların üzünə baxa bilmərəm. Bundansa, mənə ölüm yaxşıdı.

— Onda köçərsən mənim Mərdəkandakı bağ evimə.





Nəsiman daha heç bir söz demədən həyətdə var-gəl eləməyə başladı.

* *
*

Qolları qandallı polis şöbəsinə gətirilən qarıları mayor Həsənov rəisə təqdim elədi və qoltuğundakı qəzetə bükülü narkotik maddəni stolun üstə qoyub bir neçə addım geri çəkildi. Rəis görən kimi Gülgəzi tanıdı və fikirləşdi ki, onun yanındakı qadın da özü kimi dilli-dilavərsə, onlara söz çatdırmaq müşkül məsələ olacaq.

Rəis boğazını arıtladı, sonra səsinə xüsusi əda verərək mayora dedi:

— Bu qarıların qandallarını açın. Bunların hər ikisi sizin analarınız yaşdadılar. Özünüzə necə sığışdırmısız onların qollarına qandal vurmağı?

Mayor Həsənov özü qarıların qollarındakı qandalları açıb rəisin qabağında dik dayandı. Əmrinizə müntəzirəm, — dedi. Rəis əliylə ona və qarılara “əyləşin” işarəsi verdi.

Gülgəz mayorun üzünə baxıb kinayəylə gülümsündü, sonra da rəisə tərəf dönüb dedi:

— Ağzına qurban olum, rəis. Səndə olan mərifət, qanacaq bunlarda yoxdu. Onların kişiliyi dovşanınkı qədərdi.

Sənubər dərhal rəfiqəsinin böyrünü basdı:

— Kirisənə.

Rəis:

— Mayor, bu nə görəcəkdi?

Mayor:

— Qarılar narkobizneslə məşğuldular.

Gülgəz dərhal atıldı:

— Əvvəla, qarı sənin doğmalarındı. İkincisi, sənin rəisini

mən yaxşı tanıyıram. Bu yaxında mühüm məsələylə əlaqədar görüşmüşük. Kişi müdrik adamdı.

Rəis yerindəcə qurcalandı. Pencəyinin yaxasını çəkib qalustukuna əl gəzdirdi. Sonra qeyri-iradi olaraq dedi:

— Düz deyir.

Mayorun rəngi bozardı. Gülgəz bildirdi:

— Rəis bütün bicliklәri hamınızdan yaxşı bilir. Mənim yaşımdan da xəbərdardı. Sənubər də yetmiş altı yaşın içindədi. Soruşuram səndən, a mayor, iki gedəylə köməkləşib bizi bura niyə gətirmisən?

Rəis mayordan dərhal soruşdu:

— O gedələr kimlərdi?

Mayor dərhal ayağa qalxıb sağ əlini qulağının dibinə aparaq ayaqlarını cütlədi, sonra dil-dodaqları əsə-əsə bildirdi:

— Leytenant Canıyev, serjant Məkirov.

Sənubər başını yelləyərək astadan mızıldandı:

— Canıyevlə, Məkirovla operasiya apararlar? Cənab rəis, elə familiyası olanın belə də əndirabadi əməlləri olar.

Rəis özünü gülməkdən güc-bəlayla saxladı. Üzünü pəncərəyə tərəf tutdu, azacıq fikrə getdi, dərindən nəfəs alıb mayora göstəriş verdi:

— Deyərsən, Canıyev də, Məkirov da təcili familiyalarını dəyişsinlər.

— Oldu, rəis.

Gülgəz:

— Rəis, istəyirəm mayorun da, o gedənlərin də ağıllarını öyrənəsən.

Rəis:

— Niyə?

— Görək onların ağılları varmı?

— Yoxdu?

— Yox!..





Mayor:

— Onu sübut eləmək lazımdı.

Rəis:

— Gülgəz xanım, ağıllarının olmadığını təsdiq eləyən sübut-dəliliniz varmı?

— Var, rəis.

— Onda sübut elə.

— Mənim qollarımı qandallayıb gətiriblər sizin hüzurunuza. Düzdü?

— Düzdü.

— Mən kimin evində qandallanmışam? Sənubərin. Narkotik maddə kimin evindən çıxıb? Sənubərin. Söhbət kimin ərindən gedir? Sənubərin. Elə isə mənim narkotika ilə nə əlaqəm? Əlaqəm yoxsa, mənim qoluma niyə qandal vurub bura gətiriblər? Niyə məni narahat eləyiblər? İctimaiyyət içərisində məni niyə nüfuzdan salmağa çalışırlar? Deməli, mənim hüququmu kobudcasına tapdalayıblar. Mən, cənab rəis, məhkəməyə müraciət eləyib mayordan da, leytenantdan da, serjantdan da hüququmun bərpasını tələb eləyə bilərəmmi?

— Eləyə bilərsən.

— De görüm, onların ağlı var, yoxdu?

— Əslində yoxdu.

— Ay sağ ol. Onda əmrlərini ver, rədd elə işdən.

Rəis söz tapanmadı. Mayorun üzünə baxdı. Mayor boynunu əyib yazıq-yazıq rəisin üzünə pişik kimi marıtdı. Rəis əsəbiləşdi:

— Nə baxırsan, əə, üzümə. Cavab ver də. Ölüsən?

— Rəis bir də elə qələt eləmərəm.

— Otur yerində, qanmaz. Adi vətəndaşın haqlı sözünə cavab verənmirsiz.

Rəis sonra Sənubərdən soruşdu:

— Yaxşı, bu nə narkotikadı?

Sənubər dərhal bildirdi:

— Rəis, rəhmətlik ərimdən mənə miras qalıb.

Rəis:

— Başa düşmürəm, ərin narkotika əvəzinə sənə başqa şey miras qoyanmazdı?

— Hər şeyin qoyub gedib, təkcə özün apardı.

Gülgəz:

— O, rəhmətliyin şəxsi işidi də. Başqa şeyə gücü çatmayıb onu qoyub gedib.

Sənubər:

— Onu əldən verməràm, rəis. Nə qədər ömrüm qaldığını kim bilir? Heç kim. Vəsiyyət eləyəcəm, dünyamı dəyişib gedəndə onu da qəbrimə qoysunlar. Kişinin yanına əliboş getməyim. Yanında üzüqara olmayım.

Rəis:

— Bunu sənə verməsəm, onda necə?

— Məni atın içəri, iki günə öləcəm. Buna şübhəniz olmasın. Çünki şəkərim çoxdu, ürəyim qüsurludu, mədə-bağırsaqlarım da tez-tez qarışır. Rəhmətliyə də deyərəm, kepezedən gəlirəm. Rəis aldı əmanətini əlimdən. Dedi, sən get, özüm gələndə gətirərəm.

— Aa ha... Kişi cənnətdədi, ya cəhənnəmdə? Heç olmasa, yerini bilirsənmi?

— Cənnətdə.

— Nədən bilirsən?

— Vurub, çəkəniydi. Elə adam pis olanmaz.

— Dəqiq bilirsən?

— Hə... O, heç vaxt sədaqətsiz olmayıb. Özü qarşılayacaq. Məni kimsəyə ümid eləməz.

— Bərəkallah, belə kişiyə.

Gülgəz:

— Rəis, and olsun səni-məni yaradana. Burda bizlik iş yox-





du. Nə qədər saxlasan, bizdən heç zad çıxmayacaq. Umacağın varsa, üstündən xətt çək. Əynimizdəki tumandan başqa bir şeyimiz varsa, lap atamıza lənət. Bizi çox danışdırma. İstəyirsən, burax gedək xarabamıza, istəmirsən at içəri. İçəri atsan, bizə daha xoşdu.

— Niyə?

— Çünki burda gündəlik yeyib-içərik. Qarnımızı birtəhər doydurarıq. Təqaüdümüz də yığılar. Burdan çıxanda xeyli pulumuz olar. Ölsək, hüzürümüzə xərclənər. Bəlkə, yalan deyirəm?

— Yox!

Rəis üzünü mayor Həsənova tutaraq əsəbiləşdi:

— Ayə, bunları bura niyə gətirmisiz? Yola salın, getsinlər.

Mayor dik qalxıb qıçlarını cütlədi və əlini qulağının dibinə apardı:

— Oldu, rəis:

Gülzar:

— Mən bu yolu rəis, piyada geri qayıdanmaram.

Sənubər:

— Özünü yorulmuş biləndə, məni də ölmüş təsəvvür elə.

Rəis:

— Mayor, taksi tut, apar bu xanımları evlərinə, sonra gəl mənə məlumat ver.

Sənubər:

— Pulunu kim verəcək?

Rəis:

— Mayor.

Gülgəz:

— Ağzına qurban olum, rəis.

Sənubər üzünü mayora tutub dedi:

— Dincəldin?.. Ayıb olsun sənə.

Rəis:

— Yaxşı... Yaxşı, ağ eləməyin.

Sənubər:

— Rəis, başına dönüm, məni kişinin yanında üzüqara eləmə. Əmanətini qaytar.

Rəis:

— Məndən ərinə də salam deyərsən. Onu da çatdır ki, əmanətin rəisdə qaldı. Həm də mənə halal eləsin.

Sənubərlə Gülgəz gülə-gülə qabaqda, mayor da onların ardınca rəisin kabinetindən çıxdılar. Həyətə çıxanda Nəsimanla polis şöbəsinin qapısı ağzında qarşılaşdılar. Oğlan nə deyəcəyini bilmirdi. Onu xəcalət təri bürümüşdü. Hətta, kövrəldi də. Gülgəz Nəsimanın keçirdiyi hissləri dərhal duydu. Ağzından artıq, yersiz söz çıxara biləcəyini düşünüb bildirdi:

— Yaxşı, yaxşı... Sonra... Bizi biabır eləmə. Bu saat başlayacaqsan zır-zır ağlamağa. Uşaqlığın hələ də başındadı.

Sənubər:

— Səni bura kim gətirib? Nə it yiyəsisən, nə də qurd.

Nəsiman qarıların nə demək istədiyini anladı. Özünə toxtaqlıq verməyə çalışdı:

— Narahat oldum. Fikirləşdim ki, bəlkə, sizə nəsə kömək eləyə bildim.

Sənubər:

— Nə kömək? Rəis kişinin əmanətini aldı əlimdən. Hətta halallığını da istədi... Kişinin yanında məni şulüzümmə qoydu. O dünyada rəhmətliyin üzünə necə baxacam, bilmirəm?

Mayor yanlarından keçən taksiyə əl qaldırdı. Sürücü maşını saxladı. Mayor acıqlandı:

— Əşi, çox danışmayın. Oturun maşına... Dərdim-sərim başımdan aşır. Hələ danışıqlarına da bax: — “Hətta, halallığını da istədi”. Əşi, rəis narkomandı? Halallığını da ala? Özü sizlə zarafat eləyirdi.

Gülgəz:

— Narkoman döörsə, ola bilsin, narkobizneslə məşğul olanı





var. Verib yaxınlarına satdıracaq.

Mayor:

— Dərdimizə bax, ey.

Nəsiman:

— Əşi, narkotika cəhənnəm olsun. Özünüz qurtarmısız, böyük şeydi.

Onlar maşına əyləşdilər. Maşın sürət götürdü, Gülgəz üzünü mayora tutdu:

— Mayor, nə təhərsən?

Mayor Gülgəzin rişxəndlə nəyə işarə elədiyini duydu. Cavab verməyib başını aşağı saldı. Sürücü gülümsünərək qayıdıb Gülgəzə baxdı. Qarı dərhal bildirdi:

— Üzümdə nə var? İrəli bax. Sən də yuyulmamış çömçə kimi özünü soxma irəli. Bizi qırıb-batırarsan.

Sürücü özünü yığışdırdı. Mayor dərindən nəfəs aldı. Gülgəz sözünə davam elədi:

— Həsənov, mayor rütbəsini necə almısan?

Mayor qarının sözündəki və səsindəki istehzanı başa düşməyib cavab verdi:

— Allah canın sağ eləsin, bunu mənə rəisimiz verib.

— Deyirəm də.

— Nəyi?

— Ağlın olsaydı, birbaşa general verərdi.

— Məndən general çıxar?

— Hə... Çıxar... Özü də lap heyvərəsindən.

Sənubər rəfiqəsinin sözünə qüvvət verdi:

— Səndən mayor, çox şey çıxardı. Heyf ki, bir balaca...

— Nə?

— Vintçiklərin çatışmır.

Nəsiman gülməkdən özünü güc-bəlayla saxladı. Sənubər sözünə əlavə elədi:

— Leytenant Canıyev, serjant Məkirov də yəqin sən ağılda-

dılar. Elə olmasaydı, bizi bura niyə gətirirdiz ki? Narkotik maddənin də, üstəlik kibrit qutularının da halallığını sizə verərdik də. Həm özünüz istifadə eləyərdiz, həm də üçdən-beşdən qazanardız.

— Siz bizim rəisi tanımırsız. Qulağına nəsə çatsaydı, bizi atardı içəri.

— Bəs, sənin gözlərinin qabağında mənim kişimin əmanəti...

— Hi... Hi... Hi... Onu özü bilər. Onun işinə biz qarışanmarıq.

Maşın tini burulub Sənubərgil yaşayan binanın qarşısında dayandı. Nəsimanla Sənubər maşından düşdülər. Qabaq oturacaqda əyləşən Gülgəz bir balaca qurdalandı. Mayor dərhal dedi:

— Pulu özüm verəcəm.

Gülgəz pıçıltılı səslə dedi:

— Arvadın səni sıxma-boğmaya salmaz ki?

— Düş... Düş... Düş... Sizdən canımız qurtarıb, böyük şeydi.

— Şey, zad sözlərin yamanca çox işlədirsən ha, mayor.

— Əşi, paza keçmədik? Düş deyirəm də. Gərək, bizi əlavə işə də salasan? Zad qarışdırma da.

— Yenə zad.

— Get, bir də belə səhvə yol vermə. Nə tapdın, özün qap, mayor.

Gülgəz maşından düşdü. Sürücü maşını yerindən tərpətdi. O, özünü saxlayanmayıb mayordan soruşdu.

— Heç nə başa düşmədim.

— Bayaqdan bəri rəis qarışıq hamımızı dolayırlar.

— Bu qarılar ha...

— Bəli!

Sürücü ağzını büzüb başını yellədi. Maşın otuz metr qabaqdan sola burulub gözdən itdi. Qarılar qabaqda, Nəsiman da onların ardınca evə getdilər. Nəsiman Sənubərin gözlərinə baxanmayıb üzünü yana çevirdi.





— Mən böyük qələt eləmişəm, Sənubər xala. Yanında günahkaram. Məni döyməyə də, söyməyə də haqqın var.

Sənubər:

— Gəl, o söhbətə qayıtmayaq. Təsəvvür elə olmayıb, sənin “əşyayi-dəlilinin” halallığını da rəisə verməmişəm.

Gülgəz ucadan gülərək dedi:

— Hesab bərabərdi: 0:0.

Sənubər:

— O nə deməkdi?

Gülgəz:

— Bir zaman Nəsiman sənin üstündə polisə düşmüşdü. İndi də sən onun borcunu ödədin. Qalır hər ikinizin mənə olan borcunuz.

Otağı gülüş səsləri bürüdü... Gecə gecədən keçənədək yatmayıb rəislə olan söhbətlərini xatırladılar. Nəsimansa onlara qoşulub üzdə gülür, içəridə xəcalətdən doğranırdı. Onda qəti bir fikir yaranmışdı ki, daha Sənubərlə bir evdə qala bilməz, sabah açılan kimi nəyi var götürüb üzüsulu bu evdən birdəfəlik getməlidi...

O, səhər yatağından qalxıb belə bir məktub yazdı.

“Salam, Sənubər xala! Özüm səni narahat eləmədim! Əməlimdən xəcalət çəkirəm. Qarşında günahkaram. Sənin sözlərini eşitmədim. Daha doğrusu, qulaqardına vurdum. Düşünürəm ki, biz bir mənzildə yaşayanmarıq. Zəhmətini halal elə. Əllərindən öpürəm!

*Hörmətlə: sənə layiq olmayan oğlun Nəsiman*
*14.04.99”*

Nəsiman çantasını götürüb mənzildən çıxdı.

Məktubu oxuyan Sənubərin gözləri doldu. O da öz-özünə dedi: “Nə üçün bu yolu seçdiyini bilirəm, gərək o yola getməyəydin...”

* *
*

Neçə vaxtda əsəbləri haqsız yerə tarıma çəkilən, müstəntiqdən ikinci dəfə çağırış məktubu alan Kamal kabinetə girib salam verdi. Müstəntiq başını qaldırmadan "dodaqucu" salamı alıb ona əyləşmək üçün yer göstərdi. Kamal oturdu. Müstəntiqin qanı bərk qaraydı. Adamla danışmaq həvəsi yox idi. Handan-hana Kamaldan soruşdu:

— Hə... Bir şey fikirləşdinmi?

— Nə fikirləşməliydim ki?

— Deməli, bu neçə gündə nəticə çıxarmamısan. Sənə ayırdığım vaxt hədər gedib.

— Nəyin hədər gedib-getmədiyini deyənmərəm, müstəntiq. Gərək anadan böhtançı, şantajçı kimi doğulasan. Bəri başdan deyim ki, məni anam elə doğmayıb. Nə qədər mənə hədə-qorxu gəlsəniz də, nə qədər çək-çevirə salsanız da faydası olmayacaq. Mən görmədiyim, şahidi olmadığım şey barədə danışa bilmərəm. Onun üçün xüsusi adamlar olur. Sizin təcrübənizdə də güman eləyirəm, elə şeylər çox olur.

— Sözündən belə çıxır ki, mən saxta, qeyri-qanuni yollarla kimlərinsə haqqında istintaq materialları toplayıram.

— Həqiqətən də elə deyilsə, məni niyə çək-çevirə salmısız?

— Sən cinayətkarın sağ əli olmusan. Onun törətdikləri cinayətlərə ya birbaşa, ya da dolayısıyla şəriksən. Cavan oğlan, özünü də, dələduzu da pərdələyirsən. Buna bilirsən nə deyərlər?

— Yox...

— "Tülkü həccə gedir".

— Cənab müstəntiq, hansı müdriksə yaxşı deyib.

— Nəyi?

— Hər kəs öz dilinin altındadı. Kəşf eləmək üçün onu danışdırmaq gərəkdi.





Müstəntiq Kamalın dediklərinin mənasını qanmadı və dərhal cavab verdi:

— Mən də ona görə səni danışdırıram da.

Kamal dərindən köksünü ötürdü. Sonra da: — Gör məni kim mühakimə eləyir? — deyə fikirləşdi. Sonra da ürəyinə gələn qarma-qarışıq fikirləri tədricən əritməyə başdadı. — Axı mən nə günah sahibiyəm ki, qorxub-çəkinəm bu yaramazdan, — deyə özünü də məzəmmətlədi. Dərhal Kamalın çöhrəsində bir təmizlik, zərif bir işıq yarandı. Müstəntiqin yersiz, yüngül, sırtıq, kobud, hərəkətlərindən zəhləsi getsə də gözlərində bir aydınlıq, duruluq, parlaqlıq yaratmağa çalışdı. Heç şübhə yox idi ki, Kamalda gedən bu dəyişmələri kənardan müşahidə eləyən olsaydı, onda müstəntiqə yaltaqlıq hissini sezərdi. Bu hissi Kamal qəsdən yaratdı. Onu da anlayırdı ki, nifrəti gizlədə bilmək bacarığı ən gözəl istedadın təzahürüdür. Hər şeydən əvvəl keyfiyyətdir. Bu hissi mühafizə eləyib saxlamaq, yeri gələndə onu oyada bilmək böyük qabiliyyətdir, özünün və başqalarının həyatı üçün məsuliyyət daşımaqdır. Özünü ələ alıb hissinlə, duyğunla, baxışlarınla rəqibini aldatmaq, yaxud onun diqqətini əsas hədəfdən yayındırmaq insandan qədərincə məsuliyyət tələb eləyir. O məsuliyyət rəqib üzərində qələbənin başlıca rəhninə çevrilir. Başını kağızdan qaldıran müstəntiq Kamalın üzündəki işığı, təbəssümü, gözlərindəki duruluğu hiss etcək, onda belə təsəvvür yarandı ki, Kamal yavaş-yavaş dəyişir, istədiklərini ondan ala biləcək. Ümid işığı müstəntiqin üz-gözündə, danışıq və davranışlarında da hiss olunacaq dərəcədə özünü büruzə verdi. Qeyri-iradi olaraq gülümsündü. Sonra dilləndi:

— Mən deyənlər ağlına batırmı? Cavan oğlansan, kiminsə cinayətinə, törətdiyi qətlə şərik çıxmaq sənə lazımdımı?

— Qətiyyən yox.

— Ailəlisən, qoca anan var, özün də yetimliklə böyümüsən, güc-bəlayla ağzın çörəyə çatan yerdə başının daşa dəyməsi bi-

lirsən nə deməkdi? Dur üzünə alçağın. Basaq belindən getsin. O, türmədən çıxmayacaq. İnan mənə, sən də onun üzünü bir daha görüb utanmayacaqsan.

— Cənab müstəntiq, səndən, ətrafdakılardan, ən başlıcası, özüm-özümdən ki, utanacam, vicdanım qarşısında alçalacam. Həqiqəti dilə gətirmək səninçün nə qədər asansa, mənimüçün böhtan, iftira bir o qədər çətindi.

— Köntöy danışırsan, Kamal, nə dediyini düşün. Elə bilirsən, bizim vicdanımız yoxdu? Ona hər gün yüz dəfələrlə tüpürürük. Çətini ilk dəfədi. Sonra adam öyrəşir. Daha o barədə düşünmür. Gəl açıq danışaq, sən şefinin üzünə durmasan, mən sənin üzünə başqasını qaldıracam. Onda görəcəksən vicdan nədir? O, kimə lazımdı? Pulla, karyerayla, nüfuzla vicdan bir araya sığmır. Bu, tarixən belə olub. Özgənin üstündə özün-öz taleyinlə oynama. Əks təqdirdə, bir yol tapıb səni içəri atacam. Bu da məndən tələb olunur. Özün fikirləş, vətəndaş Kamal!

— Cənab müstəntiq, hərdən düşünürəm ki, adamlar niyə belə olurlar?

— Nə təhər?

— Ən adi məsələlərdə təmiz adamları belə dolaşdırmağa çalışırlar. Kiçik hadisədə siyasi elementlər axtarırlar. Hamı yalnız özünü düşünür, mənfəət axtarır.

— Kamal, mübarizəsiz yaşam yoxdu. Siyasi fəallıq çoxlarını susdurur. Bu, bütün dövrlərdə belə olub. Qorxu, tərəddüd olan yerdə inkişafdan danışmaq artıqdı. Danışdıqların yalandısa, gördüyün iş uğrunda inamla addımlayanmırsansa, ona güc sərf eləmirsənsə, gərək irəli atılmayasan. Repressiya tarixin bütün dövrlərində olub. Harda karyera uğrunda mübarizə varsa, orda şantaj, böhtan, iftira var. İnsanı alçaldıcı münasibətlər sistemi var. Bunu görməmək, ona hazır olmamaq korluqdu. Elə götürək sənin şefini. O, daim siyasi mübarizələrin mərkəzində olub. Hər cür çaxnaşmaları, gərilmələri ya gözləriylə görüb, şahidi olub,





ya da qulaqlarıyla eşidib. Hər bir hadisənin məntiqinə varmağa çalışıb. Bu işləri görən, bilən, yaradan adam özü siyasi cəhətdən kor olub. Sizi də öz ardınca çəkib.

— Xahiş eləyirəm, məni o məsələyə qatmayasız. Siz deyənlərin heç birini mən onda görməmişəm. Təkcə onu bilirəm ki, mənim şefim mübarizədən, çətinlikdən qorxan adam deyildi. Onun aləmində cəsarətsizlər, qorxaqlar yalnız kağız-kuğuz arasında xumarlananlardı, özləri barədə yüksək fikirdə olanlardı. Gəl unutmayaq ki, elələri yaltaq, xəyanətkardılar. Həmişə, hər yerdə şər işlərlə məşğuldurlar.

— İncimə məndən, Kamal, sən ağılsız və xəyalpərəstsən. Sənin öz aləmin var. Gec-tez məhv olacaqsan. Kişilik də, namus da, şərəf də, ləyaqət də yaxşı şeydi. Baxır harda? Niyə başa düşmürsən ki, əgər adi yağış suyundan yaranan bir gölməçədə boğulursansa, o sənin üçün dənizdən də, okeandan da dərindi, nəhayətsizdi. Bura allı-güllü geyinən, əyninə qırmızı şalvar çəkən, ağ, qara, yaşıl, göy qalstuk taxan hoqqabazlar çox gəlib. Hamısının da burnu ovulub, sındırılıb. Mən səninlə ikinci dəfədir ki, çox sakit danışıram. Ayağın yer alır. Bir otaqda üz-üzə oturub danışdığımız üçün bəzən imkanlarımızı eyniləşdirirsən. Ağıllı ol, Kamal. Sənin hərəkətlərin qeyri-ciddilikdi, əlimdə qılıncdan da iti qanunu görə bilməməkdi. Bu, sənə çox baha başa gələr. Biz burda, bu kabinetdə oturub sərsəmlərin hərəkətlərinə göz yumammarıq. Sən də, şefin də altınızı doldurmusunuz, ondan başqalarına qarşı istifadə eləməkdən də çəkinmirsiz.

— Məni dolaşıq şeylərə bağlama.

— Pul hər şeyi həll eləsəydi... Gərək, o alçaq səni şirnikləndirib irəli çəkəndə qanmalıydın ki, “dəvəni toya” niyə çağırırlar? Yoxsa, “xətti xalına, gül camalına susamışdı?”. Sən onda başıxarablıq eləmisən, indi də o təsirdən qurtaranmırsan.

— Müstəntiq, mən səni hələ də başa düşəmmirəm. Məni əxlaqsız məsələlərə calaşdırma.

— Sən torun içindəsən. Biz imkan verмərik ki, düşdüyün toru yırtıb çıxasan. Mən səni şahidlərlə qarşılaşdıracam. Onda görərsən, adamın üzünə necə şahid keçirlər.

— O, mümkündü. Şahidlər barədə dediklərinizə də inanıram.

— Bəli, onlarla qarşılaşmadan, təmasa girmədən, yaxşını-pisdən ayırmadan nəticə çıxarmayacaqsan.

— Məni hey şahidlərlə hədələyirsən, ancaq onlarla üz-üzə qoymursan.

— Oldu, Kamal. Sən məni başa düşmədin.

Müstəntiq düyməni basdı. Çox çəkmədi ki, iki polis nəfəri içəri daxil oldu. Müstəntiq əsəbi halda dedi:

— Bunu aparın, dar, rütubətli, alaqaranlıq kameraya, ağlı başına gəlsin. Sonra söhbətimizi davam etdirərik...

Kameraya girən Kamal düşündü: — Anam həbsimi eşidib dözəcək? Ömür-gün yoldaşım, övladlarım... Bu kamera da insanlar üçündü. Başqa yolum yoxdu, günahsızlığımı sübut eləməkdən savayı? Axı, bizim şef neyləyib? Kimə pislik eləyib? Əksinə, tanıyandan mən ondan yalnız qayğı görmüşəm. Başqaları da elə. Həqiqətə, düz sözə görə insanı ləkələyərlərmi? O, həmişə, hər yerdə öz sözünü deyib. Belə adamı siyasi qətldə günahlandırarlarmı? Müstəntiq nə qədər nanəcib adamdı? O, doğrudan da bir namərdi mənim üzümə şahid kimi qaldıracaq. Görən, o, nə deyəcək? Qoy nə deyir-desin. Mən ki, həqiqətəm. Atalar yaxşı deyib: “Haqq nazilər, üzülməz”.

*   *
*

Günahsız yerə oğlunun kameraya atıldığını öyrənən Mayanın sanki ürəyi qırılıb ayaqları altına düşdü. O, müstəntiqə heç bir söz deyənməyib dəstəyi aparatın üstünə qoydu. Beyni kilidlənmiş halda keçib divanda əyləşdi. Handan-hana özünə gəlib





mətbəxdə iş görən Reyhanəni səslədi:

— Hardasan, ay Reyhanə?

Mətbəxdən səs eşidilmədi. O, yenə: — Reyhanə, Reyhanə! — deyə çağırdı. Bu dəfə Reyhanə əlində çay stəkanı otağa gəlib soruşdu:

— Məni çağırırdın, Maya xala.

— Hə... Qızım, uşaqlar hələ dərsdən qayıtmayıblar?

— Yox... Hələ tezdi... Darıxırsan?..

— Ürəyim darıxdı. Müstəntiqə telefon açdım.

— Nə deyir?

— Heç, nə deyəcək?.. Kamalı atıblar içəri.

— Nə danışırsan?.. Ola bilməz.

— Hə... Elədi. Özünü ələ al, qızım. Uşaqlar gələndə özünü elə apar ki, hələlik qorxu-hürkü hiss eləməsinlər. Ürəklərini qopartmayaq. Qaldı günaha. Eşitməmisən? — dedi — Tülkü tülküyünü sübut eləyincə dərisini boğazından çıxarırlar.

Reyhanənin dodaqları titrəməyə başladı. O, istədi valideynlərinə, qardaşlarına zəng çalıb vəziyyətdən xəbərdar eləsin. Maya astadan dedi:

— Tələsmə, haya salma... Qoy görək...

— Sonra gec olar.

— Onsuz da bu tezliyə Kamalla bizə görüş verməzlər. “Qarğa məndə qoz var eləməyək”. Prokurora yaxın adam tapmaq lazım olacaq.

— Deyirsən, rüşvətlə çıxarmaq olar?

— Mən elə demədim, qızım. Yaxın adam, bəlkə, içərinin vəziyyətini öyrənib bizə ümid verən söz deyə... Görünür, bu xəmir hələ çox su aparacaq.

— Hə... Onların əlinə düşən çətin... Uşaqlara nə deyəcəm?..

— Nə deyəcəksən? İş adam başına gəlir, a qızım. Deyərik ki, ezamiyyətə gedib. Bir neçə günə qayıdacaq.

Reyhanə ağlamsındı.

— İnanacaqlar?

— Özgə çarəmiz nədi?..

Reyhanə qaynanası deyən kimi hərəkət elədi. Heç kəsə ərinin həbsi barədə bir söz demədi. İki gün sonra vəziyyəti Kamalın dostlarından eşidən qayınatası İrşad Mayagilə gəldi:

— Bu, nə olan şeydi, ay Maya? Axı, sən uşaq deyilsən.

— Onun üçün də hələlik açıb-ağartmaq istəmədim, İrşad.

— İndi fikrin nədi?

— Nə olacaq? Adını siyasi dustaq qoyublarsa, heç nə? İşin gedişinə təsir göstərənməyəcəyik. Yox, dolaşdırıb rüşvət almaq istəyirlərsə, düşünürəm, bu gün-sabah bizi çağırıb bir söz deyəcəklər. Deməyə söz tapammıram.

— Yox, Maya xanım, özümüz hərəkətə gəlməliyik.

— Kamal şeflərinin üzünə şahid keçmədiyinə görə bu boyda həngaməyə əl atıblar. Kamalsa düz eləyib. Mən də onun fikriylə şərikəm.

— Sabahdan bu işlə ciddi məşğul olmalıyıq. Nə istəsələr, verib canımızı qurtarmalıyıq. Sayılmayan işin ağır nəticəsi olar...

Səhəri gün Mayayla İrşad müstəntiqlə tanışlıqdan sonra söhbətə oturdular. Müstəntiq gülüb saymazyana dedi:

— Günah Kamaldadı. Aldanıb şefinə. Böyük cinayətlər törədib. Narkotika. Silah alveri. Dövlət çevrilişi. Hətta, adam ölümlərinə də girişib. Hansını deyim? Onun işi çox çətindi.

Müstəntiqi axıra qədər dinləyən Mayanın axır ki, hövsələsi tab gətirmədi;

— Sadaladığın cinayətləri burda oturanlar bacarar, Kamal yox. Mən ona belə tərbiyə verməmişəm.

İrşad Mayanın qolundan tutaraq astadan dedi:

— Özünü ələ al, Maya bacı. Əsəbiliklə iş düzələn döör. Qoy görək, axırı necə olur?

— Necə olacaq? Görmürsən, nə danışır? Sənə beləmi dərs





veriblər, a müstəntiq? Bunun üçün universitetdə neçə illər vaxt itirməyə dəyərdimi? Belə dərsi küçə uşaqlarından da ala bilərdin də.

— Xanım, məni təhqir eləmə. Mən qatı cinayətkarı açıb buraxammaram. Gedib daha ağırını törədər.

— Mənim oğlum cinayətkar döör. Ona şər atma, Allahından qorx.

— Yox... Cinayət eləyəndə gəlib sənə-mənə deməliydi? Cinayət işi başlanıb. Araşdırmalar aparılır. Xeyli sayda şahidlər var. Sübut eləsə ki, cinayət törətməyib, onda onu azadlığa buraxacağıq. Yox... Eləyənməsə, o, getdi şefinin arxasınca.

İrşad dərindən köksünü ötürüb soruşdu:

— Bunu qurtarmağın yolu nədi?

— Şefinin üzünə durmaq. İzahat versin ki, məni bu cinayətlərə şefim təhrik eləyib.

İrşad daxilən əsəbləşdi:

— Səncə, Kamal o nakişiliyə gedər?

— Getməz, cəzasını çəkər.

— Bərəkallah, sizə. Belə istintaq ələ düşməz.

— Mən bildiyimi dedim.

Maya:

— Şefini şərləsə də yenə cinayətkar olaraq qalacaq? Kamal düz yoldadı, müstəntiq, əlinizdən gələni iki qaba çəkin. Ancaq belə getməz. — Haqq incələr, üzülməz — deyiblər, müstəntiq.

— “Haqq, ədalət” — deyə-deyə dünyasını dəyişənlər çox olub, qarı.

— Bərəkallah, səni doğan arvada.

— Məni təhqir eləmə, qarı. Səni də ataram içəri.

İrşad:

— Hədə-qorxuyla danışıq müstəntiqə yaraşmır.

Müstəntiq:

— Necə danışmalıyam, kişi? Gələndən qanımı qaraltmısız.

Kamal cinayət törədəndə niyə qarşısını almadız? İndi də gəlmisiz onu qurtarmağın yolu nədi? Dedim də sizə. Özünüz bilərsiz.

Maya:

— Oğul mənimsə, cinayət eləyə bilməz.

Müstəntiq:

— Mən hardan bilim Kamal kimin oğludu? O, cinayətkardı, vəssalam.

İrşad:

— Qalx gedək, Maya. Bununla danışmağın mənası yoxdu.

Müstəntiq:

— Yekə kişisən, əə, boş-boş danışma.

Maya:

— Bizə Kamalla görüşə icazə verəcəksən, ya yox?

Müstəntiq:

— Dünən bir, bu gün iki. Bu tezliyə nə görüş? Görüşə bir aydan sonra gələrsiz.

Oğluyla görüşə bilməyəcəyini düşünən Maya İrşadın qolundan tutaraq bildirdi:

— Dur, gedək...

Qudalar kor-peşman müstəntiqin kabinetindən çıxdılar. Yolda Maya İrşada dedi:

— İrşad kişi, müstəntiqlə söhbətimizin məzmunu barədə Reyhanəyə bir kəlmə də söz demə.

— Soruşmayacaq ki, nə oldu? Gedib nə danışdız? Onda nə deyək?

— Çalışaq ikimiz də eyni şeyi deyək. Getdik, prokurorla müstəntiqi görmədik. Hər ikisini yuxarı çağırıblar. Görüşə gələn həftə gedəcəyik...

*   *
*





Haqsız yerə özünü için-için yeyib-dağıdan Kamalı öz otağına apartdıran müstəntiq hırıldaya-hırıldaya dedi:

— Necədi, kamera döşünə yatırmı?

— Yatır, müstəntiq. Mənə verdiyin xoş günlərdən sənə də arzulayıram.

— Getdikcə, deyəsən, zəhər tuluğuna dönürsən.

— Gürzəyə zəhər lazımdı. Zəhərsiz gürzədən nə çıxar?

Müstəntiq başlanan yersiz, zəhlətökən dialoqun fayda verməyəcəyini, hətta, özünə əsəb gətirəcəyini düşünüb söhbətin istiqamətini əsas hədəfə yönəltdi.

— Elədiklərini özünə yaxın buraxmırsan. Şahidlər var. İstəyirəm onları sənli-mənli dinləyək. Sonra qalanına baxarıq.

— Şahid varsa, gətirin.

Müstəntiq düyməni basdı. İki polis içəri daxil oldu:

— Eşidirik, cənab müstəntiq.

— Şahid Kazım Kazımlını gətirin.

Çox çəkmədi ki, şahid içəri daxil oldu. O, Kamal işlədiyi təşkilatın ümumi şöbə müdiriydi. Əlliyə yaxın yaşı vardı. Sarıbəniz bu adamın üzündən heç vaxt gülüş əskik olmazdı. İlk baxışdan Kazım Kazımlının çöhrəsi adamlara sözlərindən, düşüncələrindən də çox sirayət eləyirdi. Bir sözlə, bu adamın üzü-üz deyildi, "xəzinəydi" desələr, daha yerinə düşərdi. Qadın sifətinə bənzər üzündən satqınlığın bütün sirlərinə mükəmməl yiyələnmişlik yağırdı. Xırda, yumru gözləri bir yerdə dayanmır, oynaşırdı. Sözləriylə, davranışlarıyla işi keçən müsahiblərini ovsunlamağa çalışırdı. Bir il sonra işi düşəcəyi adamların ayaqları altında can-başla yatmağa, əl-ayağını yalamağa hazırıydı.

Kamal Kazımlının gözlərinin içinə baxdı. Kamalın iti, qəzəb, nifrət yağan gözlərinin təsirindən Kazımlı özündən asılı olmayaraq çəkindi. Gözlərini yana çevirməyə çalışdı. Sonra da üzünə həyasızlıqdan doğan pərdə çəkməyə başladı. Kamal heç bir şey olmamış kimi boğazını arıtladı. Müstəntiq: — Kamal, —

deyə dilləndi:

— Bu adamı tanıyırsanmı?

— Tanıyıram.

— Yalan danışmaz ki?

— Məncə, yox.

Müstəntiq üzünü şahidə tutaraq soruşdu: — Sən necə Kazım Kazımlı?

— Mən də tanıyıram. Özü də əla.

Müstəntiq:

— Deməli, söhbətə başlaya bilərik. Kazım Kazımlı, gəmiylə gətirilən narkotik maddə və silahlar kimə məxsusuydu?

— Şefə.

— Onu kim himayə eləyirdi?

— Kamal... O, şeflə əlbiriydi. Narkotik maddələri gəmiylə Həştərxana göndərirdi. Ordakı dostlarının əlləriylə Orta Asiyaya, Rusiyaya, hətta, bəzən Avropaya da ötürürdü. Bir-iki dəfə də şefin göstərişiylə mən Kamala köməkçi olmuşam.

— Bəs silahlar hara ötürülürdü?

— Bir hissəsi Çeçenistana və Dağıstana. Qalanı burda bəzi gizli qruplara çatdırılırdı.

— O gizli qrupları kimlər yaratmışdılar və nə üçün?

— Kimlər yaratdığını qəti deyə bilmərəm, cənab müstəntiq. Ancaq ixtişaşlar üçün yaradıldığı heç bir şübhə doğurmurdu.

Müstəntiq üzünü Kamala tutaraq dedi:

— Bunlara nə deyirsən, Kamal? Neçə vaxtdı boynuna almırdın? Biz dovşanı arabayla tuturuq.

Kamal Kazım Kazımlının üzünə baxıb gülümsündü. Sonra halına təvavüt eləmədən dedi:

— Kazım Kazımlı kimi şahidi olanın mənim kimi müttəhimi, sizin kimi də müstəntiqi olar.

Müstəntiq:

— O nə deməkdi? Suala cavab ver.





— Cənab müstəntiq, Kazım Kazımlı ya yuxudadı, sayaqlayır, ya da axşamdan çox içib, paxmeldi. Halı özündə deyil. O, heç vaxt atasını tanımayıb, onda qalmışdı ki, dilsiz-ağızsız narkotik maddə ola, silah ola.

Müstəntiq "atasını tanımayıb" sözünü eşitcək əlini-əlinə vurub uğundu. Handan-hana özünə gəlib Kazımlıdan soruşdu:

— Əə, Kamal düzmü deyir?

— Atamı tanımaya bilərəm. Ancaq narkotikayla silahları tanıyıram.

Müstəntiq yenə uğundu. Sonra özünə gəlib Kamala dedi:

— Kazımlı deyir sən şeflə əlbir olmusan. Buna sözün nədi?

— Kazım təkcə qondarma şahid deyil, o, həm də qondarma adamdı. Hərçənd ona adam da demək olmaz.

— Niyə?

— Bir adam dostlarına, sənətinə və ailəsinə xəyanət eləsin, ondan hər şey gözləmək olar, cənab müstəntiq. Balaca ayağınızın büdrədiyini hiss eləsə, sizin də üzünüzə şahid duracaq. Qaldı şeflə mənim əlbir işimizə, mən onun işçisi olmuşam. Mən ona qarşı necə əks mövqedə dayana bilərdim? O, bizim hamımıza mənəvi atalıq eləyib, ağsaqqalımız olub. Bu Kazım Kazımlını da o, yanına işə gətirib. Ona qarındolusu çörək verib... Hətta, Kazım onun pişiyi də olmağa hazırıydı.... Ancaq indi ona şər, böhtan atmaqla məşğuldu. Kazım Kazımlı kimi əskik, nadan adamlar onu ləkələyə bilməzlər...

Müstəntiq:

— Kazım Kazımlı, Sübhan Sübhanovun ölümü barədə nə deyə bilərsən?

— O gün kimi aydın məsələdi. Şef həmişə onun barəsində təhqiramiz danışırdı. Hətta, mənim yanımda onu ölümlə də hədələmişdi. Bax, üzünə deyirəm, şef bu Kamalın əliylə Sübhan Sübhanovu aradan götürtdü.

Kamal özünü saxlayanmadı:

— Ləyaqətsiz... Simasız...
Müstəntiq:
— Aranı qarışdırmayın. Bir-bir danışın.
Kazım Kazımlı:
— Məni indi təhqir eləyincə, o vaxtlar çirkin əməllərə əl atmayaydın. Atalar yaxşı deyib: "Özü yıxılan ağlamaz". Başqalarının evini yıxanda, heç nədən kimlərinsə həyatına qəsd eləyəndə bilməliydin ki, vaxt gələndə sən də cavab verməli olacaqsan. Yadındamı, şefin bizi öz kabinetinə çağırması?
Kamal:
— Biz hər gün səni onun kabinetində görürdük.
Kazım Kazımlı:
— O, bir dəfə təklif elədi ki, dövlət adamı, ictimai xadim Şövkət Şabanovu aradan götürək. Mən razılaşmadım. Doğrusu, o adam xeyli vaxtdı dünyasını dəyişib. Onun həyatına qəsd təxribatını mən pozmasaydım, sən indi ona da cavab verməli olacaqdın. Mənim əlimdə hələ başqa faktlar da var.
Kamal:
— Ot kökü üstə bitər, Kazım. Hələ atanla sən bir-birlərinizi çox böhtanlamısız, şərləmisiz. Mənlə şef də səni tanımamışıq. Bizim başımızı kəsməyə də haqqın var.
Vurduğu baltaların daha dərinə işlədiyini görən müstəntiq nə fikirləşdisə, qalxıb otaqdan çıxdı. Kamal əsəblərini ələ almağa çalışdı. Handan-hana dedi:
— Bu nə sifətdi, bu nə oyundu?
— Başqa yolum yox idi, Kamal. Əks halda, müstəntiq məni də sənin gününə salacaqdı.
— Səndə hər sifət olduğunu bilirdim, ancaq bu qədər həyasızlığı yox. Axı, şef sən deyən böhtana, şərə layiq deyil. Axı sənin ailəni dolandırıb.
— Məcburam, Kamal.
Müstəntiq kabinetə qayıdıb yumşaq kreslosunda oturdu:





— Hə... Məncə, kifayətdi, Kamal.
— Qondarma şahid sənə heç nə verməyəcək, müstəntiq.
Müstəntiq yenidən düyməni basıb polis çağırdı. Kazım Kazımlını apartdırıb əvəzində Ləleş Ləleşovu gətir. Onu görən kimi Kamalı gülmək tutdu:
— Cənab müstəntiq, bu dəyyusları hardan seçib gətirmisiz?
— Bəs nə bilmişdin, Kamal. Biz istəsək...
— İnanıram.
Ləleşin özünün dediyinə görə bir metr iyirmi santimetr boyu, bir metr on santimetr eni vardı. O, Kazım Kazımlının kağız-kuğuz daşıyanıydı. Adama işi düşməsin, düşdüsə, koridordaca diz çöküb yalvarmağa öyrənceliydi. Nəyə görəsə ona "Həcəmət" ləqəbini də qoymuşdular. Kamal ayaqdan-başa Həcəmət Ləleşi süzdü. Göz vurub astadan pıçıldadı:
— Bir şey çıxır?
— Görək də. Söz veriblər, üstündə dursalar.
— Əvvəl al, sonra...
Müstəntiq əsəbiləşdi:
— O nə şübhəli danışıqdı. Yoxsa, çöp altda dəyirman tikirsiz.
Kamal:
— O sizin işinizdi, müstəntiq. Tələm-tələsik iş görməzlər.
Müstəntiq üzünü Həcəmət Ləleşə tutdu:
— Hazırsan?
— Göydə.
— Hardan başlayaq?
— Hardan deyirsən, ordan.
Kamal:
— Müstəntiq, nə bilirsən, yaz. Məni göndər kameraya. Ləleş Ləleşovun söhbətini eşitməkdənsə, kamerada yatmaq yaxşıdı.
Müstəntiq:

— Bəlkə bir-iki kəlmə də o desin?
— Kazım Kazımlıya əlavəsi var?
— Məncə, yox. O, deyənləri təsdiqləyəcək.
— Ehtiyac yoxdu.

*     *
*

Lələş Lələşovla üzləşməyi özünə sığışdırmayan, onun səsini eşitməyi təhqir sanan Kamalı müstəntiq yenidən kameraya göndərdi. Kamalın qan təzyiqi bərk qalxmışdı. Bütün bədəni titrəyirdi. Ürəyinin gubbultusunu eşidirdi.

Gözlərini aça bilmirdi. O, alnını, boynunun ardını yüngülcə ovuşdurdu. Sonra keçib dəmir çarpayının qırağında əyləşdi və düşündü: "Məni də odun içərisinə atıblar. Axı mən neyləmişəm? İnsanın da üzünə belə lənətlənmiş şahidlər qaldırarlarmı? Gör, bizi nələrdə günahlandırırlar — narkotikada, silah alverində, qətldə, təxribatda... Adamı öldürmək olar. Ancaq belə yox. Kiminsə kimdənsə xoşu gəlmirsə, başqalarını bu işə niyə qatasan? Hesabın var, get, özün çək. Onun başqasına nə dəxli? Yazıq şef, sənin də çörəyinin duzu yoxmuş. Təsəvvür edə bilməzsən, qarnını doydurduğun adamların üstünə necə gəldiklərini? Eh... İstər yaxşı olsun, istər pis. İnsan nələrə qadirmiş?..".

*     *
*

Pal-paltarını, çantasını götürüb səhər evdən çıxan Nəsimanı şəxsi maşınında Qaçay Qılınclı qarşıladı və birbaşa özünün bağ evinə gətirdi. Parlaq günəşin qızılı telləri ətrafa səpələnmişdi. Bağın mülayim, xoş havası adamın ciyərlərinə axırdı. Dörd tərəfi mişar daşıyla iki metrdən artıq hörülən bağın çöldən içərisini, içəridən çölünü görmək olmurdu. Həyətin yuxarı hissəsində ikimərtəbəli səkkiz otaqlı ev vardı. Orda hər cür meyvə ağacları əkilmişdi. Əlvan güllər, çiçəklər göz oxşayırdı. Daş hasarın dibində ucalan küknar, şam, əbrişim ağaclarının kölgələri özləri kimi uzanıb gedirdi. Aşağı hissədə kəsilmiş meynələr görünürdü. Evin sol tərəfində maşın qarajı, su hovuzu vardı. Nəsiman dərindən nəfəs aldı. Sonra Qaçaya bildirdi:

— Ayə, bura əcəb cənnətdi ki. Başa düşmürəm, buranı qoyub şəhərdə nə gəzirsən?

— Öyrənişmişəm şəhərə... Burda ancaq şənbə və bazar günləri dostlarımla oluram. İstirahət günlərimi burda keçirməyəndə, növbəti həftəni şəhərdə elə bil boğuluram, havam çatmır. Bağda iş çoxdu. Bağa baxmaq, həyət-bacanı bellətmək, meynələri budatmaq, suvarmaq üçün vicdanlı, işgüzar adam lazımdı. Güman eləyirəm, buranı öz bağın sanacaqsan.

— Başqa necə ola bilər?

Qalmağa yeri-yurdu, işi-gücü olmayan Nəsimanın Qaçayla razılaşmaqdan savayı yolu yox idi. O, razılıq əlaməti olaraq başını çiyinlərinə qısdı. Qaçay söhbət eləyə-eləyə onu çəkib darvazanın yanındakı gözətçi damına gətirdi. Sonra dedi: — Bu ev, qarşısındakı mətbəx və içərisindəki əşyalar sənin ixtiyarında olacaq. Bağa cavabdehlik sənin üzərində qalacaq. İşinə yarayırmı?

— Hə... Başqa nə iş görməliyəm?

— Qalanını özün fikirləşib tapacaqsan. Ev sahibinə deməzlər ki, get filan işi də gör. Hə, az qala unudacaqdım, işıq, su, qaz həmişə olur. Bax, bu arxadakı balaca daxma yuyunmaq üçün nəzərdə tutulub. Nə vaxt istəsən, qazı yandırıb istifadə eləyə bilərsən. Gəldiyimiz küçənin aşağı tinində çörək, ərzaq, tərəvəz, ət mağazası var. Hərdən əla balıq da satırlar. Şənbə, bazar günləri kabab bişirmək olar. Ancaq səndən bir xahişim var. Bura yad adam ayaq basmamalıdı. Səbəbini sonra bilərsən. Hər ay da sə-

nə üç yüz ABŞ dolları verəcəm...

Heç vaxt bir dəfəyə əlinə üç yüz dollar almayan Nəsiman sevincək halda dedi:

— Oldu.

— Otur maşına, gedək mağazaları da sənə göstərim.

Çox çəkmədi ki, maşın mağazanın qarşısında dayandı. Onlar gündəlik zəruri ərzaqları alıb geri qayıtdılar. Nəsiman maşından düşdü, Qaçay onunla xudahafizləşib maşını tərpətdi. Nəsiman bağda hər şeyə yenidən diqqət yetirdi. Nə varsa hamısını yadda saxlamağa çalışdı. Gün axşamacan beli götürüb dəhrəni qoyur, dəhrəni qoyub yabanı götürürdü. Bir neçə gün ərzində bağı belləyib qurtarmışdı. Həftənin sonu bağa gələn Qaçay Qılınclı gözlərinə inanmadı:

— Ayə, sən gecələr də yatmırsan?

— Niyə elə deyirsən?

— Bu qədər işi təkbaşına görmüsən?

— Tək adamam, işsiz dayananmıram, Qaçay. Lap bayquşa dönmüşəm.

— Bəlkə, bağda qalmaq istəmirsən.

— Yox. Niyə ki? Yeməyim, içməyim... Bir sözlə, rahatlığım. Mənə nə lazımdı? Adama deyərlər, ölmək istəyirsən, get Mazandarana.

Gülüşdülər. Qaçay maşının baqajını açdı. Şəhərdən alıb gətirdiyi almanı, bananı, kivini, əti, çörəyi, meyvə şirəsi və araq şüşəsini götürüb Nəsimana verdi:

— Əti doğra, tök qazana. Qoy bişsin, bu təmiz havada adama yüz-yüz vurmaq pis olmaz.

Bu, Nəsimanın da ürəyincə oldu. Yeməyi hazırlayıb evdəki stolu, stulları həyətə çıxartdı. Süfrə açıb yeyib-içməli oldular. Şüşədəki araq qurtarmışdı ki, Qaçay qalxıb maşından ikinci araq şüşəsini də gətirdi. Nəsiman içmək istəmədikdə Qaçay dedi;

— Burda ikimizik. Arvad, uşaq yoxdu, deyək ki, danışdıqlarımızı bizə qəbahət tutacaqlar.

— Bəs, öz səhhəttimiz?

— Qorxma... Bura bir adam burun soxa bilməz. Ölməmişəm hələ.

Qaçay bu sözləri deyib cibindən bir papiros dənəsi çıxararaq damağına qoydu və yandırdı. İçi yanırmış kimi sümürməyə başladı. Papirosun hallandıracaq tüstüsü Nəsimanın da canına yayılırdı. Hər ikisi getdikcə keflənirdilər. İkinci şüşəsindən sonra Qaçayı maşının sükanı arxasında yuxu apardı. Nəsiman nə eləyəcəyini bilmədi. Özü də anlamadan bel götürüb dünən alt-üst elədiyi torpağı yenidən çevirməyə başladı.

Qaçay axşama yaxın oyanıb sükan arxasından çıxdı. Nəsimanın çağlanmış torpağı yenidən çevirdiyini görcək güldü:

— Neyləyirsən?

— Belləyirəm.

— Niyə?

— Soğan, badımcan, xiyar, kök əkəcəm.

— Əla... Yeməkdən, meyvədən qalıbmı?

— Hə...

— Yemək istəyirəm.

Nəsiman beli çevirdiyi torpağa sancıb stola yaxınlaşdı. Qaçay dərhal bildirdi:

— Sən canın, bir balaca isit.

Nəsiman Qaçay deyən kimi elədi. Yenidən yeməyə oturdular. Adama bir stəkan meyvə şirəsi içdilər. Qaçay dilləndi:

— Nəsiman sənə bir şey verəcəm. Özündə saxla. Hər şeyə sərf eləmə. Gizlin saxla. Yaman günün yarağıdı.

— O nə olan şeydi?

Qaçay kostyumunun altındakı tapançanı çıxarıb ona verdi. İlk dəfə əlinə tapança alan Nəsiman təəccübləndi. O tərəf-bu tərəfə çevirdi. Qaçay sakitcə dedi:

— Onunla iş qaydasını dənizin kənarında sənə başa salaram.

Silahla gərək ehtiyatlı davranmağı bacarasan. İndi onu kostyumunun altından toqqana keçirt. Gedək.

— Hara?

— Dənizin sahilinə.

— Burda olmaz?

— Tapança səsinə bütün bağ əhli tökülüb gələr. Onlara nə qandırmaq olar?

Qaş qaralanda Nəsimanla Qaçay maşına əyləşib bağlardan xeyli uzaqlaşdılar. Qaçay tam əminiydi ki, tapança səsini onlardan savayı, kimsə eşidə bilməz. Maşından düşüb qayacıqlara tərəf girdilər. Burnu dənizə uzanan böyük bir qayanın altına getdilər. Qaçay tapançayla davranış, patronları tapançaya yerləşdirmə qaydalarını bir neçə dəfə Nəsimana izah etdi. Sonra da əməliyyatı ona təkrarlatdı. Hədəfi nişan aldırıb atəş açdırdı. Xeyli məşqdən sonra Qaçay Nəsimanın işə yarayacağını düşünüb bildirdi:

— Hələlik bəsdi. Dəvə girir pambıq kollarının arasına, elə bilir dam boyda dalını görən yoxdu. Bayaqdan partapart salmışıq. Eşidib gələrlər, zibilə düşərik. Qayıdaq maşına.

— Bu uzaqlığa məsafədən tapança səsi eşidilər?

— İnanmıram. Unutma ki, tapança səsi uzaqdan tanınır.

Bədrlənmiş ay dənizin sakit, lal sularında əks olunurdu. Hərdənbir adama elə gəlirdi ki, ay dənizin qabaran sinəsində çimir. Qaçay suya yaxınlaşdı. Ovuclayıb Nəsimana tərəf atdı. Nəsiman dərhal geri çəkildi. Ayağı büdrəyib arxası üstə yıxıldı. Qaçay dərhal bildirdi:

— Ehtiyatlı ol, üstündəkini salıb itirərsən.

— İtirsəm, neyləyəcəksən?

— Heç nə. Görünür, sən onun dəyərini bilmirsən. Bilsəydin, elə deməzdin.

Qaçay yaxınlaşıb əl verərək Nəsimanı ayağa qaldırdı. Əyilib o tərəf-bu tərəfə diqqət yetirdi. Qaranlıqda buralarda kimsənin





olmadığını təxmin elədi.

Onlar bağa qayıdanda gecə-gecədən keçmişdi. Heç biri yatmaq istəmirdi. Sanki yuxuları ərşə çəkilmişdi. Nəsiman soruşdu:

— Qaçay ailəlisən?

— Yox...

— Nə əcəb?

— Eh... O söz hardan ağlına gəldi. Bir də ki, hələ cavanıq. Evlənməyə vaxt çoxdu. Evlənmiş olsaydım, burda necə ola bilərdim? Arvad “Hardasan?”— deyə gözümü çıxarardı. Unutma ki, evlənmək üçün imkan gərəkdi.

— Sən imkanlısan axı.

— Sənə elə gəlir, Nəsiman. Doğrudur, sənə nəzərən imkanlıyam, prokurora, polis rəisinə, məhkəmə sədrinə görə imkansızam.

— Sən onlarla niyə özünü müqayisə eləyirsən ki?

— Yaxşı, Nəsiman, sənin gözaltın varmı?

— Yox.

— Mənim də yox. Ancaq düşünürəm ki, sən mən döörsən axı.

— Bu yaxınlarda əməliyyat keçirmək fikrindəyik. O, baş tutsa, ondan sonra evlənmək barədə düşünmək olar.

— Bilmək olar nədi?

— Vaxtı çatanda hə...

— Yəqin bu tapançayla məşqlər də onun üçündü?

— Çox güman ki.

— Narkotika olmasın. Adam ilişəndə də xəcalət çəkir.

— Yox... Özümə söz vermişəm. Bircə əməliyyat keçirəcəm. Dərhal da xaricə gedəcəm.

— Bəs burdakı ev-eşik. Əmlak.

— Durub öz yerində də. Valideynlərim baxar.

— Qaçay, sən danışanda lap mən də həvəsə gəlirəm. Bircə

pul qazanıb bacımı müalicə elətdirə bilsəydim, dərdim olmazdı.

— Heç vaxt düşünmə ki, bu cəmiyyətdə halal yolla pul qazanacaqsan. Yadda saxla ki, onu nə vaxtsa, hardansa, kimdənsə qoparmalısan.

— Deməli, pul əldə eləməyin yolu cinayətdi?

— Mən başqa yol görmürəm və görməyəcəm də. İşdi, alınsa, bizimlə bir əməliyyata girərsənmi?

— Baxır nəyə?

— Arxı tullanmadan çırmanmazlar. Bircə dəfə qaz vurub qazan doldurmaq. Sonra da hər şeyə tüpürmək. Gedib səssiz-küysüz rahat həyatını yaşamaq. Necədi səninçün?

— İmkan ver fikirləşim.

— Sirr sənə açılıbsa, iştirakdan savayı, özgə yolun qalmır. Sən soruşdun, mən də sirri açdım. Səni bu əməliyyata qoşmaq əslində, tək mənim qərarım deyil, Nəsiman.

Nəsiman tutuldu. Nə "hə", nə də "yox" deyə bildi. Yenə qarışıq, burulğanlı fikirlər. Yenə qorxu. Yenə vahimə. Sonu görünməyən dolaşıq yollar. Alov. Yanğın. Əzab-iztirablı anlar.

Qaçay cibindən bir papiros dənəsi çıxarıb imsilədi. Sonra da yandırdı. Dərindən bir qullab alıb Nəsimana tərəf üfürdü. Asta-asta söhbətinə davam elədi:

— Obyekt bizimkilər tərəfindən izlənir. Dəstə üzvləri də bəllidi.

— İlişsək?

— Sözümü kəsmə. Adlar şərti olacaq, bizə etibarlı şəxslər xidmət eləyəcəklər. Biz lazım olanı götürürük.

— Necə?

— Tələsmə, altı aylıq döörsən ki. Yollar vaxtında deyiləcək. Sən də biləcəksən. Bizə anlar gərəkdi.

— Səni dinlədikcə gözlərim qaralır.

— Məqsədə çatmaq üçün hər cür vəsait və metod işə tətbiq oluna bilər.





— Bu, çox çətin əməliyyatdı, Qaçay.

— Sənə elə gəlir. Çünki təcrübəsizsən.

— Bəs, mühafizəçilər? Bəs, qanun keşikçiləri?

— Onlardan da bir neçəsi bizə xidmət eləyəcək. Unutma ki, bu işdə hər bir adamın öz vəzifəsi olacaq. Sən öz vəzifəni icra etməlisən.

— Vay, dədəm vay!

— Yavaş... Səsini atma başına.

— Mənim vəzifəm nə olacaq?

— Yerində və vaxtında biləcəksən... Çox danışmayaq. Razılaşdıq... Sirr hələlik ikimizin arasında qalır.

— Oldu.

— Mən qalxıb gedirəm. Lazım olanda səni gəlib aparacam. Ehtiyatlı ol.

* *
*

Şeflə əlaqədar istintaq işini qurtarmağa can atan müstəntiq axşamdan xeyli keçmiş Kamal saxlanılan kameraya gəldi. Salam verdi. Uzandığı çarpayısından ağır-ağır, bir az da saymazyana ayağa qalxan Kamal müstəntiqin salamını ağızucu aldı. Bu, müstəntiqin nəzərindən qaçmadı. O, heç bir şey olmamış kimi, ancaq kinayəylə dedi:

— Yamanca yorğun görünürsən, Kamal. Görünür çox yatırsan.

— Yox, sənə elə gəlir, müstəntiq. İki ildir məzuniyyətə çıxmırdım. Məni həbs eləməsəydiz, dincələnməyəcəkdim.

— Deməli, mənə minnətdar olmalısan.

— Allahı qoyub sənə niyə? Rəhmətlik babam tez-tez deyərdi: — Bəndənin xilqətində iblislik olur. Allahdan umun. Nə istəsəniz, o, verə bilər. O, verəni də bəndə alanmaz.

— O köhnə fikirli adamların söhbətidi...

Müstəntiq hələlik birbaşa mətləbə keçməsə də, söz atışmalarını daxilən istəməsə də ciddi münaqişə törənə biləcəyini anlayırdı. Onu da başa düşürdü ki, Kamal tək-tək müttəhimlərdəndir ki, onunla zor diliylə danışmaqla istəyə çatmaq olmaz. Odur ki, müstəntiq söhbətin ruhunu, tonunu dəyişməyə can atdı:

— Kamal, mənim bir insan kimi sənə hörmətim var.

— Qarşılıqlıdı. Eşitmisən də?

— Nəyi?

— Sonda hər kəs tökdüyünü yığır.

Müstəntiq sakitcə cavab verdi.

— Mən sənə düşmən deyiləm. Gərək məndən inciməyəsən.

— İncimirəm. Uman yerdən inciyərlər.

— Gəl ikibaşlı söhbəti qurtaraq, Kamal.

— Elə isə mətləbə keç, müstəntiq.

— Hər şey yazılıb, gəl bu sənədlərə imza at, sənin də canın qurtarsın, mənim də.

— Hə, belə de... Gecənin bu vaxtı onun üçün gəlmisən? Düşünürsən ki, mən axmağam? Sənin bağladığın ilgəyi öz əllərimlə boğazıma keçirəm? Görürəm...

— Nəyi?

— Məndən də axmaq olduğunu.

— Məni təhqir eləyirsən?

— Əsla, yox. Kimliyini sadəcə sənə xatırladıram.

— Axmaq sənsən ki, bir qoca kişinin müdafiəsinə qalxmısan. Onun yanlış təbliğatının təsiri altından çıxanmırsan.

— Sən hüquq təhsili almısan. Müstəntiq olmusan. Ancaq...

— Nə ancaq?

— İnsan olanmamısan. Ona görə də sən insan qədrini bilənməzsən. Bir adam ki, hər şeyə əşyayi-dəlil kimi baxa, onlardan qurama hadisə yaratmağa çalışa, o adamdan bundan artıq nə gözləmək olar?





Müstəntiq fikrə getdi, sonra nagüman halda dedi:

— Belə çıxır ki, söhbətimiz tutmayacaq.

— Bizim söhbətimiz nə vaxt tutmuşdu ki? Qurama şahidlərlə, saxta, qeyri-insani münasibətlərlə iş görməzlər, müstəntiq.

— Bu ağılla sən nə özünə gün ağlaya biləcəksən, Kamal, nə də şefinə.

— Sən şefin adını çəkəndə mən əsəbləşirəm.

— Niyə?

— Mərdi qova-qova namərd eləməzlər.

— Kimdi mərd? Sənin şefinmi? Ha... Ha... Ha... Yoxsa sən?

Kamal nifrətlə müstəntiqin gözlərinin içinə baxdı. Orda heç nə duymadığından başını yelləyib üzünü kameranın dar nəfəsciyinə tərəf tutdu.

— Nakişi kimi açıq havada gəzməkdənsə, bu dar nəfəsciyin qarşısında dayanmaq daha xoşdu.

— Səfeh... Romantik...

— Ola bilər, müstəntiq, mən sən deyən kimi olum. Unutma ki, mənim də sənin barəndə öz fikirlərim var.

— Deməli, imza atmırsan?

— Yox...

— Bu dilləri sənə yedirəcəm. Dilinin başına açdığı oyunu onda görəcəksən.

— Rədd ol, burdan.

Müstəntiq heç bir söz demədən kameradan çıxdı. Qapı örtüldü. Ayaqqabılarının taqqıltısı eşidilməz oldu. Kamal əsəbi halda çarpayısına uzanıb adyalı üstünə çəkdi... Çox keçmədi ki, onu yuxu apardı. Gecə yarı şaqqıltıyla kameranın qapısı açıldı. Kamal yuxudan hövlnak qalxdı. Uzunlu-gödəkli cantaraq iki oğlan içəri girdi. Hər ikisinin idmançı olduğu sir-sifətindən aydın duyulurdu. Hər ikisi dolubədənliydi. Üz-gözlərindən hərislik oxunurdu. Kamala elə gəldi ki, yuxudadı. Gördükləri də ağlagəlməz bir röyadı. Uzun oğlan çarpayıya yaxınlaşdı. Kamalın saç-

larından tutub qəflətən çəkdi. Kamala elə gəldi ki, baş qapağı yerindən qopdu. Ayağa qalxmışdı ki, uzun oğlan onun gözünün altından vurdu. Uşaqlıqdan kimsəylə dalaşmayan, dostlarıyla belə güləşməyən Kamal səndələdi. Arxadan gödək oğlan onu tutdu və üzünü özünə tərəf çevirərək burnunun üstündən güclü bir zərbə endirdi. Qan Kamalın üst-başını boyadı. Qaşlarının üstü partladı. Qaşının qanıyla ağız-burnunun qanı bir-birinə qarışdı. Uzun oğlanla gödək oğlan onu döyməkdə davam edirdi. Artıq Kamal özündə deyildi. Huşunu itirmişdi. Uzun oğlan tələm-tələsik kameradan çıxdı. Çox çəkmədi ki, bir vedrə suyla geri qayıtdı. Kamalın üst-başına su səpdi. Handan-hana özünə gələn Kamal dedi:

— Hə, nə durmusuz, öldürün məni.

Gödək oğlan:

— Yox... Hələ vaxtı döör, Kamal. İrəlidə izahata imza atmaq var.

— Atmayacam.

Uzun oğlan dərhal onun qarnına bir təpik vurdu. Kamal qarnını tutdu. O, döşəmədə ilan kimi qıvrıldı. Gödək oğlan uzun oğlana xısıldadı:

— Bəsdi, ölər, özümüzü işə salarıq. Cəhənnəm olsun hamısı.

Onlar kameradan çıxıb getdilər. Kamal çətinliklə, sürünə-sürünə çarpayısına qalxdı. Bütün bədəni ağrı-acı içərisində qıvrılırdı. O, öz-özünə düşündü:

— Deməli, bizim kimilərin adları insandı. Heyvanla insana fərq qoyulmayan yerdə yaşamağa dəyərmi? Yazıq ana, mənsizliyə dözəcəksənmi? Heyf, ailəmdən, uşaqlarımdan.

Kamal zarıya-zarıya səhəri açdı... Heç ağlına da gəlməzdi ki, o, döyülüb-əzilən, şil-küt olan gecə şef də saxlandığı dar kamerada dünyasını dəyişəcək, ölümünə səbəb kimi yıxılıb başının divara dəyməsi göstəriləcəkdi...





* *
*

Qarət planını yerli-yataqlı dəqiqliyi ilə yerbəyer eləyən, yüz ölçüb-bir biçən Qaçay Qılınclı axşamçağı bağa gəldi. Axşamkı basqın barədə Nəsimanla söhbətə oturmuşdular ki, Qaçayın mobil telefonuna zəng gəldi. O, nömrəni dərhal tanıdı:

— Hə, mənəm, salam, hardasan Sehranə?

— Sizin bağ darvazasının qarşısında. De, qapını açsınlar.

Qaçay tələm-tələsik, sevincək halda gedib darvazını özü açdı. Ağ rəngli “Mersedes” markalı maşın həyətə girdi. Sehranə maşından düşüb Qaçayı qucaqlayıb öpdü. Nəsiman evə qaçıb yumşaq oturacaq gətirdi və Sehranənin qarşısına qoydu. Qızın iyirmi beş yaşı ancaq olardı. Ucaboylu bu qız əyninə dar şalvar geymişdi. Onun ağ toppuş, sığallı əlləri, təzə təmizlənərək qırmızı lak çəkilmiş şiş, uzunsov dırnaqları ətli əllərinə çox yaraşırdı. Sehranə Qaçaydan xəlvəti, gözucu Nəsimanın üzünə baxıb qımışdı və çöhrəsində zərif parıltı duyuldu. Ölçülü, biçimli ağ dişləri üzündə zəif işıq yaratdı. Uzun kipriklərlə haşiyələnən gözlərinin lap dərinliklərində ötəri xoşhallıq duyulan, aydınlıq içərisində səmimiyyət təlqin eləyən ruhallıq yatırdı. Əsən xəzri qapqara rəng çəkilmiş şəvə kimi cod saçlarını qızın üz-gözünə dağıdırdı. O, tez-tez əlləriylə saçlarını arxaya daraqlayırdı. Yelsə öz şıltaq hərəkətlərindən həzz alırmış kimi bildiyini biləcəyinə vermirdi. Alnı enli, qaşları çatma, gözləri oynaq, dodaqları qalın, burnu nazik, ağzı o qədər də kiçik olmayan bu qızın səsində bir qalınlıq vardı. Tez-tez danışdığından və dili də bir qədər böyük olduğundan sözləri bəzən aydın tələffüz eləmirdi. Oğlansayağı duruşu, cəld və çevik hərəkətləri idmanla müntəzəm məşğul olduğuna dəlalət eləyirdi. O, gəlib Nəsimanın bayaq gətirdiyi yumşaq oturacaqda əyləşdi və arxaya yayxanıb ayağını-ayağının üstündən aşırdı. Sonra da dizlərini qucaqladı. Şalvarı-

nın ətəyi topuğundan xeyli yuxarı dartıldı. Ağ, tüksüz, şirmayi kimi sığallı qıçları açıq qaldı. Əynində tarıma çəkilən köynək Sehranənin ətli, böyük döşlərini bir yerə sıxdığından sinəsinin qabarıqlığını xeyli artırmışdı. Qadın hissiyatlı hərəkətləriylə bədənini Nəsimana sanki nümayiş elətdirirdi. Ehtiras, cazibə hissi Nəsimanı bürüyürdü. Diqqətlə fikir verən olsaydı, onun üzünün, alnının qızardığını duyardı. Qəflətən ondan söz soruşsaydılar, Nəsiman çox güman ki, çaşacaqdı. Ya da ən yüngülü, eşitməyəcəkdi. Qız ona diqqət yetirmədən qalxıb hovuza tərəf getdi. Hovuz dumduru suyla doluydu. O, üzünü Qaçaya tutub dedi:

— Adam soyunub çimmək istəyir.

Qaçay güldü:

— Soyuq olar.

— Nə soyuq? Cavan oğlansan, gör nədən qorxursan?

— Mən suyun soyuqluğundan qorxmuram, məni qorxudan sənin xəstələnə biləcəyindi.

— Əşi, zarafat eləyirəm. Çimmək istəsəm, dəniz qulağımın dibindədi.

Sehranə iki barmağını salıb şalvarın arxa cibindən papiros qutusunu çıxartdı. Birini dodaqları arasına almışdı ki, Qaçay alışqanla onun papirosunu yandırdı. Qız yanırmış kimi, dərindən bir-iki qüllab götürüb tüstünü içinə çəkdi, handan-hana çölə üfürdü. Sonra da gəlib ayağını kətilin üstünə qoydu və dirsəyini dizinə dirədi. Onun ölçüsüz-biçisiz hərəkətlərində bir əndazəsizlik, saymazyanalıq, lovğalıq duyulurdu. İçində kişilik hissiyatı nə qədər doğsa da Qaçaya görə Nəsiman ona fikir vermirdi. Hardasa ona etinasızlıq da göstərirdi. Bunu özlüyündə Sehranə də hiss eləyirdi. Nəsimanın bu hərəkətlərini ilk baxışda gözəlliyə, qadına hissiyyatına laqeydlik kimi qiymətləndirmək olardı. Əslində, bu cavan oğlan elə də deyildi. O, gözəlliyi lazımınca dəyərləndirməyi bacarırdı. Səmimiyyət, mehribanlıq, intim hissiyat onun xarakterinə yad deyildi. Ancaq əndazəsizlik, özündənmüştəbehlik hissiylə barışmadığından Sehranənin qadın hikkəsi onu bir qədər sıxırdı. Gözəlliyini, varlığını nümayiş elətdirən qadın onun gözlərində adi bir əski parçasına dönürdü...





Qaçay maşının baqajını açıb: — Nəsiman, — deyə çağırdı. Nəsiman əlindəki qədəhləri stolun üstünə qoyub Qaçayın çağırışına getdi. Salafan torbalarda alma, armud, banan, üzüm və limon vardı. Onları Qaçaydan alıb evə apardı. Qaçaysa meyvə şirələrini, şərab doldurulmuş şüşələri stola düzdü. Nəsiman meyvələri boşqaba qoyub su kranının altında yudu və süfrəyə gətirdi. Qaçay Sehranəyə dedi:

— Papiros çəkməyə gəlmisən? Keç əyləş, boğazımızı yaşlayaq. Görək axırı necə olur.

Elə bu vaxt Nəsiman hərəyə bir boşqab da gətirdi. Qaçay meyvələrdən doğrayıb boşqablara yığdı. Nəsiman dilləndi:

— Yaxşı pendir, təzə çörək var, gətirimmi?

Qaçay Sehranənin üzünə baxdı. Qız əvvəl dodaqlarını büzüşdürüb çiyinlərini çəkdi. — Yox, — demək istəyirdi ki, birdən-birə fikrini dəyişdi. — Üzümlə, şərabla gedər — dedi. Tələm-tələsik evə keçən oğlan pendirdən, çörəkdən dilim-dilim doğrayıb stola gətirdi.

Qaçay Sehranəyə:

— Gəl süfrəyə, — dedi. Qız yumşaq oturacaqdan qalxıb stolun ətrafındakı üç stuldan birində əyləşdi. Qaçay qədəhləri şərabla doldurdu. Sehranə üzümdən bir-iki gilə ağzına atıb qədəhi götürdü, sonra Nəsimana üzünü tutaraq Qaçaydan soruşdu:

— Qonağını tanımadım.

— Qonaq döör, dostumdu.

— Dost da qonaq ola bilər.

— Sehranə xanım sənin şərəfinə.

Qədəhləri vurub bir-iki qurtum qırmızı şərabdan içdilər. Söhbət uzandıqca Nəsiman sıxılır, özünü bu üçlükdə artıq sanırdı. O, dedi:

— Qaçay, siz söhbətinizi eləyin. Mən dənizin sahilinə düşəcəm.

Sehranə:

— Onda piyada getmə, maşınlardan birini götür.

Qaçay:

— Yamanca günah işlədirik. Bir də gələndə gərək, bu cavan oğlanı da nəzərə alasan.

— Güman eləmədim... Bilsəydim, Nəsiman da burdadı. Naziki də gətirərdim. Özün bilirsən, o, ölür vaxt keçirmək üçün.

Nəsiman:

— Yox... Sehranə xanım, yaxşı ki, gətirməmisiz?

Gözlənilmədən Sehranə Nəsimanın sözünü ağzında qoydu:

— Nədi, yoxsa, xədimsən?

Şərab içməkdə olan Qaçay çeçidi. Ağzındakı şərabı üst-başına püskürdü. Nəsiman çaşıb qaldı. Nə deyəcəyini bilməyib gülümsəyərək başını yelləməklə vəziyyətdən çıxmağa çalışdı. Ancaq alınmadı.

Qaçay maşının açarını Nəsimana verdi. O, maşına əyləşib aradan çıxdı. — Sehranə nə həyasızmış? — deyə düşündü. Dənizin mavi sularına baş vurdu. Sahildəki narın qumlar üzərində uzandı... Vaxtı öldürməyə çalışdı. O, dənizdən qayıdanda qaş qaralmışdı. Sehranənin maşınını həyətdə görməyib təəccübləndi. Qaçay evin işığını yandıranda Nəsiman maşından düşdü. Qaçay gülə-gülə, yavaş-yavaş ona tərəf addımladı. Beş-on metr qalmışdı ki, Nəsiman ondan soruşdu:

— Getdi?

— Hə...

— Məni bağışla, Qaçay. O, həmişə elə danışır?

— Necə?

— Biədəb.

— Sənə düz elədi. Təzə gəlin kimi heç nədən utanıb-qızararsan. Bəyəm, qadın görməmisən?





— Belənçiyini yox... Bir az da qalsaydım...

— Nə isə... Onun gördüyü işləri hələm-hələm kişilər görənməz. Hərbidə olub.

— Nə danışırsan?

— O, qadından çox kişiləşib. Snayperdə əla atıcılığı var. Yüz atəşindən beşi boşa gedə bilməz... Nəsiman, bu gecə əməliyyat aparılacaq. Təxminən yüz saniyə müddətində.

— O vaxta neyləmək mümkündür?

— Belə işdə vaxt qızıldan qiymətli olur. Sənin vəzifən yükü alıb otuz saniyəyə “Cip”ə qoymaq olacaq. Özün də həmin maşınla aradan çıxacaqsan.

— Əməliyyatda neçə nəfər və kimlər iştirak eləyəcək?

— Onların sənə dəxli yoxdu. Sən üzərinə düşən vəzifəni yerinə yetirib ordan uzaqlaşacaqsan.

— Mən hara getdiyimi bilməli döörəm?

— Üçmərtəbəli qızıl mağazasına.

— Axı, ora nəzarət altındadı.

— Nəzarətçilər bu axşam bizim adamlar olacaq.

Nəsiman xeyli fikrə getdi. Handan-hana soruşdu:

— Girib-çıxacağım yerlər məlumdu?

— Əlbəttə. Gecə saat 3.45-də yaxınlıqdakı inzibati binada partlayış olacaq. Güc strukturlarının başı ora qarışacaq. Ondan səkkiz dəqiqə sonra rabitə kanalında nasazlıq baş verəcək. O anda qaldırıcı kranın qolu üçüncü mərtəbədəki soldan altıncı pəncərəyə yaxınlaşacaq. İçəridən pəncərə dərhal açılacaq. Sən qolun üzəriylə gedib yükü alıb kranın qarmağına keçirəcəksən. Kran ləngimədən səninlə birlikdə yükü aşağı endirəcək. O anda “Cip” yanınızda dayanacaq. Göz qırpımında yükləri yerbəyer eləyib aradan çıxmalısız. Görüş yerini də özüm deyəcəm.

— Çox dumanlı əməliyyatdı, Qaçay. Qaranlıq, sirli bir aləmdə nəhəng əjdahanın üstünə gedirik. Özündə deyirsən ki, onun sənə dəxli yoxdu. Axı, oynanılan mənim taleyimdi. Onu

necə gəldi tufana atmaq olarmı?

— Nəsiman, əməliyyatda iştirak eləyənlərin hər birinin taleyi həm də mənim taleyimdi. Onlardan biri taleyimizlə oynayıb hamımızı sata bilər. Bunu niyə başa düşmürsən? Sizə silah da veriləcək.

— Mən sənin evində qalıram. Səninlə çörək kəsirəm. De görüm, mənə etibar eləyirsən, ya yox?

— Eləməsəm, burda olmazdın, Nəsiman. Elə iş var ki, onu tam açıqlamazlar. Sirr bir neçə adam arasında qala bilməz. Onu üç-dörd adam bilsə və sonra o sirr yayılsa, mən sirrin kim tərəfindən faş edildiyini, özün de, necə və hardan bilərəm? Kim zəmanət verə bilər ki, o, mənim sirrimi özüylə qəbrə aparacaq? Açığını deyim ki, silah sizə özünümüdafiədən başqa bir də ona görə verilir ki, ekstremal şəraitdə həm də silahı özünə yönəldə biləsən. Başına atəş açasan. Məni çox danışdırma, Nəsiman, qızışıb dediklərim nə sənə xeyir gətirir, nə də mənə...

— Aydındı.

— Bu axşam biz əməliyyata birlikdə gedəcəyik. Mən də səninlə olacam. Ancaq cəld və ehtiyatlı ol. Qorxsan, həyəcanlansan işləri korlaya bilərsən. Hər şey alt-üst olar. Hamımızı məhv eləyərlər. Unutma ki, bizi snayperlər də izləyəcək.

— Dəhşət. Başım xarab olur, Qaçay.

— Çətini ilk əməliyyatdı. Sonralar hər şey adiləşəcək.

— Elə danışırsan ki, elə bil qorxu-hürkünün sənə heç dəxli yoxdu.

— Gəl uzatmayaq. Sən də, mən də bir kənara çəkilək. Bütün düşüncələrimizi bu gecəki əməliyyat üzərində cəmləşdirək. Səhv eləmək ehtimallarını kəsək. Yoxsa, dərimizə saman səpərlər. Hər şey boşa gedər. İtib-batarıq.

* *
*





Böyük narahatlıq hissi keçirdiyindən bir yerdə qərar tutanmayan Qaçay bağ evinin zirzəmisindən götürdüyü tapançanın birini Nəsimana verib üstündəkini geri aldı. Birini də özünə götürüb kostyumunun altında şalvarının toqqasına bərkitdi. Hava çox sakitiydi. Ay qərbə doğru dığırlanırdı. Ətrafında ulduzlar sayrışırdı. Qaçay göyə baxıb təəssüf hissiylə dedi:

— İşə bax. Biz qarətə çıxmaqda, ay da öz şöləsini saçmaqda. Atalar yaxşı deyib: "Ayda-ildə bir namaz, onu da şeytan qoymaz".

— Nədən narazısan?

— Qarət üçün uğursuz gecədi.

— Niyə?

— Tufan olsa yaxşıdı. Adamlar küçələrdən çəkilər. İşıqlar sönər. Səs-küy eşidilməz. Hər kəs öz başının hayında olar.

— Bir azdan hamı şirin yuxuda olacaq. Bir də ki, əməliyyat yüz saniyəyə qurtaracaqsa... Bizim nə elədiklərimiz kimin ağlına gələ bilər ki?

— Konkret deyənmərəm kimin? Unutma ki, mağazanın həndəvərində ayıq, ağıllı və təcrübəli adamlar çoxdu. Bir səs, kiçik anlaşılmaz hərəkət duyan kimi özləri nəticə çıxarıb hüquq-mühafizə orqanlarını xəbərdar eləyəcəklər.

— Ay aman, sən deyənlər barədə heç vaxt düşünə bilməzdim.

— Çünki hüquqşünas deyilsən. Qanunlardan xəbərsizsən. Cinayətkar gərək qanunları da yaxşı bilsin. Rəqibini aldatmağı, başını dumanlandırmağı bacarsın... Yoxsa, əziyyəti faş olacaq, özü də ilişəcək, indi gəl otur maşına gedək. Vaxt daralır.

Nəsiman maşının arxa salonunda oturdu. Sükan arxasına keçən Qaçay maşını hərəkətə gətirib saata baxdı. On ikiydi. Yol boyu Nəsiman əməliyyatın çətinliyi, özünü necə aparması, işin salamatçılıqla sona yetməsi barədə düşünürdü. Qaçay gah özü kimlərəsə telefon açır, gah da telefonuna gələn zənglərə çox

qısa, parollarla və Nəsimanın anlaya bilmədiyi bir tərzdə cavab verirdi. Nəsiman soruşmasa da telefon zənglərinin bir azdan həyata keçirəcəkləri əməliyyatla bağlılığına heç bir şübhə eləmirdi. Qaçay sonuncu açılan telefona cavab verdi:

— Çatdıq. Hə... Yox... Mütləq... Özüm... Yaxşı...

Sonra da telefonu qapayıb maşını özü yaşadığı küçədə dalqabaq saxlanılan maşınların arasında, tut ağacının altında saxladı. Sükan arxasında o tərəf-bu tərəfə baxdı. Kimsəni görmədiyindən pıçıltılı səslə Nəsimana dedi:

— Düşək.

— Maşın burda qalacaq?

— Sual vermə. Arxamca gəl.

Onlar iki küçəni keçib köhnə, sökülü daxmaya girdilər. Qaçay telefonunu söndürdü. Başqa bir telefonu açdı:

— Bu telefona ekstremal vəziyyətdə zəng çalınır.

Qaçayın anlaşılmaz, şübhəli, həyəcan doğuran hərəkətləri ilk əməliyyata atılan Nəsimanı çaş-baş salmışdı. O, bir çox hallarda görəcəyi işləri də unudurdu. Qaçay boynundan asdığı gecə binoklu ilə harasa baxdı. Sonra da öz-özünə "hə", "hə" elədi. Heç bir şey anlamayan Nəsiman pıçıltıyla bildirdi:

— Qardaş, məni dəli elədin.

Qaçay dirsəyiylə Nəsimanın böyrünə vurdu. Sonra da barmağını dodaqlarına dirəyərək ona "sus" işarəsi verdi. Nəsiman dərhal əmrə müntəzir vəziyyət aldı. Qaçay saatına baxıb ağzını Nəsimanın qulağına apardı:

— Al, binoklla bax. Mağazanın pəncərəsinə yanaşan kranı görürsənmi? Sənə bayaq dediyim kran odur. Tikiliyə yaxınlaş. Qalan məsələləri dediyim kimi icra elə. Unutma ki, müşahidə olunursan... Nəzarətdəsən... Sənə uğur olsun.

Nəsiman mağazanın yanındakı tikiliyə yaxınlaşıb bəzək kollarının arasına girdi. Onun bütün bədəni əsirdi. Hərdənbir ürəyinin gubbultularını eşidirdi. Bu gubbultuların getdikcə artdığını





özü də duyurdu. O, maskasını cibindən çıxarıb geyindi. Gözlərini qırpmadan mağazanın həndəvərinə göz gəzdirdi. Əvvəl kimsə diqqətini cəlb eləmədi. Az keçmiş maskalı naməlum adam mühafizəçi otağına yaxınlaşdı. İçəridə ötəri qarışıqlıq yarandı. Nə baş verdiyini dəqiq müəyyənləşdirənməsə də həmin adamın cəld və çevik ikinci mühafizə otağına yaxınlaşdığını da gördü. Eynilə həmin qatmaqarışıqlıq orda da baş verdi. O adam mühafizəçi otağından çıxarkən onun boy-buxunundan, yerişindən Qaçay Qılınclı olmasına Nəsimanda heç bir şübhə qalmadı. Bir anda mühafizəçilər aradan götürüldü. Nəsiman günahsız ölənlərin halına təəssüfləndi:

— Atana lənət, Qaçay. Bu qədər adamı necə də dolaşdırıb bəlaya salmısan. Yəqin hərəni bir cür, mənim kimi təsir altında saxlayırsan. Sənubər xala düz deyirmiş... Qaçay, sən iblissənmiş. Özümə söz verirəm, bundan sonra Qaçay Qılınclı adlı adam tanımayacam...

Elə bu vaxt qulaqbatırıcı gurultu qopdu. Dalınca da alov göyə qalxdı... Nəsiman gözləmə mövqeyində dayandı. Çox çəkmədi ki, onun əl telefonuna mesaj gəldi: — Başla! Bütün gücünü toplayan Nəsiman göz qırpımında pələng kimi irəli atılıb krana qalxdı. Kabinədə maskalı adam gördü. Fərqinə varmadan kranın qolu üstüylə pəncərəyə yaxınlaşdı. İkinci partlayış yaxınlıqdakı rabitə şəbəkəsində baş verdi. Dərhal pəncərə açıldı. Maskalı uzun adam bir-birinin ardınca üç meşoku Nəsimana verdi. O, torbaları alıb kranın qırasına taxmışdı ki, mağazadakı adam qollarını "iks"vari çarpazladı. Bu o demək idi ki, yük qurtardı, gedə bilərsiz. Elə bu dəm köz kimi bir şey sağ çiyninin üzərindən şığıyıb mağazadakı adamın alnından keçdi. O adam çıqqırığını çıxarmadan döşəməyə yıxıldı. Nəsiman əvvəl nə baş verdiyini anlamadı. Sonradan ağlına belə bir fikir gəldi. "Mağazadakı həmkarını snayperlə vurdular". Kranın qırası aşağı enmişdi ki, qara rəngli "Cip" markalı maşın yüklərin yanında dayandı. Nə-

siman vaxt itirmədən meşokları qıradan çıxarıb maşına atdı.

Bu dəm kranı idarə eləyən adam da özünü "Cip"ə tərəf atdı. Səsboğucu tapançayla onu "Cip"in sürücüsü vurdu. Nəsiman qorxu, həyəcan içərisində qaçıb özünü maşına saldı. Maşın yerindən sürət götürdü. Nə qədər acı, dözülməz olsa da hər şey Nəsimanın gözləri qarşısında baş verirdi. Qeyri-iradi olaraq onda belə bir inam yarandı ki, adamların əməliyyat prosesində aradan götürülməsi bir tərəfdən sirrin əhatə dairəsini daraldırdısa, ikinci tərəfdən qarətin az adam arasında bölüşdürülməsinə xidmət eləyirdi... Onu da düşünürdü ki, snayperlə işləyən, yəqin ki, Sehranədi. O, məni də aradan götürə bilər.

Çox az vaxt içərisində maşın sürətlə şəhərdən çıxıb Buzovna bağlarına tərəf istiqamət götürdü. Maşın əyri-dolam yollarla xeyli irəlilədi. Hündür divarlarla əhatə olunan həyətə çatar-çatmaz içəridən dəmir darvaza açıldı. Maşın birbaşa həyətə girdi. Nəsiman Qılınclını içəridə görcək gülümsündü:

— Nə tez gəlmisən?

— Yatıb orda qalmalıydım?

— Sevinirəm, Qaçay.

— Çalış öyrən. Goruma aparmayacam ki?

— Hə... Meşokları gətirin içəri.

Nəsimanla sürücü meşokları evə apardılar. Döşəməyə adyal sərib qızılları onun üstünə boşaltdılar. Daş-qaşların parıltısı adamın gözlərini qamaşdırırdı. Onlardan göz çəkmək olmurdu. Gözlə görünənlər birbaşa adamın beyninə, oradan da ürəyinə təsir eləyirdi. Nəsiman bir an düşündü: "Daş-qaş nə yaman şeymiş..." Bunu görən Qaçayın gözləri lap hədəqəsindən çıxdı. O, nə eləyəcəyini bilmədi. Handan-hana dedi:

— Bunları üç yerə bölməliyik. İkisi yuxarının, biri də bizim. Zirzəmidə də bir kişi var. Onun atası da zərziba üstündə oturmağı xoşlayırdı. Bəs ona verməyək?

Çox şeydən xəbərsiz sürücü dərhal etiraz elədi: — Cinayətin





törədicisi mən, qazanan başqası. Bunlar üç adam arasında bölünəcək. Kim kimə pay verəcəksə, öz işidi. Qaçay gülümsündü və sürücüyə dedi:

— Gedək kömək elə, qarajdakıları da gətirək.

Sürücü:

— Orda da var bunlardan?

— Bəs nə bilmişdin? Biz havayı yerə baş sındırmırıq. Onu da bil ki, qazandığımızın iki hissəsini verməsək, bizi yeyərlər. Gəl, dayanma, vaxt itirənmərik, qalanını sonra danışarıq.

Qaçay qabaqda, sürücü də onun arxasınca qaraja getdilər. Bir dəqiqə keçməmiş tapança səsi eşidildi. Nəsiman bərk qorxdu. İstədi hər şeyə tüpürüb çıxıb evdən qaçsın. Qaçayın harda olub-olmamasını öyrənmək məqsədilə pəncərənin pərdəsini azacıq araladı. Elə bu vaxt Qaçayın evə tərəf tək gəldiyini gördü. Onu vahimə bürüdü. Artıq qızıllar, brilyantlar yaddan çıxmışdı. Hətta, Nəsiman üstündəki tapançanı da unutmuşdu. Birdən Nəsimanın qulağına uşaq ağlartısı gəldi. Oğlana elə gəldi ki, artıq onu qara basır. Qaçayın pilləkəndə ayaq saxlayıb zirzəmiyə iti addımlarla getdiyini gördü. Onda özünü qara basmadığını, hər şeyin həqiqət olduğunu hiss elədi. Düşündü ki, daş-qaşlardan ötrü nəsə yeni bir fəlakət baş verəcək. Heç bir dəqiqə keçməmiş Qaçay yanında on yaşı olar-olmaz, gözəl-göyçək bir oğlanla geri qayıtdı. Qızılları ona göstərib dedi:

— Ay uşaq, bunları yeyə bilərsənmi?

— Adam dəmir yeyər?

— Atan onlardan ötrü özün öldürürdü. Bəlkə yeyəsən, atana qismət olmayanlar sənə qismət ola.

Nəsiman dərhal dedi:

— Uşaqla işin olmasın. Atasının hərəkətlərinin ona nə dəxli?

— Bunu elə-belə buraxmaq olmaz, Nəsiman.

Qaçay tapançanı çıxarıb oğlanı da başından vurdu. Nəsiman

dözməyib Qaçayın üstünə atılmaq istədi. Bunu başa düşən Qaçay onun da başını nişan alıb çaxmağı çəkdi. Patron qurtardığından Nəsiman sağ qaldı. O, dərhal Qaçayın üstünə atıldı. Nəsimanın güclü zərbəsi nəticəsində Qaçay özünü saxlayanmayıb yıxıldı. Başı daş divarın tininə dəydi, uyudu. Yerə düşmüş tapançasını götürən Nəsiman Qaçayın başına-başına döydü... O, zarımağa başladı. Nəsimansa onu çəkə-çəkə qızılların yanına gətirdi. Sonra da uşağa baxıb göz yaşları tökə-tökə dedi:

— Al, özün ye, əclaf. Gör, bu qızıllar neçə adamın həyatına son qoydu. Azyaşlı uşağın günahı nəydi, ay alçaq, onu öldürdün?

Nəsiman uşağı qucağına alıb hönkürə-hönkürə evdən çıxdı... ağladı. Oturub onun üz-gözünə sığal çəkdi. Gözlərini qapayıb yanağından öpdü. Bir müddət süst qaldı. Nə eləyəcəyini bilmədi. Özünə gələndə səhərin açıldığını duydu. Pəncərəni açıb həyətə baxdı. Göyün üzündə seyrək boz buludlar uçuşurdu. Günəş xəcalətindən gah buludların arasında qaçıb gizlənir, gah da qızarıb pörtmüş halda öz yerini dəyişirdi. Nəsiman uşağın cəsədini qızıl gətirdikləri "Cip" markalı maşına qoyub özü də sükan arxasına əyləşdi. Birbaşa prokurorluğa gəldi.

Qapıya çatmışdı ki, ucaboy, girdəsifət, qonur gözlü, otuz-otuz beş yaşlı prokuror köməkçisi onun qarşısını kəsdi. İçəri olmaz, prokuror təzədi, dünən gəlib, hələ halını-xislətini bilmirik, bizi danladarsan, — dedi. Nsiman inadından dönmədi:

— Yox... Təcili məlumat var.

— Nə məlumat, de, mən çatdırım.

— Ölüm işidi.

Oğlan içəri keçib tez də geri qayıtdı. Başıyla Nəsimana: — Keç, — işarəsi verdi. Nəsiman içəri keçib təntimiş halda gecəki basqın barədə danışırdı ki, prokuror onun sözünü ağzında qoydu:

— Qızıl mağazasının qarətindən xəbərdarıq. İstintaq qrupu





hadisə yerində işləyir.

Nəsiman söhbəti uzatmayıb bağ əhvalatına keçdi. O, danışdıqca prokuroru dəhşət bürüyürdü. Prokuror köməkçisini çağıraraq təcili ikinci təhqiqat qrupu yaratmasını tapşırdı. Maşındakı uşağın meyidini tibbi ekspert üçün xəstəxanaya göndərdi. Özü isə təhqiqat qrupu ilə birlikdə Nəsimanı da götürüb cinayət törədilən bağa getdi...

Qanun keşikçiləri hadisə yerində çaş-baş qaldılar. Nəsiman meyidləri bircə-bircə göstərir, basqındakı vəzifələrini deyirdi. Prokuror irəli yeriyib Qaçay Qılınclının al qana boyanan başını ayağıyla çevirdi və dərhal içini çəkdi: — Bu alçaq bizdən bir kurs yuxarı oxuyub, — dedi. Tələbələrin ondan zəhləsi gedərdi. O, sanki şərəşurluq üçün doğulmuşdu.

Prokuror başını qaldırdı, bir döşəmədəki qızıllara, bir də Nəsimana baxdı. Oğlan prokurorun gözlərində bir yaxınlıq, ötəri rəğbət hissi oxudu. Dərhal da o hiss yox oldu. Sonra o, təhqiqat qrupuna bildirdi:

— Qızıllar sizi çaşdırmasın. Onların sahibləri var. Əmanətə xəyanət eləyənin aqibəti Qaçay Qılınclınınkı kimi olar.

Sonra da üzünü Nəsimana tutaraq dedi:

— Bu qədər daş-qaşdan, cah-cəlaldan yalnız sən əl çəkə bilərdin. Qaldı Qaçay Qılınclının ölümünə, sən qatı cinayətkarın əlindən çoxlarını xilas eləmisən. Allah bilir, hələ bundan sonra neçə-neçə faciələr baş verəcək, qanlar töküləcək, göz yaşları axıdılacaqdı. Heyf, ölənlərin canından. Dediklərimdən elə nəticə çıxarma ki, sən təqsirsizsən. Gedən kimi açıb buraxılacaqsan. Əsla, yox. Sənə qarşı cinayət işi açılıb. Günahın varsa, cəzanı da çəkəcəksən. Təkcə onu bilirəm ki, cəmiyyət üçün tam itirilməmisən...

Təhqiqat başlandı. Əl izləri, detallar, silahlar əşyayi-dəlil kimi götürüldü. Gün günortadan əyiləndə qrup işini yekunlaşdırıb şəhərə qayıtdı.

* *
*

İbtidai istintaqa cəlb olunan Nəsiman müstəntiqin kabinetində Sehranəni görcək tutuldu. Onların baxışları bir andaca toqquşdu. Ona heç bir söz demədən oturub başını qolları arasına aldı. Dodaqları arasından “Sinayperçi qız” sözləri pıçıltıyla qopdu. Bu sözü yalnız Sehranə eşitdi. Qanadları sınmış quş kimi, Nəsimana baxdı və onun gözlərindən — Nigaran olma, bir də barəndə düşünmərəm — ifadəsi sezildi. İlkin izahat alınandan sonra Nəsiman özü də təsəvvürünə gətirmədən onu Kamalın saxlandığı kameraya göndərdilər. Əzab-əziyyətdən, böhtandan, iftiradan qurtulan Kamalla ağır cinayət üstə yenicə həbsə alınan Nəsiman köhnə tanışlar kimi qapı ağzında üzləşdilər. Hər ikisi qeyri-ixtiyarı içlərini çəkdilər. Utana-utana, çəkinə-çəkinə bir-birilərinin gözlərinin içinə baxdılar. Danışmağa söz tapanmadılar. Kamal başını yellədi:

— Əziz qardaş, Allah sənə də qapı açsın.

— Sağ ol, get, bir də bura ayaqların dəyməsin.

Ancaq bu, Kamalla Nəsimanın sonuncu görüşü olmadı.

***2008***





## OXUDUQLARINIZ

Cinayət və etiraf ............................................................3
Təxribat ......................................................................326

**Ağarəhim (Nüsrət oğlu Rəhimov)**
Bakı, BQU, 2014, 535 səh.

*Korrektorlar:*
**Kamal Sərvəroğlu**
**Esmira Rəhimova**

*Nəşriyyat direktoru:* **Qasım Abdurəhimov**
*Nəşriyyat redaktoru:* **Aləmzər Fətəliyeva**
*Rəssam:* **Xəlil Xəlilov**
*Yığıcı:* **Sevda Quliyeva**

*Yığılmağa verilib: 05.04.2014*
*Çapa imzalanıb: 08.05.2014*
*Həcmi: 33,1 ç.v. Format: 70x100*
*Ofset çap üsulu*
*Sayı 500.*

*Telefonlar:* **050-392-60-85; 012-594-69-86**

*Ağarəhim Rəhimov* *Əsərlər*

348

*Ağarəhim Rəhimov* *Əsərlər*

349

*Ağarəhim Rəhimov* *Əsərlər*



350

*Ağarəhim Rəhimov* *Əsərlər*


351

*Ağarəhim Rəhimov* *Əsərlər*



352

*Ağarəhim Rəhimov* *Əsərlər*

353

*Ağarəhim Rəhimov* *Əsərlər*

354

*Ağarəhim Rəhimov* *Əsərlər*

355

*Ağarəhim Rəhimov* *Əsərlər*

356

*Ağarəhim Rəhimov* *Əsərlər*

357

*Ağarəhim Rəhimov* *Əsərlər*

358

*Ağarəhim Rəhimov* *Əsərlər*

359

*Ağarəhim Rəhimov* *Əsərlər*

360

*Ağarəhim Rəhimov* *Əsərlər*

361

*Ağarəhim Rəhimov* *Əsərlər*

362

*Ağarəhim Rəhimov* *Əsərlər*


363